NURƏDDİN KAZIMOV

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

## VI CİLD

# İCTİMAİ-SİYASİ PROBLEMLƏRƏ PEDAQOJİ MÜDAXİLƏ

BAKI – 2008

Hazırkı «Seçilmiş əsərlər» «Milli pedaqogika məktəbi» idarə heyətinin qərarı ilə çap edilir.


**Elmi redaktor:** pedaqoji elmlər doktoru, professor
*Fərahim Balakişi oğlu Sadıqov*

**Rəyçi:** professor
*Fikrət Əhməd oğlu Seyidov*

**Tərtibçi:** pedaqoji elmlər namizədi, dosent
*Ayaz Nurəddin oğlu Kazımov*

# TƏRTİBÇİDƏN

Bu yaxınlarda həmkarlarından biri yarı zarafat, yarı ciddi müəllifə dedi:

-Nurəddin müəllim, Milli pedaqogikanın əsas yaradıcısı kimi sizə aid çap olunmuş biblioqrafik məlumatda yazılır ki, əsərlərinizin sayı 450-ni keçib; amma M.F.Axundov adına mərkəzi kitabxanada sizin qeydə alınmış əsərlərinizin sayı heç 10-nu keçmir. Bəs əsərlərinizi küll şəklində nə vaxt nəzərdən keçirmək olar?

Həmkarının iradı atamı xeyli düşündürdü. Nəhayət qərara gəldi ki, mən əsərləri toplayım, qruplaşdırım, sistemə salım və çapına nail olum. Bu vəzifə məndən əlavə vaxt, enerji və vəsait tələb etsə də geri çəkilmədim. Bir də ona görə ki, əvvəla, Nurəddin müəllimin əsərləri bir çox nəşriyyatlarda, qəzet və jurnallarda, habelə başqa ölkələrdə çap olunmuşdur. Onları əldə etmək ciddi çətinliklər yaradırdı; ikincisi, milli hisslərdən uzaq olan, «Milli» sözünə ağız büzən, elmi yaradıcılığa deyil, başqalarının fikirlərini özününküləşdirməyə meylli olan bəziləri bir daha yəqin etsinlər ki, Azərbaycan xalqının övladları da kifayət qədər yeni pedaqoji ideyalar formalaşdıra və xalqımızın istifadəsinə verə bilir.

Bu işdə bizi ruhlandıran həm də o oldu ki, Milli pedaqogika ruhunda yazılmış «Məktəb pedaqogikası» və «Ali məktəb pedaqogikası» respublikamızda təhsil nazirinin əmri ilə ilk dəfə dərsliklər kimi çap olunmuşdur. Təsadüfi deyil ki, Milli pedaqogika ideyaları əsasında ərsəyə gəlmiş «Məktəb pedaqogikası»nın müddəaları təhsil nazirinin xüsusi əmri ilə Bakı şəhərindəki 9№-li məktəbdə sınaqdan keçirilmiş və nəticəsi təhsil nazirliyində ətraflı müzakirə olunmuşdur. O da təsadüfi deyil ki, həmin müzakirənin yekunu olaraq təhsil naziri 2007-ci il avqustun 30-da 995№-li əmr vermişdir. Əmr belə adlanır: «N.Kazımovun «Məktəb pedaqogikası» dərsliyi müddəalarının pedaqoji prosesdə tətbiqi üzrə işlərin təşkili barədə». Bu əmrə əsasən dərsliyin müddəaları həm bütün təkmilləşmə və yenidənhazırlanma institutlarında,

həm də Sumqayıt və Bakı şəhərlərinin bəzi məktəblərində tətbiq edilmişdir.

Toplanan materiallar pedaqoji elmin və pedaqoji prosesin, demək olar ki, bütün sahələrini əhatə etdiyindən, onları, nisbi mənada, qruplaşdırmağa və sistemə salmağa çalışdıq. Nəticədə məlum oldu ki, bəzi yazılar indiki dövr üçün aktuallığını itirmişdir; xaricdə çap olunmuş yazıların bir neçəsini əldə etmək mümkün olmamışdır; bundan əlavə, çap olunmuş əsərlərdən bəziləri kitabxanaya verilməmişdir; bəzi başabəla oxucuların kitabxanada saxlanan jurnallardan materialı cırıb götürdükləri hallarla da rastlaşdıq. Yaxud, xüsusən 1990-cı ilin fevral, mart, aprel və may aylarında məlum hadisələrlə əlaqədar «Millət», «Müxalifət», «Vətən», «Kommunist», «Bilik», «Azərbaycan müəllimi», «Xalq qəzeti» kimi mətbu orqanlarında çap olunmuş «Kömək? Nəyin naminə?», «Nəyi və necə tənzimləməli», «Nə üçün susuruq?», «Razılaşmaq olmaz. Nə üçün?», «Qadağalar davam edir və yaxud xalqımızın səsi respublikadan kənarda niyə eşidilmir?», «Milli birlik yolunda maneələri kimlər yaradır?», «Bu da təxribatdır», «Siyasi şüur tələbələrə nə üçün lazımdır?», «Soy adımız və Milli mənsubiyyətimiz», «Azərbaycan diplomatiyası necədir, necə görmək istərdim», «Открытое письмо послу Российской Федерации в Азербайджане господину В.Шонии» kimi bir çox siyasi məzmunlu atamın yazılarını kitabxanalarda tapmaq mümkün olmadı. Bunlardan əlavə, III siniflər üçün eksperimental «Ana dili» dərsliyi (Bakı, Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun nəşriyyatı, 1959), 1963-cü ildən 1971-ci ilədək Y.Şirvanla, 1988-ci ilədək müstəqil çap olunan «Ana dili» dərsliyi «Maarif» nəşriyyatı tərəfindən 1978-ci ildə çap olunmuş «Ulyanovlar ailəsində tərbiyə məsələləri» və 1996-cı ildə nəşr edilmiş «Pedaqogika» dərsliyi, 2001-ci ildə «Ağrıdağ» nəşriyyatı tərəfindən çap olunmuş «Milli pedaqogika yollarında» adlı monoqrafiya hazırkı «Əsərlər»ə daxil edilməmişdir. Bunlardan əlavə, Nurəddin müəllimin bilavasitə rəhbərliyi, redaktəsi və iştirakı ilə ərsəyə gələrək işıq üzü görmüş bir sıra əsərlər, o cümlədən

«Azərbaycan Milli izahlı ensiklopedik pedaqoji lüğət» (Bakı, OKA Ofset nəşriyyatı, 2005), «Pedaqogika kafedrası üzrə təhsil proqramı» (Kurrikulum) (ADU nəşriyyatı, Bakı, 2007) bu «Əsərlər»dən kənarda qalmışdır. «Çaşıoğlu» nəşriyyatı tərəfindən 2005-ci ildə albom formasında çap olunmuş «Məktəb pedaqogikası sxemlərdə» adlı maraqlı əsəri də cildlərə daxil etmək mümkün olmamışdır.

Deyilənlər nəzərə alındığından, toplanmış materialları cildlər halında «Seçilmiş əsərlər» adlandırmalı olduq.

Ayrı-ayrı toplu halında çap olunan əsərlərin müəyyən dərəcədə Milli pedaqogika ideyaları ilə əlaqəsi vardır. Bunu nəzərə almağı oxuculardan xahiş etməyi özümüzə borc bildik.

Bununla yanaşı, toplularda cəmləşən materiallar məzmunca bəzi cəhətlərinə görə fərqləndiyindən, həmin fərqi cildlərin adlarında nəzərə almağa çalışmışıq.

Oxucuların işini asanlaşdırmaq üçün həm cildlər arasında, həm də hər cildin tərkibindəki əsərlər arasında tarix və mövzu baxımından ardıcıllığa əməl etməyə səy göstərmişik.

Hesab edirik ki, cildlərin burada adlandırılması onların hərəsində cəmləşmiş əsərlərin başlıca cəhətlərinə dair maraqlananlarda ilkin təəssüratların yaranmasına yardımçı ola bilər.

| | |
|---|---|
| **I cild:** | *Müqayisə nəzəriyyəsinin formalaşması.* |
| **II cild:** | *Pedaqoji prosesdə müqayisədən istifadənin zəruriliyi.* |
| **III cild:** | *3-cü siniflərdə «Ana dili» dərsliyinin məzmunu və tədrisinə dair (Şəkilsiz çap edilir).* |
| **IV cild:** | *4-cü siniflər üçün «Oxu» dərsliklərinin məzmunu (Şəkilsiz çap edilir).* |
| **V cild:** | *Milli pedaqogikanın həyatdan şüurlara, oradan auditoriyalara və məktəblərə süzülməsi.* |
| **VI cild:** | *İctimai-siyasi problemlərə pedaqoji müdaxilə.* |
| **VII cild:** | *Milli pedaqogikada tərbiyə məsələləri.* |
| **VIII cild:** | *Psixoloji inkişaf pedaqoji prosesin tərkib hissəsi kimi.* |
| **IX cild:** | *Pedaqoji fikir tarixindən səhifələr.* |

**X cild:** *Elmi-pedaqoji məsələlər Milli pedaqogika işığında.*
**XI cild:** *Pedaqoji prosesin bəzi ümumi məsələləri.*
**XII cild:** *Milli pedaqogikadan qidalanan orta təhsil pedaqogikasının məzmunu.*
**XIII cild:** *Milli pedaqogikadan qidalanan ali təhsil pedaqogikasının məzmunu.*
**XIV cild:** *Nurəddin Kazımov haqqında biblioqrafik məlumat.*

Haqqında sözü gedən cildlərin daha kamil çıxmasında öz köməkliyini əsirgəməyən universitetimizin əməkdaşlarına, xüsusən professor Fərahim Sadıqova (elmi redaktor), professor Fikrət Seyidova (rəyçi), dosent Ayaz Kazımova (tərtibçi), Məhbubə Ələkbərovaya, Gülnar Abdullayevaya, Tahirə Bağırovaya, Qəmər Məlikovaya, Sevda Xaspoladovaya və Səidə Qəmbərovaya (korrektorlar), Sədaqət Yusifovaya (texniki redaktor) və kompüterdə cildləri yığan əməkdaşlara müəllif öz minnətdarlığını bildirir.

# I. PARTİYA VƏ DÖVLƏT SƏNƏDLƏRİNDƏKİ FİKİRLƏRƏ PEDAQOJİ MÜNASİBƏT

## 1. TƏHSİL SİSTEMİNƏ AİD YENİ SƏNƏD

SSR İttifaqının və müttəfiq respublikaların xalq maarifi qanunvericiliyinin Əsasları müzakirə üçün çap olunmuşdur. Təhsil sahəsində bu çox mühüm bir sənəddir. Məlum olduğu kimi, Böyük Oktyabr Sosialist inqilabının qələbəsindən sonra təhsilə aid bir sıra sənədlər qəbul olunmuşdur. O cümlədən 1918-ci ildə «Vahid əmək məktəbinin əsas prinsipləri» elan edilmişdir. Həmin sənəddə yeni təhsilin – sovet təhsili sisteminin əsasları ilk dəfə olaraq öz şərhini tapmışdır.

Təqribən 40 il keçəndən sonra, 1958-ci ilin dekabrında bütün tədris müəssisələrinin fəaliyyətini qanunvericilik yolu ilə möhkəmləndirən qanun qəbul edilmişdir. Həmin qanunun, yəni «Məktəbin həyatla əlaqəsini daha da möhkəmləndirmək və SSRİ də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında» SSRİ qanununun qəbul edildiyi dövrdən bəri təhsil sahəsində irəliyə doğru bir sıra mühüm addımlar atılmışdır.

Yarım əsrdən artıq bir dövrdə sovet xalqının təhsil sahəsində keçdiyi mənalı yol hazırkı Əsaslarda Sov.İKP XXIV qurultayının qərarları və SSRİ Konstitusiyası əsasında ümumiləşdirilmişdir. Əsaslar həm də təhsil orqanlarının və təlim-tərbiyə müəssisələrinin gələcək fəaliyyətlərinin başlıca istiqamətlərini qanun şəklinə salmağı nəzərdə tutur.

Sovet təhsil tarixində elə bir sənəd olmamışdır ki, o maarif məsələlərini Əsaslar qədər hərtərəfli əhatə etsin. Əsaslar xalq təhsili sahəsində SSR İttifaqının, habelə müttəfiq respublikaların səlahiyyətini müəyyənləşdirir. Həmin sənəd tədris müəssisələri ilə yanaşı bütün tərbiyə müəssisələrinin, məktəbdən kənar uşaq müəssisələrinin iş xüsusiyyətlərini qanuniləşdirməyi nəzərdə tutur.

İlk dəfədir ki, şagirdlərin və tələbələrin, uşaqların tərbiyəsi sahəsində valideynlərin və onları əvəz edən

şəxslərin hüquq və vəzifələrini, habelə xalq təhsili sistemi işçilərinin hüquq və vəzifələrini vahid dövlət sənədində rəsmiləşdirmək nəzərdə tutulur.

Pedaqoji kadrların ixtisasını artırmaq və xalq təsərrüfatı mütəxəssislərinin ixtisasını artırmaq məsələlərinin Əsaslara daxil edilməsi faktı bir daha sübut edir ki, quruculuq işlərinin müasir mərhələsində təlim-tərbiyə müəssisələrinin rolu daha da artmışdır. Əsaslara görə təhsil sisteminə aid olan bəzi təlim-tərbiyə müəssisələri xalq təsərrüfatının müxtəlif sahələri üçün nəinki ixtisaslı kadr hazırlamaqla, həm də bu kadrların ixtisasını artırmaqla da məşğul olacaqdır.

Təlim-tərbiyə müəssisələrinin tədris-maddi bazasına aid Əsaslarda xüsusi göstərişin olması həmin müəssisələrdə təlim-tərbiyə işləri səviyyəsinin daha da yüksəldilməsinə kömək edəcəkdir.

Ümumi icbari səkkizillik təhsil haqqında məktəbin kilsə və məsciddən ayrılması haqqında qanunvericiliyin pozulmasına və xalq təhsili sahəsində qanunvericiliyin başqa şəkildə pozulmasına yol verən şəxslərin dövlət qarşısında məsuliyyət daşıdığının Əsaslara daxil edilməsi, şübhəsiz, ictimaiyyət qarşısında tədim-tərbiyə müəssisələrinin nüfuzunun qat-qat artmasına səbəb olacaqdır.

SSRİ ərazisində yaşayan əcnəbi vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Sovet İttifaqında sovet vətəndaşları ilə bərabər təhsil almaq hüququ olduğuna dair Əsaslardakı xüsusi maddə sovet təhsil sisteminin humanist xarakter daşıdığına əlavə nümunədir.

Əsaslar layihə şəklində çap olunmuşdur. Yeri gəlmişkən layihənin daha da təkmilləşdirilməsi üçün bəzi arzu və təkliflərimizi söyləmək istəyirik. Təkliflərdən bəziləri tərcümə ilə əlaqədardır.

Məlum olduğu kimi, «всеобщее среднее образование» ifadəsi indiyədək Azərbaycan ədəbiyyatında «ümumi orta təhsil» kimi işlədilmişdir. Bu həm XXIV qurultaya hesabat məruzəsindəki ifadənin, həm də 1972-ci il iyun tarixli qərarın Azərbaycan dilinə tərcüməsinə aiddir. Hər iki halda və bunlara uyğun olaraq bütün qalan ədəbiyyatımızda

həmin ifadə yanlış olaraq «ümumi orta təhsil» kimi tərcümə olunmuşdur. Halbuki, partiyanın nəzərdə tutduğu «всеобщее среднее образование» ümumi orta təhsil deyil, hamılıqla orta təhsil deməkdir. Bu iki ifadə arasında prinsipial fərq vardır. Məsələn, orta ixtisas təhsili ümumi orta təhsil anlayışına daxil deyildir. Bütün orta ümumtəhsil məktəb tipləri, məsələn, orta ümumtəhsil məktəbləri, orta ümumtəhsil internat məktəbləri, orta ümumtəhsil günü uzadılmış məktəblər və s. ümumi orta təhsilə viddir. Orta ixtisas təhsili isə orta ixtisas verən bütün texnikumları və orta ixtisas verən digər məktəbləri əhatə edir. Orta ümumtəhsil məktəbləri ilə orta ixtisas məktəblərini bir-birinə yaxın edən cəhətlər də vardır. Bu cəhətlər ondan ibarətdir ki, onların hər ikisi orta təhsil verir.

Sov. İKP XXIV qurultayı və qurultay əsasında 1972-ci il 20 iyun tarixli məlum qərar «всеобщее среднее образование» haqqında məsələ qaldıranda ümumi orta təhsilə deyil, hamılıqla orta təhsilə keçidi nəzərdə tutmuşdur. Bu o demək deyildir ki, hazırda bütün gənclər ümumi orta təhsilə keçməlidirlər. O deməkdir ki, bütün gənclər orta təhsil almalıdırlar. Onların böyük əksəriyyəti bu orta təhsili ümumtəhsil məktəblərində, digər qismi orta təhsili texniki peşə məktəblərində, üçüncü qismi isə orta təhsili orta ixtisas məktəblərində almalı olacaqdır. Deməli, partiyanın göstərişini biz ümumi orta təhsilə keçid kimi yazsaq təhsil sahəsində partiyanın siyasətini yanlış başa düşdüyümüzü büruzə vermiş olarıq. Halbuki partiya kommunizm quruculuğunun hazırkı mərhələsində ümumi orta təhsilə deyil, hamılıqla orta təhsilə keçməyi və bu işi indiki beşillikdə başa çatdırmağı qarşımıza yeni vəzifə kimi qoymuşdur.

«Kommunist» qəzeti Əsasların çapında «всеобщее среднее образование» ifadəsini ümumi orta təhsil deyil, «hamılıqla orta təhsil» ifadəsi ilə əvəz edərək həmin ciddi təhrifi aradan qaldırmışdır.

Sov.İKP XXIV qurultayı materiallarının tərcüməsində, habelə orta təhsilə keçidlə, onu başa çatdırmaqla əlaqədar olan qərarların adlarında müvafiq dəqiqləşdirmələr aparıl-

masını vacib hesab edirik. Həmin sənədlərdə ümumi orta təhsilə keçmək və onu başa çatdırmaq ifadəsi hamılıqla orta təhsilə keçmək və onu başa çatdırmaq ifadəsi ilə əvəz olunmalıdır.

Biz arzu edərdik ki, Əsasların üzərində gələcəkdə işlənilərkən uzun illərdən bəri davam edən və hamının şüuruna hakim olan başqa bir dolaşıqlıq da nəzərdən keçirilsin. Biz «система народного образования» məfhumunun Azərbaycan dilində müqabilini nəzərdə tuturuq. İndiyə kimi, «народное образование» Azərbaycan pedaqoji ədəbiyyatında xalq maarifi kimi işlədilmişdir. Bu düzgün deyildir.

Məlum olduğu kimi, rus dilində «образование» və «просвещение» məfhumlarının hər ikisi işlənir və hərəsi bir mənalı ifadə edir. Məsələn, buna uyğun olaraq Ali və Orta İxtisas Təhsili Nazirliyi, habelə Texniki Peşə Təhsili Komitəsi ilə yanaşı, Maarif Nazirliyi də fəaliyyət göstərir. Lakin Azərbaycan pedaqoji ədəbiyyatında «образование» və «народное образование» ifadələri adətən səhv olaraq maarif və xalq maarifi kimi tərcümə olunduğundan məsələnin mahiyyəti təhrif edilir. Təəssüf ki, Əsasların layihəsinin Azərbaycan dilində çapı həmin qüsuru davam etdirmişdir. Layihənin «Известия» da çapında söhbət xalq maarifindən deyil, xalq təhsilindən, xalq maarifi sistemindən deyil, xalq təhsili sistemindən gedir. Maarif və təhsil isə eyni şey, eyni hadisə deyildir. əsasların layihəsindən göründüyü kimi, həm Maarif Nazirliyinin, həm Ali və Orta İxtisas Təhsili Nazirliyinin və Texniki Peşə Təhsili Komitəsinin əhatə etdikləri təlim-tərbiyə müəssisələri, həm də başqa nazirlik və idarələrin ixtiyarında olan bir sıra təlim-tərbiyə müəssisələri maarif sisteminə (система просвещения) deyil, təhsil sisteminə (система образования) aid edilir. Təhsil müəssisələrinin, məsələn, ümumi orta məktəbin, orta və ya ali ixtisas məktəbinin, texniki peşə məktəbinin əsas funksiyası gənc nəsli maarifləndirməkdən ibarət deyil, ona təhsil verməkdən ibarətdir. Buna görə də istərdik ki, Əsasların layihəsinə yenidən baxarkən orada olan maarif və maarif sistemi ifadələri

təhsil və təhsil sistemi ifadələri ilə əvəz edilsin və beləliklə, uzun illərdən bəri davam edən qüsur aradan qaldırılsın.

Biz təklif edərdik ki, təhsilin son mərhələsi kimi aspirantura təhsili də SSRİ-də xalq təhsili sisteminə daxil edilsin və bu barədə Əsaslara xüsusi maddə əlavə olunsun, onun yeri, məqsəd və vəzifələri, aspirantların hüquq və vəzifələri də nəzərdə tutulsun. Çünki təlim-tərbiyə müəssisələrinə xas olan başlıca əlamətlər: tədris planı və tədris proqramları, sistemli məşqələlər, sistemli təlim-tərbiyə tədbirləri, təqaüd və s. cəhətlər aspiranturaya da aiddir. Aspirantura adi elmi-pedaqoji ixtisası artırma kursu deyildir.

Evdə məktəb tipi haqqında Əsaslara xüsusi qeyd edilməsi də vacibdir. Evdə və ya xəstəxanada uzun müddət xəstə yatan və məktəbə getməyə imkanı olmayan uşaqlara xüsusi məktəbin-evdə məktəbin müəllimləri dərs keçir. Ehtiyac olduqda bu cür məktəbin yaradılmasına dair Əsaslarda bəndin verilməsi sovet təhsil sisteminin tam humanist xarakterdə olduğunu bir daha sübut edir.

Təhsil sisteminə aid yeni qanunvericilik sənədi yalnız sosializmin qalib gəldiyi, marksizm-leninizm ideologiyasının bərqərar olduğu, təhsilin elm və mədəniyyətin inkişafı üçün siyasi, iqtisadi və ictimai şəraitin yaratdığı bir ölkədə – SSRİ kimi ölkədə müzakirə və qəbul oluna bilər.

Həmin dövlət sənədi hamılıqla orta təhsilin müvəffəqiyyətlə başa çatdırılmasına, ümumi, texniki peşə və ixtisas təhsilinin daha da təkmilləşdirilməsinə kömək edəcəkdir. Bu isə öz növbəsində sovet xalqının mədəniyyətinin daha da artmasına, kommunist dünyagörüşünün formalaşmasına, əmək məhsuldarlığının daha da yüksəldilməsinə müsbət təsir göstərəcəkdir.

Biz əminik ki, yeni qanunvericilik sənədi təlim-tərbiyə müəssisələrində çalışan müəllimlərin və tərbiyəçilərin öz sənətlərinə hörmət hissinin, ictimaiyyət qarşısında məsuliyyət hissinin daha da yüksəlməsinə səbəb olacaqdır.

**(«Kommunist» qəzeti, 1973, 17 aprel)**

## 2. XALQ MAARİFİNİN İNKİŞAFI ÜÇÜN

Sov.İKP MK-nın Əsas istiqamətlər layihəsində ölkəmizin mütəxəssislərə və ixtisaslı fəhlələrə tələbatını daha dolğun ödəmək üçün xalq maarifi sisteminin daha da inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar üç məsələyə toxunmaq istəyirəm.

Birincisi, layihədə yazılmışdır ki, uşaqların 6 yaşından ümumtəhsil məktəblərinin hazırlıq siniflərində oxumasına tədricən keçmək üçün zəmin yaradılsın.

Bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycan SSR-də də uşaqlar birinci sinfə üç kanalla müxtəlif səviyyədə gəlirlər: bağçadan, hazırlıq siniflərindən və ailədən. Birinci sinfə müxtəlif hazırlıq səviyyəsində gələn uşaqlarla müəllimin apardığı iş xeyli çətinləşir. Bir çox hallarda bu çətinlik sonrakı siniflərdə də özünü göstərir.

Bütün məktəblərdə hazırlıq siniflərinin təşkili uşaqların böyük əksəriyyətinin eyni hazırlıqla birinci sinfə gəlməsini təmin edəcəkdir. Bu, əlbəttə, çox yaxşıdır. Lakin, bizcə, belə bir şərait də birinci sinfə hazırlığın vahidliyini tam təmin edə bilməyəcəkdir. Çünki, bundan sonra uşaqlar birinci sinfə hazırlıq sinfindən və bağçadan gəlməli olacaqlar. Əlavə tədbirlər görülmədən uşaqların hazırlıq səviyyələrindəki fərqi tamamilə aradan qaldırmaq mümkün deyildir. həmin fərqi minimuma endirmək üçün məktəbdəki hazırlıq siniflərinin proqramı ilə bağçadakı hazırlıq qruplarının proqramını nəzərdən keçirmək və onları bir-birinə yaxınlaşdırmaq lazımdır. Buna görə təklif edirəm ki, layihəyə «Məktəbin hazırlıq siniflərində və bağçanın hazırlıq qruplarında uşaqların birinci sinfə eyni səviyyədə hazırlanması təmin edilsin» fikri əlavə olunsun.

İkinci məsələ qiyabi təhsilə aiddir. Layihədə göstərilir ki, axşam təhsili və qiyabi təhsil inkişaf etdirilsin və yaxşılaşdırılsın. Belə bir tələb, əlbəttə, ölkəmizin iqtisadi və sosial inkişafının daha yüksək səviyyəyə qalxmasına kömək edəcəkdir. Axşam və qiyabi təhsili inkişaf etdirməyə, onu daha da təkmilləşdirməyə hazırda çox böyük ehtiyac duyulur. Bunu

biz V.İ.Lenin adına APİ-nin nümunəsində daha aydın hiss edirik. İnstitutun, demək olar ki, bütün fakültələri üzrə qiyabi şöbəsi və 3,852 qiyabiçi tələbəsi vardır. Respublikamızın digər pedaqoji institutlarında da qiyabi təhsil alanlar az deyildir. Pedaqoji ixtisaslar üzrə qiyabi oxuyanların institutlar arasında parçalanması həm qiyabiçilərin, müəllimlərin işini çətinləşdirir, həm də tədrisin ahəngdarlığını pozur. Buna görə də müttəfiq respublikalarda ali qiyabi təhsili sahələr üzrə xüsusi institutlarda cəmləşdirməyə böyük ehtiyac hiss olunur. Belə bir ehtiyacın ödənilməsi qiyabi təhsilin daha da inkişaf etdirilməsinə kömək edərdi. Bunu nəzərə alaraq qiyabi təhsillə əlaqədar layihəyə belə bir fikrin əlavə olunmasını istərdim. «Respublikalarda spesifik şəraiti nəzərə almaqla ali qiyabi təhsilin sahələr üzrə müstəqil institutlarda cəmləşdirilməsi məqsədəuyğun hesab edilsin». Üçüncü məsələ təlim zamanı gənc nəslin inkişafı ilə əlaqədardır. Sov.İKP XXV qurultayı materiallarına uyğun olaraq elmi və texniki məlumatların sürətli axınından müstəqil baş çıxarmaq bacarığının gənc nəslə aşılanması sahəsində xeyli faydalı iş görülmüşdür. Bu istiqamətdə on birinci beşillikdə də ciddi fəaliyyət göstərilməlidir. Təhsil sisteminin bütün vəsilələrində gənc nəslə müstəqil düşünmək, həyat hadisələrindən müstəqil baş açmaq, fəaliyyətin müvəffəqiyyəti üçün zəruri olan bilikləri müstəqil əldə etmək bacarığı aşılanmalıdır. Maarifdə, təlim-tərbiyə işində son dərəcə vacib olan bu cəhətin layihədə öz əksini tapmasını təklif edirəm: «Elmi və texniki məlumatların süərətlə artdığı müasir dövrdə fəaliyyətin səmərəliyi üçün zəruri olan bilikləri müstəqil mənimsəmək bacarığının gənc nəslə aşılanması maarif sisteminin bütün vəsilələrində zəruri hesab edilsin».

**(«Bakı» 1981, 19 fevral)**

## 3. SOV.İKP XXVI QURULTAYI VƏ PEDAQOJİ ELMLƏRİN VƏZİFƏLƏRİ

Sov.İKP XXVI qurultayı ölkəmizin inkişafında xüsusi mərhələ olmuşdur. Qurultay onuncu beşillikdə ölkəmizin

iqtisadi və sosial inkişafına elmi əsaslarda yekun vurmuş və on birinci beşillikdə xalq təsərrüfatını, elm və mədəniyyəti daha da inkişaf etdirməyin əzəmətli proqramını vermişdir.

Onuncu beşilliyin nəticələri nəyi göstərmişdir? Onuncu beşilliyin nəticələri yenilməz şəkildə isbat etmişdir ki, Sov.İKP XXV qurultayı ölkəmizdə ictimai inkişafımızın başlıca meyl və istiqamətlərini tamamilə düzgün müəyyənləşdirmişdir. Sov.İKP MK-nin Baş katibi L.İ.Brejnev yoldaş Sov.İKP XXVI qurultayına hesabat məruzəsində onuncu beşilliyin yekunlarını səciyyələndirərkən demişdir ki, partiyanın Lenin baş xətti inamla həyata keçirilir; ölkənin milli sərvəti xeyli çoxalmışdır; onun istehsal və elmi-texniki potensialı artmışdır. Sovet dövlətinin müdafiə qabiliyyəti möhkəmlənmişdir; xalqımızın rifahının və mədəniyyətinin səviyyəsi yüksəlmişdir.

Onuncu və on birinci beşilliklər arasında əlaqə varmı? Bəli, vardır! Sov.İKP XXVI qurultayı on birinci beşilliyin əzəmətli vəzifələrinin onuncu beşilliyin tarixi nailiyyətləri zəminində qurmuşdur. Bu qanunauyğunluq pedaqoji elmlərin inkişafında da özünü göstərir. 1975-1980-ci illərdə respublikamızda pedaqoji məsələlər üzrə tədqiqat işləri SovİKP XXV və Azərbaycan KP XXIX qurultaylarının göstərişləri əsasında aparılmışdır. Pedaqoq və metodistlərimiz həmçinin Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Ali məktəblərdə elmi-tədqiqat işinin səmərəliliyini daha da artırmaq haqqında» 1978-ci il 6 aprel tarixli qərarını da əsas götürmüşlər.

Hazırda bütün Azərbaycan xalqı kimi, pedaqoji elmlərin nümayəndələri də Sov.İKP XXVI qurultayının, Sov.İKP plenumlarının qərarlarını, SovİKP MK-nın Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri L.İ.Brejnev yoldaşın məruzə və nitqlərindəki müddəaları və göstərişləri, habelə Azərbaycan KP XXX qurultayı və Bakı şəhər partiya təşkilatının 44-cü konfransının qərarlarını həyata keçirməklə məşğuldur.

Gənc nəslin təlim-tərbiyəsi partiya və hökumətimizin daim diqqət mərkəzində olmuşdur. Azərbaycan KP XXX

qurultayında bu cəhət özünü daha qabarıq şəkildə göstərmişdir.

Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaş qurultaya hesabat məruzəsində ali təhsil sahəsindəki müvəffəqiyyətlərlə yanaşı nöqsanları da göstərərək demişdir: «Elmin, texnikanın, mədəniyyətin ən yeni nailiyyətləri tədris prosesində heç də həmişə öz əksini tapmır.

Ali məktəb məzunlarının bir qisminin peşə hazırlığı zəifdir, onların ictimai fənlərdən dərin biliyi yoxdur».

Azərbaycan KP XXX qurultayının bu tənqidi qeydi ilə əlaqədar ali məktəblərdə həmin nöqsanların aradan qaldırılmasına kömək edən tədqiqat işləri də aparılmalıdır. Məsələn, ayrı-ayrı kursların (pedaqogikanın, psixologiyanın, fizikanın, kimyanın və s.) tədrisində elmin və mədəniyyətin nailiyyətlərindən, texnika yeniliklərindən istifadə olunması kimi mövzuları tədqiq etmək faydalı olardı.

Sov.İKP XXVI qurultayının təsdiq etdiyi «1981-1985-ci illərdə və 1990-cı ilədək olan dövrdə SSRİ-nin iqtisadi və sosial inkişafının Əsas istiqamətləri» və «Sov.İKP XXVI qurultayına Sov.İKP MK-nin hesabatı və partiyanın daxili və xarici siyasət sahəsindəki növbəti vəzifələri» haqqında LİBrejnev yoldaşın məruzəsi iqtisadi və sosial inkişafımızın bütün sahələri qarşısında konkret vəzifələr qoymuşdur.

Elm sahəsində Sov.İKP XXVI qurultayının qarşıya qoyduğu vəzifələr nədən ibarətdir? Sov.İKP XXVI qurultayının materiallarında elmin sonrakı inkişafının başlıca istiqamətləri, əsas vəzifələri müəyyən edilmişdir. Buna uyğun olaraq hər bir elmi –tədqiqat müəssisəsi, hər bir ali məktəb öz tədqiqat problemlərini və mövzularını yenidən tənqidi surətdə nəzərdən keçirməli və bu ümumi istiqamətlər əsasında özünün vəzifələrini dəqiqləşdirməlidir. Qurultayın təsdiq etdiyi Əsas istiqamətlərdə bu cəhətdən konkret göstərişlər vardır. Orada məsələn, yazılır: «Elmi-texniki inqilabın tələblərilə müvafiq surətdə tədqiqatların və araşdırmaların istiqaməti, elmi idarələrin təşkilat strukturu vaxtında müəyyən edilsin və dəyişdirilsin». Qurultayın bu

göstərişinə uyğun olaraq hər bir kafedra beşillik tədqiqat mövzularını yenidən nəzərdən keçirməli və bu cür suallara cavab hazırlanmalıdır: 1981-1985-ci illər üçün kafedranın müəyyənləşdirmiş olduğu mövzular nə dərəcədə Sov.İKP XXVI qurultayının tələblərinə cavab verir? hansı mövzuları olduğu kimi saxlamaq, hansıları dəqiqləşdirmək, hansı mövzuları atmaq, hansı yeni mövzular götürmək olar?

Sov.İKP XXVI qurultayı mövcud tədqiqat mövzularını qiymətləndirməyin, yeni tədqiqat mövzularını təyin etməyin prinsiplərini müəyyənləşdirmişdirmi? Bəli, müəyyən etmişdir! Mövzu xatirinə mövzu götürmək olmaz: araşdırılmalı, tədqiq olunmalı mövzular elmi-texniei tərəqqiyə, xalq təsərrüfatının inkişafına xidmət etməlidir. Bu cəhətdən Əsas istiqamətlərdə tələb olunur: «Elmi-texniki tərəqqinin kompleks proqramının, çox mühüm elmi-texniki problemlərin həllinə dair məqsədli proqramların hazırlanması və həyata keçirilməsi təmin edilsin».

SSRİ-də elm xatirinə elm inkişaf etdirilmir. Ölkəmizdə sosializm quruculuğunun bütün tarixi göstərir ki, Sovet hakimiyyəti şəraitində elm xalqa mənsub olub, onun maddi və mənəvi ehtiyaclarının ödənilməsinə xidmət edir, kommunizm quruculuğuna tabe etdirilir. Sovet elmini səciyyələndirən bu başlıca xüsusiyyət birinci beşillikdə də qabarıq şəkildə özünü göstərəcəkdir. Elm sahəsində partiyamızın siyasəti Əsas istiqamətlərdə aydın ifadə olunmuşdur: «On birinci beşillikdə elm və texnikanın inkişafı sovet cəmiyyətinin iqtisadi və sosial vəzifələrinin yerinə yetirilməsinə, iqtisadiyyatın intensiv inkişaf yoluna keçirilməsinin sürətləndirilməsinə, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsinə getdikcə daha artıq dərəcədə tabe edilməlidir».

Partiyamızın bu tələbi bütün pedaqogika və metodika kafedraları, elmi ocaqlar tərəfindən nəzərə alınmalıdır. Hər bir kafedra, hər bir elmi müəssisə 1981-1985-ci illərə aid tədqiqat mövzularını nəzərdən keçirərkən belə bir suala cavab verməlidir: kafedranın, elmi müəssisənin elmi – tədqiqat mövzuları cəmiyyətimizin iqtisadi və ya sosial

inkişafı vəzifələri ilə nə dərəcədə bağlıdır? Bu vəzifələrin yerinə yetirilməsinə həmin mövzuların tədqiqi nə dərəcədə kömək edir? Xalq təsərrüfatının, maarif və mədəniyyətin inkişafı ilə səsləşməyən mövzuları kafedraların tədqiqat planlarında saxlamağa heç cür bəraət qazandırmaq olmaz.

Qurultayın materiallarında elmin sahələrinə aid konkret söhbət getmişdirmi? Sevindirici haldır ki, Sov.İKP XXVI qurultayının materiallarında elmlərin ayrı-ayrı sahələri üçün, məsələn, ictimai elmlər, təbiət və texnika elmlərinin inkişafı üçün on birinci beşillikdə ən zəruri hesab edilən istiqamətlər də dəqiqləşdirilmişdir. Buna görə də həmin sahələrdə fəaliyyət göstərən alimlərimizin işi xeyli asanlaşmışdır.

Sov.İKP XXVI qurultayı ictimai elmlər üzrə hansı istiqamətlərdə tədqiqatlar ön plana çəkmişdir? Birinci növbədə Sov.İKP-nin inqilabi dəyişdirici fəaliyyət təcrübəsini, beynəlxalq kommunist və fəhlə hərəkatı təcrübəsini, dialektik və tarixi materializm, elmi-kommunizm və siyasi iqtisadi problemlərini.

Partiyamız inkişaf etmiş sosializmin, kommunizmin maddi-texniki bazasını yaratmağın və istehsal münasibətlərini təkmilləşdirməyin, ictimai istehsalın səmərəliliyini yüksəltməyin nəzəri məsələlərinin, elmi-texniki tərəqqinin və əməyin sosial iqtisadi problemlərinin, xalq təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi, sahə və rayonların iqtisadiyyatı, aqrar nəzəriyyəsi, demoqrafiya problemlərinin tədqiqini vacib hesab etmişdir.

Sov.İKP XXVI qurultayı SSRİ-nin ictimai-siyasi quruluşunun tədqiq olunmalı məsələlərini də ifadə etmişdir. Yetkin sosializmin sosial strukturu, siyasi sisteminin inkişafı, ictimai həyatımızın hüquqi əsaslarının möhkəmləndirilməsi bu cür məsələlərdəndir. Dünya sosializm sisteminin inkişafı məsələlərinin tədqiqinə aid Sov.İKP XXVI qurultayının materiallarında müvafiq göstərişlər vardır. Əsas istiqamətlərdə məsləhət görülür ki, məsələn, dünya sosializm sisteminin inkişaf

qanunauyğunluqları, sosialist iqtisadi inteqrasiyası və xarici iqtisadi əlaqələr problemləri tədqiq edilsin.

Kapitalist ölkələrinin və inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatı və siyasəti məsələlərinin öyrənilməsi də on birinci beşillikdə böyük aktuallıq kəsb edir.

Antikommunizmin, ictimai inkişaf haqqında burjua konsepsiyalarının tənqidi, marksizm-leninizmi saxtalaşdıranların ifşa edilməsi elmi-tədqiqat işlərinin əsas istiqamətlərindən biri hesab edilmişdir.

İctimai elmlər kafedraları, elmi müəssisələr 1981-1985-ci illərə aid mövzularını nəzərdən keçirən zaman Sov.İKP XXVI qurultayında irəli sürülmüş həmin istiqamətlərdən çıxış etmək lazımdır.

Sov.İKP XXVI qurultayı materiallarından təbiət və texnika elmləri sahəsində çalışan alimlər də bəhrələnə bilirlərmi? Bəli. On birinci beşillikdə, məsələn riyazi nəzəriyyənin inkişaf etdirilməsi, tətbiqi məqsədi ilə bu nəzəriyyədən istifadə olunması səmərəliliyinin yüksəldilməsi nəzərdə tutulmuşdur; yaxud, fizika sahəsində elementar hissəciklər və atom nüvəsi fizikasının, bərk cism fizikasının, optikanın, kvant elektronikasının və radiofizikanın inkişafı ön plana çəkilir.

Nüvə energetikasının inkişafı və istilik-nüvə energetikası əsaslarının yaradılması, enerjinin çevrilməsi və verilməsi metodlarının təkmilləşdirilməsi texnika sahəsində daha aktual hesab edilmişdir.

Sov.İKP XXVI qurultayı biologiyanın başlıca tədqiqat istiqamətlərini də müəyyən etmişdir. İnsanın həyat fəaliyyətinin fizioloji, biokimyəvi, genetik və immunoloji prosesləri mexanizminin öyrənilməsi bu cür istiqamətlərdəndir.

Fizioloji cəhətdən yeni aktiv maddələrin, o cümlədən pestisidlərin yaradılması da vacib kimyəvi tədqiqat istiqaməti hesab edilmişdir.

Geoloqları, coğrafiyaçıları və digər elm sahiblərini də yeni ciddi tədqiqat vəzifələri gözləyir. Yerin, biosferin, iqlimin, dünya okeanının, o cümlədən şelfin ehtiyatlarından

səmərəli istifadə etmək, havanın və digər təbiət hadisələrinin proqnozlaşdırılması metodlarını təkmilləşdirmək, ətraf mühitin mühafizəsi sahəsindəki tədbirlərin səmərəliliyini yüksəltmək məqsədilə yerin, biosferin, iqlimin, dünya okeanının, o cümlədən şelfin quruluşunun, tərkibinin və təkamülünün öyrənilməsi, ekologiyanın inkişaf etdirilməsi bu cür vəzifələrdəndir.

Əminik ki, həmin istiqamətləri riyaziyyat, fizika, kimya, texnika, biologiya, coğrafiya kafedraları 1981-1986-ci illərin tədqiqatlarında nəzərə alacaqlar.

Sov.İKP XXVI qurultayının materialları pedaqoji elmlərin sonrakı inkişafına da qida vermişdir. On birinci beşillikdə pedaqoji elmlərin tədqiq edə biləcəyi məsələlər xeyli artır. Məlumdur ki, pedaqoji elmlərin xidmət etdiyi istehsalat sahəsi maarifdir, təlim-tərbiyə sahəsidir.

Sov.İKP XXVI qurultayı təlimin məzmununu təkmilləşdirməyə xüsusi diqqət yetirmişdir. Qurultaya hesabat məruzəsində L.İ.Brejnev yoldaş demişdir: «məktəb proqramlarının və dərsliklərinin keyfiyyəti də yaxşılaşdırılmalıdır. Düz deyirlər ki, bunlar həddindən artıq mürəkkəbləşdirilmişdir. Bu, təlimi çətinləşdirir, uşaqların nahaq yerə həddindən artıq yüklənməsinə səbəb olur. Maarif Nazirliyi, Pedaqoji Elmlər Akademiyası vəziyyəti dərhal düzəltməlidirlər».

İttifaq dərsliklərinin, xüsusən respublika üçün spesifik olan dərsliklərin keyfiyyətinin yaxşılaşdırılmasında pedaqoqlar da, psixoloqlar da, metodistlər də, müəllimlər də eyni dərəcədə fəal iştirak etməlidirlər. Ümumtəhsil məktəbləri dərsliklərinin təkmilləşdirilməsi sahəsində çox iş görülməlidir.

Etiraf olunmalıdır ki, dərsliklərimizin heç birinin məzmunu və forması əxlaq tərbiyəsi, əmək tərbiyəsi və ya estetik tərbiyə baxımından indiyədək elmi şəkildə təhlil olunmamışdır. Halbuki, buna böyük ehtiyac vardır. Biz belə hesab edirik ki, dərsliklərin keyfiyyətini Sov.İKP XXVI qurultayının tələbləri səviyyəsində yaxşılaşdırmaq üçün onların hər birini kommunist tərbiyəsinin vəzifələrini yerinə

yetirmək baxımından əsaslı şəkildə təhlil etmək, hansı cəhətlərinin müvəffəqiyyətli, hansılarının isə nöqsanlı olduğunu müəyyənləşdirmək və bu nöqsanları aradan qaldırmağın yollarını göstərmək zəruridir.

Respublikada pedaqoji institut tələbələrinin dərsliklərlə təmin olunması sahəsində ciddi nöqsanlarımız vardır. Bir çox kurslar üzrə isə heç dərslik yoxdur.

Tələbələr üçün dərsliklər yaratmaq, ümumtəhsil məktəblərinin dərsliklərini təkmilləşdirmək məqsədilə fənlərin tədrisi metodikaları kafedralarının elmi fəaliyyətini genişləndirməyə ehtiyac vardır.

Onuncu beşillik zamanı xalqımız maarif sahəsində də mühüm mərhələ fəth etdiyindən, yəni hamılıqla icbari orta təhsilə keçilməsini başa çatdırdığından, Sov.İKP XXVI qurultayına hesabat məruzəsində on birinci beşillik zamanı maarifin qarşısında bir sıra yeni vəzifələr qoyulmuşdur. İndi başlıca vəzifə məktəbdə təlimin, əmək tərbiyəsinin və mənəvi tərbiyənin keyfiyyətini yüksəltməkdən, müəllimlərin və şagirdlərin əməyinin nəticələrinə qiymət verilməsində formalizmi aradan qaldırmaqdan, işdə təlimin həyatla əlaqəsini möhkəmlətməkdən, məktəbliləri ictimai-faydalı əməyə hazırlamağı yaxşılaşdırmaqdan ibarətdir.

Məktəb qarşısında qoyulmuş bu mühüm vəzifələrin öhdəsindən vaxtında və yüksək səviyyədə gəlmək üçün hansı mövzularda tədqiqatlar aparmaq olar? Ümumtəhsil məktəblərində təlimin keyfiyyətini yüksəltməyin imkanları, ayrı-ayrı fənlər üzrə, məsələn, tarix, dil və ya ədəbiyyat üzrə təlimin keyfiyyətini yüksəltməyin imkanları, aşağı siniflərdə əmək tərbiyəsinin səmərəliliyini təmin edən şərtlər, şagirdlərin mənəvi tərbiyəsinin keyfiyyətinə təsir göstərən amillər, müəllim əməyinin qiymətləndirilməsi formaları, müəllim əməyinin qiymətləndirilməsində formalizm hallarının aradan qaldırılması yolları, ayrı-ayrı fənlərin tədrisini həyatla əlaqələndirməyin yolları, ibtidai sinif şagirdlərini ictimai-faydalı əməyə hazırlamağın yolları və s. i.a. mövzular buna misal ola bilər.

Xalq maarifi sisteminin daha da inkişafını, ölkənin mütəxəssislərə və ixtisaslı fəhlələrə tələbatının daha dolğun ödənilməsini təmin etmək on birinci beşillikdə əsas istiqamətlərdən biri olmuşdur. Xalq maarifi inkişafının bu istiqaməti ilə əlaqədar olaraq bir sıra elmi-tədqiqat işləri planlaşdırılmalıdır. Güman edirik ki, məsələn, bu cür mövzularda tədqiqat aparmaq olar: Azərbaycan SSR-də xalq maarifi sisteminin əsas inkişaf mərhələləri, Azərbaycan SSR-də mütəxəssislərə, ixtisaslı fəhlələrə olan ehtiyacın öyrənilməsi və ödənilməsi. Sonuncu mövzuları sahələr üzrə də tədqiq etmək olar: maarif, səhiyyə, mədəniyyət, yüngül sənaye və s.

Təhsilin bütün pillələrində və formalarında işin səmərəsinin yüksəldilməsi on birinci beşillikdə başlıca vəzifələrdən biridir. 1981-1985-ci illərdə xalq maarifini inkişaf etdirməyin bu istiqamətinə uyğun olaraq hansı mövzularda tədqiqat işləri aparmaq olar? Ümumtəhsil məktəblərində təlim-tərbiyə işi keyfiyyətinin göstəriciləri; texniki-peşə məktəblərində təlim-tərbiyə işi keyfiyyətinin göstəriciləri; pedaqoji institutlarda təlim-tərbiyə işi keyfiyyətinin göstəriciləri; orta ixtisas məktəblərində təlim-tərbiyə işi keyfiyyətinin göstəriciləri və s.

On birinci beşillikdə axşam təhsilinin və qiyabi təhsilin inkişafı və yaxşılaşdırılması da partiya və dövlətimizin diqqət mərkəzində olacaqdır. Faktlar göstərir ki, bizim respublikamızda da axşam təhsilini və qiyabi təhsili yaxşılaşdırmağa böyük ehtiyac vardır. İstər orta ümumi axşam və qiyabi təhsil sahəsində, istərsə də orta və ali axşam və qiyabi ixtisas təhsili sahəsində xeyli nöqsanlar müşahidə edilir. Bu nöqsanların xarakteri, onları doğuran səbəblər və aradan qaldırılması yolları ətraflı araşdırılmalı və müvafiq maarif orqanlarına əsaslandırılmış təkliflər verilməlidir. Ali qiyabi pedaqoji təhsillə əlaqədar, məsələn, belə bir təklif vermək olardı. Məlum olduğu kimi, respublikamızdakı ali məktəblərin böyük bir qismi qiyabi pedaqoji təhsillə məşğul olur. ali qiyabi pedaqoji təhsilin bir sıra institutlar arasında səpələnməsi qiyabiçi tələbələrin işini çətinləşdirir,

institutlarda təhsil prosesinin normal ritmini ağırlaşdırır. Nəticədə qiyabi yolla müəllim kadrları hazırlamağın keyfiyyəti aşağı düşür. Buna görə də ali qiyabi pedaqoji təhsilin respublikamızda xüsusi institutda mərkəzləşdirilməsi və müstəqil qiyabi pedaqoji institutunun yaradılması daha çox səmərə verərdi.

Yeniyetmə və gənclər arasında peşəyönümü işini gücləndirmək yenə də öz aktuallığını saxlayır. Bununla əlaqədar olaraq on birinci beşillikdə peşəyönümü üzrə tədqiqat işləri gücləndirilməlidir. Peşəyönümü üzrə tədqiqat işləri ailəni də, ümumtəhsil məktəblərini də, orta və ali ixtisas məktəblərini də əhatə etməlidir. Peşəyönümü sahəsində ailələrin iş təcrübəsi elmi cəhətdən hələ də tədqiq olunmamış qalır. halbuki, bu cəhətdən respublikamızın şəhər və rayonlarında zəngin təcrübə vardır. Peşəyönümü sahəsində ailələrin nümunəvi iş təcrübəsi dərindən öyrənilməli, valideynlərin yol verdikləri nöqsanların səbəbləri və onların aradan qaldırılması yolları ətraflı araşdırılmalıdır. Peşəyönümü sahəsində ailənin ümumtəhsil və texniki peşə təhsili məktəblərinin əlbir iş sistemi təhlil olunmalıdır.

Uşaqların altı yaşından ümumtəhsil məktəblərinin hazırlıq siniflərində oxumasına tədricən keçmək üçün zəmin yaradılması sahəsində bizi gərgin işlər gözləyir. Belə bir bəşəri vəzifənin yüksək səviyyədə yerinə yetirilməsi üçün pedaqoji elmlərin nümayəndələri maarif orqanlarına, məktəblərə, bağçalara və ailələrə tutarlı məsləhətlər verməyə borcludurlar.

İndiyədək olduğu kimi on birinci beşillikdə də bağçalar altı yaşlı uşaqları məktəblərin birinci sinfində müntəzəm təlimə hazırlamaqla məşğul olacaqmı? Yoxsa bu vəzifə başdan-başa ümumtəhsil məktəblərində hazırlıq sinfinin üzərinə düşəcəkdir? Əgər söhbət bağçaların əhatə etmədiyi uşaqlar haqqında gedirsə, onda məktəbin hazırlıq sinfinin proqramı ilə bağçanın hazırlıq qrupunun proqramı arasında uyğunluq necə təmin edilməlidir? Məktəbin hazırlıq sinfindən və bağçanın hazırlıq qrupundan birinci

sinfə uşaqların eyni səviyyədə gəlmələrini təmin etmək üçün hansı tədbirlər görülməlidir? Sov.İKP XXVI qurultayının qarşıya qoyduğu vəzifələrdən doğan bu cür məsələlərdə maarif işçiləri pedaqoji elmlərin nümayəndələrindən əsaslı cavablar gözləyirlər. Həmin məsələlər ətraflı tədqiq olunmalıdır.

Xalq təsərrüfatını fəhlə kadrları ilə təmin etmək üçün çox mühüm mənbə olan texniki peşə məktəbləri şəbəkəsini daha da genişləndirmək nəzərdə tutulmuşdur. 1981-1985-ci illərdə bu məktəblərdə ixtisaslı fəhlə buraxılışı 13 milyon nəfərə çatdırılacaq, ixtisası olan orta təhsilli fəhlələrin buraxılışı isə 1,6 dəfə artırılacaqdır. Burada respublikamızın da payı vardır. Bu mühüm dövlət vəzifəsinin keyfiyyətlə yerinə yetirilməsinə pedaqoji elmlərin nümayəndələri köməklik göstərməlidirlər. Aşağıdakı kimi suallara elmi cəhətdən tutarlı cavab verilməlidir: Azərbaycan SSR-nin şəhər və rayonlarında yeni texniki peşə məktəbi açarkən indiyədək hansı prinsiplər əsas götürülmüşdür? Bu prinsiplər təcrübədə özünü nə dərəcədə doğrultmuşdur? Onları dövrün yeni xüsusiyyətlərinə uyğun olaraq təkmilləşdirməyə ehtiyac varmı? Xalq təsərrüfatı inkişafının müasir mərhələsi texniki peşə məktəbləri şəbəkəsini genişləndirməyin qarşısında hansı yeni tələblər qoymuşdur? və s.

On birinci beşillik zamanı kadrlar hazırlanmasını və istehsalatda onların ixtisasının artırılmasını təkmilləşdirmək diqqət mərkəzində olacaqdır. Təqribən 10 milyon nəfər ali və orta ixtisas təhsilli mütəxəssis hazırlanacaqdır. Mütəxəssislər hazırlanmasının keyfiyyətini yüksəltmək və xalq təsərrüfatında onlardan istifadə olunmasını yaxşılaşdırmaq üçün müxtəlif istiqamətdə tədbirlər görüləcəkdir. Bu tədbirlər arasında elmi-tədqiqat işləri də olmalıdır. Texniki peşə məktəblərində ixtisaslı fəhlə kadrlarının hazırlanması işi keyfiyyətinin yüksəldilməsi; orta ixtisaslı kadrlar hazırlamaq işinin səmərəliliyinin göstəriciləri; ali təhsilli mütəxəssislər hazırlanması keyfiyyətinin göstəriciləri; kadrların istehsalatda ixtisasının artırılması formaları kimi mövzuların tədqiqi orta ixtisas və

ali məktəblərdə təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsinə kömək edər.

Sov.İKP XXVI qurultayına hesabat məruzəsində L.İ.Brejnev yoldaş ali məktəblərimizin fəaliyyətini yüksək qiymətləndirərək demişdir ki, sovet ali və orta ixtisas təhsili sisteminin müvəffəqiyyəti məlumdur. Təkcə son beş il ərzində bu sistem xalq təsərrüfatımıza on milyon kamil mütəxəssis vermişdir.

Bununla yanaşı, hesabat məruzəsində ali və orta ixtisas məktəblərinin hələ lazımınca istifadə olunmamış imkanlarından da danışılmışdır. L.İ.Brejnev yoldaş demişdir: «Eyni zamanda bu sistemdə çox şeyi yaxşılaşdırmaq olar və lazımdır. Mən, ən əvvəl, tədrisin keyfiyyətini, istehsalatla əlaqənin möhkəmləndirilməsini nəzərdə tuturam. Bizim elmlər doktorlarının və namizədlərinin demək olar yarısının cəmləşdiyi ali məktəblərin elmi potensialından daha mükəmməl istifadə etmək lazımdır. Xalq təsərrüfatının inkişafı ilə birlikdə bu və ya digər ixtisas kadrlarına tələb də dəyişir. Deməli, ali məktəblərdə kadrlar hazırlanmasının planlaşdırılması sistemində də bu dəyişikliklər ciddi nəzərə alınmalıdır».

Biz əminik ki, Sov.İKP XXVI qurultayının bu fikirləri əsasında ali məktəb pedaqogikası bir sıra yeni məsələlərin tədqiqi ilə öz inkişafının sonrakı mərhələsinə qədəm qoyacaqdır. Müvafiq istehsalat sahələri ilə ali məktəblərin əlaqə formaları; ali məktəblərdə tədrisin səmərəliliyini artırmaqyolları; tərbiyə işlərinin keyfiyyətinin yüksəltmək yolları; ali məktəblərin elmi potensialından səmərəli istifadə etməyin imkanları və s. kimi məsələlərin tədqiqi on birinci beşillikdə ön plana çəkiləcəkdir.

Ali məktəbin elmi potensialından yalnız təlim-tərbiyə işlərinin keyfiyyətini yaxşılaşdırmaq üçün istifadə edilmir. Bu, həm də ölkədə xalq təsərrüfatı tapşırıqlarının yerinə yetirilməsi üçün vacibdir. Odur ki, Əsas istiqamətlərdə yazılmışdır: «Xalq təsərrüfatı vəzifələrinin yerinə yetirilməsi üçün ali məktəblərin elmi potensialından istifadə edilməsinin səmərəliliyi yüksəldilsin».ali məktəblərin

inkişafının bu istiqamətinə uyğun olaraq bir çox tədqiqat işləri aparılmalıdır. Təəssüflə qeyd edilməlidir ki, ali məktəblə xalq təsərrüfatının qarşılıqlı əlaqədə inkişafı, ali məktəb və maarifin qarşılıqlı əlaqədə inkişafı, ali məktəb və mədəniyyətin qarşılıqlı əlaqədə inkişafı kimi məsələlər respublikamızın şəraiti əsasında indiyədək xüsusi tədqiqat obyektiv olmamışdır. Bu cür məsələlərin on birinci beşillik ərzində tədqiqi həm də ali məktəbin, xalq təsərrüfatının, maarif və mədəniyyətin sonrakı inkişafı üçün faydalı olardı, həm də müasir dövrdə geniş sosializm quruculuğunun qanunauyğunluqlarını üzə çıxarmağa kömək edərdi.

Ali məktəblərdə yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması da nəticə etibarı ilə xalq təsərrüfatının sonrakı inkişaf vəzifələrinin həllinə xidmət etməlidir. Buna görə də Əsas istiqamətlərdə tələb edilir ki, «Elmi və elmi-pedaqoji kadrların hazırlanması, ixtisasının artırılması və attestasiyası təkmilləşdirilsin». Bu tələb V.İ.Lenin adına APİ-yə də aiddir. İnstitutda müəllimlər öz elmi hazırlığını artırmaq məqsədi ilə elmi yaradıcılıq məzuniyyətlərindən istifadə edirlər.

Onuncu beşillikdə 3 aylıq yaradıcılıq məzuniyyətindən 11 nəfər, 6 aylıq məzuniyyətdən 7 nəfər istifadə etmiş, 3 nəfər baş elmi işçi vəzifəsinə keçirilmişdir.

1976-1980-ci illərdə 5 nəfər konfrans və simpoziumlarda məruzə oxumaq, 4 nəfər isə ixtisas artırmaq məqsədi ilə xaricdə olmuşdur.

İnstitutda aspirantura yolu ilə elmi-pedaqoji kadr hazırlığı sahəsində müəyyən nailiyyətlər əldə edilmişdir. Məsələn, aspiranturaya qəbulun keyfiyyəti ildən-iə yaxşılaşır. Aspiranturaya qəbul olunanlar arasında institutu fərqlənmə diplomu ilə, əla və yaxşı qiymətlərlə bitirənlərin sayı da ilbəil artır.

Aspirant hazırlamağın səmərəliliyi də artmışdır. Dissertasiyanı vaxtında müdafiə etmiş və ya müzakirəyə təqdim etmiş şəxslər 1971-1975 –ci illərdə 41,5 faiz idisə, 1976-1980-ci illərdə 79,9 faiz olmuşdur.

Aspiranturaya qəbulun keyfiyyəti və aspirant hazırlığının səmərəliliyi son vaxtlar xeyli artsa da aspirantura yolu ilə elmi-pedaqoji kadr hazırlamaq sahəsində hələ nöqsanlarımız az deyildir. Diploma əlavədə «3»qiymətləri olanlar, dissertasiyasını vaxtında müdafiə etməyənlər hələ də vardır.

Tədqiqat institutlarında elmi kadrların və ali məktəblərdə elmi-pedaqoji kadrların hazırlanmasının elmi problemləri respublikamızda zəif işlənmişdir. Bu problemlərlə pedaqoji elmlərin nümayəndələri bizdə çox az məşğul olmuşdur. Respublikamızda nə elmi, nə də elmi-pedaqoji kadrların hazırlanmasına həsr olunmuş monoqrafik tədqiqat əsəri yoxdur. Elmi və elmi-pedaqoji kadrların hazırlanmasının planlaşdırılmasında və istifadə olunmasında müşahidə edilən bəzi təsadüfilik hallarının səbəblərindən birisi, bizcə, bu problemin indiyədək xüsusi tədqiqat obyektinə çevrilməməsidir. Azərbaycan SSR-də respublikamızın tədqiqat institutları və ali məktəblərdə elmi və elmi-pedaqoji kadrların hazırlanması məsələləri tədqiq olunmalıdır.

Sov.İKP XXVI qurultayında əmək problemi yeni qüvvə ilə səslənmişdir. Qurultayda məsələ belə qoyulmuşdur: əməyi hər bir sovet adamının həyati tələbatına çevirməyə kömək edən vasitələr sistemini daha da təkmilləşdirmək zəruridir.

Məsələnin bu şəkildə qoyuluşu ümumtəhsil məktəbinə də bilavasitə aiddir. Bu istiqamətdə məktəblərimiz çox iş görə bilər və görməlidir. Hər bir məktəb öz qarşısında bu cür suallar qoymalı və onların həllinə çalışmalıdır: əməyi hər bir şagirdin birinci həyati tələbatına çevirmək üçün nə kimi işlər görülür? Bu işlərlə kifayətlənmək olarmı? Əlavə hansı tədbirlər görülməlidir ki, hər bir şagird əməksevər olsun, öz həyatını əməksiz təsəvvür etməsin; əməyin nəinki şəxsi yaşayış, əmin-amanlıq üçün zəruri olduğunu, həm də xalqa xidmət etməyin ən səmərəli, ən vacib mənbəyi olduğunu başa düşsün və bu şüura uyğun fəaliyyət göstərsin.

Bu sahədə məktəblərin, ayrı-ayrı müəllimlərin qabaqcıl iş təcrübəsini öyrənib ümumiləşdirməyi, nümunəvi təcrübəni geniş yaymağa böyük ehtiyac duyulur. Aşağıdakı mövzularda tədqiqatlar aparılması da məktəblərimizə xeyli kömək olardı:

Əməyi hər bir şagirdin həyati tələbatına çevirməyin səmərəli yolları; əməyi hər bir şagirdin həyati tələbatına çevirməyin şərtləri; məktəbdə əmək tərbiyəsini yaxşılaşdırmağın imkanları; şagird əməyinin nəticələrini qiymətləndirməyin sistemi; şagird əməyi nəticələrinin qiymətləndirilməsindəki formalizm halları və onların aradan qaldırılması yolları; yuxarı sinif şagirdlərini ictimai-faydalı əməyə hazırlamağın sistemi və s.

Sov.İKP XXVI qurultayı sovet adamlarının, xüsusi gənc nəslin mənəvi tərbiyəsinin səmərəliliyini yüksəltməyi tələb etmişdir. Bu tələb baxımından hər bir ümumtəhsil məktəbi, hər bir texniki peşə məktəbi, hər bir orta və ali məktəb öz təcrübəsinə tənqidi yanaşsa, uşaqların, yeniyetmə və gənclərin mənəvi tərbiyəsi məzmununun, forma və üsullarının nə dərəcədə səmərəli olduğunu müəyyən etsə, onun keyfiyyətini yüksəltməyin yeni imkanlarını üzə çıxarsa işdə daha böyük müvəffəqiyyət qazanar. Çalışmaq lazımdır ki, uşaqlarda yaradılan əxlaqi şüur və əxlaqi hisslər onların davranışına çevrilsin, davranışı ilə qaynayıb-qarışsın, hər bir məktəblinmin əxlaqi şüuru ilə əxlaqi davranışı birlik təşkil etsin.

Əxlaq tərbiyəsi, mənəvi tərbiyə sahəsində tədqiqat işləri də gücləndirilməlidir. Əxlaqi şüurla əxlaqi davranışın birliyin təmin edən obyektiv və subyektiv amillər, əxlaqi şüurun əqidəyə çevrilməsinin mexanizmi açılmalıdır.

Uşaqlarda ictimai borc tərbiyəsini götürək. Öyrənmək lazımdır ki, şagirdlərimiz valideynləri qarşısında, xalq və dövlət qarşısında öz borclarını nə dərəcədə başa düşürlər? Onların əməli fəaliyyəti şüur səviyyələrinə nə dərəcədə uyğun gəlir? İctimai borclarını dərindən başa düşməkdə şagirdlərə hansı yollarla kömək etmək olar? Təklif edilən yollar nə dərəcədə səmərə verir?

Sov.İKP XXVI qurultayına Mərkəzi Komitənin hesabat məruzəsində L.İ.Brejnev yoldaş demişdir: «Sovet adamlarının əksəriyyəti vicdanla, can-başla işləyir. Onlar cəmiyyətin verdiyi rəngarəng nemətlərdən haqlı olaraq və ağıllı şəkildə istifadə edir, xalqımızın sərvətini qoruyur və artırırlar. Lakin bizdə elə adamlar da var ki, dövlətə az şey verib çox şey qoparmağa çalışırlar. Məhz belə bir psixologiya zəminində xüdpəsəndlik və meşşanlıq, varlanma hərisliyi, xalqın qayğılarına və işlərinə laqeydlik əmələ gəlir. Sərxoşluq cəmiyyətə, ailəyə böyük ziyan vurur və açıq deyək ki, hələ ciddi problem olaraq qalır. bütün əmək kollektivlərinin, bütün ictimai təşkilatların, bütün kommunistlərin səyləri bu eybəcər hallara qarşı mübarizəyə yönəldilməlidir».

Sual olunur: Sov.İKP XXVI qurultayında bütün kəskinliyi və açıqlığı ilə qoyulmuş bu əxlaq məsələlərinin məktəblərimizə də dəxli varmı? Bilavasitə dəxli vardır. Sov.İKP XXVI qurultayının həmin tələbinə uyğun olaraq biz uşaqlarımızı, yeniyetmə və gənclərimizi sovet adamlarının əksəriyyətinə xas olan müsbət mənəvi keyfiyyətlər nümunəsində tərbiyəetməliyik; onları kommunist əxlaqına zidd olan eybəcər hallara qarşı barışmaz olmağa hazırlamalıyıq.

Sov.İKP XXVI qurultayı sovet adamlarının, o cümlədən gənc nəslin fiziki tərbiyəsinə böyük əhəmiyyət verərək onu sosial inkişafımızın tərkib hissəsi hesab etmiş və adamların sağlamlığı ilə üzvi əlaqədə götürmüşdür. Sov.İKP XXVI qurultayına Mərkəzi Komitənin hesabat məruzəsində deyilir: «Adamların cansağlığına qayğı bədən tərbiyəsinin və idmanın inkişafından ayrılmazdır». Sovet adamları şəxsiyyətinin hərtərəfli inkişafı naminə, onların cansağlığı naminə ölkəmizdə bədən tərbiyəsinin və idmanın hər vasitə ilə inkişafına kömək etmək lazımdır. Bu məqsədlə bütün tədris müəssisələrində bədən tərbiyəsi dərslərinin, idman məşğələlərinin imkanlarından tam istifadə olunmalıdır. Bədən tərbiyəsindən, idman məşğələlərindən bir uşaq da, bir şagird də kənarda qalmamalıdır. Bədən tərbiyəsi və

idman məşğələlərindən öz uşaqlarını azad etməyə meyl göstərən tək-tək valideynlərin olduğunu nəzərə alaraq, fiziki tərbiyənin əhəmiyyəti haqqında valideynlər arasında izahat işini daha da gücləndirmək lazımdır.

Fiziki tərbiyənin müasir aktual məsələlərini müəyyənləşdirməyə və onları tədqiq etməyə, bu sahədə məktəblərə və ailələrə, müəssisə və idarələrə elmi köməkliyi artırmağa böyük ehtiyac vardır. İstisnasız olaraq bütün şagirdləri bədən tərbiyəsi və idmanməşğələlərinə cəlb edən, fiziki tərbiyə sahəsində nümunəvi iş təcrübəsinə malik olan məktəblər, kollektivin bütün üzvlərini bədən tərbiyəsi və idman tədbirlərinə tam təmin edən istehsalat müəssisələrinin iş təcrübəsi ətraflı öyrənilib geniş təbliğ olunmalıdır. Fiziki tərbiyənin qoyuluşunda məktəb rəhbərlərinin fəaliyyət xüsusiyyətlərini öyrənib ümumiləşdirməyin böyük əməli əhəmiyyəti vardır.

Deməli, kommunist tərbiyəsinin və bu tərbiyə haqqında nəzəriyyənin metodoloji əsaslarına dair Sov.İKP XXVI qurultayının materiallarında müvafiq müddəalar az deyildir. Sovet adamlarında şəxsiyyətin formalaşmasının, kommunist tərbiyəsinin müvəffəqiyyəti Sov.İKP XXVI qurultayında haqlı olaraq kommunizm quruculuğu ilə, ictimai-iqtisadi şəraitlə əlaqədar şəkildə nəzərdən keçirilir. Sovet adamının səciyyəvi keyfiyyətlərinin təhlil etdikdən sonra hesabat məruzəsində L.İ.Brejnev yoldaş demişdir: «Əlbəttə, bu o demək deyildir ki, biz yeni insanın formalaşması ilə əlaqədar olan bütün məsələləri həll etmişik. Bu sahədə qarşımızda xeyli vəzifə durur. Tərbiyənin müvəffəqiyyəti isə ancaq o zaman təmin olunur ki, tərbiyə sosial-iqtisadi siyasətin möhkəm bünövrəsinə əsaslansın».

Sosializm şəraitində tərbiyə işinin müvəffəqiyyətinin sosial-iqtisadi, siyasi bünövrəsindən asılılığına aid müddəa ilk dəfədir ki, bu cür son dərəcə aydın ifadə olunmuşdur. Biz belə fikirdəyik iki, sovet pedaqogikasının sonrakı inkişafında və tərbiyə işinin müvəffəqiyyətli təşkilində bu müddəanın böyük əhəmiyyəti olacaqdır. Pedaqogika elmi üçün yeni tədqiqat sahəsi yaranır: sosial-iqtisadi siyasətin

bünövrəsi əsasında, tərbiyənin qurulması şərtləri; sosial-iqtisadi siyasətin bünövrəsi əsasında tərbiyənin qurulmasında yol verilən nöqsanlar və s. Şübhə yoxdur ki, bu cür məsələlərin tədqiqi tərbiyənin həm nəzəriyyəsini, həm də təcrübəsini zənginləşdirəcəkdir.

Maddi və mənəvi mühitlə şəxsiyyət arasında qarşılıqlı əlaqə məsələsi də həmin yeni problemlə bağlıdır. Sovet adamlarının şəxsiyyəti, onların maraq və tələbatları maddi və mənəvi mühitin, tərbiyənin təsiri altında, şəxsiyyətin fəallığı şəraitində formalaşır. Partiyamız sosial inkişafın bu cəhətinə xüsusi fikir verir. Sov.İKP XXVI qurultayına Mərkəzi Komitənin hesabat məruzəsində oxuyuruq: «Şəxsiyyətin getdikcə daha dolğun inkişafı üçün bizim böyük maddi və mənəvi imkanlarımız vardır və gələcəkdə bu imkanları daha da artıracağıq. Lakin bununla yanaşı, hər bir adamın həmin imkanlardan ağıllı istifadə etməyi bacarması vacibdir. Bu isə, nəticə etibarı ilə şəxsiyyətin marağının, tələbatının necə olmasından asılıdır. Məhz buna görə partiyamız şəxsiyyətin marağının, tələbatının fəal, məqsədyönlü şəkildə formalaşdırılmasını sosial siyasətin mühüm vəzifələrindən, biri hesab edir».

Bununla əlaqədar olaraq bir sıra məsələləri dərindən tədqiq etmək zərurəti ortaya çıxır: şagird şəxsiyyətinin daha dolğun inkişafını təmin etmək üçün maddi və mənəvi mühit amillərindən istifadə edilməsi, mühitin maddi və mənəvi amillərindən ağıllı istifadə etmək bacarığının şagirdlərə aşılanması: mühitin maddi və mənəvi amillərindən istifadə olunmasında şagird marağının və tələbatının rolu: şagirdlərdə marağın, tələbatın məqsədyönlü şəkildə formalaşdırılması və s. bu cür məsələlərdəndir. Onların müvəffəqiyyətlə öyrənilməsi, əlbəttə, pedaqoqların və psixoloqların səylərinin birləşdirilməsini tələb edir.

Sov.İKP XXVI qurultayı diqqətimizi müəllim probleminə də cəlb etmişdir. Qurultay maarif sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində müəllimin roluna yüksək qiymət vermişdir. Hesabat məruzəsində deyilir: «Burada müəllimlər, əlbəttə, həlledici

rol oynayırlar. Onların əməyinə, məişətinə, ixtisasının artırılmasına diqqəti əsirgəmək lazım deyildir. Lakin onların işinə tələbkarlıq da artır».

Etiraf etməliyik ki, təlim-tərbiyə vəzifələrinin yerinə yetirilməsinin xarakterinə müəllimin əhval-ruhiyyəsinin, məişət xüsusiyyətlərinin, ixctisasının artırılması şəraitinin təsiri son zamanlar, demək olar ki, tədqiqatçılarımızı az maraqlandırmışdır. Bu cür məsələlər xüsusi tədqiqat obyektinə çevrilməmişdir. Halbuki, müəllim əməyini səmərəsi üçün zəruri olan şərtlərin nə dərəcədə yaradıldığını, müəllimlərin məişətinə ayrı-ayrı şəhər və rayonlarda nə dərəcədə qayğı göstərildiyini, müəllimlərin ixtisasının artırılması üçün məktəbdə, rayonda, şəhərdə nə kimi şərait yaradıldığını elmi şəkildə tədqiq etmək həm müəllim nüfuzunun, onun əhval-ruhiyyəsinin yüksəldilməsinə, həm də müəllim əməyinin daha səmərəli təşkilinə, onun məişətinin daha da yaxşılaşdırılmasına, nəticə etibarilə gənc nəslin təlim və tərbiyəsinin keyfiyyətini artırmağa kömək edər.

Müəllimə belə qayğı bir də ona görə gücləndirilməlidir ki, cəmiyyətimizin sosial inkişafının psixoloji cəhətləri ilə, sovet adamlarının psixologiyası ilə əlaqədar L.İ.Brejnev yoldaşın qurultaya hesabat məruzəsində dediyi sözlər müəllimə də aiddir. Məruzədə deyilir: «Hamıya bəllidirki, adamlar onların əmək və məişət şəraitinin yaxşılaşdırılmasına daim qayğı göstərildiyini hiss etdikləri yerlərdə daha yaxşı, daha həvəslə işləyirlər. Zavod, ferma elə bir evdir ki, insan öz ömrünün minimum üçdə bir hissəsinin orada keçirir. Burada iş yerlərindən tutmuş məişət guşələrinə və yeməkxanalaradək hər şey rahat, müasir olmalıdır».

Sov.İKP XXVI qurultayı əməyə və əmək adamlarına konkret yanaşmağı tələb edir və göstərir ki, sosializmdə bölgünün başlıca meyarı ancaq əmək-onun miqdarı və keyfiyyəti ola bilər: «Təəssüf ki, praktikada heç də həmişə belə olmur. Hər cür bərabərçilik, işin real nəticələrinə görə deyil, əslində yalnız işə çıxmağa görə əmək haqqı yazılması nahaqdan mükafatlar verilməsi – bütün bunlar həm istehsal

göstəricilərinə, həm də adamların psixologiyasına son dərəcə zərərli təsir göstərir».

Əməyin qiymətləndirilməsində yol verilən bu cür nöqsanların aradan qaldırılması üçün nə etmək lazımdır? Sov.İKP XXVI qurultayı bu suala da konkret cavab vermişdir: «Maddi və mənəvi stimullar sistemimiz həmişə və hər yerdə, hər kəsin sərf etdiyi əməyə ədalətli və obyektiv qiymət verilməsini təmin etməlidir. Vicdanlı işçilər hər vasitə ilə həvəsləndirilməli bekara işlədikləri halda yaxşı dolanmaq üçün tənbəllərə və zay məhsul buraxanlara heç bir əl yeri qoyulmamalıdır. Kim daha yaxşı yaşamaq istəyirsə, daha çox və daha yaxşı işləməlidir».

Bu deyilənlərin müəllim əməyinə bilavasitə dəxli vardır. Eyni staja və eyni təhsilə malik olan lakin müxtəlif keyfiyyətdə təlim-tərbiyə işi aparan müəllimlər eyni zəhmət haqqı alırlar. Müəllim əməyini kəmiyyəti və keyfiyyəti onun qiymətləndirilməsində müəyyən formada maddiləşmədikdə həmin müəllimin daha yaxşı işləməyə meydi azala bilər. Buna görə də müəllim əməyinin qiymətləndirilməsində onun kəmiyyət və keyfiyyətinin nəzərə alınması, müəllimin maddi və mənəvi həvəsləndirilməsi sisteminin səmərəliliyi kimi məsələlər tədqiqat obyektinə çevrilə bilər.

Məlum olduğu kimi, ölkəmizdə elm istehsalat vasitəsinə çevrilmişdir. Bu, o deməkdir ki, elm istehsalın sonrakı inkişafına güclü təsir göstərir. Lakin istehsal da öz növbəsində, elmin sonrakı inkişafını şərtləndirir, onun sonrakı inkişafına bu və ya digər şəkildə təsir göstərir. İstehsal və elm arasındakı bu cür qarşılıqlı əlaqə sosializm şəraitində öz-özünə cərəyan etmir. Partiyamız elm və istehsal arasındakı qarşılıqlı əlaqəni tənzim edir. Buna görə də Əsas istiqamətlərdə belə bir xüsusi tələb irəli sürülür: «Elmlə istehsalın qarşılıqlı əlaqəsi gücləndirilsin».

Bu tələb pedaqoji elmlərə də aiddir. Pedaqoji elmlə onun təmsil etdiyi istehsalat sahəsi olan təlim-tərbiyə müəssisələri arasındakı qarşılıqlı əlaqəni hər vasitə ilə möhkəmləndirməliyik. Pedaqoji elmlərin ayrı-ayrı sahələrinin, məsələn, ümumi pedaqogikanın, məktəbəqədər

tərbiyə pedaqogikasının, məktəb pedaqogikasının, fənlərin tədrisi metodikalarının tədris müəssisələri ilə əlaqə formaları, pedaqoji elmlərin inkişafında təlim-tərbiyə müəssisələrinin rolu və s. kimi məsələlər tədqiq olunmalıdır.

Sov.İKP XXVI qurultayı diqqətimizi elmi-tədqiqat işi ilə əlaqədar olan vacib bir məsəlyə də cəlb etmişdir. Biz tədqiqatda texnikadan istifadə olunmasını nəzərdə tuturuq. Əsas istiqamətlərdə yazılmışdır: «Hesablayıcı elektron texnikası tətbiq edilməklə layihə konstruktor və elmi-tədqiqat işlərinin avtomatlaşdırılması genişləndirilsin».

Partiyanın bu tələbi əsasında pedaqoji tədqiqatlar zamanı hesablayıcı elektron maşınlarından və digər texniki vasitələrdən istifadə təcrübəsini genişləndirmək lazımdır.

Nəhayət, elmlərin əlaqəsi haqqında Əsas istiqamətlərdə tələb olunur: «İctimai elmlərin, təbiət və texnika elmlərinin qarşılıqlı əlaqəsi möhkəmləndirilsin». V.İ.Lenin adına APİ-nin nümunəsində yəqin etmişik ki, elmlərin qarşılıqlı əlaqəsi şəraitində aparılan tədqiqatlardan daha səmərəli nəticələr almaq mümkün olur.

Eyni fakültənin və müxtəlif fakültələrin kafedraları arasında elmi əlaqələri möhkəmləndirmək, müxtəlif kafedraların qüvvələrindən istifadə edərək tədqiqatlar təşkil etmək lazımdır. Bu məsələnin həllində fakültə sovetlərinin imkanlarından da istifadə olunmalıdır.

Əminik ki, pedaqogika və metodika kafedraları, elmi-tədqiqat müəssisələri Sov.İKP XXVI qurultayının tələblərinə uyğun olaraq 1981-1985-ci illərin mövzularını yenidən nəzərdən keçirəcəklər.

Bütün müəllimlər, həm ali və orta ixtisas məktəblərində, həm də ümumtəhsil və texniki –peşə məktəblərində çalışan müəllimlər, digər maarif işçiləri də Sov.İKP XXVI qurultayının və Azərbaycan KP XXX qurultayının materialları və göstərişlərinə əsasən təlim-tərbiyənin, maarifin müasir məsələlərinin tədqiqinə qoşulmalıdırlar.

**(«Azərbaycan məktəbi» jurnalı, №7, 1981)**

## 4. SOV.İKP XXV VƏ XXVI QURULTAYLARI İDEYA-SİYASİ, ƏMƏK, MƏNƏVİ TƏRBİYƏNİN VƏHDƏTİ, TƏRBİYƏYƏ KOMPLEKS YANAŞMA HAQQINDA

Sovet hakimiyyətinin qurulduğu ilk günlərdən ölkəmizdə gənc nəslin kommunist tərbiyəsi sosializm uğrunda mübarizə təcrübəsi ilə əlaqədar şəkildə aparılmış və indi də aparılır. Komsomolun III qurultayında V.İ.Lenin tərbiyənin quruculuq işlərindən ayrılmaz olduğunu, kommunizm quruculuğu təcrübəsinə xidmət etməli olduğunu tam inandırıcı şəkildə sübut etmişdir.

Eyni xətti-hərəkəti Sov.İKP XXVI qurultayı nəinki müdafiə etmiş, hətta bir qədər də inkişaf etdirərək müəyyən qanunauyğunluq şəklində ifadə etmişdir. Tərbiyə işində müvəffəqiyyət qazanmağın əsas şərti haqqında danışılarkən qurultaya hesabat məruzəsində deyilmişdir: «Tərbiyənin müvəffəqiyyəti isə ancaq o zaman təmin olunur ki, tərbiyə sosial-iqtisadi siyasətin möhkəm bünövrəsinə əsaslansın». (Sov.İKP XXVI qurultayının materialları, Bakı, Azərnəşr, 1981, səh. 84)

Partiyamızın siyasətində son məqsəd sinifsiz cəmiyyət olan kommunizm qurmaqdır. Onun sosial siyasəti sovet adamlarının rifahını gündən-günə durmadan yaxşılaşdırmaqdan ibarətdir ki, bunun da nəticəsində onların kommunal və məişət şəraiti yaxşılaşır, istirahət imkanları genişlənir, ictimai istehlak fondu artır. Sov.İKP-nın rəhbərliyi altında «cəmiyyətin bütün üzvlərinin tam rifahını və azad surətdə hərtərəfli inkişafını və azad surətdə hərtərəfli inkişafını təmin etmək üçün» şərait yaratmaq haqqında V.İ.Leninin göstərişləri müvəffəqiyyətlə həyata keçirilir.

Sov.İKP MK-nın noyabr (1982-ci il) plenumunun və SSRİ Ali Soveti yeddinci sessiyasının qərarlarında, Sov.İKP MK-nın Baş katibi Y.V.Andropov yoldaşın plenumdakı nitqində iqtisadi və sosial tərəqqinin bütün sahələrində qarşıya böyük və xeyli dərəcədə yeni vəzifələr qoyulmuşdur. Y.V.Andropov yoldaş demişdir: «İqtisadiyyatı yüksəltmək,

xalqın rifahını yaxşılaşdırmaq həm sovet adamları qarşısında borcumuzdur, həm də beynəmiləl borcumuz». Plenum və snssiya bir daha nümayiş etdirmişdir ki, sovet adamına, onun əmək və məişət şəraitinə, mənəvi inkişafına qayğı partiyanın və dövlətin çox böyük proqram məqsədi olaraq qalır.

Sov.İKP-nın müvəffəqiyyətlə həyata keçirdiyi sosial-iqtisadi siyasətin tərbiyə işində nəzərə alınması, gənc nəslin kommunist tərbiyəsinin bu əsasda qurulması tərbiyə işinə kompleks şəkildə düzgün yanaşılmasına imkan verir. Müəllimlərimizin, pedaqoji kollektivlərimizin bilavasitə rəhbərliyi altında gərək hər bir şagird respublikamızın xalq təsərrüfatında, elm, mədəniyyət və incəsənət sahəsində xalqımızın qazandığı nailiyyətlərdən xəbərdar olsun, bilsin ki, məsələn, milli gəlirin artım sürətinə dair onuncu beşilliyin planı dörd ildə yerinə yetirilmiş, milli gəlir nəzərdə tutulan 32 faiz əvəzinə 47 faiz artmışdır.

Bizim şagirdlər belə bir fərəhləndirici iqtisadi tərəqqiyə biganə olmamalıdırlar ki, sənaye istehsalımız 39 faiz əvəzinə 47 faiz, kənd təsərrüfatı məhsulları planda nəzərdə tutulmuş 21 faiz əvəzinə 47 faiz çoxalmışdır. Nəticədə dalbadal on üç il Sovet Azərbaycanı fəhlələrinin, kolxozçularının, ziyalılarının əməyinin Qırmızı bayrağa layiq görülməsinin hər bir adamda əmələ gətirdiyi iftixar hissini şagirdlərimiz də duymalıdırlar.

Respublikamızın yüz minlərlə oğlan və qızının əmək coşğunluğu, alovlu vətənpərvərliyi, partiyanın və xalqın işinə sədaqət nümunələri haqqında şagirdlərə konkret məlumat verilməlidir.

Ölkəmizdə gedən quruculuq işlərinin vüsəti barədə, nailiyyətlər və həll olunmalı problemlər haqqında şagirdlərə verilən məlumatlar onların fəal vətəndaş kimi yetişmələrinə, psixoloji cəhətdən əməyə hazırlanmalarına kömək edir.

Kommunizm quruculuğu illərində hər bir şagird öz gələcək yerini, gəncliyin mövqeyini, onun rolunu aydın təsəvvür etməlidir, bilməlidir ki, məsələn, xüsusən müasir dövrdə gənclərin rolu xeyli artmışdır, 80-cı illərin

başlanğıcında yer üzünün bütün əhalisinin 50 faizindən çoxu gəncdir, onların sayı iki milyarda yaxınlaşır, yarıdan çoxu maddi istehsal sahəsində çalışır.

Sosializm və mütərəqqi qüvvələrlə açıq çarpışmalarda məğlubiyyət ardınca məğlubiyyətə düçar olan imperializmin yeni şəraitə uyğunlaşmağa çalışdığını, öz mövqeləriniqoruyub saxlamaq üçün daim daha hiyləgər vasitələr axtardığını, adamların şüuruna, xüsusilə gənclərin hələ möhkəmlənməmiş mənəviyyatına təsir göstərmək üçün məkrli üsullara əl atdığını şagirdlərə səbirlə izah etmək zəruridir. Bu istiqamətdə müəllimin, sinif rəhbərinin, komsomol təşkilatının apardığı məqsədyönlü iş sayəsində şagirdlər yəqin edirlər ki, burjua ideoloqları öz ölkələrinin gənclərinə ruhlandırıcı, inandırıcı bir proqram verə bilmədiklərindən, bütün cəhdlərini, hiylələrini real proseslərin saxtalaşdırılmasına yönəldir, burjua həyat tərzinə zahirən bər-bəzək vurmağa cəhd göstərir, sosializmin nailiyyətlərini təhrif edir, bu nailiyyətlərə qara yaxırlar və bu zaman gənclərin həyat təcrübəsinin, siyasi mətinliyinin kifayət qədər olmadığını nəzərdə tutaraq əsasən gənclərə ümid bəsləyirlər.

Tərbiyəçi müəllim burjua təbliğatının göz qamaşdırıcı parıltısı arxasında kapitalizmin xalq kütlələrinə əsl fəlakət gətirən yaralarını görüb başa düşməkdə, sosializmin nailiyyətlərini, sosialist həyat tərzinin məziyyətlərini dərindən dərk etməklə şagirdlərə istiqamət verməlidir.

Məktəbdə təlim-tərbiyə sistemi elə qurulmalıdır ki, bizim şagirdlər xalq təsərrüfatının kimya və neft kimyası, qara və əlvan metallurgiya, elektronika, radiotexnika, cihazqayırma kimi yeni mütərəqqi sahələri ilə, kənd təsərrüfatı əməyinin bir çox növlərinin geniş miqyasda mexanikləşdirilməsi ilə daha yaxından tanış olsunlar. Bu istiqamətdə aparılan tərbiyə işi şagirdlərin dərin bilik, geniş mədəniyyət və yüksək sənət hazırlığı tələb edən yeni peşələrə yönəldilmələrinə kömək edər.

Həyatın bütün sahələrində – əmək sahəsində, siyasi həyatda və mənəvi həyatda yaşlılarla yanaşı gənclərimizin

də fəal vətəndaşlıq mövqeyi tutduğunu hər bir şagird bilməlidir. Bilməlidir ki, məsələn, respublikamızın 16 mindən çox gənc vətəndaşı xalq deputatları Sovetlərinin deputatı, o cümlədən 118 nəfəri SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir; 17,500 komsomolçu rəhbər həmkarlar ittifaqı orqanlarında, 40 mindən çox komsomolçu isə xalq nəzarəti işində fəal iştirak edir; 100 mindən çox oğlan və qız, 5 mindən artıq komsomolçu gənclər kollektivi onuncu beşilliyin tapşırıqlarını vaxtından əvvəl yerinə yetirmişdir; 150-dən çox komsomolçu gənclər sexi, 12 mindən çox oğlan və qız on birinci beşilliyin iki ilinin tapşırıqlarını vaxtından əvvəl yerinə yetirdikləri və 1983-cü ilin hesabına işlədikləri barədə raport vermişdir: 535 nəfər Sosialist Əməyi Qəhrəmanının, onuncu beşilliyin tapşırıqlarını başa vurub on birinci beşillik hesabuna işləyən minlərlə əməkçinin respublikamızın qızıl fondu olduğunu nə üçün hər bir şagird əzbər bilməsin!?

Beşilliyin çox böyük yeni tikintilərində, «Atommaş»da, BAM-da KamAZ-da, Qərbi Sibirdə, Qeyriqaratorpaq zonada, Krasnoyarskda və ölkəmizin digər yerlərində Azərbaycan gənclərindən ibarət dəstələrin fəhlə adını uca tutaraq özlərinə və respublikaya şöhrət gətirdiklərini hər bir şagirdin bilməsi onun mənəvi cəhətdən zənginləşməsinə kömək etməzmi!?

Gənclərin həyatı və fəaliyyəti ilə əlaqədar olaraq çatışmayan cəhətlərin və kəsirlərin şagirdlər arasında müzakirəsi onların diqqətini ictimai istehsalın bəzi vacib problemlərinə yönəldir. Məsələn, respublikamızda əhalinin yarıdan çoxunu gənclər təşkil etdiyi halda istehsalın bir sıra mühüm sahələrində, o cümlədən tikintidə çalışanların 25 faizini, neft sənayesindəki işçilərin 30 faizini, yaxud kənd təsərrüfatı mexanizatorlarının üçdə bir hissəsini gənclər təşkil etdiyi barədə məlumat şagirdləri düşünməyə vadar edər.

Bir sözlə, şagirdləri xalqın əmək və ictimai həyatına fəal surətdə qoşulmağa hazırlamaq, gənc nəslə müasir dövrün və

gələcəyin tələblərinə uyğun təlim-tərbiyə vermək məktəb qarşısında duran mühüm vəzifədir. Yadda saxlamaq lazımdır ki, yaşlıların istehsal və sosial təcrübəsi haqda dolğun təsəvvürə, sosialist mənəvi sərvətlərinə dərindən yiyələnməyən gənc yaşlı nəslin yerini ləyaqətlə tuta bilməz.

Tərbiyə işinə kompleks şəkildə yanaşılması şəxsiyyətin formalaşmasına dair marksizm-leninizm təlimini əsaslı şəkildə bilməyi və tərbiyə işində bu təlimdən çıxış etməyi nəzərdə tutur. Marksizm-leninizm isə öyrədir ki, şəxsiyyət ictimai-faydalı, çoxcəhətli və məzmunlu fəaliyyət zamanı formalaşır. İnsanın mahiyyəti onun ictimai əlaqələrinin məcmusudur. Buna görə də insanın səadəti onun ictimai əlaqələrinin zənginliyindədir, qüvvə və qabiliyyətlərinin maksimum dərəcədə dolğun ifadə olunmasındadır.

Müasir sovet adamı sosialist həyat tərzinin, ictimai münasibətlərin təsiri altında, ictimai-siyasi həyatda, əmək prosesində fəal iştirak etməklə formalaşır. Bu, o deməkdir ki, mühitin insana təsiri kortəbii olmur, insanın özü də fəal olur və tərbiyə işi də böyük əhəmiyyət kəsb edir.

Deyilən nəzəri müddəaları nəzərə alan məktəb, pedaqoji kollektiv, ayrı-ayrı müəllimlər tərbiyə işində sözçülüyə, formalizmə, öyüd-nəsihətə uymamalıdır, şagirdlərin təlim əməyini təkmilləşdirməli, onların rəngarəng ictimai-faydalı əməyini təşkil etməli, ictimai münasibətlərinin zənginləşdirilməsinəköməklik göstərməlidir; şagirdlərin hər birində işləməyə, fəaliyyət göstərməyə, özü də ürəkdən işləməyə daxili tələbatı gücləndirməlidir. Burada təkcə əmək tərbiyəsi kifayət deyildir. Onu mənəvi tərbiyə, ideya-siyasi tərbiyə tamamlamalıdır.

Bu yolu Sov.İKP XXV qurultayı müəyyənləşdirmişdir. Qurultaya hesabat məruzəsində deyilirdi: «Bu yol bütün tərbiyə işinin qoyuluşuna kompleks qaydada yanaşmaqdan, yəni zəhmətkeşlərin müxtəlif qruplarının xüsusiyyətlərini nəzərə almaqla ideya-siyasi tərbiyənin, əmək və əxlaq tərbiyəsinin sıx birliyini təmin etməkdən ibarətdir». (Sov.İKP XXV qurultayının materialları, Azərnəşr, 1976, səh. 81)

Bu fikir Sov.İKP XXVI qurultayından daha da inkişaf etdirilmişdir. Tərbiyə işini gücləndirməyin zəruriliyi barədə danışan L.İ.Brejnev qurultaya hesabat məruzəsində demişdir: «Mən həm əmək tərbiyəsini, həm mənəvi tərbiyəni, həm də ideya-siyasi tərbiyəni nəzərdə tuturam». (Sov.İKP XXVI qurultayının materialları, Azərnəşr, 1981, səh. 89)

Tərbiyə işinə kompleks şəkildə yanaşılması tələb edir ki, uşaqlarda əməyə məhəbbət hissini, işləmək həvəsini, işgüzarlığı formalaşdıran bütün amillərdən istifadə olunsun: Ailənin də, məktəbin də ictimaiyyətin də, istehsalatın da imkanlarından maksimum istifadə olunmalıdır. Uşaqlarını ev işindən azad etməyə çalışan, övladlarını ailə çətinliklərindən kənarda böyüdən valideynlər, şagirdlərin əmək təlimi məşğələlərinə ikinci dərəcəli məşğələlər kimi baxan, onların istehsalat təcrübəsinin, məzmunlu, səmərəli keçməsinə qayğı göstərməyən məktəb rəhbərləri və müəllimlər həmin uşaqların tərbiyəsinə ciddi ziyan vurmuş olurlar. Bu cür valideynlərin uşaqlarını, bu cür müəllimlərin şagirdlərini yenidən tərbiyə etmək, onları əməksevərliyə alışdırmaq işi sonralar xeyli çətinləşir.

Şagirdləri qaynar və səmərəli əmək fəaliyyətinə keyfiyyətlə hazırlamaq üçün hər bir məktəbin maddi bazasını daha da möhkəmləndirmək, qabaqcıl istehsal kollektivləri ilə onların əlaqəsini daha da intensivləşdirmək, yay tətili zamanı şagirdlərin təlimi ilə əlaqədar olan məhsuldar əməyini daha geniş təşkil etmək, şagird istehsalat briqadalarının rolunu artırmaq, əmək və istirahət düşərgələrinin imkanlarından maksimum dərəcədə istifadə etmək son dərəcə vacibdir. Məktəbdənkənar uşaq müəssisələrinin – pioner evlərinin, saraylarının, gənc texnipklər və gənc təbiətçilər stansiyalarının fəaliyyəti də əsasən həmin məqsədə xidmət etməlidir. Bu tələbə əməl edən məktəbdə texniki yaradıcılıq və kənd təsərrüfatı təcrübəçiliyi ilə şagirdlərin əhatə səviyyəsi maksimum olar, orta təhsili başa vurduqdan sonra isə isə şagirdlər əmək təliminin profilinə uyğun olan peşələr üzrə istehsalata və ya

ali məktəbə gedər, onlar öz həyat planlarını, gələcəyini Vətənin, respublikanın, cəmiyyətimizin mənafeyi ilə daha şüurlu şəkildə bağlayarlar, neft mədənlərində və zavodda, tarlada və fermada məmnuniyyətlə işləməyə hazır olarlar.

Məktəb tərbiyə sistemində hər bir şagird belə bir nəticəyə gəlməlidir ki, əməklə, məhz namuslu əməklə ucalır; fiziki və ya zehni əməyə məhəbbəti nə qədər hərarətli, nə qədər coşğun olursa, onun özü bir o qədər ucala bilər; balacalıqdan əməyə alışmış adam onun qədrini daha yaxşı bilir, keyfiyyətlə çalışır, əmək tapşırıqlarına məsuliyyətlə yanaşır. Deməli, əmək tərbiyəsi həm də mənəvi tərbiyə vəzifələrinin yerinə yetirilməsinə kömək edir. Çünki mənəvi tərbiyənin başlıca vəzifəsi sözlə işin bir-birinə uyğun gəlməsini gündəlik davranış normasına çevirməkdən ibarətdir. Sov.İKP XXV qurultayına hesabat məruzəsində deyildiyi kimi, şəxsiyyəti ən çox yüksəldən onun həyatda fəal mövqe tutmasıdır, ictimai borca şüurlu münasibət bəsləməsidir. Mənəvi tərbiyə ilə bağlı olan bu həqiqəti hər bir şagird dərindən dərk etməlidir, başa düşməlidir ki, kommunist ideyalılığı bilik, əqidə və əməli fəaliyyətin birliyidir.

Şagirdlərin əmək tərbiyəsi onların mənəvi tərbiyəsi ilə əlaqədar aparılır.

Qabaqcıl sovet adamı sosialist əxlaqını, mütərəqqi mənəvi mədəniyyətin tükənməz sərvətlərini özündə təcəssüm etdirir. Gənc nəsil sovet ailəsində və məktəbdə mənəvi zənginliyə çatır, sosialist birgəyaşayış normalarına yiyələnir, öz sözü və əməli üçün valideynləri qarşısında, müəllimlər qarşısında, nəticə etibarı ilə cəmiyyət qarşısında məsuliyyət daşıdığını başa düşür. Uşaqlar xeyirxahlıq, ədalət, düzlük, qayğıkeşlik, kollektivçilik, sədaqət, mehribanlıq kimi gözəl mənəvi keyfiyyətləri ailədə və məktəbdə tutarlı mənimsəmək üçün geniş imkan qazanırlar. Bu cür imkanların real gerçəkliyə çevrilməsi isə valideynlərdən və müəllimlərdən çox asılıdır.

Tək-tək şagirdlərdə təzahür edən bədxahlıq, kobudluq, riyakarlıq, laqeydlik, fərdiyyətçilik kimi mənəvi qüsurların

başlıca səbəblərindən biri ailədə və məktəbdə tərbiyə zamanı yol verilən nöqsanlarla əlaqədardır. Bahalı paltarlar geyinib məktəbə gələn, zinnətli şeylər ilə öyünən uşaqların xudpəsənd böyüməsində özlərini başqalarına qarşı qoymasında, əşyabazlıq xəstəliyinə tutulmasında, onlarda meşşan psixologiyası təkcə «uşaqürəkli» valideynlər günahkar deyil, burada məktəbin də günahı vardır. Çünki bəzi məktəb rəhbərləri və müəllimlər şagirdlərin geyim və görkəminə az əhəmiyyət verir, bunların mənəviyyata vurduğu zərəri lazımınca qiymətləndirmir və qarşısını almaq üçün təsirli tədbirlər görmürlər.

Bahalı paltar geyən, qiymətli daş-qaşla bəzənən şagirdlər məktəb dövründən valideynlərinin hesabına yaşamağa, özlərinə qarşı yalnız qayğı göstərilməsinə alışır, namuslu əməkdən uzaqlaşır, tüfeyli kimi böyüməyə meyllənir; bu cür uşaqlar, adətən, paltarın və çörəyin qədrini bilmir, ailə və cəmiyyət qayğılarından kənar olur; bu cür uşaqlar özlərinin getdikcə artan tələbatını valideynlərinin imkanlarına uyğunlaşdıra bilmir, ailədən, sonra isə cəmiyyətdən daha çox qoparmağa can atır. Bu cür uşaqlar böyüdükcə nəinki ailəsi üçün, həm də cəmiyyət üçün bəlaya çevrilir.

H.Ə.Əliyev yoldaş haqlı olaraq demişdir ki, «Biz çalışmalıyıq ki, hər bir məktəbli çörəyin və paltarın qədrini bilsin, onun təhsilinə və istirahətinə, onun cansağlığının qorunmasına və möhkəmləndirilməsinə cəmiyyətin nə qədər xərc çəkdiyindən xəbərdar olsun, öz ailəsinin tələbatı ilə imkanlarını tutuşdura bilsin, ictimai tələbatın üstün olduğunu möhkəm qavrasın». (Gənclərin əmək, əxlaq və ideya-siyasi tərbiyəsini hər vasitə ilə gücləndirməli, Azərnəşr, 1982, səh. 45)

Bu vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsində müəllimin mənəvi simasının böyük rolu vardır. Müəllimin görkəmi, onun danışıq tərzi, uşaqlara məsləhət gördüyü əxlaqi keyfiyyətlərin özündəki keyfiyyətlərə nə dərəcədə uyğun gəldiyi şagirdlərin mənəviyyatına güclü təsir göstərir. Buna görə də müəllimin şagirdlərə aşıladığı kommunist əxlaqı keyfiyyətlərinin hamısı özündə olmalıdır. Bu şərtə

əməl edildiyi şəraitdə müəllimin tərbiyə işi maksimum səmərə verə bilər.

Tərbiyəyə kompleks şəkildə yanaşılması ideya-siyasi tərbiyəni daha da yaxşılaşdırmağı tələb edir. Marksizm-leninizmin əsaslarını, yəni Sov.İKP tarixinin, fəlsəfənin, siyasi iqtisadın, elmi kommunizmin başlıca müddəalarının şagirdlərə müntəzəm surətdə öyrədilməsi kommunizm quruculuğunun qanunauyğunluqlarını onların dərk etmələrinə, təlimdə, əməkdə, ictimai işlərdə daha fəal iştirak etmələrinə nəzəri şərait yaradır. Buna görə də marksizm-leninizmin mənbələrini, partiya sənədlərini, o cümlədən Sov.İKP XXVI və Azərbaycan KP XXX qurultayları materiallarını şagirdlərə dərindən öyrədən məktəblər onların nəzəri cəhətdən mətinləşməsinə köməklik göstərmiş olurlar.

V.İ.Leninin onun mübariz silahdaşlarının həyat və fəaliyyəti timsalında, Kommunist Partiyamızın, Lenin komsomolunun işinə sədaqət ruhunda şagirdlərin tərbiyə olunmasında məktəblərimizin gözəl ənənələri vardır. Bu ənənələri daha da inkişaf etdirmək zəruridir.

Məktəb kurslarının tədrisi obyektiv olaraq şagirdlərdə elmi dünyagörüşün formalaşmasına güclü təsir göstərir. Bu möhkəm nəzəri özülə istinad edən müəllimlər şagirdlərdə elmi ateizmin təşəkkül tapmasını, zərərli dini qalıqların aradan qaldırılmasını sürətləndirirlər.

Unutmaq olmaz ki, nəinki dini qalıqlar, ümumiyyətlə, keçmişin qalıqları, həm mənəviyyata, həm sosial praktikasına ciddi ziyan vurur. Buna görə də şagirdlər əsrlər boyu insanların şüurunda özünə məskən salan vərdiş və qaydalara, mühafizəkar ənənələrə qarşı barışmaz olmalıdırlar.

Məlumdur ki, marksizm-leninizm nəzəriyyəsi inqilab nəzəriyyəsidir, fəaliyyət göstərməkvə qalib gəlmək nəzəriyyəsidir. İnqilab nəzəriyyəsini şagirdlərin əyani və daha şüurlu başa düşmələri üçün həmin nəzəriyyəni onun həm tarixi ilə, həm də gündəlik təcrübəsi ilə üzvi şəkildə əlaqələndirmək böyük səmərə verir. şagirdlərin inqilabi

şöhrət, döyüş və əmək şöhrəti yerlərinə yürüşləri, inqilab və müharibə veteranları ilə, əmək qəhrəmanları ilə görüşləri həmin əlaqənin təmin olunmasına xidmət edir. Bu zaman Sovet Vətəninə, doğma yurda məhəbbət hissi kimi müqəddəs hisslər şagirdlərdə daha intensiv inkişaf edir, onları qəhrəmanlıqlara, döyüş və əmək hünərlərinə ruhlandırır.

Şagirdlərdə sovet vətənpərvərliyi tərbiyəsi sosialist beynəlmiləlçiliyi tərbiyəsindən ayrılmazdır. Məktəblərimizdə şagirdlərin sosialist beynəlmiləlçiliyi və xalqlar dostluğu ruhunda, zəhmətkeşlərin beynəlmiləl birliyi ruhunda, milli məhdüdiyyətin, lovğalığın hər hansı təzahürünə qarşı barışmazlıq ruhunda tərbiyəsi sahəsində toplanmış gözəl təcrübəni bundan sonra daha da inkişaf etdirmək lazımdır.

Şagirdlərin kommunist tərbiyəsi onların estetik tərbiyəsindən ayrılmazdır. Tərbiyəyə kompleks şəkildə yanaşaraq estetik tərbiyənin bütün vasitələri ilə şagirdlərdə əmək və əxlaq tərbiyəsinin, ideya-siyasi tərbiyənin formalarını və məzmununu zənginləşdirən, şagirdlərin mənəvi aləmini saflaşdıran, onların ictimai əlaqələrinin genişləndirən məktəblərin iş təcrübəsi təqdirə layiqdir. Bu cür məktəblərdə yaxşı başa düşürlər ki, siyasətdən kənar olan, ideya məzmunu olmayan, əməyi tərənnüm etməyən, gözəl əxlaqi hisslərə səsləməyən estetik vasitələr və formalar şagirdlərə təqdim edilməməlidir. Partiyamızın siyasətinə uyğun gələn, kommunist əxlaqına və mənəviyyatına xidmət edən, fədakar əməyə səsləyən vətən və dünya incəsənət nümunələri əsasında şagirdlərin estetik zövqünü və baxışlarını formalaşdırmaq lazımdır.

Bu tələb məktəblərdə bədii özfəaliyyətin kütləvi formalarının – xorun, rəqsin, xalq çalğı alətləri, nəfəs alətləri və estrada orkestrlərinin, teatr kollektivlərinin işində də nəzərə alınmalıdır.

Estetik tərbiyənin bu cür vasitələrinin əhəmiyyəti təkcə orasında deyil ki, onlar şagirdlərin bədii zövqünü, estetik baxışlarını və qabiliyyətlərini inkişaf etdirir, həm də

orasındadır ki, özfəaliyyət dərnəklərində şagirdlərin müntəzəm iştirakı yoldaşlıq və dostluq, kollektivçilik kimi gözəl əxlaqi keyfiyyətlərin onlara aşılanmasına, şəxsi mənaye ilə ictimai mənafenin üst-üstə düşdüyünü görməyə imkan verir. buna görə də estetik zövq, bədii qabiliyyət formalaşdıran vasitələrə məktəblərdə mümkün qədər çox şagird cəlb edilməlidir.

Tərbiyəyə kompleks şəkildə yanaşılması şagirdlərin cansağlığını təmin edən fiziki tərbiyəni də nəzərdə tutur. Sovet uşaqlarının sağlam böyüməsi üçün ölkəmizdə geniş şərait yaradılır. Uşaqlarımızın gümrah böyüməsi üçün ailədə də, məktəbdə də imkanlar az deyildir. gənc nəslin hərtərəfli inkişaf etməsinin zəruriliyini dərindən dərk edən valideynlər lap kiçik yaşlarından uşaqlarının bədən tərbiyəsinə xüsusi qayğı göstərirdilər. Uşaq bağçasında və məktəbdə isə bu qayğı əsasən dövlətimizin öhdəsinə düşmüşdür. Buna görə də ölkəmizdə gənc nəslin fiziki tərbiyəsinin bütöv bir sistemi yaranmışdır. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, uşaqların fiziki tərbiyəsinə laqeydlik göstərən bəzi valideynlərlə yanaşı, tək-tək də olsa bu cür məktəb rəhbərləri də vardır. Onlar bədən tərbiyəsinə ikinci dərəcəli iş kimi baxırlar. Məhz bu cür yanlış baxışın nəticəsidir ki, bədən tərbiyəsi məşğələlərini normal aparmaq üçün bəzi məktəblərdə hələ də zəruri şərait yaradılmamışdır.

Tərbiyə işinə kompleks şəkildə yanaşılması, kommunist tərbiyəsinin tərkib hissələrinin yalnız birliyini təmin etməklə məhdudlaşmır. Bu, şagirdlərin tərbiyəsi ilə məşğul olan bütün təşkilatların və şəxslərin səylərini birləşdirməyi də tələb edir. Ailənin və ictimaiyyətin şagirdlərə tərbiyəvi təsiri də onların kommunist tərbiyəsinə kompleks yanaşılmasında nəzərə alınmalıdır. Məktəb ailənin uşaqlara güclü təsir göstərdiyini, mənəvi sərvətlərin bünövrəsinin ailədə qurulduğunu unuda bilməz. Axı ailədə həyat tərzi, ər və arvadın bir-birinə nə dərəcədə diqqətli olduğu, onların mənəvi zənginlik səviyyəsi, ailə üçün eyni dərəcədə qayğı göstərmək səyi, qonaqlara münasibətlərinin xarakteri, öz istehsalat fəaliyyətləri barədə söhbətləri, ölkəmizdə gedən

quruculuq işləri barədə, beynəlxalq hadisələr haqqında rəyləri və s. uşağın əxlaqına, mənəviyyatına bu və ya digər şəkildə təsir göstərir, onun xarakterinə sirayət edir. Övladları qarşısında, gələcək qarşısında məsuliyyət hiss etməyən valideynlər uşaqlarının yanında öz hərəkətlərinə və sözlərinə sərhəd qoymur, uşaq psixologiyasını korlaya bilən hərəkət və sözlərə meydan verirlər. Buna görə də vilə üçün, cəmiyyət üçün öz uşaqlarına faydalı vətəndaşlar kimi görmək istəyən valideynlər bütün hərəkətlərini, bütün söz və fikirlərini ətraflı ölçüb-biçməlidir, uşaqlarına onların nə dərəcədə tərbiyəvi təsir göstərə biləcəyini əvvəlcədən götür-qoy etməlidir.

Tərbiyə işinə kompleks qaydada yanaşmağı zəruri edən nəzəri, ictimai-siyasi əsaslar vardır.

Əvvəla, inkişafımızın indiki mərhələsində adamların kommunist tərbiyəsi sahəsində yeni xüsusiyyətlər daha da güclənmişdir: tərbiyəvi tədbirlərlə inzibati tədbirlər arasında nisbətən dəyişməsi sürətlənir. İnkişaf etmiş sosializm dövründə inzibati tədbirlərə, hüquq normalarına nisbətən əxlaqi normaların rolu xeyli artmışdır. Sovet adamlarının, o cümlədən gənc nəslin kommunist tərbiyəsi işi ilə yalnız orta ümumtəhsil məktəbləri, texniki peşə və ali məktəblər məşğul olmur, tərbiyə işinə ailə, idarə və müəssisələr, kolxoz və sovxozlar, ictimai təşkilatlar daha intensiv şəkildə qoşulurlar.

İkincisi, Sov.İKP-nın həm XXV və həm də XXVI qurultayları materiallarının diqqətlə öyrənilməsi əsasında müəyyən etmək çətin deyildir ki, partiyamızın fəaliyyətində xalq təsərrüfatının bütün sahələrinə kompleks qaydada yanaşılması artıq prinsip halını almışdır. Ölkəmizdə sosial-iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrinə kompleks şəkildə yanaşıldığı kimi, tərbiyə işinə də bu qaydada yanaşılması zərurətə çevrilmişdir.

Üçüncüsü, marksist-leninçi dialektika tərbiyə işinə kompleks şəkildə yanaşılmasına nəzəri əsas verir. materialist dialektika öyrədir ki, xarici aləmin müxtəlif cism və hadisələri vəhdətdədir və onların arasında qarşılıqlı əlaqə

mövcuddur. Təbiət və cəmiyyətdəki bu cür qanunauyğunluqlar imkan verir ki, bütün komponentləri bir-biri ilə üzvi şəkildə əlaqədar olan tərbiyə işinə kompleks qaydada yanaşılsın.

Tərbiyə işinə kompleks qaydada yanaşmağın başqa bir əsasına- kommunist tərbiyəsinin qarşısında qoyulmuş başlıca məqsədə diqqəti cəlb etmək istərdik. Məlum olduğu kimi, kommunist tərbiyəsinin məqsədi hərtərəfli, ahəngdar inkişaf etmiş şəxsiyyət yetişdirməkdən ibarətdir. Kommunizm adamının əsas keyfiyyətlərini özündə ehtiva edən «hərtərəfli», «ahəngdar» sözlərinin özü obyektiv şəkildə tələb edir ki, tərbiyə işinə kompleks qaydada yanaşılsın.

Tərbiyə işinə kompleks qaydada yanaşmağa bir sıra tələblər verilir. Bu tələblərdən biri praktikada kommunist tərbiyəsinin bütün tərkib hissələrini eyni dərəcədə nəzərə almaqdan ibarətdir. Tərbiyənin əvvəlcə bir sahəsi ilə, məsələn, estetik tərbiyə ilə, sonra isə başqa sahəsi ilə, məşğul olmaq komplekslilik prinsipinə uyğun deyildir. məktəbdə və ya ailədə uşaq tərbiyəsinin bütün sahələri eyni zamanda əhatə olunmalıdır.

İkinci tələb kommunist tərbiyəsinin tərkib hissələrindən hər hansı biri üzrə iş aparan zaman bu işi tərbiyənin digər sahələri ilə əlaqələndirməkdən ibarətdir. Məsələn, əsasən fiziki tərbiyə vəzifələrinin həllinə, şagirdlərin sağlamlığını möhkəmləndirməyə xidmət edən turizm səyahəti zamanı şagirdlərin ideya-siyasi, estetik və əxlaq tərbiyəsi ilə də məşğul olmaq nəinki mümkündür, hətta vacibdir.

Üçüncü tələb istifadə edilən tərbiyə üsulları və formaları ilə əlaqədardır. Kommunist tərbiyəsi birtərəflilikdən uzaqdır. Nə qədər səmərəli olsa da tərbiyə işində bir üsulla və ya təşkilat forması ilə məhdudlaşmaq qətiyyən yaramaz. Əsl tərbiyə təcrübəsində olduqca müxtəlif üsulları və formaları işə salmaq vacibdir.

Dördüncü tələb tərbiyə zamanı şagirdlər qarşısında qoyulan tələblərin vahidliyinin təmin olunmasıdır. Şagirdlərin kommunist tərbiyəsi ilə müəllimlər, sinif

rəhbərləri, direktor və onun müavinləri, valideynlər və digər şəxslər məşğul olduğundan şagirdlərə onların hərəsi bir cür yanaşmamalıdır, hərəsi bir cür tələb verməməlidir; tələblərdə, yanaşmalarda vahidlik təmin olunmalıdır. Şagirdlər hiss etməlidir ki, qarşılarında vahid bir cəbhə vardır, müəllimlər, valideynlər, ictimaiyyət nümayəndələri, bir sözlə tərbiyəçilər isə bu vahid cəbhənin əsgərləridir.

Nəhayət, beşinci tələb gənc nəslin kommunist tərbiyəsində ailə və ictimaiyyətin tərbiyəvi imkanlarının maksimum dərəcədə nəzərə alınmasıdır. Müvafiq partiya sənədlərində deyildiyi kimi, məktəb işi, yetişən nəslin düzgün tərbiyəsi ümumxalq işidir. Müasir şəraitdə məktəb gənc nəslin kommunist tərbiyəsinin öhdəsindən təklikdə yüksək səviyyədə gələ bilməz. Təcrübə göstərir ki, ailəyə və geniş ictimaiyyətə arxalanan, onların tərbiyəvi imkanlarından tam istifadə edən məktəblərimiz uşaqların tərbiyəsinin öhdəsindən ləyaqətlə gələ bilir. Bu cür məktəblərin pedaqoji kollektivlərinə yaxşı məlumdur ki, şagirdlərin mənəviyyatına, onların əxlaqi və estetik baxışlarına məktəbdə yanaşı ailə və ictimaiyyət, ətraf mühit də müəyyən təsir göstərir. Bu təsirlərin faydalılarından məqsədyönlü istifadə etmək, zərərlilərini neytrallaşdırmaq və dəf etmək məktəbin, pedaqoji kollektivin öhdəsinə düşür.

Göründüyü kimi, Sov.İKP XXV və XXVI qurultayı materiallarına əsasən gənc nəslin kommunist tərbiyəsinə kompleks qaydda yanaşmanın bir deyil, bir neçə aspekti vardır. Onları bilməyin və tərbiyə işində diqqətlə nəzərə almağın nəinki nəzəri, həm də böyük praktik əhəmiyyəti vardır.

**(«Azərbaycan məktəbi» jurnalı, №2, 1983)**

## 5. SOV.İKP MK-NIN İYUN PLENUMU VƏ XALQ MAARİFİ MƏSƏLƏLƏRİ

Sov.İKP MK-nın iyun (1983-cü il) plenumu Sov.İKP fəaliyyətinin köklü məsələlərindən birini-kommunizm quruculuğunun tərkib hissəsi olan ideoloji və kütləvi-siyasi işi

müzakirə etmişdir. Plenumda Sov.İKP MK-nın Baş katibi Y.V.Andropov yoldaşın çıxışı, qəbul olunmuş qərar, plenumun habelə digər sənədləri ideologiya, kütləvi-siyasi iş sahəsində partiyamızın növbəti vəzifələrini müəyyənləşdirmişdir.

Plenum göstərmişdir ki, inkişafımızın indiki mərhələsində ideoloji iş, tərbiyə işi getdikcə daha artıq miqyasda ön plana keçir, onun əhəmiyyəti artır. Yetkin sosializmin təkmilləşdirilməsi prosesində partiyamızın həyata keçirdiyi böyük və mürəkkəb vəzifələrin həlli zamanı ideoloji, tərbiyə, təbliğat və təşviqat işlərinin səviyyəsini yüksəltmək zərurəti meydana çıxır.

Partiya öyrədir ki, inkişaf etmiş sosializmin təkmilləşdirilməsini adamların mənəvi inkişafı üzrə böyük iş aparmadan təsəvvür etmək olmaz. Marksizm-leninizm nəzəriyyəsinin tərkib hissəsi olan bu müddəaya görə, sosializmin ictimai-iqtisadi quruluşu onun üstqurumunu, ideoloji, kütləvi-siyasi fəaliyyətini şərtləndirdiyi kimi, bütün tərbiyə işləri, ideoloji iş də cəmiyyətin ictimai-iqtisadi quruluşuna güclü təsir göstərir. Radio və televizia verilişlərində, jurnal və qəzetlərdə, kitablarda, mədəni-maarif və tədris müəssisələrinin işində yol verilən nöqsanlar sosializm quruculuğunun müvəffəqiyyətli getməsini ləngitdiyi halda ideoloji vasitələrdən, tərbiyə müəssisələrindən düzgün istifadə olunması ictimai-iqtisadi quruluşun irəliyə doğru inamlı addımlarını daha da gücləndirir.

Məktəb sahəsində islahat aparılmasının zəruriliyinə dair Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunun təklifi, birinci növbədə, inkişaf etmiş sosializm cəmiyyətinin təkmilləşdirilməsini nəzərdə tutur.

Plenumun materiallarında məktəbin başlıca vəzifəsi çox aydın şəkildə ifadə edilmişdir. Şagirj müəyyən biliklər məcmusunun yalnız sadəcə daşıyıcısı kimi deyil, hər şeydən əvvəl, sosialist cəmiyyətinin vətəndaşı kimi, ideya əqidəsi, əxlaqı və marağı, yüksək əmək mədəniyyəti və davranışı olan fəal kommunizm qurucusu kimi tərbiyə olunmalıdır.

Məktəblər, o cümlədən ümumtəhsil məktəbləri özünün bütün təlim-tərbiyə işində həmin vəzifəni əsas götürməlidir. Ayrı-ayrı fənlərin tədrisində konkret elmi bilik öyrətməklə yanaşı, müəllim çalışmalıdır ki, şagirdləri bir vətəndaş kimi tərbiyə etsin, fənnin tərbiyəvi imkanlarını üzə çıxartsın və bu imkanlardan maksimum istifadə etsin. Müəllim şagirdlərə yalnız riyazi, fiziki və ya bioloji biliklər öyrətməkdə öz işini məhdudlaşdırırsa, həmin biliklərin vasitəsilə onlara müəyyən ideya-siyasi baxışlar, keyfiyyətlər, işləmək bacarığı, davranış tərzi, estetik hisslər aşılamırsa, deməli, müasir tələblərin öhdəsindən gələ bilmir, həyatdan geri qalır.

Məktəb qarşısında qoyulmuş yeni vəzifələr nəinki bütün fənlərin tədrisində həyata keçirilməlidir, hətta sinifdənxarici tədbirlər sistemində də davam etdirməlidir. Şagirdlərdə vətəndaşlıq tərbiyəsi sinifdənxaric tədbirlərin canını, ana xəttini təşkil etməlidir.

Qüdrətli sovet ölkəsinin övladı olduğunu, ömrü boyu öz vətəninə borcluluğunu, vətəninin daha da çiçəklənməsi üçün cavabdehliyini, vətənin bütün sərvətlərinin ona mənsub olduğunu hər bir şagirdə hiss etdirmək, bu istiqamətdə onun fəaliyyət göstərməsinə nail olmaq lazımdır.

Vətənin əsl vətəndaşı kimi yetişən gənc üçün xalqın sevinci onun sevincinə çevrilir, xalqın müvəffəqiyyəti onun müvəffəqiyyəti olur, xalqın çətinliyini öz çətinliyi kimi qəbul edir. Belə bir şüur səviyyəsinə ucalan şəxs özünü vətənin ağıllı, işgüzar, qədirbilən sahibi hesab edir: məhz belə şəxs sosialistcəsinə tərbiyəli adam hesab edilir. Sov.İKP MK-nın Baş katibi Y.V.Andropov yoldaşın «Karl Marksın təlimi və SSRİ-də sosializm quruculuğunun bəzi məsələləri» adlı məqaləsində irəli sürdüyü bir fikri burada xatırlamaq yerinə düşərdi: nəinki öz əmək müvəffəqiyyətlərinə, əmin-amanlığına, nüfuzuna, habelə iş yoldaşlarının, əmək kollektivinin, bütün ölkənin, dünya zəhmətkeşlərinin mənafeyinə laqeyd olmayan şəxs sosialistcəsinə tərbiyəli adam hesab edilir.

Deməli, əsl vətəndaş həm iqtisadi, həm siyasi, həm də psixoloji cəhətdən vətənin həyatı ilə qaynayıb qarışmış olur.

Məktəbdə partiya işi, komsomol və pioner təşkilatlarının fəaliyyəti Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunun materiallarından bəhrələnməlidir.

Plenum sosialist cəmiyyətinin vətəndaşını, kommunizmin fəal qurucusunu tərbiyə elib yetişdirməyin başlıca istiqamətini, onun əsas prinsipini də ifadə etmişdir: təlimin məhsuldar əməklə birləşdirilməsi. Partiya qeyd etmişdir ki, təlimi məhsuldar əməklə birləşdirmək tərbiyənin gözəl vasitəsidir.

Söhbət, ümumiyyətlə, şagird əməyindən deyil, məhz faydalı, məhsuldar əməkdən gedir: faydalı əməyə adət və məhəbbəti şagirdlərə aşılamaq xəttini dönmədən həyata keçirmək lazımdır.

Aydındır ki, şagirdlərin ictimai-faydalı, məhsuldar əməyini təşkil edərkən yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Aşağı siniflərdə gücləri çatan faydalı işlərlə bilavasitə məşğul olan şagirdləri psixoloji cəhətdən məhsuldar əməyə hazırlamaq mümkündür; qabaqcıl əmək adamlarına, müxtəlif peşələrə dair maraqlı məlumatlar vermək lazımdır. Aşağı sinif şagirdləri hiss etməlidirlər ki, onları yaşadan əməkdir, özü də məhsuldar əməkdir. Orta siniflərdə ictimai-faydalı əməyin müxtəlif növlərində məşğul olan şagirdləri ətrafdakı məhsuldar əməiyn konkret növləri ilə tanış etmək, konkret peşələrə, məhsuldar əməyin konkret növlərinə onlarda maraq yaratmaq lazımdır. Məhsuldar əməyin hər hansı növünə maraq göstərən şagirdlər yuxarı siniflərdə həmin peşə ilə bilavasitə məşğul olmalı, maddi və mənəvi nemətlərin istehsalında iştirak etməlidirlər.

Sov.İKP MK-nın iyun (1983-cü il) plenumu əməyin fiziki inkişafla əlaqəli olduğunu, fiziki tərbiyəyə qayğını artırmağın zəruriliyini qeyd etmişdir. Məlumdur ki, insanın əmək fəaliyyəti onun orqanizminin möhkəmlənməsinə də kömək edir. Ağıllı, düzgün təşkil edilən əmək fərəh mənbəyinə, sevinc bulağına çevrilir.

Bununla yanaşı partiya tələb edir ki, gənc nəslin fiziki tərbiyəsini kökündən yaxşılaşdıraq, bədən tərbiyəsi dərslərinin və idman məşğələlərinin səmərəliliyini artıraq. Bütün şagirdlər bədən tərbiyəsinə, idmanın müxtəlif növlərinə cəlb edilməlidir. Uşaqlarda dözümlülüyü, çevikliyi, cəsarətliliyi inkişaf etdirmək, xəstəliklərə qarşı davamlılığı artırmaq üçün bədən tərbiyəsi və idmanın bütün imkanlarından maksimum dərəcədə istifadə olunmalıdır.

Sağlamlığın əhəmiyyətinin, şəxsi həyat üçün, məhsuldar əmək üçün xüsusən vətənin mmüdafiəsi üçün böyük mənasını uşaqlara anlatmaq lazımdır. Bu istiqamətdə aparılan iş bədən tərbiyəsinə və idmana uşaqlarda marağın xeyli güclənməsinə səbəb olar.

Gigiyena qaydalarının və tibbi yardımın əsaslarını şagirdlər məhz məktəbdə öyrənməlidirlər. Şəxsi təmizliyin faydalı və natəmizliyin xərəri barədə həkim söhbətləri gücləndirilməli, müxtəlif tibbi plakatlardan, sərgilərdən istifadə olunmalıdır.

Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunda çıxış edərkən Y.V.Andropov yoldaş demişdir ki, insan məktəbdə deyil, bəs harada estetik tərbiyənin əsaslarını öyrənə bilər, gözəllik hisslərini, incəsənət əsərlərini başa düşmək və qiymətləndirmək bacarığı əldə elə bilər, bədii yaradıcılıq aləminə qovuşa bilər.

Estetik tərbiyə sahəsində qarşıya qoyulmuş bu vəzifələrin öhdəsindən gəlmək üçün məktəbdə müəyyən imkanlar vardır. Estetik tərbiyə vəzifələrinə bilavasitə xidmət edən rəsmxət, təsviri incəsənət, musiqi, nəğmə fənlərinin tədrisinə diqqət gücləndirilməlidir. Gözəllik hissləri və bacarıqlarının şagirdlərə aşılanmasında sinifdənxaric tədbirlərin imkanlarından daha geniş miqyasda istifadə edilməlidir. Digər fənlərdən dərs deyən müəllimlər də estetik tərbiyə vəzifələrinin yerinə yetirilməsinə köməklik göstərməyə borcludurlar.

Məktəb sazəsində qarşıdakı islahat zamanı Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunun tələblərinə uyğun olaraq əmək tərbiyəsinə, fiziki və estetik tərbiyəyə bilavasitə

xidmət etməli olan fənlərə diqqət artırılmalı, tədris planlarında onlara layiqli yer verilməlidir. Həm də ona görə ki, Sov.İKP MK-nın Baş katibi Y.V.Andropov yoldaşın dediyi kimi, xalqın mədəni səviyyəsi yüksəldikcə adamların şüuruna incəsənətin təsiri də güclənir. Bununla da ictimai həyata onun fəal müdaxilə etməsi imkanları artır.

Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunun qərarında islahat nəticəsində yaranacaq məktəbin əsas prinsipləri göstərilmişdir. Orada deyilir ki, Leninin vahid əmək, politexnik, məktəb prinsipləri ardıcıl həyata keçirilsin (bax: Sov.İKP Mərkəzi Komitəsi plenumunun materialları, Azərnəşr, 1983, səh. 98)

Bu prinsiplərin mahiyyəti nədən ibarətdir? Vahid məktəb dedikdə, bütün uşaqlara, yeniyetmə və gənclərə eyni həcmdə, eyni səviyyədə təhsil verən ümumtəhsil məktəbi nəzərdə tutulur; əmək məktəbi dedikdə, bütün şagirdlərə həyatda zəruri olan əmək vərdişlərini aşılayan, əməyə məhəbbət tərbiyə edən məktəb nəzərdə tutulur; politexnik məktəb dedikdə, həmin şagirdləri müasir istehsalın ümumi əsasları ilə tanış edən və istehsalatın bütün sahələrində tətbiqi mümkün olan əmək bacarıq və vərdişləri ilə onları silahlandıran məktəb nəzərdə tutulur. Deməli, sabahın məktəbi bir sıra vəzifələri tam yerinə yetirməli olacaqdır. Həmin vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsinə indidən fəal kömək etməliyik. Bu vəzifələrin bizə – bu gün məktəb rəhbərlərinə, bütün müəllimlərə və metodistlərə dəxli vardır.

Leninin vahid, əmək və politexnik məktəb prinsipləri şagirdlərin kommunist tərbiyəsindən ayrılmazdır. Ümümtəhsil məktəbi bütün gəncliyə nəinki zəruri olan ümumi bilik, bacarıq və vərdişlər verməlidir, nəinki onları həyata, ictimai həyatın, istehsalın bütün sahələrində fəal iştirak etməyə hazırlamalıdır, gəncliyin həm də ideya görüş dairəsini genişləndirməli, ictimai-faydalı əməyə məhəbbət tərbiyə etməli, saf əxlaqi sifətlər aşılamalıdır. Buna görə də Sov.İKP MK-nin iyun (1983-cü il) plenumunun qərarında

yazılmışdır: «Ümumtəhsil və texniki peşə məktəblərində tərbiyə işinin səviyyəsi yüksəldilsin». (yenə orada, səh. 98)

Sov.İKP MK-nin iyun plenumu haqlı olaraq müəllim nüfuzu və hörmətini artırmağın zəruriliyini xüsusi qeyd etmişdir. Unutmaq olmaz ki, kommunist tərbiyəsinin həyata keçirilməsində, məktəbdə təlim vəzifələrinin yerinə yetirilməsində müəllim mərkəzi sima olmuş, mərkəzi sima olaraq qalır. Belə bir mövqeni qoruyub saxlamaq, təlim-tərbiyə işində müvəffəqiyyəti təmin etmək və plenumun məktəb qarşısında qoyduğu yeni, daha mürəkkəb vəzifələri yüksək keyfiyyətlə yerinə yetirmək üçün müəllim nüfuzunu və hörmətini daha yüksək səviyyəyə qaldırmaq lazımdır.

Orta məktəbləri yüksək ixtisaslı mütəxəssis müəllim kadrları ilə təmin etmək üçün Sov.İKP MK və Sovet hökuməti çox iş görmüş və yenə də görürlər. Ölkəmizdə fəaliyyət göstərən institutlar məhz bu istiqamətdə çalışır. Kənd yerlərində işləyən müəllimlərə əlavə üstünlüklər verilir; fərdi evlərinin tikilməsinə köməklik göstərilir. Müəllimlərin pedaqoji və metodik ustalıqlarını artırmaq üçün təkmilləşdirmə institutları və Azərbaycan ETPEİ onlara xidmət edir və s.

Bütün bunlarla yanaşı, müəllim kadrları hazırlayan və təkmilləşdirmə ilə məşğul olan institutların işində bəzi nöqsanlar vardır. Gənc müəllimlərin bir qisminin elmi-pedaqoji və metodik hazırlıq səviyyəsi məktəblərin tələblərini ödəmir. Pedaqoji institutların işindəki nöqsanlar, gənc müəllimlərin hazırlıq səviyyəsinin aşağı olması müəllim nüfuzunun və hörmətinin aşağı düşməsi səbəblərindən birinə çevrilir. Təlim-tərbiyə işini lazımi səviyyədə qura bilməyən şəxsin yalnız müəllimlik adı ona hörmət qazandıra bilməz. Müəllimin nüfuzunu yüksəltmək, müəllimin hörmətini qaldırmaq üçün pedaqoji institutların işini yaxşılaşdırmaq, müəllim kadrları hazırlığının səviyyəsini yüksəltmək lazımdır.

Müəllimin özündən, öz üzərində nə dərəcə işləməsindən də çox şey asılıdır. Təcrübə göstərir ki, elmi-ideoloji və metodik səviyyəsinin artırılması üzərində müntəzəm çalışan müəllim şagirdlər və valideynlər arasında, öz həmkarları arasında böyük nüfuz qazana bilir. Köhnə bilik ehtiyatına,

köhnəlmiş iş üslubuna bel bağlayan, öz üzərində ardıcıl işləməyən müəllimlər isə tez hörmətdən düşürlər.

Müəllim nüfuzunun səviyyəsi maarif orqanlarının işinin xarakterindən də asılıdır. Məktəblərdə müəllimlərin düzgün yerləşdirilməməsi, bir çox müəllimlərə normadan aşağı dərs yükünün verilməsi, əlbəttə, müəllimin nə nüfuzunu, nə də hörmətini qaldırmaq üçün müəllim kadrlarının məktəblərdə düzgün yerləşdirilməməsi, bir çox müəllimlərə normadan aşağı dərs yükünün verilməsi, əlbəttə, müəllimin və nüfuzunu, nə də hörmətini qaldırar. Müəllim nüfuzunu və hörmətini qaldırmaq üçün müəllim kadrlarının məktəblərdə düzgün yerləşdirilməsi və onlardan istifadə olunması sahmana salınmalıdır.

Müəllimin məişəti də onun nüfuzuna təsir göstərir. Hər yerdə – həm şəhərlərdə, həm qəsəbə və kəndlərdə bütün müəllimlər birinci növbədə mənzillə təmin olunmalıdır. Lazımi mənzil –məişət şəraiti olmayan müəllim öz üzərində müntəzəm işləyə bilməz.

Müəllimin mənzil-məişət şəraitinin, maddi vəziyyətinin yaxşılaşdırılması yerli təşkilatlarla da əlaqədardır. Yerli sovet orqanları, habelə şəhər və rayon xalq maarif şöbələri hər bir müəllimin maddi vəziyyətinin qaydaya salınmasına, mənzil-məişət şəraitinin yaxşılaşmasına xüsusi qayğı göstərməlidir.

Bütün müəllimlər, maarif işçiləri var qüvvələrinin, səylərini və istedadlarının Sov.İKP MK-nın iyun (1983-cü il) plenumunun gənc nəslin kommunist tərbiyəsi sahəsində qarşıya qoymuş olduğu yeni, daha məsul vəzifələrin yerinə yetirilməsinə sərf etməlidirlər.

**«Azərbaycan məktəbi» jurnalı, 1983, №12)**

## 6. ÜMUMTƏHSİL VƏ PEŞƏ MƏKTƏBİ İSLAHATI BÜTÜN XALQ MAARİFİ SİSTEMİ İNKİŞAFININ KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏSİDİR

Nə üçün ümumtəhsil və peşə məktəbi islahatı ölkəmizdə bütün xalq maarifi sisteminin inkişafında yeni mərhələ he-

sab edilir? Bunun dörd əsas səbəbi vardır. Birincisi, ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərində sovet təhsil sistemini təkmilləşdirməyin sosial-iqtisadi əsasları daha qabarıq, daha aydın şəkildə ifadə olunmuşdur. İkincisi, islahat ölkəmizdə təhsil yenilik əmələ gətirmişdir. Üçüncüsü, islahat təhsilin məzmununu müasirləşdirməyə təkan verir. Dördüncü səbəb isə odur ki, məktəb islahatı sovet təhsil sisteminin bir sıra prinsiplərinin məzmununu əhəmiyyətli dərəcədə zənginləşdirmişdir.

İslahatla əlaqədar qəbul edilən sənədlərdə təhsil sistemini təkmilləşdirməyin hansı sosial-iqtisadi əsasları daha qabarıq şəkildə ifadə edilmişdir? Biz burada, başlıca olaraq, üç cəhətə diqqəti cəlb etmək istərdik. Birinci cəhət islhatda sovet məktəbinin inkişaf tarixinin ölkəmizdə sosializm quruculuğu tarixi ilə bağlı verilməsidir; ikinci cəhət məktəb qarşısında islahatın qoyduğu əzəmətli vəzifələrin sosializm quruculuğunun ehtiyaclarından irəli gəlməsidir; üçüncü cəhət isə islahat əsasında təhsilin sosializm quruculuğuna təsir göstərməsidir.

Bunları bir qədər ətraflı şəkildə izah edək.

Birinci cəhət. Məktəb islahatına dair sənədlərdən aydın görünür ki, islahat sovet təhsil sistemi inkişafının məntiqi nəticəsi kimi meydana gəlmişdir və onun gələcək inkişafının yeni mərhələsinə çevrilir.

Bəşər tarixində ilk dəfə olaraq məhz bizim ölkəmizdə əsl xalq məktəbi yaranmışdır, elə bir məktəb ki, orada irqi və milli mənsubiyyətindən, cinsindən, dinə münasibətindən, sosial və əmlak vəziyyətindən asılı olmayaraq bütün sovet vətəndaşlarının bərabər səviyyədə təhsil almalarını əməli şəkildə təmin edir.

Az bir zamanda ölkəmiz kütləvi savadsızlıqdan gənclərin hamılıqla orta təhsilinə keçmişdir; planlı şəkildə ixtisaslı fəhlə kadrları hazırlamağın əsas mənbəyinə çevrilən geniş şəbəkəli texniki peşə təhsili sistemi yaranmışdır; ali və orta ixtisas təhsili geniş miqyasda inkişaf etmişdir; siniflərin və sosial qrupların, millətlərin və xalqların, kişilərin və qadınların təhsil səviyyələri xeyli yaxınlaşmışdır.

Sovet təhsil sisteminin yaranması və sürətlə inkişafı sosialist sivilizasiyasının bərqərar olmasının, Sovet ölkəsinin müasir elmin, texnikanın və mədəniyyətin zirvələrinə yüksəlməsinin ən başlıca amillərindən birinə çevrilmişdir.

Ölkəmizdə müvəffəqiyyətlə həyata keçirilən məktəb islahatı özünün miqyasına və məzmununa görə təkcə ümumtəhsil və peşə məktəblərini deyil, bütün təhsil sistemini, bütün tədris müəssisələrini əhatə etmişdir.

İkinci cəhət. Sovet məktəbinin tarixi sosializmin ölkəmizdə inkişaf tarixi ilə bağlı olmuş və indi də bağlıdır. Müasir sovet məktəbi inkişaf etmiş sosializm cəmiyyətinin bütün sahələri ilə qırılmaz tellərlə bağlı olduğundan hazırki islahat xalq təsərrüfatının, mədəniyyət və incəsənətin, elmi-texniki tərəqqinin tələblərini hərtərəfli nəzərə almışdır.

Biz daim yadda saxlamalıyıq ki, məktəb qarşısında islahatın qoyduğu böyük və məsul vəzifələr inkişaf etmiş sosializm planlı şəkildə və hərtərəfli təkmilləşdirməyə, onun humanist təbiətinin daha dolğun şəkildə açılmasına, sovet adamlarında yaradıcı fəallığın daha da artırılmasına yönələn partiya kursundan irəli gəlir. Bu məqsədlə ölkəmizdə Sov.İKP-nın rəhbərliyi ilə geniş miqyasda kompleks tədbirlər həyata keçirilir, sovet adamlarının həyatının bütün sahələrində – maddi nemətlər istehsalında, ictimai münasibətlərdə, mədəniyyətdə dərin dəyişikliklər baş verir; elmi-texniki inqilab getdikcə daha artıq sürətlə genişlənir; iqtisadiyyatın intensiv inkişafına keçilir; sosialist demokratiyasının, sovet həyat tərzinin, yeni insan formalaşdırmağın vacib problemləri həll olunur.

İslahat sovet məktəbinin fəaliyyətinin yetkin sosializm cəmiyyətinin şərait və ehtiyaclarının tələb etdiyi keyfiyyətcə yeni səviyyəyə qaldırmağın nəzərdə tutmuşdur.

İslahatın həyata keçirdiyi əsas vəzifə ondan ibarətdir ki, hər bir sovet adamı sadəcə olaraq müəyyən biliklər məcmusunun daşıyıcısı kimi deyil, hər şeydən əvvəl, sosialist cəmiyyətinin vətəndaşı kimi, ideya əqidəsinə, əxlaqa və maraqlara, yüksək əmək və davranış mədəniyyətinə malik olan fəal kommunizm qurucusu kimi tərbiyə edilsin. Bu cür

keyfiyyətləri inkişaf etmiş sosializm dövründə sovet adamlarından iqtisadiyyatın və mədəniyyətin sürətli və ahəngdar inkişafının ethiyacları, sosial münasibətlərin və siyasi üstqurumun əsas istehsal qüvvəsi kimi və cəmiyyətin ən ali sərvəti kimi adamın öz ehtiyacları tələb edir. İslahata uyğun olaraq məktəb gənc nəsli onun işləyəcəyi ictimai şəraitin xüsusiyyətlərini maksimum dərəcədə nəzərə almaqla böyütməli, ona təlim və tərbiyə verməlidir.

Sovet xalqı partiyanın rəhbərliyi altında çalışır ki, yaxın gələcəkdə xalq təsərrüfatının bütün sahələrini elmin və texnikanın ən yeni nailiyyətləri səviyyəsinə qaldırsın, istehsalın geniş miqyasda atomatlaşdırılmasını həyata keçirsin, əmək məhsuldarlığının köklü şəkildə yüksəlməsini təmin etsin və s. bu cür iqtisadi təmin etsin və s. Bu cür iqtisadi vəzifələrin öhdəsindən kim gəlməlidir? Sabahkı fəhlələr, texniklər, mühəndislər – bütün sovet adamları! Müstəqil həyata qədəm qoyacaq sovet gəncləri ən müastr təhsilə, yüksək əqli və fiziki inkişafa malik olmalı, istehsalın elmi-texniki və iqtisadi əsaslarını dərindən bilməli, əməyə şüurlu, yaradıcı münasibət göstərməlidir. Belə bir hazırlığı isə islahat təmin etməlidir.

Üçüncü cəhət. Nəzərdə tutulmuş hazırlığın gəncliyə verilməsi ictimai-iqtisadi həyatın bütün sahələrinə güclü təsir göstərəcəkdir. Başqa sözlə desək, müasir təhsilin sosial funksiyası da zənginləşəcəkdir. Çünki təhsili ali məktəbdə davam etdirmək üçün zəruri olan yüksək səviyyəli bilik verən məktəb eyni zamanda gəncliyi xalq təsərrüfatında ictimai-faydalı əməyə yönəldəcək, onu bu sahədə fəaliyyət göstərməyə hazırlayacaqdır. Buna görə də islahat əmək tərbiyəsinə həm şəxsiyyəti fopmalaşdıran ən başlıca amil, həm də xalq təsərrüfatının işçi qüvvəsinə olan ehtiyaclarını ödəməyin vasitəsi kimi baxır.

İslahatın iqtisadi və sosial əhəmiyyətini dərindən dərk edən hər bir müəllim, hər bir maarif işçisi, hər sovet adamı onun tamamilə və bütövlükdə, özü də yüksək səviyyədə yerinə yetirilməsi üçün səylərini daha da artıracaqdır.

İslahat gənclərdə şəxsiyyətin formalaşdırılması məsələlərini kompleks şəkildə götürdüyündən onun elmiliyi qat-qat güclənmişdir. İslahat əsasında aparılan təlim-tərbiyə işi şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafına daha yaxşı xidmət edir. Əmək tərbiyəsi, təlim və peşəyönümü ilə yanaşı, islahat gəncliyin ideya-siyasi, əxlaq, estetik və fiziki tərbiyəsini daha da təkmilləşdirməyi nəzərdə tutmuşdur.

Şərh olunan fikirlər belə bir nəticə çıxarmağa əsas verir ki, islahata uyğun olaraq təhsil və sosial-iqtisadi həyat arasında qarşılıqlı əlaqələrin genişlənməsi və dərinləşməsi nəinki sosializm cəmiyyətinin sonrakı inkişafına təkan verəcək, həm də sovet təhsil sisteminin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinin etibarlı zəmini olacaqdır.

İslahat ölkəmizdə təhsil sisteminin strukturunda bir sıra yeniliklərə səbəb olmuşdur. Bu yeniliklər hansılardır?

Birinci. Ölkəmizdə təhsil sisteminin bünövrəsi hesab edilən məktəbəqədər ictimai tərbiyənin müddətində və məzmununda dəyişiklik yaranır. İslahata uyğun olaraq körpələr evi-uşaq bağçaları yeddi yaşa qədər deyil, altı yaşa qədər uşaqları əhatə edəcəkdir: məktəbəqədər ictimai tərbiyənin müddəti bir il azalır. Məlum olduğu kimi, SSRİ Nazirlər Soveti «Uşaqların məktəbəqədər ictimai tərbiyəsini daha da yaxşılaşdırmaq və onları məktəbdə təlimə hazırlamaq haqqında» qərar qəbul etmişdir. Həmin sənədə görə, müvafiq şəraiti olan kənd yerlərində «məktəb-uşaq bağçası» təlim-tərbiyə müəssisələri yaradılması da məqsədəuyğun hesab edilmişdir. İndi müasir vəzifələrə cavab verəcək məktəbəqədər uşaq tərbiyə müəssisəsi haqqında yeni əsasnamə hazırlanır.

İkinci. Məktəbdə təlim əvvəlkindən fərqli olaraq yeddi yaşından deyil, altı yaşından başlayacaqdır. Hazırda uşaqların böyük əksəriyyətini məktəbəqədər tərbiyə sisteminin əhatə etməsi və həm uşaq bağçalarında, həm də məktəblərin hazırlıq siniflərində altı yaşlı uşaqların məktəbə hazırlanmasında qazanılmış təcrübə imkan vermişdir ki, məktəbdə təlimə altı yaşından başlansın. İslahatın əsas istiqamətlərinin həmin göstərişini «Gənclərin ümumi orta

təhsilini daha da təkmilləşdirmək və ümumtəhsil məktəbinin iş şəraitini yaxşılaşdırmaq haqqında» Sov.İKP MK və SSR Nazirlər Sovetinin qərarı daha da möhkəmləndirmişdir.

Üçüncü. İbtidai məktəb I-III sinifləri deyil, bundan sonra I-IV sinifləri əhatə edəcək və təlim müddəti bir il artırılacaqdır. Yuxarıda adını çəkdiyimiz qərarda bu münasibətlə deyilir: «Üç illik ibtidai məktəb dörd illiyə çevrilsin».

Belə bir tədbir oxu, yazı və hesablama qaydalarını, sadə əmək və davranış vərdişlərini kiçik məktəbyaşlı uşaqlara daha dərindən öyrətməyə imkan verəcək, onların tədris yükünü azaltmağa şərait yaradacaq, sonrakı siniflərdə elmlərin əsaslarını dərindən mənimsətməyi təmin edəcək, uşaqların fiziki inkişafını yaxşılaşdırmağa, musiqi və təsviri sənət məşqələlərini təkmilləşdirməyə kömək göstərəcəkdir.

Dördüncü. Natamam orta məktəb əvvəlki kimi IV-VIII sinifləri deyil, V-IX sinifləri əhatə edəcəkdir. Burada şagirdlər beş il ərzində elmlərin əsaslarını mənimsəyəcək, ümumi əmək hazırlığı keçəcək və natamam orta təhsil alacaqlar. Həmin siniflərdə şagirdlərin istədikləri peşəni seçə bilmələri üçün şərait yaradılacaqdır. Onu da nəzərə almalıyıq ki, natamam orta məktəb müxtəlif kanallarla ümumi orta və peşə təhsili almağın bazası olur.

Beşinci. Orta ümumtəhsil məktəbi əvvəllər əsasən on illik idisə, indi on bir illik olur. X-XI siniflərdə şagirdlərin əmək təlimi maddi nemətlər istehsalının və qeyri-istehsal sahəsinin tələb etdiyi kütləvi peşələrə yiyələnməklə uzlaşdırılacaqdır.

Altıncı. Orta ümumtəhsil məktəbinin X-XI sinifləri, texniki-peşə məktəbləri və orta ixtisas məktəbləri təhsil sisteminin eyni mərhələsinə aid edilmişdir. Əvvəlkindən tamamilə fərqli olaraq, həmin tədris müəssisələrinin yerinə yetirməli olduqları başlıca vəzifələr vahiddir. Onların hər biri gənclərə hamılıqla həm əmək, həm də peşə hazırlığı verəcəkdir. Ümumtəhsil, texniki-peşə və orta ixtisas məktəblərində şagirdlərin ümumtəhsil hazırlığının vahid səviyyəsini təmin etmək üçün həyata keçirilən tədbirlər sistemi xüsusi qeyd edilməlidir.

Yeddinci. Doqquzuncu sinifləri bitirən şagirdlərin ümumtəhsil məktəblərinin X siniflərində, texniki-peşə və orta ixtisas məktəblərində, yaxud istehsalatda işləyərək axşam məktəblərində oxumaları xalq təsərrüfatının ehtiyacları, habelə şagirdlərin maraqları və valideynlərin arzuları nəzərə alınmaqla həll ediləcəkdir.

Onu da nəzərə almalıyıq ki, IX sinifləri qurtarıb orta texniki-peşə məktəblərinə daxil olan şagirdlərin sayı yaxın gələcəkdə təqribən iki dəfə artırılacaqdır.

Səkkizinci. Ölkəmizdə təhsil sisteminin səciyyələndirən yeni cəhətlərdən biri də orta ümumtəhsil məktəbini bitirən şagirdlərin sonrakı təhsili ilə əlaqədardır. Orta ümumtəhsil məktəbinin X-XI siniflərinin şagirdləri maddi istehsalın və qeyri-istehsal sahəsinin tələb etdiyi kütləvi peşələrə yiyələnəcəklər. Buna baxmayaraq, həmin müdavimlər daha yüksək ixtisas almaq və ya mürəkkəb peşəyə sahib olmaq çün orta texniki peşə məktəblərinin birillik şöbələrinə, iki-üç il təhsil müddətli orta ixtisas məktəblərinə və ali məktəblərə daxil olacaqlar. Onların bir qismi isə onbirillik məktəbdə aldıqları əmək hazırlığına uyğun olaraq xalq təsərrüfatında işləməyə gedəcək və arzu edənlər axşam və ya qiyabi təhsil yolu ilə ali təhsil alacaqdır.

Doqquzuncu. Müxtəlif tipli mövcud texniki-peşə məktəbləri vahid tipli tədris müəssisəsinə çevrilərək. «Orta texniki-peşə məktəbi» adlanacaq və onun peşələr üzrə müvafiq şöbələri olacaqdır. IX sinifləri bitirən şagirdlər orta texniki – peşə məktəblərində müvafiq peşə almaq və orta ümumi təhsilini tamamlamaq üçün, bir qayda olaraq, üç il təlim keçəcəklər. Onbirillik məktəbin müdavimləri isə daha yüksək ixtisas almaq və ya mürəkkəb peşəyə sahib olmaq üçün orta texniki peşə məktəblərinin bir ilə qədər təhsil müddətli müvafiq şöbələrinə daxil ola biləcəklər.

Onuncu. Orta texniki-peşə məktəbləri istehsalat birliklərinin, müəssisələrin, tikintilərin və digər təşkilatların, kənd yerlərində isə rayon aqrar-sənaye birliklərinin, sovxozların, kolxozların və təsərrüfatlararası müəssisələrin nəzdində təşkil edilir və xalq təsərrüfatının müvafiq sahələri

üçün ixtisaslı fəhlələr hazırlamağa yönəldilir. Belə bir tədbir baza müəssisələri ilə texniki-peşə məktəbləri arasında yeni tipli münasibətlərin yaranmasına səbəb olur.

On birinci. Orta ixtisas təhsilində də dəyişikliklər əmələ gəlir. Orta ixtisas məktəbləri istehsalın, maarifin, səhiyyənin, mədəniyyətin, məişət xidmətinin ilk mərhələləri üçün ixtisaslı mütəxəssislər və təşkilatçılar hazırlamaqla yanaşı, gənclərin hamılıqla orta təhsil almalarında iştirak edəcəkdir.

On ikinci. Orta ixtisas məktəblərini komplektləşdirməyin mənbələri arasında nisbət dəyişir. Orta ümumi təhsili olan gənclərin texnikumlarda təlimi bundan sonra daha da genişlənəcək. Bununla yanaşı, texnikumları natamam orta təhsilli gənclərin hesabına komplektləşdirmək təcrübəsi də saxlanılacaqdır.

On üçüncü. Təhsil sistemində əmələ gələn yeniliklərdə Leninin vahid, əmək və politexnik məktəb ideyası həyata keçirilir. Ümumtəhsil məktəblərindəki bütün şagirdlər üçün təhsilin vahid olması, onların hamısına əmək və politexnik hazırlığın verilməsi, müxtəlif tipli texniki-peşə məktəblərinin vahid tipli orta texniki-peşə məktəblərinə çevrilməsi, burada oxuyan bütün gənclərə müəyyən peşələrlə yanaşı ümumi orta təhsilin verilməsi və nəhayət, texnikumlarda müvafiq ixtisaslarla bərabər ümumi orta təhsilin təmin olunması həmin məktəblərin gələcəkdə birləşməsinə doğru aparır. Bu o deməkdir ki, əvvəlkindən fərqli olaraq, oxuduğu təhsil müəssisəsindən asılı olmayaraq ölkəmizdə hər bir gəncin ümumi orta təhsili peşə təhsili ilə tamamlanacaq. Yəni gənclərin hamılıqla orta təhsili hamılıqda peşə təhsili ilə üzvi şəkildə uzlaşacaq. Gələcəkdə ümumtəhsil və peşə məktəbinin daha da yaxınlaşması və birləşməsi təmin ediləcəkdir.

On dördüncü. Ali təhsilli kadrlar hazırlamaq işini təkmilləşdirməyin yeni imkanları əmələ gəlir. Belə ki, həm ümumtəhsil məktəbinin, həm də texniki-peşə və orta ixtisas məktəblərinin işi xeyli yaxşılaşdırılır; onların məzunları ali məktəbə daxil olmaq üçün eyni dərəcədə bərabər hüquqa malik olurlar; orta ixtisas məktəblərinin müdavimləri hesabına qısaldılmış müddətlərdə ali təhsilli kadrlar

hazırlamaq təcrübəsi xeyli genişləndiriləcəkdir. Bu deyilənlərə görə də ali məktəb tələbələri sıralarının formalaşmasının sosial zəmini xeyli genişlənəcəkdir.

On beşinci. Ali pedaqoji təhsili kökündən yaxşılaşdırmaq üçün islahat bir sıra tədbirlərin həyata keçirilməsini nəzərdə tutmuşdur: 1) müvafiq şərait yarandıqca pedaqoji institutlarda beşillik təhsil müddətinə keçiləcəkdir; 2) maarifin bütün mərhələləri üçün yalnız ali təhsilli müəllim və tərbiyəçilər hazırlanması keçmək məqsədi ilə müvafiq şərait yaradılması zəruri hesab edilmişdir; 3) ümumtəhsil, texniki-peşə və orta ixtisas məktəblərinin, məktəbdənkənar uşaq müəssisələrinin pedaqoqlara və istehsalat təlimi ustalarına olan ehtiyacını tam ödəmək üçün mühəndis –pedaqoji təhsil inkişaf etdiriləcəkdir; 4) universitetlərdə müəllim kadrları hazırlamaq işi xeyli gücləndiriləcəkdir. «Maarif və texniei peşə təhsili sistemi pedaqoji kadrlarının hazırlanmasını təkmilləşdirmək, ixtisasını artırmaq, onların əmək və məişət şəraitini yaxşılaşdırmaq tədbirləri haqqında Sov.İKP Mk və SSRİ Nazirlər Sovetinin qərarında müvafiq dövlət orqanlarına tapşırılmışdır ki, «bir sıra universitetlərdə əlavə pedaqoji şöbələr (fakültələr) təşkil etsinlər…»; 5) müəllim kadrları hazırlamağın məzmununu təkmilləşdirmək məqsədi ilə pedaqoji-psixoloji fənlərin tədrisi gücləndirilir, pedaqoji təcrübə xeyli yaxşılaşdırılır, etika və estetikanın sovet hüququnun tədrisi genişləndirilir, yeni dərsliklər və dərs vəsaitləri hazırlanır və s.

Göründüyü kimi, islhat təhsil sisteminin strukturunda xeyli dəyişikliyə səbəb olmuşdur. Bununla yanaşı, o təhsilin məzmununu da əhəmiyyətli dərəcədə təzələyir. İslahata uyğun olaraq bütün ümumtəhsil, texniki-peşə və orta ixtisas məktəblərinin, bir çox ali məktəblərin tədris planları, tədris prqramları və dərslikləri yeniləşdirilir.

Tədris planları əsasən iki istinamətdə təkmilləşdirilir: 1. mövcud tədris planlarında nəzərdə tutulmuş fənlərin nisbəti yeni vəzifələrə uyğun olaraq dəyişdirilir. Məsələn, ümumtəhsil məktəbinin tədris planında əmək təliminə, incəsənət silsiləsindən olan fənlərə ayrılan saatların miqdarı artırılır.

Yaxud, texniki-peşə və orta ixtisas məktəblərinin tədris planlarında ümumtəhsil xarakterli fənlərə verilən vaxt çoxaldılır; pedaqoji institutlarda və universitetlərdə tələbələrin həm nəzəri, həm də əməli hazırlığı xeyli gücləndirilir.

2. Həmin müəssisələrin tədris planlarına bəzi yeni fənlər daxil edildir. Məsələn, pedaqoji institutlarda və universitetlərin pedaqoji şöbələrində marksizm-leninizm etikası və estetikasının, müasir istehsalın əsaslarının öyrənilməsi genişləndirilir; yaxud, ümumtəhsil, texniki-peşə və orta ixtisas məktəblərinin tədris planlarına hesablayıcı elektron texnikasının əsaslarına dair xüsusi fənn daxil edilir.

Məktəblərin tədris proqramları əsasən dörd istiqamətdə təkmilləşdirilir. Birinci, tədris planlarına daxil edilən yeni fənlər üzrə təzə tədris proqramları hazırlanır. İkinci, mövcud tədris proqramları yeni tədris planları əsasında nəzərdən keçirilir; mövcud tədris proqramlarının həcmləri yeni tədris planlarında müvafiq fənlərə ayrılan vaxt baxımından dəqiqləşdirilir; üçüncü, islahatın tələbləri əsasında mövcud tədris proqramlarındakı ikinci dərəcəli materiallar ixtisar edilir; dördüncü, müasir dövrün tələbləri mövcud tədris proqramlarında nəzərə alınır. Məsələn, coğrafiya üzrə tədris proqramında şagirdlərin iqtisadi və ekoloji təhsilini xeyli genişləndirmək nəzərdə tutulur.

Yeni tədris planlarına və proqramlarına uyğun olaraq bütün fənlər üzrə yeni dərsliklər hazırlanır. İslahatın müəyyənləşdirdiyi kimi, yeni dərsliklər, bir qayda olaraq, müsabiqələr yolu ilə nəşr olunmalı, məktəblərdə diqqətlə və geniş eksperimentdən keçməlidir.

Deməli, təhsilin nəinki strukturunda, həm də məzmununda ciddi yeniliklər baş verir.

Etiraf edilməlidir ki, islahat təhsil sisteminin əsasında duran prinsiplərə də toxunmuşdur. Biz hansı prinsipləri nəzərdə tuturuq? Təhsildə vahidlik prinsipini, ardıcıllıq prinsipini, təhsilin istehsalatla əlaqəsi prinsipini, Leninin vahid, əmək və politexnik məktəb ideyasını!

Təhsildə vahidlik prinsipi. Məlum olduğu kimi, sovet təhsil sisteminin əsasında duran prinsiplərdən biri vahidlik

prinsipidir. Onun mahiyyəti eyni tipli tədris müəssisələrində eyni səviyyəli təhsil verilməsindən ibarətdir. Məsələn, ölkənin bütün natamam orta məktəblərində şagirdlərə eyni dərəcədə natamam orta təhsil verilir. Bu prinsip eyni tipli tədris müəssisələri üçün nəzərdə tutulan tədris planının, tədris proqramlarının və dərsliklərin vahidliyi ilə təmin olunur. İslahata qədər bəzi eyni tipli tədris müəssisələrində, məsələn, pedaqoji institutlarda cüzi də olsa müəyyən fərqlər qalırdı. İslahat bu cür cüzi fərqləri də aradan qaldırmağı nəzərdə tutur. Məsələn, əgər islahata qədər pedaqoji institutların bəzilərində təhsil müddəti dörd, bəzilərində beş il idisə, islahatla əlaqədar pedaqoji institutlar tədricən beşillik təhsilə keçəcəkdir.

Vahidlik prinsipinin güclənməsi texniki peşə təhsilində də müşahidə olunur. İslahata qədər mövcud olmuş müxtəlif tipli texniki-peşə məktəblərinin vahid orta texniki-peşə məktəbinə çevrilməsi buna misal ola bilər.

Təhsildə ardıcıllıq prinsipi. İslahat ölkəmizdə təhsil sisteminin müxtəlif mərhələlərinə aid olan tədris müəssisələri arasında qarşılıqlı əlaqəni daha da möhkəmlənməsinə səbəb olmuşdur. Bu qarşılıqlı əlaqə, məsələn, texniki-peşə və orta ixtisas məktəbləri ilə ali məktəblər arasında da tam təmin olunmuşdur. İslahata əsasən texniki-peşə və orta ixtisas məktəbləri şagirdlərinin ümumtəhsil şazırlığı təmin olunduğundan, onlar da orta ümumtəhsil məktəbləri şagirdləri kimi istədikləri ali məktəbdə təhsil ala biləcəklər. Bu cəhət də nəzərə alınmaqla deməliyik ki, məktəb islahatı sovet təhsil sistemində ardıcıllıq prinsipinin hərtərəfli tətbiqinə tam şərait yaratmışdır.

Təhsilin istehsalatla əlaqəsi prinsipi. İslahata qədər istehsalatla, həyatla əlaqə yalnız təlim və tərbiyəyə aid edilirdisə, islahatdan sonra bu əlaqənin hüdudları xeyli genişlənir, bütövlükdə təhsili də əhatə edir. Təhsilin istehsalatla, həyatla əlaqəsinin təmin olunması müstəqil istiqamətdə nəzərdə tutulur: 1) tədris müəssisələri yalnız xalq təsərrüfatının ehtiyaclarına uyğun şəkildə yaradılır; 2) tədris müəssisələri xalq təsərrüfatının eştiyaclarına uyğun

şəkildə komplektləşdirilir; 3) tədris müəssisələrinin istehsalat bazası əhəmiyyətli dərəcədə möhkəmlənir və genişlənir.

İslahata uyğun olaraq: «Məktəblilərin əmək tərbiyəsini, təlimini, peşəyönümünü yaxşılaşdırmaq və onların ictimai-faydalı məhsuldar əməyini təşkil etmək haqqında» Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qəbul etdiyi qərarda, məsələn, orta ümumi təhsili istehsalatla əlaqələndirməyin aşağıdakı formaları müəyyənləşdirilmişdir: 1) müəssisə və təşkilatların tədris sexləri və sahələri; 2) məktəblərarası tədris-istehsalat kombinatları; 3) məktəb və məktəblərarası tədris və tədris –istehsalat emalatxanaları; 4) yardımçı təsərrüfatlar; 5) şagird istehsalat briqadaları və manqaları; 6) məktəb meşəçilikləri; 7) digər əmək birlikləri.

Məktəblərə baza müəssisələri təhkim edilir; şagirdlərin əmək hazırlığının təşkili üçün ümumtəhsil məktəbləri ilə yanaşı onların da üzərinə məsuliyyət qoyulur, istehsalat sahələrinin iqtisadi və sosial inkişafına dair planlarda məktəblərin baza müəssisələrinə şagirdlərin əmək hazırlığının təşkili üçün lazımi maddi ehtiyatlar ayrılması nəzərdə tutulur.

Məktəblərin nəinki istehsalat müəssisələri ilə, sosial-iqtisadi həyatın bütün digər sahələri ilə də əlaqəsi xeyli genişlənir.

Bütün deyilənlər göstərir ki, məktəb islahatı təhsil sisteminin quruluşunda, təlim və tərbiyə işinin prinsip və metodlarında ciddi yeniliklər əmələ gətirdiyindən sovet təhsil sisteminin inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur.

**(«Azərbaycan məktəbi» jurnalı, №5, 1985)**

# II. TƏHSİL HAQQINDA QANUNUN MÜDDƏALARINA MÜDAXİLƏ

## 7. MAARİF DƏQİQLİK, HƏM DƏ YARADICILIQ TƏLƏB EDİR

«Ölkədə ali və orta ixtisas təhsilinin yenidən qurulmasının əsas istiqamətləri» haqqında Sov.İKP MK-nın layihəsinin geniş müzakirəsi və bu zəmində qəbul olunacaq sənədlər SSRİ-də maarifin sonrakı inkişafına güclü təsir göstərəcəkdir.

Ölkənin sosial və iqtisadi inkişafının sürətini artırmağa xidmət edən həmin təşəbbüsü biz ürəkdən bəyənirik. Bununla yanaşı bəzi mülahizələrimizi və təkliflərimizi bildirmək istərdik. Birincisi, layihədən göründüyü kimi, bütövlükdə ali məktəbin, o cümlədən onun bütün bölmələrinin – kafedraların, dekanlıqların və başqa bölmələrin fəaliyyətində bir çox yeniliklər əmələ gələcəkdir. Ali məktəbin əsasnaməsində bu yeniliklər nəzərə alınmalıdır. Buna görə də təklif edirəm ki, qəbul ediləcək sənədə belə bir fikir əlavə olunsun: ali məktəin Əsasnaməsi yenidən işlənsin və institutun bütün bölmələrinin funksiyaları daha da dəqiqləşdirilsin.

İkincisi, müasir şəraitdə institut müəllimlərinin pedaqoji yükünün müəyyənləşdirilməsində hərc-mərclik halları müşahidə olunur. İctimai elmlər kafedraları müstəsna olmaqla, qalan kafedraların ümumi pedaqoji yükü müəllimlər arasında başqa-başqa həcmdə bölünür. Bir institutda bütün müəllimlərə eyni miqdarda, illik saat məsələn, 850 s. nəzərdə tutulur, digər institutda müəllimlərin elmi dərəcələri və elmi adlarından asılı olaraq illik pedaqoji yükdə fərq olur. Elə institutlar da vardır ki, orada müəllimlərin şəxsi keyfiyyətlərindən asılı olaraq onlar üçün illik pedaqoji yük minimum (720 s.) və maksimum (840 s.) arasında müəyyənləşdirilir. Bu cür müxtəlif, əlbəttə, müəllimlərin əhvalına təsir göstərə bilir. Nəticəsi isə yüksək

ixtisaslı kadr hazırlığının keyfiyyətində əks-səda verir. Yaxşı olardı ki, qəbul ediləcək sənəddə yazılsın: ali məktəb müəlimlərinin illik pedaqoji yükünün müəyyənləşdirilməsində hərc-mərclik aradan qaldırılsın və vahid qayda müəyyən edilsin; bu məqsədlə bütün institutlar üçün müəllimin illik pedaqoji yükündə eyni miqdarda minimum və maksimum saat nəzərdə tutulsun.

Üçüncüsü, orta məktəblərin əksəriyyətində olduğu kimi, ali məktəblərdə də faiz xəstəliyi tam aradan qaldırılmamışdır. Bu bəlanın xalq təsərrüfatı üçün kadr hazırlamaq işinə vurduğu ziyan hamıya məlumdur. Tələbəyə verilən qiymət müəllimin fəaliyyət keyfiyyətini müəyyənləşdirən əsas meyara çevrilməyə başlamışdır. Tələbələrinə bildi-bilmədi qeyri müvəffəq qiymət yazmayan, «yaxşı» və «əla» verən «səxavətli» müəllimlər adətən yaxşı müəllimlər sırasına daxil edilir; nəticədə canla-başlatələbəyə bilik öyrədən və eyni zamanda ciddi və tələbkar olan müəllimlərin sıxışdırılması halları çoxalır. Xalq təsərrüfatı üçün, maarif üçün son dərəcə zərərli olan belə bir meylin qarşısını almaq üçün təklif edirik ki, qəbul olunacaq sənəddə yazılsın: müəllimin fəaliyyəti səciyyələndirilən zaman tələbəyə yazdığı qiymətə deyil, tələbənin ixtisas və hazırlıq keyfiyyətlərinə üstünlük verilsin; bu məqsədlə hər bir ixtisas üzrə professioqram tərtib edilsin, professioqramda tələbənin ümumi və ixtisas hazırlığını səciyyələndirən keyfiyyətlər konkret göstərilsin.

Dördüncüsü, təhsildə belə bir ciddi dönüşü o zaman təmin etmək olar ki, yuxarı təşkilatlar da institutlara öz münasibətlərini dəyişdirsinlər, Ali məktəblərin fəaliyyətini nəzərdən keçirəndə mənimsəmə faizinə deyil, tələbələrin ixtisasa hazırlıq səviyyəsinə əsaslansınlar. Ortaya sual çıxır: bəs tələbələrin ixtisasları üzrə hazırlıq səviyyəsini necə müəyyən etməli? İstehsalatda, istehsalat vasitəsi ilə! Əvvəla, tələbənin işləyəcəyi istehsalat nümayəndələri dövlət imtahan komissiyasının tərkibinə daxil edilsin; ikincisi, fikir müsbət olarsa məzun məzun bir il istehsalatda işləsin və istehsalat kollektivində attestasiyadan keçsin. Yalnız bundan sonra

məzuna diplom verilsin. Deyilənləri nəzərə alaraq təklif edirik ki, ali məktəbin fəaliyyəti nəzərdən keçirilərkən onun mənimsəmə faizi deyil, tələbələrin davranışı və fəaliyyət xüsusiyyətləri əsas götürülsün; dövlət imtahan komissiyasının tərkibinə istehsalat nümayəndəsi daxil edilsin; məzun bir il həmin istehsalatda işlədikdən sonra ona diplom verib-verməmək məsələsinə baxılsın.

Beşincisi, pedaqoji institutların əksəriyyətindəki kafedraların maddi-texniki imkanları genişləndirilməlidir. Kafedralar, xüsusən pedqogika və psixologiya kafedraları zəruri avadanlıqla daha yaxşı təchiz edilməlidir. Həmin pedaqoji institutların tədris korpusları, yataqxanaları genişləndirilsin, ixtisas kafedralarının, birinci növbədə pedaqogika və psixologiya kafedralarının tədris üçün zəruri olan avadanlığa ehtiyac qalmasın.

Altıncı, yay pioneer təcrübəsinin təşkilində tədris planı ilə əlaqədar çətinliklər vardır. Pedaqoji institutların tədris planlarına görə üçüncü kurs tələbələrinin pioner təcrübəsi 1 ay, özü də iyulda təşkil edilməlidir. Bakı şəhərində üç böyük pedaqoji institut, bir universitet vardır. Tələbələri eyni aydı şəhər, şhərətrafı pioner düşərgələrində yerləşdirmək mümkün olmur. Bir düşərgəyə bir neçə institut tələbələri toplaşır, bir pioner dəstəsinə bir tələbə (dəstə rəhbəri) deyil, bir neçəsi təyin olunur. Biri işləyir, qalanları boş-boşuna gəzir. Düşərgə rəislərindən bəziləri tələbələri növbələşdirir: bir gün biri, ikinci gün başqası, bir həftə biri, ikinci həftə başqası düşərgəyə gəlir. Yaxşı halda tələbə bir ay əvəzinə, yarım ay təcrübə keçməli olur. Bəzi tələbələri özbaşına təcrübədən tamam azad etmək halları da müşahidə edilir. Sonuncu halda tələbə formal gündəlik və hesabat yazır, hətta təcrübə keçdiyinə dair xasiyyətnamə də təqdim etməyə təşəbbüs göstərir. Bu cür qeyri pedaqoji halların qarşısını almaq üçün təklifimiz budur: pedaqoji institutların tədris planlarında göstərilsin ki, 3-cü kurs tələbələrinin pioner təcrübəsi yay tətili dövründə bir ay ərzində təşkil edilsin.

Tədris planında məsələnin bu cür qoyuluşu instituta imkan verər ki, yerli şəraiti nəzərə alaraq pioner düşərgələrində tələbələrin təcrübəsini normal təşkil edə bilsin.

**(«Azərbaycan müəllimi» 1986, 4 iyul)**

## 8. TƏHSİL AXIRADƏK VAHİD OLMALIDIR

Məktəb islahatının layihəsi bütün müəlimlərin, bütün valideynlərin ürəyindəndir. Layihənin ümumxalq müzakirəsinə verilməsi isə islahatın yüksək səviyyədə hazırlanmasına və böyük müvəffəqiyyətlə həyata keçirilməsinə səbəb olacaqdır. Bu müzakirə sovet demokratiyasının ən parlaq təzahürlərindən biri kimi qiymətləndirilməlidir.

Bununla yanaşı, layihənin yalnız bir cəhəti barədə öz mülahizələrimizi bildirmək istərdik. Biz məktəbdə şagirdlərin ümumi hazırlığı ilə əlaqədar fərdi qabiliyyətlərinin inkişaf etdirilməsi yollarını nəzərdə tuturuq.

Layihədə ümumtəhsil məktəbi şagirdlərinin maraqlarına əsasən fərdi qabiliyyətlərini dörd istiqamətdə inkişaf etdirmək nəzərdə tutulur. Bunlardan ikisi təlimlə, ikisi isə sinifdən və məktəbdənkənar tədbirlərlə bağlıdır. Əvvəla, sinifdənkənar vaxtlarda şagirdlərin maraqlarına görə klublara, texniki və bədii yaradıcılıq dərnəklərinə, idman bölmələrinə və s. tədbirlərə cəlb olunması tövsiyə edilir. İkincisi, şagirdlərin maraqlarına uyğun qabiliyyətlərini inkişaf etdirməli olan məktəbdənkənar uşaq müəssisələri şəbəkəsinin genişləndirilməsi vacib hesab edilir. Üçüncüsü, VIII-XI siniflərdə fakültativ məşğələlər yolu ilə şagirdlərə fiziki-riyaziyyat, kimya-biologiya və ya ictimai-humanitar silsilədən olan fənlər üzrə təmayül verilməsi planlaşdırılır. Dördüncüsü, X-XI siniflərdə şagirdlərin əmək təlimini maddi nemətlər istehsalının və qeyri-istehsal sahəsinin tələb etdiyi kütləvi peşələrə yiyələnmələri ilə birləşdirmək nəzərdə tutulur. Söz yox ki, burada da şagirdlərin istək və arzuları hesaba alınır.

Əlbəttə, ümumi hazırlıqla yanaşı, şagirdlərin fərdi qabiliyyətlərini üzə çıxarmaq və maksimum dərəcədə inkişaf etdirmək üçün mümkün olan şəraitin yaradılmasına çalışması da layihənin yaxşı cəhətlərindən biridir. Lakin ortaya bir sıra suallar çıxır: məsələn, fizika ilə, yaxud kimya və ya bədii yaradıcılıqla maraqlanan, buna görə də müvafiq dərnəklərdə fəaliyyət göstərən şagirdləri əlavə olaraq fizika, kimya və bədii yaradıcılıq üzrə fakültativ məşğələlərə cəlb etməyin, onları əlavə yüksəlməyin mənası ndir? Yaxud, yuxarı siniflərdə öz arzularına uyğun gələn kütləvi peşələrə yiyələnən şagirdlər əlavə olaraq nə üçün fakultativ məşğələlərə cəlb olunsunlar?

Fakultativ məşğələləri tədris planına daxil etməkdən başlıca məqsəd, görünür, ali məktəb üçün müəyyən sahələr üzrə nəzəri cəhətdən daha hazırlıqlı abituriyentlər yetişdirməkdir. Çünki, məşğələlər fizika-riyaziyyat, kimya-biologiya və ictimai-humanitar silsilələr üzrə məktəbdə şagirdlərə təmayül verir və onları əsasən ali məktəbə istiqamətləndirir.

Soruşmaq olar: bunun nəyi pisdir? Etiraf etməliyik ki, şagirdləri, ümumiyyətlə. Ali təhsil almaq üçün hazırlamaq özlüyündə yaxşı haldır. Layin məsələ burasındadır ki, eyni silsilədən odan fakultativ məşğələlər yuxarı siniflərin bütün şagirdlərini deyil, bir qrupunu əhatə edir. Üstəlik, belə məşğələlər həmin şagirdlərin kütləvi peşələrə yiyələnmələri işini də çətinləşdirir fakultativ məşğələyə gedən şagirdin məhsuldar əməmyə meyli zəifləyir, düşünür ki, ali məktəbə gedəcək, kütləvi peşə onun nəyinə gərəkdir?

VIII-XI siniflərdə fakultativ məşğələlər yolu ilə şagirdlərə müxtəlif təmayüllü və başqa-başqa həcmli bilik və bacarıqların verilməsi islahatın ruhuna uyğun hesab edilə bilməz. Şagirdlərin şüurunu təkcə fizika-riyaziyyat və ya kimya-biologiya, yaxud ictimai-humanitar silsilə olan fənlər üzrə biliklərlə zənginləşdirmək deyil, uşaqları ideya əqidəsi olan, sosialist Vətəninin yüksək əmək və davranış mədəniyyətli vətəndaşı kimi tərbiyələndirmək islahatın əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. İnsanı

formalaşdırmağın bu yeni istiqaməti, hər şeydən əvvəl, təhsilin məzmununda, bu məzmunu təyin edən tədris planında nəzərə alınmalıdır. Ümumtəhsil məktəbinin mövcud tədris planı isə bu tələbə lazımınca cavab vermir. Həmin məktəbin tədris planında həftəlik 310 saatın təqribən 203 saatı fizika-riyaziyyat, kimya-biologiya fənlərinə, habelə dillərin öyrənilməsinə ayrıldığı halda ədəbiyyata, tarixə, ictimaiyyata, coğrafiya, Sovet dövləti və hüququnun əsaslarına 48 saat, əsasən əmək tərbiyəsinə, fizika və estetik tərbiyəyə xidmət edən fənlərə isə cəmisi 59 saat verilmişdir. Deməli, mövcud tədris planında şairdlərin əxlaqi, əmək, fiziki və estetik tərbiyəsi imkanlarına, nisbətən əqli tərbiyə imkanlarına, yəni onların nəzəri hazırlığına daha çox üstünlük verilmişdir. Ümumi təhsilin məzmunu ilə əlaqədar bu cür uyğunsuzluğu olan tədris planına fizika-riyaziyyat, kimya-biologiya və ictimai-humanitar silsilədən olan fənlər üzrə əlavə fakultativ məşğələlər üçün əlavə saat daxil edilməsi, həmin fənləri ayrı-ayrı qrup-şagirdlərə daha dərindən öyrətməyə xüsusi səy göstərilməsi islahatın tələblərinə o qədər də uyğun gəlmir. Belə bir səy V.İ.Leninin vahid, əmək, politexnik məktəb ideyasına da lazımınca xidmət etmir. Fakultativ məşğələlər məktəbdə təhsilin nəinki vahidliyini pozur, həm də onun əməli xarakter daşımasına mane olur. Buna görə də biz güman edirik ki, VIII sinfə qədər bütün şagirdlərə vahid bilik və bacarıq verildiyi kimi, ümumtəhsil məktəbinin sonrakı siniflərində də vahidlik ideyasına tam əməl olunmalıdır: IX-XI siniflərdə də təhsil müstəsnasız olaraq bütün şagirdlər üçün vahid olmalıdır. Fakultativ məşğələlər tədris planında vahidlik ideyasını pozduğundan, yəni bütün şagirdlərə eyni dərəcədə xidmət etmədiyindən və onları istehsalata deyil, əsasən ali məktəbə istiqamətləndirdiyindən bu məşğələləri ümumtəhsil məktəbinin tədris planına daxil etməyi müasir dövr üçün faydalı hesab etmək olmaz.

VIII sinfə qədər nəzərdə tutulduğu kimi, IX-XI siniflərdə də dərsdən və məktəbdənkənar tədbirlər vasitəsilə şagirdlərin istək və arzularına uyğun şəkildə

qabiliyyətlərinin inkişafına davam etdirmək, onların həm həyata, həm dəali məktəbə ha-zırlanmasına kömək göstərmək daha çox səmərə verərdi. Əlbəttə, fənn dərnəklərində, maraqlar üzrə klublarda, texnika və bədii yaradıcılıq dərnəklərində, idman bölmələrində şagirdlərin fəaliyyətinə rəhbərlik edən müəllimlərin zəhmət haqqının ödənilməsi islahatda nəzərə alınmalıdır.

Bizdə belə bir möhkəm inam vardır ki, vahid təhsilin axıradək təmin olunmasını sinifdən və məktəbdənkənar tədbirlərin müxtəlifliyi ilə uzlaşdırmaq ümumtəhsil məktəbinin qarşısında qoyulan müasir vəzifələrin, o cümlədən şagirdlərin yetkin vətəndaş kimi həyata hazırlamaq vəzifəsinin daha müvəffəqiyyətlə yerinə yetrilməsinə xidmət edər.

**(«Azərbaycan müəllimi» qəzeti, 1984, 2 mart)**

## 9. NÖQSANLAR DA AZ DEYİL

Hər şeydən əvvəl, onu deyim ki, layihənin faydalı cəhətləri çoxdur. Elə ilk bölmədəcə təhsil sistemində kök salmış əsaslı nöqsanların nədən ibarət olduğu qabarıq şəkildə göstərilir.

Milli gəlirin 12-15 faizinin təhsil sistemi üçün ayrılmasının məsləhət görülməsi, məktəb üçün ayrılmış maliyyə vəsaitinin xərclənməsində pedaqoji kollektivə müstəqillik verilməsi, təhsil sisteminə aid olan məsələlərin əksəriyyətinin əhatə olunması konsepsiyanın faydalı cəhətləridir.

Bunlarla yanaşı, layihənin bir çox nöqsanları da vardır. Onlardan yalnız pedaqogika ilə bağlı olan bəzi məsələləri göstərmək istəyirəm.

Hər şeyjən əvvəl, bölmələrin başlıqlarında vahidlik yoxdur. On bölmədən beşi təhsil sistemi ilə (məslən, təhsil sisteminin iqtisadiyyatı), yerdə qalanı təhsillə (məsələn, təhsilin başlıca prinsipləri) əlaqədardır. Elə təsəvvür yaranır ki, guya «təhsil» və «təhsil sistemi» anlayışlarında fərq yoxdur. Layihənin məzmunu ilə tanışlıq da bu fikri təsdiq

edir. Təhsil və təhsil sistemi anlayışlarının yeniləşdirilməsi isə ciddi nöqsan hesab edilməlidir. Bu nöqsanı aradan qaldırmaq lazımdır.

Bundan başqa, layihədə gah sistemli təhsil, gah təhsil sistemi, gah fasiləsiz təhsil, gah dövlət təhsil sistemi; gah xalq təhsili, gah paralel təhsil; gah dövlət-ictimai təhsil, gah ictimai-dövlət təhsil sistemi; gah açıq təhsil sistemi, gah da müstəqil təhsil sistemi terminləri işlədilir. Elə hesab edirəm ki, terminlərdə vahidlik gözlənilməlidir.

Layihə «Azərbaycan Respublikasının təhsil konsepsiyası» adlanır. Layin başlığın altında «Azərbaycanın təhsil konsepsiyası» kimi təqdim edilir. Layihənin məzmunundakı ciddi dolaşıqlığın səbəblərindən biri də məhz pedaqoji anlayışların fərqinə məhəl qoymamaqdır.

Konsepsiyada təhsil sisteminin bilavasitə vəzifəsinə aid olmayan bəzi məsələlər onun vəzifəsinə aid edilir. Məsələn, yazılır ki, Azərbaycan təhsil sistemi öz qarşısına... yüksək sivilizasiyalı cəmiyyət qurmaq, Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirmək kimi tarixi vəzifə qoyur. İsbat etməyə ehtiyac yoxdur ki, heç ir tədris müəssisəsi bu cür vəzifələr yerinə yetirməklə bilavasitə məşğul olmur. Təhsilin real vəzifələrini göstərmək lazımdır.

«Təhsilin başlıca prinsipləri» adlanan 3-cü bölmədə isə müəlliflər, görünür, təhsili deyil, təhsil sisteminin prinsiplərini nəzərdə tutmuşdur. Bölmə belə də adlandırılmalıdır. İkincisi, bu bölmədə təhsilin bir sıra prinsipləri əhatə olunmamışdır (təhsilin fasiləsizliyi, təhsilin müyəssərliyi, təhsilin dünyəvi xarakter daşıması, təhsilin əsasən dövlət hesabına olması, təhsil sistemində varislik, təhsildə vahidlik və müxtəlifliyin vəhdəti və s.). Üçüncüsü, bəzi prinsiplərin, o cümlədən təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, humanitarlaşdırılması və s. prinsiplərin mahiyyətini açmaq əvəzinə, əhəmiyyəti izah edilir. Bu nöqsan da ləğv edilməlidir. Çünki təhsilin demokratikləşdirilməsi və

humanistləşdirilməsi prinsiplərinə aid verilən məlumat mahiyyətcə eyniyyət təşkil edir, fərq açılmır.

Layihə təhsilin fərdiləşdirilməsini, məzmununun inteqrasiya edilməsini, kompüterləşdirilməsini prinsiplər hesab edir. Razılaşmaq olmaz. Əvvəla, təhsil fərdiləşdirilə bilməz, fərdi xüsusyiyətlər nəzərə alına bilər ki, bu da təlim prinsiplərinə aiddir. Təhsilin inteqrasiyası ötücü, biryolluq xarakter daşıyır, təlimin yalnız məzmunu ilə, tədris planının tərtibi ilə əlaqədardır. Daha sonra, kompüterləşdirmə təhsil sistemi deyil, təlim vasitələrindən biri hesab edilir.

Layihədə yazılır ki, «təhsil sistemi məktəbəqədər, ümumtəhsil və peşə-ixtisas təhsilini əhatə etməklə ardıcıl və paralel təhsil strukturlarından ibarətdir». Bu fikirlə razılaşmaq çətindir. Çünki təkmilləşdirmə və özünütəhsil sistemdən kənarda qalır, təhsilin fasiləsizliyi nəzərə alınmaqla təhsilin bu vasitələri də təhsil sisteminə aid edilməlidir. İkincisi, layihə məktəbəqədər tərbiyəni təhsil sisteminin ilk mərhələsi hesab edir və ailə tərbiyəsini onun bir forması adlandırır. Bu fikirlə də razılaşmaq çətindir. Çünki ailə tərbiyəsi məktəbəqədər yaşla məhdudlaşmır, məktəb yaşında da davam edir. Uşaqlarda bir çox xüsusiyyətlərin bünövrəsi məhz ailədə qoyulur. Bu səbəbdən də ailə tərbiyəsi təhsil sisteminin bünövrəsi, onun zəmini hesab edilməlidir. Bu barədə də pedaqoji ədəbiyyatda kifayət qədər deyilibdir.

Ümumi təhsilin mərhələləri adlandırılarkən IV-VIII siniflərə yeni ad verilir: əsas təhsil. Yəqin ki, həmin mərhələni də ənənəvi şəkildə adlandırmaq məsləhət olardı: natamam orta təhsil.

Ümumi təhsilin son mərhələsi də layihədə elmi cəhətdən səhv ifadə edilmişdir: orta təhsil. Pedaqogikada çoxdan məlumdur ki, orta təhsil anlayışına ümumi orta təhsillə yanaşı, orta texniki peşə təhsili və orta ixtisas təhsili də aiddir. Görünür, müəlliflər orta təhsil deyəndə ümumi orta təhsili nəzərdə tutmuşlar. Əgər belədirsə, onda ümumi təhsilin son mərhələsi, dəqiq ifadə edilməlidir: ümumi orta təhsil.

Orta texniki peşə təhsilinin və orta ixtisas təhsilinin orta təhsilin digər növlərindən ayrılıb ali təhsillə bir pillədə verilməsi də layihənin nöqsanı hesab edilməlidir.

Layihədə ali təhsil pillələri həddən artıq mürəkkəbləşdirilib. Məsələn, ali təhsil iki və ya üç pillədən ibarət hesab edilir. Birinci pillə ümumi ali təhsil adlandırılır. Aydın deyil. Çünki layihə ali təhsili, o cümlədən ümumi ali təhsili peşə-ixtisas təhsilinə aetmişdir. Bu mənada ümumi ali təhsil və peşə –ixtisas təhsili anlayışları bir-biri ilə uyuşmur. Ziddiyyət aradan qaldırılmalıdır.

Təhsil sisteminin strukturu izah edilərkən təhsil və təhsil müəssisəsi anlayışları eyniləşdirilir. Məsələn, ardıcıl təhsil strukturuna aid edilən peşə-ixtisas təhsili müəssisələri bir qədər sonra peşə-ixtisas təhsili adlandırılır.

Ali məktəb müəllimlərinin keyfiyyətləri sadalanır, digər tədris müəssisələri müəllimlərinin keyfiyyətlərinə isə toxunulmur. Bütün müəllimlərə xas olan keyfiyyətlər əhatə olunmalıdır.

Təhsilin elmi-pedaqoji təminatı bölməsi xüsusilə yarıtmaz işlənmişdir. Burada da anlayışlar dolaşdırılır. Məsələn, yazılır ki, pedaqoji elmlərlə yanaşı, təhsilin iqtisadiyyatı, sosialogiyası, fəlsəfi problemləri və s. üzrə üzrə elmi araşdırmalar aparılır. Belə çıxır ki, həmin sahlər üzrə aparılan tədqiqatlar pedaqoji elmlərə aid deyil. Bu fikir tamamilə yanlışdır. Həmin istiqamətlərdə aparılan tədqiqatlar da pedaqoji elmin sahələridir.

Layihəyə görə, «təhsil dövlətin üstün inkişaf edən fəaliyyət sahsi elan olunur». Bu fikirlə razılaşmaq olmaz. Birincisi, təhsil dövlətin deyil, xalq təsərrüfatının tərkib hissəsidir. İsbat olunmuş bu fikri yenidən isbat etməyə ehtiyac yoxdur. İkincisi, belə çıxır ki, bu fikri layihənin müəllifləri birinci olaraq elan edir. Halbuki təhsilin dövlətin deyil, xalq təsərrüfatının sahələrindən biri olduğu elmi-pedaqoji aləmə çoxdan məlumdur.

Sadalanan və sadalamağa imkan olmayan faktlar göstərir ki, faydalı cəhətlərinə baxmayaraq, bütöv halda götürüldükdə, layihəni pedaqoji cəhətdən məqbul saymaq

olmaz. Layihə üzərində yenidən ciddi şəkildə işlənməlidir. Onun xüsusən elmi-pedaqoji qüsurları islah edilməlidir.

**(«Həyat» qəzeti, 1992, 5 may)**

## 10. KONSEPSİYA, YOXSA QANUNVERİCİLİYİN ƏSASLARI?

Gec də olsa Azərbaycan Respublikası təhsil konsepsiyasının layihəsi ümumxalq müzakirəsinə verilib. Bu hadisə irəliyə doğru addımdır. Lakin layihə ilə tanışlıq göstərir ki, onun bir sıra ciddi nöqsanları var. Bunları iki əsas qrupa ayırmaq olardı: 1) təhsil haqqında qanunvericiliyin əsaslarınaaid xüsusiyyətlərin layihəyə gətirilməsi; 2) təhsil konsepsiyası üçün səciyyəvi olmayan təfsilata, izaha, faktlara layihədə geniş yer verilməsi.

Layihə formaca konsepsiya adlandırılsa da, məzmunca konsepsiyadan daha çox təhsil haqqında qanunvericiliyin əsaslarına yaxındır. Təhsil haqqında qanunvericiliyin əsaslarında və layihədə bölmələrin və maddələrin adlarına nəzər salaq. Əsaslarda giriş var, belə bir giriş layihədə də vardır. Təhsil sisteminin prinsipləri əsaslarda da, layihədə də sadalanır. Təhsil sisteminin strukturu hər iki snəddə şərh edilir. Təhsil sistemi vəsillərinin vəzifələri orada da burada da açıqlanır. Təhsilin idarə olunması məsələlərinə hər iki snəddə yer verilir və s. və i.a.

Təhsil konsepsiyasının layihəsi ilə təhsil haqqında qanunvericiliyin əsasları arasında uyğunluq nəinki bölmələrin adlarında həm də bölmələrin məzmununa aid məsələlərin şərhində özünü göstərir. Əsaslarda, məsələn, təhsil sisteminin 13, layihədə 7 7 prinsipin adı çəkilir, yaxud əsaslarda məktəbəqədər tərbiyənin, peşə təhsili ümumi orta təhsilin, orta ixtisas təhsilinin, ali təhsilin vəzifələri konrketləşdirilir. Bu cür konrketləşdirmə layihəyə də xasdır və s.

Göründüyü kimi, təhsil konsepsiyasının layihəsi ilə təhsil haqqında qanunvericiliyin əsasları nəinki formağa, həm də

məzmunca bir-birinə uyğundur. Başqa sözlə desək, təhsil konsepsiyasının layihəsi əslində təhsil haqqında qanunvericiliyinəsasları kimi tərtib edilmişdir.

Belə bir vəziyyətlə razılaşılarsa ortaya təbii olaraq sual çıxır: təhsil konsepsiyası hazırki formada və məzmunda qəbul olunarsa gələcəkdə Azərbaycan Respublikasının təhsilinə dair qanunvericiliyin əsaslarını hazırlamağa ehtiyac qalarmı? Əlbəttə, yox! Halbuki təhsil sahəsində Azərbaycan qanunvericiliyinin yeni əsasları işlənməlidir. Layihə isə mövcüd vəziyyətdə konsepsiya tələblərinə cavab vermir. Bu şəkildə layihə konsepsiyadan daha çox qanunvericiliyin əsaslarına oxşayır.

Layihəni konsepsiyadan uzaqlaşdıran cəhətlərdən biri də təfərrüata varmaq, yersiz şərhlərə əl atmaq, lüzumsuz faktlar gətirməkdir. Bu səbəbdən də layihənin həcmi deyilməyəcək dərəcədə şişirdilmişdir. Məsələn, aşağıdakı qəbildən olan publisistik şərhlərin konsepsiyaya nə dəxli var? «Son illərdə müəllim özünün əvvəlki nüfuzunu itirmiş, onun ictimai həyatdakı rolu azalmışdır. Müəllimlərin bir çoxu ziyalı ölçülərinə cavab vermir. Buna görə də respublika miqyasında müəllimin nüfuzunu artırmaq üçün təsirli tədbirlər görülür». Konsepsiya anlayışına uyuşmayan bu cür publisistik şərhlər layihədə saysız-hesabsızdır.

Sual olunur: təhsil konsepsiyası layihəsinin təhsil haqqında qanunvericilik əsasları formasına düşməsini və orada publisistik şərhlərə geniş yer verilməsini nə ilə izah etmək olar? Bizcə, bunun başlıca səbəbini konsepsiyaya dair layihə müəlliflərində dürüst anlayışın olmamasında və bəzi yazıların təsiri altına düşmələrində axtarmaq lazımdır.

Bəs yaranmış vəziyyətdə çıxış yolu nədədir? Fikrimizcə iki çıxış yolu vardır.

Birinci yol. Hazırkı vəziyyətində layihə təhsil haqqında qanunvericiliyin əsaslarına daha çox oxşadığından onun adını dəyişdirmək üzərində bir qədər işləyib Azərbaycan respublikasında təhsilə dair qanunvericiliyin əsasları adlandırmaq.

İkinci yol. Layihə mahiyyətcə, məzmunca əsl təhsil konsepsiyası etmək üçün əsaslı şəkildə işlənməlidir.

Məndən soruşsalar: bu iki yoldan hansının tərəfdarısan? Cavab verərdim: ikinci yolun! Nə üçün? Çünki təhsil konsepsiyası hökmən yazılmalıdır. Axı, təhsil sahəsi üzrə dövlət sənədlərinin yaradılmasında müəyyən ardıcıllıq gözlənilir. Təhsil haqqında qanunvericiliyin əsasları təhsil konsepsiyasına uyğun tərtib edilir: təhsil sahəsində dövlət qanunu qanunvericiliyin əsaslarına uyğun hazırlanır; nəhayət, təhsilin ayrı-ayrı məsələləri üzrə normativ aktlar təhsil haqqında qanuna əsasən işlənir. Deməli, əvvəlcə təhsil konsepsiyası, sonra qanunvericiliyinəsasları, qanun və nəhayət, normativ aktları. Bu ardıcıllıq pozula bilər.

Mövcud vəziyyət göstərir ki, təhsil konsepsiyası üzərində iş təhsil konsepsiyası anlayışını dəqiqləşdirməkdən başlanmalıdır. Bu anlayışın mahiyyətini aydın təsəvvür etmədən həqiqi təhsil konsepsiyası yaratmaq mümkün deyil. Əks təqdirdə, müzakirəyə qoyulmuş layihədə olduğu kimi, təhsil konsepsiyasının, təhsil haqqında qanunvericilik əsaslarının və təhsil haqqında qanunun əlamətləri habelə publisistik xüsusiyyətlər mexaniki şəkildə bir-birinə qovuşacaqdır.

Elmdə məlumdur konsepsiya ümumi, başlıca ideyalardır; elə başlıca ideyalardır ki, sonra onlara istinad edərək həyatın müəyyən sahəsinə aid olan hadisə və faktları başa düşmək, izah etmk asanlaşır.

Azərbaycan Respublikasının təhsil konsepsiyası məhz bu cür başlıca ideyaları müəyyənləşdirməli və özündə ifadə etməlidir. Müzakirəyə verilmiş layihədə isə təhsilin demək olar, bütün sahələri və bütün məsələləri əhatə olunduğundan, özü də xırdaçılığa tam rəvac verildiyinjən, onun yəni təhsilin bəzi köklü ideyaları bu xırdaçılıqla itib-batmış. Onları tapıb seçmək müşkül işə çevrilmişdir; təhsilin bir çox başlıca ideyaları isə unudulmuşdur.

Layihədə sezilməsi mümkün olan və təhsil konsepsiyasına daxil edilməsi vacib sayılan başlıca ideyalar varmı? Vardır! Təhsilin məzmununu müəyyənləşdirərkən

milli zəminə, türk dünyasının və islam əxlaqının yüz illər boyunca yaratdığı mənəvi sərvətlərə, habelə ümumbəşəri dəyərlərə istinad edilməsinin zəruriliyini layihədə ifadə edən ideya buna misal ola bilər. Təəssüf ki, təhsilin bu cür köklü ideyaları olduqca azdır.

Təhsil konsepsiyasına daxil olunmalı, lakin layihə müəlliflərinin diqqətindən yayınmış başlıca ideyalara nümunə olaraq aşağıdakıları göstərə bilərik. Məlumdur ki, müəllim kadrları hazırlığında köklü nöqsanlardan biri ali pedaqoji məktəblərin tədris planları ilə bağlıdır. Müəllimin ümumi, xüsusi və pedaqoji hazırlığındakı mövcud nisbət yarığmazdır; müəllimin pedaqoji hazırlığına verilən vaxt onun ümumi və xüsusi hazırlığına ayrılıqda verilən vaxtdan qat-qat azdır. Bu nisbəti qaydaya salmaq zəruridir. Bu məqsədlə təhsil konsepsiyasına belə bir ideya daxil edilə bilər: «müəllim kadrları hazırlığını yeni dövrün tələblərinə uyğunlaşdırmaq üçün auditoriya məşğələlərinə ayrılan vaxtın otuz faizini pedaqoji hazırlığa vermək məsləhət görülür». Yaxud təhsilin vəziyyətini köklü şəkildə yaxşılaşdırmaq, xalq təsərrüfatının sonrakı inkişafında onun əhəmiyyətini nəzərə almaq, habelə təhsilin qalıq prinsipi ilə maliyyələşdirildiyini aradan qaldırmaq məqsədilə təhsil konsepsiyasına belə bir ideya daxil edilməlidir: «təhsil xalq təsərrüfatının sahələrindən biri hesab edilir və xalq təsərrüfatının sahəsi kimi maliyyələşdirilir».

Bizim möhkəm əqidəmizə görə təhsil konsepsiyası yalnız bu cür ən zəruri, ən köklü ideyaları özündə cəmləşdirməlidir. Və bu səbəbdən də Azərbaycan Respublikası təhsil konsepsiyasının müzakirəyə verilmiş layihəsi indiyədək deyilən qeydlər əsasında dərindən işlənməlidir.

**(«Azərbaycan müəllimi» qəzeti, 1992, 12 iyun)**

## 11. TƏHSİL HAQQINDA QANUN TƏKMİLLƏŞDİRİLMƏLİDİR

1992-ci il dekabrın 16-da qəbul olunmuş Azərbaycan Respublikasının Təhsil Qanunu gərgin əməyin məhsuludur.

Onun faydalı cəhətləri az deyil. Lakin bununla belə, həmin Qanuna yenidən baxmaq, onu təkmilləşdirmək zərurəti yaranmışdır.

Əvvəla, Təhsil Qanunu qəbul olunmuş yeni Konstitusiyanın bəzi tələblərinə uyğun gəlmir. Məsələn, Təhsil Qanununda yazılmışdır ki, təhsil sistemi qarşısında duran vəzifələr Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq həyata keçirilir. Yeni Konstitusiya elan etmişdir ki, dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

Bəs Təhsil Qanununda bu barədə nə yazılmışdır? «Əsas təhsil məcburidir». Məlum olduğu kimi, Təhsil Qanununa görə, «əsas təhsil» V-VIII sinifləri, ümumi orta təhsil isə IX-XI sinifləri əhatə edir.

Heç bir məntiqi dayağı olmayan «Əsas təhsil» ifadəsini və heç bir demokratiya çərçivəsinə sığmayan «məcburi» sözünü bir kənara qoyaraq yalnız məsələnin Konstitusiyada və Təhsil Qanununda qoyuluşuna diqqət yetirsək, məlum olar ki, mövcud Təhsil Qanunu yeni Konstitusiyaya uyğun gəlmir. Qanunu Konstitusiyaya uyğunlaşdırmaq lazımdır.

Zənnimcə, Ümumtəhsil məktəblərinin V-VIII siniflərini «Əsas təhsil» hesab etmək Azərbaycanda təhsilin inkişafında irəliyə deyil, geriyə doğru atılmış addım idi.

Çünki, Azərbaycan öz tarixində səkkizillik icbari təhsil mərhələsini çoxdan ötmüş və sonrakı inkişaf mərhələsinə – icbari ümumi orta təhsilə keçmiş bu yolla da xeyli irəliləmişdi.

Yeni Konstitusiya bizi bu bəladan xilas edir, təhsil sistemində yol verilmiş həmin nöqsanı aradan qaldırmaq üçün etibarlı hüquqi zəmin yaradır, məhz ümumi orta təhsilin icbari olduğunu elan edir. Bu yeni ideyaya uyğun olaraq təhsil sistemində köklü dəyişiklik aparmaq lazım gələcəkdir. Məsələn, mövcud Təhsil Qanununa görə peşə məktəbləri və peşə litseyləri əsasən VIII sinfi bitirən şəxslər hesabına komplekstləşdirilir. Qanuna görə peşə məktəblərində ümumi orta təhsil verilmir. Yenə həmin Qanuna uyğun olaraq orta ixtisas məktəbləri əsas təhsil,

ümumi orta təhsil, peşə məktəbləri və peşə litseyləri bazasında fəaliyyət göstərə bilərlər. İndi, Konstitusiyaya uyğun olaraq, bizim gənclər ən azı ümumi orta təhsil almalıdırlar. Buna uyğun olaraq, nəinki ümumtəhsil məktəblərinin strukturunda, habelə peşə məktəblərinin, peşə litseylərinin, orta ixtisas məktəblərinin strukturunda və iş məzmununda köklü dəyişikliklər aparmaq lazım gələcəkdir.

Təhsil Qanununu təkmilləşdirməyi zərurətə çevirən ikinci amil təhsil Qanununun mətnindəki dolaşıqlıqlardır. Dolaşıqlardan biri pedaqoji terminlərdn düzgün istifadə edilməməsidir. Təhsil Qanununda, məsələn, «tədris planı», «tədris proqramı» anlayışları ilə yanaşı «təhsil proqramı» anlayışı da daxil edilmişdir ki, bu da Təhsil Nazirliyinin və məktəblərin əməli işində anlaşılmazlıqlar yaradır. Bəla burasındadır ki, təhsil proqramı orada tədris planı mənasında işlədilmişdir. Belə olduğu halda nə üçün indiyədək hamının birmənalı başa düşdüyü tədris planı anlayışı işlədilməsin və nə üçün heç kəsə aydın olmayan, hərənin bir cür yozduğu təhsil proqramı anlayışı ciddi dövlət sənədinə daxil edilsin? Yaxud, Qanunda dönə-dönə «təhsil sistemi müəssisələri» və «təlim-tərbiyə müəssisələri» anlayışları işlədilir. Diqqətlə nəzərdən keçirildikdə aydın olur ki, onlar eyni məna ifadə edirlər. «Təhsil prosesi» və «Təlim-tərbiyə prosesi» anlayışları da bu qəbildəndir.

Fikirdə qeyri ardıcıllıq da mövcud təhsil Qanunu üçün ciddi qüsur hesab edilməlidir. Məsələn, maddə 9-da təhsili idarəetmə orqanları və təhsil proqramlarının məcmusu da təhsil sistemi anlayışına daxil edilmişdir. Lakin maddə 11-də təhsil sisteminin quruluşu açılarkən nə təhsil proqramlarının, nə də təhsil idarəetmə orqanlarının adı çəkilir.

Burada iki chətə də toxunmaq yerinə düşərdi. Birincisi budur ki, təhsil proqramları təhsil sisteminin bir mərhələsi və ya həlqəsi ola bilməz. Həmin proqramlar tədris planları və dərsliklərlə birlikdə təhsilin məzmununa aiddir. Bundan əlavə, müəlliflər təhsil proqramları deyəndə tədris proqramlarını nəzərdə tutmuşlar.

İkinci mətləb budur ki, mövcud təhsil Qanununda səhvən işlədilən «təhsil proqramı» anlayışına o qədər aludəçilik olmuşdur ki, hətta orada təhsil proqramları adı ilə ona xüsusi – 10-cu maddə də həsr edilmiş və bu səhv mövqeyə uyğun olaraq fövqəladə proqramlar komissiyaları təzələnməli idi. Sonra bu əsasda tədris proqramları təkmilləşdirilə bilərdi.

Təhsil işçiləri üçün qaranlıq olan, bir-birindən fərqləri qeyri-müəyyən olan termin və anlayışlara «ixtisas sinifləri», «ixtisaslaşdırılmış fənn məktəbləri», «fənn məktəbləri» anlayışları da aid edilə bilər. Bu cür «siniflər» və ya «məktəblər», o cümlədən, gimnaziyalar və litseylər təhsil sisteminin hansı pilləsinə aid edilir? Qanunda bu suala cavab tapmaq olmur.

Təhsil Qanununun lazımınca işləmədiyinin səbəblərindən birini də Qanunda məzmuna yox, formaya üstünlük verilməsində axtarmaq lazımdır. Formalizm Təhsil Qanununda bir çox cəhətdən özünü göstərir: 1) Təhsil üçün yeni olan bir sıra tədbirlərin adı çəkilir, lakin məzmunu açılmır. 2) Bir sıra faydalı tədbirlərin görüləcəyi vəd edilir, lakin onlara əməl olunmur. 3) Təhsil və onun idarə olunmasında köklu yeniliklər çox halda söz olaraq qalır, işdə isə əsl yenilik duyulmur.

1. Məsələn, «bakalavr», «magistr», «dünya təhsil standartları», «dövlət təhsil standartı», «baza tədris planı» kimi Azərbaycanda təhsil üçün yeni olan anlayış və terminlərin məzmunu Qanunda dəqiq ifadə olunmur.

2. Təhsil Qanununun, məsələn, 31-ci maddəsində göstərilir ki, Azərbaycan Təhsil Nazirliyi təzsil sisteminə elmi rəhbərliyi təmin edən struktur yaradır. Yaxud maddə 39-da yazılır ki, təhsil müəssisələrinin elmi nəzəri və metodik problemlərini həll edən… Azərbaycan Dövlət Elmi Tədqiqat Təhsil Problemləri Mərkəzi yaradılsın. Bu cür tədbirlər təəssüf ki, kağız üzərində qalmış, nəzərdə tutulduğu kimi həyata keçirilməmişdir.

3. Təhsil Qanunu qəbul edilənə qədər və qəbul olunandan sonra istər ümumtəhsil məktəblərində, istərsə də ali məktəblərdə işlədilmiş tədris planları müqayisə edilərsə

mahiyyətcə fərqin olmadığı yəqinləşir. Məsələn, sual olunur: bakalavr adlandırdığımız elmi dərəcə və ixtisas əvvəllər verdiyimiz ixtisasdan nə ilə fərqlənir? Real cavab belədir: beş il ərzində əvvəllər öyrətdiyimiz ixtisas indi dörd ildə öyrədilir. Başqa sözlə, beş ildə nəzərdə tutulmuş biliklər, bacarıq və vərdişlər 20 faiz azaldılmışdır. Belə çıxır ki. Pedaqoji yükün mexaniki şəkildə azaldılması bakalavr ixtisası verəcəkdir.

Təhsil Qanununun köklü nöqsanlarından biri təhsil sisteminin idarə edilməsinə onun toxunmaması, idarəetməni təkmilləşdirmək üçün zəruri olan tədbirləri nəzərə almamasıdır. Təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərini açıqlayan 2-ci maddədə də təhsilin demokratikləşdirilməsi, təhsilin dövlət-ictimai xarakter daşıması təhsil müəssisələrinin müstəqilliyinin artırılması kimi prinsiplər də qeyd edilir. Gözləmək olardı ki, dövlət siyasətinin bu cür prinsiplərinə söykənərək və onları həyata keçirərək təhsilin idarə edilməsi təkmilləşdirilcək və sadələşdiriləcək. Əslində isə bunun əksi müşahidə olunur: təhsili idarəetmə orqanları artırılır. Ştatları şişirdilir, bir-birini təkrar edən strukturlar əmələ gəlir. Nəticədə təhsilin demokratikləşməsinə doğru deyil, bürokratlaşmasına doğru meyl güclənir.

Göstərilən nöqsanlardan belə bir ümumi nəticə çıxır: müstəqil Azərbaycan Respublikasında təhsil sahəsinə irəliləyişi təmin etmək üçün təxirə salınmadan Təhsil Qanununa yenidən baxmaq, onu yeniləşdirmək və reallığa uyğunlaşdırmaq lazımdır.

**(«Xalq qəzeti» 1996, 27 yanvar)**

## 12. MÜSTƏQİL DÖVLƏTƏ MÜSTƏQİL TƏHSİL QANUNU GƏRƏKDİR

Təhsil hər bir şəxslə, bütövlükdə xalqla sıx bağlı olan vacib sosial fəaliyyət sahəsidir. Bu səbəbdən də heç kəs təhsil qanununa, onun necəliyinə laqeyd qala bilməz. Bir də ona görə ki, təhsil qanunu nə qədər kamil olarsa,

Azərbaycan Respublikasının dövlət müstəqilliyinə bir o qədər səmərəli xidmət edər.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının təhsil qanunu yenidən işlənir. Çünki qanunda elmi cəhətdən lazımınca ölçülüb-biçilməmiş müddəalar var. Belə müddəaları aradan qaldırmaq və təhsil təcrübəsi baxımından qanunu təkmilləşdirmək lazımdır.

Qanunun işlənmiş yeni variantı keyfiyyətcə xeyli yaxşılaşmışdır. Bununla belə, mənim fikrincə, düzəldilməsinə və dəqiqləşdirilməsinə, habelə layihə adlandırılan yeni variantdan çıxarılmasına, bəzi vacib məsələlərin əlavə olunmasına ehtiyac duyulur.

İradlardan biri bəzi anlayışların pedaqogika elmində olduğu kimi deyil, bir sıra şəxslərin subyektiv fikri kimi verilməsi ilə bağlıdır. Layihənin ilk cümləsinə nəzər salaq: «Təhsil insanın cəmiyyətin və ölkənin inkişafına xidmət edən strateji əhəmiyyətli üstün fəaliyyət sahəsi olmaqla, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təmin edən təlim-tərbiyə prosesinin nəticəsidir».

Mütəxəssis olmayan şəxs üçün burada hər şey yerli – yerindədir. Əslində isə həmin fikir elmi cəhətdən xeyli qüsurludur. Əvvəla, təhsil təlim-tərbiyə prosesinin yalnız nəticəsi deyil. Pedaqogika elmində isbat olunmuşdur ki, təhsil bir halda təlim-tərbiyənin nəticəsi, digər halda isə təlim-tərbiyənin şərti, zəminidir. İkincisi, bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsini təhsil kimi təqdim etmək onu fasiləsiz təhsil anlayışı ilə eyniləşdirmək deməkdir. Üçüncüsü, təhsil ümumiləşmiş anlayış kimi onun ayrı-ayrı formaları və tiplərini özündə birləşdirir. Dördüncüsü, bilik, bacarıq və vərdişlər təhsilin bu və ya digər konkret mərhələsi üçün sistemləşdirilir, bu səbəbdən də onların yeni «bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsi» real deyil. çünki gənc nəslin bir qismi yalnız ali təhsillə və s. kifayətlənir.

Göründüyü kimi, layihənin ilk fikri elmi cəhətdən ciddi qüsurlardan xali deyil. dil və üslub cəhətdən səlis ifadə

olunan, lakin elmi pedaqoji baxımdan nöqsanlı fikirlər layihədə, təəssüf ki, yenə qalmaqdadır.

Məzmunu hələ mütəxəssislər üçün aydın olmayan anlayışlar layihədə az deyil. Məsələn, layihədə bu cür anlayışlar işlədilir: «Dövlət proqramları», «Təhsil proqramları», «Tədris proqramları», «Nümunəvi təhsil proqramları», «Dövlət təhsil standartları», «Minimum təhsil standartları», «Baza tədris proqramları», «Proqramlar» və s və i.a.

Həmin anlayışlara ötəri də olsa nəzər salan şəxsdə, istər-istəməz, bir sıra suallar əmələ gəlir: təhsil sahəsində «Dövlət proqramları» və «Dövlət təhsil standartları» nə ilə fərqlənir? «Təhsil proqramları» və «Nümunəvi təhsil proqramları» nədir? «Təhsil proqramları» və «Tədris proqramları» necə başa düşülməlidir? «Baza proqramları» və «Proqramlar» nə deməkdir? Bu cür qarmaqarışıqlığı nə ilə izah etmək olar? Bu cəhətdən layihə təhsilə necə xidmət edə bilər?

Layihədə «Təhsil proqramları» adlı 10 saylı xüsusi maddə var. Burada məktəbəqədər təhsil proqramlarının, ibtidai təhsil proqramlarının, natamam orta təhsil proqramlarının, orta ümumtəhsil proqramlarının və s. və i.a. proqramların adları çəkilir.

Bu cür təhsil proqramları heç bir məktəbdə yoxdur. Əgər həmin təhsil proqramları varsa və Təhsil nazirliyində saxlanırsa, onların mahiyyəti nədən ibarətdir? Təhsilin müəyyən mərhələsi üçün nəzərdə tutulan «Təhsil proqramı» təhsilin inkişaf perspektivini əks etdirirsə, həmin sənədi olduğu kimi adlandırmaq düzgün olmazmı? Məsələn, belə: «İbtidai təhsilin inkişaf proqramı» və s.

Əgər təhsil proqramları başqa məna daşıyırsa, layihədə bunu aydın, hamının başa düşəcəyi formada ifadə etmək daha münasib olmazmı?

Yuxarıda istinad etdiyimiz maddənin bir saylı bəndində məsələyə guya aydınlıq gətirilərək yazılır: «Təhsil proqramları müxtəlif təhsil mərhələsində müəyyən olunmuş səviyyə və istiqamətlər üzrə təhsilin məzmununu müəyyən edir». Əgər həqiqətən belədirsə, bəs nə üçün maddə 8-in bir

saylı bəndində bu vəzifə dövlət təhsil standartlarına şamil edilir: «Mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasının bütün tipdən olan təhsil müəssisələrində tədris proqramlarının zəruri minimum məzmununu… müəyyənləşdirən dövlət təhsil standartları tətbiq olunur».

İndi soruşulur: «Təhsilin məzmununu» və ya «Tədris proqramlarının məzmununu» müəyyənləşdirən təhsil proqramlarıdır, yoxsa dövlət təhsil standartları? Əgər bunların arasında fərq yoxdursa, yəni əgər «təhsil proqramları» və «dövlət təhsil standartları» eyni vəzifəyə – təhsilin məzmununu müəyyənləşdirməyə xidmət edirsə, nə üçün biri 10 saylı maddədə, digəri isə 8 saylı maddədə verilir.

Təkrar edirəm: layihədə bütün anlayışlar elmi cəhətdən diqqətlə ölçülüb biçilməlidir. Pedaqogika kursu tələbələrə öyrədir ki, təhsilin məzmunu üç başlıca sənəddə: tədris planlarında, tədris proqramlarında və dərsliklərdə əks olunur.

Təhsil qanununda olduğu kimi, layihədə yenə bəzi pedaqoji prinsiplər təhsil sahəsində dövlət prinsipi kimi verilir və ya adi məsələlər dövlət prinsipi səviyyəsinə qaldırılır. Təhsilin fərdiləşdirilməsi, təhsildə tamlıq, təhsildə varislik, təhsildə çeviklik və s. buna misal ola bilər. Dövlət prinsipi kimi təqdim edilən təhsilin fərdiləşdirilməsi real həyatda, təhsil işində mümkün deyil. təhsili fərdiləşdirmək üçün hər şagirdin və ya tələbənin meyl və maraqlarına uyğun tədris planı, tədris proqramı və dərslik hazırlamaq lazımdır. Buna heç bir dövlət heç bir zaman vəsait ayıra və öhdəsindən gələ bilməz. Təlim və tərbiyə işində fərdi xüsusiyyətlərin nəzərə alınması pedaqoji prosesin prinsiplərindən biri kimi müəllimlərimizə çoxdan məlumdur.

Təhsildə tamlıq qeyri-müəyyəndir, uydurmadır. Tamlığı təhsilin bütün mərhələlərinə deyil, şərti olaraq yalnız ümumi təhsilə şamil etmək olar.

Təhsildə varislik indiyədək pedaqoji prosesin prinsipin kimi başa düşünülüb və tətbiq edilibdir. Güman edirəm ki, onu dövlət prinsipi səviyyəsinə qaldırmağa ehtiyac yoxdur.

Təhsildə çeviklik dövlət prinsipi kimi layihədə qalarsa, təhsil sahəsindəki məmurlar üçün ondan suiistifadə imkanı yaranar: istədikləri kimi hərəkət edərək adını çeviklik qoya bilərlər.

Deyilənləri nəzərə alaraq təklif edərdim ki, təhsilin fərdiləşdirilməsi, təhsildə tamlıq, təhsildə varislik, təhsildə çeviklik kimi prinsiplər layihədən çıxarılsın.

Güman edirəm ki, layihədə elmi adların və elmi dərəcələrin verilməsinə aid maddə 15-in və maddə 24-ün tələbələri arasında ziddiyyət var. Maddə 15-in 4-cü bəndində yazılır ki, «Dövlət akkreditəsindən keçmiş qeyri-dövlət təhsil müəssisəsinin elmi şurası, elmi pedaqoji işçilərə elmi adların və elmi dərəcələrin verilməsi haqqında müvafiq icra hakimiyyəti orqanı qarşısında vəsatət qaldırmaq və öz elmi adlarını vermək hüququna malikdir». Maddə 24-ün 1-ci bəndində isə göstərilir ki, «elmlər namizədi», «elmlər doktoru» elmi dərəcələri ixtisaslaşdırılmış elmi şura tərəfindən verilir və müvafiq qaydada təsdiq edilir.

Belə düşünürdüm ki, elmi dərəcələrin və elmi adların verilməsinə dair respublikada iki qaydanın mövcud olması yalnız hərc-mərcliyə səbəb olur. Fikrimcə, qeyri-dövlət təhsil müəssisələri də maddə 24-ün tələblərindən istifadə etməlidir. Çalışmaq lazımdır ki, elmi adların və elmi dərəcələrin verilməsi və təsdiqində vahid qayda olsun.

Layihədə təhsil müəssisələrinin elmi təminatı məsələsi əsasən qanunda olduğu kimi qalır, təhsilə heç nə vermir, heç bir yenilik gətirmir. Məsələn, maddə 36-nın birinci bəndi boş söz yığnağını xatırladır. İkinci bənd də qeyri-müəyyəndir: «təhsilin elmi nəzəri, praktik və metodik məsələlərini kompleks araşdırmaq üçün elmi-tədqiqat institutlarının və bölmələrinin şəbəkəsi yaradılır».

Hansı adda institutlar yaradılır, məlum deyil!

Əminəm ki, bu cür naməlum institutlar şəbəkəsinin yaradılması söz olaraq kağız üzərində qalacaq. Təhsil Nazirliyi kollegiyasının məlum qərarı kimi!

SSRİ dağılandan və Azərbaycan Respublikası dövlət müstəqilliyi qazanandan sonra başqa sahələrdə olduğu kimi, pedaqoji elmlər sahəsində də əlaqələr kəsilmişdir. Belə bir şəraitdə Təhsil Nazirliyi haqlı olaraq Azərbaycanda Pedaqoji Elmlər Akademiyası yaratmaq üçün yuxarı orqanlar qarşısında məsələ qaldırmaq barədə qərar qəbul etmişdir. Təəssüf ki, həmin qərar kağız üzərində qalmışdır. İndi təhsil qanunu üzərində iş aparıldığı bir zamanda, həmin qərarı reallaşdırmaq olar. Bu məqsədlə təklif edərdik ki, maddə 36-nın ikinci bəndi belə ifadə olunsun: «Təhsil müəssisələrində, elmi tədqiqat və təkmilləşdirmə institutlarında, habelə digər təşkilat və müəssisələrdə təlim, tərbiyə və təhsil sahəsində aparılan tədqiqatları əlaqələndirmək və təhsil qanununun həyata keçirilməsində ortaya çıxan problemlərin elmi həllinə vaxtında nail olmaq məqsədi ilə Azərbaycan Elmlər Akademiyasının strukturunda pedaqogika və psixologiya bölməsi yaradılır».

Təhsil qanununun və layihənin nöqsanlarından biri də islahatın Təhsil Nazirliyindən yan keçməsidir. Məsələ burasındadır ki, təhsildə islahat aparılır, lakin təhsilə bilavasitə rəhbərlik edən nazirliyin strukturunda və vəzifələrində aparılmalı islahata toxunulmur. Təklif edərdim ki, bu məsələ layihədə nəzərə alınsın və belə yazılsın: «Tədris müəssisələrinin müstəqilliyi artırıldıqca və təhsildə demokratikləşmə gücləndikcə müvafiq icra hakimiyyətinin strukturu və vəzifələri təkmilləşdirilir».

Məncə, təhsil qanununda və müzakirə etdiyimiz layihədəki qüsurların başlıca səbəblərindən biri müstəqil düşümə tərzinin azlığıdır. Layihənin müzakirəsinə bəzən mən də dəvət olunmuşam. Bir çox halda bu və ya digər məsələyə, məsələnin qoyuluşuna etiraz edəndə və ya başqa təklif verəndə yazılmış variantı müdafiə etmək üçün yoldaşların gətirdikləri dəlil çox halda belə olurdu: «Rusiyanın qanununda belə yazılıb», «filan ölkədə belədir».

Mən başqalarından öyrənməyin əleyhinə deyiləm. Dünya təcrübəsini öyrənmək lazımdır. Təcrübəni öyrənmək isə onu yamsılamaqdan ibarət olmamalıdır. Müstəqil düşünmək, müstəqil yazıb yaratmaq vaxtıdır.

Layihə təkcə dil, üslub cəhətdən deyil, birinci növbədə elmi-pedaqoji cəhətdən də ciddi işlənməlidir.

**(«Azərbaycan» qəzeti, 27 fevral, 1998)**

## 13. BU GÜNÜMÜZ VƏ GƏLƏCƏYİMİZ NAMİNƏ

Layihənin ümumxalq müzakirəsinə çıxarılması pedaqoji ictimaiyyətin də, validenylərin də ürəyincə oldu. Təhsilin bugünü, onun nəinki təhsil işçilərini, bütün şagirdləri və tələbələri, onların valideynlərini, həm də idarə və müəssisə işçilərini, dövlət adamlarını maraqlandırır.

Deməliyəm ki, layihənin son variantı əvvəlki variantlardan əhəmiyyətli dərəcədə fərqlənir. Görünür ki, söylənmiş təkliflərin xeyli hissəsi çap olunmuş layihədə nəzərə alınmışdır. Məsələn, mətbuatda dönə-dönə yazılmış və müəllimlərin son qurultayında xüsusi səslənmiş respublikamızda Pedaqoji Elmlər Akademiyasını yaratmağın zəruriliyinin xüsusi qeyd edilməsi yeni layihənin ən ciddi, ən perspektivli uğuru hesab edilməlidir. Belə bir akademiyanın Azərbaycan Respublikasında yaradılacağının əhəmiyyəti təkcə təhsilin ölkəmizdə sonrakı inkişafına güclü təkan verəcəyi ilə məhdudlaşmayacaqdır. Azərbaycanda Pedaqoji Elmlər Akademiyasının yaradılması təhsil və pedaqoji elmlərin vasitəsi ilə ölkəmizdə dövlət müstəqilliyinin daha da möhkəmlənməsinə əlavə kömək olacaqdır. Azərbaycanda meydana çıxan yeni təhsil problemləri, nəhayət, elmi əsaslarda öyrənilməli və həll edilməli olacaqdır.

Magistratura ilə yanaşı aspiranturanın da fəaliyyət göstərməsini lazım bilən yeni layizənin mövqeyi müdafiə olunmalıdır. Bəzilərinin fikrincə magistratura olan yerdə aspiranturaya ehtiyac qalmr. Bu fikrə bəraət qazandırmağa

çalışanlar xarici ölkələrdə aspiranturanın olmadığını dəlil gətirirlər.

Deməliyik ki, həmin fikirlə razılaşmaq çətindir. Çünki əvvəla, aspirantura təcrübəsi Azərbaycanda özünü doğrultmuşdur; ikincisi, hər şeydə xarici kor-koranə yamsılamaq da bəzən fayda əvəzinə zərər gətirir; üçüncüsü, magistraturaya görə aspiranturanın ləğvini istəyənlər, özlərindən asılı olmayaraq, aspiranturanı magistratura ilə eyniləşdirmiş olurlar. Halbuki, magistr birinci elmi dərəcə, aspiranturanı müvəffəqiyyətlə başa vuraraq elmlər namizədi alimlik dərəcəsi almaq isə daha yüksək-ikinci elmi dərəcə hesab edilir.

Pedaqoji terminlərin işlədilməsində yol verilmiş dolaşıqlıqların xeli hissəsinin yeni layihədə aradan qaldırılması da onun (layihənin) xeyrinədir.

Bununla belə, layihədə nəzərə alınması arzu olunan bəzi məsələlər yenə qalmaqdadır. Layihədə haqlı olaraq yazılır ki, magistr dərəcəli mütəxəssislər ali təhsil müəssisələrinin «bakalavr» pilləsində müəllim, elmi işçi… kimi fəaliyyət göstərə bilərlər. Layihənin bu düzgün fikri qeyri-pedaqoji ali məktəblərin magistlər hazırlamaq təcrübəsi ilə ziddiyyət təşkil edir. Çünki həmin ali məktəblərin rəhbərləri magistrlərin müəllimliyə hazırlanmasına xidsət edən «Ali məktəb pedaqogikası» kursunu tədris planından çıxarmışlar. Magistrlər hazırlığında yol verilmiş həmin ciddi nöqsanı aradan qaldırmaq məqsədi ilə təklif edərdik ki, maddə 22-nin 4-cü bəndinin sonuna belə bir fikir əlavə olunsun: «Magistrlərə elmi tədqiqat hazırlığı və pedaqoji hazırlıq verilir».

Mahiyyətcə təkrar olunan fikirlər yeni layihədə tam aradan qaldırılmamışdır. Məsələn, təhsil proqramlarının əlaqələndirilməsi adlanan maddə 11 mahiyyətcə təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri adlanan maddə 1-in üçüncü, dördüncü və on ikinci prinsiplərinin məzmununu açıqlayır. Fikrimizcə, bu cür izahata qanunda ehtiyac yoxdur. Əks təqdirdə, yerdə qalan prinsiplərə də açıqlama verilməlidir.

Anlaşılmazlıqlara səbəb olan və xalq cəbhəsinin vaxtında qanuna daxil edilmiş, layihənin bir variantından digərinə köçürülən məsələlərdən biri «Təhsil proqramları» adlandırılan məsələdir. Biz bunu, Təhsil Qanununun 7 il ərzində lazımınca işləməməsinin səbəblərinə aid edərdik. Çünki indiyədək təhsil işçilərindən heç kəs «Təhsil proqramları»nın və demək olduğunu aydın təsəvvür etməmişdir və bu səbəbdən də o, havadan asılı qalmışdır. Təhsil işçisinə məlum olan «Təhsil proqramı» deyil, «başa tədris planı», konkret «tədris planı» və «tədris proqramları»dır. Deyilənləri nəzərə alaraq «Təhsil proqramları» adlı maddə 10-un layihədən çıxarılmasını faydalı hesab edərdik. Təhsil müəssisələrində heç kəsin işlətmədiyi, heç kəsin əsaslanmadığı «Təhsil proqramları» deyilən maddənin atılması qanunu yüngülləşdirər və işləkliyini artırardı.

Layihədə çətin anlaşılan, onun məzmununu mürəkkəbləşdirən məsələlərdən biri də təhsil müəssisələrinin tiplərini adlandırmaqla bağlıdır. Peşə və ya ixtisasla əlaqədar təhsil müəssisələrinin tipləri layihədə belə adlandırılır: ibtidai peşə-ixtisas, orta peşə-ixtisas və ali peşə-ixtisas.

Formal məntiq cəhətdən bu bölgü ağlabatandır. Çünki hər üçündə «peşə-ixtisas» ifadəsi var. Lakin məna cəhətdən həmin bölgünü məqbul saymaq çətindir. Çünki əvvəla, peşə məktəblərində və litseylərdə ixtisas verilmir; ikincisi, layihədə dühgün yazıldığı kimi, «Peşə məktəbləri sadə, litseylər isə mürəkkəb peşələri öyrədir; üçüncüsü, peşə məktəblərini bitirənlərə «sənət dərəcəsi» verilir». Bu səbəblərə görə həmin məktəbləri hamının başa düşdüyü və indiyədək olduğu kimi «Peşə məktəbləri» adlandırmaq daha düzgün olardı. Peşə məktəblərində peşə ilə yanaşı ixtisas öyrədilmədiyindən, həmin məktəblərin adına «ixtisas» sözünü əlavə etmək, sadəcə, məntiqsizlikdən başqa bir şey deyil.

Orta ixtisas verən məktəblərə gəldikdə deməliyik ki, onların adlarında «peşə» sözünün işlədilməsi yersizdir. Çünki bu məktəbləri qurtaran şəxslərə, peşə məktəblərində olduğu kimi, «sənət dərəcəsi» deyil, «kiçik mütəxəssis» dərəcəsi verilir. Bu səbəbdən də həmin məktəbləri, əvvəllər olduğu kimi, «orta

ixtisas məktəbləri» adlandırmaq daha həyati, daha məntiqli olardı. Adda «orta» sözü ona görə zəruridir ki, orta ümumtəhsil məktəblərindən fərqi duyulsun.

Ali məktəblərin adında isə nə «peşə», nə də «ixtisas» sözlərinə ehtiyac var. Çünki əvvəla, ali məktəb peşə vermir. İkincisi, ali məktəblərin hamısı bakalavr və ya magistr ixtisas dərəcələri verir. Hazırda həmin dərəcələri verməyən ali məktəb yoxdur. Bu səbəblərdən də həmin təhsil müəssisələrinin «Ali məktəb» adlandırılması daha təbii olardı. Onu da xatırladaq ki, müzakirə etdiyimiz layihənin son variantının bir çox maddələrində ali təhsil verən müəssisələr düzgün olaraq elə «Ali məktəb» adlandırılır.

Təhsil sahəsində müşahidə olunan nöqsanlara heç bir münasibət göstərmədiyi layihənin nöqsanlarından biri hesab edilməlidir. Təhsil sistemində rüşvətxorluq və müxtəlif bəhanələrlə valideynlərdən pul yığmaq hallarına göz yummaq olmaz. Bu cür halların mövcudluğunu nəzərə alaraq təklif edərdik ki, layihədə belə bir fikir səslənsin: «Təhsil sahəsində rüşvətxorluq və valideynlərdən pul yığmaq halları yolverilməzdir».

Ödənişli təhsillə əlaqədar. Məlum olduğu kimi, büdcədən maliyyələşdirilən ali təhsil müəssisələrində ödənişli qəbula izacə verilmiqdir. Bizim möhkəm əqidəmizə görə, bu qayda pedaqoji təmayüllü ali məktəblərə şamil edilməməlidir. Çünki pedaqoji təmayüllü ali məktəblərdə müxtəlif formada pul verib təhsil alan məzunlar mənimsədikləri həmin zərərli adətləri özləri ilə işlədikləri tədris müəssisələrinə gətirirlər. Təhsilən gələcəyinə həmin adətlərin vuracağı ziyanı qabaqcadan görmək çətin deyil. Deyilənləri nəzərə alaraq təklif edərdik ki, layihəyə belə bir fikir əlavə edilsin: «Pedaqoji təmayüllü ali məktəblərdə ödənişli qəbul məqsədəuyğun hesab edilmir».

Əminik ki, ümumxalq müzakirəsində irəli sürülən təkliflər nəzərə alınarsa, layihə respublikamızda təhsilə daha çox uğur gətirər.

**(«Azərbaycan» qəzeti, 1999, 7 aprel)**

# 14. TƏHSİL QANUNU LAYİHƏSİ: PEDAQOJİ CƏHƏTDƏN TƏKMİLLƏŞDİRİLMƏYƏ EHTİYAC VAR

Etiraf etməliyik ki, yeni Təhsil Qanunu layihəsinin son variantın əvvəlki variantlarına nisbətən həm forma, həm də məzmun cəhətdən xeyli təkmilləşdirilmişdir. Üslubu yaxşılaşmış, bir çox maddələr daha aydın ifadə edilmişdir. Bununla belə, layihənin son variantında bir sıra məsələlərin elmi-pedaqoji cəhətdən daha dürüst ifadə edilməsinə ehtiyac duyulur. Həm də ona görə ki, bu layihə təsdiq olunandan sonra yaxın gələcəkdə ona yenidən baxmaq, üzərində yenidən işləmək qeyri-mümkün olacaq. Qanunun uzun müddət fəaliyyətdə olacağı şübhə doğurmur. Bu səbəbdən də, bir mütəxəssis kimi, təhsilin müqəddəratına heç vaxt biganə qalmamışam, indi də biganə qala bilmərəm. Qəzet məqaləsi imkan vermədiyindən, layihəyə yalnız pedaqoji terminologiya cəhətdən toxunmaq istərdim. Terminologiya cəhətdən layihənin son variantını təkmilləşdirməyə yönələn məsləhətlərin hansılardır?

Layihənin başlanğıc hissəsində «təlim və tərbiyə prosesi» və «təhsil prosesi» anlayışları işlədilir, onlara fərq qoyulmur, dolaşıqlıq yaranır. Həmin anlayışların əvəzinə «pedaqoji proses» anlayışının işlədilməsi məsləhət olardı; çünki sonuncu daha geniş anlayışdır. Təlim də, tərbiyə də pedaqoji proses anlayışında birləşir, qaynayıb qarışır. Yenə orada «bəşəri dəyərlər» ifadəsi, maddə 1-də isə «ümumbəşəri dəyərlər» ifadəsi işlədilir. Onlardan birinin «bəşəri dəyərlər» ifadəsinin işlədilməsi məsləhət olardı. Yenə başlanğıc hissəsinin ikinci abzasında işlədilən «Təhsil Qanunu» əvəzinə «Təhsil haqqında Qanun» ifadəsinin yazılması daha düzgün olardı.

Bundan əlavə, ilk abzasda təhsil anlayışı səciyyələndirilərkən «bilik, bacarıq və vərdişlərin mərhələlər üzrə fasiləsiz mənimsənilməsi…» ifadəsi işlədilir. Ali məktəb tələbələrinə məlumdur ki, həmin xüsusiyyətlər təhsil anlayışına deyil, təhsil sistemi anlayışına aiddir. Bu iki

anlayış bir-biri ilə qırılmaz tellərlə bağlı olsa da müxtəlif anlayışlardır. Bu səbəbdən də layihənin ikinci fəsli haqlı olaraq məhz təhsil sisteminə həsr edilir və orada «mərhələlər» əvəzinə «müxtəlif pillə», «fasiləsiz» əvəzinə «ardıcıl» sözləri işlədilir.

Daha sonra, təhsil anlayışını, onun məzmunu olan bilikləri, bacarıq və vərdişləri səciyyələndirən iki başlıca xüsusiyyət də layihə müəlliflərinin diqqətindən yayınmışdır. Biz təhsilin məzmununun, yəni sistemləşdirilmiş biliklərin, bacarıq və vərdişlərin tərbiyə və psixoloji inkişaf imkanlarına malik olmasını nəzərdə tuturuq. Təhsilin məqsədyönlülüyünə, planlılığı və mütəşəkkilliyinə də layihədə məhəl qoyulmamışdır. Bu cəhətləri unutmaq təhsil təhsil anlayışını yoxsullaşdırmağa, təhsil işinə zərər gətirməyə bərabər olardı.

Göründüyü kimi, yalnız bir anlayışın – təhsil anlayışının ifadəsində xeyli dolaşıqlığa yol verilmişdir. Deyilənləri nəzərə alaraq təhlil etdiyimiz abzası aşağıdakı kimi verməyi düzgün hesab edirik: «Təhsil insanın, cəmiyyətin və dövlətin inskişafına xidmət edən strateji əhəmiyyətli üstün fəaliyyət sahəsi olmaqla müvafiq tədris müəssisəsində müəyyən müddətə məqsədyönlü, planlı və mütəşəkkil öyrədilən, tərbiyə və psixoloji inkişaf imkanları olan, təlimin həm zəruri şərti, həm də nəticəsi kimi özünü göstərən biliklərin, bacarıq və vərdişlərin sistemidir».

Layihənin əvvəlindəki ikinci abzasda yazılır ki, «təhsil dünyəvi xarakter daşıyır», maddə 1-də isə oxuyuruq: «Təhsil elmi-dünyəvi xarakter daşıyır». İfadənin birinci variantda saxlanması arzu edilir. Layihənin əvvəlindəki son (üçüncü) abzas çox dolaşıq və qeyri-dəqiqdir. Həmin abzasda fikrə görə təhsilin və təhsil prosesi iştirakçılarının prinsip və normaları var və onları təhsil qanunu müəyyən edir, halbuki, təhsil haqqında qanun nə təhsilin prinsip və normalarını, nə də təhsil prosesi iştirakçılarının hüquq və vəzifələrinin prinsip və normalarını müəyyənləşdirir. Qanunda müəyyənləşdirilən isə təhsil sisteminin, onun idarə olunmasının, təhsilin iqtisadiyyatının, təhsil sahəsində

beynəlxalq əməkdaşlığın əsas prinsipləri və normalarıdır, habelə pedaqoji proses iştirakçılarının hüquq və vəzifələridir. Məncə, buna görə də layihənin müzakirəsində iştirak edən və üzərində işləyən yoldaşlar fikri dolaşdırmaq, olmayanları yazmaq əvəzinə, beləcə aydın ifadə etməlidirlər.

Maddə 1-də «Pulsuz icbari ümumi orta təhsil…» ifadəsi vardır. Məlumdur ki, icbari ümumi orta təhsil faktik olaraq pulsuz deyil, onun haqqını dövlət ödəyir. Reallığı nəzərə alaraq fikrin ifadəsini bu redaktədə təklif edərdik: «İcbari ümumi orta təhsilin dövlət hesabına olması».

Təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərindən biri belə ifadə olunur: «hər bir vətəndaşın fasiləsiz təhsil almaq hüququna təminat verilməsi». Bu ifadədə ağırlıq əsassız olaraq dövlət üzərinə düşür: belə çıxır ki, fasiləsiz təhsil almaq fikrinə düşən hər bir şəxsin, məsələn, elmlər doktoru alimlik dərəcəsi almaq arzusunda olan şəxsin arzusunu dövlət təmin etməlidir. Həyatda isə bu cür arzuların reallaşmasını dövlət təmin etmir, onun reallaşmasına imkan verən münasib şərait yaradır. Reallığı nəzərə alaraq həmin prinsipin ifadəsini belə təklif edərdik: «hər bir vətəndaşın fasiləsiz təhsil almaq hüququnun reallaşmasına dövlət tərəfindən münasib şəraitin yaradılması».

Prinsiplərdən biri də belədir: «Təhsilin fərdiləşdirilməsi və diferensiallaşdırılması». Təhsilin diverensiallaşdırılması həyatda özünü müxtəlif cəhətdən doğruldur. Lakin təhsilin fərdiləşdirilməsi müasir şəraitdə qətiyyən mümkün deyil. çünki təhsilin fərdiləşdirilməsi birinci növbədə təhsilin məzmunu ilə, yəni tədris planı, tədris proqramları və dərsliklərlə bağlıdır. Hər şagirdin imkanlarını nəzərə alan tədris planları, tədris proqramları və dərsliklər hazırlamaq olarmı? Dövlət bunları lazımi vəsait ayıra bilərmi? Təbii ki, yox! Deməli, təhsilin fərdiləşdirilməsi söz olaraq kağız üzərində qalar.

Bir çox şifahi və yazılı şərhlərdən aydın olur ki, bəzi yoldaşlar təhsilin fərdiləşdirilməsi adı altında təlim zamanı şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınmasını

düşünürlər. Pedaqoji prosesdə, o cümlədən təlim və tərbiyə işində fərdi xüsusiyyətlərin nəzərə alınması isə pedaqoji prosesin prinsiplərindən biri kimi müəllimlərə çoxdan məlumdur. Bu həqiqətləri qəbul edərək istərdik ki, təhlil etdiyimiz prinsipin ifadəsində «fərdiləşdirilməsi» sözü atılsın.

Maddə 4-ün 9-cu bəndində «əqli» sözü «ağıl» sözü ilə əvəz olunmalıdır. Çünki orada təhsil təlim və tərbiyə prosesinin nəticəsi kimi verilmişdir. Nəticə isə dönüb proses ola bilməz. Bu cür ziddiyyətli fikirləri aradan qaldırmaq üçün təklif edərdik ki, həmin maddənin adında «təhsil prosesi» ifadəsi «pedaqoji proses» ifadəsi ilə əvəz edilsin.

Maddə 9-da təhsil sistemi anlayışına verilən tərifdə «təhsil proqramlarını həyata keçirən» ifadəsi atılsa fikir xeyli yüngülləşər və belə aydın alınar: «Təhsil sistemi müxtəlif pilləli ardıcıl təhsil müəssisələri şəbəkəsindən, təhsili idarəetmə orqanlarından, pedaqoji proseslə məşğul olan digər müəssisə və təşkilatlardan ibarətdir».

Maddə 9-un 2-ci bəndində «...xalqın milli, əxlaqi, mənəvi, mədəni dəyərləri» ifadəsində «əxlaqi, mənəvi, mədəni» sözləri atılmalıdır. Çünki «milli» sözündən sonra qoyulan vergul işarəsi məntiqsizliyə səbəb olur, onu, özündən sonra gələn anlayışlarla bərabərhüquqlu anlayış kimi başa düşməyə təhrik edir. Halbuki, əxlaqi, mənəvi, mədəni dəyərlər də elə milli dəyərlər anlayışının tərkibinə aiddir. Odur ki, təhlil etdiyimiz ifadədə «əxlaqi, mənəvi, mədəni» sözləri atılmadı, ifadə belə yığcam verilməlidir: «xalqın milli dəyərləri...»

Maddə 10 «Təhsil proqramları» adlanır. Təklif edərdik ki, həmin maddə indiyədək bütün təhsil işçiləri üçün aydın olan və real həyatda işlədilən tərzdə belə adlansın: «Tədris planları və tədris proqramları». Çünki təhsilin məzmununu heç kəsin anlamadığı və heç kəsin görmədiyi «təhsil proqramları» deyil, hamının bildiyi, gördüyü və işlətdiyitədris planları və tədris proqramlarıdır. Biz məktəbə, müəllimə xidmət etdiyimizdən, sənədlər də,

oradakı ifadələr də, o cümlədən təhsilin məzmununa aid olan anlayışlar da müəllimə yaxın olmalı deyilmi?

Fikrimizcə, peşə təhsili mərhələlərinin adlarında layihə müəllifləri artıq sözlər işlədirlər və bu, mahiyyətin dərk olunmasını yüngülləşdirmir, daha da çətinləşdirir: «Peşə-ixtisas təhsili», «ibtidai peşə təhsili», «orta peşə-ixtisas təhsili», «ali peşə-ixtisas təhsili».

Sual olunur: əgər hər üç mərhələnin adında «peşə» sözü təkrarlanırsa, onları sadələşdirərək, ya ibtidai peşə təhsili, orta peşə təhsili, ali peşə təhsili, yaxud da bəzi spesifik cəhətlərə nəzərən peşə təhsili, orta ixtisas təhsili və ali ixtisas təhsili adlandırmaq olmazmı? Bizcə, bu variantlardan biri daha anlaqlıdır.

Layihədə maddə 11 belə adlanır: «Təhsilalma formaları». Bu, yeni ifadədir və istər-istəməz adamda «təhsilvermə» anlayışının yaranmasına səbəb olur. doğrudan da, real pedaqoji prosesdə təhsil alanla yanaşı təhsil verən də var. Ortaya təbii sual çıxır: bəs nə üçün layihənin müəllifləri təhsilvermə anlayışına toxunmamışlar? Təhsilalma formalarının adları layihədə sadalananda isə aydın olur ki, onlar təhsilin sadəcə formalarıdır: əyani təhsil, əyani-qiyabi (axşam) təhsili, qiyabi təhsil, evdə təhsil, sərbəst təhsil, ekstern yolu ilə təhsil. Əgər düzgün olaraq bu cür sadə yolla getmək mümkün olmuşdursa, maddənin adını da sadəcə, indiyədək olduğu kimi – «Təhsilin formaları» adlandırmaq olmazmı? Axı, təhsil anlayışında yalnız təhsilalma deyil, təhsilvermə də vardır! O da nəzərə alınmalıdır ki, layihənin 15-ci maddəsinin 3-cü bəndində müəlliflər «təhsilin forması» ifadəsini işlətməyə məcbur olmuşlar.

Maddə 12-nin 1-ci bəndində yazılır:

«Təhsil müəssisəsi bir və ya bir neçə təhsil proqramı əsasında təhsil prosesini həyata keçirən, təlim və tərbiyənin vəhdətini təmin edən müəssisədir». Göründüyü kimi, bu fikirdə, əvvəla, «təhsil» sözü üç dəfə yersiz təkrar olunur; ikincisi, guya təhsil müəssisəsinin fəaliyyəti təhsil proqramı əsasında həyata keçirilir; üçüncüsü, guya təhsil müəssisəsi təhsil prosesini həyata keçirir.

Bununla əlaqədar deməliyik ki, həmin cümlədə «təhsil» sözünün təkrarından yaxa qurtarmaq mmükündür: tədris müəssisəsinin fəaliyyəti təhsil proqramı əsasında deyil, tədris planı əsasında həyata keçirilir və nəhayət, tədris müəssisəsi təhsil prosesini deyil, təhsili və ya pedaqoji prosesi, təlim və tərbiyənin vəhdətini təmin edir. Deyilənləri nəzərə alaraq təhlil etdiyimiz bəndin ifadəsini aşağıdakı redaktədə təklif edərdik: «Təhsil müəssisəsi bir və ya bir neçə tədris planı əsasında pedaqoji prosesi, təlim və tərbiyənin vəhdətini təmin edən müəssisədir». Maddə 18-in 1-ci bəndində «ümumi mədəniyyətə malik» ifadəsi həm artıqdır, həm də məntiqsizliyə səbəb olur. çünki həmin ifadədən əvvəl «milli və bəşəri dəyərlər» ifadəsi var. Milli və bəşəri dəyərlər ifadəsində milli mədəniyyət əlamətləri də nəzərdə tutulur. Bu səbəbdən də həmin bənddə ümumi mədəniyyət ifadəsinə lüzum qalmır.

Maddə 21-in 4-cü bəndində magistr dərəcəli mütəxəssislərin işləyəcəkləri yerlərin adları sadalanarkən düzgün olaraq ali təhsil müəssisələrinin «bakalavr» pilləsində müəllim kimi işləyə biləcəkləri də qeyd edilir. Lakin çox təəssüf ki, bu funksiyanı, yəni ali məktəbdə müəllimlik funksiyasını reallaşdırmağa imkan verrəcək kursun – «Ali məktəb pedaqogikası»nın vacibliyi layihədə göstərilməmişdir. Halbuki ali məktəb pedqogikası qeyri-pedaqoji ali məktəblər üçün xüsusilə vacibdir. Çünki birincisi, qeyri-pedaqoji ali məktəblərdə pedaqoji işlə məşğul olan müəllimlərin əksəriyyəti vaxtilə pedaqogika kursu keçməmişdir; ikincisi, indi ixtisasından asılı olmayaraq bütün aspirant və dissertantlar pedaqogikadan da namizədlik minimumu imtahanı verməli olurlar. Onu da xatırlatmağı özümə borc bilirəm ki, magistratura ilə əlaqədar Təhsil Nazirliyinin ali məktəblərə göndərdiyi ilkin sərəncamların birində ali məktəb pedaqogikası məsləhət görülürdü. Deyilənləri nəzərə alaraq təklif edərdik ki, haqqında danışdığımız bəndin sonuna bu fikir əlavə edilsin: «Magistratantlar ali məktəb pedaqogikası və psixologiyası üzrə hazırlıq keçirlər».

Məlumdur ki, anlayışlarda hərc-mərclik əməli işdə hərc-mərcliyə səbəb olur. yalnız maddə 27-də «nümunəvi təhsil proqramları» və «nümunəvi tədris planları», «tədris proqramları» və «fənn proqramları» anlayışları işlədilir. Əgər, deyək ki, sonuncular başqa-başqa deyil, eyni məna ifadə edərsə birini işlətmək məsləhət deyilmi? Yaxud, nümunəvi təhsil proqramı və ya nümunəvi tədris planı deyəndə bəlkə nazirliyin tərtib etdiyi bəzi tədris planı və bu əsasda tədris müəssisəsinin konkret fakültə üçün hazırladığı tədris planı nəzərdə tutulur? Əgər belədirsə, təklif edərdik ki, həmin maddədə yalnız baza tədris planı, tədris planı və tədris proqramı anlayışları işlədilsin.

Təklif edərdik ki, layihəboyu işlədilən «təhsil proqramları» ifadəsi maddə 29-un birinci bəndində işlədilən «təhsilin inkişaf proqramı» ifadəsi kimi verilsin.

Maddə 27-dən fərqli olaraq, maddə 29-un 22-ci bəqdində «nümunəvi təhsil proqramları» deyil, «nümunəvi baza təhsil proqramları» ifadəsi işlədilir. Yenə sual yaranır: təhsil proqramları, nümunəvi təhsil proqramları, nümunəvi baza təhsil proqramları və maddə 36-nın 3-cü bəndindəki «Baza proqramları nə deməkdir və onlar bir-birindən nə ilə fərqlənir?» Bu cür qeri-real anlayışlarla layihə təhsil işçilərinə hansı yeniliklər «bəxş» edir? Yalnız dolaşıqlıq, qeyri-müəyyənlik! Maddə 36-nın 2-ci bəndin görə «təhsilin elmi-nəzəri, praktik və metodik məsələlərini kompleks araşdırmaq üçün elmi-tədqiqat institutlarının və bölmələrinin şəbəkəsi yaradılır».

Bəri başdan deyə bilərik ki, pərakəndə halda fəaliyyət göstərəcək belə institutlar və bölmələr heç vaxt yığışıb təhsilin elmi nəzəri məsələlərini kompleks halda araşdıra bilməz. Bu cür son dərəcə aktual vəzifəni yerinə yetirmək üçün, o cür institutların əvəzinə yığcam bir qurum – Təhsil Akademiyası və ya respublika Elmlər Akademiyasının strukturunda pedaqoji və psixoloji elmlər bölməsi yaratmaq daha real, daha faydalı olardı. Deyilənləri nəzərə alaraq 2-ci bəndi belə ifadə etməyi məqsədəuyğun sayırıq: «Təhsilin elmi-nəzəri məsələlərini araşdırmaqüçün daxili imkanlar

hesabına müvafiq icra hakimiyyəti nəzdində Təhsil Akademiyası və ya Azərbaycan Elmlər Akademiyasının strukturunda Pedaqogika və psixologiya bölməsi yaradılır». Nəzərə alınmalıdır ki, bu fikir respublika müəllimlərinin son qurultayında və mətbuatda dönə-dönə səslənmişdir.

Maddə 36-nın 3-cü bəndini ixtisar etmək məsləhət olardı. Çünki eyni fikir Maddə 29-un 22-ci bəndində də söylənilir.

Maddə 39 «Təhsil prosesinin iştirakçıları» adlanır. Yuxarıda xatırlatmağa çalışdıq ki, təlim və tərbiyə anlayışlarının da təhsil anlayışı ilə birlikdə pedaqoji proses anlayışının məzmununa aid olduğu elmdə sübut olunmuşdur. Bu səbəbdən də «pedaqoji proses iştirakçıları» ifadəsinin yazılması elmi cəhətdən daha dəqiqdir.

Gətirilən faktlardan belə bir ümumi nəticə çıxır ki, layihədə bir çox pedaqoji terminlər yerli-yerində işlədilmir; layihədə və elmdə işlədilən bir çox terminlər mənaca üst-üstə düşmür.

Sual olunur: pedaqoji terminlərin işlədilməsində yol verilən bu qədər qeyri-dəqiqliyin, qeyri-elmiliyin başlıca səbəbi nədir? Fikrimizcə, onun başlıca səbəbini layihə üzərində işin təşkilatçıların pedaqoji elmə, onun əsas daşıyıcılarına laqeyd münasibətlərində, prinsipial söz deməyə qadir olan pedaqoq alimləri bu işdən uzaqlaşdırdıqlarında axtarmaq lazımdır. Xalq cəbhəsinin rəhbərliyi dövründə olduğu kimi, eləcə barmaqlararası baxmaq isə heç vaxt heç kəsə uğur gətirməmişdir.

Ümumiləşmiş fikrim belədir: layihənin nəinki hər cümləsi üzərində, hətta hər sözü üzərində min ölçüb (düşünüb), bir biçmək (qərara gəlmək) təhsil islahatında müvəffəqiyyətin rəhni ola bilər.

**(«Azərbaycan müəllimi» qəzeti, 18 fevral, 1999)**

## 15. «TƏHSİL HAQQINDA QANUN» LAYİHƏSİNƏ DAİR MÜLAHİZƏLƏRİM

Pedaqoji elmlər doktoru, professor Nurəddin Kazımovun yeni qanun layihəsi ilə bağlı təklifləri

Məlum olduğu kimi, Azərbaycan Respublikasının qəbul ediləcək yeni Təhsil qanunu Milli məclisdə ikinci oxunuşdan sonra ictimaiyyətin müzakirəsinə verilib. Sözsüz ki, təhsil hər bir dövlətin ən mühüm və strateji sahələrindən biridir. Məhz buna görə də «Təhsil haqqında qanun»un mükəmməl və heç bir boşluq olmadan araya-ərsəyə gəlməsi baxımından sözügedən qanun layihəsi ilə bağlı irəli sürülən hər bir təklif böyük əhəmiyyətə malikdir.

Onu da qeyd edək ki, Təhsil haqqında qanun layihəsi ilə bağlı fikir söyləmək, oradakı çatışmazlıqları qeyd edərək müvafiq qurumların nəzərinə çatdırmaq baxımından əsas yük təbii ki, alim və mütəxəssislərin üzərinə düşür.

Beləliklə, pedaqoji elmlər doktoru, professor Nurəddin Kazımovun Təhsil qanunu layihəsi ilə bağlı təkliflərini olduğu kimi təqdim edirik:

I. Layihədə və pedaqoji elmdə işlədilən bəzi anlayışların mahiyyəti üst-üstə düşmür. Eyni pedaqoji anlayışın layihədə və elmdə başqa-başqa şərhi əməli pedaqoji işdə çətinliklər yaradır.

II. Layihənin ilk cümləsi təhsil anlayışına deyil, daha çox təhsil sistemi anlayışına uyğun gəlir. Odur ki, təhsil anlayışının pedaqoji elmdə formalaşmış məzmunda verilməsi məsləhət olardı: strateji əhəmiyyətli üstün fəaliyyət sahəsi olan təhsil – müvafiq tədris müəssisəsində müəyyən müddətə məqsədyönlü, planlı və mütəşəkkil öyrənilən, tərbiyə və psixoloji inkişaf imkanlarına malik olan, təlimin bir halda zəruri şərti, digər halda nəticəsi kimi özünü göstərən sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərin məcmuudur («Ali məktəb pedaqogikası», Bakı, «Nicat» nəşriyyatı, 1999, səh. 33)

III. Layihədə tədris planı anlayışını da elmdə formalaşmış məzmunda verilməsi daha dəqiq olardı. Belə: «Tədris planı – bu və ya digər tədris müəssisəsində öyrənilən fənlərin adlarını, onların tədrisi ardıcıllığını, hər fənnə ayrılan saatların miqdarını, təhsil müddətini, işin formalarını göstərən sənəd» («Ali məktəb pedaqogikası», Bakı, «Nicat» nəşriyyatı, 1999, səh. 138)

IV. Fənn proqramı anlayışını da elmdə formalaşmış anlayışa uyğunlaşdırmaq səmərəli olardı. «Fənn proqramı – tədris planına əsasən fənnin bölmələrini, mövzulara aid başlıca məsələləri, onların tədrisinə ayrılan saatları göstərən və izahat hissəsinə malik olan sənəd» (Həmin dərslik, səh. 139)

V. Maddə 1-də «Əsas anlayışlar»a «tədris fənni» və təhsilin aparıcı iştirakçısı olan «müəllim» anlayışlarının da əlavə edilərək aşağıdakı məzmunda verilməsi məsləhətdir:

«Tədris fənni – tədris müəssisəsində müvafiq elm üzrə öyrənilməsi nəzərdə tutulan və didaktik cəhətdən işlənən, tərbiyə və psixoloji inkişaf imkanları olan biliklərin, habelə bunların mənimsənilməsinə xidmət edən bacarıq və vərdişlərin sistemi» («Məktəb pedaqogikası», Bakı, «Çaşıoğlu» 2002, səh. 107)

«Müəllim – sistemləşdirilmiş bilikləri, bacarıq və vərdişləri, habelə mənəvi keyfiyyətləri adamlara məqsədyönlü, planlı və mütəşəkkil aşılamaq yolu il cəmiyyətin, xalq təsərrüfatının sonrakı inkişafına güclü təkan verən pedaqoji təhsilli mütəxəssis» (Həmin dərslik, səh. 131)

VI. Maddə 3-ün 1-ci bəndi preambulada var, təkrardır.

VII. Maddə 3-ün 2-ci bəndi Konstitusiyaya uyğun yazılmalıdır; çünki «Təhsilin Milli inkişaf proqramı2 da Konstitusiyaya söykənir. Odur ki, həmin bəndin belə ifadəsi daha düzgün olardı: «Azərbaycan Respublikasının təhsil sahəsində dövlət siyasətinin əsasını Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir».

VIII. Təhsilin əsas məqsədi müasir durum nəzərə alınmadan, 3 bənddə, özü də dağınıq halda və təkrar formasında ifadə olunur. Həmin maddənin bir bənddə belə ifadəsi göstərilən nöqsanların da aradan qaldırılmasına yardım edərdi.

«Maddə 4. təhsilin əsas məqsədi

4.1. təhsilin əsas məqsədi – milli və ümumbəşəri dəyərlərlə əlaqədar olan biliklərin, bacarıq və vərdişlərin mənimsənilməsi yolu ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunul-

mazlığını qorumağa, respublikamızı inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirməyə köməklik göstərməkdən ibarətdir». («Ali məktəb pedaqogikası», Bakı, «Nicat» nəşriyyatı, 1999, səh. 23)

IX. Təhsil sahəsində dövlət siyasətinin (maddə 3) və Təhsil hüququna dövlət təminatının (maddə 6) mahiyyətcə eyni olduğundan və orada bəzi təkrara yol verildiyindən, bir maddədə ümumiləşdirilməsi məsləhət olardı.

X. Maddə 5-lə əlaqədar 1. Demokratikləşmə prinsipi layihədə olduğundan. Liberallaşma prinsipinin layihədən çıxarılması məsləhətdir; 2. «Yazıya bağlılıq» prinsipini layihəyə salmağa ehtiyac yoxdur; 3. Differensiallaşma inteqrasiya ilə müşayiət olunduğundan, onları vahid prinsip kimi vermək məsləhət olardı.

XI. Təhsil sistemi anlayışı üzrə layihədə məntiqsizlik əlamətləri var. Orta təhsil, peşə təhsili və orta ixtisas təhsili layihədə təhsil sisteminin başqa-başqa pillələri kimi verilir. Halbuki. Reallıqda layihənin nəzərdə ttuduğu «orta təhsil» ümumi təhsildir. Orta təhsil isə respublikamızda ümumiləşmiş anlayışa çevrilmişdir. Başqa sözlə, orta təhsil hazırda üç istiqamətdə: ümumi təhsil, peşə təhsili və orta ixtisas təhsili istiqamətlərində həyata keçirilir. Deməli, peşə təhsili də, orta ixtisas təhsili də orta təhsil pilləsinə aiddir. Bu səbəbdən də maddə 19-un orta təhsil deyil, «ümumi təhsil» adlandırılması daha real, daha məntiqlidir.

XII. V-IX sinifləri əhatə edən pillə layihədə ümumi təhsilə aid edilir; 1-ci və 3-cü pillələr isə ümumi təhsilə aid edilmir. Təklif edərdik ki, hər üç pillə ümumi təhsilə aid edilsin və belə adlansınlar: ilkin ümumi təhsil (I-IV siniflər); orta ümumi təhsil (V-IX siniflər); tam orta ümumi təhsil (X-XI siniflər)

XIII. Maddə 10-da «İlk təhsil» proqramları orta təhsil proqramlarından kənarda, maddə 19-da isə «İlk təhsil» orta təhsilin tərkibində nəzərdən keçirilir. Bu da məntsizlikdir.

XIV. Mövcud qanundakı «əsas təhsil» anlayışı layihədə «baza» təhsili ilə əvəz edilmişdir. Bizcə, bunun da məntiqi

əsası yoxdur. Çünki, ali məktəblərə də, peşə təhsili və orta ixtisas təhsili məktəblərinə də qəbul, demək olar ki, IX sinifləri deyil, XI sinifləri bitirənlərin hesabına təşkil edilir. Təklif budur ki, I-IX siniflər yox. I-XI siniflər baza təhsili hesab edilsin. Bu fikir Respublika Konstitusiyasına da uyğundur.

XV. «Naçalnoe» sözünü «ilk» sözü kimi deyil, layihədə «ilkin» sözü kimi işlətmək düzgün olardı.

XVI. Həmin məntiqə uyğun olaraq maddə 10-da ümumtəhsil proqramları ilə əlaqədar belə dəqiqləşmələr aparılması məsləhət olardı:

1) İlkin ümumtəhsil proqramları;

2) Orta ümumtəhsil proqramları;

3) Tam orta ümumtəhsil proqramları;

XVII. Maddə 24-ə görə ali təhsil almış ən bilikli şəxslər aspiranturaya (doktoranturaya) qəbul oluna bilər. Halbuki, doktoranturaya qəbulun şərtləri tamam başqadır. Bu səbəbdən təklif edərdik ki: 1. Doktorantura sözü mötərizədən çıxarılsın, xüsusi bənddə verilsin; 2. Doktoranturaya qəbul şərtləri aydın ifadə olunsun.

XVIII. Maddə 28-in 28.01.19-cu bəndində «fənn planları» ifadəsi qeyri-pedaqoji ifadə olduğundan atılması məsləhətdir.

XIX. Maddə 41-də «təlim» anlayışından sonra mötərizədə «tədris» sözü yazıldığından bu anlayışlar eyniləşdirilir. Halbuki, onlar xeyli fərqli anlayışlardır. Təklif edərdik ki, orada tədris sözü atılsın, yaxud ayrılıqda verilsin.

XX. Layihədə tək-tək «təlim-tərbiyə» ifadəsi işlədilir. Halbuki, təhsil anlayışı təlim, tərbiyə və psixoloji inkişaf anlayışları ilə vəhdətdədir; onlar bir-birini tamamlayaraq vahid pedaqoji prosesi əmələ gətirir. Bunu nəzərə alaraq təklif edərdik ki, layihədə belə bir bənd əlavə edilsin: «təlim, tərbiyə və psixoloji inkişaf təhsil ilə qarşılıqlı əlaqədə həyata keçirilir».

XXI. Maddə 36-da təhsil prosesi iştirakçılarının bir qrupunu «təhsilalanlar», digər qrupunu «pedaqoji işçilər» adlandırmağın nə məntiqi nə də elmi əsası var. Əvvəla, iştirakçıların yarısı «təhsilalanlar» adlandırılırsa, digər

yarısı, məntiqə görə «təhsilverənlər» adlandırılmalıdır. Əks təqdirdə layihə ciddi məntiqi səhvə yol vermiş olur. İkincisi, pedaqoji elm və real pedaqoji iş cəhətdən təhsil nə verilir, nə də alınır. Pedaqoji elmdə dönə-dönə isbat eilmişdir ki, pedaqoji prosesdə iştirak edən iki tərəfdən birinin başlıca funksiyası öyrənmək, digərinin başlıca funksiyası isə öyrətməkdir. Pedaqoji elmdə və pedaqoji işdə formalaşmış bu real ideyanı əsas götürərək təklif edərdik ki, iştirakçı qrupları belə adlandırılsın: «Pedaqoji prosesdə öyrənənlər» və «Pedaqoji prosesdə öyrədənlər».

XXII. Layihədə IV fəsil belə adlanır: «Təhsilin iştirakçıları, onların hüquq və vəzifələri». Fəslin belə adlanması elmi cəhətdən dəqiq deyil. Çünki, əvvəla, tərbiyə və psixoloji inkişaf təhsildən kənarda da həyata keçirilir; ikincisi. Pedaqoji işçilər kateqoriyasına aid edilən bəzi şəxslər təhsildə bilavasitə deyil, dolayısı ilə iştirak edirlr. Pedaqoji proses anlayışı ayrılıqda təhsil, tərbiyə, təlim və psixoloji inkişaf anlayışlarından daha geniş olduğundan. Təklif edərdik ki, IV fəslin adı belə dəqiqləşdirilsin: «Pedaqoji proses iştirakçıları, onların hüquq və vəzifələri».

XXIII. Maddə 12 layihədə belə adlanır: «Təhsilalma formaları». Əvvəla, yuxarıda deyildiyi kimi, «təhsilalma» anlayışı məntiqi və elmi cəhətdən qüsurludur; ikincisi, maddənin bəndləri isə belə adlanır: əyani təhsil, axşam təhsili, qiyabi təhsil və s. Halbuki, layihənin məntiqinə görə həmin maddənin bəndləri belə yazılmalı idi: əyani təhsilalma, axşam təhsilalma, qiyabi təhsilalma və s. bu isə tam ziddiyyətlidir. Belə bir ziddiyyət və uyğunsuzluğu aradan qaldırmaq üçün təklif edərdik ki, maddənin adı bəndlərindəki adlara uyğunlaşdırılaraq sadəcə belə adlandırılsın: «təhsilin formaları».

XXIV. «Ali ixtisas təhsili» adlı maddə 22-yə belə bir bəndin əlavə olunması məsləhətdir: «Ali təhsil üzrə tədris planlarında ixtisasların adları ali peşə istiqamətləri nəzərə alınmaqla müəyyənləşdirilir»

**(«Təhsil» qəzeti, 11 fevral, 2003)**

## 16. «TƏHSİL HAQQINDA» QANUN LAYİHƏSİNDƏ CİDDİ NÖQSANLAR VAR

«Təhsil haqqında» qanun layihəsilə (II oxunuş) tanışlıqdan aydın olur ki, onun müəllifləri bacarıqlı təhsil işçiləri olsalar da, pedaqoji elmdən, xüsusən dövlət müstəqilliyi dövründə yaranmış milli pedaqogikadan bir qədər uzaqdırlar. Məhz buna görə də qanun layihəsində bir sıra anlaşılmazlıqlara və məntiqsizliklərə yol verilib. Gəlin onların bəzilərini nəzərdən keçirək.

Əvvəla, «Təhsil haqqında» qanun layihəsindən belə çıxır ki, təhsil universal anlayışdır, təlimi də, tərbiyəni də özündə birləşdirir. Halbuki, pedaqoji proses universal anlayışdır, təlimi də, tərbiyəni də, təhsili də, psixoloji inkişafı da əhatə edir. Pedaqoji proses anlayışı layihədə öz yerini tapmalıdır.

Layihədə təhsil tərbiyədən tam təcrid olunmuş şəkildə təqdim edilir. Reallıqda isə təhsil bir çox cəhətdn tərbiyə ilə bağlıdır. Bu əlaqə layihədə əks olunmalıdır.

Qanun layihəsində təhsil psixoloji inkişaf məsələsindən də ayrı verilmişdir. Bu, müəllim və digər tərbiyəçiləri tərksilah edər, onların diqqətini güclü psixoloji amildən yayındırar. Təhsilin psixoloji inkişafla qarşılıqlı əlaqəsi layihədə ifadə olunmalıdır.

Layihədə «təhsil alanlar» ifadəsi işlədilir. Məntiqə görə, «təhsil verənlər» ifadsi də işlədilməlidir.

Layihədə istifadə olunan «təhsil prosesinin iştirakçıları» ifadəsi həm elm, hm də həyat təcrübəsi cəhətdən dəqiq deyil. Çünki təhsil prosesinin iştirakçılarından əlavə, sırf tərbiyə ilə məşğul olan şəxslr də var (tərbiyəçilər, valideynlr və s.) Odur ki, «təhsil prosesi iştirakçıları» əvəzinə «pedaqoji proses iştirakçıları» ifadəsinin işlədilməsi daha dəqiq olardı.

Qanun layihəsində I-IV siniflərdə həyata keçirilən təhsilin «ilk təhsil» adlandırılmasının məntiqi əsası yoxdur. Çünki layihənin 10-cu maddəsində təhsil sisteminin ilk pilləsi məktəbəqədər təhsil hesab olunur. Bu məntiqsizliyi aradan qaldırmaq üçün təklif edərdik ki, I-IV siniflərdə

həyata keçirilən təhsil «ilk təhsil» yox, indiyədək olduğu kimi «ümumi ibtidai təhsil» adlandırılsın.

«Təhsil haqqında» qanun layihəsində V-IX siniflərdəki təhsilin «ümumi orta (baza) təhsil», X-XI siniflərdəki təhsilin isə «tam orta təhsil» adlandırılması bir sıra dolaşıqlıqlar yaradır. Əvvəla, belə çıxır ki, yalnız V-IX siniflərdə həyata keirilən təhsil ümumidir, I-IV və X-XI siniflərdəki təhsil isə ümumi deyil. Əslində isə həm I-IV, həm V-IX, həm də X-XI siniflərdə həyata keçirilən təhsil ümumidir. Deyilənləri nəzərə alaraq, təklif edirik: V-IX sinifləri əhatə edən təhsil «tam olmayan ümumi orta təhsil», X-XI siniflərdəki təhsil isə «tam ümumi orta təhsil» adlandırılsın.

Qanun layihəsində 20-ci maddənin adı «Orta təhsil» deyil. «Ümumi təhsil» kimi yazılsa daha məntiqli olardı. Yalnız ona görə yox ki, I-IV, V-IX və X-XI siniflərdəki təhsil ümumi təhsildir. Həm də ona görə ki, əvvəla, I-IV siniflərdəki təhsil orta təhsilə aid deyil, ümumi təhsilə aiddir. İkincisi, həm peşə, həm də orta ixtisas təhsili orta təhsil kateqoriyasına aidir.

Layihənin başqa bir qüsuru odur ki, təhsilin məzmununa aid olan 12-ci maddədə bilik, bacarıq və vərdişlərin milli və ümumbəşəri səciyyəli olub-olmadığına toxunulmur.

Qanun layihəsində «aspirantura» sözünün qarşısında mötərizədə «doktorantura» sözünün yazılmasını başa düşmək çətindir. Çünki biz aspirantura və doktoranturanın başqa-başqa elmi dərəcəyə hazırlıq mərhələsi kimi anlamışıq.

Bir sözlə, «Təhsil haqqında» qanun layihəsində (II oxunuş) anlaşılmazlıq və məntiqsizlik halları çoxdur. İndi isə təhsil anlayışı və təhsilin məqsədi barədə fikirlərimizi bir qədər aydın ifadə edək:

Təhsil anlayışına dair: Layihənin ilk cümləsi təhsil anlayışının mahiyyətinə həsr edilmişdir. Orada yazılır: «təhsil insanın, cəmiyyətin və dövlətin inkişafına xidmət edən strateji əhəmiyyətli (üstün) fəaliyyət sahəsi olmaqla sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin dövlət

tərəfindən müəyyən olunmuş mərhələlər (senzlər) üzrə mnimsənilməsini təmin edən fasiləsiz təlim-tərbiyə prosesi və onun nəticəsidir».

Təhsil anlayışının bu cür başa düşülməsində bir sıra qeyri-dəqiqliyə yol verilir. Əvvəla, bu anlamda təhsl sistemləşdirilmiş biliklər, bacarıq və vərdişlərlə məhdudlaşdırılır. Təhsil mənəvi-əxlaqi keyfiyyətlərdən təcrid edilir. Halbuki, tərif el ifadə edilməlidir ki, təhsil anlayışının mənəvi-əxlaqi keyfiyyətlərdən ayrılmaz olduğu dərhal nəzərə çarpsın.

Təhsil zamanı gənc nəslə aşılanmalı olan sistemləşdirilmiş biliklərin, bacarıq və vərdişlərin necəliyi, yəni onların milli və ümumbəşəri səciyyəli olduğu layihədəki tərifdə unudulur. Əslində isə belə yazılmalıdır: Milli və ümumbəşəri dəyərlərlə bağlı olan sistemləşdirilmiş biliklər, bacarıq və vərdişlər və bunlardan ayrılmaz olan mənəvi-əxlaqi keyfiyyətlər.

Layihədə təhsilə verilən tərifdə «təhsil» anlayışı və «təhsil sistemi» anlayışı arasında fərq qoyulmur, onlar eyniləşdirilir. Halbuki, «təhsil» və «təhsil sistemi» anlayışlarının nisbi mənada müstəqillikləri layihədə saxlanılır. Bunu layihənin preambulasının ikinci abzasında da, II fəslin adında da («təhsil sistemi») görmək olur. Yəni təhsil anlayışına verilən tərifdən «mərhələlər» və «fasiləsiz» sözləri atılmalıdır.

Real həyatda təhsil konkret tədris müəssisəsində başlayır, müəyyən zaman kəsiyində davam edir və başa çatır. Başqa sözlə, həyatda təhsil fasiləsiz deyil, fasiləlidir. Mərhələlər (senzlər), yəni fasiləsizlik «təhsil» anlayışı üçün yox, «təhsil sistemi» anlayışı üçün səciyyəvidir. Deməli, layihədə «təhsil» anlayışına verilən tərifdən «mərhələlər (senzlər)» ifadəsinin atılması, əvəzində isə belə yazılası məsləhətdir: «konkret tədris müəssisəsində müəyyən müddətdə…»

Layihədəki tərifdə təhsil anlayışı hərəkətdə nəzərdən keçirilmir. Real həyatda isə təhsil, onun məzmunu bir halda təlimin zəruri şərti, zəmini, digər halda təlimin həyata keçirilməsi prosesi, sonda isə təlimin nəticəsinə çevrilir.

Təhsil üçün son dərəcə vacib olan psixoloji inkişaf məsələsi də layihə müəlliflərinin diqqətindən kənarda qalmışdır. Halbuki, təhsil anlayışı təlim və tərbiyədən ayrılmaz olduğu kimi, psixoloji inkişafla da vəhdətdədir. Təhsil anlayışının mahiyyətini ifadə edərkən gənc nəslin təhsil səviyyəsinə güclü təsir göstərən psixoloji amili unutmaq yolverilməz ciddi nöqsan hesab edilməlidir. Axı milli pedaqogikada sübut olunmuşdur ki, şagirdlərdə (tələbələrdə) psixoloji inkişaf səviyyəsinin necəliyi onların təhsildə müvəffəqiyyətini artıra da, ləngidə də bilir. Bu, psixoloji inkişaf amili ilə müəlimin tanışlıq səviyyəsindən asılı olur.

Nəhayət, təhsil anlayışını səciyyələndirən digər başlıca əlamət də layihə müəlliflərinin diqqətindən yayınmışdır. Biz təhsili həyata keçirən tədris müəssisəsinin fəaliyyət xüsusiyyətlərinin tərifdə əhatə olunmadığını burada dilə gətirmək istəyirik. Real təcrübədə milli və ümumbəşəri dəyərlər gənc nəslə necə gəldi aşılanmır, təhsil məqsədyönlü, planlı və mütəşəkkil formada hyata keçirilir.

Təhsil anlayışı ilə əlaqədar dediklərimizi yekunlaşdıraq. Təklif edirik ki, layihənin ilk cümləsi iki abzasda verilsin. Belə:

«Təhsil – insanın, cəmiyyətin və dövlətin inkişafına xidmət edən strateji əhəmiyyətli (üstün) fəaliyyət sahəsidir. Təhsil – konkret tədris müəssisəsində müəyyən müddətdə məqsədyönlü, planlı və mütəşəkkil öyrədilən, tərbiyə və psixoloji inkişaf imkanları olan, təlimin bir halda zəruri şərti, digər halda həyata keçirilən prosesi və nəticəsi kimi özünü göstərən milli və ümumbəşəri səciyyəli biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin məcmusudur».

Təhsilin məqsədinə dair: Layihənin 4-cü maddəsində təhsilin məqsədinə aid fikir nəinki dil və məntiq, həm də elmi cəhətdən qüsurlu ifadə edilmişdir. Əvvəla maddə belə səslənir: təhsilin əsas məqsədi. Həmn maddənin məzmunu açılarkən aydın olur ki, əsas məqsəd bir deyil, üçdür.

İkincisi, pərakəndə şəkildə sadalanan həmin məqsədləri vahid məcraya yönəldəcək aparıcı ideya yoxdur.

Üçüncüsü, layihədə ifadə olunan məqsədlərin heç biri Azərbaycan Respublikasının müasir durumu və gələcək vəziyyətini nəzərə almır. Halbuki, dövlətimizin və xalqımızın qarşısında indi və gələcəkdə də duracaq ən vacib problem, ən strateji məqsəd respublikamızın ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını, dövlət müstəqilliyini qorumaqdan, ölkəmizi inkişaf etmiş dövlətlər səvimyyəsinə qaldırmağa nail olmaqdan ibarətdir. Təhsil bu cür ümumxalq və dövlət əhəmiyyətli problemdən kənarda qala bilməz. Milli pedaqogikaya görə həmin strateji məqsədə çatmağın başlıca yolu milli və ümumbəşəri dəyərlərə dərindən yiyələnməkdir. Deyilənləri nəzərə alan milli pedaqogika ölkəmizdə təhsilin məqsədini belə dəyərləndirmişdir:

«Təhsilin məqsədi – milli və ümumbəşəri səciyyəli biliklərin, bacarıq və vərdişlərin, habelə mənəvi keyfiyyətlərin məqsədyönlü, planlı və mütəşəkkil mənimsənilməsi yolu ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumağa, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirməkdən ibarətdir».

Ötəri edilən bu qeydlər göstərir ki, layihə üzərində həm elmi, həm də əməli mövqedən ciddi şəkildə işlənilməlidir.

**(«Təhsil» qəzeti, 20 aprel, 2004)**

## 17. TƏHSİL İSLAHATININ BƏZİ ELMİ-NƏZƏRİ MƏSƏLƏLƏRİ

Məlumdur ki, həyatımızın digər sahələrində olduğu kimi, təhsil sahəsində də islahat aparılır. Təhsil nazirliyinin rəhbərliyi ilə respublikamızın təhsil sahəsində xeyli faydalı əməli iş aparılmışdır.

Lakin, bununla, belə, hələ görəcəyimiz işlər çoxdur. Bu cür görülməli işlərdən biri təhsil sahəsində bizim əməli

işimizi asanlaşdıra biləcək elmi-nəzəri məsələləri müəyyənləşdirməkdən və onların mahiyyətini açmaqdan ibarətdir.

Sual olunur: təhsil haqqında qanunda təhsil anlayışının mahiyyəti nədən ibarət hesab edilir? Yaxud, təhsilin həyata keçirildiyi təlim, tərbiyə, bütövlükdə pedaqoji proses nə deməkdir? Təhsilin və ya pedaqoji prosesin qarşısında qoyulmuş məqsəd nədən ibarətdir? Bu məqsədi həyata keçirən müəllim hansı statusa malik olmalıdır?

Təəssüf hissi ilə etiraf etməyə məcburuq ki, Azərbaycan Respublikasının təhsil haqqında qanunu bu ciddi suallara demək olar ki, cavab vermir. Hal bu ki, təhsilin, bütövlükdə pedaqoji prosesin, onun qarşısında duran məqsədin, bu məqsədi həyata keçirəcək müəllimin statusunun nədən ibarət olduğunu hər bir tədris müəssisəsi rəhbərlərinin, hər bir təhsil işçisinin, hər bir müəllimin aydın təsəvvür etməsi son dərəcə vacibdir. Bu anlayışların mahiyyətini elmi cəhətdən düzgün təsəvvür etmək təhsil islahatını uğurla həyata keçirməyin vacib şərtlərindən birinə çevrilər.

Təhsil anlayışının mahiyyətini açmaq üçün onun başlıca əlamətlərini göstərmək lazımdır. Təhsil anlayışını səciyyələndirən əlamətlərdən biri onun xalq təsərrüfatı ilə bağlılığıdır. Təhsil xalq təsərrüfatının tərkib hissələrindən biridir. Təhsil tədris müəssisəsi ilə bağlıdır, yəni təhsil müəyyən tədris müəssisəsində müəyyən vaxt ərzində həyata keçirilir. Təhsil bir halda təlimin əsası, digər halda isə onun, yəni təlimin nəticəsidir. Təhsilin məzmunu tərbiyələndirici və psixoloji cəhətdən inkişaf etdirici imkanlara malik olur. Təhsilin əhatə etdiyi biliklər, bacarıq və vərdişlər milli və ümumbəşəri səciyyə daşıyır və pərakəndə halda deyil, sistemləşdirilmiş halda, məqsədyönlü, planlı və mütəşşəkkil formada gənc nəslə təqdim edilir.

Bu cür əlamətlərini nəzərə alaraq təhsil anlayışına tərif vermək mümkündür: xalq təsərrüfatının tərkib hissəsi kimi, müvafiq tədris müəssisəsində müəyyən müddətə məqsədyönlü. Planlı və mütəşəkkil öyrədilən, tərbiyə və psixoloji inkişaf imkanları olan, təlimin həm zəruri şərti, həm də

nəticəsi kimi özünü göstərən, milli və ümumbəşəri dəyərlərlə bağlı olan biliklər, bacarıq və vərdişlər sistemi təhsildir.

Təhsil hərəkətə gəldikdə, tərbiyəyə və psixoloji inkişafa, yəni pedaqoji prosesə çevrilir. Bəs pedaqoji prosesi səciyyələndirən əsas əlamətlər hansılardır? Pedaqoji proses ikii başlıca suala cavabı özündə birləşdirir: nə öyrədilir və necə öyrədilir. Pedaqoji prosesdə nə öyrədilir sualına cavab belədir: öyrədilən sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlər, yəni milli və ümumbəşəri səciyyə daşıyan biliklər, bacarıq və vərdişlər. Habelə mənəvi keyfiyyətlərdir. İkinci sualın cavabı isə belədir: həmin dəyərlər məqsədyönlü, planlı və mütəşəkkil formada öyrədilir! Deyilən iki cəhəti nəzərə alaraq pedaqoji proses anlayışının mahiyyətini açan tərifi belə ifadə etmək dühgün olardı: sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərə adamların məqsədyönlü, planlı və mütəşəkkil formada yiyələnməsi prosesi pedaqoji prosesdir.

Bəs təlim, tərbiyə və təhsil, yəni bütövlükdə pedaqoji proses Azərbaycanda hansı ümumi məqsədə xidmət etməlidir? Bizim əqidəmizə görə, tədris müəssisələrində həyata keçirilən pedaqoji prosesin məqsədini müəyyənləşdirərkən Azərbaycan xalqının, Azərbaycan dövlətinin müasir şəraitdə ən ümdə qayğıları və ehtiyacları əsas götürülməlidir. Hazırda respublikamızın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığını təmin etmək, dövlət müstəqilliyini möhkəmləndirmək, ölkəmizi inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmaq həm xalqımızın, həm də dövlətimizin ən başlıca qayğılarındandır. Təhsil müəssisələrimiz, bu qayğılardan kənarda fəaliyyət göstərə bilməz. Həmin qayğıların ödənməsində təhsil müəssisələri öz mövqeyini müəyyənləşdirməlidir. Fikrimizcə, müasir şəraitdə pedaqoji prosesin başlıca məqsədi belə ifadə olunmalıdır: Sistemləşdirilmiş milli və ümumbəşəri dyərlərə yiyələnmək yolu ilə Azərbaycanın dövlət müstəqilliyini, sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü qorumağa, respublikamızı inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan vətəndaşlar yetişdirməyə köməklik göstərmək pedaqoji prosesin məqsədidir. Bəs

bizim müəllimlər mövcud statusla həmin ülvi, ali məqsədin öhdəsindən tam gələ bilərmi? Bu suala birmənalı cavab vermək çətindir. Çünki mötəbər hesab edilən rəsmi mənbələrdə müəllim statusu son dərəcə cılızlaşdırılmış, fəaliyyəti məhdud çərçivəyə salınmış, onun yalnız bir cəhəti dəyərləndirilmişdir. Ən etibarlı elmi mənbə hesab edilən «Большая Советская енсиклопедия»da, «Советский Енсиклопедический Словарь»da və «Azərbaycan Sovet Ensiklopediyası»nda müəllim anlayışı təqribən bel əbaşa düşülür: məktəbdə bu və ya digər fənni tədris edən mütəxəssis.

Bu anlayış ölkənin ictimai-siyasi həyatında müəllimin fəal mövqe tutduğuna, onun fəaliyyətinin səciyyəvi cəhətlərinə əhəmiyyət vermir; ən başlıcası budur ki, fənnin tədrisi müəlim üçün vasitəyə deyil, məqsədə çevrilir. Halbu ki, real həyatda qabaqcıl müəllim üçün fənnin tədrisi gənc nəsli gələcək həyatda fəal mövqe tutmağa hazırlamaq vasitəsi olur. Müəllim adi bilikləri deyil, sistemləşdirilmiş bilikləri, milli və ümumbəşəri səciyyəli bilikləri, bacarıq və vərdişləri gənc nəslə aşılayır. Müəlim əməyi məqsədyönlü planlı və mütəşəkkil xarakterdə olur. Müəlim bu cür fəaliyyəti ilə nəsillər arasında əlaqə yaradır, bir növ körpü rolunu oynayır.

Bu cür ciddi ictimai-siyasi məna kəsb edən funksiyalarını nəzərə alaraq müəllim anlayışına tərif vermək olar: müəllim adamları sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil formada silahlandırmaq yolu ilə nəsillər arasında mənəvi əlaqə yaradan. Xalq təsərrüfatının, elmin. Mədəniyyət və incəsənətin sonrakı inkişafına güclü təkan verən pedaqoji təhsilli mütəxəssisdir.

Bu cür statusa malik olduğunu yəqin edən müəllim öz fəaliyyətinin bütün cəhətlərini nəzərə alaraq daha çox uğur qazanar. Müəllimlərin ictimai- siyasi həyatda müstəsna mövqe tutduğunu bilən dövlət adamları onların maddi və mənəvi ehtiyaclarının layiq olduqları səviyyədə ödənilmsi üçün əlavə tədbirlər görməyə meyllənər.

Məhz yeni statuslu müəllim təhsili təlimə, tərbiyə və psixoloji inkişafa çevirə və pedaqoji pprosesin qarşısında qoyulan ali məqsədi müəvəffəqiyyətlə həyata keçirə bilər.

Təhsil, pedaqoji proses, onun məqsədi, müəllim statusu barədə müasir anlayışlar tələb edir ki, müəllim kadrlarının pedaqoji hazırlığı vəziyyətinə yenidən baxılsın və təkmilləşdirilsin.

**(«Təhsil islahatının bəzi elmi-nəzəri məsələləri» mövzusunda respublika konfransının tezisləri. Bakı, ADU nəşriyyatı, 2000)**

## 18. TƏHSİL HAQQINDA QANUNUN SON (2007-ci il) LAYİHƏSİ HAQQINDA BƏZİ QEYDLƏR

Etiraf edilməlidir ki, təhsil haqqında layihəsinin bu son variantı əvvəlki variantlara nisbətən bir çox cəhətdən daha təkmildir.

Amma bununla yanaşı, bəzi arzular da nəzərə alınarsa layihə daha da kamilləşər. Nəzərdə tutduğumuz arzuları üç qrupa ayırmaq olar: 1.Prinsipial hesab etdiyimiz arzular. 2. Əsas anlayışlar sırasına daxil edilməli anlayışlar və 3. Redaktə səciyyəli arzular.

Birinci qrupa aiddir: təhsilin mahiyyəti, təhsilin strateji məqsədi və ümumi təhsilin mərhələləri.

I. Preambulada təhsilin əhəmiyyəti və rolu üç abzasda haqlı olaraq açılır. Lakin, təəssüf ki, qanun təhsil haqqında olduğundan təhsil nədir, onun mahiyyəti nədən ibarətdir sualına cavab yoxdur. Təklif edərdik ki, preambulada təhsil məfhumunun mahiyyəti «Məktəb pedaqogikası» dərsliyində olduğu kimi, belə yazılsın: «Təhsil sosial-iqtisadi həyatın tərkib hissəsi kimi, əsasən tədris müəssisəsində məqsədyönlü, planlı və mütəşəkkil öyrənilən, tərbiyə və psixoloji inkişaf imkanları olan, təlimin bir halda zəruri şərti olan, digər halda təlimə çevrilən. Sonda isə təhsilalanların malına çevrilən sistemləşdirilmiş milli və ümumbəşəri dyərlərin məcmuudur».

Bu anlamdan göründüyü kimi, birincisi, təhsil real olaraq sosial-iqtisadi həyatın tərkib hissəsi kimi nəzərdən keçirilir. Çünki, peşə-ixtisas məktəblərinə qəbul ölkəmizdə sosial-iqtisadi həyatın etiyacları nəzərə alınaraq planlaşdırılır; peşə-ixtisasa yiyələnən mütəxəssislər müxtəlif sahələrdə fəaliyyət

göstərməli olurlar. İkincisi, həmin anlamda təhsilin təlimlən, tərbiyədən və psixoloji inkişafdan ayrılmaz olduğu nəzərə çarpdırılır. Üçüncüsü, təhsil hərəkətə gəldikdə təlim zəminindən təlimin özünə və, nəticədə öyrənənlərin malına çevrilir. Dördüncüsü, həmin anlamda təhsilin tərbiyə və psixoloji inkişafla bağlılığı diqqət mərkəzində saxlanılır: təhsilin nəinki milli və ümumbəşəri məzmunu, hətta onun həyata keçirilməsi prosesi təhmilalanları həm tərbiyə etməli, həm də onlarda psixoloji qüvvələrin inkişafını surətləndirməlidir.

II. Təhsil qanunu layihəsinin yeni variantında təhsilin əsas məqsədi 4 bənddə (Maddə 4. 4.0; 4.01; 4.0.2; 4.0.3.), həm də pərakəndə halda verilmişdir. Halbu ki, əsas məqsədin yığcam və vahid xırdaçılıqdan uzaq olması, ötəri deyil, uzunmüddətli, strateji səciyyəli olması arzuediləndir. Düşünürük ki, yuxarıda adını çəkdiyimiz dərslikdə təhsilin həmişəcavan strateji məqsədinə, Azərbaycan Respublikası yaşadıqca daim ona dayaq olacaq məqsədə dair müddəanın yeni layihədə nəzərə alınması məsləht olardı. Təhsilin strateji məqsədi həmin dərslikdə belə ifadə olunub: «Sistemləşdirilmiş milli və ümumbəşəri dəyərlərlə əlaqədar olan biliklərin, bacarıq və vərdişlərin mənimsənilməsi yolu ilə Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumağa, respublikamızı inkişaf etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olan fəal vətəndaşlar yetişdirmək təhsilin strateji məqsədidir».

Təklif etdiyimiz bu anlam eyni zamanda üç ən mühüm suala cavab verir. Birinci sual: Azərbaycan Respublikasına necə vətəndaşlar lazımdır? Cavab: Azərbaycan Respublikasına fəal vətəndaşlar gərəkdir. İkinci sual: Azərbaycan Respublikasının vətəndaşları hansı keyfiyyətləri ilə fərqlənməlidir? Cavab: Azərbaycanın dövlətmüstəqilliyini qorumağa, onun ərazi bütövlüyünü, sərhədlərinin tonulmazlığını qorumağa, respublikamızı inkişaf etmiş etmiş demokratik dövlətlər səviyyəsinə qaldırmağa qadir olmalıdırlar. Üçüncü sual: Bu keyfiyyətlər gənc nəsildə necə, hansı yollarla formalaşdırılmalıdır? Cavab: Sistemə salınmış

milli və ümumbəşəri dəyərlərlə əlaqədar olan biliklərin, bacarıq və vərdişlərin mənimsənilməsi yolu ilə!

Bu təklif nəzərə alınarsa maddə 4 layihədə olduğu kimi (Təhsilin əsas məqsədi) deyil, belə yazılardı: «Təhsilin strateji məqsədi» onun altındakı dörd bəndi isə ümumiləşdirən bir bənddə strateji məqsədin mahiyyəti ifadə edilərdi.

III. 17.1.2. bəndində bəzi məntiqsizliklər var. İstərdik ki, həmin məntiqsizliklər nəzərə alınsın və aradan qaldırılsın. Birincisi, həmin bənddə işlədilən «Məktəb» sözü yersizdir, onun atılması məsləhət olardı. Çünki maddə 17 təhsil müəssisələrinə aid deyil, təhsilin pillələri adlanır; bundan əlavə, 17.1.2. bəndində «Məktəb» sözü qalarsa, layihənin məntiqinə görə, 17.1.3. – bəndinə də, 17.1.4 bəndinə və 17.1.5. bəndinə də «Məktəb» sözləri əlavə olunmalıdır, belə: «İlk peşə-ixtisas məktəbi təhsili», «orta peşə-ixtisas məktəbi təhsili», «Ali məktəb təhsili». Bu halda məntiqsizlik nəinki artar, həm də maddə 17 ilə ziddiyyət yaradardı. Odur ki, ən həyati, məntiqi məslhət. Yuxarıda deyildiyi kimi, 17.1.2. bəndindəki «Məktəb» sözünün atılmasıdır. 17.1.2. bəndindəki «orta» sözü də artıqdır, atılmalıdır. Çünki ibtidai təhsil verən məktəb müstəqil fəaliyyət göstərir, ümumi orta məktəbin tərkibinə daxil deyil; ümumi orta məktəbin strukturuna aid olan isə I-IV siniflərdir.

Deyilənlər nəzərə alınarsa 17.1.2. bəndin ifadəsi belə məsləhət olardı: «Ümumi təhsil». Bu ifadə ümumi təhsilin pillələrinin üçünü də özündə ehtiva edir.

Üçüncüsü, həmin məntiqə uyğun olaraq 17.1.2.1 bəndi layihədə olduğu (ibtidai təhsil) formasında deyil, «ibtidai ümumi təhsil» formasında yazılması reallığı daha dəqiq ifadə etmiş olardı. Hamı üçün daha aydın olardı ki, ibtidai təhsil də həm ümumidir, həm də ümumi təhsilin ilk pilləsidir.

Dördüncüsü, 17.1.2.2. bəndinin layihədə ifadə tərzi 17.1.2. bəndi ilə eyniyyət təşkil edir: o da ümumi orta təhsil; bu da ümumi orta təhsil; Halbu ki, 17.1.2.2. bəndin məna tutumu nəinki 17.1.2. bəndinin məna tutumuna bərabər olmamalıdır, hətta ondan kiçik olmalıdır. Bu məntiqi tələblərə cavab verən ifadə tərzi tapılmalıdır. Belə hesab

edirik ik, ən real elmi ifadə ənənəvi ifadə tərzi ola bilər: «natamam orta ümumi təhsil». Bu variant qəbul olunarsa yenə hər bir şəxs yəqin edər ki, natamam orta ümumi təhsil həm ikinci pillədir, həm də ümumi təhsil sistemində birinci və üçüncü pillələr arasında körpü rolunu oynayır.

Beşincisi, 17.1.2.3. bəndinin layihədəki (tam orta təhsil) ifadəsi də məntiqsizlikdən xali deyil. Çünki, bu ifaddən tam orta təhsilin ümumi təhsillə qohumluğu məlum olmur. Bundan əlavə, orta peşə-ixtisas təhsili də orta təhsilə aiddir. Orta təhsilin bu qolunu digər qolundan fərqləndirən başlıca göstərici onun ümumi təhsilə aid olmasıdır. Üstəlik, «tam orta təhsil»in ümumi təhsilə aid olduğu və onun son pillə olduğu qabarıq şəkildə nəzərə çarpmır.

Sadalanan səbəbləri nəzərə alaraq təklif edərdik ki, ümumi təhsilin son pilləsi layihədə olduğu kimi deyil, belə adlansın: «Tam orta ümumi təhsil».

Beləliklə, məsləhət olsaydı ümumi təhsilə aid olan pillələr belə adlanardı:

17.1.2. Ümumi təhsil.

17.1.2.1. İbtidai ümumi təhsil.

17.1.2..2. Natamam orta ümumi təhsil.

17.1.2.3. Tam orta ümumi təhsil.

IV. Fikrimizcə, layihədə «pedaqoji proses», «psixoloji inkişaf», «təlim» və «tərbiyə» məfhumlarına lazımı diqqət yetirilməmişdir; Halbuki, təhsil onlardan ayrılmazdır və onlarsız son dərəcə cılızlaşdırılmış görkəm almışdır. Bu səbəblərə əsasən təklif edərdik ki, həmin məfhumlara dair aşağıdakı anlayışlar maddə 1-də «əsas anlayışlar» sırasına daxil edilsin.

Pedaqoji proses – təlimin, tərbiyə və təhsilin, habelə onlardan ayrılmaz olan psixoloji inkişafın vəhdətidir, onların bir-birini tammalamasıdır.

Psixoloji inkişaf – təhsildən, təlim və tərbiyədən ayrılmaz olan, onların uğurla getməsini şərtləndirən diqqət, hafizə, təfəkkür tərzləri, iradi keyfiyyətlər kimi psixoloji qüvvələri intensiv inkişaf etdirməkdir.

Təlim – müəllimin məqsədəyönlü, planlı və mütəşəkkil rəhbərliyi ilə sistemləşdirilmiş millivə ümumbəşəri dəyərlərin təhsil alanlar tərəfindən mənimsənilməsi, bu zaman onların tərbiyə olunmaları və psixoloji qüvvələrinin inkişaf etdirilməsi prosesidir.

Tərbiyə – əsasən davranışla əlaqədar olan mənəvi keyfiyyətlərin adamlarda məqsədyönlü, planlı və mütəşəkkil formalaşdırılması prosesidir.

V. Redaktə səciyyəli qeydlər. Məsələn, bir sıra bəndlərdə səhv olaraq yazılmış «təhsil prosesi» və ya «tədris prosesi» əslində «pedaqoji proses» kimi yazılmalı idi. Məsələn, layihənin 11.2 bəndində «təhsil prosesi», 16.1. bəndində «təhsil prosesi», 25.2 bəndində «tədris prosesi», 29.2.1.7 bəndində «təhsil prosesi», 32.3.16. bəndində «təhsil prosesi» əvəzinə «pedaqoji proses» yazılması məsləhətdir.

Yaxud, maddə 31-də «təhsil prosesinin iştirakçıları» əvəzinə «Pedaqoji proses iştirakçıları», 19.8 bəndində «məktəbdənkənar», 32.3.4. bəndində «sinifdənkənar» əvəzinə «dərsdənkənar» yazılmalıdır.

Və ya. 3.0.6. bəndində «metodlar» əvəzinə «üsullar», «təhsil sferası» əvəzinə «təhsil sahəsi», 25.2. bəndində «tədris prosesi» vəzinə «pedaqoji proses» yazılması dəqin olardı.

Layihədə bəzi bəndlərin dil, üslub cəhətdən daha səlis ifadə edilməsi arzu olunur. Məsələn, 1.0.6. bəndin belə ifadəsi: «attestasiya-hər bir təhsil pilləsində təhsilalanların təlim, tərbiyə və psixoloji qüvvələrinin inkişafı sahəsində nailiyyətlərinin. Habelə təhsilverənlərin fəaliyyət xüsusiyyətlərinin qiymətləndirilməsi», 3.0. 10. bəndinin belə ifadəsi: «Mütərəqqi milli dəyərlərin qorunması əsasında təhsilin dünya təhsil sisteminə qoşulması», yaxud, 29.2.6. bəndinin belə ifadəsi: «Təhsil sahəsində dövlət siyasətinin və dövlət proqramlarının həyata keçirilməsinə müvafiq icra hakimiyyəti orqanlarının nəzarətini təmin etmək» formasında yazılışı arzu olunur.

**(Azərbaycan Respublikası Milli Məclisinə və təhsil nazirliyinə təqdim edilib. 22 yanvar, 2008)**

## 19. ЗАКОН О СУВЕРЕНИТЕТЕ ДОЛЖЕН ДЕЙСТВОВАТЬ ВО ВСЕХ ОТНОШЕНИЯХ

Конституционный закон Азербайджанской ССР о суверенитете, вступивший в силу с 25 сентября 1989 года, следует считать серьезным шагом а сторону осуществления полного суверенитета нашей республики.

Видимо, пройдет некоторое время, и Верховный Совет Азербайджанской ССР вернется к этому закону, рассмотрит его е точки зрения жизни, внесет соответствующие изменения и дополнения. С этой целью я хотел бы высказать ряд пожеланий с учетом применения закона о суверенитете республики да последние пять месяцев.

В пункте четвертом указывается, что взаимоотношения между Азербайджанской ССР и Союзом ССР строятся на договорной основе. Данная формулировка нам кажется нелогичной, так как Союз ССР предполагает, наряду е другими союзными республиками, также и Азербайджанскую ССР считать частью СССР. Не реален, не жизненен договор между целым и частью этого целого. Договор может быть между союзными республиками, между частями целого.

В пункте втором подчеркивается, что компетенция Азербайджанской ССР ограничена лишь по вопросам, добровольно делегированным самой республикой Союзу ССР. Хотел бы обратить внимание на два момента в этой формулировке. Во-первых, а ней не указано, конкретно, какие именно вопросы добровольно делегированы республикой Союзу ССР. Во-вторых, и приведенная формулировка слово «лишь» уменьшает значение тех вопросов, которые добровольно делегированы республикой. На самом же деле тут, видимо, имеется в виду

целый ряд политических, дипломатических и военных вопросов. Учитывая изложенное, мы хотели бы увидеть в указанном пункте перечисление всех тех вопросов, которые добровольно делегированы республикой Союзу ССР и исключение слова «лишь».

Некоторые положения закона не в полной мере отражают действительность. Так, в пункте первом закона пишется: «Вся власть в Азербайджанской ССР принадлежит народу и исходит от народа». Надо называть вещи своими именами. В Азербайджанской ССР, так же, как и в других союзных республиках, власть принадлежит партийным органам. Это рельефно доказывается последними событиями, свидетельствующими о том, что народ не доверяет многим партийным руководителям: они не выражают чаяний народа. Эту реальность надо учесть в законе.

В дальнейшем уточнении нуждается и пункт тринадцатый, в котором содержится даже гарантия об обеспечении употребления в государственных и общественных органах, учреждениях культуры, просвещения и азербайджанского языка как государственного. Ясно, что язык, в том числе и азербайджанский язык, применяется человеком для выражения своих мыслей. Жизнь, особенно последних двух лет, убедила меня в том, что не все мои мысли нашли дорогу в печать. Приведу несколько примеров. Написал обширный отзыв на одностороннюю телевизионную передачу «Позиция», подготовленную Г.Боровиком. Отказались напечатать этот отзыв не только редакция газеты «Известия», но и республиканская газета «Коммунист». Написал обстоятельное опровержение измышлениям Мамунца, изложенным и за «круглым столом» на тему «СССР — наш общий дом» на страницах газеты «Правда», направил его в редакцию. Но отказалась опубликовать не только эта редакция, но и газета «Коммунист». Оформил свое отношение к оценке тов. Горбачевым событий в Баку и отдельным положениям

первого секретаря ЦК КП Армении Арутюняна на февральском Пленуме ЦК КПСС, направив его в Москву. Просил ответить на ряд вопросов. Но ответа не последовало.

Если я не могу выразить свои мысли ни на русском языке в центральных органах, ни на родном языка у себя в республике, то разве я не вправе рассматривать подобные факты как ограничение употребления языка в условиях гласности и демократии? Зачем мне этот язык, если я лишаюсь возможности выразить открыто, гласно свои мысли, если даже они не по душе редакции или какому нибудь партийному работнику? Мне думается, что одна из причин, ведущих людей на митинги, как раз и состоит в разных формах запрета мысли. Учитывая изложенное, мы бы предложили дополнить пункт тринадцатый формулировкой «...для свободного выражения мысли».

Кроме сказанного, думается, что в указанном пункте содержится также неопределенность. В нем пишется, что «Азербайджанская ССР обеспечивает употребление…» Такая формулировка из предусматривает ответственного, да и не дает конкретного ответа: кто, или какое учреждение обеспечивает употребление азербайджанского языка. Целесообразнее начать указанный пункт или так: «В Азербайджанской ССР обеспечивается...», или так «Совет Министров Азербайджанской ССР обеспечивает употребление...»

В пункте первом сказано: «Охрана суверенных прав Азербайджанской ССР осуществляется Азербайджанской ССР и Союзом ССР». События последних двух лет показали. что ни Азербайджанская ССР, ни Союз ССР не охраняли или не могли охранять в должной мере суверенные права Азербайджанской ССР. Эти права нашей республики нарушались не только со стороны Армении, но и в самой республике: в НКАО, в Шаумяновском (сельском) районе, в трех селениях Ханларского района. Однако, за эти нарушения никто не нес ответственности,

не наказан никто ни в Армении, ни в НКАО, ни в Шаумяновском (сельском) района, ни в известных селениях Ханларского района.

В пункте втором сказано хорошо: «Всякое вмешательство а решение вопросов, составляющих неотъемлемое право Азербайджанской ССР, должно расцениваться как попрание ее суверенных прав». За последнее время нам стало известно, что Армянская ССР в различных направлениях вмешивается во внутренние дела Азербайджана. Однако, нам не известны формы государственного всесоюзного обсуждения такого нарушения н наказания нарушителей. Думается, что руководству Азербайджанской ССР следовало бы подготовить и представить в соответствующие высшие власти проекты постановления (решения), осуждающий виновников и добываться его принятия.

Недостаточно работает также, как нам кажется, пункт девятый, в котором подчеркивается: «Азербайджанская ССР участвует в решении вопросов, отнесенных к ведению Союза ССР в высших органах государственной власти и управления СССР в других органах Союза ССР. Это право гарантируется путем обеспечения председательством Азербайджанской ССР в органах государственной власти и управление Союза на равных основаниях с другими союзными республиками».

В Законе о суверенитета республики содержится много других серьезных положений, позволяющих функционированию суверенных прав Азербайджанской ССР. К числу таких положений относится, например, установление контроля за деятельнестью финансово-кредитных учреждений, доходов республики, поступающих на образованна госбюджета Азербайджанской ССР и госбюджета СССР. Или, право Азербайджанской ССР заключать с иностранными государствами договоры и обмениваться дипломатическими и консульскими представи-

телями, участвовать в деятельности международных организаций.

Хотелось бы, чтобы Совет Министров Азербайджанской ССР или Президиум Верховного Совета республики периодически информировали азербайджанский народ о том, как реализуется суверенное право Азербайджанской ССР, как, например, осуществляется контроль за доходами, поступающими на образование госбюджета Азербайджанской ССР н госбюджета СССР, с какими иностранными государствами организован обмен Дипломатическими представителями, в деятельности каких международных организаций мы принимаем участие.

Целиком и полностью поддерживаю решение внеочередной сессии Верховного Совета Азербайджанской ССР, осуждающее ввод войск в Баку и объявление чрезвычайного положения как факта грубого нарушения суверенитета республики. Мы за то, чтобы указанное решение было доведено до конца, чтобы оно не осталось на бумаге. Иначе азербайджанский народ не поймет своих депутатов, высший орган государственной власти в республике.

Ясно, что Закон о суверенитете Азербайджанской ССР осуществляется не сам по себе. Он учитывается и применяется людьми, наделенными соответствующими полномочиями, он применяется органами и организациями, к компетенции которых относится осуществление суверенных прав республики. С этих лиц, с таких органов и организаций Азербайджанской ССР необходимо требовать решительных действий, направленных на поддержание суверенитета Азербайджанской ССР. Активность должна исходить, прежде всего, от самого Азербайджана. Иначе Закон о суверенитете Азербайджанской ССР будет буксовать, останется на бумаге.

## 20. SƏNƏDİN TƏRBİYƏVİ İMKANLARINDAN İSTİFADƏ EDİLMƏLİDİR

Məlum olduğu kimi, prezidentin fərmanı ilə bir qrup məhbus əfv edilmişdir. Fərmanın mahiyyəti, meydana gəlmə səbəbi və nəticələri respublikamızın hər bir vətəndaşını düşündürür.

Bağışlananlar arasında xeyli fərari vardır. Mən yalnız onlarla əlaqədar bəzi fikirlərimi oxucularla bölüşmək istərdim.

Bəri başdan etiraf edilməlidir ki, hərbi xidmətə könüllü gedənlər və hərbi hissədə canla-başla xidmət edənlər fərarilərə nisbətən ölçüyə gəlməyəcək dərəcədə çoxdur. Bu cəhət hökmən nəzərə alınmalıdır.

Fərmanın humanist xarakteri heç kəsdə şübhə doğurmur. Əfv edilən şəxslərin əksəriyyəti cavandır. Onların gələcəyi qabaqdadır. Cəza müddəti ömürdən, cavanlıqdan gedir. Fərman imkan verir ki, qəbahət əməl törətmiş gənc, həyatının çiçəklənən illərini həbsxanada hədər yerə deyil, ailəsi üçün, xalqı üçün faydalı işə sərf etsin. Bu mənada fərman həmin gəncləri sevindirmişdir.

Əfv olunanların ataları və anaları var. Onların heç biri istəməzdi ki, övladları cinayət törətsin, həbsxanaya düşsünlər, qohum-əqrəba yanında gözükölgəli olsunlar, hörmətdən düşsünlər. Bu mənada fərman valideynləri sevindirmişdir.

Bağışlananlardan bəziləri evlidir, bəziləri nişanlı. Əsgərliyə getmək istəməyən və ya əsgərlikdən qaçan gənc öz həyat yoldaşının, öz nişanlısının gözünə dik baxa bilərmi? Əlbəttə, ki yox! Tam üzüqaralıqdır. Təbiət heç kəsi heç kəsin yanında üzüqara eləməsin! Aydındır ki, həyat yoldaşını və ya nişanlısını azadlıqda görən qadın sevinir.

Əfv olunanların arasında uşağı olanlar da var. Ata uşağı haqqında, uşaq ata barədə düşünməyə bilməz. Həbsxanaya düşmüş ata gecə yuxusunda övladını görür, nə yediyi, necə yaşadığı haqqında fikirləşir. Bəs atası həbsxanaya düşmüş

oğul və ya qız hansı hisslər keçirir? Şübhəsiz ki, iztirab hissi, əməlindən xəcalət hissi! Əminik ki, fərman bu cür övladların da sevincinə səbəb olmuşdur.

Fərariliyin müəyyən səbəbləri var. Bağışlanan şəxslərin bəziləri ilə söhbətdən məlum oldu ki, fərarilikdə səbəblər çoxdur. Bəziləri qanunazidd əməlini komandiri ilə əlaqələndirir. Guya komandirin kobud hərəkətlərinə dözməyib hərbi hissəni tərk etmişdir. Bir qismi soyuq və şaxtaya tab gətirə bilmədiyini, digərləri yeməyin keyfiyyətsiz olduğunu bildirir. Əsgər yoldaşlarının nalayiq münasibətlərini bəhanə gətirənlər də var. Tək-tək də olsa döyüşün dəhşətinə, qan töküldüyünə dözməyib, ölümdən qorxub qaçmağı üstün tutmaq halı da üzə çıxdı. Vəzifəli şəxslərin əsgərliyə münasibətinə işarə edənlər də tapıldı. Belələrinin fikrincə, bəzi vəzifəli şəxslər müxtəlif yollarla öz övladlarını əsgərlikdən saxladırlar.

Əsgərliyə getməməyin və ya əsgərlikdən qaçmağın motivlərinə inanmaq olmur. Gətirilən bu səbəblər nələrdən xəbər verir? Birinci növbdə bizim tərbiyə sistemində ciddi nöqsanlar olduğundan xəbər verir. Həm ailə tərbiyəsində, həm də məktəblərimizdə aparılan tərbiyənin məzmununda, forma və üsullarında nöqsanlara yol veririk. Görünür, ümumiyyətlə tərbiyədə, xüsusən də vətənpərvərlik tərbiyəsində sözçülük, öyüd-nəsihət üstünlük təşkil edir; əməli işdə, fəaliyyətdə tərbiyəyə isə az yer verilir. Ailə üçün, bütövlükdə cəmiyyət üçün acınacaqlı faktlardan çıxartmalı olduğumuz nəticələrdən birisi belədir: uşaqlarla, yeniyetmə və gənclərlə tərbiyə işini gücləndirmək, vətənpərvərlik tərbiyəsi, o cümlədən hərbi vətənpərvərlik işini kökündən yaxşılaşdırmaq, tərbiyəyə üstünlük vermək lazımdır.

Həmin faktlardan irəli gələn ikinci nəticə ictimai mühitlə bağlıdır. Unutmaq olmaz ki, yalnız tərbiyə vasitəsilə vəziyyəti qaydaya salmağa ümid etmək sadəlövhlük olardı. Tərbiyə işi ilə yanaşı ictimai mühiti saflaşdırmaq istiqamətlərində də xüsusi tədbirlər həyata keçirilməlidir. Birinci növbədə əsgərliyə çağırışda neqativ halların kökü kəsilməlidir. Vəzifəsindən asılı olmayaraq bütün şəxslərin

övladlarının müqəddəs vətəndaşlıq borclarını yerinə yetirmələrinə nail olmaq gərəkdir.

Faktlardan çıxarılan üçüncü nəticə hərbi hissələrlə əlaqədardır. Hərbi hissələrin hamısında möhkəm intizam, özü də şüurlu intizam yaratmaq lazımdır ki, hər bir gənc döyüşçü xidmət etdiyi hərbi hissəyə bağlansın. Bu cəhət də çox vacibdir.

Fərarilik etmiş gənc hansısa məktəbdə oxuyub, hansısa müəssisədə işləyib. Mən hələ eşitməmişəm ki, filan məktəbin pedaqoji kollektivi, yaxud filan müəssisənin kollektivi həmin ali və ya orta məktəbdə oxumuş və ya müəssisədə işləmiş, sonralar isə fərarilik etmiş şəxsin əməlini müzakirəyə qoyub, özləri üçün müvafiq nəticələr çıxarıbdır. Halbuki, bu cür müzakirələrə ehtiyac vardır. İstərdik ki, fərarilik etmiş şəxsin oxuduğu məktəb və ya işlədiyi müəssisə bu biabırçı halı müzakirə mövzusuna çevirsin, başqaları üçün dərs olsun. Fərariliyə hətta ailə şəraitində, ailə üzvlərinin iştirakı ilə qiymət verilməsi də respublikamıza yalnız fayda gətirər.

Bundan əlavə, tərbiyə işini gücləndirərkən fərarinin gələcəkdə peşimançılıq hissi keçirdiyi, valideynlərinin xəcalət hissinə qərq olduqları, yoldaşları arasında övladlarının üzüqara olduqları qabarıq şəkildə nəzərə çarpdırılmalıdır. Hər bir gənc aydın şəkildə dərk etməlidir ki, vətənin müdafiəsi üçün vətəndaşlıq borcunu yerinə yetirməyən şəxsin Azərbaycanda yaşamağa, onun çörəyini yeməyə, suyunu içməyə, havasını udmağa haqqı yoxdur.

İstərdik ki, müzakirələr xalq qarşısında öz vətəndaşlıq borcunu vicdanla yerinə yetirən minlərlə döyüşçülərin nümunəsi zəminində keçirilsin.

Çalışmalıyıq ki, Azərbaycanda fərariliyin kökü tamam kəsilsin. Bunu bizdən Azərbaycanın dövlət müstəqilliyi, ərazi bütövlüyünün təmin olunması tələb edir. Vətənimizi sən qoruma, mən qorumayım, bəs kim qorumalıdır? Bizim hamımız! Balaca da, böyük də! Bu fikri söyləmyə mənim haqqım var. Çünki fikrimi əməlimlə, fəaliyyətimlə isbat edirəm. Yaşım yetmiş olsa da, qələmimi, sözümü silahla

əvəz etməyə hazır olduğumu rəsmən bildirmişəm. Yaşımdan asılı olmayaraq «Vətəni müdafiə hər bir vətəndaşın borcudur». Azərbaycan Respublikasının Konstitusiyasında belə yazılmışdır. Bu fikir hamımızın şüuruna hopmalıdır.

**(«Azərbaycan» qəzeti, 1996, 31 yanvar)**

## 21. DƏRİNDƏN ÖYRƏNMƏK ÜMDƏ BORCUMUZDUR

Azərbaycan Respublikasının yeni konstitusiyasını hər bir Azərbaycan vətəndaşı dərindən öyrənməlidir. Sual olunur: Konstitusiyanı öyrənmək adama nə verir? Konstitusiya ilə ətraflı tanışlıq oxucuda iftixar hissi oyadır, onu fərəhləndirir ki, nəhayət, müstəqil ölkəmizin kamil konstitusiyası var; respublikamızda demokratik, hüquqi dövlət olmaq üçün zəruri hüquqi baza yaradılır, qanunun aliliyi təmin edilməyə başlayır.

Konstitusiya ilə tanışlıq adamın gözünü bir neçə cəhətdən açır, onun şüurluluq dərəcəsini xeyli yüksəldir. Hər bir oxucu öz hüquqlarını və dövlət qarşısında, xalq qarşısında nə kimi vəzifələr daşıdığını aydın dərk edir və buna uyğun düşünülmüş fəaliyyət göstərməli olur. Konstitusiya ilə tanışlıq imkan verir ki, hər bir oxucu aşağıdan yuxarıya qədər bütün dövlət orqanlarının, bütün siyasi və ictimai təşkilatların funksiyalarını bilsin və onlarla münasibətlərini qurarkən konstitusiyada göstərilən tələbləri nəzərə alsın.

Başlıcası həm də budur ki, dövlətimizin, həyatımızın hansı sahəsi konstitusiyanın yeni tələblərinə uyğun gəlmirsə, həmin sahə hökmən bu tələblərə uyğun şəkildə tənzimlənəcək və təkmilləşdiriləcəkdir. Məsələn, yeni konstitusiyada yazılır: «Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir». Ümumi orta təhsil isə IX XI sinifləri əhatə edir. Azərbaycan Respublikasının Təhsil qanununda isə deyilir: «Əsas təhsil məcburidir». Məlum olduğu kimi, təhsil qanunu ümumtəhsil məktəbinin

V-VIII siniflərini əsas təhsilə aid etmiş və köklü səhvə yol vermişdir. Təkcə bu səhvin düzəldilməsi, yəni konstitusiyanın tələbinə uyğunlaşdırılması təhsil sahəsində yaradılmış qarışılıqlığın aradan qaldırılmasına səbəb olacaqdır. Yeri gəlmişkən, deyək ki, Təhsil qanununda konstitusiya ilə ziddiyyət təşkil edən bu cür hallar az deyil. əminik ki, bu cəhət Milli Məclisin diqqətini cəlb edəcək. Təhsil qanununa yenidən baxılacaq və həmin zilddiyyətləri tezliklə aradan qaldıracaq, bununla da Təhsil qanununun tam işləməsinə şərait yaradacaqdır.

Dil məsələsinə diqqət yetirək. Konstitusiyamızda yazılır ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Bununla yanaşı, konstitusiyada göstərilir ki, Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

Konstitusiyada təsbit edilmiş bu müddəalar Azərbaycan Respublikasında dillə yaradılmış dedi-qodulara son qoyur və məsələyə tam aydınlıq gətirir. Nəzərə alınmalıdır ki, Azərbaycan dilinin dövlət dili hesab edilməsi Azərbaycan Respublikasında əhalinin danışdığı digər dilləri heç bir cəhətdən sıxışdırmır və ya məhdudlaşdırmır, hətta həmin dillərin işlədilməsi və inkişafı üçün zəruri olan şərait yaradılır. Bu mənada 45-ci maddənin tələblərini də yadda saxlamalıyıq. Orada yazılır: «hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz».

Azərbaycan Respublikasında dövlət dili ilə əhalinin işlətdiyi başqa dillər arasında bəşəriyyətin arzu etdiyi ahəngdarlıq, qarşılıqlı hörmət və demokratik, humanist münasibət respublikamızın bütün vətəndaşları tərəfindən yadda saxlanmalıdır.

Valideyn-övlad münasibətlərinə, övladların tərbiyəsində valideynlərin, ata-anaya qayğıda isə övladların borclarına dair konstitusiyanın tələblərini Azərbaycan Respublikasının hər bir vətəndaşı bilməlidir. Hər bir valideyn yaxşı yadda

saxlamalıdır ki, konstitusiyaya görə uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin müqəddəs borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Belə bir tələb xüsusilə indiki keçid dövründə, uşaqların nəzarətdən kənarda qalması təhlükəsində artdığı bir şəraitdə böyük aktuallıq kəsb edir. Hər bir valideyn dövlət qarşısında məsuliyyət daşıdığını unutmamalıdır.

Yeni konstitusiyamıza görə, ikinci tərəfin – övladın da üzərinə müəyyən öhdəliklər düşür. Konstitusiyada yazılır ki, valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. Bununla yanaşı, konstitusiya hər bir övlada – oğula və qıza əlavə olaraq xatırladır ki, 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar. Hər bir övlad valideynlərinə münasibətdə dövlət qarşısında məsuliyyətini daim xatırlamalıdır.

Dinlə əlaqədar konstitusiyada irəli sürülmüş fikirləri düzgün başa düşməyin böyük sosial-siyasi, əxlaqi və tərbiyəvi əhəmiyyəti vardır. Əvvəla, konstitusiyaya görə din dövlətdən ayrıdır. Bu, o deməkdir ki, dövlət strukturunda xüsusi dini orqan yoxdur, dini mərasimlər dövlətdən kənarda, din xadimləri tərəfindən keçirilə bilər. İkincisi, konstitusiya vicdan azadlığı elan etmişdir: hər kəsin vicdan azadlığı vardır. Vicdan azadlığı nə deməkdir? O deməkdir ki: 1) hər kəs dinə münasibətini müəyyənləşdirə bilər; 2) hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad edə bilər; 3) Yaxud heç bir dinə etiqad etməyə bilər; 4) Dinə münasibəti ilə bağlı əqidəsini ifadə edə və yaya bilər.

Azərbaycan vətəndaşlarına dinlə əlaqədar verilən bu cür hüquqlar mövcud qanunlar çərçivəsində həyata keçirilə bilir. Konstitusiya bu cəhətə də aydınlıq gətirmişdir. Konstitusiyaya görə, dini mərasimlərin yerinə yetirilməsi o zaman sərbəstdir ki, bu mərasimlər ictimai qaydanı pozmurvə ictimai əxlaqa zidd deyildir. Dinə etiqad göstərən və ya dini əqidəsi olan şəxs konstitusiyanın belə bir tələbini

də bilməlidir ki, dini etiqad və ya əqidə hüquq pozuntusuna bəraət qazandıra bilməz.

Dinlə və onun təbliği ilə əlaqədar bir cəhəti də diqqətə çatdırmaq istərdik. Biz konstitusiyamızda təhsil sisteminin dünyəviliyini nəzərdə tuturuq. Azərbaycan Respublikasının konstitusiyasında haqlı olaraq yazılır ki, dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır. Bu, o deməkdir ki, dövlət təhsil sisteminin əhatə etdiyi təhsil ocaqlarında heç bir din tədris edilə bilməz; gənc nəsil yalnız təbiət və cəmiyyətin real inkişaf qanunauyğunluqları barədə bilik, bacarıq və vərdişlərlə silahlandırılmalıdır. Dinin mahiyyəti və tarixi haqqında kurslar yalnız xüsusi fakültələrdə tədris edilir. Dinin tədrisi isə dövlət təhsil sistemindən kənar fəaliyyət göstərən dini məktəblərdə mümkündür.

Dinlə əlaqədar iki məqam da konstitusiyada öz əksini tapmışdır. Bunları da bilmək faydalıdır. Biri müxtəlif dinlərə münasibətdir. Digəri isə əxlaq normalarını pozan dinlərə münasibətdir. Konstitusiyada yazılır ki, bütün dini etiqadlar qanun qarşısında bərabərdir. Bu, o deməkdir ki, heç bir dinə üstünlük verilmir, heç bir din alçaldılmır. Konstitusiyada habelə göstərilir ki, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır.

Ailədə və tədris müəssisələrində uşaqların tərbiyəsi zamanı konstitusiyanın tələblərindən geniş istifadə edilməlidir. Fikrimizi bircə misalda – əməyə verilən qiymətlə əlaqədar konkretləşdirək. Konstitusiyada oxuyuruq: «Əmək fərdi və ictimai rifahın əsasıdır».

Bu kiçik ifadənin çox geniş və dərin mənasını və tərbiyə üçün böyük faydasını valideynlərimiz bilməli və öz uşaqlarını başa salmalıdırlar. Valideynlərimiz əməyin iqtisadi, fizioloji, psixoloji və əxlaqi əhəmiyyətini bilməlidirlər. Balalarımız üçün aydın olmalıdır ki, xalqımızın yaratdığı bütün maddi və mənəvi sərvətlərin hamısı adamların əməyi sayəsində mümkün olur. Ona görə də işə alışmaq, əməksevər olmaq, xalq üçün faydalı nemətlər istehsal etmək gərəkdir. Şəxsi zəhmət orqanizmin normal

fəaliyyətinə imkan verir; hafizə təfəkkür, təxəyyül, iradə kimi psixoloji keyfiyyətlərin formalaşmasına kömək edir, cəmiyyət üçün faydalı olan əxlaqi keyfiyyətlərin formalaşmasına təkan verir.

**(«Azərbaycan» qəzeti, 1996, 10 yanvar)**

## 22. ДЕСЯТЬ ВОПРОСОВ ГОСПОЖЕ СТАРОВОЙТОВОЙ

Госпожа Старовойтова! На днях по азербайджанскому телевидению слушал ваше интервью. В заключение вы сказали, что готовы ответить на любые вопросы, если таковые будут. Имея а виду, что вы объявляете себя специалистом по межнациональным проблемам и членом московской Хельсинкской группы, я бы хотел обратиться к вам с некоторыми вопросами и получить ответь!

1. Вам хорошо известно, что во второй половине XIX столетия на территории нынешней Армении большинство населения составляли азербайджанцы, а соотношение населения к октябрьскому перевороту изменилось в пользу армян. В результате политики вытеснения азербайджанцев, к 1986 году в Армении их осталось лишь 200 тысяч человек. А в феврале 1988 года состоялось организованное массовое насильственное изгнание азербайджанцев из родных мест. Ныне на территории Армении не осталось ни одного азербайджанца. Почему в то время ваш голос протеста не был слышен? Или вы не видите в таком развитии событий попрания прав человека?

2. Документально установлено, что в процессе насильственного изгнания азербайджанцев с территории нынешней Армении были убиты, искалечены, замерзли, пропали без вести сотни азербайджанцев. Считаете ли вы эти факты нарушением прав человека? Если нет, то почему!

3. Вы объясняли решение бывшей НКАО о присоединении к Армении, как факт национального самоопределения

армян. Разве организацией в свое время Армянской Республики не обеспечивалось право армян на самоопределение? Разве образованием НКАО на территории Азербайджана не обеспечивались соответствующие права армян?

4. Одностороннее противоправное решение о выходе из состава Азербайджана и присоединение бывшей НКАО к Армении фактически означало расширение территории одной республики за счет территории соседней. Как это соотносится с имеющимися межгосударственными договоренностями о недопустимости перекраивания существующих границ?

5. Известно, что среди сумгаитских погромщиков были и армяне, что задолго до погрома армянское население Сумгаита брало из сберкасс свои сбережения, что вскоре после в следующий день сумгаитских событий фильм о них в Ереване был показан по телевидению. Не доказывают ли подобные факты, что сумгаитская трагедия была тщательно организована именно армянской стороной? Ведь кто мог знать, по каким адресам направится толпа? Почему телеоператоры оказались на крышах именно тех зданий, в которых творились погромы? Не потому ли, что им заранее были известны эти адреса?

6. Как вы квалифицируете уничтожение, сожжение свыше двадцати азербайджанских городов, поселков и сел в нагорной части Карабаха, разграбление этих населенных пунктов и истребление их жителей? Не являются ли эти факты геноцидом азербайджанского на рода?

7. По сумгаитским и бакинским погромам и другим противоправным действиям азербайджанскими административными органами были привлечены к уголовной ответственности и наказаны лица азербайджанской национальности, тогда как в Армении никто не понес ответственности за насильственное изгнание азербайджанцев из их родных очагов и никто не был наказан. Как вы объяснили бы подобное?

8. Причину трагической гибели членов правительственной делегации Азербайджана, представителей России и Казахстана в Карабахе 20 ноября 1991 года вы объясняли столкновением вертолете е горой. Между тем, до вашей версии, уже было доказано, что вертолет был сбит армянской стороной. В связи с этим, чем объясните вашу поспешность в оценке гибели вертолета?

9. Первые неконституционные акты, первые выстрелы, изгнание людей с родных мест совершены армянской стороной. В глазах же мировой общественности, и с вашей подачи, Азербайджан представлен агрессором. Почему?

10. И, наконец, как член московской Хельсинкской группы и специалист по межнациональным вопросам, как вы совмещаете свою одностороннюю позицию в оценке конфликта между Азербайджаном и Арменией с принципами хельсинкского документа и научной объективностью?

**(«Вышка» qəzeti, 1992, 10 mart)**

## 23. GÖZLƏMƏ DİPLOMATİYASI NƏ DEMƏKDİR?

Məni son dərəcə narahat edən, anlaya bilmədiyim bəzi məqamları oxucularla bölüşmək istəyirəm.

Nə üçün bizim diplomatiyamızda Azərbaycan-Ermənistan münasibətlərinin tarixinə hərdənbir nəzər salınır? Azərbaycan diplomatiyası əsasən müdafiə mövqeyinə üstünlük verir, adətən Ermənistanın diplomatik aksiyalarına cavablarla kifayətlənir? Azərbaycan gözləmə diplomatiyasından əl çəkmir, Ermənistan diplomatiyasını qabaqlamır.

Azərbaycan diplomatiyası müəyyən mənada Ermənistan diplomatiyasının təsiri altına düşüb? Başqa cür necə izah etmək olar ki, Azərbaycan –Ermənistan münaqişəsi Qarabağla əlaqələndirilir. «Qarabağ münaqişəsi» «Qarabağ müharibəsi», «Qarabağ problemi» kimi qələmə verilir və çox halda Azərbaycan diplomatiyası bu zərərli ideya ilə barışmış olur? Azərbaycanın ayrı-ayrı ərazilərini erməni millətçilərinin müxtəlif vaxtlarda müxtəlif yollarla ələ

keçirdikləri, Ermənistandakı Azərbaycanlıları tədriclə, 1988-ci ildə isə kütləvi şəkildə öz doğma yurd-yuvalarından zorakılıqla didərgin saldıqları, nəhayət, hadisələri Azərbaycan ərazisinə, o cümlədən Qarabağın dağlıq hissəsinə keçirə bildikləri nə üçün Azərbaycan diplomatiyasının tərkib hissəsinə çevrilmir? Bəs nə vaxt dünya xalqlarında məlum olacaq ki, Qarabağ münaqişəsi yoxdur, münaqişə Ermənistanla Azərbaycan arasındadır, məqsəd öz ərazisini Azərbaycanın hesabına genişləndirməkdir? Bütün bunlara görə də nə üçün Azərbaycan diplomatiyası «Qarabağ münaqişəsi» ifadəsinin siyasi leksikondan çıxarılmasına və onun əvəzində «Azərbaycan torpaqlarını Ermənistanın zəbt etmək cəhdi» ifadəsinin işlədilməsinə səy göstərmir? «Qarabağ münaqişəsi» ifadəsinin beynəlxalq sənədlərə, o cümlədən ATƏM-in sənədlərinə, ABŞ-ın keçmiş prezidenti Buşunvə Rusiya Prezidenti Yeltsinin birgə bəyanatına, Buşun Azərbaycan prezidenti Elçibəyə məktubuna, Rafaelli ilə Kozırevin müzakirəsinə yol tapmasını Azərbaycan diplomatiyasının zəifliyi ilə əlaqələndirmək düzgün olmazmı?

Ermənistanda ev-eşikləri dağıdılmış, əmlakları talan olunmuş Azərbaycanlıların çəkdikləri zərəri Ermənistanın ödəməsi məsələsi qaldırılmır, dağıdılmış şəhər və kəndlərimizin bərpasını Ermənistandan tələb etməkdən ötrü beynəlxalq təşkilatların imkanlarından istifadə olunmur, qarət etdikləri şəhər və kəndlərimizdə dinc əhalini: uşaqları və qocaları, qadınları və kişiləri kütləvi şəkildə qırdıqlarına görə erməni millətçiləri beynəlxalq məhkəməyə verilmir.

**(Azadlıq» qəzeti, 1993, 6 mart)**

## 24. ERMƏNİSTAN DÖVLƏTİNİN SİYASƏTİ TARİX BOYU TƏXRİBAT, YALAN VƏ BÖHTAN ƏSASINDA QURULUB

Bu cür təxribat, yalan, böhtan silsilələrindən biri də 1988-ci il fevralın 28-də Sumqayıtda ermənilərin törətdikləri

qırğın, dərhal onun arxasınca, dünya miqyasında yaydıqları yalanlar, Azərbaycana qarşı atdıqları böhtanlar oldu.

Mən bu yayılan yalanların, atılan böhtanların şəxsən şahidi olmuşam. 1988-ci il mart ayının 2-si idi. İrəvan şəhərində idim. Dissertasiya müdafiəsində rəsmi opponent kimi iştirak edirdim. Müdafiədən sonra axşam mehmanxana yaxınlığındakı bağda oturub iki erməni professoru ilə söhbət edirdik. Birdən radio ucadan haray qaldırdı. Ermənicə dönə-dönə «diqqət, diqqət» sözünü təkrar edəndən sonra bildirdilər ki, «sırağa gün Sumqayıtda azərbaycanlılar növbəti vəhşiliklər törədiblər – günahsız erməniləri qırıblar».

Bu elandan sonra radio yenidən dinləyicilərə müraciət etdi: «Quraşdırılmış ekranlara baxn, görün Sumqayıtda yaşayan soydaşlarımıza necə divan tutulub». Müraciət qurtaran kimi bağda quraşdırılmış televizor işə düşdü: Sumqayıt küçəsində qızışmış insanlar pəncərələri sındırır, kimləri isə döyür, nəyi isə yandırırlar.

Yanımdakı professorlar həyəcan içərisində mənə dedilər:
- Ara, Nurəddin, qalx, sən bu gecə burada qala bilməzsən, elə bu saat səni Bakıya yola salaq!

Mən elə həmin gecə Bakıya qayıtdım. Amma səhərəcən yata bilməyərək bir sıra suallara cavab axtarmalı oldum.

Sumqayıt hadisələrindən bircə sutka keçməsinə baxmayaraq, onları ekranlaşdırmaq, şəhərin müxtəlif yerlərində televizorlar quraşdırmaq, nümayiş etdirmək, milləti bu dərəcədə, kütləvi halda qızışdırmaq necə mümkün olmuşdur? Və yaxud Sumqayıt küçələrində baş vermiş hadisələri bu qədər geniş panoramada çəkmək necə mümkün olmuşdur? Axı, belə geniş panoramalı çəkilişlər yalnız vertalyotdan mümkündür! Vertalyot isə ayrı-ayrı adamların deyil, dövlətin tabeliyindədir!

Gəldiyim qənaət budur ki, hadisələri həmin küçələrdəki beşmərtəbəli binaların üstündən çəkmək mümkündür. Əgər belədirsə, bəs qabaqcadan kim bilərdi ki, həmin küçələrdə, hansı binaların yaxınlığında təxribatlar törədiləcək? Cavab isə birmənalıdır: yalnız hadisələrin təşkilatçıları! Deməli,

hadisələr əvvəlcədən planlaşdırılaraq müvafiq yerlərdə təcrübəli kino-operatorlar yerləşdirilmiş və lentlər isə dərhal Ermənistana çatdırılmışdır.

Bu hadisələrdən bir neçə gün keçmişdi ki, məni Azərbaycan Pedaqoji Cəmiyyətinin sədri kimi Vəzirovun yanında Dağlıq Qarabağla əlaqədar keçirilən müşavirəyə dəvət etdilər. Müşavirədə 20-yə qədər ziyalı iştirak edirdi. Mən də söz alıb İrəvan təssüratlarımı haqqında qısaca danışaraq fikrimi belə yekunlaşdırdım: Sumqayıt hadisələri Ermənistan tərəfindən təşkil edilibdir. Gətirdiyim dəlillər birinci katibi əsəbləşdirdi, o, sözümü kəsib məsləhət gördü ki, fərziyyələr əsasında fikir söyləməyin.

Hadisələrin sonrakı gedişi göstərdi ki, Sumqayıt hadisələri doğrudan da Azərbaycan xalqına böhtan atmaq, onun ünvanına yalanlar yağdırmaq məqsədi güdən və dövlət səviyyəsində törədilmiş təxribatdır. Sonralar təxribatı törədənlərdən birinin – Eduard Qriqoryanın həbs olunması bir daha sübut etdi ki, mən öz zənnimdə yanılmamışdım.

Sumqayıt hadisələrinin hazırlanmasında və həyata keçirilməsində erməni izinin üzə çıxması xaricdəki erməni lobbisini narahat etməyə başlayanda erməni ideoloqları necə deyərlər, «təmiz azərbaycanlı Sumqayıtı» ssenarisini hazırlayaraq bu dəfə Bakını hədəf seçdilər.

Sonralar məlum olduğu kimi, Ermənistanın xüsusi dövlət orqanları xaricdəki erməni lobbisinin ayırdığı böyük vəsait hesabına, az bir vaxt ərzində, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin köməyinə, Moskvanın dəstəyinə, Azərbaycanda bəzi vəzifəli şəxsləri ələ almağa, Azərbaycandakı cinayətkar ünsürlərlə əlaqəyə girməyə, SSRİ-nin başqa şəhərlərində yaşayan azərbaycanlılardan xüsusi dəstələr düzəldərək Bakıya göndərməyə, Ermənistandan Azərbaycana göndərilən emissarları mütəşəkkilləşmiş qaydada təşkil etməyə, bu işdə Azərbaycan dilini təmiz bilən ermənilərə üstünlük verməyə nail oldular. Bu qədər geniş miqyaslı hazırlıqdan sonra Bakıda «ikinci Sumqayıt hadisəsi» törədildi. Bakı şəhərində dağıdılmalı evlərin, öldürülməli və döyülməli ermənilərin ünvanları, cinayətləri törədəcək

«qəhrəmanların» adları 1990-cı il yanvarın 10-na qədər təşkilatçılara məlum olmuşdur: qanlı 20 Yanvar qırğını baş tutmuşdur.

Sonralar bilindiyi kimi, bütün bu hazırlıq işləri «Şaumyan əməliyyatı»nın tərkib hissələri imiş.

Maraqlısı həm də budur ki, Ermənistanın dövlət səviyyəsində hazırlayıb həyata keçirdiyi təxribatlardan, terrorlardan, yaydıqları yalan və böhtanlardan dünya ictimaiyyətinin xəbərdar olduğu indiki zamanda bəzi xarici ölkələrin rəhbərlərindən Ermənistana «gözün üstündə qaşın var» deyən tapılmır. Axı, dünyanın gözü qarşısında sübut olundu ki, Azərbaycan xalqına qarşı erməni cəlladlarının törətdikləri təxribatların, böhtan və yalanların başlıca məqsədi xalqımızın əzəli torpaqlarını ələ keçirmək, «Böyük Ermənistan» xülyasını reallaşdırmaq və gələcək cəzadan özlərini sığortalamaqdır.

**(«Poliqlot» qəzeti, 2006, 15 mart)**

## 25. MÜQAVİMƏT

Üç ildir ki, Azərbaycan xalqı dincliç bilmir. Qoyun libası geymiş qonşu və qonaq qurd, mənəvi və fiziki terrorun müxtəlif növlərindən ustalıqla istifadə edərək Azərbaycan xalqını gözümçıxdıya salmışdır, sözün həqiqi mənasında ona göz verib şıq vermir. «Zavallı» qonşu böyüyündən kiçiyinədək, partiyalılarından bitəflərinədək, inzibati orqan işçilərindən ictimai təşkilatlarınadək birləşib Ermənistanda yaşayan bütün azərbaycanlılara vəhşicəsinə divan tutdular, doğma yurd-yuvalarından qovub didərgin saldılar. Onlar hadisələri Azərbaycan ərazisinə keçirməyə nail oldular: elə gün yoxdur ki, qatillər Azərbaycan torpağında cinayət törətməsinlər, günahsız adamları qanına qəltən etməsinlər, ev dağıtmasınlar, körpü partlatmasınlar, yol kəsməsinlər, mal-qara sürüb aparmasınlar.

«Başı bəlalar çəkmiş» üzdəniraq qonşuların bu qədər azğınlaşmasının səbəbləri nədir? Nə üçün «yazıq»

qonşuların özbaşınalığı getdikcə artır? Nə qədər ki, bu cür suallara aydın cavab verilməyib, nə qədər ki, «zavallı» erməni azğınlığının səbəbləri bütün çılpaqlığı ilə açılmayıb, görülən tədbirlər istənilən səmərəni vermir və bundan sonra da verə bilməyəcəkdir. Odur ki, gec də olsa, həmin suallara köklü cavab verilməlidir. Atalar demiş: «Zərərin yarısından qayıtmaq da faydalıdır».

Demək olmaz ki, qonşuların meydan sulamasının səbəblərinə indiyədək mətbuatda toxunulmamışdır. Müxtəlif münasibətlərlə yazılmış bəzi məqalələrdə həmin məsələ diqqəti cəlb etmişdir. Lakin, əvvəla, söylənmiş fikirlər ötəri xarakter daşımışdır; ikincisi, irəli sürülən mülahizələrdən tutarlı əməli nəticələr çıxarılmamış və sistemli tədbirlər görülməmişdir.

«Müsibətlər çəkmiş» qonşunun son üç ildə cızığından çıxmasına imkan verən səbəblər, əlbəttə, çoxdur. Bunlardan ən başlıcalarını göstərək:

Səbəblərdən biri «zavallı» qonşunun tarixi təcrübəyə malik olması ilə bağlıdır. Tarixdən məlumdur ki, ərazi iddiası sahəsində qonşunun kifayət qədər təcrübəsi vardır. Hələ Rusiyanın himayəsinə keçənə qədər, Suriyada, İranda və Türkiyədə yaşayarkən ərazi iddiası xəstəliyi üzündən qonşu həmin yerləri tərk etməyə məcbür olmuşdur. «Zavallı» qonşunun ərazi iddiasının əsasını mənəvi ataları katalikos Vazgen öz xalqına müraciətdə aydın ifadə etmişdir: «Yaşadığınız yerlərdə sayınız yerli əhalinin yarısından çoxunu təşkil edəndə ərazi iddiasına düşə bilərsiniz». «Zavallı» qonşunun tarixi təcrübəsindən irəli gələn bu mənfur ideya bu gün Dağlıq Qarabağda tətbiq edilir. Atalar yerində deyib: «Yersiz gəldi, yerli qaç»; «Qoy özümə yer eləyim, gör sənə neyləyərəm».

Səbəblərdən ikincisi «yazıq» qonşunun mütəşəkkilliyi ilə əlaqədardır. Bu qonşuya ideya ilhamı və siyasi istiqamət verən təşkilatın – daşnaksutyun partiyasının yüz ildən artıq tarixi vardır. Faşist tipli bu partiyanın qayəsi hamıya məlumdur: Dənizdən dənizə böyük Ermənistan yaratmaq. Sual olunur: Kimin və nəyin hesabına? Tarixdən göründüyü

kimi, qonşunun ayağı dəyən ərazilərin hesabına, birinci növbədə Azərbaycanın, Azərbaycan xalqının hesabına!

Məhz Daşnaksutyun partiyası nəinki Ermənistandakı, nəinki SSRİ-dəki, həm də xarici ölkələrdəki millət nümayəndələrini öz ətrafında sıx birləşdirərək nəyin bahasına olur olsun həmin ideyanın reallaşmasına can atır. Acı da olsa etiraf etməliyik ki, daşnaklar öz məqsədlərinə qismən də olsa çatırlar:

1) Rusiyanın hesabına ayrıca respublika – Ermənistan respublikası yaratmışlar; 2) Göycə mahalı, Zəngəzur, Basar Keçər Azərbaycandan alınıb Ermənistana verilmişdir; 3) Azərbaycanda ermənilər üçün vilayət yaradılmışdır; 4) Azərbaycandan vaxtaşırı hissə-hissə torpaqlar Ermənistan ərazisinə qatılmışdır; 5) Ermənistanda qalmış Azərbaycan torpaqlarından azərbaycanlılar tədriclə sıxışdırılmış, 1988-ci ilin fevralında isə qalanlar təhqir edilərk qovulmuşdur; 6) İndi isə Dağlıq Qarabağ. Naxçıvan, sərhəd rayonları…

Bəziləri «zavallı» qonşunun «Böyük Ermənistan» ideyasını xam xülya adlandırırlar. Bununla da, əvvəla, reallağa göz yumulur, ikincisi, Azərbaycan xalqının başı altına yastıq qoyulur ki, daha bərk yuxuya getsin. Biz atalar sözünü yada salmalıyıq: «Məqsədin hara-mənzilin ora» daşnaksutyun partiyası, Ermənistan Kommunist Partiyası və digər qeyri formal təşkilatlar birləşərək irəliləməkdə davam edirlər. Bizə isə elə hey deyirlər: hissə, emosiyaya qatılmayın, ağılla hərəkət edin. Bu cür məsləhətlər Azərbaycana baha başa gəlmişdir. Bir qonşu emosiyaya qapıla, ordu yarada, digər qonşunun ərazisini tuta, malını ala, özünü öldürə bilər; ikincisi isə əl-qolunu aşağı salıb emosiyaya qapılmamalı, şarpa-şarpa dözməlidir. Bu «ağıllı» məsləhət kimin dəyirmanına su tökür? Aydındır: yalnız qonşunun!

Üçüncü səbəb «zavallı» qonşunun Azərbaycana və azərbaycanlılara qarşı törətdikləri əmələ görə cinayətkarların cəzasız qalması və hətta himayə edilməsidir. Ermənistanda Azərbaycanlılara qarşı törədilmş bütün cinayətlər, insan hüquqlarının hər cür vəhşiliklə pozulması

yerli partiya və sovet orqanlarnın gözləri qarşısında baş vermişdir. İndi Dağlıq Qarabağda və sərhədboyu rayonlarda «yazıq» qonşuların törətdikləri cinayətlər də mütəşəkkil xarakter daşıyır. Məsuliyyətli şəxslər və orqanlar isə nəinki susur, hətta bu cür cinayətlərin daha geniş miqyas almasına şərait yaradırlar. Həyasızlğın dərəcəsinə baxın, Ermənistan dönə-dönə Azərbaycanın daxili işlərinə qarışır, Şaumyan rayonunun ləğvinə görə hətta ultimatum verir.

Dördüncü səbəb qonşuların yalan, böhtan, şantaj kimi yaramaz vasitələrdən bolluca istifadə etmələridir. Onlar milli qırğın törtməkdə də, günahı başqasının üzərinə atmaqda da tarixi təcrübəyə malikdirlər. 1918-ci ilin yalnız mart ayında təkcə Bakıda on min, ümumən Azərbaycanda otuz min silahsız azərbaycanlını qanına qəltan edən və «erməni genosidi» deyərək haray salan, Sumqayıtda bədnam «Krunk»a haqq verməyən qan qardaşlarnı Qriqoryan kimilərinə qırdırıb «genosid» deyə şivən qoparan görsən «zavallı» qonşular deyil, kimlər imiş! Qırğına məruz qalan azərbaycanlılar cinayətkar qonşudan məsuliyyət tələb etmək əvəzinə, günahsız öldürülən qadınların və kişilərin, qocaların və cavanların, uşaqların və yeniyetmələrin xatirələrini yaşatmaq üçün abidə qoymaq əvəzinə, başıbəla qonşular sonralar milli ədavəti qızışdırmaq naminə abidələr qoyub dünyaya haray salırlar: GENOSİD! Atalar gözəl deyib: «mən qaranı basınca qara məni basır», «Adımı sənə qoyum, səni də yana-yana».

Beşinci səbəb «Böyük Ermənistan» ideyasını həyata keçirmək üçün törədilən qətillərə, talanlara və basqınlara cinayətkar ideoloji zəmin yaradılması və cinayət məsuliyyətindən yaxa qurtarılmasıdır. Milli ədavət toxumu səpən balayanlar, xanzanyanlar və digər yalan ədəbiyyat, arxeologiya, etnoqrafiya, coğrafiya, tarix, incəsənət və mədəniyyət sahələrində Azərbaycana qarşı açıq-aşkar düşmənçilik ideyalarını təbliğ edirlər. Bu məqsədlə kütləvi informasiya vasitələrindən: qəzet və jurnallardan, radio və televiziyadan, habelə kitab çapından geniş istifadə olunur. Lakin heç birinin məsuliyyət məsələsi qaldırılmır. Heç biri

məsuliyyətə cəlb edilmir, əksinə, ali sovetlərə deputat seçilirlər. Milli ədavəti qızışdıranlara qarşı sovet qanunları elə bil yoxdur. Əcəb hüquqi dövlət yaradılır?!

Altıncı səbəb qatı millətçilərin mərkəzdə müdafiə olunmasıdır. İndi hər bir azərbaycanlıya, xüsusən, «başı bəlalar çəkən» qonşunun özünə gün kimi aydındır ki, mərkəzin gözü qarşısında qonşulardan biri ərköyündür, digəri ögey. Ərköyünün evində elanolunmuş fövqəladə vəziyyət zamanı, ordunun gözü qarşısında ögeylər döyüldü, təhqir olundu, öldürüldü və qovuldu. Ögeyin evində isə fövqəladə vəziyyət onun əl-qolunu bağladı, ərköyünlərin isə əl qolu daha gen açıldı. Görəsən, bu vəziyyətdə kim kimi döyüb öldürür? Atalar əbəs deməyib: «Arxalı kömək qurd basar». Keçmiş Bakıdan bir epizod burada yada düşür. Deyirlər ki, Nəcəfqulu adlı bir qoçu və onun bir keçisi varmış, yanında gəzdirərmiş. Dükanların qabağından keçəndə keçi birinin kisəsindən kişmiş, digərinin kisəsindən buğda yeyərmiş; yanından ötənə buynuz atarmış, heç kəs keçiyə dəyməzmiş, deyərlərmiş: Qoçu Nəcəfqulunun keçisidir!

İndi bizim «zavallı» qonşu dönüb olub Qoçu Nəcəfqulunun keçisi. Onun xətrinə dəyən yoxdur. Keyfi istədiyini eyləyir. Belə olmasaydı «yazıq» qonşunun törətdiyi mənəvi və əməli cinayətlərin haqq-hesabı çəkilərdi. Belə olmasaydı, mərkəzi televiziya, məsələn qonşulardan tutulmuş müxtəlif çaplı müasir qırğın silahlarının kimə aid olduğunu konkret deyərdi, deməzdi ki, «bütün bunlar cənub respublikalardan birində müsadirə edilmişdir. Yaxud, belə olmasaydı məsələn, ən yüksək qanunvericilik orqanı – SSRİ Xalq Deputatları Sovetlərinin qəzeti «Известия» SSRİ Konstitusiyasına zidd olan, lakin qonşunun nəfinə işləyən fikri öz səhifələrində təbliğ etməzdi. Xüsusi müxbir S.Bablumyanın dili ilə qəzet bildirməzdi ki, qonşu respublikadan olan müharibə və əmək veteranları Ermənistan və Dağlıq Qarabağ Silahlı Qüvvələri adından öz deputatlarına müraciət qəbul etmişlər.

Bablumyanların Ermənistanla digər respublikadakı vilayətin Silahlı Qüvvələrinin bir cəbhə təşkil etdiyini söyləmələri başa düşülür. Bəs konstitusiyaya bir neçə cəhətdən zidd olan həmin fikri qəzet yayarkən hansı məqsəd güdmüşdür?

Bu cür saysız-hesabsız faktlar isbat edir ki, mərkəz ideoloji təxribata görə də «zavallı» qonşunun qarşısına nəinki sipər çəkmir, hətta ona növbəti ideoloji cinayət üçün zəruri şərait də yaradır. Qonşunun isə ayağı yer alır. Təxribatçılıq, millətçilik həvəsi daha da artır. Səbəbi çoxlarına məlumdur.

Yeddinci səbəb qonşunun həyasızlığından, simasızlığından mərkəzin uzaq siyasi məqsədlərə çatmaq üçün istifadə etməsi olmuşdur. Hələ keçən əsrin əvvəllərində ermənilrə Zaqafqaziyada sığınacaq verəndə rus siyasətçiləri I Pyotrun vəsiyyətlərinə uyğun güddükləri məqsədi gizlətmirdilər. Məqsəd, nəinki rus, hətta bəzi sovet ziyalılarına da aydın olmuşdur. O zaman cənuba tərəf irəliləməkdə istifadə edilə biləcək qüvvə lazım idi. Satqın təbiətli qonşu belə bir rol oynaya bilərdi. Ermənistan məhz bu məqsədlə yaradıldı. Bu fikri SSRİ Xalq Deputatı akad. D.Lixaçov «Литературная Армения» qəzetinə verdiyi intervyüdə obrazlı şəkildə aydınca ifadə etmişdir: «Ermənistan şərq ölkələrinin sinəsinə nizə kimi sancılmışdır». Burada atalar sözü yada düşür: «Sən saydığını say, gör xaliq nə sayır».

D.Lixaçov kimi ziyalılara bəlli olmalıdır ki, həmin fikirlə daban-dabana zidd olan fikrə həsr edilmiş kitab da vardır: «Новая угроза чарской Росии» 1911-ci ildə Peterburqda çap olunmuşdur, müəllifi Şavrovdur. Qonşunun tarixini araşdıran müəllif isbat etməyə çalışmışdır ki, ermənilərə Zaqafqaziyada sığınacaq verilməsi Rusiya üçün ciddi təhlükə olacaqdır. Həmin kitabın çapından üç il sonra dünya müharibəsi başlayır. Bir qədər sonra Oktyabr inqilabı qələbə çalır, vətəndaş müharibəsi tüğyan edir. Həmin illərdə Daşnaksütyun partiyası ağqvardiyaçılarla, Denikinlə gizli əlaqəyə girir, onlara xidmət göstərir ki,

bolşeviklər məğlub olsun, Azərbaycan gücdən düşsün. Ruslar türklərə qarşı vuruşsun, ortada Dağlıq Qarabağı ələ keçirsinlər. Denikin başda olmaqla ağqvardiyaçılar cənubda məğlubiyyətə uğrayanda sonra qonşu millətçilər onlardan üz döndərib qafqazdakı ingilis komandanlığına yaltaqlıq etmiş, onu müsəlmanlara qarşı çevirməyə can atmışlar. Bu hiylənin də baş tutmadığını görən Daşnaksütyün liderlri növbəti kələyə əl atmışlar: ingilis polkovniki Şatelvortə yol tapmış və Qarabağ milli şurası adından xahiş etmişlər ki, Dağlıq Qarabağda ingilis general-qubernatorluğu yaradılsın. Belə bir «əsas» da gətirmişlər ki, «mədəni ermənilərі mədəniyyətsiz azərbaycanlılra tabe etmək ədalətsizlikdir». İngilis zabiti hiyləni duymuş və daşnaklara qəti cavab vermişdir: Razı deyiləm.

İndi müasir daşnaklar ölkə rəhbərlərindən tələb edirlər ki, Dağlıq Qarabağda prezident üsul-idarəsi tətbiq edilsin. Bərəkallah! Yenə köhnə bayatı!

Yuxarıda adını çəkdiyimiz kitabın əsas ideyası 1930-cu ildə İ.Şaxtinin çap etdiyi «Daşnaksütyun rus ağqvardiyaçılarının və Qafqazdakı ingilis komandanlığının xidmətində» adlı kitabında daha da konkretləşdirilmişdir.

Səkkizinci səbəb qonşunun törətdiyi cinayətlərin ölkə üçün nə dərəcədə təhlükəli olduğunu mərkəzdəki müasir siyasətçilərin qiymətləndirə bilməməsidir. Ölkədə ilk qeyri-formal siyasi təşkilatlar – «Qarabağ» və «Krunk» məhz qonşuluqda yaradılmışdır; ölkədə ilk mitinqlər qonşuluqda edilmişdir.

Ölkədə ilk tətillərə məhz qonşular başlamışlar; ölkədə digər millətə mənsub olan vətəndaşları doğma yurdundan didərgin salan məhz «zavallı» qonşular olmuşdur; əsgərlərə divan tutmaqda ölkə üzrə birincilik məhz qonşuya mənsubdur; ölkədə silah anbarlarına ilk basqın təcrübəsi qonşuya aiddir; ittifaq hakimiyyət orqanlarına və kütləvi informasiya vasitələrinə daraşmaq təşəbbüsü ölkədə qonşu nümayəndələrinin əlindədir; ölkədə milli ordunu birinci yaradan qonşu olmuşdur; Sov.İKP MK-nın Baş Katibi, ölkədə ilk prezidenti əhatəyə alan məhz qonşu lobbiləri

Şaxnazaryan, Aqanbekyan, Sitaryan, Osipyan və digər yanlardır və s. və i.a.

Bütün bunlar hamısı SSRİ-ni, sovet dövlətini daxildən sarsıtmaq deyil, bəs nədir?

Doqquzuncu səbəb qonşunun daim ikiüzlü siyasət yürütməsidir. Daşnak partiyası yarandığı ilk gündən ikiüzlü siyasət aparır. İkiüzlü siyasət təcrübəsi yeni şəraitdə çox ustalıqla sınaqdan keçirilir. «Zavallı» qonşu bir tərəfdən xalqlar dostluğunu ayaqları altına atıb tapdalamaqla, qatı millətçilik mövqeyini möhkəmləndirməklə ölkənin mənəvi dayaqlapını dağıdır; digər tərəfdən də mərkəzdəki erməni lobbilərini hakimiyyət orqanlarında yerləşdirməklə təəssürat oyatmağa çalışır ki, guya mövcud quruluşu müdafiə edirlər. Halbuki, indi hamı artıq anlamağa başlayıb ki, son illərdə prezidenti dövrəyə alan Aqanbekyanların, sitaryanların, şaxnazarovların, osipyanların ucbatından ölkə iqtisadi və siyasi böhran batağına yuvarlanmaqda davam edir.

İkiüzlü siyasət Azərbaycanda da uzun müddət ustalıqla yeridilmişdir. Şaumyan, Mikoyan, Baqramyan, Qriqoryan, Markaryan kimi yanlar bolşevik və sovet tərəfdarları kimi yüksək vəzifələrə soxularaq uzun illər Azərbaycan xalqının qabiliyyətli oğul və qızlarını qırğına vermişlər.

Onuncu səbəb xarici ölkələrdə diasporinin və onların havadarlarının qonşuya göstərdiyi çoxcəhətli maddi və mənəvi yardımdır. Qonşunun xaricdəki nümayəndələri uzun illərdir ki, küli miqdarda vəsait toplayaraq «Böyük Ermənistan» ideyasının həyata keçirilməsinə yardım etməklə sovet quruluşunu sarsıtmağa və beynəlxalq ictimaiyyətdə Azərbaycan xalqı haqqında mənfi obraz yaratmağa çalışırlar: məsələn, 1990-cı ilin yanvarında Bakıya Mərkəzi ordu yeridilməsini və kütləvi qırğın törədilməsini ABŞ-ın prezidenti Buş, problemin mahiyyətinə varmadan, himayə etmişdir; lakin, o, Litvada 1991-ci il yanvar qırğını ilə əlaqədar narahatlığını bildirmişdir. Litva hadisələri ilə bağlı bütün qərb ölkələri etraz səsini ucaltmışdır. Axı Azərbaycanda daha dəhşətli

qırğın törədilmişdi? Nə üçün həmin ölkələr susurdu? Nəzərə alınmalıdır ki, «yalan ayaq tutar, yeriməz».

Səbəblərin bəziləri də özümüzlə, Azərbaycanla, Azərbaycan xalqı və onun rəhbərləri ilə əlaqədardır.

Birincisi, biz «yazıq» qonşunun ideya ilhamçısı olan Daşnaksutyun partiyasının qatı millətçi, şovinist, riyakar, fırıldaq, insanlıqdan uzaq olan terrorçu simasını açıb xalqımıza və ölkəyə, hətta bütün dünyaya bildirmək üçün əzmkarlıq göstərməmişik, uzun illər susmuşuq.

İkincisi, özlərini «müsibələr görmüş» qonşunun həqiqi «qəhrəmanları» hesab edən balayanların, poqosyanların, petrosyanların, qriqoryanların, ambarsumyanların Daşnaksutyun partiyası ideyalarına necə sadiq qaldıqlarına konkret faktlarla lazımınca sübut edə bilməmişik.

Üçüncüsü, «zavallı» qonşunun Azərbaycana qarşı işlətdikləri mübarizə üsullarının: yalanın, böhtanın, ikiüzlülüyün, satqınlığın, şeytançılığın, terrorçuluğun və s. yaramaz xüsusiyyətlərin yeni olmadığını, Daşnaksutyun partiyasının tarixdə dönə-dönə işlətdiyi üsullar olduğunu konkret faktlarla ardıcıl şəkildə bütün dünyaya bildirmişik. Bu üsullar indi təkcə Azərbaycana qarşı deyil, «günahsız» qonşuya azacıq da olsa toxuna bilən şəxslərə, hətta ruslara qarşı yönəlir. Sov.İKP MK və Sovet hökuməti rəhbərlərinin ünvanına Qalyanın yağdırdığı böhtanlar, ağ yalanlar, komissiya yoxlamaları…, yaxud, keçən ilin dekabrında SSRİ xalq deputatı Martirosyanın general-polkovnik Boris Qromova hərbi çevriliş məsələsi ilə əlaqədar atdığı böhtan, böhtan üçün onun məhkəməyə verilməsi… Martirosyanın deputata yaraşmayan iyrənc xarakteri barədə «Kommersant»ın 1990-cı il 48-ci nömrəsini oxumaq kifayətdir…

Dördüncüsü, biz «məşəqqətlər çəkmiş» qonşunun Azərbaycana münasibətinin tarixini ətraflı öyrənib geniş təbliğ etməmişik. Özünü «zavallı», «başı bəlalar çəkmiş» xalq kimi qələmə verən qonşunun silahlı dəstələrinin Zaqafqaziyaya tarixən azərbaycanlılara qan uddurduğunu öz xalqımıza və digər xalqlara mütəşəkkil formada

çatdırmamışıq. Tarixi bir növ bizə unutdurublar. Silahlı quldur dəstələri indi yenidən dirçədilmişdir.

Beşincisi, mərkəzin şirin sözlərinə uyan və aldanan, vəzifə düşkünü olan bəzi respublika rəhbərləri qonşunun hiyləsini, məkrli tədbirlərini, iç üzünü açmağa təşəbbüs göstərən Azərbaycan ziyalıdarını gözümçıxdıya, sıxma-boğmaya salmış, millətçi, ekstremist damğası vurmuş, bəzən də həbs etmişlər. Bununla da qonşunun daha geniş miqyasda fəaliyyət göstərməsinə imkan yaradılmışdır. XX əsrin əvvəllərindən başlayaraq Ermənistanda azərbaycanlıların sıxışdırılmasına, 1950-60-cı illərdə azərbaycanlıların kütləvi şəkildə sürgün edilməsinə göz yumulub. 1988-ci ilin əvvəlindən başlayan növbəti qaçqın dalğası qulaqardına verilib, danışanlar emosiyaya qapılmaqda təqsirləndirilib. Bir sözlə, Ermənistanda azərbaycanlılara divan tutulanda Azərbaycan öz sözünü demədi, öz soydaşlarını müdafiəyə qalxmadı. Burada, əlbəttə, respublika rəhbərlərinin günahı daha çox olmuşdur. Rəhbərlər xalqa arxalanmalı, ona istiqamət verməli olduğu halda aşağıdan göstərilən təşəbbüslər boğulmuşdur.

Altıncısı, «Zavallı» qonşunun Azərbaycana və azərbaycanlılara qarşı qeyri insani münasibətlərini ardıcıl şəkildə öyrənib müntəzəm ifşa edən xüsusi təşkilatımız olmamışdır. Elə bir orqanımız, elə bir qəzetimiz olmamışdır ki, ermənilərin biabırçılıqlarını şərh etsin, ölkə, hətta dünya ictimaiyyəti ondan xəbər tutsun.

Dediklərimizdən bir sıra əməli nəticələr irəli gəlir.

Birincisi, «yazıq» qonşunun Azərbaycana münasibətinin tarixini bütün incəliyinədək öyrənməli və hər bir azərbaycanlını, hər bir sovet adamını bundan hali etməliyik. Yaddaşımızın kütləşməsinə bundan sonra qətiyyən yol verməməliyik.

İkincisi, «zavallı» qonşunun müasir liderləri Daşnaksutyun partiyasının ideyalarından ilham aldıqları üçün bu partiyanın quruluşu, ideyaları və əməlləri barədə xalqımızı müvafiq məlumatlarla silahlandırmaq lazımdır.

Üçüncüsü, «müsibətlər görmüş» qonşunun mərkəzdəki erməni lobbisi ilə, xaricdəki diaspori ilə müxtəlif istiqamətli əlaqələrinin mahiyyəti hər birimizə, bütün sovet adamlarına bəlli olmalıdır. Bu çətin vəzifə də bizim öhdəmizə düşür.

Dördüncüsü, qonşunun törətdiyi və bundan sonra da törədəcəyi cinayətlərin-qətllərin, talanların, təxribatların, ideoloji təcavüzün, yalanın, böhtanın, iyrənc əməllərin heç biri diqqətdən yayınmamalıdır. Onların hər birinə münasibət göstərib axırına çıxmaq vacibdir. Lakin bir neçə dəfə yüksək səviyyələrdə məsələ qaldırılmasına baxmayaraq, təəssüf ki, vəzifəli şəxslər buna məhəl qoymamışlar. Məsələn, «Pravda» qəzetinin səhifələrində «ССРИ наш обший дом» mövzusunda dəyirmı stol arxasında keçirilmiş müsahibədə Azərbaycanı Dağlıq Qarabağdan Mamunts təmsil etmiş və orada respublikanın ünvanına böhtanlar söyləmişdir. O zaman Azərbaycan XDP-nın professoru, pedaqoji elmlər doktoru, əməkdar elm xadimi N.M.Kazımov həm redaksiyaya, həm də Mamuntsa etiraz məktubu yazaraq Azərb. KP. MK-nin keçmiş şöbə müdiri indi katib işləyən Ə.Daşdəmirov yoldaşa vermiş və demişdir ki, fikrini bildirsin və ziyalıların gücündən istifadə etsin. Təəssüf ki, Ə.Daşdəmirov yoldaş bu təşəbbüsə münasibətini bildirməmişdir. Yaxud, 1989-cu ilin sentyabrında bir qrup ziyalı Azərb.KP MK-nın keçmiş birinci katibi Ə.X.Vəzirovun yanında olarkən, digər məsələlərlə yanaşı, məsləhət görülmüşdü ki, qonşunun yalan və böhtanlarını ifşa üçün xüsusi qrup yaradılsın. Fikir otaqdan kənara çıxmadı. Yaxud, Azərb.KP XXXII qurultayının tribunasından həmin təklif yenidən irəli sürüldü. Təəssüflər olsun ki, təklif yenə havadan asılı qaldı.

Beşincisi, «Zavallı» qonşunun düşmənçilik iddialarını, əməllərini öyrənən və ifşa edən xüsusi təşkilat yaratmaq lazımdır. Bizcə, Azərbaycanda yaradılan bu təşkilat «Müqavimət» adlandırılarsa fəaliyyətinin mahiyyətini daha dəqiq ifadə edər.

Altıncısı, təşkilatın ayrıca orqanı – qəzeti də olmalıdır. Təşkilatın əldə etdiyi gündəlik məlumat həmin qəzet

vasitəsilə respublikada və respublikadan kənarlarda Azərbaycan və rus dillərində, lazım gələrsə ingilis dilində oxuculara çatdırıla bilər. Belə bir fəaliyyət qonşunun necə «yazıq» olduğunu, onun simasını bütün çılpaqlığı ilə balacadan böyüyə qədər hər bir azərbaycanlıya, başqa xalqların hər bir nümayəndəsinə açıb göstərər: «Zavallı» qonşu da özünün bəd əməllərindən, bəd niyyətlərindən bütün xalqların agah olduğunu yəqin edər, nüfuzdan düşər, utanar, çəkilib yerində oturar. Qəzet güddüyü məqsədə uyğun adlandırıla bilər, məsələn, belə: «İfşa».

Əminik ki, azərbaycanlılar, müxtəlif sahələrdə çalışan ziyalılarımız, xaricdəki soydaşlar bu işdə həmin təşkilata, onun qəzetinə canla-başla kömək edəcəkdir. Təşkilat öz qarşısına siyasi məqsəd, hakimiyyətə can atmaq məqsədi qoymur. Onun rayəsi yüz il ərzində «yazıq» qonşuya hər cür istiqamət vermiş və indi də istiqamət verən Daşnaksutyun təcavüzünə ümummilli müqavimət göstərməkdən ibarətdir. Unutmayaq: «El gücü-sel gücü». Bu məqsədi qonşuya qarşı düşmənçilik və ya millətçilik adlandırmaq olmaz. «Başı bəlalar çəkmiş» qonşu zorla özünü Azərbaycana düşmən eləmişdir. Biz isə çalışarıq ki, «zavallı» qonşunun sözləri və əməlləri ilə öz düşmənçiliyinin mahiyyətini mütəşəkkil surətdə, yüz ildən sonra olsa da, açıb bütün dünyaya bildirək.

**(Azərbaycan Xarici Dillər Pedaqoji İnstitutunun mətbəəsi, Bakı, 1989)**

## 26. ГЕНЕРАЛЬНОМУ СЕКРЕТАРЮ ЦК КПСС ГОРБАЧОВУ МИХАИЛУ СЕРГЕЕВИЧУ

Завершились работы первого Съезда народных депутатов и избранного им Верховного Совета СССР. Материалы этого исторического события долгое время будут изучаться и учитываться советскими людьми в своей практической деятельности. Колоссальное значение имеют материалы Съезда народных депутатов в дальнейшем углублении перестройки нашего общества.

Съезд народных депутатов продемонстрировал волю народов Советского Союза объединить здоровые силы общества и направить их для преодоления негативных явлений, для ускорения обновления всех сторон экономической и общественно-политической жизни в стране.

В материалах Съезда содержатся многочисленные факты, которые помогут нам в усилении воспитания подрастающих поколений в духе интернационализма, дружбы между народами. К сожалению, на Съезд народных депутатов были и отдельные попытки помешать сближению народов, посеять семена раздора, усилить национальную неприязнь. Такие попытки разве сильно не мешают делу воспитания у людей чувства интернационализма, разве не создают самые благоприятные условия усиления национализма? Я имею в виду почти все выступления армянских депутатов.

В этих выступлениях разве неоднократно не прозвучал ряд как будто согласованных политических тезисов, направленных против Азербайджана, его правительства и народа в связи с так называемым Нагороно-Карабахским вопросом? Все это разве не выглядело как открытый вызов на конфронтацию, превращение Съезда народных депутатов на поле межнациональной брани? Молчание представителей Азербайджана на съезде, их стремление обходить Карабахский вопрос можно ли понимать как согласие с выдвинутыми обвинениями и претензиями? Разве это не проявление сдержанности? Можно ли злоупотреблять такой сдержанностью?

Разве не в ответе перед своим народами, перед грядущими поколениями? Отсутствие ясности и правды может ли породить, а местами не порождает ли ненависть части армянской молодежи к азербайджанцам, а у азербайджанцев – виновности перед армянами? В таких условиях неправды мы можем ли успешно вести

воспитательную работу, говорить об интернационализме, о дружбе между двумя народами?

Давайте спросим себя если выдвигаемые в адрес Азербайджана обучения соответствуют истине, а стоит ли азербайджанцам оправдываться перед народами Советского Союза? Разве не следовало бы им открыто признаться в несправедливости по отношению к армянам в НКАО и стараться, чтобы поправить положение? Но если эти обвинения не соответствуют действительности, если для оправдания своих обвинений используются всякие махинации? Как быть в таком случае?

Разве не нам-воспитателям прежде всего нужно выяснить и нести правду своим детям? Вот и вызываю вас, дорогих армянских коллег, к открытому диалогу через газету. Разберемся? Давайте!

Есть ли доля правды в утверждении того, что Нагорный Карабах испокон веков принадлежал Армении? Для уточнения этого вопроса дозволительно закрывать глаза и не заглянуть в исторические труды не только советских, русских, азербайджанских, но и средневековых армянских историков? Эти труды разве не свидетельствуют, что Нагорный Карабах никогда не был в составе Армении, что эта область находилась в составе Албании, на территории нынешнего Азербайджана.

Разве Моисей Хоренаци, которого армяне считают отцом историографии, не утверждал, что на равнинах и горных частях Арана (имея ввиду нынешние низменности и-нагорные части- Карабаха) жили албанские племена?

Разве до установления э 1918 г. дашнакской буржуазно-демократической республики Армении Нагорный Карабах не был в составе Карабахского ханства, где проживало не более 20 процентов армянского населения? Разве увеличение его не стало происходить после Туркменчайского договора между Россией и Ираном в 1828 году, предусматривовавшего свободное переселение народов, о котором писал и А.Грибоедов? Как можно

забывать что в Нагорном Карабахе и древнем Арцахе первая церковь Амарас построена в IV веке албанским царем Урнайр, которая остается доныне? Как можно умолкать Большую Советскую Энциклопедию, на страницах которой утверждается, что данный храм Арцаха Гангасар построен в ХП веке албанским царем Гасаном Джалалом, который до первой половины XIX столетия был главной резиденцией албанского каталикосства, которое было устроено Петербургским епископом в 1836 году по настоянию Эчмиадзинского каталикосства? Почему армянские товарищи отрицают такую историческую правду-прииадлежность Нагорного Карабаха - древнего Арцаха Албании? Не для того, чтобы, открыть путь утверждению, что область-древнее место обитания армян?

Разве нам не известны махинация ряда армянских «историков» и не только историков, в создании «истории» армянского народа, которые убедительно доказываются в исследованиях ученых, и представителями других народов, например, в работах всему миру известного Ильи Чавчавадзе и академика Б.Пиатровского, кстати, опубликовавшего свою работу в Армении в «Историко-филологическом журнале АН Арм. ССР», 1971, № 3.

Например, известны ли вам исторические данные о появлении армян на территории Закавказья, изложенные Ч.Н.Шавровой в ее книге «Новая угроза русскому делу в Закавказье», опубликованной в 1911 году в Петербургской типографией редакции периодических изданий Министерства финансов, на стр, 59; в которой в частности говорится: «…после окончания войны в 1826-28 г., в продолжением двух лет, е 1826 по 1830 г., мы переселяли в Закавказье свыше 40 000 персидских и 8400 турецких армян и водворили их на лучшие казенные земли в губерниях Елизоветполской и Эриванской, где армянские население было уничтожено…

Для населения им было отведено более 200 000 десятин казенных земель и куплено было более; чем на 2 000 000

руб. частновладельческих и губернский и берега озера Гогчи заселены этими армянами. Необходимо иметь ввиду, что за 120 000 армян, официально переселенных, переселилось сюда и множество не официальных, так что общее число переселившихся значительно превышает 2 000 000 человек», на стр. 60:»А. проживающих ныне в Закавказье армян, более 1000 000 человек не принадлежат к числу коренных жителей края и поселения нами», на стр.61 «Широко использовав лжесвидетельство армяне из безземельных пришельцев захватили огромные пространства казенных земель... на стр. 59: «Еще в более широких размерах начинается переселение армян снова в период с 1893-1894 гг. „ во врем армянских беспорядков (подчеркнуто мною -Н.К.) в Турции и т.д.

Известна ли вам главная причина, заставившая армян покинуть свои дома в Иране и Турции? Что за армянские беспорядки в Иране и Турции? Не притязания ли на земли и на автономию? Не подрывная деятельность на иной почве, как это повторяется теперь в Закавказье?

Известно ли вам предупреждение Грибоедова в письме на имя царя относительно характера армян?

В искажения исторических фактов, в их фальсификации виноваты больше всего кто? Депутаты Амбарцумян, Арутюнян, Дадамян, Григорян, Игитян или такие представители армянской интеллигенции, как Аганбекян, Балаян, Погосян, Улубаян, Айвазян? Разве первые не повторяют вымыслы вторых, причем, с трибун Съезда народных депутатов?

Разве не депутаты, распространяющие с трибуны съезда явную ложь, не должен нести ответственность? Не задумались ли над тем, почему рассеялись армян сначала из Сирии, затем из Ирана, Турции и т,д.? Каждый раз не а результате ли армянских беспорядков и провокаций, которые наблюдается сейчас и в Закавказье?

Установление памятника армянам, погибшим в Сумгаитских событиях не есть проявление национализма?

А что, если этот памятник был бы установлен всем в честь не только армян, но всех тех, кто там погиб» Разве это не ало бы признаком интернационализма?

Соответствует ли действительности мысль армянских товарищей о том, что в Нагорном Карабаха ведется разармянивание? Почему они делают вид будто нет исторических данных, опровергающих этот очередной домысел? Ради чего они усердно держат под замком например, Кавказский календарь, в котором указывается, что на январь 1914 г.. в Шушинском уезде армян было около 94 тыс. на январь 1916 армян-75 тыс,, азербайджанцев 96 тыс. А сегодня в НКАО разве армянское население не составляет 75% то есть значительно больше, чем в 1914 г.? Эго разармянивание области или, наоборот, выживание ими азербайджанцев? Спрашивается: почему извращается история. Ради чего? Не ради того, чтобы показаться в роли обиженного и требовать расширения территории Армении за счет соседа?

Коль скоро речь шла о выживании одной нации другой, то позволительно спросить этих «обвиненных»: как можно назвать тот очевидный факт, что не только в самом Ереване, но и на всей территории Армении где веками жили азербайджанцы, сегодня практически их нет? Ведь по данным того же «Кавказского календаря» в начале 1914 г., разве в Ереванской губернии армян не было 598 000, а азербайджанцев - 390 000. Чем можно объяснить, что за 2-3 дня в декабре 1988 года оставшихся около 200 000 азербайджанцев вынудили покинуть свои родные места в Армении? Что это, не раз азербайджанирование Армении? Без ведьма и одобрения районных и республиканских руководителей Армении отдельные группы людей смогли бы так молниеносно выгнать почти всех азербайджанцев? Скажите пожалуйста: что это - проявление интернационализма или национализма армянского

руководства? Как преподнести подобные факты нашим молодым людям.

Как вы оцениваете тот факт, что по статистическим данным абсолютный рост армянского населения в Азербайджане, например, в период с 1926 по 1979 г., составил . 1.7 раза, что каждый третий переселенец, - армянин после мартовских событий прошлого года вернулся в свой родной дом и им обеспечивается гарантия безопасности в Азербайджане, тогда как не одному переселенцу - азербайджанцу такая гарантия в Армении не обеспечивается, а потому никто не возвращается? Что это, факты интернационализма или национализма?

Есть ли доля правды в том, что якобы азербайджанской стороной экономическое, культурное, социальное даже языковое развитие армянского населения НКАО ограничивалось? Это не насилие над. действительностью? Разве и результаты проверки, произведенной правительственной комиссией Союза под председательством академика Академий наук СССР, доктора экономических наук Т.С.Хачатуряна не убедили всю страну в том, что экономика Нагорного Карабаха не ниже, а во многом выше показателей республики, - по некоторым вопросам превосходит и общесоюзное показатели? (См. газеты «Бакинский рабочий» от II марта 1988 года, «Вышка» от 24 февраля 1988 года). Для чего понадобился такой маневр - бросить тень на своего соседа? Разве не для того, чтобы вызвать у людей сострадание к себе, обосновать требование о воссоединении? Забастовки и демонстрации и другие события после выделения советским правительством 450 млн. руб. для развития НКАО разве еще раз не убедили, так называемая «дискриминация» не причина, а повод для осуществления своей амбиции?

Имеют ли отношение воспитанию у подрастающего поколения чувство интернационализма или национализма глумление над партийными документами по Нагорно-Карабахскому вопросу?

В этом не убеждают нас и история? Соответствует ли истине заявление ряда армянских депутатов о том, будто, что армянская область - Нагорный Карабах была механически отторгнуто от Армении и включена в состав Азербайджанской ССР в 1921 г. А если обратиться к самым историческим фактам? А что, если молодежь узнает, что сразу, после провозглашения Советской власти в Азербайджане решением Оргбюро ЦК АКП. /.6/ от 30 ноября 1920 года и Декларацией правительства Азербайджана от 1 декабря того же года. Нагорной части Карабаха предоставлено право на самоопределение? На фоне такого неоспоримого исторического факта утверждение о том, что ревком Азербайджана 1 декабря 1920 года признал Нагорный Карабах неотъемлемой частью Армении не есть сущая выдумка, стремление желаемому придать форму действительности?

На что опираются армянские товарищи? Разве не на речь Г.К. Орджоникидзе на заседании Баксовета, где провозглашена Декларация Азерб. ревкома и ни его сообщение В.И.Ленину и И.В.Сталину, в которых ошибочно назван Нагорный Карабах в числе районов, которые Азербайджан по декларации якобы передал Армении? Почему же товарищи руководствуются не текстами самого решения - Декларации? Не потому ли, что сам первоисточник не работает на их замысел?

Целесообразно ли знание молодежью другой фальсификации истории, связанной с Нагорно-Карабахской проблемой? Не является ли очередной выдумкой мысль о том, будто «Под давлением националистически застроенных лиц руководство Азербайджана вскоре возбудило перед Кавказским Бюро ЦК РКП /б/ вопрос о пересмотре своего же решения о признании Нагорного Карабаха неотъемлимой частью Советской Армении, мотивируя это угрозой неизбежной активизации антисоветских сил в Азербайджане». Во-первых, этим не бросается ли тень на честных

большевиков, - руководителей партии и правительства Азербайджана тото периода. Во-вторых, конкретно кто и на кого давил? В третьих, если бы ЦК АКП /б/ принял постановление такого содержания, которое придумывают друзья, то почему он поднимает вопрос перед Кавбюро РКП /б/ почему не пересмотрел у себя собственное решение»?

А что было дальше, разве правительство Армянской ССР и связи с рассмотрением в Кавбюро вопроса о границах Азербайджана с Арменией не подняло вопрос о территориальной принадлежности Нагорного Карабаха? Не следует ли нам в виду, что в такой плоскости вопрос был поставлен не Азербайджаном, и не партийными или советскими органами Нагорного Карабаха, а именно правительством Армении? Разве этот вопрос не был рассмотрен на заседании Политбюро и Оргбюро ЦК АКП /б/ от 27 июня 1921 г, и разве не известно о подтверждении своей принципиальной позиции по Нагорно-Карабахскому вопросу? Разве не известно также, что на том же заседании признано не приемлемым с точки зрения административного и экономической целесообразности предложения армянской стороны отделить местности с армянскими и азербайджанским населением соответственно к Армении и Азербайджана?

Почему извращаются постановка вопроса о Нагорном Карабахе на заседании Кавбюро РКП /б/ и формулировка его решения? Разве этот вопрос на повестки дня Кавбюро не был сформулирован в 2-х вариантах:

-Карабах оставить в пределах Азербайджана.

-«Нагорную часть Карабаха включить в состав Армении».

Разве в результате голосования на заседании Кавбюро 4 июля 1921 года не приняло постановление: «Нагорный Карабах включить в состав Армении».

Можно ли считать случайностью тот факт, что армянские товарищи и в постановке вопроса и решении

Кавбюро слово «включить» ныне заменяют словом «оставить». Разве не ясно, что в данном контексте слово «оставить» свидетельствуют о принадлежности Нагорного Карабаха соответствующей республике, а слово «включить» предполагает передачу его другой республике.

Этим не стараются ли они создать впечатление, что Нагорный Карабах находился в составе Армении, а высший орган ЦК РКП /б/ по Закавказии закрепил его территориальный статус-кво, решив «оставить» его там же? Разве это честно? Чем объясняют армянские товарищи пересмотр Кавбюро своего решения от 4 июля 1921 года и постановившее 5 июля того же года: «Нагорный Карабах оставить в пределах Азербайджана»? Волей Сталина! Разве Сталин не принимал участие и на заседании 4 июля? Если Сталин оказал давление на пересмотр решения, тогда почему он «содействовал» принятию решения от 4 июля? Разве он не участвовал на обоих заседаниях совещательньм голосом? Разве он принимал участие в голосовании? Разве в протоколе заседания Кавбюро ЦК РКП /б/ от 5 июля не был сформулирован вопрос так: «Слушали: I. тт. Орджоникндзе и Назаретян возбуждают вопрос о пересмотре постановления предыдущего пленума о Карабахе»? Больше того, с какой целью армянские товарищи по своему усмотрению, произвольно формулируют окончательное решение Кавбюро от 5 июля, заменяя слова «оставить» словом «включить»? Разве это решение сформулировано так: «Нагорный Карабах включить в состав Азерб.ССР»? Разве не так: «Нагорный Карабах оставить в пределах Азербайджана»? Спрашивается: такая фальсификация помогает укреплению интернационализма или национализма? Она не понадобилась для утверждения того, что «Нагорный Карабах был изъят», что «Нагорный Карабах» механически отторгнут от Армении»? Разве не наоборот? Разве в 1921 году руководство Армении не сделало попытку отторгнуть Нагорный Карабах от Азербайджана?

Не удалась попытка тогда, не так ли? А может, удаться на сей раз?

Почему армянские товарищи теперь фальсифицируют и мотив решения Кавбюро от 5 июля 1921 года? Зачем они цитируют одну часть мотива решения 5 июля, опуская при этом остальные, существенные его части?

Разве мотив решения Кавбюро ограничивается выражением «Исходя из необходимости национального мира между мусульманами и армянами?» Разве вслед за ним не написано: «И экономической связи Верхнего и Нижнего Карабаха, его постоянной связи с Азербайджаном, Нагорный Карабах оставить в пределах Азербайджанской ССР, предоставив ему широкую автономию...»

На чем еще основывается неудовлетворенность армянских друзей? Не на том ли, будто решение Кавбюро ЦК РКП /б/ от 5 июля 1921 года принято вопреки воле армянского населения Нагорного Карабаха?

Разве многочисленные официальные факты не опровергают и такой довод? Разве армянские население Нагорного Карабаха тогда не благосклонно относилось к нахождению в составе Азербайджана? В своем письме в ЦК РКП /б/ на имя В.И.Ленина от 22 мая 1919 года А.И.Микоян разве не сообщил, что «армянское население Карабаха на пятом съезде решило признать и примкнуть тоже к Советскому Азербайджану»? Можно ли игнорировать документ VП съезда армян Карабаха, пришившего «Временное соглашение армян Нагорного Карабаха с азербайджанским правительством» и которое было опубликовано 26 августа 1919 года в бакинской газете «Знамя труда». Разве Г.К.Орджоникидзе не телеграфировал Г.В.Чичерину, что Карабах и Зангезур считали «себя частью Азербайджана». Почему забывается изложенный на стр. 93 книги Эльибекяна А.М. «Установление Советской власти в Армении» /Ереван, 1954/ следующий донос одного из главарей дашнакских

банд в Нагорном Карабахе буржуазно-демократическому правительству Армеии о том, что армянские села Нагорного Карабаха «отказались принимать мшу /т.е. дашнакскую/ власть и открыто объявили себя большевиками». Есть ли юридические- основания утверждения армянских товарищей о том, что нарушен ленинский принцип самоопределения армян при провозглашении Нагорного Карабаха автономной областью в 1923 году? Как можно умолчать результаты референдума, проведенного летом 1923 года среди армянского населения Нагорного Карабаха и показал его единодушное высказывание армянского населения за провозглашение автономии края в составе Азербайджана, что подтвердил и отчет Нагорно-Карабахского обкома АКП /б/ от 12 октября 1923 года? Это не яркое проявление ленинского принципа самоопределения нации? После подобных фактов утверждение армянских товарищей о том, что население Нагорного Карабаха не примирилось с решением Кавбюро ЦК РКП /б/ об оставлении области в составе Азербайджана с предоставлением ему автономии; разве полностью не является выдумкой?

Когда же возник впервые Карабахский вопрос? Разве до установления дашнакской буржуазно-демократической республики был этот вопрос? Разве он-не детище дашнакского правительства Армении? Не трудящихся Армении или Нагорного Карабаха, а именно дашнакского правительства Армении? Разве Карабахский вопрос был выдвинут дашнакским правительством Армении в связи с его претензиями на Нагорный Карабах? Факты? Сколько хотите! Например, не является ли авторитетом А.И.Микоян для вас, который в своем письме в ЦК РКП /б/ В.И.Ленину особо подчеркивал, что дашнаки «добиваются присоединения Карабаха к Армении; но это для населения Карабах значило бы лишиться источника своей жизни - Баку и связаться с Эриванью, « которой никогда и ничем не были связаны»? Разве дашнаки ограничивались только:

претензиями? Разве дашнакские эмиссары из Еревана мало агитации проводили среди населения Нагорного Карабаха? Разве не об этом свидетельствуют эпизоды, описанные выше указанной книге А.М.Эльбекяна?

Следовательно, современная возня вокруг Карабахского вопроса, беспочвенная пропаганда с трибуны первого съезда народных депутатов СССР не выглядит ли на фоне изложенных фактов как продолжение организованной группой армян эстафет бивших дашнаков?

Разве не об этом свидетельствовали первые шаги советской Армении старавшееся во чтобы то не стало добиться отторжения Нагорного Карабаха от Азербайджана? Можем ли мы забывать дальновидность Нариманова, который давал принципиальную оценку притязаниям только что созданной советской власти я Армении, указав, что «...Если Советская Армения этим актом желает произвести известное впечатление на дашнаков и. беспартийную массу. Армении, то не надо забывать про то обстоятельство, что тем самым мы восстанавливаем а Азербайджане такие же антисоветские группы, как дашнаки?

На самом деле, постепенное усиление дашнакской идеи о Нагорном Карабахе, широкомасштабное насаждение и среди армянского населения этой области. Разве не нацелили страстей и в Армении и в НКАО, и не вызвали обратную реакцию, противодействие в Азербайджане и в конечном счете, все это не привело к человеческим жертвам? Что это- проявление интернационализма или национализма?

К национализму или интернационализму относится факт применения софизма, подмена понятий при рассуждении о народе и территории. Не является ли софизмом переход от рассуждения о народа и рассуждению о принадлежности ему местности, на которой живут его представители? из того, что на территории НКАО живут армяне, можно ли сделать вывод,

что эта местность принадлежит армянскому народу? Если следовать не только не научной, но и опасной логике, то зачем армянам в дальнейшем не сделать вывод о том, что все территории Азербайджана, на которых живут ныне армяне, принадлежат армянскому народу.

Тогда зачем не претендовать армянам на части Турции, Ирана и других государств, Москвы, Ростова и некоторых других городов Советского Союза? Ведь и там живут армяне?

Не скрывается ли за всеми этими логическими ухищрениями печальная бредовая мечта об экспансии? Им просто тоска о шестнадцать столетии тому назад мелькавшей «великой Армении»? Нет? Тогда чем объяснить тот факт, что в современных школах Армении в голову учащихся вдалбливают идею о «Великой Армении" об Армении от моря, до моря?

Зачем скрывать от народов, что в течении 16 столетии Армения не имела государственности, что в течении этого длительного периода современная территория Армении была местом раздора между Ираном и Римско-Византийским государством, что Армения приобрела государственность благодаря Великой Октябрьской социалистической революции? Что дашнакская буржуазно-демократическая республика Армении, да и мусаватско-буржуазно - демократическая республика в Азербайджане образовались и границах, которых имелись при царизме - губернском территориально-административном делении Закавказья а Нагорный Карабах в период ханских государственных образований был в составе Карабахского ханства с центром в Шуше, затем в составе Карабахской провинции в составе Каспийской области с центром в Шемахе, в составе Шемахинской и Бакинской губернии, а с 1868. года вплоть до 1920 года в Елизаветпольской губернии с центром и Гяндже? Разве такая схематическая хронология не доказывает что Нагорный Карабах не имел отношения к

Армении? Разве сама дашнакская буржуазно-демократическая республика не образовалась на базе Ереванской губернии, которая до этого называлась Армянской областью, а еще раньше - Эриванским ханством и что Нагорный Карабах ни на один день не был в составе ни Эриванского ханства, ни Армянской области и ни Ереванской губернии. Ради чего скрываются от народа такие истины? Истина под замком может служить интернационализму или национализму?

Какие еще остаются средства, приближающие осуществление расширения своей территории за счет соседа? Арменизация названий населенных пунктов даже в Азербайджане? Да, да! Примеры? Иначе чем объяснить требование переименовать название НКАО и впредь область не «Нагорный Карабах», а Арцах? И какой при этом мотив приводится? На кого расчитан такой мотив, мол слово «Нагорный Карабах» не выражает, его принадлежность армянскому народу? А Арцах? Как может слово «Арцах» служить отдаленной цели армянских друзей? Если следовать такой сомнительной логике, то почему бы е внести изменения в названия целого ряда областей и краев Советского Союза, которые отражают географические названия местности, а вовсе не названия народов, населяющих эти местности? К ним разве не относится например, Нагорно-Бадахшанская автономная область в Таджикистанской ССР? Или в Нахичеванский АССР, разве большинство населения не азербайджанцы и т.д. Кроме того, разве Армянская ССР не названа с учётом названия самого народа? Разве служила бы интернационализму арменизация названий всех населенных пунктов в других союзных республиках, в которых живут армяне? Стремление к арменизацин названий отдельных населенных пунктов, в том числе даже названия целой области, направлено в сторону интернационализма или национализм?

Как понимать, заявление армянских товарищей на съезде народных депутатов о том, что «без воссоединения Нагорного Карабаха в Армении не будет мира в области»? Это не запрограммированное заявление? С таким настроением можно обеспечить спокойствие в регионе? Это владение не похоже на вызов, на ультиматум? Не этой ли вредной политической установке руководствовались и во времена дашнакской буржуазно демократической республики, и до и после 5 июля 1921 года, и в наши современные дни? Иначе чем мы можем объяснить тот факт, что армянские депутаты считают ошибочными и решение Кавбюро РКП/б/ от 5 июля 1921 года, и, решение Политбюро ЦК КПСС от 21 февраля 1988 года, и постановление Президиума Верховного Совета СССР от 18 июля 1988 года? Что, в течение 70 лет не нашлось умных, принципиальных, объективных руководителей ни в Азербайджане, ни в Карабахе, ни в Кавбюро РКП/б/.ни в ЦК КПСС. Следует ли понимать это так, что единственно верная мысль, единственное правильное решение может быть только армянское? Разве не вы обвиняете Азербайджан» в применении в НКАО Кипрского варианта»?

Не иначе как клеветой, как можно назвать это обвинение? Изгнание армянами всех азербайджанцев из Степанакерта и их вынужденное вселение в соседние азербайджанские села на деле не есть применение кипрского варианта, разделение НКАО на две противо сборствуюшие обшины? Не вы требуете политической оценки Сумгаитских событий? Не на вашей совести лежит пролитие крови в Сумгаите? Сумгаитская трагедия не отозвалась эхом причинны злодияний армянскими экстремистами в Кафане, в Красносельском, Араратском, Масисском районах, убийства двух невинных азербайджанских парней в Аскаране?

Разве не доказана причастность армянских экстремистов в Сумгаитской трагедии? Иначе чем

объясняется тот факт, что буквально на следуший день почти во всех скверах и площадях, после сумгаитских событий, Еревана демонстрировались Сумгаитские события. Каким образом армянские операторы оказались в те дни в Сумгаите? Откуда у них такая осведомленность? Не заранее ли они подготовилась? Специально не приехали ли и из Армении? Но готовились ли Сумгаитские события Армянскими экстремистами? Иначе почему армянин Григорян оказался среди разбушевавшейся толпы и сам убил несколько армян, выдав себя за азербайджанского молодчика? Не следует ли нам разобраться; тут есть интернационализм или национализм?

Можно ли подытожить изложенние вопросы? Перечисленные вопросы разве не показывают, что Нагорно-Карабахскую проблему нельзя свести к экономической или культурной проблеме? Разве она не политическая проблема? Разве она не унаследовала от дашнаков Армении? Для отторжения Нагорного Карабаха от Азербайджана разве ныне не объединились опреленные силы Армении и НКАО, и не только эти силы? С этой целью разве не используются приемы фальсификации истории, ложь, провокация, дезинформация, выдумка, клевета? Такие приемы способствуют интернационализму или национализму? Изгнание всех азербайджанцев из Армении и Степанакерта, объединение всех армян для расширения свое территории за счет территории другого народа можно отнести к интернационализму или национализму? Выступление с высокой трибуны съезда народных депутатов СССР с территориальными притязаниями в условиях Советского Союза- проявление интернационализма или национализма? Стремление на Съезде армянских депутатов организовать во чтобы то ни стало избрание в Совет национальностей Верховного Совета СССР от НКАО Азерб. ССР Зория Балаяна – человека, живущего в Ереване и всемирно известного в разжигания межнациональной розни вместо живущего на

Нагорном Карабаха – работающего там проф. Джафарова, к чему это можно отнести: интернационализму или национализму? Как по вашему, если при повторном голосовании ваше предложение не прошло, т.е. Балаян был избран, то в народные депутаты поддержали национализм или интернационализм? Как по вашему, если в первоначальном голосовании депутаты ________ пенсионеры, живущего в Москве зачеркнули 193 депутата, то при повторном голосовании число таких депутатов поднялось бы до 671, то это было выражением в поддержку интернационализма или национализма? Вообще во взаимоотношениях между народами в конце-концов торжествует интернационализм или национализм?

Разве не нам объяснить подобные вопросы? Разве наши народы не должны будут жить по соседству свыше сто лет вокруг Нагорного Карабаха народных местах, могу ли быть уверенным в том, что данное мое обращение к вам вы примите как первую реакцию на ваше выступление на съезде народных депутатов СССР? Разве вы не сторонник того, чтобы вся страна знала, где правда и где ложь? Ведь повторение в длительное время неправды как правда может же, в конце концов, показаться повторявшей правдой. Но следует ли нам помочь таким людям освободиться от подобных психических недугов? Разве диалог в этом направлении не может быть полезным как для работы пленума ЦК КПСС, на котором специально будут обсуждаться вопросы межнациональных отношений, так и для работы Совета Национальностей Верховного Совета СССР, который должен рассмотреть и проблемы малочисленных народов и народностей, в том числе НКАО? Считаете ли вы правильна отнесение армяи к малочисленным в усилениях, когда, во первых, в самой НКАО армянское заселение составляет большинство, а азербайджанцев - меньшинство, и, во-вторых, имеется специальная союзная республика -Армянская ССР?

Считаете ли правильным заявление начальника Израильского генерального штаба Д.Шомрина, о том, что изгнание палестинского населения или физическое его уничтожение равнозначны геноциду? (см.газета «Правда» от 18 июня 1963 г) А как вы называете изгнание со своих насиженных родных мест в Армении всех азербайджанцев? Это- не форма геноцида?

Направляя и поддерживая неконституционными требования армян НКАО правительство Армении тем самым вмешивается в дела соседней республики? Такое открытое вмешательство в дела соседней республики не есть ли покушение на суверенитет? Не является ли это одной из существенных причин затягивания Нагорного-Карабахского вопроса, одной из причин, создающих благоприятную почву для процветания национализма или интернационализма?

Для расчишения завалов Национали мы разве нам не следует покончить с распространением неправды, лжи, клеветы, фальсификации исторических фактов? Разве не следует нам говорить и писать, пропагандировать правду, только правду? Выяснение выдвинутых тут вопросов поможет ли нам уточнить, насколько правомерно обвинение армянскими депутатами азербайджанского народа в фашизме?

Не докажет ли внесение ясности в эти вопросы, что элементы фашизма наблюдаются в пропаганде и внедрении групной армянских экстремистов открытого национализма? Может ли открытое обсуждение таких вопросов проложит мост для взаимопонимания между нашими народами? **(«Vətən» qəzeti, 1990, 2 mart)**

# IV. İCTİMAİ-PEDAQOJİ MƏSƏLƏLƏRƏ MÜNASİBƏT

## 27. ELMLƏRİN QEYRİ ELMİ QRUPLAŞDIRILMASINA DAİR (İYİRMİ BİR SUAL)

Məlumdur ki, təbii və ictimai mühit amilləri dəyirir, inkişaf edir. O da məlumdur ki, təbiət və cəmiyyət hadisələrini öyrənən, orada cərəyan edən qanunauyğunluqları araşdırmağı, onları nəzərə almağın yollarını göstərməyi qarşısına başlıca məqsəd qoyan elm də bir yerdə durmur, təkmilləşir və inkişaf edir.

O da aydındır ki. Həyat və elm arasında əlaqə birtərəfli deyil, qarşılıqlıdır: ətraf gerçəklik elmin sonrakı inkişafını şərtləndirdiyi kimi, elm də təbii və ictimai həyat amillərinin dəyişdirilməsi və təkmilləşdirilməsinə təsir etmək gücünə malikdir. Əbəs yerə deyilməmişdir ki, adamlar tərəfindən başa düşülən, mənimsənilən və işdə nəzərə alınan elmi ideyalar, nəzəriyyələr böyük hərəkətverici qüvvəyə çevrilir.

Bu mənada elmlərin təsnifatına vaxtaşırı baxılmasına və düzgün qruplaşdırılmasın böyük ehtiyac duyulur. Elmlərin əsaslı, inandırıcı, qüsursuz qruplaşdırılması həm nəzəri, həm də sırf əməli əhəmiyyət kəsb edir. Belə olduqda, əvvəla, tədqiqatçı alim mürəkkəb elmlər sistemində öz yerini asanlıqla müəyyənləşdirir; ikincisi, o öz tədqiqatının elmi istiqamətini təyin etməkdə acizlik göstərmir; üçüncüsü, kafedralar və elmi rəhbərlr aspirant və ya dissertant mövzularının şifrələrini dəqiqləşdirərkən yersiz mübahisələrdən azad olurlar; dördüncüsü, ixtisaslaşmış müdafiə şuralarında və Ali Attestasiya Komissiyasının ekspert şuralarında lüzumsuz müzakirələr, əsassız vaxt itgisi və süründürməçilik halları aradan qalxmış olur.

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyası rəyasət heyətinin 24 oktyabr 2003-cü il tarixli qərarı ilə təsdiq edilmiş yeni sənəddə, təəssüf ki, bunun əksi olan faktlara rast gəlirik. Sənəd belə adlanır. «Azərbaycan

Respublikasında elmi və elmi-pedaqoji işçilərə alimlik dərəcələri verilməsi üzrə ixtisasların nomenklaturası».

Bu sənəddə elmin sahələr (ixtisaslar) üzrə qruplaşdırılmasını yeniləşdirmək, təkmilləşdirmək, səmərələşdirmək istəyən müəlliflər, necə deyərlər, qaşını, düzəltdikləri yerdə vurub gözünü çıxarıblar; qeyri elmliyə, məntiqsizliyə, sünilik hallarına yol veriblər.

Bu nöqsanlara isə, iki ildən artıq vaxt keçsə də, indiyədək ixtisaslaşmış müdafiə şuraları, aspirant və dissertantların rəhbərləri, elmlərin əsas təmsilçiləri olan elmlər doktorları və namizədləri münasibət bildirməmişlər. Belə təəssürat yaranır ki. Həmin elmi qurumlar və mütəxəssislər ya mövcud nomenklaturanın müvafiq müddəalarını düzgün hesab edir, yaxud onlara tənqidi münasibət bildirməkdən hansı səbəbə görəsə çəkinirlər.

Görünür, nomenklaturada yol verilən nöqsanları açmaq, onları aradan qaldırmağın zəruriliyini sübut etmək bizim üzərimizə düşür. Belə bir vacib vəzifənin öhdəsindən gəlmək üçün fikrimizi pedaqoji elmlərin nümunəsində konkretləşdirək.

Adı çəkilən nomenklaturada 13.00.00 şifrinə aid olan pedaqoji elmlər dörd sahəyə (ixtisasa) ayrılaraq belə adlandırılıb:

13.00.01. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi.

13.00.02. təlim və tərbiyənin nəzərəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə)

13.00.03. Korreksion pedaqogika (surdo pedaqogika və tiflo pedaqogika, oliqofren pedaqogika və loqopediya).

13.00.04. Fiziki tərbiyənin, idman təliminin nəzəriyyəsi və metodikası.

İlk sualımız belədir: Pedaqoji elmlərin sahələr üzrə bu cür qruplaşdırılmasını məntiqi cəhətdən məqbul saymaq olarmı? Fikrimizcə, olmaz! Nə üçün? Çünki həmin qruplaşdırma vahid elmi əsasda aparılmamışdır. Qruplaşdırma gah pedaqoji elmlərin qolları üzrə (13.00.03 şifrində olduğu kimi), gah ümumiyyətlə təlim və tərbiyənin

nəzəriyyəsi və metodikası üzrə (13.00.02 şifrində olduğu kimi), gah təlim və tərbiyənin tərkibindən bir sahə qoparılaraq ayrıca ixtisas üzrə (13.00.04 şifrində olduğu kimi), gah da pedaqogika və onun tədqiqat obyekti üzrə (13.00.01 şifrində olduğu kimi) aparılmışdır. Nəticədə xeyli nəzəri suallar, əməli problemlər və anlaşılmazlıqlar yaranmışdır.

İkinci sual: Hazırda iyirmiyədək nisbi mənada müstəqil qolara ayrılmış pedaqoji elmlərin nə üçün dördü qruplaşdırma işinə clb olunub, qalanları isə yox? Noenklatura bu suala aydınlıq gətirməlidir!

Üçüncü sual: Nəyə görə 13.00.01 şifrəsində «Ümumi pedaqogika» ilə yanaşı «Pedaqogika»nın da adı çəkilir? Onların arasında fərq varmı? Varsa bu fərq nədər ibarətdir? Nomenklatura belə sualların yaranmasına imkan verməməlidir!

Dördüncü sual: Əgər «ümumi pedaqogika» və «pedaqogika» məfhumları eyni mənanı ifadə edirsə, onları yanaşı yazmaq və aralarında vergül qoymaq hansı dil qanundan irəli gəlir? Heç bir qanundan.

Beşinci sual: həmin şifrdə nzərdə tutulan «tarix» sözü ümumi pedaqogikaya aiddir, yoxsa pedaqogikaya? Sualı nomenklatura birmənalı cavablandırmalıdır.

Altıncı sual: Yenə 13.00.01 şifrinin əhatə dairəsinə aid edilmiş «…təhsilin tarixi» üzrə dissertasiya müdafiə edən şəxs həmin şifr üzrə müvafiq ixtisas alırsa, bəs təhsilin müasir aktual problemləri haqqında dissertasiya yazıb müdafiə edən şəxs hansı şifr üzrə ixtisas sahibi olmalıdır? Nomenklatura susur.

Yeddinci sual: yuxarıda deyildiyi kimi, 13.00.01. şifrində ümumi pedaqogika, pedaqogikanın tarixi ilə yanaşı təhsilin tarixi də qeyd edilirsə. Belə çıxmırmı ki. Təhsil və onun tarixi də pedaqoji elmin qollarından biridir. Halbuki, təhsil və onun tarixi pedaqoji elmin qolları deyil, onun tədqiq etdiyi sahələrdən biridir. Pedaqoji elmin tədqiq etdiyi sahəni elm hesab etmək olarmı?

Səkkizinci sual: 13.00.01 şifrində Təhsil və onun tarixi deyil, təhsil nəzəriyyəsinin qeyd edilməsi daha dəqiq olmazdımı? Əlbəttə, olardı.

Doqquzuncu sual: təhsildən ayrılmaz olan təlimin ümumi problemləri, təlim nəzəriyyəsi nə üçün 13.00.0 şifrində nəzərə alınmamışdır? Aydın deyil.

Onuncu sual: təhsil nəzəriyyəsi və təlim nəzəriyyəsi kimi, pedaqoji elmlərin tərkibində özünə möhkəm məskən salmış tərbiyə nəzəriyyəsi hansı məntiqə görə 13.00.01 şifrəsindən kənarlaşdırılmışdır? Aydın deyil.

On birinci sual: Təlim, tərbiyə və təhsildən ayrılmaz olan, daim onları müşayiət edən psixoloji inkişafın elmi problemləri nə üçün 13.00.01 şifrəsindən kənarda qalmışdır? Bilinmir.

On ikinci sual: 13.00.02 şifrli pedaqoji elm sahəsini (ixtisası) nomenklaturada olduğu kimi, yəni «təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə)» formasında deyil, «ayrı-ayrı fənlərin tədrisi nəzəriyyəsi və metodikası» kimi ifadə etmək daha dəqiq olmazdımı? Əlbəttə, olardı.

On üçüncü sual: Əgər belə olarsa həmin şifrdə pedaqoji elm sahəsinin (ixtisasın) mahiyyəti açılarkən mötərizdə «təlimin sahələri və səviyyələri üzrə» formasında əlavə açıqlamaya ehtiyac qalardımı? Əlbəttə, qalmazdı.

On dördüncü sual: 13.00.02 şifrinə aid ixtisasa mötərizədə verilən əlavə şərhdəki «təhsilin sahələri» dedikdə bu və ya digər fənlərin tədrisi. «təhsilin səviyyələri» dedikdə isə həmin fənlərin aşağı siniflərdə, yaxud yuxarı siniflərdə və ya ali məktəblərdə tədrisi nəzərdə tutulmurmu? Əlbəttə, nəzərdə tutulur.

On beşinci sual: Fiziki tərbiyənin, idman təliminin nəzəriyyəsi və metodikasını 13.00.02 şifrinə aid etməmək və onu başqa şifr ilə tam müstəqil ixtisas kimi təqdim etmək süni, məntiqdən uzaq deyilmi? Əlbəttə, uzaqdır.

On altıncı sual: idmanı fiziki tərbiyədən ayırmaq, onları yanaşı qoymaq nə dərəcədə düzgündür? Pedaqoji elmdə

çoxdan sübut olunmayıbmı ki, idman fiziki tərbiyə vəzifələrini həyata keçirməyin vasitələrindən biridir?

On yeddinci sual: Pedaqoji elmin, məsələn, estetik tərbiyə, təsviri və tətbiqi incəsənət təlimi nəzəriyyələri və metodikaları həyatda mövcud deyilmi? Mövcuddur.

On səkkizinci sual: Fiziki tərbiyə ilə əlaqədar olduğu kimi, musiqi, təsviri və tətbiqi incəsənət sahələrində xüsusi təhsil müəssisələri, idarə və təşkilatlar yoxdurmu? Var. Bəs nə üçün həmin sahələr üzrə nomenklaturaya müvafiq şifrlər və ixtisaslar əlavə edilmir?

On doqquzuncu sual: Əgər təhsilin, tərbiyə və təlimin ümumi məsələləri, bütün fənlərin tədrisi üçün səciyyəvi olan qanunauyğunluqlar, qanunla, prinsiplər və digər ümumi elmi pedaqoji problemlər 13.00.01 şifrinə aid edilmirsə. Onda ümumi pedaqogikanın (pedaqogikanın) məzmununda nə qalır? Heç nə.

İyirminci sual: Onda 13.00.01 şifrinin (ixtisasın), nisbi mənada olsa da, müstəqil sahə kimi saxlanmasına ehtiyac qalarmı? Əlbəttə, ehtiyac qalmaz.

İyirmi birinci sual: Axı, pedaqogika təlim, tərbiyə, təhsil və onlardan ayrılmaz olan psixoloji inkişaf haqqında, bütövlükdə pedaqoji proses haqqında, bütövlükdə pedaqoji proses haqqında, onun qanunauyğunluqları haqqında elm deyilmi? Əlbəttə, elmdir.

Deməli, burada sadalanan və sadalanmayan suallardan aydın olur ki, respublikamızda elmi və elmi-pedaqoji işçilrə alimlik dərəcələri verilməsi üzrə ixtisasların nomenklaturasının pedaqoji elmlərə (13.00.00 şifrinə) aid hissəsində xeyli məntiqsizliyə. Anlaşılmazlıqlara, müxtəlif yozuma yol verilmişdir. Görünür, nomenklaturanın həmin hissəsi üzərində işləmiş olan şəxslərin müasir pedaqogiya haqqında, onun həll etdiyi nəzəri və əməli problemləri və başlıca kateqoriyaları haqqında, pedaqoji elmlərin strukturuna dair kifayət qədər məlumatları olmamışdır.

Onlar xüsusən respublikamızın dövlət müstəqilliyi şəraitində digər ölkələrlə qarşılıqlı əlaqələrin genişləndiyini bəhanə gətirib deyə bilərlər ki, pedaqoji elmlər üzrə

ixtisasların qruplaşdırılması təcrübəsi filan ölkədən götürülüb.

Bu bəhanədə bir həqiəqt ünzürü vardır: Hər hansı yeni tədbir görmək istədikdə digər ölkələrin təcrübəsini öyrənmək lazım gəlir. Lakin bu, o demk deyil ki, hər hansı xarici ölkənin təcrübəsini kor-koranə, olduğu kimi qəbul etməliyik. Bəs özümüzün ağlımız? Özümüzün sözümüz?

Biz belə hesab edirik ki, müasir qloballaşma və qarşılıqlı inteqrasiya şəraitində digər ödkələrin təcrübəsini ağılla öyrənməliyik, milli mənliyimizi gözləməklə, respublikamız üçün faydalı olanları qəbul etməliyik.

Belə hesab edirik ki, nomenklaturanın pedaqoji elmlərlə əlaqədar olan hissəsinə yenidən baxılmalı və göstərilən qüsurlar aradan qaldırılmalıdır. Unutmayaq ki, söhbət müstəqil respublikamızda pedaqoji elmlərin inkişafına düzgün istiqamət verilməsindən, elmi və elmi-pedaqoji kadrların hazırlıq səviyyəsini yüksəltməkdən və onların fəaliyyətinin səmərəliliyini artırmaqdan gedir.

**(«Təhsil və zaman», 2006, 28 fevral)**

## 28. MİLLİ PEDAQOJİ ELMLƏR AKADEMİYASI?

«Ayna» qəzetinin 27 iyul 2001-ci il tarixli sayında İ.Umudlunun «Pedaqogika elmdir, yoxsa yox?» adlı məqaləsini oxuyanda sevindim ki, pedaqoji elmə Azərbaycanda qeyri-məntiqi münasibət göstərildiyinə qarşı öz məntiqi səsini ucaldan jurnalistlərimiz və mətbuatımız var.

Düzdür, məqalənin başlığındakı suala müsbət cavab verən mövqe bildirilmişdi. Amma mən çox istərdim ki, məqalə təqribən belə adlanaydı: «Pedaqoji elmin Milli Akademiyaya yolu nə üçün bağlıdır?» Çünki ölkəmizdə pedaqoji elmin aparıcı nümayəndələri 1991-ci ildən bu yolu aça bilmirlər.

Çox qəribədir, bütün mərhələlərdə qaldırdığımız problemlə razılaşsalar da, əməldə heç bir irəliləyiş

olmamışdır. Hökumət pedaqoji elmlərin statusunu və indeksini müəyyənləşdirmişdir. Həmin statusa və inteksə uyğun olaraq Respublika Ali Atestasiya Komissiyasında müvafiq ekspert komissiyası da fəaliyyət göstərir. Belə olduğu halda, təbii sual doğur: digər elm sahələri kimi, pedaqoji elmlər də xalqımıza faydalı xidmət göstərdiyi halda, nə üçün onun Milli Akademiyaya yolu bağlı qalmalıdır?

Sovet vaxtı həmin suala belə bir cavab verilirdi: sahə akademiyası olan SSRİ PEA Azərbaycan SSP-i təmsil edir; akademiyanın həqiqi və ya müxbir üzvü olmaq istəyənlər bura müraciət edə bilərlər.

Azərbaycan müstəqilliyə qovuşandan dərhal sonra mətbuatda geniş məqalə ilə çıxış etdik və fikrimizi belə yekunlaşdırdıq ki, yeni problemlərin yüksək səviyyədə həllinə imkan verən tədbirlərdən biri Azərbaycanda PEA yaradılmasıdır. Belə bir akademiya Azərbaycanda həm pedaqoji elmərin sonrakı inkişafına, həm də tədris müəssisələrində təlim, tərbiyə və təhsilin səviyyəsinin yüksəldilməsinə güclü təkan verər. Akademiyanı yaratmaq üçün bizdə real baza da vardır, dövlətdən əlavə vəsait ayrılması tələb olunmur. Nəticəsi? Qulaqlara pambıq tıxandı.

Azərbaycan pedaqoqları bu məsələyə sonralar da dönə-dönə qayıtdılar. Məsələn, AR «Təhsil haqqında» qanununun yeni variantları üzərində iş zamanı mətbuatda çıxış edərək təklif etdik ki, daxili imkanlar hesabına təhsil Akademiyası və ya Azərbaycan EA strukturunda Pedaqogika və Psixologiya bölməsi yaradılsın. Nəticəsi? Sözdə razılaşdılar, işdə isə yox.

1998-ci ildə müəllimin qurultayı ərəfəsində «Azərbaycan müəllimi» qəzetində çıxış edərək Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında Təhsil Akademiyası yaradılması təklifini səsləndirdim. Amma qurultayda bu fikir havadan asılı qaldı.

Aparıcı pedaqoq alimlərimiz yazılı və şifahi çıxışlarla kifayətlənmədilər. Tanınmış pedaqoqlardan prof.

Z.Qaralovla birlikdə dövlət strukturlarına rəsmən məktublarla müraciət etmiş, Təhsil Akademiyasının nələrin bazasında yaradılmasını, hansı institutlardan ibarət olacağını da əsaslandırmışıq. Bizdə olan məlumata görə, o zamankı NS sədri H.Həsənovun dərkənarı ilə bizim təkliflər icra üçün Təhsil Nazirliyinə göndərilmişdir. Nəticədə? Bir qeyri-müəyyənlik.

Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun fəaliyyəti Təhsil Nazirliyinin kollegiyasında müzakirə olunarkən qərara alınmışdı ki, respublikada Pedaqoji Elmlər Akademiyasının və ya təhsil Problemləri Akademiyasının yaradılması barədə müvafiq orqanlar qarşısında məsələ qaldırılsın. Nəticə? Bu qərar da havadan asılı qaldı.

Elmlərin nomenklaturasında pedaqoji elmin statusu müəyyənləşdiyi, habelə Ali Attestasiya Komisiyasında bu elm təmsil olunduğu halda, nə üçün PEA yaradılmsına və ya Milli Akademiyanın strukturunda Pedaqogika və Psixologiya bölməsinin təşkilinə mane olurlar? Sovet İttifaqı dağıldıqdan sonra keçmiş müttəfiq respublikalar arasında Milli Pedaqoji Elmlər Akademiyası yaratmaq ideyası Azərbaycana məxsus olduğu halda, bundan ilk öncə başqaları faydalandılar. Qonşu dövlətlərin bəzilərində PEA, bəzilərində Təhsil Akademiyası, bəzilərində isə AN nəzdində Pedaqogika və Psixologiya bölməsi yaradılmışdır. Bizim ödkdə isə hələ də özlərini görməzliyə və eşitməzliyə vururlar.

Bəlkə dövlət strukturlarında əyləşən məmurlar pedaqoji mətbuatı oxumurlar, bu səbəbdən də qaldırılan məsələlərdən hali deyillər? İnanmırıq, rəsmi məclislərdə bu barədə dəfələrlə deyilmişdir. Bəlkə məmurlar güman edirlər ki, ölkə pedaqoqlarının elmi fəaliyyətləri akademiyaya layiq deyil? Bu ehtimal da özünü doğrultmur. Çünki pedaqoqların elmi fəaliyyəti ictimaiyyətin gözü qarşısında cərəyan edir. Dəyərli tədqiqat əsərləri çap olunur; ikincisi, bu əsərlər geniş müzakirə edilir və istifadə olunur; üçüncüsü, həmin əsərlərin nüsxəsi onlara çatdırılır.

Bəlkə səlahiyyətli məmurların şəxsi, mənəvi və ya maddi maraqları olmadığından həmin problemin həllinə vaxt sərf etmək istəmirlər? Ola bilər. Hər halda bizdə belə bir əminlik var ki, problemin tarixçəsindən və müasip vəziyyəti barədə ölkə prezidentinə azacıq da olsa məlumat verilsəydi, məsələ çoxdan həll olunardı.

**(«Ayna» qəzeti, 17 avqust, 2001)**

## 29. ЭТО ТОЖЕ ПРОВОКАЦИЯ

На днях в телевизионной программе «Новости» диктор сообщил, что министр обороны Армении обратился к командующему Закавказским военным округом генералу Патрикееву с просьбой выделить Армении часть военного имущества седьмой армии, чтобы обеспечить будто бы нарушенный азербайджанской стороной паритет. Патрикеев отказал в этой просьбе.

Вроде бы генерала в этот раз ни в чем не обвинишь. И телевидение будто бы объективно. Но сообщение такого содержания все-таки считаю очередной провокацией политический смысл которой вижу в следующем. Во-первых, Армения старается выглядеть перед глазами широкой общественности «жалкой» стороной, «бессильной жертвой» брошенной на произвол судьбы перед «сильным» Азербайджаном. Во-вторых, делается вид, будто ни седьмая армия. Дислоцированная на территории Армении. Ни Закавказский военный округ до сих пор не помогали воинствующим армянам.

Никак не утаит шила в мешке, господа! Ни словом, ни обращением, ни отказом не удается создать в глазах мировой общественности иллюзии о военной слабости Армении. Конкретные действия опровергают словоблудие, доказывают, что военная техника Армении во много раз превосходит ту, что имеет Азербайджан.

Как уже сообщалось в республиканской прессе. Только в Агдабане Кельбаджарского района сожжены 38 домов, разрушен 51, убиты 38 человек, 10 – взяты в заложники, 51- пропал без вести. В нагорной части Карабаха стерты с лица земли Малыбейли, Ходжалы, всего около сорока населенных пунктов. Это она, «слабая» пока Армения, творит невиданные фашистские «подвиги». И она эта «слабая» Армения, цинично просит новую партию тяжелой военной техники, чтобы продолжать свои зверства на территории Азербайджана. А военачальники СНГ делают вид, будто не имеют отношения к этому. Стыдно!

**(«Вышка» 1992, 1 may)**

## 30. LİSSABON ZİRVƏ GÖRÜŞÜ: UĞURLAR

Lissabon zirvə görüşünün nəticələri həm ölkəmizdə, həm də xaricdə geniş müzakirə olunmuş və indi də davam edir. Azərbaycan və Ermənistan münaqişəsi ilə əlaqədar fikirlər haçalanmışdır. Respublikamızda iqtisadi müxalifətdə olan bəzi qüvvələrin rəyinə görə Azərbaycan diplomatiyası Lissabon zirvə görüşündə müvəffəqiyyətsizliyə uğramışdır. İqtidarın və onun tərəfdarlarının əqidəsinə görə başda ölkə prezidenti olmaqla Azərbaycan Lissabon zirvə görüşündə tarixi əhəmiyyəti olan müvəffəqiyyət qazanmışdır.

Bu fikirlərdən hansının həqiqət olduğunu söyləmək üçün cərəyan edən hadisələr dinamikada nəzərdən keçirilməli və hələlik belə bir suala cavab verilməlidir: Azərbaycan tərəfi və Ermənistan tərəfi lİssabon zirvə hörüşünə hansı platforma ilə getmişdir?

İndi məlum olur ki, Ermənistanın əsas qayəsi Dağlıq Qarabağ ermənilərinin öz müqəddaratını təyin etmək hüququ əsasında dağlıq Qarabağa müstəqillik verilməsini nəzərdə tutan fikir Lissabon zirvə görüşünün sənədinə daxil edilməzsə Ermənistan-Azərbaycan münaqişəsinə dair hər hansı müddəanın həmin sənəddə əks olunmasına yol verməməkdən ibarət olmuşdur.

Bəs Azərbaycanın qayəsi? Hələ Lissabon zirvə görüşünə qədər Azərbaycan tərəfi müxtəlif yollarla çalışmışdır ki, Dağlıq Qarabağla əlaqədar Azərbaycan –Ermənistan münaqişəsinə dair aşağıdakı daxil edilsin:

1. Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün gözlənilməsi. 2. Azərbaycanın tərkibində Dağlıq Qarabağ yüksək muxtariyyat verilməsi; 3. Dağlıq Qarabağda bütün əhalinin təhlükəsizliyinə təminat verilməsi.

Sual olunur: Lissabon zirvə görüşünün sənədi üzə çıxanda nə məlum olmuşdur? Məlum olmuşdur ki, həmin sənəddəki 20-ci maddə Ermənistanın deyil. Məhz Azərbaycan tərəfinin fikrini əks etdirir.

Hadisələrin bu mərhələsi ilə bağlı soruşulur: hansı diplomatiya uğurlu olub? Azərbaycan diplomatiyası, yoxsa Ermənistan diplomatiyası? Gün kimi aydındır ki, Azərbaycan diplomatiyası. Bu uğuru görməmək, yaxud görmək istəməmək, yumşaq deyilsə, sadəcə insafsızlıq kimi qiymətləndirilə bilər.

Açıq-aşkar uğursuzluğunu görən erməni tərəfi vəziyyətdən çıxış yolunu yalnız veto (qadağa) hüququna əl atmaqda görmüşdür. O, belə də etmişdir: Azərbaycan Tərəfinin fikrini əks etdirən 20-ci maddəyə veto qoyduğuna görə, həmin maddə sənədin mətnindən çıxarılmışdır.

Sual olunur: bunu Ermənistan diplomatiyasının qələbəsi hesab etmək olarmı? Məsələyə formal cəhətdən yanaşılarsa, suala müsbət cavab verilə bilər; bəzi qəzetlərdəki yazılar kimi. Amma, mahiyyət tamam başqa fikir söyləməyi tələb edir. Mahiyyət isə ondan ibarətdir ki, veto hüququ erməni tərəfinin ixtirası deyil, ATƏT-in müəyyənləşdirilmiş olduğu iş üslubudur. Bu iş üslubuna görə ATƏT-in müzakirə etdiyi hər hansı fikir təşkilatın bütün üzvlərinin razılığı şəraitində qəbul olunur: bir üzv razılıq vermədikdə, belə qərar qəbul edilmir. Ona görə də öz diplomatiyasının növbəti uğursuzluğunu yəqin edən Ermənistan tərəfi saman çöpündən yapışmalı – ATƏT-in iş qaydasından aman diləməli olmuşdur. Bununla da Ermənistan tərəfi ATƏT-in

Dağlıq Qarabağla əlaqədar son ikillik fəaliyyətini növbəti dəfə heçə endirməyə çalışmışdır.

Hadisələrin bu mərhələsində, yəni Azərbaycanın fikrini nəzərdə tutan 20-ci maddənin Lissabon zirvə görüşü sənədindən çıxarıldığı mərhələdə Ermənistan tərəfi sevinc hissi keçirə və əməllərindən öyünə bilərdilər. Lakin bu formal sevinc hissinin ömrü gödək olmuşdur. Azərbaycan tərəfi yatmamışdı. Azərbaycan nümayəndə heyəti, başda cənab prezident olmaqla gözlənilməz diplomatik addım atmışdır. Heç kəsin, heç bir ölkə başçısının ağlına gəlməyən bu gözlənilməz diplomatik addım bütün Avropa ölkələri rəhbərlərinin başı üstündə şimşək kimi çıxmış, onları lərzəyə gətirmiş, laqeydlik mürgüsündə ayıltmışdır: Hörmətli prezidentimiz Heydər Əliyev cənabları Lissabon zirvə görüşünün sözü gedən sənədinə bütövlükdə veto qoyulmuşdur. Prezidentimizin qətiyyətlə söylədiyi bu fikir üzərində onun yenilməz olduğunu görüb yəqin edən Avropa ölkələrinin başçıları təklikdə və qrup halında prezidentimizə xahişlərlə müraciət etmişlər ki, vetosunu geri götürsün. Onlar yaxşı başa düşürdülər ki, Ermənistan vetosu yalnız Dağlıq Qarabağla əlaqədar ATƏT-in fəaliyyətini heçə endirdisə, Azərbaycan vetosu ATƏT-in bütbölükdə ikiillik fəaliyyətini. Üstəgəl Lissabon zirvə görüşünü nəticəsiz qoyurdu. Bu isə ATƏT-in bir təşkilat kimi iflası demək idi. Bu səbəbdən də Avropa ölkələrinin başçıları həqiqətən doğru yeni, real addımlar atmalı olmuşlar. Hörmətli prezidentimizin polad iradə sahibi olduğunu tam yəqin edən avropa ölkələrinin başçıları Azərbaycan tərəfinin fikrini ifadə edən dörd variantdan ibarəttəkliflərin nümayəndə heyətimizin başçısına təqdim etmişlər. Hörmətli prezidentimiz təkliflərdən birinə bu şərtlə razılıq vermişdir ki, həmin təklif Lissabon zirvə görüşünə sədrlik edən şəxs tərəfindən oxunsun və zirvə görüşü iştirakçıları tərəfindən bəyənilsin. Prezidentimizin dediyi kimi də olur: sədr aşağıdakı prinsipləri bəyannamə kimi elan edir: Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün gözlənilməsi; Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək

muxtariyyat verilməsi; Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin edilməsi.

Bu məzmunda bəyanat veriləndən, zirvə görüşündə iştirak edən 54 ölkə başçısından 53-ü ona razılıq verəndən və bəyannamənin zirvə görüşü sənədinəəlavə ediləcəyi bildiriləndən sonra qüdrəti dünyaya yayılan prezidentimiz öz vetosunu geri götürmüşdür. Bax bu, Heydər Əliyev zəkasının, uzaqgörən siyasətinin əsl uğurudur.

Burada yadıma uzaq keçmişin döyüş qaydalarından biri düşür: qarşı-qarşıya duran rəqib orduların gözü önündə əvvəlcə sərkərdələr döyüşər, sonra ordular vuruşardı. İndi həmin qayda tamam yeni formada – uzaq Portuqaliyanın mərkəzi Lissabon şəhərində iki ordu baş komandanı – Ter-Petrosyan və Heydər Əliyev döyüşündə ilk sevinc payı Azərbaycanın tərəfindədir. Nə üçün? Çünki, birincisi, ATƏT –in üzvü olan 54 ölkədən 53-ü Dağlıq Qarabağla əlaqədar Azərbaycanın mövqeyində olduğunu ilk dəfə rəsmən elan etdi; ikincisi Dağlıq Qarabağla əlaqədar ilk dəfədir ki, Ermənistan təkləndi; üçüncüsü, ermənilərin indiyədək dediklərinin əksinə olaraq ilk dəfə rəsmən etiraf edildi ki, münaqişə Azərbaycanla Dağlıq Qarabağ erməniləri arasında deyil, Ermənistanla Azərbaycan arasındadır; dördüncüsü, ATƏT ilk dəfədir ki, Azərbaycanın ərazi bütövlüyünün toxunulmaz olduğunu rəsmən elan etmişdir; beşincisi, ATƏT Dağlıq Qarabağa tam müstəqillik verilməsi, Azərbaycanın tərkibindən çıxması barədə erməni fikrinin yolverilməz olduğunu ilk dəfə rəsmən bildirmişdir; altıncısı. Dağlıq Qarabağdı yalnız ermənilərin deyil, həm də azərbaycanlıların təhlükəsizliyinin təmin olunması barədə fikir ilk dəfədir ki, ATƏT-in rəsmi sənədində nəzərə alınmışdır.

Bəli, bütün bunlar Azərbaycan prezidentinin apardığı uzaqgörən siyasətin, yorulmaq bilməyən gərgin, ardıcıl əməyinin bəhrələri, uğurlarıdır.

Beləliklə, Lissabon zirvə görüşü Azərbaycan və Ermənistan arasında gələcək danışıqların siyasi bünövrəsini qoymuşdur. Bütün danışıqlar bu əsasda aparılmalıdır.

Lakin burada iki məqamı daim yadda saxlamaq və onların müvafiq əməli nəticələr çıxarmaq lazımdır. Biri Lissabon zirvə görüşünün qərarlarına, digəri isə BMT Ermənistanın münasibəti ilə əlaqədardır.

Məlum olduğu kimi, Ermənistan tərəfi Dağlıq Qarabağla əlaqədar BMT Təhlükəsizlik Şurasının qətnamələrinə indiyədək məhəl qoymamış. Onlara əməl etməmişdir. Ermənistan tərəfi Lissabon zirvə görüşündə həm məlum qətnamənin 20-ci bəndinə veto qoymuş, həm də bəyannamənin əleyhinə səs vermişdir. Güman etmək olar ki, BMT təhlükəsizlik Şurasının qətnamələrinə Ermənistan tərəfinin saymaz münasibəti Lissabon zirvə görüşünün bəyannaməsinə münasibətdə də təkrar olunsun.

Əgər bu ehtimal özünü doğruldarsa, bir sıra əməli addımlar atılmalıdır. İlk növbədə Lissabon zirvə görüşünün bəyannaməsinə uyğun olaraq Azərbaycan diplomatiyası müxtəlif istiqamətlərdə öz fəallığını qat-qat artırmalıdır. Bununla yanaşı, Azərbaycan ordusunun qüdrəti o dərəcəyə çatdırılmalıdır ki. erməni inadkarlığından, «Babam mənə kor deyib, gəlib-gedəni vur deyib» psixologiyasından biryolluq və həmişəlik vidalaşılsın. Başa düşülsün ki, Azərbaycan xalqında olan dözümlülük və səbr hüdudsuz deyil. Təkbətək döyüşdə iradəsi qırılmış sərjərdənin, zərurət yaranarsa, ordusunun da iradəsi qırılmalıdır.

**(«Azərbaycan müəllimi» 16 yanvar, 1997)**

## 31. HƏYANLIQ HİSSİ-MƏNƏVİ XƏZİNƏDİR

Dağlıq Qarabağın Azərbaycan kəndlərinə səfərimiz uğurla başladı və uğurla da nəticələndi. Şəhərlərarası sərnişin daşıyan avtokombinata məxsus «85-75 AQB» avtobusun sürücüsü Nadir Qurbanov bizi aparmağa məmnuniyyətlə razılaşdı. Yoldaşlardan biri ondan zarafatla soruşdu:

-Vuran bir şeyin varmı?

Sürücü Nadir tərəddüd etmədən zarafata zarafatla cavab verdi:

-Narahat olmayın, yaxşı vuran ürəyim var. Bu cavab hamımızın qəlbinə əlavə hərarət gətirdi.

Şərtləşdiyimiz yerə gecikməmək üçün dosent F.Seyidov taksiyə əyləşir. Sürücü onunla maraqlanır:

-Soruşmaq ayıb olmasın, səhər-səhər əlinizdə çanta səfərə çıxmırsınız ki?

-Düz düşünürsünüz. Dağlıq Qarabağa getmək, oradakı azərbaycanlılara yardım əli uzatmaq fikrindəyik…

Düşəndə yol haqqını almaqdan sürücü qəti imtina edir və deyir:

-Siz ki, belə bir xeyirxah məqsədin sahibisiniz, hesab edin ki, mən də Dağlıq Qarabağın azərbaycanlılarına köməkdə iştirak edirəm.

Bu cür gözəl əhval-ruhiyyə ilə SSRİ-nin 50 illiyi adına Azərbaycan Xarici Dillər Pedaqoji İnstitutu pedaqogika kafedrasının professoru Əliheydər Həşimov, dosent Fikrət Seyidov, baş müəllimlərdən İnqilab Xəlilov, Məcid Əliyev, Oqtay Əliyev, baş laborant Azər Həsənov habelə bu sətirlərin müəllifi yola düşdük.

Ağdama qədər diqqəti cəlb edən və haqqında söhbət açmağa dəyən bircə faktı xatırlamaq yerinə düşərdi. Bərdə körpüsünə çatanda dayanmalı olduq. Bir dəqiqə çəkmədi ki, bizim avtobusun qabağında da, arxasında da avtomaşınlar dəstələşdi, xeyli adam yığıldı. Bizə yaxınlaşıb maraq göstərdilər, məqsədimizdən hali oldular. Biz də borclu qalmadıq. Öyrəndik ki, Bərdə şəhərindəki xalq cəbhəsinin üzvləridir, yola göz qoyurlar, qayda-qanun gözləyirlər. Dağlıq Qarabağda Muğanlı kəndinin yoluna bələd olmadığımızdan, ağdamlılarla məsləhətləşməli olduq. Bizə iki nəfər bələdçi verdilər. Ağayev Ayaz Novruz oğlu və Qurbanov Yaşar Aydın oğlu.

Onların kimliyi ilə maraqlandıq. Məlum oldu ki, hər ikisi Azərbaycan Xalq Cəbhəsinin Ağdam dayaq nöqtəsinin üzvləridir – cəngavər oğlanlardır. Ayazın və Yaşarın hünərinin həm də o fakt isbat edirdi ki, onlar məhz öz maşınlarında, gecənin qaranlığında 30-35 km-lik yolu

gedib-qayıtmalı oldular. Eşq olsun xalqımızın təmənnasız fəaliyyət göstərən belə oğullarına.

Qələmə alınmalı həm də odur ki, Muğanlı kəndində bizi ilk qarşılayanlar da Azərbaycan Xalq Cəbhəsinin yerli üzvləri oldular.

Muğanlı kəndinə səfər bizə başqa fikir və hisslər də bəxş etmişdir. Biz bir daha yəqin etdik ki, erməni ekstremistlərinin uydurmalarını, yalanlarını, böhtanlarını, həyasızlıqlarını əyani şəkildə görmək üçün Dağlıq Qarabağdakı azərbaycanlılar yaşayan kəndlərə də getmək, orada olmaq, verilən sualları eşitmək vacibdir.

Nə ilə izah etmək olar ki, yetmiş il ərzində Muğanlı kəndində bir dənə də olsun mədəni-maarif, sosial-məişət obyekti tikilməmişdir? Necə olur ki, Muğanlı kənd orta məktəbi inqilabdan xeyli əvvəl tikilmiş namünasib bir binada yerləşir, sinif otaqları çatışmır, yağan yağış içəri axır? Muğanlı kəndində işığın tez-tez söndüyünün səbəbini harada axtarmaq lazımdır? Kəndin bir kilometrliyindən keçən raz xəttindən indiyədək Muğanlı kəndinə qaz çəkilmədiyini necə başa düşmək lazımdır? Muğanlı kənd yolunun və kənarası yolların yağışda-qarda keçilməz olduğunun günahını kimlərdə axtaraq? Qəzet və jurnalların, məktub və teleqramların kəndə bəzən çatdırılmadığını, çox hallarda gecikdirildiyini hava şəraiti iləmi izah etməliyik?

Dağlıq Qarabağın və onun rayon rəhbərləri Azərbaycan kəndlərinin başına gətirdikləri müsibətləri ört-basdır etmək, cinayətdən yaxa qurtarmaq üçün qara-qışqırıq saldılar, özlərini azərbaycanlıların, azərbaycanlıları isə özlərinin yerinə qoyurlar. Atalar yaxşı deyib: «Qara məni basınca, mən qaranı basım».

Biz, görünür, yetmiş il yuxulu olmuşuq. Muğanlı kimi kəndlərin harayını, fəryadını duymamışıq. Son ilin siyasi zəlzələsi nəhayət bizi oyatmış və Dağlıq Qarabağın Azərbaycan kəndlərinə maraq göstərməyə məcbur etmişdir. Muğanlı kəndində indi avtobazanın, tikiş fabrikinin, kərpic zavodunun filiallarını inşa edildiyini, Lənkəran zəhmətkeşlərinin kənddə bulaq tikdiyini görəndə sevincimiz aşıb-daşırdı.

Kənd camaatı görüşdə bizim gəlişimizə dərin mənalı qiymət verdi və arzularını bildirdi: - Azərbaycanın digər juşələrindən kəndlərimizə gəliş iki cəhətdən böyük əhəmiyyət kəsb edir. Əvvəla, məlum tərəf hər dəfə düşünür ki, kəndə kimlərsə gəldi, nəsə gətirdi. İkincisi bizim ruh yüksəliyimiz xeyli artır, düşünürük ki, haqqımızda fikirləşənlər, arxamızda duranlar var.

Başlıca xahiş bu idi ki, kəndin yaxınlığından keçən qız kəmərindən xətt ayırmaq üçün dəmir boru verilsin. Bu xahişdə əsas həm də budur ki, indiyədək qışda yandırmaq üçün odun yuxarı dağlardan gətirilirdi. Ara qarışandan sonra dağlara qalxmaq, meşədən odun gətirmək mümkün deyil. qışda yandırıb istisinə qızınmağa odur yoxdur. Yəqin müvafiq təşkilatlar bu cəhəti nəzərə alacaqlar.

Məktəbdə şagird və müəllim kollektivi ilə görüş zamanı müəllimlərdən Bənövşə Abdullayeva, Rəhim Quliyev, Məhəbbət Quliyev, Məhərrəm Nəsirov, İdris Quliyev bir sıra tənqidi qeydlərlə çıxış edib arzularını da bildirdilər. Məsələn, sinif müəllimi Bənövşə Abdullayeva haqlı olaraq dedi ki, hazırki şəraitdə vətənpərvərlik tərbiyəsini gücləndirməyin və bu işi milli xüsusiyyətləri nəzərə almaqla təşkil etməyin əhəmiyyəti qat-qat artır. Bu mənada Azərbaycana aid sənədlərə, materiallara ehtiyac vardır. Məktəbdə Azərbaycan SSR-in xəritəsi yoxdur bizə Ermənistan SSR-in xəritəsi göndərilir.

Yaxud müəllimlərdən Məhərrəm Nəsirov ibtidai hərbi hazırlıq üzrə dərsliyin və dərs vəsaitlərinin olmadığınjan şikayətləndi və bu sahədə məktəbə kömək göstərilməsini arzu etdi.

Məktəbin direktoru Həsrət Tahirov sözünün sonunda dedi:

-Gətirdiyimiz 2000 şagird dəftəri, 300 dərslik və digər kitablar, 100 –dən artıq avtoqələm, kinoaparat, digər texniki vasitələr və s. üçün çox sağ olun. Bizdən ötrü daha qiymətlisi sizin gəlişinizdir. Əliboş gəlin, amma gəlin. Gəlin ki, bizi istəməyənlərə gözdağı olsun…

Qayıdanbaş kəndin qənşərində qarşımıza yük maşını çıxdı. Sürücü maşını saxladı, yerə düşüb əl verdi. Biz də dayanmalı olduq. Xeyli söhbət etdik. Sürücü Etibar Hüseynovun danışdığı əhvalatlardan ikisinə diqqəti cəlb etməyə, məncə dəyər. Biri kəndin tarixi ilə, digəri bulaq əlaqədardır.

Etibarın söhbətindən məlum oldu ki, Muğanlı kəndi vaxtilə görünən dağın döşündə, ağaclıqda yerləşibmiş. Sonralar erməni millətçilərinin «qayğısı» sayəsində kənd oradan xeyli aşağıya, həmin dağın ətəyinə köçürülüb. Bir müddət keçəndən sonra kəndi yenidən tərpədiblər. Bu dəfə muğanlı kəndinin zavallı əhalisi indi gördüyümüz dərəyə enməyə məcbur olmuşdur.

Sürücü bizdən xahiş etdi ki, gedəndə bir qədər aralı, yolun alt tərəfindəki yatağının qırağında Pirəbulaq deyilən bulaq var, ona baş çəkən, onun nə üçün və kim tərəfindən uçurulduğunu aydın olar.

Gəlib bulağa çıtdıq. Bulağın axarında ağ mərmərdən nov olduğunu və onun dağıdıldığını gördük. Bu həndəvərdə otlayan qoyun-quzuların, inək və ulaqların, yeganə su içdiyi yerin uçurulduğu həmin heyvanları ölümə məhkum etməyə bərabər deyilmi? Nə üçün yoldan keçənlər bulağın başında dayanıb dincəlməsin, onun suyundan içib sərinləməsin?

Ümidvarıq ki, Azərbaycan xalqının təmənnasız qayğısı və heyvanlığı sayəsində üçürülmüş Pirəbulaq da, sındırılmış insan qəlbləri də tezliklə bərpa ediləcək və muğanlı sakinlərinin arzuları yerinə yetiriləcəkdir.

**(«Azərbaycan müəllimi» 1989, 4 oktyabr)**

## 32. HÖRMƏT VƏ EHTİRAMIN SİRRİ

Tbilisi Dövlət Universiteti nəzdində pedaqogikanın nəzəriyyəsi və tarixi sahəsində doktorluq dissertasiyası müdafiəsi üzrə ixtisaslaşmış sovetin növbəti iclasına dəvət olunmuşdum. Sovetin işindən əlavə universitetin digər tədbirində də iştirak edə bildim. Orta məktəb

müəllimlərindən, valideynlər və tələbələrdən bir dəstəsi şagirdlərin təlim və tərbiyəsi ilə əlaqədar ortaya çıxan problemlərin həlli yollarını müzakirə edirdilər. Müzakirə iştirakçıları bir nəfərə daha çox müraciət edir, onun fikir və məsləhətlərini öyrənmək istəyirdilər. Hiss olunurdu ki, həmin şəxsin nüfuzu güclüdür. O, Tite Saçinoyeviç Sarişvili idi.

T.S.Sarişvilinin belə böyük nüfuza malik olmasının səbəbi ilə maraqlandım. Düşündüm: bəlkə bu sirrin səbəbi elmi dərəcədə və elmi addadır? Gördüm ki, yox. Çünki T.S.Sarişvilidən başqa müzakirədə digər elmlər doktorları və professorlar da vardı. Bəlkə sirr yaşdadır? Yəqin etdim ki, yaşın çoxluğu və o qədər güclü rol oynamır. Çünki, əyləşənlər arasında yaşı 70-80 olanlar az deyildir. bəlkə əsas məsələ vəzifədədir? Aydın oldu ki, xeyr. Çünki, orada prorektor da, dekan da, kafedra müdiri də vardı. Lakin T.S.Sarişvili vəzifə sahibi deyildi. O, kafedranın sıravi professorudur.

Tite pedaqoji fəaliyyətə Gürcüstanın Çapan kənd ibtidai məktəbində təlim-tərbiyənin ilk mərhələsindən başlamışdır. O, həmin kənd məktəbinin müəllimi və müdiri olmuş, valideynlərlə, kənd əhalisi ilə əməli pedaqoji əlaqənin təməl daşını qoymuşdur.

T.S.Sarişvili az vaxt ərzində yəqin edir ki, ali pedaqoji təhsil olmadan gənc nəslin təlim və tərbiyəsi qarşısında qoyulmuş ciddi vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək olduqca çətindir. Buna görə də o, ali pedaqoji təhsilə can atır və öz məqsədinə nail olur. onu da deməliyik ki, ali təhsil aldığı müddətdə də məktəbin ayrılmamış şagirdlərin təlim-tərbiyəsi ilə əməli şəkildə məşğul olmaqda davam etmişdir.

Bir müəllim kimi T.S.Sarişvilinin fəaliyyətində diqqəti cəlb edən cəhətlərdən biri budur ki, o, öz təcrübəsinin daim təhlil etməyə, nöqsanlarını və müvəffəqiyyətlərini araşdırmağa, səbəblərini müəyyənləşdirməyə böyük səy göstərməyə başlamışdır. Yəqin etmişdir ki, elmi-pedaqoji hazırlığı azlıq edir və buna görə də pedaqogika üzrə

aspiranturaya girmişdir. Sarişfili aspiranturada öz elmi səviyyəsini yüksəltmək üzərində işlədiyi illərdə də məktəbdə təlim-tərbiyə işindən əl çəkməmişdir.

Pedaqoji səriştəliyinə həm əməli, həm də nəzəri cəhətdən artıran Sarişvili A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunda müəllimliyə dəvət olunur. O, namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi alır. Çox keçmir T.S.Sarişvili elmin zirvəsinə yüksələ bilir – doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir.

Pedaqoji fəaliyyətdə böyük təcrübə toplayan T.S.Sarişvili Gürcüstan SSR-də müəllim kadrlarının hazırlanmasına xüsusilə böyük əmək sərf etmişdir. O demək olar ki, Gürcüstandakı bütün pedaqoji institutlara, universitetə müxtəlif vəzifələrə dəvət olunmuşdur. Tbilisi Pedaqoji İnstitutunda pedaqogikadan mühazirə oxumuş, Tbilisi Universitetində qiyabi pedaqoji təhsil şöbəsi üzrə prorektor olmuş, Y.Qoqebaşvili adına Telavi Pedaqoji İnstitutunun redaktoru vəzifəsində çalışmış, Gürcüstan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda elmi işçi kimi fəaliyyət göstərmiş, bir müddət Tsxinval Dövlət Pedaqoji İnstitutunda, sonra isə Qori Dövlət Pedaqoji İnstitutunda pedaqogika və psixologiya kafedrasına rəhbərlik etmişdir. Hazırda Tbilisi Universitetində pedaqogika kafedrasının professoru kimi şərəfli vəzifəni yerinə yetirir.

Gərgin və fasiləsiz pedaqoji fəaliyyətlə yanaşı, T.S.Sarişvili elmi fəaliyyəti ilə Gürcüstan ictimaiyyətinin böyük rəğbətini qazanmışdır. Görkəmli gürcü alimi 400-dən artıq elmi əsərin müəllifidir. Onun 1969-cu ildə çapdan çıxmış «Ali məktəb üçün pedaqogika», 1986-cı ildə nəşr olunmuş «Ali məktəb məsələləri», «Məktəb direktorunun işi», «Məktəbşünaslıq məsələləri» və s. adda əsərləri müəllimlərin və elmi işçilərin stolüstü kitablarına çevrilmişdir. Elmi və elmi-pedaqoji kadrların hazırlanmasına da T.S.Sarişvili az əmək sərf etməmişdir. Onun bilavasitə rəhbərliyi ilə 7 doktorluq və 20 namizədlik dissertasiyası müdafiə edilmişdir. Onu da demək yerinə

düşər ki, T.S.Sarişvili müttəfiq respublika və vilayətlərdən olan kadrların formalaşmasına da eyni dərəcədə kömək göstərmişdir. Onun rəsmi opponent olduğu şəxslər arasında Azərbaycandan, Ermənistandan, Şimali Qafqazdan və ölkənin digər regionlarından da dissertantlar vardır.

Gürcüstanın elmi-pedaqoji ictimaiyyəti qarşısında T.S.Sarişvilinin nüfuzunu qaldıran digər cəhətə də diqqəti cəlb etmək istərdik. Biz bu görkəmli pedaqoqun ictimai-siyasi həyatda fəal iştirakını nəzərdə tuturuq. T.S.Sarişvilinin ictimai fəaliyyəti üçün səciyyəvi cəhət onun yenə pedaqoji proseslə, müəllim və valideynlərlə bağlılığındadır. T.S.Sarişvilinin təşəbbüsü ilə Gürcüstanda bir sıra xalq universitetləri, xalq maarif muzeyləri yaradılmışdır. O, məşhur gürcü pedaqoqu Yakob Qoqebaşvilinin şərəfinə Qori rayonundakı Variani kəndində «Yakobaba» el bayramının əsasını qoymuşdur. uzun illərdir ki, o, Gürcüstan SSR Pedaqoji Cəmiyyəti rəyasət heyətinin üzvü, Y.Qoqebaşvili adına mükafat komissiyasının sədridir. T.S.Sarişvili «Saxalxo Qanatleba» qəzeti səhifələrində 15 il ərzində fəaliyyət göstərən «Zəhmətkeşlərin pedaqoji təhsili» başlığı altında materiallar çap etdirmişdir.

Gürcüstanın görkəmli pedaqoqu T.S.Sarişvilinin çoxcəhətli pedaqoji, elmi və ictimai-siyasi fəaliyyəti respublika partiya təşkilatı və hökumətinin diqqətindən yayınmamışdır, ona «Gürcüstan SSR əməkdar elm xadimi» fəxri adı verilmiş. «Y.Qoqebaşvili adına I dərəcəli mükafat laureatı» adına layiq görülmüşdür.

Azərbaycan pedaqoji ictimaiyyətinin dostu, pedaqoji elmlər doktoru, professor Tite Saçinoyeviç Sarişvilinin noyabr ayında 80 yaşı tamam olsa da, yenə əvvəlki enerji, əvvəlki həvəslə geniş miqyaslı fəaliyyətini davam etdirir.

**(«Azərbaycan müəllimi» qəzeti, 1988, 14 dekabr)**

## 33. ETİBARLI TƏMİNAT OLMALIDIR

Respublikamızda bütün mərhələlərdə təhsilin məzmununu, təşkili formalarını və üsullarını təkmilləşdirmək üçün müəyyən işlər görülür. Yeni tədris proqramları, dərsliklər və metodik vəsaitlər hazırlanıb çap edilir, müəllimlərin təkmilləşdirilməsinə, tədqiqatlar aparılmasına diqqət artırılır. Bununla birlikdə təhsilin və tərbiyənin bir sıra problemləri özünün əsl elmi həllini gözləyir.

Məsələn, orta ümumtəhsil məktəblərində mədəniyyət probleminin yerinə yetirilməsinə ötəri nəzər saldıqda bir sıra ciddi suallar ortaya çıxır: mədəniyyət məsələləri ümumtəhsil məktəblərində necə öyrədilməlidir? Bu işə hansı sinifdən başlanmalıdır? Azərbaycan mədəniyyətinin tədrisində digər müttəfiq respublikaların və xarici ölkələrin mədəniyyət məsələlərinə münasibət necə olmalıdır? Bunları isə fərziyyə və ehtimalla həyata keçirmək olmaz. Problemin həlli ümumdövlət miqfasında obyektiv elmi tədqiqat tələb edir.

Son zamanların hadisələrində, xüsusən mitinqlərdə, yığıncaqlarda danışanları dinləmək, onların fikrinə hörmətlə yanaşmaq mədəniyyətinin çatmadığının səbəblərini tərbiyə işinin qoyuluşunda da axtarmaq lazımdır. Adamlar arasındakı ünsiyyətdə müşahidə olunan çatışmazlıqlar və tərbiyə sahəsində yol verilən nöqsanlar isə, öz növbəsində, xalqın geriləməsinə səbəb olur.

Respublikada nəinki gənc nəslin, habelə yaşlıların tərbiyəsini elmi əsaslarla gücləndirməyə böyük ehtiyac duyulur. Bu problemin öhdəsindən ləyaqətlə gəlmək üçün dövlət miqyasında köklü tədbirlər görülməlidir. Problemin həlli yollarından biri respublikada pedaqoji elmlər akademiyasının yaradılmasıdır. Bu akademiya pedaqoji və psixoloji elmləri, qismən fiziologiya və gigiyenanı özünə birləşdirərdi.

Qeyd edim ki, pedaqoji akademiya yaratmaq üçün respublikada zəruri imkanlar vardır.

«Azərbaycan Sovet Sosialist Respublikasının suverenliyi haqqında» Azərbaycan SSR-in Konstitusiya Qanununun 2-ci bəndində deyilir: «Respublikada siyasi, iqtisadi, sosial-

mədəni quruculuq, onun inzibati-ərazi quruluşu ilə əlaqədar bütün məsələləri Azərbaycan SSR müstəqil həll edir».

Pedaqoji elmlər akademiyasının yaradılması ideyası respublika Pedaqoji Cəmiyyətinin IV qurultayında da irəli sürülmüşdür. Qurultayın qərarına uyğun olaraq müvafiq təşkilatlara müraciət edilmişdir. Lakin hələlik real dönüş yaranmamışdır. Əminik ki, Azərbaycan SSR Xalq təhsili Nazirdiyinin və respublika Elmlər Akademiyası Rəyasət Heyətinin köməyi ilə qaldırdığımız problemi həll etmək mümkün olacaqdır.

**(«Kommunist» qəzeti, 1990, 6 noyabr)**

## 34. MÜƏLLİMLƏR QURULTAYINDAN NƏ GÖZLƏYİRƏM?

Bu suala cavab birmənalı deyil. bəziləri düşünürlər ki, müəllimlər qurultayı məktəbə şeç nə verə bilməz, təlim, tərbiyə, təhsil və psixoloji inkişafın, bütövlükdə pedaqoji prosesin heç bir problemini həll edə bilməz. Onlar belə bir dəlil gətirirlər ki, qurultayın problem həll etmək səlahiyyəti yoxdur, buna görə də qurultay çağırmaq lüzumsuzdur.

Gətirilən fikirdə müəyyən həqiqətin olduğunu etiraf etmək lazımdır. Həqiqət isə budur ki, qurultay məktəbin, müəllimin hansısa probleminin həllinə əmr və ya sərəncam verə bilməz. Lakin həmin fikrin tərəfdarları qurultayın əsl mənasını, onun mahiyyəti və əhəmiyyətini unudurlar.

Müəllimlərin böyük əksəriyyəti qurultaya böyük məna və əhəmiyyət verir. mən özümü bu cür müəllimlərin sırasında hesab edirəm.

Müəllimlər qurultayının əsl mənası, onun əhəmiyyəti nədən ibarətidir? Nəzərə alınmalıdır ki, indiki müəllimlər qurultayı Azərbaycan Respublikasının dövlət müstəqilliyi şəraitində keçirilir. Dövlət müstəqilliyi şəraitində məktəbin, təlim, tərbiyə və təhsilin saysız-hesabsız problemləri yaranmışdır. Bu problemləri, onları yaradan səbəbləri və aradan qaldırılması yollarını hərə öz anlamı çərçivəsində

təsəvvür edir. Yaranmış problemlər, onların səbəbləri və həlli yolları haqqında müəllimlərin çoxsaylı fikirlərini ümumiləşdirməyə böyük ehtiyac yaranmışdır. Bu ehtiyac ödənilməlidir. Qurultayın qarşısında duran vəzifələrdən birini mən bunda – həmin fikirlərin ümumiləşdirilməsində, vahid fikrin formalaşdırılmasına kömək etməkdə görürəm.

Fikirləri ümumiləşdirərək vahid rəy formalaşdırmaq azdır. Bununla yanaşı, üzə çıxarılan problemlərin həlli yolları ilə əlaqədar da vahid fikir yaradılmalı və səlahiyyətli dövlət, hakimiyyət orqanlarına əsaslandırılmış təkliflər verilməlidir. Qurultay bu vəzifənin həllinə də kömək edə bilər.

Deyilənlərdən əlavə, müəllimlər ölkəmizin daxili və xaricində baş verən hadisələrə biganə qala bilmirlər. Bu hadisələrə müəllimlərimiz öz münasibətlərini bildirmək və vahid fikir formalaşdırmaq təşəbbüsündə də ola bilərlər.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi şəraitində qurultay əmələ gəlmiş hansı problemlər barədə fikir formalaşdıra və təkliflər verə bilər? Bu problemlərdən yalnız üçünə, ötəri də olsa toxunaq.

Məlum olduğu kimi, təhsil sahəsində islahat çox ləng gedir. Bunu nəzərə alan ölkə Prezidenti xüsusi sərəncamla Təhsil haqqında Qanuna yenidən baxılması üçün komissiya yaradılmasını haqlı olaraq lazım bilmişdir. Bizcə, təhsil sahəsində islahatın ləng getməsinin köklü səbəblərindən biri təhsilin elmi təminatının olmamasıdır. İslahatın həyata keçirilməsini təmin etmək üçün zəruri olan sənədlərin (baza tədris planlarının, dövlət standartlarının, minimum tələblərin, təlimatı məktubların, digər normativ sənədlərin), demək olar, hamısı nazirliyin işçiləri tərəfindən hazırlanır. Cari idarə məsələlərinə başı qarışan məmurların isə həmin sənədlərə elmi əsaslarda baxmaq imkanları olmur. Təhsil islahatlarını həyata keçirmək üçün elmi cəhətdən lazımınca əsaslandırılmış inandırıcı, səfərbəredici sənədlər hazırlayacaq və təhsil Nazirliyinə təqdim edəcək əsl elmi mərkəz yaradılmalıdır. Belə bir mərkəz Təhsil Akademiyası ola bilər.

SSRİ şəraitində elmi təminatı respublikamız Moskvadan – SSRİ Pedaqoji Elmlər Akademiyasından alırdı. İndi respublikamız müstəqildir, öz problemlərini özü həll etməlidir. MDB-yə daxil olan bəzi ölkələrdə olduğu kimi, Azərbaycanda da Təhsil Akademiyası yaratmağa imkan vardır. Bundan ötrü dövlətdən əlavə pul vəsaiti tələb olunmur: Akademiyanı Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun bazasında yaratmaq mümkündür. Qurultay bu məsələni qaldıra bilər. Unutmayaq ki, dövlət müstəqilliyimiz şəraitində hələ heç bir tədris planımız, heç bir ciddi sənədimiz real eksperimentdən keçirilməyib, həmin sənədlərin hamısı ya tək-tək şəxslərin, yaxud ayrı-ayrı qrupların subyektiv mülahizələrinin məhsulu olmaqda davam edir. Bu da təbiidir ki, çünki indiki şəraitdə heç bir müəllimin, müəllifin və ya idarə məmurunun hazırladığı sənədi eksperimentə qoymaq, elmi cəhətdən araşdırmaq imkanı yoxdur. Bu vəzifələri xüsusi elmi mərkəz – Təhsil Akademiyası yerinə yetirə bilər.İcbari təhsilin yerinə yetirilməsi vəziyyətinə nəzər salaq. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Konstitusiyasında, digər məsələlərlə əlaqədar olduğu kimi, təhsil məsələlərində də humanizm və demokratiya ideyalarına üstünlük verilmişdir. Bu ideyaların həyata keçirilməsini təmin edən tədbirlərdən biri ümumi orta təhsilin ölkəmizdə icbari olmasıdır. Təcrübə göstərir ki, ümumi orta təhsilin icbariliyi yerlərdə birmənalı başa düşülməmişdir: çoxları icbari sözünü məcburi kimi anlamışlar. Bu səbəbdən də onlar gileylənirlər: ümumi orta təhsil almaq iqtidarında olmayan, tez-tez məktəbdən yayınan, daxili qaydaları kobud şəkildə pozan şagirdlərə çox halda layiq olmadıqları müsbət qiymətlər yazmağa məcbur oluruq.

Deməliyik ki, icbari sözünü məcburi kimi başa düşən bəzi təhsil işçiləri nəinki özlərini pis vəziyyətə salır, həm də məktəbi, təhsili hörmətdən salır, digər şagirdlərdə oxumaq həvəsini azaldırlar.

Ümumi orta təhsilin icbari olması nə deməkdir? O deməkdir ki, birincisi, dövlətimiz hər bir oğlan və qıza ən azı ümumi orta təhsil almaq hüququ verir: ikincisi, bu hüququdan istifadə etmək üçün dövlət onlara zəruri olan şərait yaradır: üçüncü, ümumi orta təhsilin hamı üçün zəruri olduğunu gəncliyə başa salır; dördüncüsü, ümumi orta təhsil sahəsində öz hüquqlarından istifadə etməyin və ya istifadə etmək iqtidarında olmayan şagirdlərə zor işlətməyi, onları məcbür etməyi nəzərdə tutmur; beşincisi, təhsildə zor deyil, məcburiyyət deyil, könüllülük, demokratiya və humanizm hökm sürməlidir; şagirdin arzuları, onun psixoloji imkanları nəzərə alınmalı və istədiyi peşə arxasınca getməsinə kömək göstərilməlidir.

Qurultayda mələsə belə qoyula və ümumi üçün məqbul sayılan rəy formalaşdırıla bilər.

Müasir dövrdə təhsili hörmətdən salan hallardan biri də bəzi məktəblərdən şagirdlərin valideynlərindən pul toplanmasıdır. Valideynlərin əksəriyyətinin maddi vəziyyətinin ağır olduğu indiki şəraitdə zərurət oldu-olmadı onlardan pul toplamağın pedaqoji zərəri etiraf edilməlidir. Qurultay iştirakçıları razılaşsaydılar, valideynlərdən pul toplamaq halları pislənərdi.

Ərazimizin 20 faizinə qədərinin işğal altında olduğu, bir milyondan artıq soydaşlarımızın öz vətənində qaçqına çevrildiyi bir şəraitdə biz müəllimlər radikal müxalifət deyilən qüvvələrin hərəkətlərinə biganə qala bilmərik. Məndə belə bir əqidə yaranıb ki, Dağlıq Qarabağda əlaqədar itkilərimizin başlıca səbəblərindən biri daxili çəkişmə, müxtəlif qrupların mənəm-mənəmliyi, qarşıdurmaları, vəzifə hərisliyi olmuşdur. İndi həmin qruplar müxtəlif partiyalara çevrilərək yenə hakimiyyət uğrunda açıq-aşkar mübarizəyə girişir, hansı yolla olur-olsun respublikanı, xalqı, xüsusən də onun Prezidentini beynəlxalq aləmdə hörmətdən salmağa çalışırlar, 12 sentyabrda olduğu kimi. Düşmənlərimizə də elə bu cür daxili ixtişaşlar lazımdır: daxildə başımız çəkişmələrə

qarışsın, Dağlıq Qarabağ yarası unudulsun. Belə gedərsə yeni-yeni itkilərə məruz qala bilərik.

Azərbaycan Demokratik Cümhuriyyətinin süqutu səbəblərini unutmaq olmaz. O zaman daxili çəkişmələr, xəyanətkar qruplaşmalar, milli qarşıdurmalar xaricdən hərbi müdaxiləyə şərait yaratdı, Şaumyanlar, Mikoyanlar hakimiyyətə gəldi.

İndi eks-prezidentin biri və eks-spikerin biri ölkəmizin daxilində siyasi gərginliyi maksimum dərəcədə gərginləşdirməyə, respublikamızı xarici aləmdə hörmətdən salmağa can atırlar; digər eks-prezidenti Azərbaycana diş qıcıyan nəhəng bir dövlət ehtiyatda saxlayır, başqa bir eks-spiker ABŞ –da əyləşib ermənilərin dəyirmanına su tökməklə məşğuldur. 12 sentyabr təxribatları və polisin daşa basılması Azərbaycanda dövlətçiliyimizi sarsıtmağa, respublikanın demokratiyadan uzaq olduğunu zorla sübut etməyə yönəldilmişdir.

Mitinq keçirmək hüququnun pozulduğu barədə radikal müxalifətin söylədiyi fikirlər demaqogiyadan başqa bir işey deyil. Çünki, əvvəla, mitinq keçirmək üçün radikal müxalifətin hüquqları pozulmamışdır, motodrom məsləhət görülmüşdür. Dağıdıcı qüvvələr isə şəhərin mərkəzində qarışıqlıq yaratmağa can atırdılar. İkincisi, bir milyondan artıq soydaşımızın mənzil hüquqlarının, yaşamaq hüquqlarının, əmək hüquqlarının pozulduğu müsavatçıları, cəbhəçiləri maraqlandırmır. Üçüncüsü, özünü demokratiya carçısı adlandıran bəzi xarici ölkə siyasətbazlarına üzümü tutub deyirəm: nə üçün erməni təcavüzkarları tərəfindən bütün hüquqları pozulmuş bir milyon azərbaycanlı qaçqın barədə öz səsinizi ucaltmırsınız, susmağa üstünlük verirsiniz?

İstərdim ki, indiki təhlükəli durumu düzgün qiymətləndirərək qurultay iştirakçıları radikal müxalifətin xalqa zidd olan çirkin əməllərini qətiyyətlə pisləsin.

**(«Azərbaycan müəllimi» qəzeti, 24 sentyabr, 1998)**

## 35. MÜASİR İDEOLOJİ MÜBARİZƏ VƏ KOMMUNİST TƏRBİYƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Sosializmin dünya sisteminə çevrildiyi, beynəlxalq siyasi və ictimai hadisələrin gedişinə onun güclü və həllediyi təsir göstərdiyi indiki dövrdə marksizm-leninizm ideologiyası ilə burjua ideologiyası arasında mübarizə daha da kəskinləşmişdir. Marksizm-leninizmə, onun tərkib hissələrinə, ideologiyasına qarşı həm fəhlə hərəkatı daxilindən, həm də kənardan hücumlar edilir.

Mübarizəyə təkcə ABŞ, İngiltərə və ya Qərbi Almaniya burjua ideoloqları deyil, kommunist və fəhlə hərəkatında özünü marksist sosialist adlandıran bəzi «ideoloqlar»da qoşulmuşdur.

Hətta bir sıra «elm» sahələri, o cümlədən «sovetologiya», «marksologiya»və s. «logiyalar» meydana gəlmiş, sovet həyatını Sov. İKP-nın fəaliyyətini, marksizmi, Lenini və Leninizmi öyrənən tədqiqat müəssisələri, mərkəzlər, onların jurnalları yaradılmışdır. Məsələn, Qərbi Almaniyada «Marksizmin öyrənən komissiya» və marksizmin bu burjua tədqiqatlarının «nəticələrini» müntəzəm çap edən «Marxismus Studein» jurnalı da fəaliyyətə başlamışdır.

1969-cu ildə Nyu-Yorkda çapdan çıxmış «Antikommunizmin anatomiyası» adlı kitabda deyilir ki, ABŞ-da «antikommunizm həyat tərzinə çevrilmişdir». ABŞ-da nəhəng məlumat vasitələri olan kino, radio, televiziya, kitab, jurnal və qəzetlər səhərdən axşamacan adamların şüurunu kommunizm haqqında uydurmalarla zəhərləyirlər.

İki sistemin «konvergensiyası» (uyğunlaşması, yaxınlaşması) «deideologiyasıya» (ideologiyadan azad olmaq), «sosializmin yeni modeli», «İqtisadi inkişaf mərhələləri» və s. kimi «nəzəriyyələr» meydana çıxır.

Burjua ideoloqlarının kommunihmə qarşı mübarizə aparmaqla ürəkləri soyumur. Bununla yanaşı onlar kapitalizm quruluşunu «azad dünya», «ümumi əminamanlıq dövləti», «böyük cəmiyyət» kimi qeyri-müəyyən, ümumi, bəri-bəzəkli ibarələrlə tərifləyirlər.

Kommunizm əleyhinə bütün bu geniş miqyaslı ideoloji mübarizədə əsas hədəf Sovet İttifaqıdır, Sov. İKP-dır, onun ən qabaqcıl inqilabi nəzəriyyəsi olan marksizm-leninizmdir.

Antikommunizmin xüsusən bu son vaxtlarda daha da canlanmasını nə ilə izah etmək olar? Bunu, hər şeydən əvvəl, Sovet İttifaqının dünya miqyasında nüfuzunun sürətlə artması ilə, kommunizm ideyalarının xalqlar arasında. Zəhmətkeş kütlələr arasında getdikcə daha dərin kök salması ilə, kapitalizmin mövqelərinin isə getdikcə zəifləməsi ilə izah etmək lazımdır.

Belə bir tarixi-ictimai qanunauyğunluğu hiss edən imperialist dairələri müxtəlif yollardan, o cümlədən ideologiya sahəsində rəngarəng üsullardan istifadə edərək kommunizmi hörmətdən salmağa və kapitalizmin ömrünü mümkün qədər uzatmağa can atırlar.

Təbiidir ki, imperializmin ideolrgiya sahəsində bu xanfəşanlığına kommunistlər kənardan durub baxa bilməzlər, onların əl-qol açmasına, zəhmətkeşlərin şüurunu uydurmalarla zəhərləmələrinə yol verə bilməzlər.

İmperializmin ideoloji diversiyasına qarşı mübarizəni müvəffəqiyyətlə aparmaq üçün ideya düşmənlərimizi, onların ideya silahlarını da yaxşıca öyrənməliyik.

Antikommunizm ideologiyası bu günün məhsulu deyil. Hələ Böyük Oktyabr sosialist inqilabından əvvəl, kommunizm ideologiyası meydana çıxıb fəhlə sinfinin qabaqcıl nümayəndələrinin şüuruna hakim olan zamanlar burjua ideoloqları kommunizm ideoloqları qarşı çıxır, kommunistlərə böhtan ataraq «əxlaq normalarını tapdalamaqda», «arvadları ümumiləşdirməkdə» və s. də təqsirləndirirdilər.

Oktyabr inqilabından sonra Rusiyada Sovet hakimiyyətini, SSRİ-də sosializmi «tarixin təsadüfi eniş-yoxuşu», «qanundankənar» bir hadisə hesab edir, kaptalizmin isə əsil cəəmiyyət olduğunu iddia edirdilər; deyirdilər ki, guya SSRİ-də uşaqlara ad verilmir, onları nömrələyirlər.

Sovet hakimiyyətinin getdikcə möhkəmləndiyinə görə ABŞ hakim dairələri xüsusi tədqiqat mərkəzləri təşkil etməyə, SSRİ-nin təcrübəsini və kommunizm ideologiyasını təhrif olunmuş şəkildə təbliğ etməklə məşğul olmağa başladılar.

SSRİ-də sosializmin möhkəmləndiyini, kommunizm ideyalarının, leninizmin geniş yayıldığını görən burjua ideoloqları yeni ideoloji vasitələrə əl atmağa məcbur oldular. Onlar, məsələn, sübut etməyə çalışırdılar ki, SSRİ-də sosializm sırf rus hadisəsidir, guya leninizm qərb ölkələri üçün yararlı ola bilməz. Sosializm quruculuğunda təbii olaraq qarşıya çıxan çətinlikləri qabarıq vermək və şişirtmək, nailiyyətlərə isə göz yummaq, sosializmin zəhmətkeşlərin gözündə hörmətdən salmağa burjua ideologiyasında istifadə olunan priyomlardandır.

Bütün bunlarla bərabər burjua ideoloqları azadlıq hərəkatının özündəki hər cür təfriqəçilərdən sosializm əleyhinə istifadə etməyi də unutmamış və indi də unutmurlar.

İkinci dünya müharibəsindən sonra dünyada qüvvələr nisbəti sosializmin xeyrinə dəyişdi. Sovet dövləti daha da qüdrətləndi; bir sıra ölkələrdə sosializm inamla inkişaf etməyə başladı; müstəmləkə sisteminin dağılması daha da sürətləndi; yeni-yeni dövlətlər müstəqil inkişaf yoluna qədəm qoydu; kapitalist ölkələrinin zəhmətkeşləri arasında sosializmə, leninizm ideyalarına, Sovet hakimiyyətinə rəğbət daha da artdı. Bu cür tarixi-ictimai irəliləyiş imperialist hakim dairələrin məcbür etdi ki, öz antikommunizm strategiyasına yenidən baxsın, onu müasir şəraitə uyğunlaşdırsınlar. Görünür, onlar belə qərara gəliblər ki, sosializmə qarşı siyasi-iqtisadi təzyiqdən, təxribatçılıq və s.-dən əl çəkməyərək mübarizənin ağırlığını ideoloji sahəyə keçirsinlər. ABŞ-ın keçmiş prezidenti C.Kennedi 1960-cı ildə bildirmişdi ki, «Biz gərək indi dəmir pərdənin hər cür yarıqlarında yavaş-yavaş və ehtiyatla azadlıq toxumları səpək».

Son illərdə antikommunizm rəngarəng sifətlərə girir, müxtəlif ideya cərəyanları əmələ gəlir.

İki sistemin «konvergensiyası» nəzəriyyəsini götürək. Bu nəzəriyyəni ortaya atan burjua ideoloqları inandırmağa çalışırlar ki, kapitalizm və sosializm sistemi müasir şəraitdə bir-birinə uyğunlaşır, bir-birinə yaxınlaşır. Məsələn, harvard universitetinin professoru Adam Ulam buyurur ki, qərbdə sənayenin inkişafı guya sosializm ideyalarının «ümumi əminamanlıq dövləti» ideyası ilə qaynayıb-qarışır, guya buna görə də marksizm-leninizm həmin real ideyalardan kənarda qalır.

Bəziləri hətta «kommunizm» və «kapitalizm» məfhumlarının vaxtı keçdiyini iddia edirlər. Q.B.Xromoşinin «Darmadağın edilmiş miflər» adlı kitabında ABŞ-da antikommunist ideologiyanın nümayəndələrindən biri olan A.Şlezingerin belə bir fikri iqtibas gətirilir. A.Şlezinger yazır: «Mən təklif edərdim ki, «kapitalizm» və «sosializm» terminlərini danışıqdan çıxarıb ataq, çünki həmin sözlər indi heç bir konkret mənaya malik deyildir. Bu cür təklifdən məqsəd burjua və sosialist ideologiyalarının dinc yanaşı yaşaya biləcəyi üçün indi guya zəmin olduğunu sübut etməyə çalışmaqdan, burjua ideologiyasının sosialist ölkələrinə sirayət etməsi üçün yol açmağa çalışmaqdan ibarətdir.

Yaxud, «ideologiyadan azad olmaq» nəzəriyyəsinin mahiyyətinə diqqət yetirək. Bu nəzəriyyə də əslində marksizm-leninizm ideyalarına qarşı yönəlmişdir. Həmin nəzəriyyənin tərəfdarları belə bir uydurma fikir inkişaf etdirirlər ki, həm kapitalist, həm də sosialist cəmiyyətlərində guya ictimai həyat hökmən ideologiyadan azad olmalıdır. Guya ABŞ bu sahədə nümunə göstərir və SSR də ideologiyadan əl çəkməlidir, guya ideologiya sənayeli cəmiyyətin inkişafına mane olur. Belə çıxır ki, «ideologiyadan azad olmaq» nəzəriyyəsinin tərəfdarları ümumiyyətlə ideologiyanın əleyhinədirlər. Əslində isə onlar sosialist ölkələrini, azadlıq hərəkatını ideyaca tərksilah etməyə çalışırlar.

Dövlətlərin dinc yanaşı yaşamssı haqqında leninizm müddəası bəzən kapitalizmin xeyrinə izah olunur. İmperializm ideoloqları iki müxtəlif sistemin dinc yanaşı yaşamssı ideyasını təhrif edərək deyirlər ki, bu həm də siniflərin dinc yanaşı yaşaması, ideologiyanın dinc yanaşı, paralel mövcud olması deməkdir.

Halbuki bildiyimiz kimi Sov.İKP üçün sosialist və kapitalist dövlətlərinin dinc yanaşı yaşaması siyasəti beynəlxalq miqyasda sinfi mübarizənin müvafiq formada davam etməsidir.

Müxtəlif ictimai quruluşa malik olan dövlətlərin dinc yanaşı yaşaması siyasəti Sovet hökumətinə imkan verir ki, sosializm quruluşunun üstünlüklərini nümayiş etdirsin, bütün xalqlar arasında dostluğu, ölkələr arasında iqtisadi. Elmi-texniki və s. əlaqələri daha da möhkəmləndirsin. Dinc yanaşı yaşamaq prinsipi tələb edir ki, imperialist dövlətlər mübahisəli məsələləri müharibə vasitəsilə deyil onları dinc danışıqlarla həll etmək yolunu qəbul etsin, dövlətlər arasında hüquq bərabərliyi və suverenliyini gözləsin, başqa dövlətlərin daxili işlərinə qarışmasın.

İmperialist dövlətlər, birinci növbədə ABŞ dinc yanaşı yaşamaq siyasətindən boyun qaçırır. Onlar müxtəlif «sülh» vasitələrinə əl atır, xalqlar arasında millətçilik hisslərini qızışdırmağa çalışırlar; sosialist dövlətlərini bir-birinə qarşı qaldırmağa, sosialist qüvvələrini parçalamağa, ideyalarda pərakəndəlik əmələ gətirməyə cəhd edirlər.

Dinc yanaşı yaşamaq ideyasını sözdə qəbul edən bəzi kapitalizm carçıları burjua ideologiyası ilə sosializm ideologiyasını barışdırmağa, sosialist ölkələrinə ideoloji «körpü salmağa» çalışırlar. Onlar bu yolla sosialist ölkələrinin daxili işlərinə qarışmağa, orada «psixoloji müharibəni» kəskinləşdirməyə, milli əhval-ruhiyyəni genişləndirməyə can atırlar.

Sosializmin «modelləri» haqqında qaldırılan hay-küy də əslində sosializmə qarşı yönəldilmişdir. Çexoslavakiyada təftişçilərin əməlləri və ideyaları buna misal ola bilər. Onlar sosializmin ənənəvi modeli əleyhinə çıxaraq, sosializmin

«yeni modelini» təklif edirlər. Ənənəvi model dedikdə sosializm quruculuğundakı yalnız nöqsanlar nəzərdə tutulurdu. Sosializmin «yeni modeli» adı altında isə dövlətin və planlaşdırmanın təsirindən azad olan əmtəə münasibətlərinin tam inkişafı, demokratik mərkəziyyətdən uzaq olan «saf demokratiya» nəzərdə tutulurdu. Həyat göstərdi ki, «saf demokratiya» işdə yerli orqanların yuxarı orqanlara tabe olmaması, yəni anarxiyanın yaranması demək idi.

Sosializmin «modelləri» nəzəriyyəsini təkcə Çexoslavakiyada deyil, bəzi başqa ölkələrin kommunist partiyalarında da müdafiə edənlər var. Məsələn, Fransa kommunist R.Harodi «Sosializmin Fransa modeli uğrunda» adlı 1968-ci ildə və «Sosializmin böyük dönüşü» adlı 1969-cu ildə çap etdirdiyi kitablarında Lenin prinsiplərinin SSRİ-də pozulduğu hallarına dair faktları, həm də Sov.İKP Mk-nin pislədiyi faktları bir yerə yığıb bunları «sosializmin sovet modeli» adlandırmışdır.

R.Harodi son kitabda belə bir sağ təftişçilik fikri inkişaf etdirməyə çalışır ki, guya müasir elmi-texniki tərəqqi kapitalizm cəmiyyətinə xas olan hər cür ziddiyyətləri aradan qaldırır və kortəbii olaraq sosializmə gətirib çıxarır. Göründüyü kimi, R.Harodi sosialist inqilabı haqqında, sosializm quruculuğu haqqında marksizm-leninizm nəzəriyyəsindən, sosialist inqilabı ideyasından, proletar diktaturası ideyasından komumnist partiyasının rəhbər rolu ideyasından uzaqlaşır.

Məlum olduğu kimi. 1969-cu ilin oktyabrında Fransa Kommunist Partiyası MK-nin plenumunda Harodinin yanlış mövqeyi tənqid olunmuşdur.

Sosializmin müxtəlif modelinə dair antimerksist, antileninçi fikirlər «polimarksizm» ideyasını, marksizm müxtəlif cür izah etmək, marksizmdən bu və ya digər müddəanı götürmək və başqa müddəaları isə atmaq xəhdini meydana çıxarmışlar. Yuqoslaviya filosofu P.Vranitskinin cəhdi buna nümunə ola bilər. O, 1968-ci ildə filosofların Vyanada keçirilmiş XIV beynəlxalq konqresinə təqdim etdiyi məruzədə müxtəlif variantlı marksist fəlsəfə

yaratmağa çağırmışdır. Marksizm –leninizmin düşmənləri marksizmin elmi mahiyyətini hörmətdən salmaq üçün gah marksizmi qərb və şərq marksizminə ayırmağa, gah da marksizmi milli çərçivəyə salmağa, alman, rus. İtalyan, fransız və b. «milli marksizm»lərin olduğunu iddia etməyə çalışırlar.

Vahid kommunizm cəbhəsini iki yerə parçalamağa və onları bir-birinə qarşı qoymağa da cəd göstərilir. Bəzi burjua ideoloqları ümumiyyətlə kommunizm məfhumu işlətmirlər. Onların fikrincə «şərq kommunizmi» və «qərb kommunizmi» mövcuddur. Onlar «şərq kommunizminin sovet nümunəsi» əleyhinə olmaqla qərb kommunizmini müdafiə etməyə çağırırlar. Belə bir cəhd-cəhdin əsas siyasi mənası yenə də sosializm əleyhinə, leninizm əleyhinə mübarizədir.

Təftişçilərdən bəziləri leninizmi marksizmə qarşı qoymağa, bu yolda leninizmə zərbə vurmağa səy göstərirlər. Bu cür təftişçilərdən biri də əvvəllər AFR-də, sonralar isə ABŞ-da fəaliyyət göstərmiş olan Karl Korşdur. Korş «Marksizm və fəlsəfə», «Karl Marks», «Marksist dialektika» və s. adda çap etdirdiyi əsərlərində özünü əsil marksist adlandırır və göstərir ki, doqmatik olmayan marksizm uğrunda. Leninizmdən azad olan marksizm uğrunda mübarizə aparır.

Onu deyək ki, bu sahdə Karl Korş tək deyildir. Lenini və leninizmi «öyrənmək» leninizmə qarşı Veber, Fetçer, Heltsle, Ritter, Raux və başqaları da mübarizə aparmış və aparırlar.

Bu «mütəxəssislər» sübut etməyə çalışırlar ki, Lenin guya marksizmi «ruslaşdırıb», buna görə də guya leninizm yalnız Rusiyada mümkün olub, guya o, Avropa ölkələri üçün yararlı ola bilməz. Onların fikrincə Lenin marksizmi təftiş edib, guya K.Mark partiyanın vəzifəsini təbliğat və təşviqat işini təşkil etməkdə görüb, Lenin isə partiyaya inqilab vasitəsi kimi baxıbdır. Guya K.Marks düşünürmüş ki, proletariat öz-özünə «təkmilləşmə» yolu ilə «öz şüurunun» köməyi ilə özünü azad etməlidir. Lenin isə fəhlə sinfinə

kənardan sosialist şüuru gətirməklə məşğul olub və bununla da guya fəhlə sinfinin öz daxili imkanlarına inanmayıbdır. Guya Lenin görübdür ki, Rusiya fəhlə sinfinin kifayət qədər siyasi şüuru yoxdur və buna da yeni tipli partiya yaratmağı, partiyanın köməyi ilə fəhlə sinfini zorla sosialist inqilabına gətirməyi qət etmişdir. Lenin və leninizmi tənqid etmək üçün Karl Korş Almaniyada 1918-ci il noyabr inqilabının məğlub olması faktından da istifadə edir; guya Almaniya zəhmətkeş kütlələrində daxili inqilabi şüur olmadığından, onlarda siyasi şüur obyektiv şəraitdən geri qaldığından Almaniyda Noyabr inqilabı məğlub olmuşdur.

Karl Korşun fəlsəfəsinə görə ictimai şüur və ictimai varlıq «eyniyyət» təşkil etmədi və bu eyniyyət nəzəriyyə ilə təcrübənin «eyniyyətində» öz əksini tapmalıdır.

Maddi və mənəvi varlığı eyniləşdirmək cəhdi, nəzəriyyə ilə təcrübəni, fəhlə sinfinin kortəbii şüurunu onun ictimai mühiti ilə eyniləşdirmək cəhdi həyatda partiyanın rolunu heçə endirməyə, fəhlə sinfini inqilabi partiyadan məhrum etməyə gətirib çıxarır.

İnsan şəxsiyyətinin təşəkkülü, xarakterin formalaşması, ayrı-ayrı mənəvi keyfiyyətlərin yaranması səbəbləri haqqında burjuaziyanın mənafeyinə olan qeyri-elmi fikirlər təbliq edilir və bu cür fikirlər vasitəsilə imperialist təcavüzünə yol açmağa cəhd də göstərilir. ABŞ-da bəzi burjua ideoloqların fəaliyyəti buna misal ola bilər. Orada elə burjua siyasətçiləri, elə imperializm ideoloqları vardır ki, onlar müasir müharibələrin səbəbini ictimai-iqtisadi quruluşda deyil, imperializmin siyasətində deyil, ayrı-ayrı adamların təbiətində, onların tərbiyəsində axtarmağa çalışırlar. Məsələn, BMT-də ABŞ-ı təmsil edən Çarls Yost «Millətlərin təhlükəsizliyinin olması» adlı əsərində yazır ki, beynəlxalq sülh yolunda ən başlıca əngəl imperializm və ya millətçilik deyil, «sadəcə olaraq insan davranışıdır».

İngilis filosofları Tomas Hobbs, Herbert Spenser, Avstriya psixoloqu Ziqmund Freyd və başqalarının ardınca bəzi müasir burjua alimləri, o cümlədən Münxen universitetinin professoru Konrad Lorents 1966-ci ildə çap

etdirdiyi «təcavüz haqqında», Amerika dramaturqu Robert Ardri «Ərazi imperiativi» adlı kitablarında sübut etməyə çalışırlar ki, təcavüzkarlığın səbəbi insan təbiətindədir. Guya təcavüzkarlıq anadangəlmə əlamətdir. Onlar təbiətdən, xüsusən heyvanlar aləmindən, o cümlədən meymunların həyatından alınmış ayrı-ayrı faktlara əsaslanıb deyirlər ki, insanlardakı təcavüzkarlıq heyvanlardan – meymunlardan keçmə bir xüsusiyyətdir.

Bu, Vyetnamda, Kambocada ABŞ təcavüzünün, yaxın şərqdə İzrail təcavüzünün olduğu indiki şəraitdə imperializm təcavüzünə ideologiyada yalnız bəraət qazandırmaq cəhdi kimi qiymətləndirilə bilər. Doğrudan da, əgər müharibələrə, təcavüzə səbəb insan təbiəti, orqanizmdəki genlərdirsə, onda təcavüzkarlara etiraz etməyə, onlara qarşı mübarizə aparmağa dəyməz, təcavüzü imperializmin ictimai əlaməti hesab etməyə dəyməz.

İctimai hadisələrin sinfi köklərini ört-basdır etmək cəhdləri və zəhmətkeşlərin şüurunda burjua ideologiyası üçün sığınacaq yeri hazırlamağa xidmət edir. Belə bir səy sionizm ideologiyasında daha qabarıq ifadə olunur.

Qabaqlar olduğu kimi, müasir şəraitdə də sionizm özünü qeyri-sinfi mahiyyət daşıyan ideologiya adlandırır. Əslində isə siolizm yəhudi burjuaziyasının ideologiyasıdır. Müasir sionizmin sinfi kökləri beynəlxalq kapitalla qaynayıb – qarışan yəhudi mənşəli monopoliya burjuaziyasına gedib çıxır. Sionizmin ideya əsasını millətçilik və novinizm, başqa xalqlara nifrət, başqa xalqların ərazisinə göz tikmək, özlərini əlahiddə millət kimi qələmə vermək təşkil edir.

Vaxtilə Hitler faşizmi də almanları əlahiddə millət, ilahi millət hesab edirdi. Faşistlər və müasir sionistlər kimi ABŞ imperialist burjuaziyasının ideoloqları da Amerika xalqını əlahiddə xalq, ilahi xalq adlandırırlar. ABŞ-da geniş təbliğat vasitələrindən istifadə edərək hər amerikalının şüuruna belə bir fikir aşılamaq istəyirlər ki, Amerika xalqı «ən qüdrətli, ən səxavətli, ən sülhsevər xalqdır». Amerika xalqının vəzifəsi guya bəşəriyyəti kommunizm köləliyindən xilas etməkdən ibarət olmalıdır.

Antikommunizm ideoloqlarından bir qrupu müasir elmi-texniki inqilabdan öz məqsədləri üçün istifadə etməyə çalışır. Məsələn, R.Aron, D.Bell, P.Sorokin, Q.Markuze peyğəmbərlik edərək deyirlər ki, guya müasir elmi-texniki inqilab ideologiyanı aradan qaldıracaq, guya sosialist ideologiyası və burjua ideologiyası tədriclə birləşəcəkdir, guya indi fəhlə sinfində daha inqilabi əzm yoxdur, guya onlar burjualaşır, guya inqilabi prosesdə rəhbər rol geridə qalmış ölkələrdəki əhalinin «üsyankar təbəqələrinə» mütəşəkkil əməkdən kənarda qalmış fəhlə qruplarına, «imtiyaza malik olmayan zəhmətkeşlərə», tələblərə və s. keçmişdir.

Halbuki, V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə Sov.İKP MK-nin Tezislərində ümumiləşdirilərək deyildiyi kimi inkişaf etmiş kapitalist ölkələrində əsas inqilabi qüvvə imperializmə qarşı mübarizə aparan fəhlə sinfidir.

İdeya düşmənləri çox, yaxşı bilirlər ki, marksizm-leninizm ideologiyasının metodoloji əsasları, onun fəlsəfəsi dialektik və tarixi materializmdir. Bunu nəzərə alan burjua ideoloqları və bir çox təftişçilər dialektik və tarixi materiallizmin bir sıra başlıca müddəalarına da hücum edirlər. Bu cür müddəalardan biri marksizm-leninizm fəlsəfəsinin beynəlmiləl xarakterə, onun beynəlxalq əhəmiyyətə malik olmasıdır. Antikommunizm cəbhəsinin bəzi ideoloqları iddia edirlər ki, marksizm və eləcə də leninizm fəlsəfəsi bütün ölkələr üçün, hamı üçün yararlı ola bilməz, hər bir ölkədə marksizm-leninizm əsaslanmaq, guya onu ehkama, doqmatizmə çevirmək demək olardı. Buna görə də onlar marksizm-leninizmin konkret şəraitdə yaradıcı tətbiqi əvəzinə yeniləşdirilmiş marksizm fəlsəfəsi yaratmağı təklif edirlər. Onlar marksizm-leninizm fəlsəfəsinin aşağıdakı müddəalarını «doğma», «partiya məhdudluğu», «yaradıcı fikir yoluna əngəl» və s. adlandırmaqla bu müddəaların beynəlxalq xarakter daşıdığını şübhə altına alırlar; sosializm və kapitalizm sistemləri arasında kəskin mübarizə; sosializm qüvvələrinin

və onun beynəlxalq təsirinin getdikcə artması; xalq kütlələrinin inqilabi fəallığının güclənməsi və dünya miqyasında victimai dəyişikliklərdə fəhlə sinfinin rəhbər rolunun güclənməsi; burjua və sosialist ideologiyaları arasında barışmaz mübarizə; ictimai hadisələrə marksizm-leninizm dünyagörüşü mövqeyindən sinfi münasibət; kapitalizmin darmadağın edilməsində və sosializmin qurulmasında başda kommunist partiyası olmaqla fəhlə sinfinin ümumdünya missiyasını qəbul etmək; elmi nəzəriyyə ilə inqilabi təcrübənin birliyi.

Marksizmi leninizmə qarşı qoymaqdan leninizmin imperializm və proletar inqilabları dövrünün marksizmi hesab etməkdən, leninizmi milli hadisə adlandırmaqdan, leninizmin beynəlmiləl xarakterini inkar etməkdən əsas məqsəd marksizm-leninizmin həmin müddəalarını inkar etmək, zəhmətkeş kütlələrə marksizm-leninizm nəzəriyyəsindən məhrum etməkdən ibarətdir.

Bəzi ideya düşmənləri materialist dialektikanı «tənqid» etməyə səy göstərirlər. Q.Markuze «Sovet marksizmi» adlı kitabında belə bir fikir uydurur ki, guya sovet marksistləri obyektiv dialektikaya laqeyddirlər, guya dialektikanın əsasını «hərəkətçiz əksliklərdə» görürlər. Halbuki, məhz V.İ.Lenin öyrədir ki, «Marksizmin bütün ruhu, onun bütün sistemi tələb edir ki, hər bir müddəa a) yalnız tarixən, b) yalnız başqaları ilə əlaqədar olaraq, c) tarixin konkret təcrübəsi ilə əlaqədar olaraq təhlil edilsin».

Kommunist və fəhlə partiyalarının beynəlxalq müşavirəsinin yekun sənədində materialist dialektikaya əsaslanaraq qeyd edilir ki, müasir şəraitdə nəinki yalnız əvvəlki ziddiyyətlər daha da kəskinləşir, hətta yeni ziddiyyətlər də meydana gəlir: istehsal qüvvələrinin inkişafı üçün elmi-texniki inqilabın yaratdığı böyük imkanlarla bu yolda müasir imperializmin törətdiyi maniələr arasındakı ziddiyyət; müasir istehsalın ictimai xarakteri ilə onun dövlət monopoliya xarakterli mənzimi arasında ziddiyyət və s.

Qeyri-marksist olan müasir fəlsəfi sistemlərə dialektik və tarixi materializmin münasibəti problemi ətrafında da ciddi

mübahisələr gedir. Bəziləri fəlsəfədə marksizm-leninizm partiyalılığını vaxtı keçmiş prinsip hesab etmək istəyir və müasir qeyri-marksist fəlsəfələrdə «faydalı» əlamətləri marksizm-leninizmə daxil etməyin, onunla qovuşmağın lüzumunjan dəm vururlar; hətta buna müasir elmi-texniki tərəqqi ilə bəraət qazandırmağa da çalışırlar. Məsələn, avstriyalı publisist E.Fişer «Sənət və yanaşı yaşayış», «Həqiqətdə Marks nə deməkdir» adlı kitablarında mədəniyyət və incəsənət sahəsində, humanitar elmlər sahəsində ideoloji mübarizə prinsiplərindən əl çəkməyə çağırır. Guya partiyalılıq mədəni əməkdaşlığı məhdudlaşdırır, fikir azadlığına və yaradıcılığa əngəl olur. bununla da E.Fişer kimiləri marksizm-leninizm dünyagörüşü ilə burjua dünyagörüşünü barışdırmağa, tədriclə birincini ikinci ilə əvəz etməyə can atırlar.

Sovet həyatını, onun dünyagörüşünü, ideoloji əsasını birtərəfli, özü də təhrif olunmuş şəkildə təsvir etmək ABŞ ideoloqlarının istifadə etdiyi başlıca prifomlardan biridir. Məsələn, Ayova universitetinin professoru Ceyms Markxem 1967-ci ildə çap etdirdiyi «Qırmızı nəhənglərin səsi» Rusiyada və «Çində kütləvi məlumat vasitələri» adlı kitabında Lenini deyil, Trotskini Oktyabr silahlı üsyanının rəhbəri kimi qələmə verir. Yaxud o, 1955-ci il oktyabrın 22-də «Литературная газета»nın səhifələrində «Oçerk yazanlar üçün məsləhət» adlı məqaləyə müraciət edib öz kitabında belə bir yanlış nəticə çıxarır ki, guya Sovet İttifaqında işçilər mexaniki şəkildə, yuxarıdan verilən məsləhətlər üzrə işləyirlər, buna görə də guya ədəbi yaradıcılıq məhdudlaşdırılır. Məqalənin isə felyeton olduğunu ceyms Markxem sadəcə olaraq «unudur».

Özünü müasir marksist kimi qələmə verən, həqiqətdə isə antikomunizm cəbhəsində duran bəzi burjua ideoloqları, o cümlədən fransız burjua filosofu Denide Rukeman «Şəxsiyyətin siyasəti» adlı kitabında yazır ki, marksizm-leninizm əsil şəxsiyyət problemi ilə məşğul olmamışdır. Halbuki, məhz dialektik və tarixi materializm tarixdə ilk dəfə olaraq şəxsiyyət problemini elmi əsaslara keçirmiş və

insanın fəal ictimai qüvvə olduğunu, fəhlə sinfinin isə ictimai həyata inqilabi-dəyişdirici münasibətini hərtərəfli təhlil etmişdir. Məhz marksizm-leninizm sübut etmişdir ki, şəxsiyyətin hərtərəfli inkişafı və şəxsiyyətin əsil azadlığı yalnız insanın insan tərəfindən istismarının aradan qaldırıldığı bir şəraitdə-sosializm cəmiyyətində mümkün ola bilər.

Marksizm-leninizm fəlsəfəsinin mövzusunu məhdudlaşdıomaq halları da vardır. İdeya düşmənlərindən bəziləri dialektik və tarixi materializmə təfəkkür haqqında, idrak prosesi haqqında, təfəkkürün məntiqi haqqında elm kimi baxırlar.

Bununla da onlar marksizm-leninizm fəlsəfəsinin dünyagörüş cəhətini, onun ideoloji cəhətini, tənqidi inqilabi ruhunu «unudurlar». Unudurlar ki, bizim fəlsəfə obyektiv varlığın ümumi inkişaf qanunauyğunluqlarını aşkara çıxarmaq əsasında köklü ictimai dəyişikliklər edilməsinin yollarını elmi şəkildə müəyyənləşdirir.

Burjua ideoloqları marksizm-leninizm fəlsəfəsinin tərkib hissələrindən olan fəhlə sinfinin elmi ideologiyasını, dünyanın insan tərəfindən inqilabi yolla dəyişdirilməsini əsaslandıran, kommunizm quruculuğunu əsaslandıran ideologiyanı təbiətin, cəmiyyətin və təfəkkürün ümumi inkişaf qanunauyğunluqlarından, aləmin dialektik materialistcəsinə dərk olunması və dəyişdirilməsi metodundan təcrid etməklə kommunizmə nəzəri ziyan vurmağı və burjuaziya ideologiyasına xidmət etməyə çalışırlar.

Marksizm-leninizm əleyhinə, onun fəlsəfəsi əleyhinə təftişçilərin apardığı ideoloji mübarizənin müəyyən qnoseoloji kökləri vardır. Bunu «sosializmin müxtəlif modeli» və «polimarksizm» nəzəriyyələrinin nümunəsində daha aydın görmək olur, həm birinci, həm də ikinci nəzəriyyə üçün xarakterik cəhət ümumini konrketə qarşı qoymaqdan, ümumi ilə konkret arasındakı vəhdəti nəzərə almaqdan, konkretdə ümuminin olduğunu görməməkdən və ya görmək istəməməkdən ibarətdir. Bunu Çexoslavakiya hadisələri bir daha sübut etdi. Çexoslavakiyada təftişçilərin və antisosialist

qüvvələrin bəzi ideoloqları, məlum olduğu kimi, sosializmin «ideal» modelini, «insan simalı sosialixmin», «demokratik», «humanist» sosializmin modelini uydururdular. Bununla da SSRİ-də və digər sosialist ölkələrində sosializmin mövcudluğuna, sosializmin üstünlüklərinə göz yumur, sosializm qürücüğündakı çətinlikləri və hələ həll olunmamış problemləri isə ön sıraya çəkirdilər. Onlar sosializmin ümumi qanunauyğunluqlarını ayrı-ayrı ölkələrdəki sosializmin inkişaf qanunauyğunluqları ilə vəhdətdə götürmək əvəzinə, xüsusilə ümumi axtarmaq əvəzinə, xüsusidə ümuminin təzahürünün spesifik cəhətlərinin öyrənmək əvəzinə, bir tərəfdən xüsusini ümumidə qapşı qoyur, ondan ayırır, təcrid edirlər, digər tərəfdən də uydurduqları ümumi sosializmin «yeni» modelini, yəni «demokratik», «humanist» sosializmi xüsusiyə, ayrı-ayrı ölkələrdəki konkret sosializmə qarşı qoymağa səy göstərirlər. Məlumdur ki, indi xalqlar sosializmə eyni iqtisadi, siyasi, mədəni inkişaf səviyyəsinjən keçib gəlmirlər; onlar həm ölkə daxilində, həm də onun xaricində qüvvələrrin müxtəlif nisbəti şəraitində sosializmə qədəm qoyurlar. Belə bir obyektiv qanunauyğunluğu nəzərə alaraq kommunist və fəhlə partiyalarının beynəlxalq müşavirəsinin yekun sənədlərində göstərilir ki, kommunist və fəhlə partiyaları son dərəcə müxtəlif, özünəməxsus şəraitdə fəaliyyət göstərirlər; konkret vəzifələrin həlli bu müxtəlif və özünəməxsus şəraitə uyğun hərəkət etməyi tələb edir. Hər bir partiya marksizm-leninizm prinsiplərini əldə rəhbər tutaraq və konkret milli şəraiti nəzərə alaraq öz siyasətini tam müstəqil həll edir, mübarizə istiqamətini, forma və üsullarını müəyyənləşdirir, şəraitə uyğun olaraq sosializmə keçməyin dinc və ya qeyri-dinc yolunu, həm də öz ölkəsində sosializm quruculuğunun forma və üsullarını seçir.

Göründüyü kimi, müasir ictimai hadisələrin, o cümlədən sosialist ölkələrin də quruculuq işlərinin düzgün başa düşülməsi, izahı və istiqamətləndirilməsində Lenin idrak nəzəriyyəsinə əsaslanmağın böyük əməli əhəmiyyəti vardır.

Beynəlxalq miqyasda ideoloji mübarizənin kəskinləşdiyi, antikommunizm və antisovetizm ideologiyasının, təftişçilik

ideologiyasının müxtəlif sifətə düşdüyü, rəngarəng vasitələrə əl atmağa çalışdığı müasir şəraitdə kommunist tərbiyəsinin qarşısına bir sıra ciddi vəzifələr qoyulur.

Burjua və təftişçilik ideoloqlarının uydurmalarına, böhtanlarına və s. vasitələrinə qarşı fəal mübarizəyə hazır olmaq tələb edilir. Yeganə inqilabi nəzəriyyə, hərəkət üçün rəhbər nəzəriyyə olan marksizm-leninizm nəzəriyyəsini dərindən öyrənmək üçün mahiyyətinə nüfuz etmək lazımdır. Hər bir şəxs marksizm-leninizmin əsaslarına dair öz biliklərini gərək günü-gündən zənginləşdirsin.

Ali məktəblərdə keçilən bir sıra kurslar, o cümlədən fəlsəfə, siyasi iqtisadi, hüquq, elmi kommunizm, pedaqogika və s. kurslar burjua və təftişçilik ideologiyalarına qarşı mübarizə aparmaq üçün geniş imkanlar verir. məsələn, fəlsəfə məşğələlərində ümumi ilə xüsusinin vəhdəti haqqında danışarkən xüsusini ümumiyə qarşı qoymağın, ondan ayırmağın, xüsusidə ümuinin spesifik təzahürünü axtarmağın hansı siyasi nəticələrə gətirib çıxartdığını izah etməyə imkan verir. gənclər V.İ.Leninin idrak nəzəriyyəsi əsasında başa düşə bilərlər ki, indi xalqlar sosializmə eyni iqtisadi, siyasi, mədəni inkişaf səviyyəsinjən keçib gəlmirlər; onlar həm ölkə daxilində, həm də onun xaricində qüvvələrin müxtəlif nisbəti şəraitində sosializmə qədəm qoyurlar. Belə bir obyektiv qanunauyğunluğu nəzərə alaraq kommunist və fəhlə partiyalarının beynəlxalq müşavirəsinin yekun sənədlərində göstərilir ki, kommunist və fəhlə partiyaları son dərəcə müxtəlif, özünə məxsus şəraitdə fəaliyyət göstərirlər konkret vəzifələrin həlli bu müxtəlif və özünəməxsus şəraitə uyğun hərəkt etməyi tələb edir. Hər bir partiya marksizm-leninizm prinsiplərini əldə rəhbər tutaraq konkret milli şəraiti nəzərə alaraq öz siyasətini tam müstəqil həll edir, mübarizə istiqamətini, forma və üsullarını müəyyənləşdirir, şəraitə uyğun olaraq sosializmə keçməyin dinc və ya qeyri-dinc yolunu, həm də öz ölkəsində sosializm quruculuğunun forma və üsullarını müəyyənləşdirir, şəraitə uyğun olaraq sosializmə keçməyin dinc və ya qeyri-dinc yolunu, həm də öz ölkəsində sosializm quruculuğunun forma və üsullarını seçir.

Marksizm-leninizm fəlsəfəsinin mövzusu, onun tərkib hissələri haqqında, şüur və maddi varlığın qarşılıqlı münasibəti haqqında danışarkən burjua və təftişçilik ideologiyalarını ifşa etməyə imkan vardır.

Bu cəhətdən hüquq kursunun imkanları da genişdir. Məsələn, demokratiyadan söhbət açarkən Çexoslavakiyada təftişçilərin və antisosialist qüvvələrin uydurduqları sosializmin «ideal» modelinin, «demokratik» sosializmin işdə anarxiyaya gətirib çıxartdığını tələblərə əyani şəkildə başa salmaq olar.

Yaxud, pedaqogika kursunun imkanlaırna nəzər salaq. İnsan şəxsiyyətinin təşəkkülündə irsiyyətin, tərbiyənin və mühitin rolu ətrafında söhbət açarkən bir sıra müasir burjua ideoloqlarının verərli fikirlərinin siyasi mahiyyətini tələbələr qarşısında açmaq lazımdır. Tələbələrin xəbdəri olmalıdır ki, imperializmin bəzi ideoloqları müasir müharibələrin səbəbini ictimai-iqtisadi quruluşda deyil, imperializmin siyasətində deyil, ayrı-ayrı adamların təbiətində, onların tərbiyəsində axtarmağa çalışırlar. BMT-də ABŞ-ı təmsil edən Çarls Yolstun, Münxen universitetinin professoru Konrad Lorentsin fikirləri buna nümunə ola bilər. Onlar sübut etməyə çalışırlar ki, təcavüzkarlığın səbəbi insan təbiətindədir; guya təcavüzkarlıq anadan gəlmə əlamətdir. Bu cür fikirlər, əlbəttə, Hind-Çin yarımadasında ABŞ və Yaxın Şərqdə İsrail təcavüzünə ideologiyada bəraət qazandırmaq təşəbbüsü kimi qiymətləndirilməlidir.

Marksizm-leninizm ayrı-ayrı müddəaları, xüsusən onu metodologiyası, fəlsəfəsi, Lenin idrak nəzəriyyəsi, kommunizm ideyalara zəhmətkeş kütlələr arasında daha geniş təbliğ edilməlidir. Çünki imperializm ideoloqlarının, onlarla həmahəng olan təftişçilərin yaymaq istədikləri hər cür ideya marksizm-leninizmin sınaqlardan çıxmış nəzəriyyəsi qarşısınja acizdir.

Biz gərək gənc nəslin kommunizm ideologiyasının, marksizm-leninizm dünyagörüşünün formalaşması üçün xüsusi qayğı göstərək. Bu cəhətdən valideynlərin də üzərinə müəyyən vəzifələr düşür. Axı xarici burjua radio

stansiyalarının verilişlərinə qulaq asan gənclərimiz yox deyildir. Elmi dünyagörüşü zəif olan, kommunizm ideyaları ilə lazımınca silahlanmamış gənclər burjua təbliğatının təsirinə tez düşə bilər. Valideynlərimiz evdə uşaqlarla nəinki siyasi, iqtisadi, ədəbi, mədəni və s. mövzularda, habelə ideoloji mövzularda da söhbət aparmağa hazır olmalıdır.

Ölkəmizdə kommunizm quruculuğu müvəffəqiyyətlə gedir. Quruculuq işlərində yol verilən nöqsanlara qarşı mübarizə bu son vaxtlarda daha təsirli, daha səmərəli aparılır. Buna baxmayaraq, tək-tək elə adamlara təsadüf etmək olur ki, onlar ayrı-ayrı müəssisə və idarə rəhbərlərinin işində başısoyuqluq, laqeydlik, qayğısızlıq və digər nöqsanlara qarşı fəal mübarizə əvəzinə, ağız büzür, deyinərək əsassız ümumiləşdirmələr edir, dedi-qodu ilə məşğul olurlar.

Bu cür faktları nəzərə alaraq çalışmaq lazımdır ki, hər bir idarə, hər bir müəssisə adamlarımızda hüquq mədəniyyəti, əməyə şüurlu münasibət, yüksək sovet vətənpərvərliyi, sosialist mədəniyyəti tərbiyə etsin. Onlar sovet hüquq normalarını bilməyə və bu normalara hər yerdə şüurlu və dönmədən riayət etməyə vətənpərvərlik əlaməti kimi baxırlar. Nəticədə hüquq mədəniyyəti sosialist mədəniyyətinin tərkib hissəminə çevrilir. Hüquq mədəniyyəti adamlarımız ümumi mədəniyyətinin daha mənalı, daha məzmunlu olmasına kömək edir.

Məlumdur ki, indi bir sıra ölkələrdə modernizm cərəyanı yayılmaqdadır. İncəsənətdə modernizm sosialist realizminə qarşı çevrilmişdir. Unutmaq olmaz ki, real həyatdan uzaqlaşmaq, həyatın inkişafına kömək etməkdən çəkinmək, həyatın ziddiyyətli cəhətlərində üz döndərmək, kütləvi təcrübə ilə qaynayıb-qarışmamaq, xalqın rəğbətini qazanmış ənənələrlə hesablaşmamaq, müasirlik adı altında hay-küy salmaq modernizmin, mücərrəd sənətin başlıca xüsusiyyətləridir.

Bəla burasındadır ki, mücərrəd sənəd böyük tərbiyə ocağı olan məktəbə də bəzən yol açır. Məktəbə yenicə ayaq basmış I sinif şagirdləri elə ilk gündən mıcərrəd təsviri incəsənətin «məhsuluna» baxmalı olurlar. Birinci sinif üçün yenicə çapdan çıxmış «Ana dili» və «Rus dili»

dərsliklərindəki şəkillərin xeyli hissəsi təbiət və cəmiyyət hadisələrinin kiçik yaşlı şagirdlər tərəfindən dərk olunmasına, təlim və tərbiyənin qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə lazımınca kömək etmir. Çünki həmin şəkillər qeyri-realdır.

Belə şəkillər real həyatdan uzaq olduğundan, mücərrəd xarakter daşıdığından şagirdlərin danışıq nitqlərini inkişaf etdirməyə, estetik zövqlərini formalaşdırmağa, həyatı hüurlu dərk etməyə lazımınca kömək edə bilməz.

Təlimin məzmunu müasir elmin tələblərinə cavab verməlidir. Dərsliklərin şəkilləri isə, hər şeydən əvvəl, sosialist realizminin tələblərinə uyğun surətdə tərtib olunmalıdır.

Bütün tərbiyə ocaqları, orada istifadə olunan hər bir dərslik, keçirilən hər bir tədbir şagirdlərdə elmi dünyagörüşün marksizm-leninizm ideyalarının, kommunizm əqidəsinin formalaşmasına xidmət etməlidir.

Hər bir tərbiyəçi, hər bir idarə, müəssisə, fabrik, və zavod başçısı, partiya, komsomol və həmkarlar ittifaqları rəhbərləri beynəlxalq miqyasda gedən mübarizədən halı olmalı və tərbiyə işlərində bunu nəzərə almalıdırlar.

**(Azərbaycan SSR «Bilik» cəmiyyəti.**
**«Elm» nəşriyyatı, Bakı-1971)**

## 36. СОКРАЩЕННЫЙ ТЕКСТ ДОКЛАДА Н.КЯЗЫМОВА НА ТЕМУ: «О НЕКОТОРЫХ ПУТЯХ ПОВЫШЕНИЯ КАЧЕСТВА УЧЕБНО-ВОСПИТАТЕЛЬНОЙ РАБОТЫ В СВЕТЕ ПОСТАНОВЛЕНИЯ ЦК КПСС И СОВЕТА МИНИСТРОВ СССР О МЕРАХ ДАЛЬНЕЙШЕГО УЛУЧШЕНИЯ РАБОТЫ СРЕДНЕЙ ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЫ»

Ноябрьское (1966 г.) Постановление ЦК КПСС и Совета Министров СССР «О мерах дальнейшего улучшения работы средних общеобразовательных школ» создает благоприятные условия и. открывает широкие перспективы для дальнейшего развития всей системы

просвещения и педагогической науки. Какие конкретно задачи ставят Партия и Правительство перед школой?

Необходимо, в первую очередь, чтобы нынешний уровень преподавания и воспитания в общеобразовательных школах отвечал современным требованиям жизни. Но нельзя забывать другое: к 1970 году предстоит осуществить переход на всеобщее среднее образование. Поэтому нужно продумать и заново осмыслить богатый опыт учительства, достижения просвещения, педагогической науки. Нужно также разобраться в имеющихся просчетах и недостатках. Совершенствование методики преподавания в данный момент приобретает особую остроту и злободневность.

Как создать стабильность в работе школ? Ученые и практики предлагают много путей, начального образования в три года, организация факультативных занятий для учащихся VII-VШ классов- эти и многие другие сложные вопросы и проблемы сегодня стоят в повестке дня, требуют пристального изучения и скорейшей реализации.

Накопленный опыт передовых учителей и школ, многогранная педагогическая наука помогают увидеть будущее обще образовательной школы. Мы знаем, какими путями они будет развиваться. Но будет ошибкой, если мы станем довольствоваться достигнутыми успехами и не будем сообща искать новые пути преодоления имеющихся недостатков, Новым смыслом и содержанием наполняется жизнь и труд учителя, которому предстоит идти в авангарде большого всенародного движения за расцвет советского просвещения.

Речь идет не только о переоценке ценностей, взглядов и методов обучения. В богатом опыте мы ищем лучшие средства воспитания и обучения, думаем о гибкой и многогранной методике преподавания, о новых формах организации уроков, критически осмысливаем то, что

отжило себя или же не удовлетворяет нынешним требованиям.

Организация урока - это большая и сложная проблема не ломая привычную структуру урока, нужно все же критически отнестись к изжившим себя традициям, за которые все еще кое-кто цепко держится.

Каким должен быть современный урод? Есть много путей совершенствования урока. К ним и должно быть приковано внимание учительства, ученых, исследователей.

Практика показывает, что не все преподаватели одинаково заинтересованы в устойчивости урока, заботятся о полной посещаемости учащихся. Иногда учитель, отметив в журнале отсутствующих, снимает с себя ответственность за неявку отдельных учащихся. А как усвоили они урок? Наверстали ли упущенное? К сожалению, не всегда н не везде учитель интересуется этими вопросами, не всегда изыскивает меры педагогического воздействия. Больше того, по существующей традиции пустившее глубокие корни в некоторых школах, ученик, не посетив урок, считает, что он может и не знать накануне пройденного материала.

Между тем кровное дело учителя -создать в классе такую обстановку, чтобы ученик держал ответ за каждый пропущенный урок, чтобы наверстал упущенное, осмыслил и знал бы пройденный материал. В противном случае многие учащиеся, как это нередко случается, постепенно отстают, теряя интерес к учебе. Для создания устойчивости посещения учащимися уроков есть много путей. Нельзя предложить единый рецепт на. все случаи жизни, но нужно помнить о первейшей заботе учителя - обеспечить усвоение программного материала каждым учеником.

Оценка знаний— это оценка труда учащихся. Но бывает и так, что оценка, выставленная в журнале учителем, не всегда мотивируется. Почему ученик заслужил именно

четверку, а не пятерку? Ведь сам факт выставления оценки имеет воспитательное значение.

В одной школе мы наблюдали уроки 25 преподавателей. Как они выставляют оценки? 9 учителей опрашивали многих учащихся, но работу не оценили. 6 учителей выставили ученикам оценки, но не сообщили об этом классу. Остальные десять учителей объявили выставленные оценки. Только один преподаватель мотивировал оценку.

Оценка должна быть мотивирована так, чтобы слышал весь класс, что бы самый факт ее выставления приковывал к себе внимание учащихся, мобилизовал всех и убедил их –в объективности данной оценки.

Индивидуальный и фронтальный опроси иные учителя используют во всех классах и на всех этапах урока. Как показывает практика, при повторении пройденного материалы время, затраченное на индивидуальный опрос, больше времени, ушедшего на Фронтальный опрос. Обратимся к опыту двух школ.

Из 22 преподавателя одной школы в среднем при повторении на каждом уроке из двадцати минут, восемь используют на фронтальный опрос, двенадцать на индивидуальный. А в другой школе 29 преподавателей в среднем на каждом уроке на повторение из 27 минут 17 тратят на индивидуальный опрос, а 10-на фронтальный.

Большая часть, учителей повторение пройденного материала осуществляют, главным образом, с помощью индивидуального опроса. Порой учитель опрашивает каждого ученика по 4-5 минута то есть 2-3 учащихся за урок, а подавляющее большинство учащихся остается ^привлеченным к опросу, к работе над материалом, а это со временем приводит к пассивности учащихся и, следовательно, к малой продуктивности урока.

То же. самое можно сказать и о закреплении изучаемого материала на уроке, ибо эта задача осуществляется отдельными учителями при помощи индивидуального и

фронтального опросов. Этот вопрос мы может проследить на примере тех же школ. В первой школе, например, на закрепление пройденной темы каждый из 14 учителей затратил по десять минут, по, второй шкоде из 12 учителей- по 8 минут.

И в той, и в другой школе при закреплении материала преподаватели использовали и индивидуальный, и фронтальный опросы. В среднем в каждом классе на это дело было затрачено по пять минут.

Исходя из сказанного, мы можем сделать некоторые выводы, а именно: во-первых, в первую очередь необходимо установить, какой из видов опроса, фронтальный или индивидуальный целесобразно использовать при закреплении новой темы (или при повторении); во- вторых, целесообразно заранее определять время как индивидуального, так и фронтального опросов, исходя, конечно, из необходимости использования того мирного метода опроса, с учетом важности его; в-третьих, при индивидуальном опросе необходимо активизировать весь класс.

Необходимо критически отнестись к соотношению времени, отводимому на повторение пройденного материала и времени уделяемого на изучение нового. Установлено, что учителя большое внимание уделяют преимущественно повторению пройденного. С такими фактами можно встретиться во всех звеньях нашей школы.

К чему приводит нерациональное использование времени на уроке?

Проведенные во многих школах наблюдения показали, что в среднем на повторение пройденного материала выделяется 24 минуты и на, закреплении новых знаний -6 минут, а на изучение новой темы- 12минут.

Этот факт свидетельствует, конечно, о том что учителя полагаются на эффективность повторения, оставляют в тени обеспечение сознательности учащихся в усвоении нового учебного материала.

Сама жизнь выдвигает необходимость пересмотра традиционной организации урока. Критический подход к организации урока необходим и потому, что один и тот же материал несколько раз оказывается в центре внимания класса: 1) тогда, когда учитель объясняет новую тему; 2) при закреплении этой новой темы; 3) при выполнении домашнего задания; 4) при опросе учащихся на следующем уроке и проверке выполнения домашнего задания.

Естественно, что неоднократное повторение одного и того же материала утомляет учащихся и рассеивает их внимание. Больше того, учитель приучает учащихся к зубрежке, чем больше сведений запоминает учащийся, тем большее удовлетворение испытывает учитель.

Нельзя забывать, что хорошо понятый глубоко осмысленный учеником материал запоминается им надолго. Нет надобности в том, чтобы приучать ученика к зубрежке наоборот, важно, чтобы он понял материал; память же лучше развивается, когда работает ученик, когда он мыслит.

Таким образом, одной из причин низкий успеваемости и слабой подготовки учащихся некоторых школ является как раз-таки то, что учитель не всегда озабочен развитием мыслительной активности учащихся.

Устарели и некоторые традиции в изучении новой темы. Это особенно касается используемых в обучении методов. Наблюдения показывают что учитель не всегда обращает внимание на особенности новой темы и часто прибегает к методу изложения нового материала, ограничивается изложенными в учебник пах сведениями. Урок строится не так, чтобы можно было максимально использовать его возможности, провести самостоятельную работу над учебником и другими книгами, использовать иллюстрации, технические средства обучения и т.д. В некоторых случаях учителя не привлекают в должной степени внимания учащихся, не пробуждают у них интерес к новому материалу. Плохой традицией кое-где стало

также отсутствие должного контроля со стороны, учителя над процессом усвоения учащимися нового материала.

И так, чтобы успешнее реализовать задачи выдвинутые Постановлением Партии и Правительства о школе, необходимо нажить устаревшие традиции в организации урока. Ныне очень важным становится вопрос усиления активности класса на протяжении всего урока, усиления требований к оценке знаний и умений учащихся, глубокого изучения нового учебного материала, развития мыслительных способностей учащихся.

Для повышения качества преподавания и воспитания, наряду с совершенствованием организации урока, необходимо также уделять повседневное внимание духовному росту учащегося во время обучения, слиянию в единый процесс усвоения нового материала и повторения пройденного, обеспечению меж -предметных связей, широкому использованию, достижений науки и техники, технических средств обучения, программированного обучения и т.д.

Обучение и умственное развитие учащегося должно протекать об заранее составленной программе. Например, преподаватель Казахской городской средней школы № 1 А.Зейналов, преподаватель Куткашенской школы-интерната З.Алиев и другие при прохождении различных тем по арифметике стремятся развить у учащихся математическое мышление. Но, к сожалению, не всегда учителя уделяют должное внимание развитию мышления учащихся в процессе обучения.

Как правило, задачу обучения некоторые учителя видят в том, что бы дать учащимся знания и привить определенные навыки, забывая о развитии их мыслительных способностей, не приучают к самостоятельной работе, к обобщению полученных знаний и т.д. А практика показывает, что те учащиеся, у которых развита мыслительная деятельность, учатся успешно.

Мы знаем, это в процессе усвоения нового материала можно предельно развить мыслительную деятельность учащегося. В этом мы убедились, изучив результаты экспериментов проведенных в II, V, VIII и IX классах, например, из двух классов школы № 190 г. Баку в одном до проведения экспериментальных уроков 41 учащийся яз 45 не имел четкого представления о приеме сравнения, сопоставления. После двух экспериментальных уроков 23 учащиеся стали не только понимать, но и различать, попользовать сравнение при ответах. Если до экспериментальных уроков 35 учащихся понимали сравнение как спор или беседу между учащимися или животными, и после этих уроков число, таких учащихся было лишь 2.

Эксперименты показывают, что имеются больше возможности и резервы умственного развития учащихся при обучении, которые необходимо использовать в повседневной практике.

Воспитание в процессе обучения способствует также повышению качества знаний учащихся. Многие учителя добились в этой области больших успехов и накопили богатый опыт. Например, преподаватель истории М.Коренберг при изучении темы из курса истории средних веков «Нидерландская буржуазная революция» широко использует различные средства и методы, формируя у учащихся материалистическое мировоззрение. Пользуясь наглядными пособиями, схемами, учащиеся проникают в сущность исторических явлений, убеждаясь, что причиной зарождения буржуазии и рабочего класса в Нидерландах, являлось развитие торговли и мануфактуры, в свою очередь развитие этих классов усилило борьбу против феодализма, создав классовый антагонизм, приведший к буржуазной революции.

Преподаватель Караларской сельской школы Имишлинского района Р.Рустамов при изучении курса истории большое внимание уделяет атеистическому воспитанию учащихся, разоблачая лицемерие церкви и служителей

культа, скрывших свое подлинное лицо под поповской рясой, верно служащих господствующему классу и т.д.

Примеров того, как учителя успешно осуществляют воспитание в процессе обучения, можно было привести немало.

Организация повторения пройденного материала при изучении новой темы является важным средством повышения качества знаний и их умений Нужно сказать, что не всегда есть необходимость, повторить материал последнего урока при объяснении новой темы. На наш взгляд, целесообразна повторять тот материал, который поможет раскрыть новую тему и явится ее логическим продолжением. В этом случае создаются условия для более глубокого осмысления нового материала всеми учащимися.

Насколько этот путь плодотворен, мы можем судить по результатам эксперимента, проведенного в школе №31 г. Баку. Например, преподаватель географии В.Мухтаров, изучая в VIII классе тему «Климат Азербайджана», повторил пройденный материал, касающийся климата Ломбардской низменности, но в VIII класса при изучении той же темы он не прибег к повторению материала о климате Ломбардской низменности. Эксперимент показал. Что каждый учащийся VIII$^{в}$ класса в среднем привел 6,1 признака Кура-Араксинской и Ломбардской низменностей, а в VIII$^{в}$ классе каждый учащийся мог назвать лишь 3,9 признака.

Чтобы убедиться в объективности полученных выводов, в этих же классах вновь были проведены эксперименты при прохождении другой темы – «Поверхность, животный мир и растительность Азербайджана». На этот раз в VIII$^{а}$ классе при изучении новой темы был повторен пройденный материал по поверхности, животном мире и растительности Колхидской низменности. В VIII$^{в}$ классе повторения этой темы не было. На этот раз на учащиеся

VIII[в] класса. А учащиеся VIII[а] не только лучше запомнили пройденный материал, но и прочно усвоили новую тему.

На основе этих данных мы можем сказать, что слияние в единый педагогический процесс изучения новый темы и повторения пройденного материала будет целесообразным при условии, соли пройденный материал поможет раскрыть и развить новую, тему.

Необходимость усиления связи обучения и воспитательной работы с жизнью, с достижениями науки и техники подчеркивается в новом постановлении Партии и Правительства о школе. В этой области учителя и школы республики добились немалых успехов. Например, преподаватель Котанархской сельской школы Агдашского района А.Джафаров изучение различных тем по литературе тесно связывает с жизнью. Изучая стихотворение Самеда Вургуна «Азербайджан» преподаватель сообщает учащимся об изменениях в жизни Азербайджана со времени написания этого стихотворения. Или же, изучая рассказы Дж.Мамедкулизаде «События селения Данабаш», «Почтовый ящик», учитель сравнивает нынешнюю жизнь советской деревни с ее дореволюционным положением. Преподавателе Дигяхской школы рабочей молодежи Апшеронского района А.Гашимов -тесно увязывает тему «Электрификация в СССР» с электрификацией совхозного производства где работает большинство учащихся.

Тесная связь обучения и воспитания с жизнью, наукой и.техникой, производством воспитывает учащихся в духе советского патриотизма, интернационализма, развивает в них коммунистическое отношение к труду, а также дает возможность на конкретных примерах увидеть преимущества социалистической системы хозяйства. В этом отношении ценный опыт накоплен учителями Кировабадской городской школы-интерната №1 Н.Дюминой Гасанлинской сельской Школы Масаллинского районa Ф.Магеррамовым и многими другими. Они тесно

увязывают различные темы по истории, географии с жизнью, конкретными примерами из действительности, широко используют специальную литературу, а также периодические издания. Со знанием дела связывает преподавание биологии с современной наукой учитель Кызылгаджилинской сельской школы Касум-Исмайловского района М.Дамиров.

Межпредметная связь также способствует повышению качества преподавания в школе. И в этой области достигнуты немалые успехи. Преподаватель Алимарданской сельской школы Таузского района Г.Гасанов, Зардобской поселковой школы имени М.Горького В.Салманов и другие обеспечивают межпредметную связь в обучении. Г.Гасанов, проходя в VII классе тему «Свойство веществ» обращается к пройденному еще в VII классе материалу об агрегатном состоянии веществ.

Преподаватель В.Салманов, объясняя учащимся IX класса ряд активности металлов, напоминает учащимся сведения из курса физики за VIII класс о понятиях «напряжение», «цепь» сопротивление» и т. др., выясняет, насколько четко и глубоко они усвоили новый материал.

Использование-технических средств о бучения повышает качество урока, способствует прочному усвоению материала, повышает эффективность обучения. Кино, радио, телевидение, магнитофон и др. технические средства ныне составляют неотъемлемую часть учебного процесса. Все больше и больше Мол создают кабинеты технических средств обучения, оборудованные современными киноаппаратами, фильмотеками, фонотеками и т.д. Все это дает возможность изучению различных предметов в школах. Практически школа ныне не мыслится без этих средств. Хорошо оборудованные кабинеты, фильмотеки, фонотеки имеются в Бакинских школах № 6,31,36, 190, школе-интернате № 8, в школах

Кировабада, Сумгаита, Нухи, Закатал и других районов республики.

Поучительной является работа, проводимая лабораторйей технических средств обучения под руководством старшего сотрудника Азерб.ГНИИП Р.Асадова в школе-интернате № 8 гор. Баку. Однако следует сказать, что технические средства обучения не везде еще заняли достойное место.

Какими путями достигается прочное усвоение нового материала?

Ныне этот вопрос приобретает особое значение, так как от того, как усвоена новая тема, зависит качество обучения.

Важно своевременно определить степень сознательного усвоения материала, вовлечь учащегося в работу над текстом, научить самостоятельно, пользоваться карточками, комментировать материал и т.д. Не менее важно, чтобы учитель своевременно принял меры и помог учащимся постичь суть изучаемого материала. Например, преподаватель Исмаиллинской поселковой средней школы Г.Рустамов при изучении темы «Семя и его структура», широко использует раздаточный материал, что дает ему возможность своевременно контролировать процесс усвоения.

Учитель Дузгахирекой сельской школы Кусарского района С.Зохрабов степень и качество усвоения изучаемого учащимися предмета отражает в специальной схеме и уже конкретными методическими средствами добивается лучшего усвоения темы.

Внеклассные мероприятия, как известно, способствуют повышению качества подготовки учащихся к жизни. Внеклассная работа, проводимая классным руководителем, комсомольской и пионерской организацией направлена на то, что бы развить в учащихся интерес к науке и искусству, приобщить их к общественной работе воспитать любовь к Родине, к школе, словом, воспитать учащихся патриотами,

сознательными гражданами своей страны. Мы располагаем многими интересными фактами и примерами богатой духовной жизни ученических коллективов. Ныне в школах создаются музеи В.И.Ленина, музеи боевой славы, клубы интернациональной дружбы, музеи революционной славы. В канун юбилея Великого Октября школьные коллективы проводят разнообразные мероприятия по изучению родного края, изучают истории заводов и фабрик, идут по следам ратных подвигав героев Отечественной войны. Много интересных мероприятий в настоящее время проводят комсомольские, пионерские организации, классные руководители. Юные патриоты 134-й Бакинской школы готовятся к всесоюзным играм «Зарница».

Выполнение задач, поставленных Партией и Правительством перед школой, требует в первую очередь сплочения школьных коллективов. От трудолюбия, изобретательности, активного участия школьных коллективов в выполнении намеченных мероприятий в основном зависит успех нашей работы. Ныне все школы располагают возможностями быть передовыми. Педагогическая наука вооружила учителей совершённой методикой, созданы условия и возможности для исследовательской работы, для укрепления связи школы с производством, наукой, техникой, для улучшения воспитательной работа комсомола и пионерской организация. Речь идет о том, чтобы создать сплоченный, высокоорганизованный педагогический коллектив, способный наладить целенаправленную, вдумчивую, интересную насыщенную поисками и открытиями учебно-воспитательную работу.

Например в школе № 35 г. Баку создан такой Коллектив, мобилизовавший все усилия на повышение качества обучения и воспитания. Достаточно сказать, что председатели метод-комиссий в этой школе прослушали за первое полугодие 75 уроков. Результаты были обсуждены и заслушаны на заседаниях методических комиссий с участием всего педагогического коллектива школы. Кроме

того, эти комиссии активно участвуют в внутришкольном контроле над качеством обучения определяют знания учащихся. Все это говорит о большой заинтересованности педагогического коллектива в улучшении преподавания, воспитательной работы.

Какими путями можно создать высокоорганизованный педагогический коллектив?

Опыт работы лучших педагогических коллективов (46-й Бакинской школы, 20-й Кировабской школы и др.) намечают следуйте пум: 1) высокая требовательность педагогического коллектива, каждого, отдельного учителя; 2) товарищеская помощь опытных учителей молодым; 3) организация вечеров отдыха для учителей, 4) объективная оценка и повседневное внимание к труду учителя; 5) забота о коллеге, б) систематическое обсуждение педагогических и художественных произведений; 7) коллективное хождение в кино, театр и т.д., 8) совместное проведение праздников; 9) активное участие всех учителей в работе педагогического совета и многие другие.

Ответственные задачи, поставленные перед учительством ноябрьским Постановлением ЦК КПСС и Совета Министров СССР о дальнейшем развитии средней общеобразовательной школы, требуют от педагогических коллективов максимальной активизации деятельности всех работников образования, усиления воспитательной роли школьной партийной, комсомольской и пионерской организаций.

В авангарде борьбы за достойное выполнение новых задач, поставленных Партией и Правительством в области просвещения, встанут учителя и школы, которые трудятся и будут трудиться над совершенствованием методики обучения и воспитания подрастающего поколения-будущего нашей страны.

**(Азерб. Гос. НИИП, Баку, 1967)**

# 37. YENİ TƏDRİS PLANLARI HAZIRLAMAĞIN KONSEPSİYASI YARADILMALIDIR. NECƏ?

Təhsil müəssisələrimiz mövcud tədris planlarına uyğun fəaliyyət göstərir. Yeni tədris planları hazırlamağa ehtiyac varmı? Bu ehtiyac üç zərurətdən irəli gəlir. Əvvəla, Azərbaycan dövlət müstəqilliyinə keçmişdir. Respublikamızda siyasi və sosial-iqtisadi şərait başdan-başa dəyişir. Dəyişikliklər təhsil müəssisələrimizin işində köklü yeniləşməni zərurətə çevirmişdir. Təhsil sahəsində yeniliklər isə tədris planlarından başlamalıdır. İkincisi, Azərbaycan Respublikasının Təhsil Qanununda nədənsə tədris planları deyil, tədris proqramları nəzərdə tutulur. Sonuncular isə məhz tədris planı əsasında tərtib olunur. Üçüncüsü, respublikamız sovet imperiyası şəraitində tədris planlarını Moskvadan hazır almış, yerlərdə isə cüzi əlavələr edilmişdir. Nəticə etibarilə respublikamız tədris planlarını müstəqil tərtib etmək təcrübəsindən məhrum olmuşdur. Həmin səbəblərə görə biz təhsil müəssisələrimiz üçün tədris planlarını özümüz hazırlamalıyıq. Bu işə kim, necə və nədən başlamalıdır?

Fikrimizcə, tədris planlarını tərtib etməyin əsasında duracaq ideyalar (prinsiplər) və onları reallaşdıracaq elmi-təşkilati məsələlər müəyyən edilməlidir. Başqa sözlə, tədris planlarını tərtib etməyin konsepsiyası hazırlanmalıdır.

Tədris planlarının tərtibi əsasında duracaq ideyaları iki qrupa ayırmaq mümkündür:

Birinci qrupa daxil edilən ideyalar bunlardır: əvvəla, mövcud tədris planlarını təkmilləşdirmək məqbul sayılmalıdır: yeni şəraitə cavab verəcək, məhz yeni tədris planları hazırlanmalıdır.

İkincisi, tədris planlarını elmi əsaslarda tərtib etmək üçün məzunlarda cəmiyyətin görmək istədiyi mənəvi keyfiyyətlərin, bilik və bacarıqların təxmini dairəsi müəyyənləşdirilməlidir. Bunsuz tədris planı elmi əsasdan məhrum olar, subyektiv mülahizələrə yol açılır.

Üçüncüsü, müəyyənləşdirilmiş mənəvi keyfiyyətlərin, bilik və bacarıqların formalaşmasına imkan verən fənləri dəqiqləşdirmək gərəkdir. Bu əsasda dəqiqləşdirilən fənləri tədris planına daxil etmək olar.

Dördüncüsü, tədris planına daxil edilən fənlər bloklara (qruplara) ayrılmalıdır; həm bloklara ayrılan saatların nisbətən, həm də blok daxilindəki fənlərə ayrılan saatların nisbəti əsaslandırılmalıdır. Əks təqdirdə bu və ya digər dekanın və ya kafedra müdirinin nüfuzu həlledici rol oynayacaqdır.

Beşincisi, fənlərin semestrlər (rüblər) üzrə tədrisi ardıcıllığı elmi cəhətdən inandırıcı olmalıdır. Fənlərin tədrisində ardıcıllığın gözlənilməsi müdavimlərdə biliklərin və bacarıqların sistemə düşməsinə imkan verməlidir, əvvəl öyrənilmiş fənlər hər sonra gələn fənnin tədrisi üçün zəmin olmaldır.

Tədris planlarını hazırlamağın elmi-təşkilati məsələlərinə aşağıdakılar aid edilə bilər:

Birincisi, dövlət təhsil müəssisələrinin tədris planlarını əhatə edəcək konsepsiya hazırlamaq məqsədi ilə dövlət komissiyasının yaradılması vacib hesab edilməlidir. Belə bir komissiyanın tərkibinə müvafiq təhsil müəssisələrinin və istehsalat sahələrinin, habelə Təhsil Nazirliyinin aparıcı nümayənlədəri daxil edilməlidir. Onlar bütün təhsil müəssisələrinin tədris planlarına aid olan ümumi tövsiyələr hazırlayırlar. Nəzərə alınmalıdır ki, yeni tədris planı kimlərin hazırlayacağı ilə əlaqədar daban-dabana zidd olan iki fikir mövcuddur. Bəzilərinin fikrincə tədris planını hər təhsil müəssisəsinin özü hazırlamalıdır. Bəzilərinin əqidəsincə, tədris planını Təhsil Nazirliyi hazırlayıb təsdiq etməlidir.

Bizcə, dövlət təhsil müəssisəsinin tədris planının tərkibini yalnız təhsil müəssisəsinin və ya nazirliyin öhdəsinə buraxmaq olmaz. Çünki, bəzən təhsil müəssisəsi dövlət mənafeyini deyil, ixtisas fənləri məllimlərinin mənafelərinin üstün tutmağa meyl göstərir. Digər tərəfdən, nazirliyin özündə bütün təhsil müəssisələrinin yüksək səviyyədə təmsil

edəcək mütəxəssislər olmur. Bütün bunlara görə həm təhsil müəssisəsinin, həm istehsalatın, həm də dövlətin mənafelərini ödəyə bilən səlahiyyətli komissiya yaratmaq zərurəti meydana çıxır.

İkincisi, eyni tipli təhsil müəssisələrinin spesifik vəzifələrinə uyğun gələn tədris planları hazırlamaq üçün həmin təhsil müəssisələrinin, müvafiq istehsalat sahələrinin, habelə nazirliyin nümayəndələrindən ibarət sahə komissiyaları da yaradılmalıdır.

Üçüncüsü, hazırlanmış tədris planlarının layihələri mətbuatda çap olunmalı, geniş müzakirəyə verilməli, faydalı təkliflər nəzərə alınmalı, təcrübədə sınaq üçün tövsiyə edilməlidir.

Dördüncüsü, bir təhsil müəssisəsinin təcrübəsində sınaqdan keçirilmiş tədris planı nazirlik tərəfindən təsdiq edilib istifadəyə verilməlidir.

**(«Azərbaycan müəllimi», 1993, 20 avqust)**

## 38. О ПРОЕКТЕ ПРОГРАММЫ ПО РУССКОМУ ЯЗЫКУ ДЛЯ V-VIII КЛАССОВ АЗЕРБАЙДЖАНСКОЙ ВОСЬМИЛЕТНЕЙ ШКОЛЫ

Глубокое изучение русского языка в азербайджанских школах имеет огромное значение во всестороннем воспитании подрастающего поколения республики, в осуществлении новых задач, поставленных перед школами Законом об укреплении связи школы с жизнью.

Несмотря на огромные усилия учителей русского языка, большинство учащихся наших азербайджанских школ недостаточно владеют этим языком, затрудняются грамотно излагать свою мысль как письменно, так и устно.

Одной из причин низкого уровня знаний учащихся азербайджанских школ по русскому языку являются недостатки существующих программ.

В этом отношении положительной чертой проекта новой программы по русскому языку для V-VIII классов

азербайджанской восьмилетней школы является то, что в нем делается попытка устранить недостатки существующей программы.

В объяснительной записке к проекту программы по русскому языку для V – VIII классов правильно определена главная задача обучения русскому языку в азербайджанской восьмилетней школе, а именно: научить детей практически пользоваться русским языком. Тут уместно отмечается, что развитие речи не должно выноситься в особый раздел программы, так как является важнейшей и основной задачей как при изучении лексики и грамматики, так и на уроках чтения и письма.концентрическое изучение частей речи в V-VI классах, предусматриваемое проектом программы, несомненно также принесет своим положительные результаты.

Приближение объяснительного и литературного чтения к усвоению грамматического строя русского языка является шагом вперед в проекте программы.

Надо приветствовать в проекте программы параллельное изучение имени существительного и глаголи, привлечение попутно прилагательного, числительного и местоимения, выработку навыков образования форм слов и их употребления в предложении в V-VI классах.

В проекте программы учтена необходимость использования перевода на родной язык как средства объяснения изучаемых грамматических форм и категорий русского языка.

С целью контроля учителем сознательного понимания учащимися изучаемых явлений русского языка проект программы рекомендует прибегать к переводу на родной язык.

В проекте программы рекомендуется также перевод с азербайджанского языка на русский а целях активизация употребления русских слов в изучаемых формах.

Наряду с подобными положительными моментами проекта программы, в нем содержится целый ряд

недочетов принципиального характера, на которые необходимо указать.

Самым существенным недостатком проекта программы является то, что в нем до конца не преодолено изучение грамматики русского языка обособленно от объяснительного и литературного чтения. Составители проекта программы, как видно из его структуры, хотят представить программу в единой целостной форме, в которую входят как материалы грамматики, так и чтения. Материалы чтения включены в последний раздел программы каждого класса.

Становится очевидным, что проект программы опять узаконит в школе два параллельных курса: курс грамматики и курс чтения.

Это значит, что для каждого класса будут по-прежнему два учебника: учебник грамматики и книга для чтения. В этом убеждает нас и указание объяснительной записки к проекту программы, где говорится, что развитие речи является важнейшей и основной задачей как при изучении лексики и грамматики, так и на уроках чтения и письма.

Практика преподавания русского языка в азербайджанской школе показывает, что грамматика русского языка трудно усваивается учащимися, когда грамматические категории изучаются вообще, а не в органической связи с материалом чтения.

Поэтому программа по русскому языку для азербайджанской школы должна быть составлена так, чтобы была неизбежной такая организация урока, при которой учащиеся на основе работы над специально составленным или подобранным текстом логически приходили к той или иной грамматической категории. Материалы на грамматике и чтению должны располагаться не изолированно, а чередоваться, органически объединяясь.

Прогресса для азербайджанской трудовой политической восьмилетней школы должна быть составлена как

программа по одному предмету, в котором грамматические категории искусственно не выделялись бы, а иллюстрировались в самих текстах чтения.

В проекте программа каждого класса делится на четыре раздела: 1) Лексика и фразеология, 2) Работа над предложением и связной речью, 3) Развитие речи в связи с изучением и освоением грамматического строя. 4) Развитие речи в связи с объяснительным (или литературным) чтением.

Нам думается, что такое деление содержания программы на четыре раздела ничем не обосновано и вообще нет в нем никакой необходимости. Деление единой цельной работы учителя на указанные разделы усложняет программу и затруднит работу учителя.

Если «Лексика и фразеология», выделяемые в особый раздел программы, требуют от учителя проведения определенных, последовательно чередующихся занятий в течение определенного периода учебного года, то почему в программе не выделяются часы на эти занятия и не указывается на последовательность их проведения, как это сделано в отношения III и IV разделов программы.

Если же содержание первого раздела связано с содержанием последних двух разделов программы, если виды работы по лексике и фразеология не ведутся отдельно, в отрыве от изучения грамматического строя русского языка и от чтения, а осуществляются на уроках грамматики и чтения в течение учебного года, то почему не включить требования по лексики и фразеология в содержание раздела по грамматике и чтению.

Сказанное полностью относится и ко второму разделу-работы над предложением и связной речью.

Выделение «Лексики и фразеологии» и «Работы над предложением и связной речью» в особые разделы искусственно, излишне еще и потому, что требования этих двух разделов повторяются и содержании двух последних разделов.

В объяснительной записке имеется указание на то, что «новая программа по русскому языку потребует создания нового учебника, в котором должны быть осуществлены новые принципы изучения русского языка в азербайджанской школы» Это указание не согласуется с указанным в программе материалом чтения. Рекомендуется для чтения материал не отражает новых требований, о которых говорится в объяснительной записке. Этот материал в основном потерпят из ныне действующих учебников, не имеет целью иллюстрацию изучаемых грамматических явлений и развитие навыков речи учащихся.

Одним их существенных недостатков рекомендуемого в проекте материала для чтения является и то, что в нем не указаны тексты, отражающие особенности республики, ее природу, отрасли промышленности и сельского хозяйства. В нем недостаточно и произведений азербайджанских писателей и поэтов.

Надо подчеркнуть, что предусматриваемый проектом программы материал для чтения не отвечает новым задачам, выдвинутым в тезисах ЦК КПСС и Совета Министров СССР «Об укрепления связи школы с жизнью и о дальнейшем развития системы народного образования и стране». В тезисах подчеркивается, что «ведущим началом изучения основ наук в школе, определяющим содержание, организацию и методы преподавания, должна стать тесная связь обучения с жизнью, с производством, с практикой коммунистического строительства. Уже с первых лет обучения следует психологически готовить детей к тому, что они должны будут в дальнейшем принять участие в общественно полезной деятельности, в труде».

В программе же почти нет материала, тесно связанного с жизнью, с производством, с практикой коммунистического строительства. В программу должен быть включен такой материал, которой описывал бы труд советских людей, общественную жизнь в стране,

коммунистическое строительство, способствовал бы психологической подготовке подрастающего поколения к труду, к будущей трудовой деятельности.

Следует считать недостатком проекта программы и то, что в нем тексты о нашей действительности, содействующие развитию живой речи учащихся, указываются суммарно, не расчленяются не показывается последовательность их прохождения. На эти тексты отводятся от 12 до 18 часов в каждом без указания конкретных произведений.

Слишком абстрактно говорится в проекте программы о внеклассном чтении. Авторы проекта не указывают произведений, рекомендуемых для внеклассного чтения учащихся.

Надо считать уместным включение в проект программы каждого класса работу по картинкам. Но, к сожалению, не раскрыто содержание этого вида работы учащихся и учителя; нет указаний и на то, какие картинки привлекаются для развития речи учащихся, как усложняется от класса к классу работа по картинкам.

При переработке проекта программы целесообразно конкретизировать характер работы по картинкам, указать названия этих картинок, формы работы, чтобы учитель видел постепенное усложнение этой работы от класса к классу.

Проект программы не устранил перегрузки учащихся. В программу V класса введены темы, которые ранее не изучались ни в V, ни в VI классе и которые трудны для учащихся азербайджанской школы. Примером является включение изучения в V классе прилагательного в роли именной части сказуемого; прилагательного в роли согласованного определения к именному сказуемым, выраженным прилагательным.

Или другой пример: в программу VI класса дополнительно введена тема «Общее понятие о

качественных и относительных прилагательных», которая ранее в VI классе не изучалась.

Программа не лишена академизма. Включение в объяснительную записку и в программу таких понятий, как «продуктивные синтаксические функции» «синтаксические конструкции», «синтаксическое употребление изученных морфологических форм», «синтаксические вопросы», «побудительные предложения» и др., может затруднить рядового учителя русского языка в азербайджанской школе.

На основании изложенного можно сделать вывод: проект программы по русскому языку для V-VIII классов должен быть подвергнут переработке. Зам. директора по научной части Азерб. научно-исследовательского института педагогики.

**(«Русский язык в нерусской школе» 1959, №6.)**

## 39. ALVER, YOXSA HALAL ZƏHMƏT

Alver həyatımıza geniş daxil olur, hətta küçəyə, meydana, bazara, hətta televiziyaya asanlıqla yol tapır. Alverə qurşanan yeniyetmələrə kütləvi informasiya vasitələrində haqq qazandırmaq onları bu işə ruhlandırır, təhsildən, məktəbdən ayrı düşmələrinə səbəb olur.

Real olan yeniyetmə alveri ilə yanaşı digər reallıq da var. Ayrı-ayrı kiçik müəssisələrdə, sexlərdə, bağlarda, həyətyanı sahələrdə, fermer təsərrüfatında işləyən, ailəsinə, valideynlərinə kömək edən, ictimai-faydalı əməklə məşğul olan yeniyetmələrimiz azdırmı? Valideynlərinin təhriki ilə, yaxud öz təşəbbüsü ilə alverə qurşanmış yeniyetmələrlə yanaşı məhsuldar əməyə qoşulmuş və məktəbi atmamış yeniyetmələri nümunə göstərmək, onlardan söhbət açmaq olmazmı?

Respublikamızda məhsul qıtlığının aradan qaldırılmasına küçə-bacada gedən şıdırğı alverlə, yoxsa çatışmayan məhsulları artırmaq yolu ilə kömək etmək olar?

Alver xalqın böyük ehtiyac duyduğu mallara tələbatı istehsal olmadan necə ödəyə bilər? Buna görə də nəinki yaşlıların, hətta yeniyetmələrin diqqətini alverə deyil, halal zəhmətə yönəltmək lazımdır.

Belə çıxmasın ki, guya ümumiyyətlə ticarətin əleyhinəyik. Dövlət və başqa orqanların təşkil etdiyi ticarət xalq üçün sərfəlidir. Çünki belə ticarət müəyyən qaydalarla tənzim edilir və dövlət ona müəyyən çərçivədə nəzarət edə bilir. Ticarət istehsalçılarla istehlakçılar arasında bir başa əlaqə yaradır.

Alverçi dövlət müəssisələrinin, ictimai təşkilatın, yaxud ayrı-ayrı vətəndaşların istehsal etdiyi məhsulları qanunsuz yollarla əldə edir, qıtlıq yaradır, baha qiymətə satır, zəhmətkeşlərin hesabına varlanır. Məhz buna görə əhali alverlə, alverçilərlə barışmaq istəmir. Alverin əsl maliyyəti alıb-aldatmaq, satıb varlanmaqdır.

Alver təkcə küçələrdə deyil, kommersiya və komisyon dükanlarında da baş alıb gedir. Müxtəlif adlı «firma» dükanlarında göz qamaşdıran çil-çıraqlar, qulaq batıran maqnitafon sədaları, əntiq əşyalar xalqımızın rifah halının yüngülləşməsinə xidmət edirmi? Bərli-bəzəkli siqaretlər, spirtli içkilər, allı-güllü saqqızlar, daha nələr adamların sağlamlığı üçün nə dərəcədə faydalıdır?

«Firma» dükanların çal-çağırında, təm-təraqında məst olmuş cavan satıcılara baxanda, onların arxasında duran, lakin gözə görünməyənləri düşünəndə adamı bir məyusluq bürüyür. Qarabağda və sərhəd bölgələrimizdə tökülən qanların onlara qətiyyən dəxli yoxdur, elə bil onların Azərbaycan adlı Vətəni yoxdur.

Bütün bunlar həm lə yeniyetmələrimizin gözü qarşısında baş verir. Onlar cəh-cəlalı dükanlarda əyləşən böyük «qardaşlarından» nümunə götürür, tinlərdə əyləşir, qabaqlarına yeşik və ya stol qoyur, siqaret, saqqız, lampa, batareya və s. satırlar.

Alver yolu ilə yaşamağa alışan yeniyetmə sabah xalq qeyrəti çəkərmi? Belə böyüyənyeniyetmə sabah cəbhəyə ürəklə gedərmi? Bir deyin: bütün bu cəhətlərə görə

yeniyetmələrin alverə qurşanmasına haqq qazandırmaq düzgündürmü? Məhsuldar əməklə kim məşğul olmalıdır? Günü sabah Azərbaycanda elmi, mədəniyyəti, incəsənəti, təhsili kim inkişaf etdirməlidir?

## 40. PEDAQOJİ MÜHAZİRƏLƏRİN QURULUŞU HAQQINDA

Qarşıdakı pedaqoji mühazirələr əvvəlki pedaqoji mühazirələrdən həm məzmununa, həm də istiqamətinə görə fəqrlənir. Bu dəfəki pedaqoji mühazirələr uşaqların və gənclərin tərbiyəsində məktəbin, ailə və ictimaiyyətin əlbir işi problemlərinə həsr olunur. Bu heç də təsadüfi deyildir.

Kommunizm quruculuğunun indiki mərhələsində Sov.İKP MK və SSRİ Nazirlər Soveti xalq maarifi sahəsində XXIV qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün ailə və ictimaiyyətin qüvvəsindən istifadə edilməsinə xüsusi diqqət verirlər. Gənc nəslin kommunist tərbiyəsində məktəbin, ailə və ictimaiyyətin səylərini birləşdirməyinin zəruriliyi maarifə dair partiya və hökumətin bir çox sənədlərində qeyd edilmişdir. Məsələn, «Gənclərin ümumi orta təhsilə keçməsini başa çatdırmaq və ümumtəhsil məktəbinin daha da inkişaf etdirmək haqqında» Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin məlum qərarında deyilir ki, gənclərin hamılıqla orta təhsilə keçməsi bizim ölkəmizdə ümumxalq işidir. Bu böyük ictimai tədbirlərin əməli şəkildə həyata keçirilməsinə bütün zəhmətkeşlərin fəal yardımı Sov.İKP XXIV qurultayının müəyyənləşdirmiş olduğu vəzifələrin yerinə yetirilməsinə, ölkəmizin kommunizmə doğru irəliləməsinə kömək edəcəkdir.

Qarşıdakı pedaqoji mühazirələrə biz də məhz bu cəhətdən yanaşmalıyıq. Pedaqoji mühazirələr imkan verəcəkdir ki, məktəbin, ailə və ictimaiyyətin əlbir işi sahəsindəki təcrübəni ətraflı öyrənək, ümumiləşdirək və geniş yayaq. Bu sahədə çoxcəhətli və faydalı iş nümunələri

az deyildir. bütün bunların hamısını nəzərə alsaq, pedaqoji mühazirələrin yüksək səviyyədə keçirilməsinə çalışmalıyıq.

Pedaqoji mühazirələrdən gözlənilən nəticəni almaq üçün bir sıra təşkilati-elmi məsələləri həll etmək tələb olunur. Belə məsələlərdən biri də pedaqoji mühazirələrin quruluşu ilə əlaqədardır. Bu məsələ haqqında fikir mübadiləsi aparmağı bir neçə cəhətdən zəruri hesab edirik. Əvvəla, pedaqoji mühazirələrin keçirilməsi sahəsində əldə etmiş olduğumuz təcrübə imkan verir ki, Ümumittifaq, respublika və rayon (şəhər) pedaqoji mühazirələrinin bir-birindən asılı olduğuna dair nəticə çıxaraq. Məlumdur ki, Ümumittifaq pedaqoji mühazirələrində oxunan mühazirələr qabaqca respublika pedaqoji mühazirələrində oxunub müzakirə edilir. Buraya isə məruzələr rayon (şəhər) pedaqoji mühazirələrindən təqdim olunur. Rayon (şəhər) pedaqoji mühazirələrində bu və ya digər bölmənin təşkil edilməməsi respublika pedaqoji mühazirələrində, sonra isə Ümumittifaq pedaqoji mühazirələrində həmin bölmələr üzrə mərüzələrin az olmasına və ya heç olmamasına gətirib çıxarır. Respublika və Ümumittifaq pedaqoji mühazirələri, rayon (şəhər) pedaqoji mühazirələrinin fəaliyyət göstərmiş olan bölmələrindən qidalanır. Buna görə də rayon (şəhər) pedaqoji mühazirələrinin quruluşu, yəni orada hansı bölmələrin fəaliyyət göstərəcəyi əvvəlcədən ölçülüb-biçilməlidir.

İkincisi, yerli pedaqoji mühazirələrin əsaslandırılmış vahid quruluşu onun təşkilatçılarına imkan verər ki, lazım olan bütün bölmələrin işini təşkil etsinlər, hər bir bölməni kifayət qədər məruzə ilə təmin etsinlər, məruzə mətnlərinin yüksək səviyyədə yazılmasına imkan yaratsınlar.

Üçüncüsü, belə bir tədbir rayon (şəhər) pedaqoji mühazirələrinin quruluşundakı müxtəlifliyi aradan qaldırar, bütün rayonların (şəhərlərin) pedaqoji mühazirələrində eyni bölmələrin fəaliyyət göstərməsi təmin olunur.

Dördüncüsü, pedaqoji mühazirələrin bölmələrini qabaqcadan müəyyənləşdirmək imkan verər ki, gənc nəslin tərbiyəsində məktəbin, ailə və ictimaiyyətin əlbir işinin

başlıca sahələri geniş əhatə olunsun, həmin sahələr üzrə ətraflı təcrübə mübadiləsi keçirilə bilsin.

Deyilənləri nəzərə almış olsaq, ortaya belə bir sual çıxır: qarşıdakı pedaqoji mühazirələrdə hansı bölmələrin yaradılması daha faydalıdır?

Biz güman edirik ki, aşağıdakı bölmələrin təşkili heç kəsdə etiraz doğurmaz: Uşaqların tərbiyəsində uşaq bağçasının, ailə və ictimaiyyətin əlbir işi: texniki peşə məktəbləri şagirdlərinin tərbiyəsində texniki peşə məktəblərinin, istehsalatın, ictimai təşkilatlar və ailənin əlbir işi: valideynlərin və əhalinin pedaqoji mədəniyyətinin yüksəldilməsi ictimai və ailə tərbiyəsini təkmilləşdirməyin vasitəsidir.

Uşaqların və gənclərin tərbiyəsində məktəbin, ailə və ictimaiyyətin əlbir işinin formalarını müzakirə edən bölmənin təşkili də faydalı olardı. Belə bir bölmənin işində iştirak edən valideynlər ictimaiyyətin iş sistemindən: ictimaiyyət nümayəndələri. Valideynlərin və məktəbin iş sistemindən, məktəb nümayəndələri isə hər ikisinin iş sistemindən xəbərdar olardı. Nəticədə məktəb, ailə və ictimaiyyətin əlbir işi formalarını operativ şəkildə öyrənə, ümumiləşdirə və təbliğ edə bilərik.

Bəziləri təklif edir ki, uşaqların şəxsiyyətinin hərtərəfli inkişafını təmin etməkdə məktəb, ailə və ictimaiyyətin iş təcrübəsini müzakirə edən bölmə yaradılsın və bu bölmə üç yarımbölməyə parçalansın: birində uşaqların siyasi-ictimai həyata hazırlanması, digərində əmək fəaliyyətinə hazırlanması, üçüncüsündə isə ail həyatına hazırlanması məsələləri müzakirə edilsin. Güman edirik ki, həmin bölmənin işini üç yarımbölməyə parçalamaq səmərəli olmaz. Çünki uşaq şəxsiyyətinin hərtərəfli formalaşmasında məktəb, ailə və ictimaiyyət birtərəfli deyil, hərtərəfli səy göstərir. Onların hər biri uşaqların həm əmək fəaliyyətinə, həm ictimai-siyasi həyata, həm də ailə həyatına hazırlanmasına kömək göstərir. Bu kömək sahəsində məktəb. Ailə və ictimaiyyət nümayəndələrinin birlikdə fikir mübadiləsi aparması onlar üçün daha çox faydalı olar.

Bəziləri güman edir ki, uşaqların tərbiyəsində ailə və ictimaiyyətlə əlaqə yaratmaq yalnız məktəb rəhbərlərinin, sinif rəhbərlərinin, komsomol təşkilatının borcudur və guya bu işin müəllimə dəxli yoxdur: guya müəllim ictimaiyyətlə, ailə ilə əlaqə saxlamaya da bilər.

Müəllimin vəzifəsini bu cür məhdudlaşdırmağı və cür məhdudlaşdırmağı və bəsitləşdirməyi qabaqcıl təcrübə qəti rədd edir. Tədris etdiyi fənnin keyfiyyətini, şagirdlərin bilik və bacarıq səviyyəsini yüksəltmək üçün valideynlərin və ictimaiyyətin imkanlarından bacarıqlı istifadə edən müəllimlərimiz respublikanın məktəblərində az deyildir. Bu sahədə faydalı iş təcrübəsi vardır. Həmin təcrübəni öyrənmək və geniş yaymaq məqsədi ilə rayon (şəhər) pedaqoji mühazirələrində «tədris işinin keyfiyyətini yüksəltməkdə ailə və ictimaiyyətin imkanlarından istifadə edilməsi» adı altında fənn müəllimlərinin xüsusi bölməsinin yaradılmasını son dərəcə faydalı hesab edirik.

Bu deyilənlər nəzərə alınarsa biz rayon (şəhər) pedaqoji mühazirələrində aşağıda adları göstərilən bölmələrin təşkilini təklif edirik:

1. Uşaqların və gənclərin tərbiyəsində: məktəbin ailə və ictimaiyyətin əlbir işinin formaları;

2. Tədris işinin keyfiyyətini yüksəltməkdə ailə və ictimaiyyətin imkanlarından istifadə edilməsi;

3. Şagird şəxsiyyətinin hərtərəfli inkişafını hərtərəfli inkişafını təmin etməkdə məktə, ailə və ictimaiyyətin əlbir işi;

4. Uşaqların tərbiyəsində uşaq bağçasının, ailə və ictimaiyyətin əlbir işi;

5. Valideynlərin və əhalinin pedaqoji mədəniyyətinin yüksəldilməsi ictimai və ailə tərbiyəsini təkmilləşdirməyin vasitəsidir;

6. Texniki peşə məktəbləri şagirdlərinin tərbiyəsində texniki peşə məktəblərinin, istehsalatın, ictimai təşkilatlar və ailənin əlbir işi.

Çalışmaq lazımdır ki, həmin bölmələr hər bir rayonda (şəhər) təşkil edilsin. Bu o deməkdir ki, həmin bölmələr üzrə məktəb rəhbərlərinin, sinif rəhbərlərinin, müəllimlərin,

bağça işçilərinin, başqa işçilərinin, valideynlərin, tərbiyə ilə əlaqəsi olan ictimai təşkilat nümayəndələrinin, istehsalat, idarə və müəssisə işçilərinin məruzələrinin indidən təşkil etmək lazımdır.

Hansı mövzuda məruzə hazırlamağın vacib olduğuna dair burada söhbət açmırıq. Çünki təqribən mövzuların siyahısı «Azərbaycan müəllimi» qəzetinin 1974-cü il 5, 12, 28 iyun və 3 iyul tarixli nömrələrində verilmişdir.

Pedaqoji mühazirələrin təşkilinə dair yenə həmin qəzetin 1974-cü il 26 iyul tarixli nömrəsində material çap olunduğundan, bu məsələ üzərində də dayanmırıq.

Qarşıdakı pedaqoji mühazirələrin hazırlanması və keçirilməsində maarif işçiləri aparıcı, təşkiledici, istiqamətverici qüvvə olmalıdır. Biz onlara müvəffəqiyyət arzu edirik.

**(«Azərbaycan müəllimi» qəzeti 1974, 7 sentyabr)**

## 41. TƏŞƏBBÜSKARLIQ VƏ YARADICILIQ ARTIRILMALIDIR

Gələn həftə – mayın 19-da Azərbaycan SSR Pedaqoji Cəmiyyətinin IV qurultayı açılacaqdır. III qurultaydan keçən dövr ərzində Cəmiyyət öz işini Sov.İKP XXVII qurultayının, Sov.İKP MK fevral (1988-ci il) plenumunun, habelə XIX Ümumittifaq partiya konfransının tələblərinə uyğun şəkildə qurmağa çalışmışdır.

Orta ümumtəhsil və texniki peşə təhsili, ali və orta ixtisas təhsili məktəblərində təlimin məzmunu və üsullarının təkmilləşdirilməsi; gənclərin ideya-siyasi, əmək, əxlaq, estetik və fiziki tərbiyəsinin vəhdətini təmin edən tədbirlərin hazırlanması və həyata keçirilməsi; qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi və yayılması; pedaqoji elmin nailiyyətlərinin öyrənilməsi və geniş əhali arasında təbliği: təlim-tərbiyə işi səviyyəsinin yüksəldilməsində pedaqoji kollektivlərə kömək göstərilməsi; cəmiyyət üzvlərində təşəbbüskarlıq və yaradıcılığın inkişaf etdirilməsi; cəmiyyət üzvlərinin istirahətinin səmərəli təşkili; onların ideya-siyasi

səviyyəsinin yüksəldilməsinə, peşə biliklərinin artırılmasına, müəllimlərin və digər maarif işçilərinin elmi-pedaqoji əlaqələrinin genişləndirilməsinə kömək; Cəmiyyətin rayon şöbələrinin və ilk təşkilatlarının sayının artırılması, onların fəaliyyətinin genişləndirilməsi və dərinləşdirilməsi; qardaş respublikalarda pedaqoji cəmiyyətlərlə əlaqələrin möhkəmləndirilməsi və yaxşı təcrübə nümunələrinin öyrənilməsi Azərbaycan SSR Pedaqoji Cəmiyyətinin fəaliyyətinin əsas istiqamətləri olmuşdur.

Azərbaycan SSR Pedaqoji Cəmiyyəti öz fəaliyyətində Sov.İKP-nın qərarlarından qidalanmış və xüsusi plenumlar çağırmış, müvafiq qərarlar qəbul etmişdir. Məsələn, 1985-ci ildə «Ümumtəhsil və texniki peşə məktəbi islahatının əsas istiqamətləri və pedaqoji təbliğat sahəsində Cəmiyyətin vəzifələri», 1986-cı ildə «Sov.İKP XXVII və Azərbaycan KP XXXI qurultaylarının tələbləri baxımından Azərbaycan SSR Pedaqoji Cəmiyyətinin növbəti vəzifələri», 1988-ci ildə «Sov.İKP MK-nın fevral (1988-ci il) plenumunun materiallarında yeni maarif məsələləri və vəzifələrimiz» mövzularında keçirilən plenumlar buna misal ola bilər.

Azərbaycan SSR Pedaqoji Cəmiyyətinin həmin plenumlarında xalq təhsili sistemini daha da inkişaf etdirməkdə, respublikanın mütəxəssislərə tələbatını daha dolğun şəkildə ödəməkdə, texniki peşə məktəbləri şəbəkəsini genişləndirməkdə, təhsilin bütün pillələri üzrə işin səmərəliyini yüksəltməkdə, yeniyetmə və gənclər arasında peşəyönümü işini gücləndirməkdə, müəllimlərə yüksək qayğı göstərmək və onların işinə tələbkarlığı artırmaqla və s. sahələrdə Pedaqoji Cəmiyyətin vəzifələri daha da konkretləşdirilmişdir.

Pedaqoji Cəmiyyətin Mərkəzi Şurası Cəmiyyətin rəyasət heyətinin rəhbərliyi ilə yuxarıda adını çəkdiyimiz plenumların qərarlarını yerinə yetirməyə çalışmışdır. Cəmiyyətin plenumlarının qərarlarına uyğun olaraq Bakının Lenin, Salyan, Ağcabədi, Dəvəçi, Lerik rayonlarında bir sıra elmi-praktik konfranslar keçirilmişdir.

Təlimin məzmunu və üsullarını təkmilləşdirmək məqsədi güdən tədbirlər Azərbaycan SSR Pedaqoji Cəmiyyətinin fəaliyyətində əsas istiqamətlərdən biri olmuşdur. Bu məqsədlə Lenin rayonunda «Yenidənqurma və rus məktəblərində Azərbaycan dili təliminin problemləri». Şəki rayonunda «Yenidənqurma şəraitində V-VIII sinif şagirdlərinin əmək təliminin təkmilləşdirilməsi», Zaqatala rayonunda «Yenidənqurma və şagirdlərin estetik tərbiyəsinin təkmilləşdirilməsi», Şamaxı rayonunda «Məktəb islahatı baxımından xarici dil təliminin təkmilləşdirilməsi», Tovuz rayonunda «Ümumtəhsil və peşə məktəbi islahatının tələbləri baxımından rus dili tədrisinin təkmilləşdirilməsi yolları» və s. mövzularda aparılmış müzakirələri buna misal göstərmək olar.

Pedaqoji Cəmiyyət məktəblərimizdə gənclərin ideya-siyasi, əmək, əxlaq, estetik və fiziki tərbiyəsinin vəhdətini təmin etmək üçün bir sıra tədbirlər keçirmişdir. Nəsimi rayonunda «gənclərin kommunist tərbiyəsi», Bakı şəhəri üzrə «Məktəb islahatı və şagirdlərin tərbiyəsinə kompleks yanaşılması məsələləri», Ağdam rayonunda «Sov.İKP XXVI qurultayının qərarları baxımından gənclərin ideya-siyasi və əxlaq tərbiyəsinin əlaqələndirilməsi yolları», Nizami rayonunda «Şagirdlərin kommunist tərbiyəsində məktəbin, ailə, ictimaiyyət və əmək kollektivlərinin qarşılıqlı əlaqəsi» mövzularında təşkil olunmuş müzakirələr məhz həmin məqsədə yönəldilmişdir.

Qabaqcıl təcrübənin öyrənilməsi və yayılması da Pedaqoji Cəmiyyətin diqqət mərkəzində olmuşdur. Məsələn, Şamaxı rayonundakı Sündü kənd məktəbinin metodist-müəllimi, Azərbaycan SSR xalq maarifi əlaçısı Ə.Seyidəhmədovun və Bakıdakı 176 nömrəli orta məktəbin müəllimi Z.Muradovanın iş təcrübələri öyrənilmiş və təbliğ edilmişdir.

Pedaqoji Cəmiyyət elmi nailiyyətlərin öyrənilməsi və yayılması sahəsində də müəyyən işlər görmüşdür. Cəmiyyət novator pedaqoq, SSRİ Elmlər Akademiyasının akademiki

Ş.A.Amonaşvili ilə respublika pedaqoqları və müəllimlərinin Bakı şəhərində görüşünü təşkil etmişdir.

Pedaqoji elmin nailiyyətlərini öyrənmək və təbliğ etmək sahəsində Cəmiyyətin problem bölmələrinin fəaliyyəti xüsusi qeyd olunmalıdır.

Təlim-tərbiyə işinin səviyyəsini yüksəltmək, keyfiyyətini daha da yaxşılaşdırmaq məqsədilə müəllimlərin və digər maarif işçilərinin fikirlərinin öyrənilməsi və təkliflərinin üzə çıxarılması sahəsində Cəmiyyətin problem bölmələri, bir sıra rayon şöbələri və ilk təşkilatları xeyli iş görmüşlər.

Azərbaycan SSR Pedaqoji Cəmiyyətinin, Azərbaycan ETPEİ-nin, D.İ.Mendeleyev adına respublika Gənc Kimyaçılar Cəmiyyətinin və Bakı Şərər Müəllimləri Təkmilləşdirmə İnstitutunun Bakı şəhərindəki 176 nömrəli məktəbdə birlikdə keçirdiyi tədbir, Kirovabad şəhərində «Məktəb islahatı baxımından təlimin məhsuldar əməklə əlaqələndirilməsinin nəzəriyyəsi və təcrübəsi». Bakı şəhər texniki peşə təhsili şöbəsi ilə birlikdə «Orta texniki peşə məktəblərində ümumtəhsil və ümumtexniki fənlərin əlaqələndirilməsi», Zaqatala rayonunda «Məktəb islahatı və dərs», Salyan rayonunda «Marksizm-leninizm dünyagörüşünü şairdlərdə formalaşdırmağın nəzəriyyəsi və təcrübəsi» və s. mövzular üzrə keçirilmiş tədbirlərdə pedaqoji təcrübə ilə pedaqoji nəzəriyyənin qovuşmasına əlavə şərait yaradılmışdır.

Çap olunmuş kitabların müəllimlər arasında müzakirəsi də pedaqoji fikrin və pedaqoji təcrübənin uzlaşmasına xidmət etmişdir.

Pedaqoji Cəmiyyət çalışmışdır ki, onun üzvləri Ümumittifaq və respublika pedaqoji mühazirələrinin təşkilində, keçirilməsində və qaliblərinin rəğbətləndirilməsində fəal mövqe tutsunlar. Həmin tədbirlərin təşkili və keçirilməsində Cəmiyyətin rəyasət heyətinin üzvləri, mərkəzi şura əməkdaşları, bölmə sədrləri və fəalları yaxından iştirak etmişlər. Məsələn, XXIII respublika Pedaqoji mühazirələrində Pedaqoji mühazirələrində fərqlənən məruzəçilərdən 64 nəfər Cəmiyyətin fəxri fərmanı ilə təltif edilmiş, onlardan 13

nəfəri Ümumittifaq məclisinə vəsiqə alaraq 1986-cı ilin mayında Daşkənddə VIII Ümumittifaq Pedaqoji mühazirələrində iştirak etmişdir. On üç nəfərin hamısı respublika Pedaqoji Cəmiyyətinin pul mükafatına layiq görülmüşdür.

Ölkəmizin daha ətraflı öyrənmək, müttəfiq respublikaların maarif və mədəniyyət təcrübəsi ilə, gözəl təbiəti ilə yaxından tanış olmaq, habelə istirahəti daha səmərəli təşkil etmək məqsədi ilə Cəmiyyətin fəal üzvlərindən bir qrupu hər il Pedaqoji Cəmiyyətin hesabına turist gəzintilərinə çıxır. Təşkil olunmuş turist gəzintilərinin coğrafiyası genişdir. 1984-cü ildən Bakı-İrpen, Bakı-Orcanikidze, Bakı-Belqorod, Bakı-Dnepropetrovsk, Bakı-Kiyev, Bakı-Yalta, Bakı-Moskva, Bakı-Pyatiqorski marşrutları üzrə turist gəzintilərində Cəmiyyətin ən fəal üzvlərindən 188 nəfəri iştirak etmişdir. Gəzintilərlə əlaqədar həm «Azərbaycan müəllim» qəzetində və həm də müvafiq rayon qəzetlərində vaxtaşırı məqalələr çap olunmuşdur.

Pedaqoji Cəmiyyət respublikada baş verən siyasi və sosial məsələlərin həllində də fəal iştirak edir. O, Ermənistan SSR-dən gələn köçkünlərin arasında müəllim və şagirdlərin sayını dəqiqləşdirmiş, onlara maddi kömək məqsədilə «Yardım» fondunun hesabına 30 min manat pul köçürmüşdür.

Cəmiyyətin rəyasət heyətinin üzvlərindən, bölmə sədrlərindən və fəallarından bəziləri təlim-tərbiyənin aktual məsələləri ilə əlaqədar radio və televiziya verilişləri təşkil edirlər. Məsələn, rəyasət heyətinin üzvü, professor Şahin Səfərov respublika televiziyası ilə «Həyatın tələbi», təftiş komissiyasının sədri, dosent Sərdar Quliyev «Valideynlər, sizin üçün», bölmə sədri, baş elmi işçi Əjdər Ağayev «Təbliğatçının televiziya məktəbi», Cəmiyyətin üzvü Kamil Məcidov «Sənət, peşə yollarında» verilişlərini aparırlar və bununla da müəllimlərə, digər maarif işçilərinə, valideynlərə və şagirdlərə xeyli yardım edirlər.

Pedaqoji Cəmiyyətin üzvləri mətbuatda da faydalı məqalələrlə çıxış edirlər. Son beş ildə respublika qəzet və jurnallarında 1000-dən çox Cəmiyyət üzvü bu və ya digər

xarakterli məqalələrlə çıxış etmişdir. Təkcə «Azərbaycan məktəbi» jurnalında və onun əlavələrində Cəmiyyət üzvlərinin 300-dən çox elmi-pedaqoji və metodik məqalələri çap olunmuşdur.

Pedaqoji Cəmiyyətin vilayət, rayon, şəhər şöbələri və ilk təşkilatları fəaliyyətinin genişləşdirilməsi, işlərinin səmərəsinin artırılması sahəsində də müəyyən təşkilati işlər görülmüşdür. Ezamiyyətlər təşkil edilmiş, konfranslar keçirilmiş, yerlərə əməli kömək göstərilmiş, maliyyə fəaliyyəti yoxlanılmış, geniş fikir mübadiləsi aparılmışdır. Bu cür təşkilati tədbirlərin hazırlanmasında və həyata keçirilməsində Cəmiyyətin Naxçıvan MSSR üzrə şöbəsi, Ağdam, sumqayıt, Mingəçevir Göyçay, Zaqatala, Vartaşen, Xaçmaz, Lənkəran, Quba, Nəsimi, Nizami, Lenin, Şaumyan, Orconikidze, (Bakı), Bərdə, Balakən, kürdəmir, Salyan, Qazax, Qax, Qutqaşen, Şamxor, Tovuz, Xanlar, Füzuli, Astara, Masallı, Şamaxı, Qusar və s. rayon və şəhər şöbələri Azərbaycan ETPEİ, MMTİ, BMTİ, M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutu, SSRİ-nin 50 illiyi adına Xarici Dillər Pedaqoji İnstitutu, H.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutu, Azərbaycan Dəmir Yolu Tədris Müəssisələri İdarəsi, Naxçıvan müəllimləri Təkmilləşdirmə İnstitutu üzrə ilk təşkilatları yaxından kömək göstərmişlər.

Göründüyü kimi Pedaqoji Cəmiyyətin bütün tədbirləri nəticə etibarilə təhsilin yenidən qurulması prosesini sürətləndirməyə yönəlmişdir. Pedaqoji Cəmiyyət hətta məktəb konsepsiyasının hazırlanması və həyata keçirilməsinə də təşəbbüs göstərmişdir. Bu məqsədlə Bakı şəhərindəki 46 nömrəli məktəblə sıx əlaqə yaratmış müzakirələr keçirmiş və respublika təhsil nazirliyinə tədbirlər layihəsi təqdim etmişdir.

Azərbaycan SSR Pedaqoji Cəmiyyəti müttəfiq respublikalardakı pedaqoji cəmiyyətlərlə əlaqəni daim möhkəmləndirməyə çalışmış, onların qurultaylarında respublika nümayəndələrinin fəal iştirakını təmin etmişdir.

Qeyd olunmalıdır ki, Pedaqoji Cəmiyyətin III qurultayı tərəfindən rəyasət heyəti qarşısında qoyulmuş vəzifələr əsasən yerinə yetirilmişdir. Lakin respublika Pedaqoji Cəmiyyətinin fəaliyyətində nöqsan və çatışmazlıqlar da yox deyildir. Təhsil sahəsində qabaqcıl təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və yayılması, cəmiyyətin qabaqcıl üzvlərinin elmi nailiyyətlərinin təbliği, Cəmiyyətin çap hüququ, Cəmiyyət üzvlərinin mənzil şəraitinin yaxşılaşdırılması və s. sahələrdə problemlərimiz vardır.

Azərbaycan SSR Pedaqoji Cəmiyyətinin rəyasət heyəti qeyd olunan nöqsanları və çatışmazlıqları aradan qaldırmaq üçün daha böyük səylə fəaliyyət göstərməlidir.

Unutmalıyıq ki, müəllimləri güclü olan, məktəbləri yüksək səviyyədə işləyən xalq firavan yaşamağa qadirdir. Azərbaycan xalqının firavan həyatı naminə Pedaqoji Cəmiyyət, onun üzvləri təhsil səviyyəsinin, gənc nəslin təlim və tərbiyəsi keyfiyyətinin yüksəldilməsinə bundan sonra da inamla kömək göstərməlidir. Əminik ki, qurultay nümayəndələri Pedaqoji Cəmiyyətin fəaliyyətini ətraflı təhlil edəcək və onun daha da yaxşılaşdırılması üçün faydalı təkliflər irəli sürəcəklər.

**(«Azərbaycan müəllimi» qəzeti, 1989, 12 may)**

## 42. MÜHÜM MƏSƏLƏYƏ HƏSR OLUNAN MÜZAKİRƏ

Azərbaycan Respublikası Pedaqoji Cəmiyyətinin Rəyasət Heyəti 1998-ci il yanvar ayının 29-da «Azərbaycanda təhsili necə görmək istərdim» mövzusunda «Dəyirmi masa» ətrafında geniş elmi müzakirə keçirmişdir. Bu tədbirə, başda cəmiyyətin rəyasət heyətinin üzvləri olmaqla, respublikamızın adlı-sanlı pedaqoq, psixoloq alimləri dövlət və özəl ali məktəb rəhbərləri dəvət olunmuşdular.

Müzakirəni giriş sözü ilə Pedaqoji Cəmiyyətin Rəyasət Heyətinin sədri, pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi Nurəddin Kazımov açdı.

O, Azərbaycan təhsilinin bugünkü vəziyyəti barədə yığcam şərhindən sonra qeyd etdi ki, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini möhkəmləndirdikcə, cəmiyyətdə demokratik prinsiplərə əməl olunması həyati tələbata çevrildikcə, mövcud sistemlərin təkmilləşdirilməsi üzərində düşünməyə təbii ehtiyac yaranır. Bu gün dünyanın inkişaf etmiş super dövlətlərinin gözü Azərbaycanda gedən demokratik islahatları diqqətlə izləməkdədir. İndi Azərbaycandan dünyaya elm, təhsil və mədəniyyət sahəsində geniş pəncərələr açılır. Təhsilimizi inkişaf etmiş dövlətlərin təhsil sistemləri kimi güclü qurmaq istədiyimiz bir vaxtda, onun (elm və təhsilin) bugünkü durumu ilə arxayınlaşıb qalmamalı, mütləq gələcək perspektivlər barədə düşünməli və daha müasir, daha optimal strukturlarını yaratmağa nail olmalıyıq.

Dövlətimizin günü-gündən artan və yüksələn nüfuzu, inkişafımıza mane olan problemlərin tezliklə həlli xalqımızın gələcək xoşbəxt günlərindən xəbər verir. Bu baxımdan təhsil sistemimizin daha mükəmməl əsaslar üzərində qurulması üçün «Təhsil Qanununun təkmilləşdirilmiş layihəsi üzərində müzakirə açmaq bu gün təxirəsalınmaz, həlli vacib məsələlərdəndir».

Bizə təqdim olunan bu layihədə təhsilin inkişafı ilə bağlı xeyli faydalı əlavələr, ixtisarlar, dəqiqləşmələr edilmişdir. Layihədə, konstitusiyamızın tələblərindən irəli gələn istiqamətlərdə aparılan dəqiqləşmələr diqqətəlayiqdir. Cəmiyyətin sədri dördüncü fəslin 46-cı maddəsinin əvvəlki variantla müqayisədə xeyli təkmilləşdirildiyini xüsusi vurğuladı.

Professor N.Kazımov «Təhsil Qanunu»nun layihəsindəki bəzi maddələr ilə bağlı fikrini bildirdi və onların elmi şərhini, təkliflərini açıqladı. O, daha çox birinci fəslin 1, 2, 3; ikinci fəslin 10; üçüncü fəslin 36-cı maddələrindəki 1-ci və 3-cü bəndlərdə redaktə xarakterli düzəlişlərə ehtiyac olduğunu bildirdi. O, daha çox üçüncü fəslin 36-cı maddəsinin 2-ci bəndi üzərində dayandı.

36-cı maddənin 2-ci bəndində verilən «Təhsilin elmi-nəzəri, praktik və metodik məsələlərini kompleks araşdır-

maq üçün elmi tədqiqat institutlarının və bölmələrinin şəbəkəsi yaradılır» əvəzinə, «Təhsilin elmi-nəzəri məsələlərini kompleks araşdırma üçün Respublika Elmlər Akademiyası strukturunda pedaqogika və psixologiya bölməsi yaradılır» cümləsinin yazılmasını təklif etdi.

Sonra professor hazırda qüvvədə olan, layin üzərində zərurətdən irəli gələn bir sıra dəyişikliklər aparılan «Azərbaycan Respublikası Təhsil Qanunu»nun layihəsi barədə iştirakçıların fikir və mülahizələrinin də dinlənilməsini arzu etdi.

Cəmiyyətin sədri məruzə üçün sözü pedaqoji elmlər doktoru, professor, Milli Məclisin deputatı Zahid Qaralova verdi. (Aşağı professor Zahid Qaralovun məruzəsi bütövlükdə verilir).

Məruzə ətrafında çıxış edən Azərbaycan ETPEİ-nin direktor müavini, pedaqoji elmlər doktoru, professor Yəhya Kərimov belə bir mövzuda geniş bir müzakirə açmağın əhəmiyyətini, habelə əsas məruzədə irəli sürülən təkliflərə tərəfdar çıxdığını bildirdi.

O göstərdi ki, təhsilin bünövrəsi olan məktəbəqədər tərbiyə geniş işləndirilməli, keçid dövründə vəziyyəti nəzərə alaraq ailə uşaq bağçalarının fəaliyyətinə imkanlar yaradılmalıdır. Ailə uşaq bağçalarının maddi bazasının təminatını dövlət öz üzərinə götürülməlidir.

Dünya dövlətlərinin bir çoxunda təlimə 5, hətta 4 yaşından başlanılır. Gələcəkdə yaxşı olardı ki, bizdə də bu sistemə keçilsin. Dünya dövlətlərinin əksəriyyətində ibtidai təlim müddəti beş illikdən doqquz illiyə qədərdir. Qonşu İran və Türkiyədə ibtidai təlim beşillikdir. Gələcəkdə beşillik təlimə keçmək arzu olunur. Bununla əlaqədar dünya dövlətlərinin bir çoxunda olduğu kimi, bizim respublikada da orta təhsil 12 illik ola bilər. Orta məktəblərdə təlim fənlərinin sayı çoxdur. Respublikamızın müxtəlif rayonlarından baza tədris planına alınmış rəylər göstərir ki, mövcud tədris planına 17 fənnin (dinşünaslıq, ekologiya, hüquqi biliklər və s.) əlavə olunması tələb edilir. Yaddan çıxarmayaq ki, dünya təhsil sistemində istiqamət inteqrasiyaya doğrudur. Ola bilər ki, gələcəkdə

ibtidai siniflərdə iki dərslik olsun. «Doğma diyar» adlı dərslik «Oxu», «Azərbaycan dili», «Təbiətşünaslıq», «Təsviri sənət» və «musiqi» fənlərini əhatə etsin. Belə olarsa, heç şübhəsiz, indi fənlərarası adlandırdığımız prinsipə o zaman mükəmməl əməl edilər. Gələcəyin məktəbini komputerləşmiş, ümumiyyətlə, dünya standartlarına müvafiq məktəb kimi görmək istərdim.

Pedaqoji elmlər doktorları, professor Yusif Talıbov, professor Rəfiqə Mustafayeva və professor Vidadi Xəlilov professor Zahid Qaralovun məruzəsində təhsil müəssisələrinə və müəllimlərə sərbəstlik, müstəqillik verilməsi, kadrların hazırlanması, təhsilə rəhbərlik edən orqanlar və s. barədəki fikirləri tamamilə haqlı hesab etdilər və təhsilin mövcud problemlərinin həlli ilə bağlı öz mülahizələrini bildirdilər. Filologiya elmlər doktoru İslam Ağayev, pedaqoji elmlər namizədləri Tofiq Seyidov və H.Ağayev xarici dillərin tədrisi üzrə çoxvariantlı, əmək təlimi üzrə regional tipli proqramların yaradılması ilə bağlı öz arzu və təkliflərini bildirdilər.

Respublika «Təhsil» cəmiyyətinin sədri, texnika elmləri namizədi Nuğay Əliyev və b. müzakirə olunan məsələ ilə bağlı öz fikrini söylədi.

Tədbirin sonunda Pedaqoji cəmiyyətin Rəyasət Heyətinin sədri, professor N.Kazımov professor Z.Qaralovun təklifini məqsədəuyğun hesab etdi və ona dərin elmi məruzəyə görə tədbirin bütün iştirakçıları adından təşəkkürünü bildirdi.

**(«Azərbaycan məktəbi» jurnalı, 1997, №6)**

## 43. PEDAQOJİ XALQ UNİVERSİTETLƏRİ HAQQINDA

Geniş kommunizm quruculuğu şəraitində elm güclü məhsuldar qüvvəyə çevrilmişdir. Bu, bir tərəfdən, onunla izah edilir ki, müasir şəraitdə elm, texnika və mədəniyyət indiyədək görünməmiş bir sürətlə inkişaf edir. Ayrı-ayrı elmlər sahəsində xeyli miqdarda elmi işçi fəaliyyət göstərir.

Elmi axtarışların nəticələri, müxtəlif kəşflər xalq təsərrüfatının bu və ya digər sahəsində tətbiq edilir.

Digər tərəfdən, elmi nailiyyətlər müxtəlif yollarla geniş surətdə təbliğ edilir. Elmi kitabların və onların tirajlarının artması ilə yanaşı, müxtəlif jurnallar, qəzetlər, radio, televiziya və s. təbliğat vasitələri də elmi, texniki və mədəni yeniliklərin yayılmasında böyük əhəmiyyət kəsb edir. XXIV qurultaya hesabat məruzəsində göstərildiyi kimi, bizdə qəzetlərin birdəfəlik tirajı 140 milyon nüsxəyə qədərdir, jurnalların tirajı isə 150 milyon nüsxədən artıqdır. Ayrı-ayrı təşkilatlar, idarə və müəssisələr tərəfindən təşkil edilən məruzə və mülahizələri də buraya əlavə etsək, geniş əhali arasında iqtisadiyyata, elmə, texnikaya və mədəniyyətə dair bilikləri təbliğ etməyin nə qədər geniş vüsət aldığı aydın təsəvvür olunar.

Biliklərin təbliği sistemində ictimai əsaslarda fəaliyyət göstərən iş formaları xüsusi əhəmiyyətə malikdir. Təkcə partiya maarifi şəbəkəsində 16 milyon adam təhsil alır, orada təbliğatçıların bir milyonluq ordusu faydalı iş görür.

Sovet adamlarının müxtəlif yollarla mənimsədikləri bu biliklər, əldə etdikləri məlumat və təsəvvürlər onların əməli işində, ictimai və istehsal fəaliyyətində nəzərə alınır. Bütün bunlar xalq təsərrüfatının tərəqqisini, kommunizm quruculuğunu sürətləndirir.

Pedaqogika yalnız gənc nəslin təlim və tərbiyəsini öyrənməklə, bu sahədə cərəyan edən qanunauyğunluqları aşkara çıxarmaqla məhdudlaşmır. Hazırda pedaqogika məktəb çərçivəsindən çox-çox kənara çıxıb, cəmiyyətimizin müxtəlif sahələrinə nüfuz edərək, ayrı-ayrı təşkilatlarda, idarə və müəssisələrdə aparılan tərbiyə işlərini də öyrənmək və ümumiləşdirmək səyi göstərir. Pedaqoji biliklərə heç də təkcə müəllimlər və digər maarif işçiləri ehtiyac hiss etmirlər. Kommunizm quruculuğunun bütün sahələrində fəaliyyət göstərən adamlarımızın da pedaqogikaya və pedaqoji biliklərə ehtiyacı vardır.

Sovet adamlarının, o cümlədən valideynlərin, müəllimlərin, habelə digər maarif işçilərinin pedaqoji

biliklərə ehtiyacının ödənilməsində xalq universitetlərinin də çox böyük rolu vardır. Buna görə də pedaqoji bilikləri yayan xalq universiteti haqqında geniş və ətraflı söhbət açmağa dəyər.

Rayon və şəhər xalq maarif şöbələrindən alınmış məlumatlara əsasən deyə bilərik ki, hazırda respublikamızda pedaqoji bilikləri təbliğ edən 100 xalq universiteti vardır. Bunların böyük əksəryiyəti, təqribən 87-ci ayrı-ayrı məktəblərdə, qalanları isə rayon xalq maarif şöbələri, müəllim evləri nəzdində və digər təşkilatların yanında təşkil olunmuşdur. Rayon xalq maarif şöbələri nəzdində (Zaqatala, Qubadlı, Xaçmaz, Şamxor) 4, müəllim evləri nəzdində (Stepanakert, Naxçıvan, Şəki, Ağdam, Cəlilabad, Şamxor, Qusar) 7, şəhər partiya komitəsi yanında (Mingəçevir) 1 və kino-teatr nəzdində (Kirovabad şəhərindəki Nizami adına kino-teatrda) 1 xalq universiteti vardır.

Ayrı-ayrı məktəblərdə təşkil olunmuş universitetlərin iş formalarında, mühazirəçilərinin, müdavimlərinin tərkibində, iş prinsiplərində, tematikalarında və bəzi başqa cəhətlərində oxşarlıq çoxdur.

Xalq universitetlərinin iş formalarına nəzər salaq. Məktəblərin nəzdində təşkil olunmuş xalq universitetlərinin iş təcrübəsi göstərir ki, onların böyük əksəriyyətində məşğələlər əsasən mühazirə şəklində keçirilir. Qax şəhərindəki 2 nömrəli, Qax rayondakı Almalı kənd orta məktəblərində, Balakən, Lənkəran, Şamaxı və bir sıra başqa rayon məktəbləri nəzdindəki xalq universitetlərinin işi buna misal ola bilər. Həmin universitetlərdə bu və ya digər mövzu üzrə oxunmuş mühazirədən sonra suallara cavablar verilir və bununla da məşğələ yekunlaşdırılır. Tək-tək hallarda isə dinlənilmiş mühazirədən sonra müvafiq kino-film nümayiş etdirilir.

Xalq universitetlərində mühazirə əsas iş forması olsa da, onunla məhdudlaşmaq kifayət deyildir. Onların məşğələləri rəngarənglik sevir. Orada qoyulan məsələlər müxtəlif olduğu kimi, məşğələlər də gərək müxtəlif formada təşkil

edilsin. Xalq universitetlərində müzakirə olunan məsələlər hər dəfə yeni formada qoyulduqda məşğələlər maraqlı, cəzbedici olur. Onlarda mühazirə ilə yanaşı, kinofilmlərdən, sual-cavab gecələrindən, disputlardan, qabaqcıl sovet adamları ilə görüşlərdən, ekskursiyalardan və s. kimi məşğələ formalarından da istifadə etmək lazımdır.

Məktəblərin nəzdindəki xalq universitetləri mühazirəçilərinin tərkibi. Universitetlərin bu növündə mühazirə oxuyanlar bir qayda olaraq həmin məktəbin müəllimləridir. Zəngilan, Masallı, Lənkəran, Kirovabad, Balakən və bir çox başqa rayon və şəhər məktəblərindəki xalq universitetlərinin mühazirəçiləri buna misal ola bilər.

Xalq universitetlərinin işini yüksək səviyyədə təşkil etməyə çalışan bəzi məktəb direktorları və ya pedaqoji universitet redaktorları qabaqcıl müəllimlərdən əlavə, şəhər, yaxud rayonun digər mütəxəssislərinin – hüquqşünasların, həkimlərin, alimlərin və başqalarının qüvvəsindən də istifadə edirlər. Xalq təsərrüfatının müxtəlif sahələrindən dəvət olunan elm, texnika və mədəniyyət mütəxəssislərinin xalq universitetlərində çıxış və məruzələri dinləyicilərin böyük marağına səbəb olur. Axı, müəllimlər onsuz da valideynlər qarşısında tez-tez çıxış edir, onlarla görüşür və məsləhətləşirlər. Quruculuq işlərinin müxtəlif sahələrində çalışan mütəxəssislərlə məhz məktəbdə görüş isə valideynlərə həmişə nəsib olmur. Buna görə də universitetlərin işinə kənardan muvafiq mütəxəssislərin də cəlb olunmasına çalışmaq lazımdır.

Məktəblərin nəzdində təşkil olunmuş xalq universitetlərinin işindəki oxşar cəhətlərdən biri də universitetin dinləyiciləri ilə bağlıdır. Universitetin bu növündə dinləyicilər, adətən, uşaqları həmin məktəbdə oxuyan valideynlərdir.

Bəzən məktəbin hər sinfi üzrə 2-3 valideyn ayrılır və bu valideynlərin hesabına universitet komplektləşdirilir. Bəzən də universitetə dinləyicilər (valideynlər) öz şagird uşaqlarının yaş xüsusiyyətləri üzrə cəlb edilir, yəni uşaqları aşağı siniflərdə oxuyan valideynlər üçün bir qrup, uşaqları

orta siniflərdə oxuyan valideynlər üçün digər qrup, uşaqları yuxarı siniflərdə oxuyan valideynlər üçün isə üçüncü bir qrup təşkil olunur. Qrupların və ya fakültələrin bu cür müəyyənləşdirilməsi mümkündür.

Xalq universitetlərində qrupların, fakultə və ya şöbələrin təşkilində bəzən anlaşılmazlıqlar olur. Qrupları və ya fakültələri təşkil edərkən çox halda müəyyən bir prinsipə əsaslanılmır. Məsələn, Qquba rayonunda Rustov kənd və qırmızı qəsəbə orta məktəblərinin, Masallı rayonunda Boradigah kənd orta məktəbin, yaxud Mardakert qəsəbə orta məktəbin nəzdindəki universitetlərin hər birində üç fakültə və ya şöbə yaradılmışdır. Rostov kənd məktəbinin nəzdindəki fakültələr belə adlandırılmışdır:

1. Məktəb və ailə; 2. Gənclərin kommunist tərbiyəsi; 3. Ailədə məktəblinin əmək tərbiyəsi.

Qırmızı qəsəbə orta məktəbinin nəzdindəki universitetdə fakültələrdən biri «Kommunizm qurucusunun əxlaq kodeksi, digəri «Pedaqoji biliklərin əsasları», üçüncüsü isə «Valideyn və pedaqogika» adlandırılmışdır.

Boradigah kənd orta məktəbinin nəzdindəki universitetdə: 1) icbari təhsil; 2) təlim və 3) məktəbə yardım şöbələri; Mardakert qəsəbə orta məktəbinin nəzdindəki universitetdə isə 1) təlim; 2) tərbiyə və 3) fiziki tərbiyə şöbələri vardır. Ortaya istər-istəməz bir sıra suallar çıxır: əvvəla, həmin fakültə və ya şöbələrin dinləyiciləri kimlərdir: müəllimlər, ya valideynlər? Həmin fakültə, yaxud şöbələrin iş məzmunu bir-birindən nə ilə fərqlənir?

Birinci suala konkret cavab vermək olmaz. Çünki fakültə və ya şöbələrin adlarından göründüyü kimi, orada müəllimlər də, valideynlər də dinləyici ola bilərlər. İcbari təhsil, təlim və ya tərbiyə məsələləri müəllimlərə də, valideynlərə də aiddir.

Həmin fakültə və ya şöbələrin məzmununa gəldikdə deməliyik ki, onların əhatə etdiyi mövzular, onların iş məzmunu bir-birindən o qədər də fərqlənmir. Məsələn, eyni məktəbdə təşkil edilmiş tərbiyə fakültəsinin müdavimlərinə fiziki tərbiyə problemlərindən və əksinə, fiziki tərbiyə

fakültəsinin müdavimlərinə tərbiyənin ümumi problemlərindən nə üçün söhbət açılmasın? Yaxud, həm valideyn fakültəsində və həm də pedaqogika fakültəsində müdavimlərə pedaqoji biliklərin əsaslarına dair məlumat verilmirmi? Əlbəttə, verilir. Buna görə də həmin fakültələri o cür adlandırmaq məqsədə müvafiq deyildir.

Fakültələrə və ya şöbələrə bu cür dolaşıq adlar verilməsi bir çox çətinliklərə səbəb olur, xüsusən, həmin fakültələrlə mövzuların düzgün müəyyənləşdirilməsi işini çətinləşdirir.

Xalq universitetlərinin işində müşahidə edilən qüsurlardan biri də eyni məşğələdə 3-4 məruzənin oxunmasıdır. Məsələn, universitetlərdən birində (Kirovabad şəhərindəki 11 nömrəli məktəbin nəzdində) 1970-ci il noyabrın 3-də aşağıdakı mövzularda məruzələr oxunmuşdur: 1) uşaqların tərbiyəsində valideynlərin nüfuzu; 2) təlimdə uşaqların gerilməsinin səbəbləri və onları aradan qaldırmağın yolları; 3) Sovet İttifaqının xarici siyasəti.

Yaxud, Jdanov şəhər 1 nömrəli orta məktəbin nəzdindəki universitetdə pedaqoji mövzularda məruzələrdən əlavə texnika, siyasi, hüquq və fəlsəfi mövzularda da məruzələr oxunur.

Əlbəttə, bu cür bir-birinə əlaqəsi olmayan müxtəlif mövzularda oxunmuş məruzələrin dinləyicilər üçün lazımi səmərə verdiyini söyləmək çətindir. Bizcə, bir məşğələni yalnız bir mövzuya həsr etmək universitet rəhbərlərinə və mərüzəçilərə imkan verər ki, bu məşğələyə kifayət qədər hazırlaşsınlar və geniş, canlı fikir mübadiləsi təşkil etsinlər.

Bir çox universitetlərdə məşğələlər xeyli vaxt aparır, hətta bəzi hallarda 4 saat davam edir. Məşğələ vaxtının həddən artıq uzanması dinləyicilərin yorulmasına, onlarda marağın azalmasına səbəb olur. Unutmaq olmaz ki, universitet dinləyiciləri işdən yorğun gəlirlər. Məşğələ isə öz növbəsində məzmunca ağır olduqda və çox vaxt apardıqda dinləyicilər əldən düşürlər. Nəticədə universitetin gələcək işi xeyli çətinləşir. Bütün bunları nəzərə alaraq, çalışmaq lazımdır ki, xalq universitetlərində hər bir məşğələ bir mövzuya həsr edilsin və ən çoxu 2 saat davam etsin.

Xalq universitetlərinin iş xüsusiyyətlərini aydın təsəvvür etməyən bəzi yoldaşlar məktəblərdə fəaliyyət göstərən lektoriyaları xalq universiteti adlandırmışlar. Bəzən də məktəbdə keçirilən ayrı-ayrı tədbirlər, ümumiyyətlə, oxunan məruzələr, sinif valideyn yığıncaqları və s. xalq universitetlərinin işinə aid edilir. Təəssüf ki, bu gür hallara bir çox məktəblərdə təsadüf etmək olur. Məsələn, Qutqaşen rayonundakı Zarağan kənd orta məktəbinin direktoru B.Abdullayev yoldaş Azərbaycan SSR Maarif Nazirliyinə yazır ki, universitetin məşğələsi məktəbdə valideynlər yığıncağında, məktəb radio qovşağında valideynlər komitəsi iclasında aparılır.

Unutmaq olmaz ki, xalq universiteti pedaqoji bilikləri təbliğ etməyin ən mütəşəkkil formalarından biridir. Universitetin işini sinif və ya məktəb valideynlər yığıncağı ilə, valideyn komitəsinin yığıncağı ilə, məktəbdə lektoriya ilə, radio qovşağının işi ilə eyniləşdirmək olmaz. Xalq universiteti işinin məzmunu da, formaları da valideyn iclaslarından, lektoriyalardan və s. iş formalarından tamam fərqlənir. Xalq universitetinin tədris planı, tədris proqramı, müəyyən müddət üçün daimi tərkibli dinləyiciləri, mühazirəçilər qrupu və s. xüsusiyyətləri olur. Bəzi yoldaşlar valideyn yığıncaqlarını və ya lektoriyaları xalq universiteti adlandırmağı təbii hal hesab edir və buna bir növ əsas da gətirirlər. Məsələn, Qusar şəhər 2 nömrəli məktəbin nəzdindəki universitetin rektoru Qurbanov yoldaş yazır ki, xalq universitetinə aid kitab olmadığından, universitetin işi sinif və ya məktəb valideynlər iclası kimi fəaliyyət göstərir. Bir cəhətdən Qurbanov yoldaşa haqq qazandırmaq olar. O, haqlı olaraq deyir ki, xalq universitetinə aid müvafiq dərslik və yaxud metodik vəsait yoxdur. Əlbəttə, bu cür vəsaitlərin olması vacibdir. Lakin biz, digər cəhətdən Qurbanov yoldaşın fikrinə heç cür tərəfdar çıxa bilmərik: müvafiq kitabların olmaması bizə əsas vermir ki, xalq universitetinin işini valideyn iclasları ilə və ya lektoriyalarla eyniləşdirək.

Bu cəhətdən biz bəzi rayon (şəhər) XMŞ müdirlərinin, o cümlədən Bakının Kirov rayon XMŞ müdirinin fikrinə

şərikik. O yazır ki, rayonun bütün məktəblərində lektoriyalar vardır: amma xalq universiteti yoxdur. Görünür, Kirov rayonunda universitetin lektoriyadan xeyli fərqli olduğunu yoldaşlar yaxşı təsəvvür edirlər. Bu isə inam doğurur ki, həmin rayonda da pedaqoji biliklərin mütəşəkkil təbliği ilə məşğul olan xalq universitetləri təşkil ediləcəkdir.

Xalq maarif şöbələrində, müəllim evlərinin, digər müəssisə və təşkilatların nəzdində yaradılmış xalq universitetlərinin işində də bəzi xarakterik xüsusiyyətlər vardır. Bu qəbildən olan universitetlərin işində diqqəti cəlb edən cəhətlərdən biri belədir: onların hamısında bir deyil, bir neçə fakültə və ya şöbə vardır. Məsələn, Stepanakert Maarif İşçiləri Evi nəzdindəki universitetin 3 fakültəsi varlır: 1) uşaqları aşağı siniflərdə oxuyan valideynlər üçün: 2) uşaqları orta siniflərdə oxuyan valideynlər üçün; 3) uşaqları yuxarı siniflərdə oxuyan valideynlər üçün.

Zaqatala rayon XMŞ-nin nəzlindəki universitetdə iki fakültə-məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsi və məktəbyaşlı uşaqların ailə tərbiyəsi – fakültələri vardır.

Şəki Müəllimlər Evinin nəzdindəki xalq universitetində də iki fakültə vardır. Fakültələrdən biri valideynlər, digər isə müəllimlər üçündür.

Rayon (şəhər) XMŞ-ləri və ya müəllim evləri nəzdindəki universitetlərin hazırki dövrdə üstün cəhətlərindən biri odur ki, bu cür mərkəzləşdirilmiş universitetlərdə məruzə oxumaq üçün müxtəlif sahələrdə çalışan mütəxəssislər dəvət etmək olur. Bu cəhətdən Naxçıvan Maarif İşçiləri Evində təşkil edilmiş universitetin işi diqqəti cəlb edir. 1960-cı ildən fəaliyyət göstərən bu universitetin geniş əhatəli mühazirəçilər qrupu yaradılmışdır. Universitetin mühazirəçiləri arasında Naxçıvan MSSR maarif naziri, Muxtar Respublika Həmkarlar İttifaqı Komitəsi sədri, prokuror və digər yoldaşlar da vardır.

Belə universitetlərin işi başqa cəhətdən – r a y o n məktəbləri nəzdindəki universitetlərin işinə vahid istiqamət vermək cəhətdən də maraqlıdır. Zaqatala rayon XMŞ

nəzdindəki universitetin işinə nəzər salaq. 8 ildir ki, fəaliyyət göstərən bu universitetin ayrı-ayrı məktəblərdə 14 filialı vardır. Universitetin şurası bütün filialların işinə vahid istiqamət vermək üçün plan və proqramlar tərtib edərək filiallara göndərmişdir. Şuranın üzvləri universitetin filiallarında məşğələlərin təşkili və keçirilməsi ilə tanış olur, nümunəvi iş təcrübəsinin yayılmasına və nöqsanların vaxtında aradan qaldırılmasına səy göstərirlər.

Bir sıra universitetlərdə, o cümlədən Hadrut və Sumqayıtda valideynlər üçün universitetlərdən əlavə, sinif rəhbərləri və uşaq bağçası işçilərinə aid universitetlər də təşkil edilmişdir.

Xalq universitetinin fəaliyyətini müxtəlif cəhətdən xarakterizə edən rəngarəng materialların hazırlanması və nümayiş etdirilməsi hallarına təsadüf edilir ki, bu da, əlbəttə, sevindiricidir. Bəzi universitetlərin rəhbərləri divar qəzeti və əlyazma jurnalları buraxır, foto-montajlar, sərgilər, diaqramlar və s. hazırlayırlar. Məsələn, Şəki Müəllim Evi nəzdindəki universitet əlyazması şəklində divar qəzeti və jurnal buraxır: Xanlar rayonu Mirzik kənd məktəbinin və Kirovabad şəhər 6 nömrəli məktəbin nəzdindəki universitet şuraları universitetin həyatını, qabaqcıl müdavimlərin fəaliyyətini əks etdirən divar qəzeti və fotomontaj tərtib edirlər.

Pedaqoji bilikləri təbliğ edən xalq universitetləri, göründüyü kimi, əsasən məktəblərdə yaradlır. Bundan əlavə, idarə müəssisə və təşkilatların, müəllim evlərinin, xalq maarif şöbələrinin, şəhər (rayon) partiya komitələrinin, kino-teatrların nəzdində də universitet təşkil edilir.

Pedaqoji bilik universitetlərinin ayrı-ayrı fakültələri üçün proqramlar hazırlanıb, çap etdirilərək yerlərə göndəriləndək xeyli vaxt keçəcəkdir. Universitetlərin təşkilatçılarına ilk kömək məqsədilə bəzi proqramların əsas məsələlərini burada qeyd etməyi faydalı hesab edirik.

Müəyyən yaş dövrü ilə məhdudlaşdırılmamış uşaqların ailə tərbiyəsi üzrə aşağıdakı mövzularda məşğələlər keçirilməsini məsləhət bilirik:

1. Ailədə uşaq tərbiyəsinin məqsəd və vəzifələri.
2. Ailədə uşaq tərbiyəsinin başlıca üsulları.
3. Ailədə uşaq tərbiyəsinin əsas prinsipləri.
4. Uşaqların mənəvi inkişafına ailədə kömək.
5. Ailədə uşaqların bədən tərbiyəsi.
6. Ailədə uşaqların əmək və əxlaqi tərbiyəsi.
7. Ailədə uşaqların estetik inkişafı.
8. Gənc nəslin kommunist tərbiyəsində valideynlərin məktəbə köməyi.

Əgər ailə tərbiyəsi üzrə fakültələr uşaqların yaş xüsusiyyətlərinə uyğun olaraq təşkil edilirsə, yəni uşaqları yuxarı siniflərdə oxuyan valideynlər üçün bir fakültə, uşaqları aşağı siniflərdə oxuyan valideynlər üçün bir fakültə, uşaqları orta siniflərdə oxuyan valideynlər üçün digər fakültə yaradılarsa, onda həmin mövzuların quruluşunda bir qədər dəyişiklik etmək lazım gəlir. Hər yaş dövrünü xarakterizə etmək, bu yaş dövründə uşaqların ailə tərbiyəsi xüsusiyyətlərini açmaq və yaş xüsusiyyətlərini daim öyrənmək, onu nəzərə almağın zəruriliyini göstərmək üçün əlavə məşğələlər də keçirmək faydalı olar. Belə olduqda, məsələn, uşaqları aşağı siniflərdə oxuyan valideynlər üçün təşkil edilən fakültədə məşğələləri aşağıdakı kimi planlaşdırmaq olardı:

1. Ailədə uşaq tərbiyəsinin məqsəd və vəzifələri.
2. Kiçik məktəbyaşlı uşaqların fiziki və psixoloji inkişaf xüsusiyyətləri.
3. Kiçik məktəbyaşlı uşaqların yaş xüsusiyyətlərinin tərbiyədə nəzərə alınması.
4. Kiçik məktəbyaşlı uşaqların ailədə tərbiyə üsulları.
5. Kiçik məktəbyaşlı uşaqların mənəvi inkişafına ailədə kömək.
6. Kiçik məktəbyaşlı uşaqların ailədə estetik və bədən tərbiyəsi.
7. Kiçik məktəbyaşlı uşaqların ailədə əmək və əxlaq tərbiyəsi.
8. Kiçik məktəbyaşlı uşaqların kommunist tərbiyəsində valideynlərin məktəbə köməyi.

Uşaqları orta siniflərdə və uşaqları yuxarı siniflərdə oxuyan valideynlər üçün məşğələlərin mövzularını da bu cür dəqiqləşdirmək olar.

Məktəbəqədər yaşlı uşaqların ailə tərbiyəsi fakültəsinin müəllimlər üçün pedaqoji bilik fakültəsinin, şagirdlər üçün fakültənin və s. fakültələrin məşğələlərini də planlaşdırmaq vacibdir. Nəinki məşğələlərin mövzularını, hətta ayrı-ayrı mövzuların məzmununu da açmaq çox faydalı olar.

Respublikamızda fəaliyyət göstərən universitetlər ən çox valideynləri əhatə edir. Bununla yanaşı, müəllimlərə, uşaq bağçası işçilərinə, hətta şagirdlərə aid olan xalq universitetlərimiz də mövcuddur. Məsələn, Kirovabad şəhərindəki Nizami adına kino-teatrın nəzdində yaradılmış universitetin müdavimləri yuxarı sinif şagirdləridir. Bu universitet hər məktəbdən 10-a qədər şagirdi əhatə edir.

Xalq universitetlərinin böyük əksəriyyətində məruzəçilər müvafiq məktəblərin qabaqcıl müəllimləridir. Müəllimlərdən əlavə, universitetdə məruzə ilə çıxış etmək üçün başqa ixtisas sahibləri – həkimlər, hüquqşünaslar, milis işçiləri, partiya və sovet işçiləri, maarif, mədəniyyət və incəsənət işçiləri də dəvət olunmalıdır.

Xalq universitetlərində məşğələlər çox halda mühazirə şəklində təşkil olunur. Tək-tək hallarda isə oxunmuş məruzədən sonra onun məzmununa uyğun gələn kino-film də nümayiş etdirilir. Məşğələlərin başqa formalarından: disputlardan, sual-cavab axşamlarından, qabaqcıl sovet adamları ilə görüşlərdən, ekskursiyalardan və s-dən də istifadə olunması yaxşı nəticələr verərdi.

Bir çox rayonda xalq universitetlərinin işinə aid sənədlər saxlanmır, yaxşı iş nümunələri sənədləşdirilmir. Bununla yanaşı, öz fəaliyyətini müəyyən şəkildə işıqlandıran məruzəçilərin və müdavimlərin işini xarakterizə edən universitetlər də vardır. Onların şuraları əlyazmasında divar qəzeti və ya bülleten buraxır, foto-montaj, diaqram, sxem və s. hazırlayır, sərgilər düzəldir, şagird öz fəaliyyət kollektivlərin konsertlərini təşkil edirlər.

Bütün bunları nəzərə alaraq çalışmaq lazımdır ki, ayrı-ayrı rayon və şəhərlərdə xalq universitetləri şəbəkəsi genişlənsin, maarif şöbələrində, müəllim evlərində, mədəniyyət saraylarında kino-teatr nəzdində bu cür universitetlərin yaradılmasına qayğı artsın, xalq universitetlərinin mühazirəçilər qrupuna həkimlər, prokurorlar, milis işçiləri, mədəniyyət, incəsənət və elm xadimləri də daxil olsunlar, məşğələlər rəngarəng və yüksək səviyyədə olsun, universitetin işində kino-film nümayişindən, disputlardan, sual-cavab axşamlarından, qabaqcıl adamlarla görüşlərdən, ekskursiyalardan və s. kimi məşğələ formalarından da istifadə edilsin, nəinki yalnız valideynlər həm də müəllimlər, sinif rəhbərləri və digər maarif işçiləri üçün də universitetlər yaradılsın, onların fəaliyyətini işıqlandırmaq və yaxşı nümunələri təbliğ etmək məqsədilə xüsusi guşə düzəldilsin, divar qəzeti və bülletenlər buraxılsın, foto-montajlar hazırlansın, diaqramlar, sxemlər tərtib edilsin, sərgilər təşkil olunsun və s.

Bu sadaladığımız cəhətlər hər bir universitetin işində nəzərə alınarsa, universitet öz nəcib vəzifəsinin öhdəsindən ləyaqətlə gələr, pedaqoji biliklərin təbliğində, adamlarımızın kommunist tərbiyəsində görkəmli rol oynayır, nəticədə şagirdlərin təlim-tərbiyə işinin keyfiyyəti xeyli yüksələr. Deməli, müxtəlif növ xalq universitetlərinin təşkili, valideynlərin uşaq bağçası işçilərinin, müəllimlərin, sinif rəhbərlərinin və yuxarı sinif şagirdlərinin geniş universitet şəbəkəsi ilə əhatə olunması son nəticədə gənc nəslin kommunist tərbiyəsi xeyrinədir.

Xalq universitetlərinin işindəki nöqsanları aradan qaldırmaq və onların fəaliyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaq üçün bir çox əlavə tədbirlər görülməsi də faydalı olardı.

Universitetlərin hər bir fakültəsi üçün nümunəvi tədris planı və proqramı hazırlanmalıdır. Tədris planları və proqramlarının fakültələr üzrə tərtib olunması universitetlərin və fakültələrin təşkilindəki yeknəsəqliyi aradan qaldırmağa imkan verər, rayon (şəhər) xalq maarif

şöbələri, sovet və partiya təşkilatları pedaqoji biliklərin təbliği ilə məşğul olan bir neçə fakültə yaratmağa səy göstərərlər.

Hər bir fakültə üzrə tərtib olunmuş tədris planları və proqramlarını çap etdirmək, bütün xalq maarif şöbələrini və məktəbləri bu cür sənədlərlə təmin etmək lazımdır. İndi hər bir universitetin rəhbərliyi necə düşünürsə. Elə də proqram tərtib edir, nəticədə isə xeyli anlaşılmazlıq və çətinlik ortaya çıxır. Respublika üzrə vahid nümunəvi tədris planları və proqramlarının yerlərə göndərilməsi həmin dolaşıqlıq və çətinliklərin aradan qaldırılmasına imkan verərdi.

Pedaqoji bilikləri təbliğ edən universitetlər uçün əsasnamə və təlimati məktub hazırlamaq və rayonlara göndərmək vaxtı çatmışdır. Bu cür əsasnamə və təlimati məktub xalq universitetlərini yaratmaq, orada məşğələləri təşkil etmək, universiteti komplektləşdirmək, mühazirəçilər qrupu yaramaq və s. kimi görülməli işləri xeyli asanlaşdırardı.

Rayon və şəhər üzrə xalq universitetlərinin işinə vahid istiqamət vermək, ayrı-ayrı universitetlərin fəaliyyətindəki qüsurları aşkara çıxarmaq, nöqsanların aradan qaldırılmasına kömək etmək, qabaqcıl iş nümunələrini yaymaq məqsədilə rayon (şəhər) XMŞ nəzdində metodik şura yaratmaq faydalı olardı.

Üniversitetlərdə mühazirəçilərin işini asanlaşdırmaq, dinləyici valideynlərin təsəvvür və anlayışlarını konkretləşdirmək üçün ailədə uşaq tərbiyəsinin müxtəlif sahələrini əks etdirən kinofilmlər çəkilməsinə böyük ehtiyac duyulur. Dövri mətbuatda xalq universitetlərinin işini tez-tez işıqlandırmaq, mətbuat səhifələrində yaxşı iş təcrübəsinə aid fikir mübadiləsi təşkil etmək çox vacibdir.

Sistem şəklində həyata keçirilən bütün bu tədbirlər sovet adamlarının pedaqoji biliklərlə silahlanmasına müəllimlərin və digər maarif işçilərinin pedaqoji ustalığının daha da yüksəlməsinə kömək edər.

Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev yoldaş XXIV qurultaya hesabat məruzəsində demişdir ki, müasir elmi-

texniki tərəqqi şəraitində kadrların ixtisasının müntəzəm olaraq artırılması daha böyük əhəmiyyət kəsb edir.

Pedaqoji biliklərin təbliği ilə məşğul olan xalq universitetlərinin işinə XXIV qurultayın həmin tələbi baxımından da yanaşmalıyıq. Müəllimlərin və digər maarif işçilərinin pedaqoji ustalığının artırılmasında, sovet adamlarının pedaqoji biliklərlə silahlandırılmasında böyük əhəmiyyəti olan xalq universitetləri ümumi qayğı və daimi diqqət tələb edir.

**(«Azərbaycan məktəbi» jurnal, 1971, №6)**

## 44. PEDAQOJİ BİLİK XALQ UNİVERSİTETLƏRİNDƏ MƏŞĞƏLƏLƏRİN TƏŞKİLİNİ DAHA DA TƏKMİLLƏŞDİRMƏK HAQQINDA

Pedaqoji bilik xalq universitetləri məşğələlərinin mövcud məzmunu, təşkili üsulları və formaları ilə kifayətlənmək olarmı? Onları təkmilləşdirmək haqqında söhbət açmağa dəyərmi? Biz belə hesab edirik ki, pedaqoji bilik xalq universitetlərinin mövcud təcrübəsi ilə kifayətlənmək olmaz, onu təkmilləşdirməyə ehtiyac hiss edilir. Ümumiyyətlə, xalq universitetlərinin o cümlədən pedaqoji bilik xalq universitetlərinin təcrübəsini ətraflı öyrənib ümumiləşdirmək, əldə edilən müvəffəqiyyətləri müəyyənləşdirmək, müşahidə edilən nöqsanları aşkara çıxarmaq, onların aradan qaldırılması yollarını müzakirə obyektinə çevirmək və beləliklə, xalq universitetləri məşğələlərinin səmərəliliyi və keyfiyyətini artırmaq hazırda böyük əhəmiyyət kəsb edir.

İndiki söhbətimizdə istərdik ki, diqqəti pedaqoji bilik xalq universitetlərinin yalnız bir cəhətinə – məşğələlərin tşkilinin bəzi problemlərinə cəlb edək. Sual olunur: fəaliyyət göstərən pedaqoji bilik xalq universitetlərini qruplaşdırmaq mümkündürmü? Nəinki mümkündür, hətta deyərdik ki, zəruridir! Pedaqoji bilik xalq universitetlərinin

qruplaşdırılması, hər şeydən əvvəl, onların işinə konkret yanaşmağa imkan verir.

Pedaqoji bilik xalq universitetlərini iki əsas qrupa ayırmaq mümkündür. Bir qrupa maarif işçilərini, o cümlədən müəllimləri əhatə edən xalq universitetlərini. Digər qrupa isə valideynləri əhatə edən xalq universitetlərini daxil etmək olar. Bu iki qrup pedaqoji bilik xalq universitetlərini bir-birindən fərqləndirən başlıca xüssusiyyətlər hansılardır? Hər ikisi pedaqoji bilik xalq universitetləri olsa da, onların arasında köklü fərq vardır. Bu fərq, birinci növbədə ixtisasla və şəraitlə ağlıdır. Maarif işçilərinə aid olan xalq universitetləri xüsusi pedaqoji təhsil almış ixtisas sahiblərini əhatə edir. Bunlar eyni sahədə çalışan mütəxəssislərdir. Belə mütəxəssislər ictimai tərbiyənin qanunlarına aid ixtisas biliklərinə malikdirlər. İkinci qrupa aid olan xalq universitetlərinin əhatə etdiyi şəxslərin, yəni valideynlərin ixtisas təhsili olmaya bilər. Valideynləri əhatə edən xalq universitetlərinin fəaliyyət dairəsi ictimai tərbiyə problemləri ilə deyil, əsasən ailə tərbiyəsi ilə əlaqədar olur.

Maarif işçilərini əhatə edən xalq universitetlərinin başlıca məqsədi onları ixtisasın artırılmasına kömək edən müasir bilik və bacarıqlarla silahlandırmaqdan ibarətdirsə, valideynləri əhatə edən xalq universitetlərinin əsas məqsədi onların ixtisası ilə deyil, ailədə uşaqların tərbiyəsi ilə əlaqədar olan bilik və bacarıqlarla valideynləri silahlandırmaqdan ibarətdir. Bu cür köklü xüsusiyyətlər, təbii ki, pedaqoji bilik xalq universitetlərinin işinin həm məzmununda, həm üsullarında, həm də təşkili formalarında hökmən nəzərə alınmalıdır.

Müəllimlərin təkmilləşdirmə sistemi ilə pedaqoji bilik xalq universitetlərinin əlaqəsi varmı? Varsa, bu əlaqə nədən ibarətdir?

Məlumdur ki, maarif işçilərinin başlıca istehsal sahəsi təlim-tərbiyə müəssisələridir. İstehsalatın səmərəliliyinin artırılmasına, ixtisasın təkmilləşdirilməsinə yönələn pedaqoji bilik xalq universitetlərinin işi müasir pedaqoji

prinsiplər əsasında qurulduqda mütəxəssis maarif işçilərinə, müəllimlərə lazım olan yaradıcılıq və təşəbbüskarlıq meylləri onlarda güclənir, onlar maarifi daha intensiv şəkildə inkişaf etdirməyin, təlim-tərbiyə işinin keyfiyyətini yaxşılaşdırmağın vacib vasitələrindən birinə çevrilir. Bu baxımdan Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Xalq təsərrüfatı mütəxəssisləri ixtisasının artırılması sisteminin təkmilləşdirmək haqqında» qərarının xalq universitetlərinin də işini yaxşılaşdırmaq üçün böyük əhəmiyyəti vardır.

Maarif işçilərini əhatə edən xalq universitetləri ixtisası artırmağa xidmət etdiyindən, həmin universitetlər mütəxəssislərin təkmilləşdirilməsi sisteminə daxil edilməlidir.

Maarif işçilərini əhatə edən xalq universitetlərinin təkmilləşdirmə sisteminə aid olması o deməkdirmi ki, müəllimləri təkmilləşdirmə kurslarında tətbiq olunan iş üsulları pedaqoji bilik xalq universitetlərində də tətbiq edilməlidir? Müəllimləri təkmilləşdirmə kurslarında tətbiq olunan iş üsulların və formalarının pedaqoji bilik xalq universitetlərində mexaniki şəkildə tətbiqi səmərə vermir. Çünki pedaqoji bilik xalq universitetləri müəllimləri təkmilləşdirmə kurslarından bir sıra cəhətlərinə görə fərqlənir. Məsələn, birincinin işi könüllülük prinsipi əsasında, ikincinin işi isə məcburilik prinsipi əsasında qurulur; yaxud birincinin işində iştirak etmək üçün müəllimlər tədris işindən müvəqqəti də olsa yayılır, ikincinin işində iştirak etmək üçün müəllimlər tədris işindən ayrıla bilir və s. Buna görə də müəllimləri təkmilləşdirmə kursları işinin məzmununun üsulları və formalarını mexaniki şəkildə maarif işçilərini əhatə edən xalq universitetlərinə köçürmək o qədər də fayda vermir. Əslində, müəllimləri əhatə edən pedaqoji bilik xalq universitetlərində bu cür halları, yəni təkmilləşdirmə kursları işinin məzmununu, üsulları və formalarını qismən də olsa xalq universitetlərinə köçürmək hallarına rast gəlirik. Xalq universitetlərində müxtəlif iş formaları arasında mühazirə və məruzələrə üstünlük verilməsi, təkmilləşdirmə kurslarının proqramında nəzərdə

tutulmuş bir çox məsələlərin xalq universitetləri proqramında təkrar edilməsi və s. buna misal ola bilər.

Pedaqoji bilik xalq universitetlərinin iş üsulları və formalarının müəyyənləşdirilməsi və tətbiqində mühazirə ilə yanaşı digər spesifik üsul və formalardan da geniş istifadə edilməlidir. Lakin ortaya belə bir sual çıxır. Pedaqoji bilik xalq universitetlərində hansı iş üsulları üstünlük təşkil etməlidir? Mühazirə və məruzə, yoxsa, müzakirə və disput? Bizcə, pedaqoji bilik xalq universitetlərində tətbiq edilən iş üsulları və formaları arasında canlı müzakirə, mübahisə və disput üstünlük təşkil etməlidir. Bu üstünlüyün zəruriliyi onunla izah edilir ki, universitetlərin hər bir dinləyicisində – isər müəllimdə, istərsə də valideyndə müzakirə olunan tərbiyə məsələləri üzrə həmişə müəyyən pedaqoji bilik və bacarıqlar minimumu olur. Belə bir müvafiq pedaqoji bazanın mövcudluğu universitet təşkilatçılarına imkan verir ki, həmin bazaya istinad edərək universitet dinləyicilərini məşğələ zamanı maksimum dərəcədə fəallaşdırsınlar.

Bunula əlaqədar olaraq soruşula bilər: Pedaqoji bilik xalq universitetlərinin məşğələləri zamanı hazırda təlim-tərbiyənin əməli cəhətindən, yoxsa nəzəri cəhətindən çıxış edilir. Etiraf etməliyik ki, pedaqoji bilik xalq universitetlərinin iş təcrübəsində təlim-tərbiyənin, əsasən əməli cəhətlərindən deyil, onun nəzəri cəhətlərindən daha çox söhbət açılır. Daha dəqiq desək, pedaqoji bilik universitetlərində oxunan məruzələr başlıca olaraq mücərrəd xarakter, nəzəri xarakter daşıyır. Xalq universitetlərinin indiki şəraitdə lazımi səmərə vermədiyinin səbəblərindən biri də elə məşğələlərin ümumi, mücərrəd xarakter daşımasındadır.

Sual olunur: Pedaqoji bilik xalq universitetlərinin məşğələlərində pedaqoji təcrübə ilə pedaqoji nəzəriyyə arasında nisbət necə həll edilməlidir? Təlim-tərbiyə təcrübəsindən pedaqoji nəzəriyyəyə yüksəlmək, yoxsa ümumi pedaqoji nəzəriyyədən təlim –tərbiyə təcrübəsinə enmək daha çox səmərə verər? Pedaqoji bilik xalq universitetlərinin xüsusiyyətləri nəzərə alınarsa, məşğələlərdə təlim-tərbiyənin, hər şeydən əvvəl, əməli

məsələlərinin müzakirə və mübahisə obyektinə çevrilməsi məsləhətdir. Təlim-tərbiyə işinin əməli, təcrübi məsələlərinin müzakirəsi əsasında onun nəzəri problemləri xalq universitetlərinin məşğələlərində təhlil edilib öyrənilməlidir. Pedaqoji bilik xalq universitetlərinin məşğələlərində nəzəriyyədən əməli işə enmək deyil, təlim-tərbiyənin əməli işindən pedaqoji nəzəriyyəyə yüksəlmək onun iş prinsiplərindən birinə çevrilməlidir.

Məlum olduğu kimi, xalq universitetlərinin məşğələləri iki tərəfin məşğələ rəhbəri ilə məşğələ iştirakçılarının birgə fəaliyyəti şəklində özünü göstərir. Belə olduqda xalq universitetlərinin indiki təcrübəsində məşğələ rəhbərinin və iştirakçıların başlıca funksiyaları nədən ibarət olur? Məşğələlərin mövcud təcrübəsində özünü göstərən başlıca xüsusiyyətlərdən biri budur ki, məşğələ rəhbəri fəal, iştirakçılar isə passiv olurlar. Məşğələ rəhbərinin fəallığı nəinki mövzunun qoyuluşunda ifadə olunmasında, şərh planının verilməsində, həm də plan üzrə mövzunun şərh edilməsində özünü göstərir; bütün məsələləri təfərrüatı ilə məruzəçi özü izah edir. Bəs, belə bir şəraitdə məşğələnin iştirakçılarına nə qalır? Sadəcə olaraq əyləşmək və məruzəçini dinləmək, tək-tək halda isə sual vermək! Deməli, pedaqoji bilik xalq universitetlərində müasir məşğələlərin böyük əksəriyyətinin başlıca xüsusiyyətlərindən biri məşğələ rəhbərinin fəallığı, iştirakçıların isə passivliyidir. Xalq universitetləri fəaliyyətinin az səmərə verməsinin səbəblərindən birini də biz bunda görürük. Məşğələ iştirakçısının özü fəal olmadıqda, qonaq kimi əyləşdikdə qoyulan məsələlərlə bilavasitə qaynayıb-qarışmadıqda, müşahidəçi rolunu oynadıqda, məşğələnin yaradıcısı kimi özünü hiss etmədikdə darıxmağa başlayır, məruzənin nə vaxt qurtaracağını səbirsizliklə gözləyir.

Bəs, məşğələ zamanı onun rəhbəri ilə iştirakçıları arasında funksiyalar necə bölüşdürülsə məşğələnin səmərəliliyi daha yüksək olar? Təcrübə göstərir ki, pedaqoji bilik xalq universitetlərinin məşğələlərini bu cəhətdən də təkmilləşdirmək, məşğələ rəhbərinin və iştirakçıların

funksiyalarını dəqiqləşdirmək vaxtı çatmışdır. Biz belə hesab edirik ki, məşğələ rəhbərinin başlıca funksiyası məşğələ zamanı iştirakçıların fikri fəaliyyətini təşkil etməkdən, iştirakçıların başlıca funksiyası isə məşğələdə qoyulan məsələlər ətrafında düşünməkdən müzakirə edilən məsələ barədə öz fikrini bildirməkdən, fəallıq göstərməkdən ibarət olmalıdır.

Məşğələnin daha canlı, daha işgüzar şəkildə keçirilməsini təmin etməkdən ötrü, iştirakçıların fikrini istiqamətləndirmək məqsədilə müzakirə olunacaq problemi, problem üzrə əlaqədar bəzi sualları, istifadə olunacaq mənbələri əvvəlcədən iştirakçılara bildirmək mümkündür. Belə bir tərzdən istifadə etmək bir də ona görə məsləhətdir ki, indi televiziya, radio, kitab, jurnal, qəzet artıq hər bir evə geniş yol açmışdır. Məşğələlərin təşkilində bu imkanlardan istifadə etməmək olmaz.

Pedaqoji bilik xalq universitetlərində məşğələlərin mövcud mövzularını və məzmununu təkmilləşdirmək mümkündürmü? Bəli, mümkündür və buna ehtiyac hiss edilir. Pedaqoji bilik universitetlərinin əksəriyyətinin proqramları eyni mövzu və eyni məzmunda, demək olar ki, ildən-ilə təkrar edilir. Təlim -tərbiyənin yeni və aktual məsələlərinə pedaqoji bilik xalq universitetlərinin proqramlarında az yer verilmişdir. Təlim-tərbiyənin səmərəliliyini şərtləndirən bir sıra sosial-etik məsəllər isə pedaqoji bilik xalq universitetlərinin proqramlarında heç nəzərə alınmır. Halbuki tərbiyə işi ilə bilavasitə bağlı olan bir sıra sosial-etik məsələlərin müzakirə edilib öyrənilməsi ümumi işə böyük fayda verər.

Konkret olaraq hansı sosial-etik məsələləri pedaqoji bilik universitetlərinin məşğələlərində müzakirəyə qoymaq olar? Sosial-etik məsələ kimi kollektiv buna misal ola bilər. Pedaqoji kollektivin elə bir məsələsi yoxdur ki, tərbiyə işi ilə bu və ya digər şəkildə bağlı olmasın. Məlum olduğu kimi, kollektivin, o cümlədən pedaqoji kollektivin tərbiyəvi imkanları genişdir. Biz şagird kollektivini deyil, məhz pedaqoji kollektivi, müəllimlər kollektivini nəzərdə tuturuq.

Adətən, şagird kollektivi haqqında onun tərbiyəvi imkanları haqqında çox yazılır və çox danışılır. Lakin müəllim kollektivinin problemləri xeyli dərəcədə diqqətdən yayınmışdır.

Pedaqoji kollektivdə tərbiyənin konkret vəzifələrindən biri kollektivin sosial yetkinlik dərəcəsini yüksəltməkdən ibarətdir. Pedaqoji kollektivin sosial yetkinlik dərəcəsi isə bu kollektiv qarşısında cəmiyyətin qoyduğu sosial vəzifələrin öhdəsindən onun necə gəldiyi ilə ölçülür. Pedaqoji kollektiv qarşısında duran sosial vəzifələrin yüksək səviyyədə yerinə yetirilməsi bir sıra məsələlərin düzgün həllindən asılı olur. Məsələn, kollektivin vəzifələrini onun ayrı-ayrı üzvləri nə dərəcədə aydın təsəvvür edir? Bu vəzifələrin yerinə yetirilməsi üçün onlar necə səy göstərirlər? Hər bir müəllim öz şəxsi mənafeyini məktəb kollektivinin ümumi mənafeyi ilə nə dərəcədə uyğunlaşdıra bilir? Kollektivin üzvləri arasında qarşılıqlı dostluq və yoldaşlıq münasibətləri nə dərəcədə inkişaf etmişdir? Yoldaşlıq və dostluq əlaqələri kollektivin ümumi işinə nə dərəcədə kömək edir? Məktəbin rəhbərliyi kollektivin üzvlərini nə dərəcədə səfərbər edə bilir? Rəhbərlikdə bəzi müəllimlər arasında, habelə ayrı-ayrı müəllimlər arasında, məktəbin fəalları ilə qeyri-fəalları arasında, təşkilatçılarla qeyri-təşkilatçılar arasında yarana bilən konfliktlər kollektivin xeyrinə necə aradan qaldırılır? Hər bir müəllimin yaradıcılıq və təşəbbüskarlığından kollektivin xeyrinə nə dərəcədə səmərəli istifadə edilir? Ayrı-ayrı müəllimlərlə və ya ümumi işlə əlaqədar tədbirləri müəyyənləşdirən və həyata keçirən zaman pedaqoji kollektivdə ictimai rəy nə dərəcədə nəzərə alınır?

Biz belə bir əqidədəyik ki, məktəb kollektivi ilə əlaqədar olan bu cür məsələlrin maarif işçilərini əhatə edən xalq universitetlərində geniş müzakirə edilməsi pedaqoji kollektivin tərbiyəvi imkanlarının daha geniş üzə çıxarılmasına və bu imkanlardan tam istifadə edilməsinə imkan yaranar, pedaqoji kollektivin daha da möhkəmləndirilməsinə və nəticədə, məktəb qarşısında

qoyulmuş başlıca sosial vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsinə kömək edir. Unutmaq olmaz ki, bəşəri ehtiyaclarının kollektivdə ödənildiyini görən şəxs bu kollektivdən məmnun olur. İşlədiyi kollektivə bağlanır, həmin şəxsin təşəbbüskarlığı, əmək şücaəti qat-qat artır. Öz mənəvi və maddi ehtiyaclarının kollektivdə lazımınca ödənildiyini görməyən şəxslər isə işlədiyi kollektivdən razı qalmır. İmkan düşdükdə oradan getməyə səy göstərirlər.

Şəxsiyyət və kollektiv haqında K.Marksın vaxtilə dediyi sözləri burada xatırlamaq yerinə düşərdi. O, yazırdı: «fərd öz daxili imkanlarını inkişaf etdirməyə yardım edən vasitələri yalnız kollektivdə tapır».

Pedaqoji kollektivin tərbiyəvi imkanlarının üzə çıxarılması və ondan istifadə edilməsi məsələlərinin xalq universitetlərində müzakirə olunması Sov.İKP MK və SSR Nazirlər Sovetinin «Xalq təsərrüfatında əmək intizamını daha da möhkəmlətmək və kadrların axıcılığını azaltmaq haqqında»kı qərarının maarif sahəsində həyata keçirilməsinə də kömək edər.

**(«Azərbaycan məktəbi» jurnalı, 198, №9)**

## 45. ОБ УСЛОВИЯХ ФОРМИРОВАНИЯ ПЕДАГОГИЧЕСКИХ СПОСОБНОСТЕЙ У СТУДЕНТОВ

Успешность каждой профессии требует от специалиста любой отрасли народного хозяйства соответствующих способностей, педагогическая профессия тут не исключение: и они требует от учителя определенные способности.

К педагогическим способностям мы относим: умение сочетать требовательности к воспитуемым с любовью к ним; умение вести систематическое наблюдение над воспитуемым, подмечать проявление в их личности новых особенностей и учесть эти особенности в своей работе; максимальная терпеливость по отношению к устранению недостатков воспитуемых; вера в успешность своих

взвешенных педагогических шагов, преданность своему педагогическому делу и др.

Факты показывают, что эти способности у студентов формируются не в одинаковой степени: их развитие у одних студентов идет ускоренным темпом, а у других - медленно, незаметно.

На темп развития педагогических способностей студентов оказывает существенное влияние ряд факторов. Среди них следовало бы выделить две группы факторов:

1) характер учебной деятельности студентов, обусловленный особенностями деятельности педагогов;

2) условия, тот морально-психологический климат, при котором протекает их деятельность.

Установлено, что лекции, семинарские, практические и лабораторные занятия тех педагогов, которые обеспечивают максимальную умственную и практическую активность студентов; ускоряют развитие их педагогических способностей; педагогики, которые безразличны к. активности студентов в аудиторных занятиях, мало способствуют труду.

Условия учебной деятельности студента также оказывает существенное влияние на успешность формирования его педагогических способностей. К таким условиям следовало бы отнести не только чисто бытовые условия, не только оснащенность кабинетов и лабораторий, библиотеки необходимым учебным оборудованием, книгой; но также и морально-психологический климат в институте степень справедливости преподавателей по отношению к студентам, степень их объективности в оценке знаний, степень ответственного отношения студентов к своим общественным обязанностям, степень объективности оселки результатов труда преподавателей и др.

Следовало бы иметь в виду, что пробуждение с первого курса у студентов вкуса педагогическому мышлению и учебно-воспитательному труду затем становится

серьезный рычагом самостоятельного их продвижения по лестнице овладения педагогическим способностям.

Надо принять во внимание и характер отношений студентов на старание педагогов. Дело в том, что студенты не в одинаковой степени правильно понимают стремления своих педагогов; часть из них не своевременно делает должные выводы из их методики работы и по разному перестраиваются. Поэтому педагогик должны проявлять дополнительную заботу о формировании у своих студентов ряда особенностей, необходимых для успешности развития в них педагогических способностей. К таким способностям можно отнести: настойчивость, максимальную активность студентов в изучении теории и практики учебно- воспитательной работы; углубленность их интереса к педагогическому труду: содержательное понимание ими общественно-политического смысла учительской профессии; умение разумно планировать свою учебную и научную деятельность: осознание необходимости упражнения за годы обучения в различных видах педагогическою труда; стремление воздерживаться от ряда отрицательно влияющих внешних факторов

Настойчивость, максимальная активность студентов в овладении теоретическими знаниями и практическими умениями - одно из важных условий успешною формирования в них педагогических способностей. Не всякая деятельность студента механически обеспечивает максимальную эффективность развития соответствующих ею способностей, без настойчивости в преодолении трудностей в учебной деятельности ни один студент не может добиваться эффективности развития своих способностей.

Немаловажное значение имеет характер отношений студентов к объектам своей деятельности, к усваиваемым педагогическим знаниям, к конкретным педагогическим фактам и явлениям. Студенты, которые сознательно относятся к какому педагогическому факту, явлению,

которые каждый раз стараются вникнуть в суть этих явлений, стремятся самостоятельно найти обоснованные ответы относительно причин, порождающих эти наблюдаемые педагогические явления, могут найти верные пути и средства и таким образом ускорить развитие своих способностей. Педагогическая профессия требует не только постоянною наблюдения педагогических факторов, углубленного размышления над ними, но и ответственного отношения к ним, выражающеюся в рассмотрении их как жизненно важными компонентами успешной педагогической деятельности. Рассмотрение студентами осознанных педагогических знаний и явлений как необходимые условия успешности педагогической деятельности способствует мобилизации своих познавательных возможностей, развивает психические функции, повышает наблюдательность, содействует формированию целеустремленности в подходе к явлениям окружающей жизни, к педагогическим явлениям.

В каждой группе студентов, в каждом курсе в институте в целом необходимо создавать такую психологическую атмосферу, при которой каждый студент вынужден был из курса в курс наращивать усилия по углубленному овладению педагогическими знаниями и умениями.

**(Тезисы докладов республиканской научно практической конференции «Основы формирования личности студентов» Баку, 1985)**

## 46. ƏGƏR XALQINI SEVİRSƏNSƏ ONUN DİLİNİ MÜKƏMMƏL ÖYRƏN VƏ QORU

Doğma dilimiz haqqında nə qədər deyilsə, nə qədər yazılsa, yenə də azdır. Çünki ana dili anamızın dilidir. Anaya hörmət, anaya ehtiram həm də onun dilinə hörmət və ehtiramdır.

Doğma dilimiz haqqında bu sözləri deməyə məni vadar edən müşahidələrimdir. Bəzi idarə başçıları hansı səbəbdənsə ana dilində danışmır rəsmi yığıncaqlarda rus dilində danışır və təbiidir ki, belə idarələrdə sənədlər də rus dilində yazılır. Bu cür hallar xalqın nümayəndəsi kimi məni çox düşündürür. Öz-özümə sual verirəm: özünü azərbaycanlı hesab edən belə idarə başçıları nə üçün öz doğma dilində danışmasın? Nə üçün idarəsində yazı-pozunu ana dilində apartdırmasın?

Bu cür suallara cavab axtararkən belə qənaətə gəlmişəm ki, bunun bir neçə səbəbi vardır. Əvvəla, bu cür idarə başçılarından bəziləri Azərbaycan dilini yaxşı bilmədiyindən və rus dilini daha mükəmməl bildiyindən bu dildə danışır, kargüzarlığı da bu dildə aparır.

Bir qrup idarə başçıları rus dilini Azərbaycan dili kimi pis bilsə də, rus dilində danışmağı üstün tutur və belə hesab edir ki, rus dilində danışmaq mədəniyyət əlaməti, inkişaf əlamətidir; beləlçri Azərbaycan dilində danışmağı özünə ar bilir.

Ədalət naminə etiraf olunmalıdır ki, Azərbaycan SSR Konstitusiyasının 73-cü bəndinin ikinci hissəsinə əsasən Azərbaycan ərazisində yaşayan vətəndaşlar istədikləri dildə danışmaq hüququna malikdirlər. Bu, əlbəttə, Lenin milli siyasətinin təntənəsinə daha bir sübutdur. Bu, məsələnin hüquqi tərəfi, lakin onun əxlaq tərəfi də vardır.

Öz xalqı ilə onun doğma dilində danışmayan idarə başçıları tabeliyində olan şəxslərə və həmin idarələrlə bu və ya digər şəkildə təmasda olan adamlara mənəvi cəhətdən təsir göstərirmi? Bəli, göstərir, özü də mənfi təsir.

Doğma dildə danışmayan, danışmağı bacarmayan və ya bunu özünə ar bilən şəxslər ətrafındakılara zərərli nümunə verir, zərərli psixoloji təsir göstərir. İdarədə danışığını, dərkənarın, yazı-pozunun ana dilində getmədiyinə görə başqaları da düşünməli, özü üçün qüsurlu nəticə çıxarmalı olur. Güman edir ki, ana dilini öyrəməyə ehtiyac yoxdur. Bu cür münasibət dilimizə qarşı böyük nankorluqdur.

Uşaqlarına doğma dildə təhsil verməyən valideynlərin gəldiyi nəticənin kökünü də burada axtarmaq lazımdır. Durğunluq dövrünün Azərbaycan xalqına vurduğu mənəvi

zərbələrdən biri məhz onun dilini məhdudlaşdırmaq meyli idi. İctimai-siyasi həyatın bu kölgəli cəhətini görən, dillə əlaqədar başı bəlalar çəkən bəzi valideynlər öz uşaqlarını qeyri – ana dilində bağçaya, məktəbə, instituta qoyanda düşünürdü və bir çoxları indi də düşünür: «rus dilini bilmədiyimdən işdə çətinliklərlə qarşılaşmışam. Qoy uşağım rus dilində oxusun, Azərbaycan dilini sonra da öyrənər».

Bəlamız həm də burasındadır ki, rus dilini yaxşı bilməyən bəzi valideynlərimiz uşağı rus dilində danışmağa çalışır; sözlərin bir qismini rusca, bir qismini azərbaycanca deyir, qrammatik qaydalara əməl etmir. Nəticədə uşaq dillərin heç birini səlis öyrənə bilmir, onun nitq qüsurlarını sonralar düzəltmək məktəb üçün müşkül işə çevrilir.

Dediklərimdən belə bir nəticə çıxartmaq düzgün olmazdı ki, guya biz digər dilləri öyrənməyin tərəfdarı deyilik. Aydındır ki, adam nə qədər çox dil bilsə, bir o qədər ünsiyyətli bir o qədər mənəviyyatca zəngin olar. Biz xüsusilə rus dilini mükəmməl öyrənməliyik. Çünki ölkəmizdə rus dili millətlərarası ünsiyyət vasitəsidir. Azərbaycan xalqının M.F.Axundov, N.Nərimanov, Ü.Hacıbəyov, Q.Qarayev, F.Əmirov, S.Vurğun kimi görkəmli maarif və mədəniyyət xadimləri rus dilini də Azərbaycan dili qədər mükəmməl bilmişlər.

Ana dili və rus dili bizim qoşa qanadlarımızdır. Quş bir qanadsız uça bilmədiyi kimi, hər hansı azərbaycanlı da rus dilini bilmədən yalnız Azərbaycan dili ilə, yaxud Azərbaycan dilini lazımınca bilmədən yalnız rus dili ilə öz xalqını yüksəldə və öz xalqının qarşısında ucala bilməz. Biz rus dilini də doğma dilimiz qədər dərindən mənimsəməliyik. Lakin söhbət rus dilini necə öyrənməkdən gedir.

Uşaq əvvəlcə doğma dili mükəmməl bilməlidir, sonra bu əsasda rus dilini öyrənməlidir. Niyə belə olmalıdır?

Birincisi, dönə-dönə isbat olunmuşdur ki, uşaq hər hansı başqa dili ana dilinin zəminində asan mənimsəyə bilir. Çünki qeyri-ana dilində müəyyən sözün mənasını aydın başa düşmək üçün uşaq həmin sözün ana dilində müqabilini yada salmalı, onunla tutuşdurmalı və müəyyən nəticəyə gəlməli

olur. Ana dilini bilmədikdə və ya yaxşı bilmədikdə uşaq öyrənmək istədiyi dildəki sözləri müqayisə etmək, müqabilini tapmaq imkanından məhrum olur, dilin xüsusiyyətlərini, incəliklərini mənimsəmək çətinləşir.

İkincisi, ana dilində təhsil almayan uşaq doğma dilin gözəlliyindən məhrum olur. Belə uşağın söz ehtiyatı adətən olduqca məhduddur, danışan zaman daha münasib sözü seçməkdə çətinlik çəkir. Atalar əbəs yerə deməyib: «Söz var şöhrət gətirər, söz var-töhmət».

Üçüncüsü, adam öz hiss və həyəcanlarını, fikirdəki çalarları ana südü ilə qanına, canına hopmuş doğma dildə daha səlis, daha aydın ifadə edə bilir. Bu da adama baş ucalığı gətirir. Aqillər demişkən: «Söz var dağa qaldırır, söz var dağdan endirər».

Dördüncüsü, doğma dili körpəlikdən mənimsəməyən uşaq aid olduğu xalqın müdrikliyindən uzaq düşür. Azərbaycan xalqının gözəl məramlı nağıllarından, dərin mənalı atalar sözləri və zərb-məsələlərindən məhrum olur, xalqın qəhrəman tarixinin səhifələrini açan dastanlardan rəvayətlərdən xəbərsiz qalır, onun gözəl adət və ənənələrini yığcam ifadə edən bayatıların, diləklərin, yanıltmacların, tapmacaların duzunu dadmır və s.

Məni belə bir sual da düşündürür: görəsən öz xalqının dilində danışmağın və ya danışmamağın vətənpərvərliyə dəxli varmı? Məncə, əsl vətənpərvərlik, həm də öz elini, obasını, xalqının dilini, ənənələrini, ədəbiyyatını, musiqisini, mədəniyyətini, tarixini şəxsən sevmək, sevdirmək, özündə və övladlarında yaradaraq inkişaf etdirməkdir.

Əgər mən özümü azərbaycanlı hesab edirəmsə, lakin Azərbaycan dilini özümdə və balalarımda yaşatmıramsa, xalqımın dilində danışmıramsa, ədəbiyyatını, mətbuatını oxumuramsa, onun dilində verilişlərə qulaq asmıramsa, tamaşalarına baxmıramsa, deməli, mən xalqdan, eldən, obadan ayrılıram.

Ana dilindən üz çevirməyin sosial səbəblərindən biri də Azərbaycan dilində uşaq bağçalarının və məktəblərin az açılmasıdır. Belə bir acı həqiqət etiraf olunmalıdır ki,

respublikamızın iri şəhərlərində, xüsusən Bakıda Azərbaycan dilində bağçalar və məktəblər ehtiyaca nisbətən az açıldığıqdan bir çox valideynlər məcburiyyət qarşısında qalıb uşaqlarını rus dilli bağçalara və məktəblərə qoyurlar. Məsələn, Bakı şəhərinin Sabunçu qəsəbəsində beş məktəbdən yalnız biri Azərbaycan dilində olduğundan, ərazinin ehtiyacını ödəmək mümkün deyildir. Buna görə də valideynlər haqlı narazılıqlarını bildirirlər. Belə bir şərait Lenin milli siyasətinin nüfuzuna xələl gətirməyə bilməz. Müvafiq sovet orqanları vəziyyətin normallaşdırılması üçün təcili tədbirlər görməlidir.

**(«Azərbaycan gəncləri» qəzeti, 1989, 1 aprel)**

## 47. ДОРОГА К МАСТЕРСТВУ

ЗНАЕТЕ, без чего не может обойтись в своей работе учитель? Без общения. С учениками – это само собой, с их родителями – как же без дружбы с ними успешно работать? Но главное – с коллегами. Так необходимо поделиться опытом и позаимствовать опыт, разрешить возникшие сложности и сомнения, узнать, как трудятся, что ищут, над чем работают другие учителя, другие педагогические коллективы.

Где возможно такое общение? Любой учитель без труда перечислит: методическое объединение, - педагогический совет, тематический семинар, учительские конференции. Не забудьте при этом, пожалуйста, и Педагогическое общество Азербайджанской ССР, которое было создано десять лат назад.

Смысл его работы и сводится как раз к созданию условий и возможностей для разностороннего и постоянного общения школьных учителей, преподавателей училищ, техникумов, вузов.

Формы этого общения самые разные. К примеру, участие в научно-практических конференциях, на которых обсуждаются такие серьезные вопросы, как комплексный

подход к коммунистическому воспитанию учащихся, воспитание их на примере жизни и деятельности В.И.Ленина, формирование у молодежи активной жизненной позиции. Интересно проходят и конференции, на которых учителя обмениваются опытом роботы. В этих мероприятиях активно участвуют не только учителя, но и методисты, ученые, и тем обеспечивается единство педагогической теории и практики.

Взаимное обогащение передовым педагогическим опытом происходит и во время встреч учителей города и села. Эффективной была, скажем, поездка учителей Орджоникидзевского района в школы Зангеланского, Кубатлинского н Джебраильского районов, где они поделились с коллегами опытом преподавания русского языка.

Выявлению и распространению передового педагогического опыта способствуют также конкурсы, которые проводит Педагогическое общество. Тематика их разнообразна, актуальна и привлекает вниманий наших активистов. Интересно прошли конкурсы, посвященные совершенствованию методов преподавания азербайджанского языка и литературы, воспитанию учащихся в духе социалистического интернационализма. Этот конкурс был посвящен 60-летню образования СССР.

Лучшие работы по достоинству были оценены конкурсной комиссией. Их авторы – Г.Мамедов, учитель Аваранской сельской школы Кусарского района, представил работу «Использование программированных карточек по фольклору на уроках литературы»; учитель Ферджанской сельской школь) Кубатлинского района С. Севдималиев – за работу «Использование парадоксов и сравнений на уроках языкам, учитель Кишской сельской школы Шекинского района Ш.Мамедов – за работу «Устранение диалектизмов в речи учащихся». Все они были отмечены денежными премиями. Для этого Педагогическое общество располагает соответствующими средствами.

Активисты общества успешно выступили на последних Всесоюзных педагогических чтениях, которые состоялись в Ереване. Среди них Л.Нанай, учитель школы №2 18 Кировабада, Н.Гурдгелия – из Баладжарской железнодорожной школы №3 2. преподаватель ПТУ №3 Н.Исаева, учителя школы №1 в Исмаиллах М.Рзаев, Сумгаитской школы №23 В.Огородников и другие. Их доклады отмечены Почетной грамотой президиума Педагогического общества республики, денежной премией.

Мы стараемся расширить кругозор членов общества, предоставить им возможность бесплатно поездить по городам и республикам страны, по братским социалистическим странам. Были организованы такие познавательные поездки на Украину, в Болгарию для почти трехсот активистов.

Хочу с благодарностью сказать о той большой организаторской, методической работе, которую с энтузиазмом ведут на общественных началах председатели более семидесяти городских и районных отделений Педагогического общества республики, тысячи Председателей его первичных организаций, которые созданы в большинстве крупных школ.

Плодотворно работают и проблемные секторы при республиканском совете общества. Президиум общества периодически анализирует их деятельность, наиболее значительные работы – отмечены, а активисты проблемных секторов по методике преподавания русского языка, азербайджанского языка и литературы, истории, начального образования и других получили денежные премии.

Эффективно работает и народный университет педагогических знаний. Здесь на занятиях учителя, директора школ получают необходимые теоретические мания, идейную закалку.

Опыт показывает, что активист Педагогического общества – это передовой учитель, творчески относящийся к делу. Он неутомимо совершенствует свое профессиональное мастерство, он всегда в поиске, готов

щедро поделиться своими знаниями и опытом, с интересом относится к опыту коллег, у него широкий кругозор, активная жизненная позиция, он всегда помнит, что является бойцом идеологического фронта.

Рядом с безусловными успехами в работе Педагогического общества и особенно - на местах немало недостатков. Прежде всего – не все учителя школ, преподаватели училищ, техникумов, вузов считают для себя обязательным быть членом Педагогического общества. Пока в его рядах всего 53 тысячи учителей и преподавателей. Многое здесь зависит от внимания районных отделов народного образования к нашей работе, от деятельности организаций Педагогического общества на местах. Скажем, в Куткашенском, Кельбаджарском, Астаринском, Сабирабадском, Апшеронском районах она ведется из рук вон плохо. И здесь мы, не снимая с себя ответственности, ждем серьезной помощи прежде всего от роно.

Тяжело работать и штабу общества – его президиуму. Нет у нас удобного рабочего помещения, нет лектория, который совершенно необходим для проведения встреч и конференций, семинаров, диспутов, лекций для учителей, старшеклассников, их родителей.

Члены общества были бы благодарны Госкомиздату республики, издательствам «Маариф» и «Гянджлик», если бы в их планы включалось издание наиболее интересных и нужных работ.

Наконец, более активное участие а деятельности общества вузовских преподавателей подняло бы его на большую научную высоту, придало бы ему больший размах.

Иногда, что скрывать, приходится слышать небрежное «Педагогическое общество? зачем мне в него вступать? Что я от этого буду иметь?»

Отвечу: многое. Потому что, отдав, поделившись знаниями и опытом, многое и приобретаешь. Потому что для учителя общение – одна из дорог к мастерству. Без этого ему просто нельзя.

(«Бакинский рабочий» 1983, 19-I,)

## 48. BEYNƏLMİLƏL AİLƏNİN QƏZETİ

Müəllim, xalq maarif işçisi ölkəmizdə çox nəcib bir işlə – gənc nəslin kommunist tərbiyəsi və təlimi ilə məşğul olur. Bu işdə onun ağıllı, müdrik məsləhətçiyə ehtiyacı vardır. «Uçitelskaya qazeta» bu cür məsləhətçi, bu cür köməkçidir.

Respublikamızın məktəblərində çalışan müəllimlər və maarif işçiləri «Azərbaycan müəllimi» qəzeti ilə yanaşı «Uçitelskaya qəzeta» dan da çox şey öyrənirlər.

«Uçitelskaya qazeta» müttəfiq respublikaların ali və orta ixtisas məktəblərində, texniki peşə məktəblərində, xüsusən ümumtəhsil məktəblərində yaxşı, qabaqcıl nə varsa operativ şəkildə müəllimlərə çatdırır. Hansı müəllimin, hansı pedaqoji kollektivin irəlidə getdiyini, qabaqcıl olduğunu, onların qabaqcıllığının nədən ibarət olduğunu biz əvvəlcə «Uçitelskaya qazeta»dan oxuyub öyrənirik.

Qəzet fikrən bizi gah RSFSR məktəblərinə, gah Özbəkistan məktəblərinə, gah Ukrayna məktəblərinə, gah da Tacikistan məktəblərinə aparır, onların işi ilə bizi tanış edir. ««Uçitelskaya qazeta» ucsuz-bucaqsız ölkəmizdə, bütün müttəfiq respublikalarda həvəslə, əzmlə, şərəflə fəaliyyət göstərən müəllimlərin qəzetidir.

Bu qəzet rus, azərbaycanlı, erməni, gürcü, ukraynalı, özbək, tacik, belarus və başqa millətlərdən olan müəllimlərin vahid ailədə – sovet müəllimləri ailəsində sıx birləşməsinə böyük kömək göstərir. Biz indi elə bir dövrdə yaşayırıq ki, hər bir müəllimin, hər bir maarif işçisinin şəxsi iş təcrubəsi bütün müəllimlərin, bütün maarifışçilərinin iş təcrübəsi əsasında formalaşır və inkişaf edir. «Uçitelskaya qazeta»nın əməyi az deyildir.

«Uçitelskaya qazeta» bizi qardaş respublikaların təkcə müəllimləri ilə, maarif işçiləri ilə «görüşdürmür». Qəzet həm də geniş ictimai diapozona malikdir. Biz qəzet vasitəsilə partiya, sovet, komsomol və həmkarlar ittifaqı

təşkilatlarının işçiləri ilə, təsərrüfat işçiləri ilə görüşür, gənc nəslin kommunist tərbiyəsinə onların necə kömək etdikləri barədə fikirlərinə, təcrübələrinə bələd oluruq. Qəzetin əməkdaşları çox yaxşı bilirlər ki, uşaqlarn, yeniyetmələrin və gənclərin təlim-tərbiyəsi məsələlərini yalnız məktəb çərçivəsində, yalnız müəllimlərlə birlikdə həll etmək çox çətindir. Bu sahədə geniş ictimaiyyəti, valideynlər kütləsini ayağa qaldırmaq, onların imkanlarından istifadə etmək, bu işə onları da cəlb etmək son dərəcə vacibdir.

Qəzetin səhifələrində biz yalnız məktəb təcrübəsi, pedaqoji təcrübə haqqında materiallarla rastlaşmırıq. Bununla yanaşı qəzet bizi pedaqogikanın, xüsusi metodikanın, psixologiya və fiziologiyanın bir çox aktual nəzəri problemləri ilə də tanış edir, bu məsələlərin nəzəri həlli yollarını bizə öyrədir. Qəzet öz materialları ilə sübut edir ki, müasir dövrdə pedaqoji nəzəriyyə ilə pedaqoji təcrübəni bir-birindən ayrılıqda götürmək olmaz.

Onların vəhdətini təmin etmək lazımdır: pedaqoji təcrübə ilə pedaqoji nəzəriyyənin vəhdətini təmin edən pedaqoji kollektiv yüksək göstəricilər qazana bilir.

Qəzetin dili, materialların adlandırılması tərzi də oxucunun diqqətini cəlb edir. «Uçitelskaya qazeta»nın dili oynaq, səlis, ifadəli və yığcamdır. Qəzetin səhifələrində gedən materiallarda artıq sözlərə, artıq ifadələrə çox nadir hallarda rast gəlirik. Bütün bunlar materialların həcmcə yığcam olmasına, tez oxunmasına, yadda qalmasına səbəb olur. Buna görə də oxucu qəzetdən maksimum dərəcədə məlumat almaq imkanı qazanır.

Biz arzu edərdik ki, «Uçitelskaya qazeta» müttəfiq respublikalarda çalışan müəllimlərin vahid beynəlmiləl ailədə – sovet müəllimləri ailəsində birləşməsi sahəsindəki səyini bundan sonra da gücləndirsin, ayrı-ayrı müttəfiq respublikalarda qazanılmış qabaqcıl pedaqoji təcrübələri qəzetin səhifələrində işıqlandırmağın yeni-yeni formalarını axtarıb tapsın. Sovet məktəbinin sonrakı inkişafı üçün bunun əhəmiyyəti son dərəcə böyükdür.

Yarıməsrlik yubileyi ilə əlaqədar olaraq «Uçitelskaya qazeta»nın yaradıcı kollektivini təbrik edir, gənc nəslin kommunist tərbiyəsində müəllimlərə, digər maarif işçilərinə operativ kömək göstərmək sahəsində ona yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

**(«Azərbaycan müəllimi» qəzeti, 1974. 16 oktyabr)**

## 49. DİLİN ZƏNGİNLİYİ DƏ VACİBDİR

«Azərbaycan müəllimi» qəzetində bir neçə ay bundan əvvəl filoloji elmlər namizədi K.Vəliyevin «Dilin təmizliyi vacibdir» adlı məqaləsi çap edilmişdi. Məqalədə qaldırılan məsələlər hər bir ziyalıya bilavasitə aiddir. Çünki dil hər bir şəxsin, xüsusən ziyalının əsas silahlarından biridir.

Biz müəllifin belə bir fikrinə tərəfdar çıxırıq ki, ədəbi dilin elmi və əməli məsələləri haqqında söhbət açmaq, müzakirələr keçirmək faydalıdır. Müəllifin bu arzusuna uyğun olaraq, məqalədə qaldırılmış bəzi məsələlərə öz münasibətimi bildirmək istərdim. İstərdim ki, dilçi olmadığımdan qeydlərim ziyalı qeydləri kimi nəzərə alınsın.

Müəllif haqlı olaraq bəzi tərcümə materiallarının dil cəhətdən nöqsanlı olduğunu göstrərir. Bu nöqsanlar dərslik tərcümələrində xüsusilə çoxdur. Həqiqətən, dərsliklərdəki tərcümə qüsurları şagirdlərimizə nəinki pis nümunə verir, müəllifin dediyi kimi, mənanın başa düşülməsini xeyli çətinləşdirir. Nəşriyyat tərəfindən bu cür nöqsanların nəzərə alınması və aradan qaldırılması həm dilimizin inkişafına, həm də gənc nəslin düzgün təlim-tərbiyə olunmasına kömək edər.

Uşaq öz ana dilini nə qədər dərin, nə qədər ətraflı və əsaslı bilərsə rus dilini və xarici dili də bir o qədər asan mənimsəyər. İkinci dilin incəliklərini öyrənməyin ən etibarlı açarı doğma ana dilinin incəliklərinə bələd olmaqdır. Həyat faktları bunu sübut edir.

Məktəbdə uşaqların dil sahəsindəki fəaliyyətinə diqqət yetirin. Hansı azərbaycanlı uşaqları rus dilini və xarici dili

daha tez, daha asan mənimsəyir? Öz ana dilini adətən mükəmməl bilən uşaqlar. Dili kasıb olan, söz ehtiyatı az olan, sözdən yerli-yerində istifadə etməkdə çətinlik çəkən azərbaycanlı uşaqlar, adətən, rus dilini də, xarici dili də çətin mənimsəyirlər. Buna görə də dil, mənəviyyatın, mədəni inkişafın vasitəsidir. Ana dili tədrisini yaxşılaşdırmağın zəruriliyi buradan irəli gəlir.

Məqalədə ziyalı üçün mübahisəli görünən tək-tək mülahizələr də yox deyildir. Məsələn, müəllif dilimizdə uzun illərdən bəri işlənən bir çox sözləri (təlqin etmək, maaş, təhlükə, meyar və s.) məqalədə nümayiş etdirir və onları dilimizdə işlənən başqa (aşılamaq, aylıq, qorxu, ölçü və s.) sözlərlə əvəz etməyin uğurlu olduğunu bildirir.

Müəllifin bu fikri sübut edilmədiyindən əsaslı görünmür. Məqalədə gəlmə adlandırılan və xalq dilində qarşılığı olan sözlərdən bəzilərinə diqqət yetirək. «Təlqin etmək» və qarşılığı adlandırılan «aşılamaq» sözlərinin mənalarına nəzər salsaq müəlliflə razılaşmamaq məcburiyyətində qalarıq. «Təlqin etmək» ifadəsini işlədərkən biz yalnız nəyisə aşılamağı nəzərdə tutmuruq. Bu zaman təlqin olunan şəxsə psixoloji təsir ön plana çəkilir: həmin şəxsin şüurunda istənilən istiqamətdə dönüş əmələ gəlməsi nəzərdə tutulur. Təlqin etməyin əsas vasitəsi sözdür, inandırmadır. Aşılamaq sözünün mənasında isə başqa çalarlıq vardır. Aşılamaq sözü başlıca olaraq tərbiyə işi ilə əlaqədardır. Aşılamaq dedikdə bizim təsəvvürümüzdə əqli, fiziki estetik keyfiyyətlərin tərbiyə olunan adamlarda tədricən formalaşdırılması canlanır.

Bundan əlavə, «aşılamaq» sözü dəri-gön sənayesində, qoyunçuluq və maldarlıq təsərrüfatında və başqa sahələrdə də geniş işləndiyindən, «təlqin etmək» ifadəsinin mənasını daşıya bilməz.

Bu cür mülahizələrə görə «aşılamaq» sözü ilə yanaşı «təlqin etmək» ifadəsi də haqlı olaraq dilimizdə özünə hüquq qazanmışdır.

«Təhlükə» «qorxu» qarşılığını alaq.

Bizcə, bu sözlərin də özünəməxsus mənaları vardır. Yalnız bunu deməklə kifayətlənmək olar ki, «qorxu» sözü

işlədilən zaman insanda yarana bilən müəyyən psixoloji vəziyyət, «təhlükə» sözündə isə həmin hissi yarada biləcək səbəb nəzərdə tutulur.

Qəbul etmək – götürmək, meyar-ölçü, təmərküzləşmə-birləşmə, fəaliyyət iş və s. qarşılıqları haqqında da həmin sözləri demək olar. Əvəz olunması məsləhət görülən sözlərdən hərəsinin öz mənası, öz məna çalarlıqları vardır. Buna görə də o sözlərdən birinin işlədilməsi, digərinin isə işlədilməməsi dilimizin xeyrinə olmaz; onun zənginləşməsinə maneçilik törədər.

Azərbaycan dilində pərvər şəkilçisi kimi işlənən şəkilçinin – sevər şəkilçisi ilə əvəz olunmasını da dilin inkişafı üçün səmərəli hesab etmək olmaz. Müəllifin məsləhətinə əməl edilərsə, vətənpərvər sözünü vətənsevər kimi işlətməli olarıq. Xalq isə vətənsevər sözünə deyil, vətənpərvər sözünə alışıb. Dilimizdə artıq dərin kök salmış, vətəndaşlıq hüququ qazanmış söz və şəkilçilərdən vahimələnməyə dəyməz. Sevər şəkilçisi ilə yanaşı – pərvər şəkilçisinin, əməksevər sözü ilə yanaşı vətənpərvər sözünün işlədilməsi dilimizdə süniliyə imkan verməz.

-şünas və çı şəkilçiləri haqqında deyilən fikir də mübahisəyə səbəb ola bilər. Çünki -şünas şəkilçisi sözə əlavə olunan zaman mütəxəssisin nəzəriyyə ilə, çi şəkilçisi sözə əlavə edildikdə isə mütəxəssisin əməli işlə məşğul olduğu nəzərdə tutulur. Məsələn, dilçi və dilşünas, metalçı və metalşünas, ədəbiyyatçı və ədəbiyyatşünas və i.a. Bundan əlavə, heç kəs şərqşünas, məktəbşünas və s. sözlər olduğu halda, şərqçi, məktəbçi və s. sözlər işlətməz.

Dilin yeni məsələlərini yaradıcı şəkildə işləyən dilşünas, dilin elmə məlum olan məsələlərini tədris etməklə məhdudlaşan mütəxəssis isə dilçi adlanmırmı? – Şünas şəkilçisi çı və ya çi şəkilçisi ilə əvəz edilsə mütəxəssislərin fəaliyyətindəki həmin xüsusiyyətlər necə nəzərə alınar və sözdə necə ifadə edilər?

Kəmcürət, kəmetiqad kimi sözlərin cürətsiz, etiqadsız sözləri ilə əvəz edilməsi, təklifinə də şərik olmaq çətindir. Bircə misal. Məlumdur ki, kəmağıl uşaqlar var. Bu cür

uşaqların ağlı normal inkişaf edən uşaqların ağlından geri qalır. Müəllifin fikrini qəbul etsək o cür uşaqlara kəmağıl deyil, ağılsız deməliyik. Əslində isə kəmağıl uşaqlar ağıldan tamam məhrum deyil, tam ağılsız deyil. Kəmcürət adama da cürətsiz adam demək düzgün olmaz. Çünki, belə adamda cürət az da olsa var.

Demək istəyirik ki, kəmcürət, kametiqad, kəmağıl və s. sözlərələ yanaşı cürətsiz, etiqadsız, ağılsız və s. sözlər də işlədilməlidir və düzgün olaraq işlədilir. Gəlmə sözlər kimi, gəlmə şəkilçilər və sözönlükləri də dilimizdə yeni mənalarda və ya məna çalarlıqlarında işlədilir. Bu, dilin zənginləşdiyini göstərən xüsusiyyətlərdən biri deyilmi?

Müəllifə görə «çox sevindiricidir ki, ədəbi dilimizdə «uğur» sözü «müvəffəqiyyət», «sorğu» sözü «müsahibə», «intern» kəlmələrini demək olar ki, sıxışdırıb çıxarmışdır». Bizcə, əslində vəziyyət heç də müəllifin dediyi kimi deyildir. Müvəffəqiyyət, müsahibə, intervü kimi sözlər ədəbi dilimizdə sıxışdırılmamışdır. Həmin sözlər ədəbi dilimizdə, xüsusən müxtəlif elm sahəsində geniş şəkildə işlədilir və bundan sonra da onlardan istifadə ediləcəkdir. Çünki uğur və sorğu sözlərindən fərqli olaraq müvəffəqiyyət, müsahibə, intervü sözləri spesifik mənalar daşıyır. Məsələn, müvəffəqiyyət sözü əsasən fəaliyyətlə bağlıdır, fəaliyyət əsasında mümkün olur. Uğur sözü isə adətən səfərlə, səyahətlə əlaqədar işlədilir. Səfərə çıxan adama, yola düşən adama «uğur olsun» deyirlər. İşlə, fəaliyyətlə əlaqədar isə adama uğur olsun demirlər, adətən müvəffəqiyyət arzulayırlar.

Məktəbdə uşağın biliyini qiymətləndirən zaman «müvəffəqiyyət faizi» əvəzinə nə üçün «uğur faizi» işlədək? Nəyin xeyrinə?

Orta məktəb dərsliklərinin tərcümə qüsurları haqqında, yuxarıda dediyimiz kimi, müəllifin fikri ilə razı olduğumuzu bildiririk. Lakin məqalədə gətirilən fakt bizim üçün qaranlıq qalır. Məqalədə yazılır: «Elə götürək «Əlifba» kitabını. Buradakı sözlər, cümlələr o qədər yöndəmsiz və sönükdür ki, uşaq istər-istəməz anasının südü ilə aldığı, yeddi yaşına kimi eşitdiyi dildən bəzən ayrı düşür». Bizcə bu, böyük

ittihamdır. İxtisas və vəzifə üzrə mən məktəblə, dərsliklərlə, xüsusən aşağı sinif dərslikləri ilə yaxınam. Buna görə də, həmin ittihama əsas verən konkret faktların nədən ibarət olduğunu məqalədə görmək istərdim. Bu cəhətdən məqalədə, təəssüf ki, konkretlik yoxdur.

Faktlar göstərir ki, ayrı-ayrı söz və ifadələrin müxtəlif elm sahəsində, habelə ədəbi dildə, xalq arasında işlədilməsi tərzlərinin tədqiqinə, bu əsasda ümumiləşdirilmiş, inandırıcı, tutarlı təkliflər verilməsinə bizim böyük ehtiyacımız vardır. Biz, Azərbaycan dilini inkişaf etdirməyin başlıca yollarından birini bunda görürük. Dilçilərimiz bu cəhətdən də ziyalılara köməyi gücləndirə bilərlər. Bu istiqamətdə aparılan işi genişləndirmək lazımdır. Son vaxtlar Azərbaycan dilində işlədilən bəzi terminlərin, sözlərin izahına aid kitablar çap olunur. Bununla yanaşı, dilin izahlı lüğətinin 1966-cı ildə başlanan çapı başa çatdırılmalıdır. Bunu səbirsizliklə gözləyirik. Belə bir lüğət dildə özünü göstərən subyektivlik hallarını xeyli azaldacaq və deməli, dilimizin sonrakı inkişafını şərtləndirəcəkdir.

Başqa dillərdən alınan, uzun illər dilimizdə işlənən sözlərə qarşı üsyan etmək, bunu dilin təmizliyi uğrunda mübarizə kimi başa düşmək Azərbaycan dilinin inkişafına kömək etmək əvəzinə ona ziyan vura bilər. Azərbaycan xalqı əsrlər boyu qonşu xalqlarla qarşılıqlı iqtisadi, siyasi və mədəni əlaqədə olubdur. Bu əlaqə istər-istəməz dildə də öz əksini tapır və dilin zənginləşməsi səbəblərindən biri olur. Belə bir qanunauyğunluqla hesablaşmamaq səmərə verməz. Dilin saflığı ilə yanaşı, onun zənginliyi də diqqət mərkəzində olmalıdır.

**(«Azərbaycan müəllimi» qəzeti, 1976, 22 sentyabr)**

## 50. HƏYƏCAN TƏBİLİ: TƏLİM GERİLƏYİR, YAXUD PEDAQOQ ALİMİN TƏƏSSÜRATLARI

Hamıya məlumdur ki, ölkəmiz, o cümlədən Azərbaycan olduqca ağır bir dövr keçirir. Bazar iqtisadiyyatına keçid ərəfəsinədə xalq təsərrüfatının bütün sahələri ciddi çətinliklərlə qarşılaşır. Bunların aradan qaldırılması adamlardan daha çox təşəbbüskarlıq və yaradıcılıq tələb edir.

Bəs təhsil sahəsində vəziyyət necədir? Xalq təsərrüfatının tərkib hissəsinə çevrilmiş təhsil sahəsində də ciddi çətinliklər yaranmışdır. Tədris müəssisələrində təhsilin maddi-texniki bazası onun vəzifələrinə uyğun gəlmir; müəllimlərin sosial ehtiyacları aşağı səviyyədə ödənilir; adamların siyasi fəallığının artması şagirdlərin böyük bir qisminin davranışında özbaşınalıq əlamətlərinin xeyli güclənməsinə səbəb olmuşdur; yeniyetmə və gənclər arasında təhsilə maraq nəzərə çarpacaq dərəcədə zəifləmişdir; təhsilin mövcud məzmunu sosial-iqtisadi və siyasi həyatın sürətlə dəyişən səviyyəsindən geri qalır və s.

Son illər meydana çıxan bu cür problemlər şəraitində təlim işi necə təşkil edilir? Müəllimlər nə dərəcədə təşəbbüskarlıq və yaradıcılıq göstərirlər? Bu cür suallara cavab almaq üçün Bakı şəhər məktəblərinin bəzilərində tarix, coğrafiya, fizika, ədəbiyyat, riyaziyyat müəllimlərinin dərslərində olduq.

Fənlər, siniflər və müəllimlər başqa-başqa olsa da, həmin dərslər üçün bir sıra qüsurlu ümumi cəhətlər müşahidə edildi. Həmin cəhətlər üzrə fikir mübadiləsi aparmağa ehtiyac vardır.

Əvvəla, təəssüflə qeyd etmək istərdik ki, bütün dərslərdə şagirdlərin gecikməsi və ya gəlməməsi halları olmuş, müəllimlər isə buna lazımi pedaqoji məna verməmişlər. Belə halda müəllimlər «Tez olun, əyləşin», təsadüfi hallarda «Niyə gecikirsiniz?» deməklə kifayətlənmişlər.

Şagirdin zəngdən sonra sinfə daxil olması bəzilərinə ikinci dərəcəli məsələ kimi görünə bilər. Doğrudan da, əgər şagird təsadüfən müəllimdən sonra sinfə daxil olursa, bundan ötrü üzürlü səbəb varsa, gecikmə halını açıb-ağartmağa, onu üzə vurmağa, xüsusi müzakirə obyektinə çevirməyə ehtiyac varmı? Lakin əgər geçikmə kütləvi hal

alırsa, müəllimdən sonra sinfə daxil olan şagirdin üzündə və hərəkətlərində sırtıqlıq əlamətləri görünürsə və belə şagird müəllimdən, habelə vaxtında öz yerlərini tutan yoldaşlarından üzr istəmirsə, necə? Bu cür hallarda müəllimin etinasızlıq göstərməyə haqqı varmı? Güman edirik ki, haqqı yoxdur! Pedaqoji işdə, təlim və tərbiyədə xırda məsələ ola bilərmi? Dərsə gecikmə halının zərəri şagirdə başa salınarsa, müəllimdən sonra sinfə daxil olmağın qəbahət, zərərli olduğunu bilərsə, o, bu nöqsana yol verərmi, geciksə də ədəbli üzr istəməzmi?

İkincisi, dərsə gəlməmək hallarına münasibətdə də həmin müəllimlərin mövqeləri fərqlənməmişdir. Jurnallardakı qeydlərdən göründüyü kimi, əvvəlki dərslərdə iştirak etməyən şagirdlər olmuşlar. Lakin müəllimlərdən heç biri son dərsdə olmayan şagirdlərin hazırlığı ilə, əvvəlki mövzunu öyrənib-öyrənmədikləri ilə maraqlanmadı. Hətta keçilmiş mövzunu danışmaq təklif edildikdə şagirdlərdən birisi ayağa qalxıb çəkinmədən, qalib ədası ilə: - müəllim, mən keçən dərsdə olmamışam – dedi.

Müəllimin münasibəti necə olsa yaxşıdır? O, şagirdin fikri ilə razılaşdı:

- Yaxşı, əyləş (?!)

Müəllimin bu cür münasibəti şagirdlərdə məsuliyyətsizlik tərbiyə etmirmi, onlarda belə bir fikir formalaşmırmı ki, olmadığı dərsin materialı ilə maraqlanmamaq, onu öyrənməmək olar?!

Müəllim başqa cür hərəkət edə, məhz son dərsdə olmayan şagirdə müraciət edə bilməzdimi:

-Pərviz, axırıncı dərsdə olmasan da, əminəm ki, mövzunu öyrənmisən,buyur, danış.

Müəllim hər dəfə dərsdə olmamış şagirdlərə müraciət etsə və materialın öyrənilməsini əvvəlcə məhz bu cür şagirdlərdən tələb etsə, onlar yəqin etməzlər ki, dərsdə olmamaq tədris materialını öyrənməmək üçün əsas vermir? Dərsdə olmasan da, mövzunu öyrənmək vacibdir.

Üçüncüsü, müşahidə olunmuş dərslərin hamısını bir tipə-qarışıq dərs tipinə aid etmək olardı. Dərslərin hərəsi bir

neçə didaktik vəzifənin həllinə yönəldilmişdi. Müəllimlər həm ev tapşırıqlarının icra vəziyyətini yoxlamış, həm yeni mövzu öyrətməyə çalışmış, həm yeni biliklərin necə qavranıldığına vaxt ayırmış, həm də təkrar üçün evə tapşırıq vermişdilər.

Bu cür faktlar göstərmirmi ki, müəllimlərimizin böyük əksəriyyəti on illər ərzində dərin kök salmış və geniş yayılmış dərs sxemindən əl çəkə bilmir, dərsin başqa tiplərinə çox nadir halda müraciət edirlər? Bəla həm də burasında deyilmi ki, qarışıq dərs tipindən müəllimlərimizin əksəriyyəti bir qayda olaraq dərs vaxtının xeyli olaraq dərs vaxtının xeyli hissəsini keçilmiş mövzunun təkrarına, az hissəsini isə yeni mövzunun mənimsənilməsinə ayırır? Məsələn, XI sinfin tarix dərsində təkrar olunan mövzu «Faşist Almaniyasının Sovet İttifaqına xaincəsinə hücumu» idi. Yeni mövzu isə belə ifadə olunmuşdu: «Antihitler koalisiyasının yaranması». Dərsin 30 dəqiqəsi tədris materialının təkrarına, 10 dəqiqəsi yeni mövzuya, 5 dəqiqəsi isə təşkilati məsələlərə həsr edildi. X sinifdə coğrafiya dərsi zamanı təkrar olunan mövzu «əhalinin yerləşməsi və əmək ehtiyatları», yeni mövzu «Urbanizasiya» idi. Bu dərsdə təkrara 40, yeni mövzuya cəmi 2 dəqiqə ayrıldı. Yaxud fizikadan X sinifdə təkrar olunan mövzu «Havanın rutubəti» idi. Mövzunun təkrarına 20 dəqiqə, həmin mövzu üzrə məsələ həllinə də 20 dəqiqə getdi. Yeni mövzunu elan etməyə müəllimin heç vaxtı da qalmadı. Təkrara üstünlük verilən dərslərdən gözlənilən səmərəni almaq olarmı?

Dördüncüsü, dərslərin bütün mərhələlərində müəllimlərin özləri daha çox fəallıq göstərmişdilər. Şagirdə verilən suallara istədikləri cavabları almadıqda müəllimlərin özləri ətraflı izahat verirlər, qalan şagirdlər isə yaxşı halda qulaq asmalı olur, fəallıq göstərmir, nəticədə diqqət yayınmağa başlayır. Halbuki şagirdin cavabına sinfin diqqəti cəlb olunsa onun nəyi dəqiq, nəyi isə qeyri-dəqiq izah etdiyinə fikir vermək qalan şagirdlərdən tələb olunarsa, bir növ fikir mübadiləsi təşkil edilərsə, yalnız zəruriyyət yarandıqda müəllim istiqamət verərkən şagirdlər formalaşmazlarmı,

onlarla diqqətin yayınması halları aradan qalxmazmı, dərs daha canlı keçməzmi, səmərə xeyli artmazmı?

Beşincisi, müzakirə edilən mövzular heç bir halda Azərbaycanla, onun tarixi və müasir həyatı ilə əlaqələndirilməmişdir. Halbuki, bu cür əlaqə üçün mövzuların tədrisində imkan vardı. Məsələn, XI sinifdə Böyük Vətən müharibəsi ilə əlaqədar mövzu keçilərkən müharibədə xalqımızın çoxcəhətli iştirakına toxunmaq, Azərbaycandan olan Sovet İttifaqı Qəhrəmanları haqqında şagirdlərin məlumatlarını üzə çıxarmaq və onlara istinad etmək olmazmı? Təəssüf ki, bu cür imkanlar müəllimlərin diqqətindən kənarda qalmışdı.

X sinifdə coğrafiya dərsi «Əhalinin yerləşməsi və əmək ehtiyatları» mövzusu üzrə müəllimin verdiyi suallar və şagirdlərin cavabları Afrika, Amerika, Avropa, Asiya ilə, Hindistan və Çinlə, Şanxay və Nyu-Yorkla, bircə dəfə SSRİ ilə əlaqədar oldu. Elə bil ki, mövzunun Azərbaycana dəxli yoxdur. Sual olunur: Nə üçün şagirdlər cavabları öz doğma ölkələri – Azərbaycanla bağlamırdılar, Azərbaycandan faktlar gətirmirdilər? Bunun günahı müəllimdə deyilmi? Müəllim, məsələn, bu cür suallar qoyurdu:

-Afrikada, Amerikada və Asiyada əhali daha çox haralarda yerləşir?

-Avropada əmək ehtiyatları nə qədərdir?

-Nə üçün Şanxayda, Tokioda, Nyu-Yorkda əhali sürətlə çoxalır?

Aydındır ki, sualların bu tərzdə qoyuluşu şagirdin fikrini ətraf mühitdən, real həyatımızdan, bu günümüzdən uzaqlaşdırır. Belə çıxır ki, əhalinin yerləşməsi, ona təsir edən təbii və iqtisadi amillər respublikamızda yoxdur. Şagird üçün maraqlı olmazmı ki, bu cür mövzular öz rayonları, şəhərləri, respublikası ilə də əlaqələndirilsin?

Bizə etiraz edib deyərlər ki, tədris proqramında və dərslikdə mövzu yerli şəraitdə əlaqələndirilməmişdir. Ona görə də mövzunun tədrisini Azərbaycanla bağlamamışıq. Belə əhval-ruhiyyə ilə razılaşmaq çətindir. Çünki, əvvəla, didaktika bizdən tələb edir ki, mövzunun tədrisi həyatda,

istehsalatla, ətraf mühitlə əlaqələndirməlidir. İkincisi, təhsil sahəsində köklü dəyişikliklər aparıldığı indiki şəraitdə müəllimdən yaradıcılıq təşəbbüskarlıq, müstəqillik tələb edilir.

İştirak etdiyimiz fizika, ədəbiyyat və riyaziyyat dərslərində də keçilən mövzuların həyatla əlaqələndirilməsinin, təəssüf ki, şahidi olmadıq.

Altıncısı, təəssüflə etiraf etməyə məcburuq ki, müəllimlərdən heç biri öyrətdiyi biliyin həyatda əhəmiyyətinə toxunmamışdır. Bu cür tələb isə şagirdlərə qəribə görünür. Məsələn, X sinifdə M.F.Axundovun «Aldanmış kəvakib» əsərinin tədrisi ilə əlaqədar sinfə belə sualla müraciət etdik:

-Siz M.F.Axundovun «Aldanmış kəvakib» əsərini öyrənirsiniz. Bunun sizdən ötrü, sizin gələcəyiniz üçün əhəmiyyəti nədir?

Şagirdlər arasına sükut çökdü, xeyli təəccübləndilər. Nəhayət, ondardan biri dilləndi:

-Öyrənirik ki, məlumatımız olsun(?!)

X sinifdə riyaziyyatdan üstlü tənliklər və üstlü bərabərçizliklər üzrə misal həll edən şagirdlər üçün də sualımız gözlənilməz oldu:

-Sizin gələcək fəaliyyətinizdə üstlü tənlikləri və üstlü bərabərsizlikləri bilməyin əhəmiyyətini nədə görürsünüz?

Şagirdlər bir-birinə, sonra da müəllimə baxdılar.

Təqribən eyni sualı başqa X sinifdə «Havanın rütubəti» mövzusuna həsr edilmiş dərsdə verdik:

-Havanın rütubətini öyrənməyin həyat üçün, xalq təsərrüfatı üçün əhəmiyyəti nədən ibarətdir?

Şagirdlər xeyli fikirləşəndən sonra bayağı izahat verməyə başladılar.

Bu cür faktlar açıq şəkildə göstərir ki, müəllimlərimizin bir qismi tədris etdikləri mövzuların, bütövlükdə fənnin əhəmiyyətini şagirdlərə lazımınca başa salmır, güman edirlər ki, mövzunun, ayrı-ayrı biliklərin əhəmiyyəti özlüyündə aydındır: tədris proqramında mövzu nəzərdə tutulubsa, deməli, zəruridir. Halbuki, öyrəndiyi biliyin həyatda, gələcək fəaliyyətində əhəmiyyətini dərk edən

şagirdin elmə, biliyə marağı artmazmı, daha səylə oxumağa başlamazmı, diqqətli olmağa çalşmazmı?

Yeddincisi, müşahidə edilmiş dərslər üçün səciyyəvi cəhətlərdən biri də sinifdə müəllimin ayrı-ayrı şagirlərlə işinə üstünlük verilməsidir. Məsələn, riyaziyyat dərsində müəllim yazı taxtasının qabağına dörd şagird dəvət etdi və hərəsinə bir misal verdi. Qalan şagirdlər isə başqa misal üzərində işlədilər. Müəllim əvvəlcə yazı taxtasında misalların həllini yoxladı, onlara düzəliş verdi, sonra partaların arası ilə hərəkət edərək şagirdlərin yazılarına nəzər saldı və bəzi iradlar tutdu. Müəllimə elə gəlirdi ki, o, bütün sinifdə işləyir. Zahirən, doğrudan da belə idi. Lakin mahiyyətə diqqət yetirdikdə müəyyənləşdirmək çətin deyil ki, müəllim sinifdə kollektiv işi fərdi işlə uzlaşdırmır, tək-tək şagirdlərlə işləməyi daha faydalı hesab edir. Çünki nə yazı taxtasında işləyənlər, nə də əyləşənlər bir-birinin necə düşündüyünə, nəyi düz, nəyi isə səhv etdiyinə fikir vermək imkanından məhrum idilər. Şagirdlərin yazılarına birər-birər yalnız müəllim özü diqqət yetirir özü düzəliş verirdi. Misalı tez həll edən şagirdlər yaxşı halda müəllimi gözləyir, əksər halda isə işləyənlərə mane olurdular.

Şagirdin cavabını, onun fikrini yazı taxtasında işini, həllin izahını sinifdəki bütün şagirdlər izləsə, müzakirəyə bütün şagirdlər cəlb olunsa, fərdi işlə kollektiv iş daha münasib formada uzlaşmazmı sinifdə fəallıq xeyli artmazmı?

Səkkizinci, dərslərində olduğumuz müəllimlərin əksəriyyəti zəif şagirdlərə deyil, güclü şagirdlərə tez-tez müraciət edir, onlardan cavab almağa çalışırdılar. İsbat etməyə ehtiyac yoxdur ki, bu cür meyl iki cəhətdən qüsurlu hesab edilməlidir. Əvvəla, belə müəllimlər təəssürat oyatmaq istəmirmi ki, fənnin mənimsənilməsi sahəsində vəziyyət ümumən yaxşıdır, narahat olmağa dəyməz? İkincisi, zəif şagirdlər çox nadir halda dindirildiyindən daha da passivləşmirlərmi?

Doqquzuncu, şagirdlərin suallarına laqeydlik göstərmək hallarına təsadüf edilir. Bəzi suallara cavab verilmir,

bəzilərinə başdansovdu cavab verilir. Bircə misal. Tarix dərsində şagirdlərdən biri soruşdu:

-Müəllim, Almaniya müharibəyə hazır idi. Sovet İttifaqı isə hazır deyildi. Necə oldu ki, Sovet İttifaqı qalib gəldi?

Budur müəllimin cavabı:

-Bu barədə sonrakı dərslərdə danışacağıq.

Formal cavabın müəllimə hörmət gətirmədiyini əsaslandırmağa ehtiyac varmı? Belə cavab alan şagird bir də sual verərmi?

Onuncusu, bilik və bacarıqların qiymətləndirilməsi təcrübəsində də müzakirəyə ehtiyac olan cəhətlər vardır. Məsələ burasındadır ki, dərslərin dinlədiyimiz müəllimlərin hamısı şagirdlərin bilik və bacarıqlarını dərsin ortalarında qiymətləndirirdi. Özü də qiymət əsasən ev tapşırıqlarının yoxlanılması ilə əlaqədar yazılırdı. Bəzi müəllimlər təkrar üçün evə verdiyi paraqrafı bir neçə şagirdə danışdırır və hər birini qiymətləndirir, bəziləri pasraqrafın yarısını bir şagirdə, arxasını isə başqa şagirdə şərh etdirir və oradaca qiymət yazırdılar. Ev tapşırığı üzrə qoyulmuş ayrı-ayrı suallara verilən cavabların qiymətləndirilməsi halları da vardır. Dərsin gedişində, xüsusən təkrar zamanı şagirdlərin bilik və bacarığına verilən qiymətin tərbiyəvi təsiri azalmırmı? Aşağı qiymət alan şagirdlər də, yüksək qiymət alanlar da arxayınlaşmırlarmı? Dərsin sonrakı mərhələlərində passivləşmirlərmi səylərini azaltmırlarmı? Diqqəti yayınan, intizamsızlığa meyillənən, adətən qiymət alan şagirdlər sırasından olmurmu? Nə üçün müvəffəqiyyət dərsin sonunda yazılmasın?

Bütün dərs boyu şagirdlərin necə işlədikləri, necə düşündükləri, nə dərəcədə səyli olduqları nəzərə alınaraq dərsin sonunda qiymətləndirilərsə, müvəffəqiyyət daha yüksək olmazmı? Bu təcrübəyə alışdıqca dərsin əvvəlində zəiflik göstərənlər ümidsizləşməz, fəal olanlar arxayınlaşmazlar; onlar dərsin sonuna qədər səylərini artırarlar.

On birincisi, müvəffəqiyyətə verilən qiymətin lazımınca səciyyələndirilməməsi narahatlıq doğurur. Müəllimlərimizin əksəriyyəti qiyməti sadəcə elan edir: «beş», «dörd», bəziləri

yazdığı qiyməti belə sözlərlə müşayiət etdirirdi: «Yaxşı danışdın – 4, «Razı qaldım - 4», «Xoşuma gəlmədi - 3». Qiyməti elan etmədən sinif jurnalını yazmaq təcrübəsi də müşahidə olunurdu. Aydındır ki, sonuncu təcrübə şagirdlərdə narahatlığa səbəb olur. Şagirdlərin nəzəri müəllimin qarşısında əyləşən yoldaşlarına yönəlir. O da yazılan qiyməti barmağı ilə arxaya bildirir.

Şagirdlərin müvəffəqiyyətinə verilən qiymət nəinki elan edilməli, həm də əsaslandırılmalıdır. Hansı göstəricilərə görə «5», «4» və ya «3» yazıldığı sinifdəki bütün şagirdlərə nə üçün aydın olmasın? Bunun böyük təlim-tərbiyəvi əhəmiyyətini açmağa ehtiyac varmı? «Yaxşı danışdın», «xoşuma gəldi» və ya «xoşuma gəlmədi» kimi ümumi ifadə pedaqoji cəhətdən qüsursuz hesab edilə bilərmi?

Yuxarıda göstərilən nöqsanları respublikanın bütün müəllimlərinə, onların dərslərinə şamil etmək olmaz. Əminik ki, səciyyələndirdiyimiz qüsurları özünə yaxın buraxmayan müəllimlərimiz az deyil. Lakin həqiqətə də göz yummaq bizə yaraşmaz. Öz müəllimlik vəzifəsinə məsuliyyətsiz yanaşan müəllimlər çoxalır. Şagirdlər arasında ədəb qaydalarından kənara çıxan və özünün başlıca əməyinə-təlim fəaliyyətinə barmaqarası baxanlar da azalmır. Təhsil sahəsində deyilənlərə və deyilməyən başqa cəhətlərə görə həyəcan təbili çalmaq üçün əsas varmı? Bizcə, var!

Görəsən, bu nöqsanların məktəb rəhbərlərinə, rayon və şəhər xalq təhsili şöbələrinin işçilərinə dəxli yoxdurmu? Fənlərin tədrisini yaxşılaşdırmaq istiqamətində onlar müəllimlərə nə dərəcədə real kömək göstərə bilirlər? Son zamanlar bu kömək zəifləmişdir ki? Müəllimlərimizə real köməyi gücləndirmək zəruri deyilmi? Məktəb direktorunun, onun müavinlərinin, təhsil şöbələri inspektorları və metodistlərin müasir tələblərə cavab verən dərs nümunələrini təşkil etmək yerinə düşməzmi? Hər məktəbdə hər rayonda nümunəvi dərslər təşkil etmək, onların geniş təbliği ilə məşğul olmaq indiki dövrdə xüsusilə vacib deyilmi?

Fikrinizi bilmək istərdik, əziz müəllimlər, xalq təhsili işçiləri.

Redaksiyadan: Professor Nurəddin Kazımovun məqaləsi vaxtında (bəlkə də gec) yazılıb. Son üç ilin hadisələri natamam əsaslandıran məktəb islahatı və təhsildə yenidənqurmanın doğurduğu xaotik vəziyyəti daha dərinləşdirdi. Özünüidarə hüququnun verilməsi bəzi məktəblərdə direktor özbaşınalığına, direktor və onun əlaltılarının «diktaturası»na gətirib çıxardı. Müəllimlərin elan üzrə «seçilib» yerləşdirilməsi haqqında deyilənlərin böyük əksəriyyətinin əsasında əliəyrilik faktları durur: gözükölgəli, diligödək məktəb rəhbərləri belə halda müəllimlərin fəaliyyəti üzərində hansı haqla nəzarət elə bilərlər? P(III) XTŞ müdirləri və digər əməkdaşlar məktəbə gedəndə müfəttiş kimi yanaşırlar; dərs dinləyənlər, dinlədiyini təhlil edib əməli elmi-metodik kömək edənlər az olur. Bazar iqtisadiyyatının maddi cəhətdən ağır vəziyyətə düşən müəllimin mənəvi sarsıntıya düçar etdiyi bir vaxtda dərslik, dərs vəsaiti və didaktik materiallar, əyani vəsaitlər çatışmır. Fakultativ məşğələlər və maaşlı dərnəklər dərs yükünün pərsənginə çevrilir; attestatlara qiymət yazılmaması, bununla belə həmin məzunun ali məktəbə imtahan verib qəbul olunması, yaxud orta oxuyanın ali məktəb tələbəsi kimi sorağının məktəbə gəlib çatması pedaqoji prosesə az zərbə vurmur.

İntizamsızlıq, prosesə rəhbərliyin zəifliyi, metodbirləşmələrin işinin formal təşkili, məktəbdə yaxşı ilə pisə fərq qoyulmaması, dərs yükündə bərabərlik, ümumi hazırlıq səviyyəsinin rəğbətləndirmədə nəzərə alınmaması və s. amillər təlim prosesinin səmərə və keyfiyyətinə çox pis təsir göstərir. Pedaqoji prosesin əsasında dərs durur. Dərs və tədris prosesi… Gəlin, Nurəddin müəllimin məqaləsində toxunduğu və toxunmaq imkanı olmadığı məsələlərlə bağlı fikir mübadiləsi aparaq. Azərbaycan Respublikasının milli təhsil sistemini dünya miqyasına qaldırmağı yollarını müzakirə edək.

**(«Azərbaycan müəllimi» qəzeti, 1991, 27 mart)**

## 51. BİR MƏSƏLƏYƏ DAİR İKİ ANLAYIŞ

Müasir dövrümüzün tələblərindən biri də budur ki, hər bir azərbaycanlı öz xalqının tarixini yaxşı öyrənməlidir. Çünki öz xalqinin tarixində hali olan şəxs mənəvi cəhətdən daha güclü olur, müasir hadisələrə kor-koranə münasibət göstərmir, onlara tarixi baxımdan yanaşmaq imkanı da qazanmiş olur. Digər vətəndaşlarımız kimi, mən də çalışıram ki, imkanlarım daxilində, xalqımızın keçdiyi tarixi yola, ayrı-ayrı soydaşlarımızın fəaliyyətinə, onların haqqındakı fikirlərə nəzər salım, onlardan özüm üçün müvafiq nəticələr çıxarım. Amma belə hallar da olur ki, eyni tarixi hadisə və ya fakt haqqında başqa-başqa mənbələrdə bir-birinə zidd olan fikirlərlə qarşılaşırsan. Nəticədə mənim kimi tarixi yaxşı bilməyən şəxslər çaş-baş qalır: bu fikirlərdən hansına inanasan? Belə hallarda mənim kimi adamlar necə hərəkət etməlidir: anlaşılmazlığı araşdırmalı, hansı fikrin daha dəqiq olduğunu yəqin etməklə məşğul olmalı, yoxsa onu yarımçıq qoyub tarixə aid məlumatlarını zənginləşdirməyi davam etdirməlidir? Düşünürəm ki, hər iki istiqamətdə fəaliyyət göstərmək lazımdır.

Bu yaxınlarda Azərbaycanın Atabəylər dövrü ilə maraqlanırdım. Bir neçə mənbəni nəzərdən keçirdim. Atabəylər nəsli barədə, Atabəylər dövlətinin baniləri, ailə üzvləri haqqında bir-birindən köklü şəkildə fərqlənən fikirlərlə üz-üzə gəldim. Mənbələrdən birində (З.Бретанитски, Зодчество Азербайджана в XII-XV веках и его место в архитектуре Переднего Востока, М., «Наука», 166, стр. 105) yazılır ki, Azərbaycanda Atabəylər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın birinci arvadı Möminə xatun olub. Möminəxatun türbəsini də o tikdirib, türbənin memarı isə Əbubəkr oğlu Əcəmi olub. Digər bir mənbədə «Баку» qəzetinin 1968-ci il 17 fevral tarixli nömrəsindəki «Восстановлен помятник старины» məqaləsində isə yazılır ki, Möminə xatun Eldəgizlər dövlətinin başçısı Məhəmməd Cahan Pəhləvanın anası olub və türbəni anasının xatirəsini əbədiləşdirmək üçün tikdirib. Türbənin memarı isə Əcəmi oğlu Əbubəkr olub.

Bu dolaşıqlığı özüm üçün aydınlaşdırmalı oldum. Son zamanlar aparılmış sanballı tədqiqatlara müraciət etdim. Öyrəndim ki, əvvəla, Möminə xatun Atabəylər dövlətinin banisi Şmsəddin Eldənizin həyat yoldaşı olub. İkincisi, türbənin bünövrəsini arvadının şərəfinə o qoydurub. Üçüncüsü, Möminəxatun türbəsinin memarı Əcəmi olub və nəhayət, Şəmsəddin Eldəniz dünyasını tez dəyişdiyindən türbənin tikintisini öz oğlu Məhəmməd Cahan Pəhləvan davam etdirib. Təəssüf ki, o da vaxtsız rəhmətə gedib (Z.Bünyadov, Azərbaycan Atabəylər dövləti, Bakı, 1985, səh. 64; Naxçıvan ensiklopediyası, Bakı, 2002, səh. 327; Azərbaycan tarixi, Bakı, 1998, səh. 369)

Bir qədər sonra başqa ziddiyyətli fikirlərin şahidi oldum. Bu dəfə dünya şöhrətli, Azərbaycanın əbədi fəxri olan Nizami Gəncəvinin surəti ilə əlaqədar anlaşılmazlıqla rastlaşmışam. «Təhsil» qəzetinin 20 aprel 2004-cü il tarixli nömrəsində Tofiq Həsənovun «Dahilər yetişdirən müəllim» adlı məqaləsini oxudum. Müəllif yazır ki, günlərin birində Üzeyir Hacıbəyov Şuşada heykəltəraş Fuad Əbdürrəhmanovu öz müəllimi Sarıcalı axund Mehdi ilə görüşdürür. Məqsəd Sarıcalı axund Mehdinin üz cizgiləri əsasında Nizami Gəncəvi obrazını yaratmaq təşəbbüsündən ibarət olur. Heykəltaraş söhbət edə-edə axundun üz cizgilərini diqqətlə nəzərdən keçirir və bu əsasda Nizaminin şəklini yaradır. Məqalə müəllifinə görə, həmin şəkil sonralar Gəncədə, Bakıda, Təbrizdə, Moskvada, Peterburqda və digər yerlərdə Nizami Gəncəviyə ucaldışmış heykəllərin əsasını təşkil etmişdir.

Məqalədə bu fikirləri oxuyanda xeyli vaxt bundan əvvəl qəzetdə oxuduğum bir elan yadıma düşdü: Nizami obrazını yaratmaq üçün müsabiqə elan edilmişdi. Aradım, axtardım, nəhayət, elanın izinə düşə bildim. A.Əliyevin «Fuad Əbdürrəhmanov» (Bakı, 1996) adlı əsərinin 16-cı səhifəsində göstərilir ki, Nizami Gəncəvinin rəsminin müəyyən edilməsi üçün ümumittifaq müsabiqəsində görkəmli Azərbaycan rəssamı Qəzənfər Xalıqovun yaratdığı Nizami obrazı birinci yeri tutmuşdur.

İstərdim ki, Tofiq Həsənovun həmin məqalədə irəli sürdüyü fikri təsdiq edəcək konkret dəlilləri varsa, «Təhsil» qəzetində nümayiş etdirsin. Məmnuniyyətlə oxuyar və minnətdar olaram

**(«Təhsil» qəzeti, 29 mart, 2005)**

## 52. YENİ BİNA, YENİ ARZU, YENİ NƏFƏS

Hamıya məlumdur ki, təhsil sahəsində uğur qazanmağın ən vacib şərtlənrindən biri də lazımi maddi-texniki bazanın mövcudluğudur. Maddi-texniki bazanın səviyyəsi müəyyən mənada təhsilin səviyyəsində özünü göstərir. Məlumdur ki, bir sıra fakültələrimiz olduqca namünasib, qəza vəziyyətində olan köhnə binada yerləşirdi. Binanın vəziyyəti həm müəllimlərdə, həm də tələbələrdə təşviş və narahatçılıq yaradırdı. Bu problemi təcili həll etməyə ehtiyac var idi. Universitetimizin rektoru, millət vəkili, professor Səməd Seyidov respublikanın müvafiq təşkilatları ilə əlaqə yaradaraq yeni tədris binasının tikilib istifadəyə verilməsinə nail oldu. Yeni tədris binası həm xarici görkəmi ilə, həm də daxili tərtibatı ilə müasir tələblərə cavab verir. Binanın xarici görkəmi estetik və gigiyena tələblərinə tam uyğun gəldiyindən adamlarda mənəvi zövq yaradır. Belə hesab edirəm ki, tədris binasının istifadəyə verilməsi respublikanın pedaqoji ictimaiyyətinin, xüsusilə də universitetimizin müəllim və tələbə kollektivinin ürəyincədir. Düşünürəm ki, bu binada həyata keçirilən pedaqoji prosesin səviyyəsi tələbələrdə bilik və bacarıqların səviyyəsinin yüksəlməsində mühüm rol oynayacaq. Mən yeni tədris binasında fəaliyyət göstərən müəllimləri və tələbələri, habelə universitetin rəhbərliyini ürəkdən təbrik edirəm.

Təhsilin səviyyəsi müvafiq maddi-texniki və mənəvi mühitdən də asılıdır. Bu cəhətdən Milli pedaqogikada aşkara çıxarılmış qanunauyğunluğu burada xatırlamaq yerinə düşərdi: Müasir layihə əsasında tikilən, lazımi avadanlığ və texniki vasitələrə malik olan, mənəvi-psixoloji mühiti

sağlam olan məktəbdə təlim-tərbiyə işinin səviyyəsini yüksəltməsi imkanı çoxalır.

**(«Poliqlot» qəzeti, 10 oktyabr, 2005)**

## 53. QARŞILIQLI TƏKMİLLƏŞMƏ QOVŞAĞI

Telefon zəng çaldı. Dəstəyi götürdüm.

-Mənə Nurəddin müəllim lazımdır, - dedi.

«Azərbaycan müəllimi» qəzetinin əməkdaşı şair Cavad Cavadlı idi. Hal-əhval tutandan sonra mətləbə keçdi:

-Bilirsiniz ki, bu yaxınlarda qəzetin yubileyi olacaqdır. İstərdik məqalə ilə çıxış edib münasibətinizi bildirəsiniz.

Məmnuniyyətlə razılıq verdim. Sağollaşdıq. Lakin xeyli fikrə getdim. Qəzetin təklifi ilə əlaqədar nədən yazım? Qırx ildir ki, bu qəzetlə bağlıyam, onun fasiləsiz oxucularından və hərdən də yazarlarındanam. Keçən dövr ərzində olanları xatırladım. Qəzetlə, onun əməkdaşları ilə bağlı təəssüratlarım isə saysız-hesabsızdır. Belə qərara gəldim ki, «Azərbaycan müəllimi»nin yalnız bircə cəhətinə-pedaqoji nəzəriyyə ilə pedaqoji təcrübənin qovuşmasında onun roluna toxunum.

1971-ci il idi. Gəncə şəhərinə ezam olunmuşdum. Bir neçə məktəbə, o cümlədən də 11 saylı məktəbə baş çəkdim, dərslərdə oldum. Geri qayıdanda həmin məktəbin müəllimlər otağı barədə «Azərbaycan müəllimi»ndə bir məqalə dərc etdirdim.

Qəribədir, adi bir məsələ barədə – müəllimlər otağı haqqında sadə bir məqalə müəllimlər arasında böyük əks-səda vardı. Məktəbin pedaqoji kollektivi adından minnətdarlıq məktubu aldım. Həmin məktəb haqqında yazdığıma görə deyil, özlərinin müəllimlər otağını özlərinə tanıtdığıma görə mənə minnətdarlıqlarını bildirirdilər.

Elə həmin dövr idi. Bakı şəhərindəki trolleybus dayanacaqlarından birində Azərbaycan Dövlət Pedaqoji İnstitututunun dosenti, həmkarım Sədrəddin Nətiyevlə görüşdük. Söhbət əsnasında məlum oldu ki, onun həyat

yoldaşı da müəllimədir və işlədiyi məktəbdə «Müəllimlər otağı» müzakirə olunmuş, məqalə böyük maraq doğurmuşdur; müəllimlər otağının təkcə istirahət yeri deyil, məktəbdə əsasən pedaqoji və metodiki biliklər mərkəzi olduğunu aydın şəkildə yəqin ediblər.

Bir misal da gətirdim. 1989-cu ilin apreli məktəblərin birində idim. Pəncərəyə söykənmiş şagird heç nədən, heç kəsdən çəkinmədən siqaret tüstüsünü dodaqları arasından burula-burula havaya buraxırdı. Kənarda dayanıb arxasınca söhbət edən üç müəllim isə bu mənzərəyə tam laqeydlik gösərirdi. Mən şagirdə yaxınlaşdım. Soruşdum:

- Cavan oğlan! Siqaretin zərərli olduğun bilmirsənmi? Nə üçün siqaret çəkirsən?

Elə bil o, verəcəyim sualı duymuşdu. Çünki ildırım sürətilə cavab verdi: - Siqaret pisdirsə, müəllimlər niyə çəkirlər?

Şagirdin fikri məni sarsıtdı. Düzü, onun bu dərəcədə real, həqiqi, açıq-saçıq cavab verəcəyini qətiyyən gözləmirdim. Axşam bir məqalə yazmalı oldum: «Nə üçün susuruq?» Məqalə «Azərbaycan müəllimi»ndə dərc olundu. Çox çəkmədi, məni qəzetin redaksiyasına dəvət etdilər. Bir qovluq məktub göstərdilər. Müəllimlərimiz və valideynlərimiz məqalədə qaldırılan fikirlərə öz münasibətlərini bildirir, siqaretin yalnız sağlamlığa deyil, ictimai-iqtisadi həyata vurduğu ziyanı inandırıcı şəkildə açıldığından, siqaret xəstəliyinə tutulmuş bəzi müəllimlərimizi tərpətdiyindən razı qaldıqlarını bildirdilər.

Aydındır ki, qəzetə məqalə yazan tək mən deyiləm. Şükürlər olsun ki, indi yüzlərlə yaxşı yazarlarımız var. O da aydındır ki, «Azərbaycan müəllimi»ndə dərc olunan məqalələrdə və onlara müəllimlərimizin münasibətində heç bir adilik yoxdur: müəllimlər hansısa pedaqoji hadisəni qələmə alır, müəllim isə onu oxuyur. Lakin bu qarşılıqlı əlaqədə sezilməsi çətin olan iki qeyri-adilik vardır. Birincisi budur ki, müəllif məktəb həyatında müşahidə etdiyi hadisələri nəzəri fikir süzgəcindən keçirir, onların pedaqoji mahiyyətini açır; belə məqaləni oxuyan müəllim isə hər gün gördüyü və artıq gözü alışdığı hadisələrə yeni mövqedən,

yeni nəzərlə yanaşmalı olur. Nəticədə müəllif də, müəllim də eyni dərəcədə faydalanır: müəllif müəllimdən, müəllim isə müəllifdən öyrənir.

Həmin qarşılıqlı əlaqədə ikinci cəhət budur ki, «Azərbaycan müəllimi» məqalələr dərc etməklə müəllifi və müəllimi qiyabi də olsa görüşdürür, onlar arasında qarşılıqlı əlaqələrin təməlini qoyur, qarşılıqlı təkmilləşmənin əmələ gəlməsinə şərait yaradır; qəzet qarşılıqlı faydalanmağın qovşağına çevrilir.

Nəzərə alınmalıdır ki, «Azərbaycan müəllimi»ni oxuyan və ondan bəhrələnən müəllimlərimiz minlərlədir bu qəzet həm də yüzlərlə müəllifin püxtələşməsinə, pedaqoji cəhətdən kamilləşməsinə təkan verir.

O da nəzərə alınmalıdır ki, «Azərbaycan müəllimi» qəzetindən qidalanan müəllif və müəllimlərimiz milyonlarla azərbaycanlı balalarına təlim və tərbiyə verir, gənc nəslin həyata hazırlanmasına fəal xidmət edir.

Mən «Azərbaycan müəllimi»nin böyük sosial-pedaqoji əhəmiyyətini bunlarda görür və yubileyi münasibətilə qəzetin indiki və keçmişdə fəaliyyət göstərmiş əməkdaşlarını ürəkdən təbrik edir, onların hamısını möhkəm cansağlığı arzulayıram.

Diləyim həm də budur ki, maarif və mədəniyyətimizin inkişafında «Azərbaycan müəllimi»nin əvəzsiz rolunu nəzərə alaraq ona dövlət qayğısı göstərilsin.

**(«Azərbaycan müəllimi» qəzeti, 1994, 12 noyabr)**

## 54. ELM OĞRUSU ADAMLARI NƏLƏRƏ VƏ NƏ ÜÇÜN TƏHRİK EDİR?

Bu yaxınlarda hörmətli Əjdər müəllimlə görüşdük. O, sevincək mənə bildirdi ki, akademik Əmrulla Paşayev böyük bir məqalə yazıb. Redaktoru olduğu «Təhsil və zaman» qəzetinin bir nüsğəsini mənə verdi. Oxudum. Yəqin etdim ki, akademik mənim yolumda xeyli əziyyət çəkib; əsərlərimin xeyli hissəsini ələk-vələk edib, arayıb axtarıb, nəyi isə tapmağa çalışıb. «Zəhmət» üçün akademikə minnətdaram. Mən onun «zəhmətini» gecə-gündüz dağlarda külüng vurub bir qram qızıl üçün tonlarla külçəni kənara atan qızıl axtaranlara bənzədərdim: 400-dən artıq əsəri gözündə eynək, əlində qələm varaqlayasan, «yaramayanlara» göz yumasan, «yarayanları» öpüb gözünün üstünə qoyasan!

Təbii olaraq oxucuda sual yaranır: görəsən Nurəddin müəllimin bu qədər əsərlərindən akademik üçün «yaramayanlar» nə idi, «yarayanlar» nə?

Məqaləni diqqətlə nəzərdən keçirdikdə akademik üçün «yaramayanlar», kənara atılanlar ənənəvi pedaqogikada Nurəddin müəllimin üzə çıxartdığı çatışmazlıqlar və onların əvəzində gətirdiyi yeni elmi fikirlərdir; «bəyəndiyi» isə Nurəddin müəllimin əsərlərində olmayan, lakin özünün quraşdırdığı, uydurduğu, yozduğu fikirlər, atdığı böhtanlardır.

İnanmırsınız? Onda akademikin yazdığı məqalənin lap ilk cümləsinə diqqət yetirin. Həmin ilk cümlədə akademik yazır: «…Nurəddin Kazımov «Azərbaycan müəllimi» qəzetinin 10 iyun, 8 iyul, 15 iyul 2005-ci il və s. tarixli nömrələrində «Milli tərbiyə nəzəriyyəsi» yaratmaq probleminə seriya yazılarını həsr etmişdir». Oxucudan xahiş edərdim ki, qəzetin həmin nömrələrində çap olunmuş mənim məqalələrimin adına diqqət yetirsin, görsün «Milli tərbiyə nəzəriyyəsi»dir, yoxsa «Milli pedaqogikada tərbiyə

nəzəriyyəsi»? İndi siz özünüz akademikdən soruşun: Nə üçün məqalənin adını təhrif edərək özünüzə sərfəli formada ifadə etmisiniz? Yaxud, hörmətli oxucu, akademikin hələ məqaləsinin məzmununa keçməzdən əvvəl onun adındakı digər saxtakarlığa diqqət yetirin. Tarix araşdırıcısı hesab edilən bu akademik məqaləsinə belə ad qoyub: «Milli pedaqogika»da «Tərbiyə nəzəriyyəsi» və «Mərhələli tərbiyə nəzəriyyəsi» yaratmaq cəhdi...». Burada hələlik yalnız «...yaratmaq cəhdi» ifadəsinə fikir verin. Akademikə çoxdan bəllidir ki, Milli pedaqogika yaratmağa cəhd hələ respublikamızın dövlət müstəqilliyinin elan edildiyi ilk illərində göstərilmişdir. 1991-1992-ci illərdə prof. Ə. Ağayev, prof. Y.Talıbov və mən müvafiq olaraq əvvəlkilər «Milli pedaqogika» və «Milli pedaqogika zamanın tələbidir» adlı məqalələrlə çıxış etmişlər və Milli pedaqogika yaratmaq təşəbbüsündə olmuşlar. O zamandan 15 il keçmişdir. Bu dövr ərzində təşəbbüs real işə çevrilmişdir: Milli pedaqogika çoxdan yaradılmışdır; Milli pedaqogika ideyaları əsasında bir sıra dərslik və dərs vəsaitləri çap olunmuşdur; hətta «Milli pedaqogika məktəbi» adlı qurum formalaşmışdır; üç ildir ki, «Milli pedaqogika məktəbi jurnalı» çap olunur. Bizim akademik isə bu olanları olmayan kimi, «yaratmaq cəhdi» kimi qələmə verir. Cəhd isə baş tuta da, tutmaya da bilər.Reallığı görməmək yalnız korluq əlaməti deyil. Elmdə yeniliyi inkar etmək yalnız nankorluq, saxtakarlıq da deyil. Bəs daha nədir? Görəsən, məqalənin hələ adı və ilk cümləsi belə saxtakarlıqla başlayırsa sonrakı fikirlər necə olacaq?

Arxasınca müəllif yazır ki, Nurəddin müəllimin «tənqid qılıncına» məruz qalanlar çox zaman «haqsız yerə» ona düçar olurlar.

Hörmətli akademik, unutmayın ki, ilk dəfə siz özünüz Ali Attestasiya Komissiyasına ərizə yazıb şikayətlənirdiniz ki, Azərbaycan elmi-pedaqoji ictimaiyyətində tənqid yox dərəcəsindədir və tələb edirdiniz ki, tənqidə rəvac verilsin. Əvvəla, o zaman həmin fikri söyləməkdə siz haqlı deyildiniz: olanı olmayan kimi təqdim edirdiniz. Çünki,

sizin həmin fikrinizə və arzunuza qədər çap olunmuş əsərlərdə Milli pedaqogika məsələləri ənənəvi pedaqoji ideyaların məhz tənqidi təhlili əsasında formalaşmışdır; bu cəhəti isə siz o zaman görməməzliyə vururdunuz.

İkincisi, «Nurəddin müəllimin «tənqid qılıncına» məruz qalanlar çox zaman haqsız yerə ona düçar olurlar» fikrinizə gəldikdə aşağıdakıları deməyə məni məcbur edirsiniz. Fikrinizdən məlum olmur ki, siz özünüzü hansı qrupa aid edirsiniz: çox zaman məruz qalanlara, yoxsa məruz qalmayanlara? Gəlin, sözünüzün üstündə durun: axı, özünüz «tənqid qılıncını» qaldırmağı tələb etmisiniz! Mən də qılıncı qaldıranda görmüşəm ki, iki akademik əl-ələ verib bir rusun iki hissədən ibarət olan kitablarını Azərbaycan dilinə tərcümə edib, bir kitab halında çap etdirərək üstünə də əsil müəllifin yox, öz adlarınızı yazdırmısınız! Bu yolverilməz, biabırçı hal elmi dildə plagiat, adi dildə oğurluqdur! Hörmətli akademik, deyin görək, bu hala görə siz «tənqid qılıncı»na haqsız yerə məruz qalmışdınız?

Məqalənizdən görünür ki, hörmətli akademik, siz nəinki öz istəyinizin əleyhinə çıxırsınız, həm də ən biabırçı əməlinizdən utanmırsınız, indi «tənqid qılıncı»nın sahibində nöqsanlar axtarışına çıxmısınız. Düşünürsünüz ki, bəlkə bu yol sizi düşdüyünüz çirkabdan az da olsa xilas etdi. Lakin, təəssüf! Xülasə. Görək akademik daha nə tapa bilir.

Akademik yazır: «Tərbiyə nəzəriyyəsi» ilə bağlı problemə aydınlıq gətirmək üçün pedaqogikalara kiçik bir ekskurs verməyi lazım bilirəm». Bu fikrinə sadiq qalan müəllif xeyli pedaqogika adlı kitabları uzun-uzadı «təhlil» edəndən sonra «tənqid qılıncı»nın sahibinin gəldiyi fikri təkrarlamalı olur: mütəxissislərin tərbiyə nəzəriyyəsinə dair fikirləri birmənalı olmamışdır. Akademikin bu cəhətdən gətirdiyi faktlar o qədər də əhəmiyyətli deyil. Burada diqqəti çəkən tərbiyə məsələlərinə onun özünün münasibətidir. «Müəllif» rusdan oğurlayıb öz adına çıxdığı və 2002-ci ildə çap etdirdiyi «Pedaqogika. Yeni kurs» (rus dilində olduğu kimi) adlı kitaba istinad edərək yazır ki, tərbiyə nəzəriyyəsinə aid olan «bölmə təlim və təhsil-tərbiyə nəzəriyyəsi və texnologiyası»

bölməsinin ayrılmaz hissəsi kimi onun tərkibində təqdim olunmuşdur». Akademik görün bircə cümləsində nə qədər elmi səhvə yol verir.

Tərbiyə nəzəriyyəsindən qaçmağa çalışan akademikin öz fikrində ardıcıl olmaması, ziddiyyətli mövqe tutması oxucunun diqqətindən qaçmır. O, bir tərəfdən tərbiyənin nəzəri məsələlərinin üzərində xüsusi dayanmağı lüzumsuz iş hesab edir; digər tərəfdən də oğurladığı kitabda tərbiyənin nəzəri məsələlərinə xüsusi yer ayırır, yazır ki, tərbiyənin nəzəri məsələləri kitabın «Təlim və təhsil-tərbiyə nəzəriyyəsi və texnologiyası» bölməsinin…tərkibində təqdim olunur». Əsil «alim» belə olar: gah nala, gah da mıxa vurar; dediyini nə özü, nə də başqası başa düşər.

Akademikin bu fikrində ziddiyyətdən, ardıcıl olmamaqdan əlavə, həyatı düzgün ifadə etməmək də vardır. Nə üçün? Çünki, həmin cümlədən göründüyü kimi, bizim akademik tərbiyəni təlimdən ayırıb, təhsillə qovuşdurur. İndi duraq akademik adı olan şəxsə izah edək ki, real həyatda təhsil özü əsasən təlim vasitəsi ilə həyata keçirilir; ağız büzdüyünüz Milli pedaqogikada sübut olunmuşdur ki, təlim təhsilin həyata keçirilməsi prosesi kimi özünü göstərir. Bu səbəbdən də təlim kateqoriyasından sonra «və» yazaraq tərbiyəni yalnız təhsilə bağlamaq da yolverilməzdir. Tələbəyə də məlumdur ki, təlimin vəzifələrindən biri məhz tərbiyədir.

Hörmətli akademik! Bilməlisiniz ki, ruslardan oğurladığınız kitabda tərbiyəni təlimdən qopararaq təhsilə calayıb «təlim və təhsil-tərbiyə» formasında yüzlərlə işlətdiyiniz qurama söz birləşməsi real həyatdan uzaqdır və o, yalnız kağızda mövcud ola bilər.Bir qədər sonra, özünüz hiss etmədən, sübut etməli olursunuz ki, tərbiyə təlim zamanı həyata keçirilir..Yenilik kimi işlətdiyiniz həmin qurama söz birləşməsinin əməli nöqsanına gəldikdə, tələbə sizin qeyri elmi məntiqə uyub düşünərki, bəlkə doğrudan da tərbiyə təlimlə yox, daha çox təhsillə bağlıdır; belə olduqda tələbə təlimdə tərbiyə imkanları axtararmı? Yox, axtarmaz! Təlimin tərbiyəvi vəzifələrini həyata keçirməyə xüsusi səy də

göstərməz! Bu qəbildən olan elmi nöqsanlar bəlkə səriştəsizliyin nəticəsidir? Bəlkə bu, təhsildə şüurlu təxribatdır? Düşünməyə dəyər!

Hörmətli akademik, sizin real pedaqoji prosesdən uzaq olan qurama «təlim və təhsil-tərbiyə» ifadəniz başqa cəhətdəndə məntiqsizdir. Sizin ağız büzdüyünüz Milli pedaqogikada çoxdan sübut olunduğu kimi, real pedaqoji prosesdə təhsil üç əsas formada özünü göstərir: təhsil bir halda təlimin təşkili üçün zəruri bazaya çevrilir; digər halda təlim formasında cərəyan edir; üçüncü halda isə təhsil şagirdlərin, tələbələrin (təhsilalanların) malına çevrilir. Reallıq bundan ibarətdir, əziz akademik! Gedin bu həqiqəti bizim tələbələrdən öyrənin!

Bizim akademik rus dilindən oğurladığı pedaqogika adlı kitabda tərbiyə məsələlərinin ayrıca bölmədə verilməsinin nəinki əleyhinədir; O,hətta dərsdənkənar vaxtlarda həmin məsələlər üzrə iş aparmaq iimkanlarının son dərəcə məhdud olduğunu söyləyir və həmin istiqamətdə fəaliyyət göstərməyə ehtiyacın olmadığını bildirir. Akademikin gətirdiyi dəlillər bunlardır: 1. Şagirdlərin öyrənmə-idrak fəaliyyəti üçün ayrılan vaxt normativləri buna imkan vermir; 2. Sinif-dərs şəraitində şagirdlər həm təhsil alırlar, həm də tərbiyə olunurlar; 3. Dərsdənkənar tədbirlər könüllülük və müstəqillilik prinsipinə əsasən təşkil edilir.

Tərbiyə məsələlərinə, tərbiyə nəzəriyyəsinə akademikin hücumu, nəticə olaraq onu dərsdənkənar təlim-tərbiyə işlərini sıxışdırıb aradan qaldırmaq qərarına gətirmişdir.

Bu qəbildən olan fikirlərdən görmək olur ki, akademik nəinki nəzəri pedaqoji məsələlərə, hətta müasir məktəb həyatına da dərindən bələd deyil. Çünki, əvvəla, onun doktorluq dissertasiyası məktəb və təhsil məsələlərinin tarixinə aid olmuşdur; ikincisi, «Pedaqogika. Yeni kurs» adında Bakıda çap etdirdiyi kitabda yazdığı fikirlər onun uzun illər müstəqil apardığı tədqiqatların məhsulu deyil, Podlasıydan oğurluqdur. Atalar demiş: Nə yoğurub, nə yapıb, hazırca kökə tapıb.

Xülasə, qayıdaq akademikin fikrinin ardına. Onun sonrakı fikrinə görə, tərbiyə yalnız sinif-dərs şəraitində aparılır; bu səbəbdən də tərbiyə haqqında nəzəriyyə işləyib hazırlamağa ehtiyac yoxdur. Akademikin bu cür mühakiməsindən görünür ki, əvvəla, müasir məktəblərimizdə hazırlanıb həyata keçirilən və gözəl nəticələr verən müxtəlif formalı, başqa-başqa məzmunlu dərsdənkənar təlim-tərbiyə tədbirlərindən akademikin xəbəri yoxdur; ikincisi, ailələrdə tarixən aparılmış və indi də aparılan tərbiyə təcrübəsi bizim akademikə məlum deyil; üçüncüsü, sinif rəhbərlərinin gündəlik təşkil etdikləri dərsdənkənar təlim-tərbiyə işləri akademik üçün o qədər də əhəmiyyət kəsb etmir; dördüncüsü, həm orta ümumtəhsil məktəblərində, həm də ali məktəblərdə direktorun və rektorun müavinlərindən birinin məhz tərbiyə işlərinə baxdığından akademik hələ də xəbər tutmayıb; beşincisi, həm kütləvi ümumtəhsil məktəblərində, həm internat məktəblərdə, həm də uşaq evlərində ştatlı tərbiyəçilər akademikdən inciyə bilərlər ki, akademik onları nəzərə almır. Bu siyahını bir qədər də uzatmaq olardı.

Bu cür faktlar əlavə olaraq açıq-aşkar göstərir ki, bizim akademik Azərbaycanda dərsdənkənar aparılan tərbiyə həyatından xəbərsizdir. Yox, əgər xəbəri varsa, onda ortaya təbii sual çıxır: bəs akademikin məqsədi nədirki, bu qədər geniş şəbəkədə həyata keçirilən dərsdənkənar təlim-tərbiyə tədbirlərini gözümçıxdıya salır, bu cür tədbirləri həyata keçirən mütəxəssislər ordusunu hörmətdən salmağa çalışır? Əgər akademikin fikrini ciddi qəbul edib, onu gələcəkdə müəllim olmağa hazırlaşan tələbələr nəzərə alsalar və gələcəkdə dərsdənkənar tərbiyəvi tədbirlər təşkil etməkdən boyun qaçırtsalar, yaxud dərsdənkənar təlim-tərbiyə işi ilə məşğul olan pedaqoji işçilərin əl-ayağı işdən soyusa, onlar ruhdan düşsələr, işdən çıxıb getsələr təhsil sahəsində nələr baş verər? Bu, görəsən, təhsil sahəsində onun həyata keçirməyə çalışdığı təxribat formalarından biri deyil ki? Düşünməyə dəyər!

Görəsən, akademikin qələmindən çıxan bu cür fikirlərə yalnız pedaqoji cəhətdən yanaşmaq kifayətdirmi? Yoxsa, burada siyasi məqsəd də var? Düşünməyə dəyər?

Belə bir vəziyyəti nə ilə izah etmək olar? Elmi-pedaqoji səriştəsizliklə? Yoxsa, təhsil sahəsində xaos, təxribat yaratmaq cəhdi ilə? Düşünməyə dəyər?

Nəinki yalnız pedaqoji cəhətdən, siyasi cəhətdən lazımınca ölçülüb-biçilməmiş ideyaların dövriyyəyə buraxılmasının tamam başqa səbəbi ola bilərmi? Bəlkə, burada necə olur-olsun ümumiyyətlə pedaqoji nəzəriyyə, xüsusən də tərbiyə nəzəriyyəsi yaratmaq təşəbbüsündən Nurəddin müəllimi çəkindirmək məqsədi güdülür? Bu da ola bilər! Amma iki cəhət nəzərə alınmalıdır. Bir cəhət yaşadığımız dövrlə, dövrün tələbi ilə bağlıdır. Qoy akademik də bilsin: Nəyə inam yaranırsa, Nurəddin müəllimin inamına yalnız ölüm son qoya bilər! Uzun illər elmi-pedaqoji fəaliyyət ərzində məndə belə bir yenilməz inam formalaşmağa başlamışdı ki, pedaqogikanın bir elm kimi nüfuzunun qaldırılmasında pedaqoji qanunauyğunluqların üzə çıxarılmasına, kateqoriya və məfhumların həmin qanunauyğunluqlar əsasında sistemləşdirilməsinə böyük ehtiyac vardır; pedaqoji nəzəriyyə yalnız bu əsasda mümkündür. Bu cəhətdən mən akademikin diqqətini yenidən məqaləsinin ilk cümləsinə yönəltmək istəyərdim. Xatırlayırsınızsa, akademik fikirlərinin şərhinə «Azərbaycan müəllimi» qəzetində mənim çap etdirdiyim silsilə məqalələrdən başlayır. Bu, onun öz işidir. Amma akademikin istinad etdiyi mənim silsilə məqalələrim redaksiyanın təqdimatı ilə başlamışdır. Burada son dərəcə maraqlı, akademikin şəxsiyyətini səciyyələndirən bir məqam da var. Redaksiyanın təqdimatı belə başlayır: «Respublikamızın bütün sahələrində olduğu kimi, təhsil sahəsində də islahatlar getdikcə genişlənir və dərinləşir. Lakin, təəssüf ki, tərbiyə sahəsində bunu deyə bilmirik». Arxasınca yazılır ki, təhsil nazirliyi kollegiyasının 29 dekabr 2000-ci il tarixdə qəbul etdiyi qərarda tərbiyə məsələlərinə xüsusi diqqət yetirilmiş və təəssüflə göstərilmişdir ki, «Milli

ideologiya və dövlətçilik prinsipləri əsasında hələ də tərbiyə məsələləri, milli tərbiyə proqramının işlənib hazırlanmaması islahatların gedişini ləngidən amillərdən biridir».

Bu qərardakı ideyalar tərbiyənin nəzəri məsələlərini işləmək üçün həm mənim inamımı gücləndirmiş, həm də silsilə məqalələr çap etdirmək üçün qəzetin redaksiyasına, bir növ, istiqamət vermişdir. Həmin qərarın tələblərinə mənim və redaksiyanın cavabı belə olub.

Soruşmaq yerinə düşər: Ola bilərmi ki, hörmətli akademik mənim məqaləmin əvvəlində redaksiyanın təqdimatının bir cümləsini oxusun, digər iki cümləsini oxumasın? Ola bilməz! Yenə sual: onda belə çıxmırmı ki, hörmətli akademik yalnız Nurəddin müəllimə deyil, kollegiya üzvlərinə, onun sədri olan nazirə, bütövlükdə qərara qarşı çıxmış olur? Əslində elə belə də var! Çünki, yuxarıda sübut etdik ki, hörmətli akademik sinif-dərs məşğələlərindən kənarda keçirilən təlim-tərbiyə işlərini tanımaq istəmir. Ruslardan köçürdüyü kitabda da, məqaləsində də bu fikri açıqca yazır.

Gürcüstan akademiki ölkəmiz üzrə artıq qərar vermişdir: təlim özü elə mərhələli proses olduğundan «Tərbiyə nəzəriyyəsi» adlı «nəzəriyyənin müasir pedaqoji düşüncə və praktika nöqteyi nəzərindən pedaqogikanın ayrıca bölməsi kimi təqdim edilməsi artıq keçmişdir, retrokratçılıqdır».

Sinif-dərs məşğələlərindən kənarda həyata keçirilən tərbiyə haqqında düşünməyin də, iş görməyin də lazımsız olduğunu akademik dönə-dönə, elə məqaləsində də təkrarlayır. Lakin onun təqdim etdiyi son fikrində açılmalı bəzi maraqlı məqamlar yox deyil. Burada akademik tərbiyənin nəzəri məsələləri barədə düşünməyi və iş görməyi sadəcə lüzumsuz hesab etmir, onu köhnəlik, hətta retrokratçılıq adlandırır; özünü isə yenilikçi hesab edir.Buna onun «əsası» var. Çünki o, üstündə «yeni» sözü yazılan kitabı və ya həmkarlarının əleyhinə Avropa məsləhətçisindən eşitdiyi ideyanı özününküləşdirməyin ustasıdır. Misal? Demişik! Bir də təkrar edirik. Podlasıyın rus dilində «Pedaqogika. Novıy kurs» adlı iki kitabı

Azərbaycan dilində də oldu akademikin «Pedaqogika. Yeni kurs» adlı bir kitabı! Bəs o əcnəbidən eşitdiyi ideyanı necə özəlləşdirir? Misal? Buyurun! Azərbaycanda müəllim kadrlarının hazırlığı ilə əlaqədar Avropadan ayrılmış məsləhətçiyə respublikada çap olunmuş pedaqogika adlı kitablar haqqında məlumat verənlərdən biri məhz bizim bu Gürcüstan akademikimiz olmuşdur. Verilən saxta məlumatlara əsasən məsləhətçinin gəldiyi qənaət isə belə olub: həmin dərs vəsaitlərində nəzəri məsələlər, o cümlədən tərbiyəyə aid nəzəri məsələlər çoxluq təşkil edir, onları islah etmək lazımdır. Məsləhətçi «Təhsilin əsasları» adında dərs vəsaiti hazırlamağı tövsiyə edib. Akademik də bəziləri ilə birlikdə girişib bu işə, ayda filan qədər dollar almaqla!

Əsas bu deyil, əsas Avropa məsləhətçisinin xeyirxah olub-olmamasında və bizim akademikin də həmin ideyaya uyaraq respublikamızda tərbiyə ilə nəinki nəzəri, həm də əməli şəkildə məşğul olan şəxslərə hücüm çəkməsindədir.

Bu məsələdən xəbər tutan kimi, məsləhətçi ilə birlikdə hazırlanmış layihə haqqında on səhifədən ibarət etiraz rəyi hazırlayıb nazirə təqdim etdim, sübut etməyə çalışdım ki, layihə elmi əsaslardan məhrumdur, o formada respublikaya fayda verə bilməz.

Hazırlanmış, hətta «Azərbaycan müəllimi» qəzetində çap olunmuş layihənin ən köklü qüsuru o idi ki, layihə tələbələrə pedaqoji proses haqqında yalnız praktik bilik və bacarıq verilməsini məsləhət görürdü, nəzəri düşüncəyə isə yer verilmirdi.

Başa düşüləndir ki, Avropaya onunla mübahisəyə girişməyəcək, başını aşağı salıb əməli işlərlə məşğul olacaq müthi şəxslər gərəkdir. Son dərəcə təəccüblüsü odur ki, bizim Gürcüstan akademiki də Avropa məsləhətçisinin məkrli ideyasına sadiq qalır, gələcək müəllimlərimizi nəzəri düşüncə tərzlərindən məhrum etməkdə canfəşanlıq göstərir, özünü yenilikçi, bütün şagirdləri, bütün tələbələri, o cümlədən də gənc müəllimləri nəzəri təfəkkür tərzləri ilə silahlandırmağa çalışan tərbiyəçilərə və alimlərə köhnəlik tərəfdarı, retrokratçı (mürtəce) damğası vurmağa çalışır.

Görəsən akademikin bu meylində təxribatçılıq əlaməti yoxdur ki? Düşünməyə dəyər!

Unutmayaq ki, Avropa pedaqoqlarından bəziləri yoxsulların balalarına praktik biliklərin verilməsinin, varlıların balalarına isə nəzəri biliklərin öyrədilməsinin vacibliyini əsaslandırmağa çalışırdılar və indinin özündə də çanfəşanlıq edənlər var, bizim Gürcüstan akademiki kimi!

O ki qaldı pedaqoji prosesdə nəzəriyyənin yeri və roluna, əvvəllər yazdığımız kimi, yenə təkrar deyirik: hər hansı işin nəzəri əsaslarını bilmədən görülən iş kortəbii olur; nəzəri bilik adamın gözünü açır, şüurluluq səviyyəsini yüksəldir. Mənim anlamımda nəzəriyyə ümumi sözlər yığını deyil, elmi cəhətdən düzgün ümumiləşdirilmiş sosial təcrübədir. Bu cür başa düşülən təcrübədən-nəzəriyyədən müəllimləri məhrum etmək cəhti, mənim əqidəmə görə, təhsil sahəsində təxribat kimi qiymətləndirilməlidir.

İndi də görək Gürcüstan akademiki Nurəddin müəllimin əsərlərində daha nə tapa bilib. O, mənim dərsliklərimdən birinin adını hədəfə götürərək yazıb ki, dərsliyi «Məktəb pedaqogikası» adlandırmaqla Nurəddin müəllim bir elm kimi pedaqogikanın nüfuzuna və statusuna xələl gətirmişdir.

Yaxşı deyiblər: yağı çox qurdalama, ayranı üzə çıxar. Akademikin həmin fikri əlavə olaraq sübut etdi ki, ondan ötrü pedaqogika yalnız elm imiş. Zavallı üçün hələ aydın deyilmiş ki, pedaqogika fənn də ola bilərmiş; Akademikə hələ o da aydın deyilmiş ki, pedaqogika həm də dərslik olarmış; o da aydın deyilmiş ki, pedaqoji elmin müxtəlif qolları olduğu kimi, onların hərəsinə aid fənlər, dərsliklər və dərs vəsaitləri də olarmış, onlardan biri də «Məktəb pedaqogikası» imiş. İndi də Gürcüstan akademikinə izah edək ki, pedaqogika elm kimi nə deməkdir, fənn kimi nə deməkdir, və, nəhayət, pedaqoji elmin qollarından birini təmsil etmək nə deməkdir? Atalar dəyərmiş: ağıl yaşda deyil, başdadır. Sən demə, indi əlavə olunur: ağıl adda deyil, başdadır!

Sən demə, Gürcüstan akademikinin əksinə,elm, fənn və dərslik arasında fərqi bilməmək, pedaqogikanı yalnız elm məfhumu çərçivəsinə salmaq, pedaqogika fənni və pedaqogika dərsliyi məfhumlarını pedaqogikadan istisna etmək pedaqogikanı nüfuzdan salmağa, onun statusuna xələl gətirməyə bərabər imiş! Sən demə,pedaqogikanı həm elm, həm fənn, həm dərslik, həm də qollarından biri kimi nəzərdən keçirmək nüfuzunu və statusunu xeyli dərəcədə artırarmış!

Bizim akademik öz sönük, bəsid, pedaqoji elmdən uzaq fikrini sübut etmək üçün gətirdiyi yeganə «dəlilə» diqqət yetirin: «Məktəb biologiyası», «Məktəb kimyası», «Məktəb riyaziyyatı» və s. deyilmir»!

Hörmətli Gürcüstan akademiki, gətirdiyiniz «dəlil» əlavə olaraq sübut edir ki, siz daha çox məsələlərdən, hətta pedaqoji elmlərin təsnifatının və ya bioloji və yaxud riyaziyyat elmlərinin təsnifatının tamam başqa-başqa əsaslar üzrə aparıldığından da xəbərsizsiniz? Yaxud, xəbəriniz var, onda onları bilə-bilə saxtalaşdıraraq eyniləşdirirsiniz! İndi duraq burada da əlavə izahat verək? Qısa onu deyək ki, sadaladığınız cütlüklərdə sabit qalan məktəb, dəyişən isə elmlərdir. Nurəddin müəllimin cütlüklərində isə sabit olan elm (pedaqogika), dəyişən isə onun qollarıdır (ailə tərbiyəsi pedaqogikası, məktəbəqədər tərbiyə pedaqogikası, məktəb pedaqogikası, ali məktəb pedaqogikası və s-in pedaqogikası».

Göründüyü kimi, sizin dəlilləriniz nə analogiya yatımlıdır, nə də müqayisə yatımlı. Deməli, məntiqsizdir, elmdən uzaqdır; başqa sözlə, Nurəddin müəllimin seçimi məntiqlidir, elmidir. Yəni «Məktəb pedaqogikası»na aid yazılan iradı yenə Gürcüstan akademikinin öz başında çatladı. Məlum oldu ki, o,»Məktəb pedaqogikası» ifadəsini əvvəlcədən ətraflı ölçüb-biçsəydi, onu dilə gətirməzdi və bir çox məsələlərdən xəbərsiz olduğu da üzə çıxmazdı.

Bizim hörmətli akademik Nurəddin müəllimin əsərlərində daha nə tapa bilib? Ənənəvi «tərbiyə nəzəriyyəsinin» iki yerə parçalanmasını! Atalar haqlı deyib:

Aşığın sözü qurtaranda «nanay-nanay» deyər. Bizim akademik də bir tərəfdən ümumiyyətlə tərbiyə nəzəriyyəsinin əleyhinə çıxır; digər tərəfdən də ənənəvi pedaqogika fənnində bütün tərbiyə məsələlərini cəmləşdirib bir bölmədə təqdim etməyin əleyhinə çıxan, özü də iki başqa-başqa bölmələrdə şərh edən Nurəddin müəllimi suçlamağa çalışır. Arxasınca, bizim akademik həmin bölmələrin adlarını düzgün olaraq xatırlayaraq yazır: «Məktəb pedaqogikası» kitabınızın 3-cü bölməsi «Pedaqoji prosesin tərkib hissəsi olan tərbiyənin ümumi nəzəri məsələləri» adlandırıldığı halda, həmin bölmənin 1-ci fəsli «Milli pedaqogikada tərbiyə nəzəriyyəsi, mahiyyəti, məzmunu, məqsədi» adlanır. Belə çıxır ki, «Ümumi nəzəri məsələlər» söz birləşməsi «tərbiyə nəzəriyyəsi» söz birləşməsindən daha tutumludur. Əsla.

Bu iki ifadəni leksik cəhətdən ətraflı təhlil edən alim «akademikcəsinə» məndən ötrü nəticə çıxarır: «Siz kitabınızda «nəzəriyyə» və «məsələ» məfhumlarından düzgün istifadə etmədiyinizdən dolaşıqlığa yol vermisiniz». Doğrudan da akademikin sözü qurtarıb!

Mən bu qədər «dərinə» getdiyinizə görə, hörmətli akademik, sizə minnətdaram. Çünki, rus dilini yaxşı bildiyiniz və o dildən oğurluq ustası olduğunuz üçün həmən dildən bir deyimi burada sizə xatırlatmaq istərdim: Чем дальше в лес, тем больше дров. Dərinə getdikcə sizin dayaz olduğunuzu özünüz üzə çıxarırsınız, əziz akademik! Leksik «təhliliniz» növbəti dəfə sübut edir ki, siz nəinki formal məntiqdən uzağa gedə bilmirsiniz, həm də qeyrətlə aparılmalı elmi mübahisədə axsayırsınız, sözləri dəyişmək, ört-basdır etmək ustasısınız. Buna – natiqlik sənətində sofizm deyilir. Sübut? Buyurun! Siz «Məktəb pedaqogikası»nda 3-cü bölmənin adını da, oradakı 1-ci fəslin adını da olduğu kimi yazmısınız. Bundan ötrü sağ olun. Lakin, sonra, leksik təhlildə elmi atırsınız bir tərəfə, başlayırsınız sözləri seçməyə: 3-cü bəndin adındakı «pedaqoji prosesin tərkib hissəsi olan tərbiyəni» sözlərini atırsınız, oradakı 1-ci fəslin adındakı «Milli pedaqogikada»

sözlərini də atırsınız. Bölmənin adından qopartdığınız «ümumi nəzəri məsələlər» söz birləşməsi ilə 1-ci fəslin adından dartıb çıxartdığınız «tərbiyə nəzəriyyəsi» söz birləşməsi üzərində cərrahiyyə əməliyyatı aparırsınız. Axı, həmin söz birləşmələrinin dili yoxdur ki, haray qaldırsın, desin: amandır, bizi yoldaşlardan ayırmayın, onlarsız biz elmi mənadan məhrum olan boş sözlərik. Onların harayına gələn Nurəddin müəllimdir, əziz akademik! 3-cü bölmənin adında nəinki Milli pedaqogikanın mövqeyi, həm də tərbiyənin nəzəri məsələsinə dair digər mütəxəssislərin mövqeləri nəzərdə tutulur. Bölmənin adı, təbii olaraq, tərbiyə haqqında nəzəriyyələr adlandırıla bilməzdi. Çünki, Milli pedaqogika istisna olmaqla, pedaqoji ədəbiyyatda tərbiyə nəzəriyyələri formalaşmamışdır, tərbiyə nəzəriyyəsi barədə yozumlaz olmuşdur? Bu səbəbdən də bölmənin adı mövcud duruma uyğun düzgün olaraq belə ifadə olunmuşdur: Pedaqoji prosesin tərkib hissəsi olan tərbiyənin ümumi nəzəri məsələləri».

Bölmənin 2-ci fəslinin adına gəldikdə deməliyik ki, bölmənin tərkibində onun verilməsi də məntiqə tam uyğundur. Çünki, orada mövcud olan yalnız bir nəzəriyyə-Milli pedaqogikada tərbiyə nəzəriyyəsinin mahiyyəti, məzmunu və məqsədi həmin məsələlərdən biri kimi şərh edilir. İstərdik ki, elm «adamı» hesab edilən Gürcüstan akademiki cümlələrdən istədiyi sözləri qoparıb sözçülüklə, söz güləşdirməsi ilə baş girləməsin, namuslu elmi mübahisədən qaçmasın; Milli pedaqogikada əsaslandırılan tərbiyə nəzəriyyəsinin mahiyyəti və məzmunu barədə fikirlərini bildirsin. Onda hər şey daha aydın olardı. Amma siz həmişə mahiyyətdən qaçmısınız: oxu yayla atarlar! Yaysız ox isə hədəfə düzgün çatmaz!

Pedaqoji cərəyanlar haqqında akademikin fikirləri isə konkretdir: «Adları çəkilən cərəyanlar pedaqoji fikir tarixində çoxdan məlumdur və onların heç biri meydana gəldikləri dövrdə məktəb həyatında aparıcı rol oynamamışlar». Hörmətli akademik, bu, sizin fikrinizdir, öz fikrinizdə qala bilərsiniz. Mən isə akademiklikdən uzaq

olan sıravi pedaqoq kimi tamam başqa fikirdəyəm. Əvvəla, həqiqət heç də sizin dediyiniz kimi deyil. Siz tarixə də böhtan atırsınız. Pedaqoji cərəyanların bəziləri tarixdə dərin iz qoymuşdur! İkincisi, mövcud olmuş və olan pedaqoji cərəyanlar haqqında məlumatlar müxtəlif mənbələrdə səpələnmişdir. Onları axtarıb tapmaqla, cəmləşdirməklə pedaqoji fikir tarixində kim məşğul olmuşdur? Heç kəs! Üçüncüsü, onların xeyli hissəsinin pedaqoji cəhətdən mahiyyəti açılmamışdır. Pedaqoji cərəyanlar haqqında mənim zəhmətimə münasibətiniz bir daha sübut edir ki, siz elmdə doğrudan da təsadüfi adam təəssüratı yaradırsınız!

Hörmətli akademik, sizin fikrinizin ikinci hissəsi oxucunu, xüsusilə məni təəccübləndirir. Sizin məntiqinizdən belə çıxır ki, tarixdə yalnız özünü doğrultmuş hadisələr öyrənilməlidir. Tarixin birtərəfli öyrənilməsi nə dərəcədə səmərəli hesab edilə bilər? Axı, özünüz də tarixə aid məsələlərin tədqiqatçısı hesab edilirsiniz!

Pedaqoji cərəyanlarla əlaqədar akademikin bir iradı prinsipal səciyyə daşıdığından onun üzərindən elə-belə keçmək yol verilməzdir. Biz sovet pedaqogikası barədə akademikin canfəşanlığını nəzərdə tuturuq. Mən Sovet pedaqogikasını mövcud olmuş pedaqoji cərəyanlardan biri hesab etmişəm və indi də belə fikirdəyəm. Akademik Nurəddin müəllimə etiraz edib yazır: Sovet pedaqogikasına cərəyan demək olmaz. Fikrini sübut etmək üçün akademik xeyli mühakimə yürüdür, ciddi ideoloji dəlillər gətirir, o cümlədən yazır: «İdeoloji motivlərə görə ona (Sovet pedaqogikasına-N.K.) «Sovet» möhürü vurulmasına baxmayaraq, onun nəzəri və tətbiqi müddəaları tarixi və müasir mütərəqqi pedaqoji ideyaları özündə cəmləşdirdiyindən bu gün, demək olar ki, biz hamımız onun təbliğatçısıyıq». Bu cür « vətənpərvər» ideyalardan sonra akademik məni məzəmmət edir: «…İndiki «Pedaqogikalar, o cümlədən sizin dərsliklər güc və qüvvəti, zəruri «elmi qida»nı cərəyan adlandırdığınız «Sovet pedaqogikası»ndan almışdır və alır».

Hörmətli akademik, indi sizin və mənim mövqelərimizin ideoloji mahiyyəti asta-asta açılır. Məlum olur ki, bizim mübahisəmiz yalnız pedaqoji çərçivədə qapanıb qalmır, bizim pedaqoji fikir müxtəlifliyi, sən demə, ideoloji mübarizə üçün bir örtülü vasitədir. Sual verirəm: kim sizi vəkil tutub ki, Sovet pedaqogikası ideyalarının təbliğində məni özünüzə yoldaş hesab edəsiniz? Kim sizə icazə vermişdir deyəsiniz ki, Nurəddin müəllim «güc və qüvvəti, zəruri elmi qidanı Sovet pedaqogikasından almışdır və alır?». Atalar gözəl deyib: cəhənnəmə gedən özünə yoldaş axtarar.Gəlin, mövqelərimizi bir qədər də aydınlaşdıraq. Bəli, mən Sovet dövründə, özü də indiki Sanktpeterburqda ali təhsil almışam. Bəli, mən 1990-cı ilə qədər Sovet pedaqogikasının ideyalarını təbliğ etmişəm, kommunist partiyasının üzvü olmuşam. Lakin, Hörmətli akademik, yanvar qırğını mənim gözlərim önündə törədilib; bilmirəm o zaman siz harada olmusunuz!? Bütün Ermənistandan və Dağlıq Qarabağdan döyülə-döyülə, öldürülə-öldürülə qovulan əhalinin ah-naləsi mənim qulağımda indi də cingildəyir. Mən bunları unuda bilərəmmi?! Elə həmin müsibətlər zamanı mən kommunist partiyasının sıralarını tərk etmişəm.İnandım ki, törədilən vəhşiliklərin səbəblərindən biri sovet pedaqogikasının əsasını təşkil edən kommunist idelogiyası və Sovet siyasətidir.1919-cu il mart qırğınına qədər də, 1990-cı ilin qışında da Azərbaycanda silahları yığdıranlar, Ermənistanda isə əhalini silahlandıranlar kommunist ideologiyasına və sovet siyasətinə sarılanlar olmuşdur!

Sovet pedaqogikasına belə can yandıran hörmətli Gürcüstan akademiki, siz hələ başa düşməmisiniz və ya başa düşmək istəmirsiniz ki, Milli pedaqogika nə vaxt və nə üçün yaranmışdır. Yavaş-yavaş məlum olur ki, bu cür suallar sizin maraq dairəsində deyil. Əgər belə olmasaydı, Sovet pedaqogikasından fərqli olaraq Milli pedaqogikada formalaşmış yüzlərlə yeni, milli ruhlu ideyaların üstündən siz, Gürcüstan akademiki, indiyədək sükutla keçməzdiniz. Nurəddin müəllimin yeni pedaqoji ideyalarını görən, onları

dilə gətirən şəxslərdə isə milli qeyrət hissi üstünlük təşkil edərdi, gözünə eynək taxıb, haqq-nahaqq, yalnız nöqsan axtarmazdı, namusla çalışardı, oğurluq yolunu tutmazdı, ona-buna qara yaxmazdı, imperiya ideologiyasının təbliğini özünə şərəf bilməzdi.

Görək hörmətli Gürcüstan akademiki daha nədə özünü ifşa edəcəkdir!? O, dinlə elm arasında fərqə dair mənim fikrimə tərəfdar olduğunu bildirərək yazır: «Elmin və dinin sosial tərəqqiyə töhfəsi müqayisə edilməz olduğundan onların ayrılıqda «yaşamalarına şərait yaratmaq praktikası bundan sonra da davam etdirilməlidir». Bu fikrin ikinci hissəsi qalsın müəllifin özünə. Məndən ötrü maraq doğuran isə fikrin birinci hissəsidir; elmin və dinin sosial tərəqqiyə töhfəsinin «müqayisəedilməzliyidir». Bu fikir göstərir ki, əvvəla, Nurəddin müəllimin işləyib hazırladığı müqayisə nəzəriyyəsi barədə Gürcüstan akademikinin məlumatı, yumşaq desək, son dərəcə səthidir. Əgər belə olmasaydı o, elm və dinin bir çox cəhətdən müqayisəyə gələn hadisələr olduğunu dilə gətirərdi və xeyli əvvəl qeyd etdiyimiz kimi, müqayisə sahəsində Nurəddin müəllimin zəhmətinə ağız büzməzdi. İkincisi, əgər akademik həmin fikri söyləyənədək elm və din arasındakı kəskin fərqi xəyalən də olsa duymasaydı «müqayisə edilməz» deməzdi. Axı, təhlil etdiyimiz fikirdən əvvəl yazmışdınız ki, elmin və dinin predmetləri müxtəlifdir: biri real faktlara, o biri isə inama söykənir. Hörmətli akademik, bir tərəfdən elmlə dinin fərqini açmağa çalışırsınız, yəni müqayisə edirsiniz; digər tərəfdən də onların müqayisə edilməz olduğunu yazırsınız. Bu cür məntiqsizlik akademikə rəğbət qazandırarmı?! Əgər siz müqayisə barədə həmkarlarınızın nəzəriyyəsinə ağız büzməsəydiniz, onunla səthi də olsa tanış olsaydınız bu cür məntiqsizliklərə yol verməzdiniz, əziz akademik! Unutmayın: elm həm də məntiqə, özü də dialektik məntiqə söykənir!

Akademikin məqaləsinin oxunuşunu davam etdirək; bəlkə özünüifşa deyilənlərlə bitir? Deyəsən, yox! Bizim akademik bu dəfə professor Zahid Qaralovu da mənə qatır.

Əslində Zahid müəllimin fəaliyyəti barədə mənim fikrimin düzgün olmadığını sübut etmək üçün hörmətli Qaralovu qaralayır və onu «qiymətləndirir». Bu məsələ də, mənim fikrimcə, həm ideoloji, həm də siyasi mahiyyət daşıdığından, tərəflərin mövqelərini oxuculara xatırlatmağı vacib hesab edirəm. Zahid Qaralovun «tərbiyə» adlı üç kitabını, oradakı üçlüklər nəzəriyyəsini qısaca səciyyələndirəndən sonra mən fikrimi belə yekunlaşdırmışam: «Zahid müəllimin üç kitabı yazmaqda son məqsədi elə bir kamil, elə bir universal tərbiyə nəzəriyyəsi yaratmaqdan ibarətdir ki, bu nəzəriyyədən nəinki müasir Azərbaycanda və digər ölkələrdə, həm də gələcəkdə bütün ölkələrdə xalqlar istifadə edə bilsinlər. Gözəl arzudur; özü də ümumbəşəri arzunu ortaya qoyan, onu əsaslandırmağa çalışan, ideyasının dünya miqyasında fayda verəcəyinə dərin inam bəsləyən şəxs Azərbaycan övladıdır»

İndi görək Gürcüstan akademikinin mövqeyi necədir? O yazır: Hörmətli Zahid müəllim «Tərbiyə» adlı üç kitabın üçünü də «Universal tərbiyə nəzəriyyəsi» yaratmağa həsr etməyib, əsərlərinin və məqalələrinin toplusudur. Onların içərisində də tərbiyə məsələlərinə həsr etdiyi elmi əsərləri vardır.

Zahid Qaralovun üçlüklər nəzəriyyəsi barədə akademikin məqaləsində xüsusi qeydlərini də onun özünə xatırlatmaq yerinə düşərdi. Biri belədir: «Hörmətli professor Zahid Qaralovun təklif etdiyi tərbiyə modelinə gəldikdə isə demək lazımdır ki, tarixdə bu model də sınaqdan keçirilmiş, amma özünü doğrultmamışdır». İkinci qeyd isə belədir: «…bizim ağsaqqal pedaqoq-alimlərimizin yubiley toplusunu nəşrə hazırlayanlara da, ümumiyyətlə, elm aləmində qəbul olunmuş «görkəmli», «tanınmış», «böyük», «dahi» və s. kimi dəyərləndirmə meyarları artıq yaranır».

Göründüyü kimi, Zahid Qaralov haqqında Nurəddin müəllimin və akademikin fikirlərində kəskin fərq göz qabağındadır: Nurəddin müəllim Zahid Qaralovun əməyinə yüksək qiymət verir və onunla bir Azərbaycanlı kimi fəxr

etdiyini bəyan edir, Gürcüstan akademiki isə Zahid müəllimin əsaslandırdığı tərbiyə modelinin Rusiya imperiyası timsalında özünü doğrultmadığını bildirir və bu səbəbdən də zəhmətinin hədər getdiyini nəzərə çarpdırmağa çalışır.

Soruşulur: Zahid müəllimin tərbiyə nəzəriyyəsində göstərdiyi çatışmazlığı aradan qaldırmaq üçün Nurəddin müəllim necə hərəkət etdi, üçlüklər nəzəriyyəsinin tarixdə özünü doğrultmadığını yazan şəxs necə? Nurəddin müəllim qollarını çirməyib daha səmərəli, işlək nəzəriyyə yaratmağa girişdi və mərhələli tərbiyə nəzəriyyəsini ortaya qoydu. Gürcüstan akademiki isə Zahid müəllimin fəaliyyətini heçə edirməyə çalışdı və pedaqoq-alimlərə də xəbərdarlıq etdi: «görkəmli», «tanınmış», «böyük» sözlərini nitqinizdən çıxarın! Nə üçün? Çünki, həmin akademikin təbirincə deyilsə, «Belə əcaib tendensiyaya yaxşı bələd olduğu nə rus, nə də gürcü elmi-pedaqoji mühitində vardır».

Bax, belə! «Vətəndaşı» olduğunuz Azərbaycana, onun xalqına, övladlarına və, nəhayət, elminə sizin münasibətiniz və mənim münasibətim göz qabağındadır: siz azərbaycanlıları ləkələməyə çalışırsınız; mən isə xalqımıza az da olsa başucalığı gətirən hər azərbaycanlı ilə fəxr etməyə hazır olduğumu bildirirəm. Siz yaxşı tanıdığınız rus və gürcü elmi-pedaqoji ictimayyətini önə çəkirsiniz, Azərbaycanınkını isə pisləyir, geri itələməyə cəhd göstərirsiniz. Məndən ötrü isə öndə Azərbaycandır, onun xalqıdır, ovladlarıdır.

Sizin aydın duyulan bu ideoloji durumunuz oxucuda təbii suallar doğurur: nə üçün sizə yaxşı bələd olduğunuz və indi də həsəd apardığınız rus və ya gürcü elmi-pedaqoji mühitində qalib işləməmisiniz, gəlib Azərbaycanda işləməyə üstünlük vermisiniz? Ara qarışdırmaq, təxribat aparmaq üçün? Düşünməyə dəyər, elə deyilmi?

Məni danışmağa təhrik etdiyiniz bu ideoloji məsələlərin diqqətdən yayınmayan başqa bir məqamı da var. Bu da Hörmətli Zahid müəllimlə əlaqədardır. Mənə qarşı hücumlarınızın motivi çoxlarına məlumdur: onun elmdə

oğurluğunun üstünü açdığım üçün məndən qisas almağa çalışır, amma hər dəfə özü rüsvay olur. Sual olunur: bəs Zahid müəllimin «günahı» nədədir ki, onu da mənə qatır? Olmazdımı ki, elə məni hörmətdən salmaq cəhdi ilə kifayətlənəydiniz? Düşünürəm ki, mənim əsərimdə Zahid müəllimin elmi fəaliyyətinə verdiyim qiymət Gürcüstan akademikinin qəlbində çoxdan möhkəm iz qoymuş kinküdurətin daha da coşmasına səbəb olmuşdur. Məsələ burasındadır ki, «fərəh» doğuran gürcü elmi-pedaqoji mühitindən hansı səbəbə görəsə qopub Azərbaycana gələn və buranın qonaqpərvər mühitində doktorluq dissertasiyası müdafiə edəndən sonra bu adam öz xeyirxahlarını «tənqid» hədəfinə aldı, yuxarılara şikayət yazdı, göstərdi ki, Azərbaycanda pedaqoji tənqid yoxdur, Pedaqogika İnstitutuna ixtisası fizikanın tədrisi metodikası üzrə mütəxəssiz olan Zahid Qaralovun rəhbərlik etməsi düzgün deyil və s. O zaman Zahid müəllim, mən və digər yoldaşlar indiki akademikə layiq olduğu cavabı verib. Gürgüstan akademiki olan kimi yoldaşın daxilində məskən salmış qisasçılıq hissi yenidən baş qaldırır. Qisasçılıq hissi isə Azərbaycan xalqına yaddır. Görünür, bu hiss akademikin yaxşı bələd olduğu Rusiyada və Gürcüstanda dəbdə olub,özü ilə Azərbaycana gətirib.

Xulasə, Bizim akademik Gürcüstandan özü ilə bərabər oğurluq etmək, ərizəbazlıq, dedi-qodu, şər atmaq, intriqa salmaq mərəzi gətirib ki, Azərbaycanda olmayan «Elmi-pedaqoji mühit» bərqərar olsun.

Bununla akademikin dedi-qodusu, intriqası bitdimi? Deyəsən, yox! O, mənim tərbiyə nəzəriyyəsinə aid bir fikrimdən yapışıb, görün necə dedi-qodu quraşdırb. Mən yazmışam: «yaradılacaq tərbiyə nəzəriyyəsi müəllimlərin, valideynlərin və digər tərbiyəçilərin işini yüngülləşdirməyə, bu işi etibarlı elmi əsaslarda qurmağa yardımçı olmalıdır». Diqqət yetirin! Mənim bu fikrimə Gürcüstan akademiki görün necə qulp qoyur; O, yazır, «Yüngülləşdirici», «yardımçı» ifadələri ilə nəzəriyyənin əhəmiyyətini, rolunu qiymətləndirmək olarmı? Akademikin bu qeyri müəyyən

iradını indi oxuyanda da təsdiq edirəm ki, bəli, olar! O, alimə yaraşmayan tərzdə dolaşdığını duyub əlavə izahat verir: «Sizin dediyinizdən belə nəticə çıxarmaq olar: deməli, başqa bir əsas vardır ki, müəllimlər, valideynlər və tərbiyəçilər ona istinad edərək işlərini qururlar». «Alimin» istehza ilə çıxartdığı elmdən uzaq olan bu nəticəyə cavab olaraq yenə hamı üçün aydın olan həqiqəti təkrar edirəm: hər hansı sahədə fəaliyyət göstərən şəxs müvafiq nəzəriyyədən xəbərsiz olsa da öz işini qurur; fəaliyyət sahəsinə dair nəzəriyyəni bildikdə, onu nəzərə aldıqda şəxsin fəaliyyəti daha səmərəli olur. Gürcüstan akademiki isə məntiqsiz mühakiməsi ilə, boş dedi-qodusu ilə bizim fikirimizi özümüzə qaytarır: «Nəzəriyyə müəyyən fəaliyyət sahəsində ümumiləşdirilmiş sosial təcrübənin nisbi optimal səviyyəsidir. Bu səviyyə yardımçı ola bilməz, əksinə, fəaliyyət bu səviyyəyə müvafiq təşkil olunmalıdır».

İndi gəl bu Gürcüstan akademikinə sübut et ki, «Nisbi optimal səviyyəni», yəni düzgün nəzəriyyəni bilmək və «öz fəaliyyətində onu nəzərə almaq» ifadəsi ilə, öz fəaliyyətini «nisbi optimal səviyyəyə, yəni düzgün nəzəriyyəyə uyğun qurmaq» ifadəsi arasında məna fərqi yoxdur: hər iki ifadədə məna belədir: nəzəriyyə fəaliyyətin səmərəliliyini artırmağa xidmət edir. Adi hesabdan da məlumdur ki, toplananların yeri dəyişəndə cəm dəyişmir. Deməli, eyni mənalı iki qrup söz birləşmələrinin yerini dəyişməklə mahiyyətin dəyişmədiyi sübut olunduğundan akademikin elmdən uzaq dedi-qodusu bu dəfə də özünə qarşı çevrilmiş olur.

Nəzəriyyə ilə əlaqədar söz güləşdirmələri yenə var. Bunlardan biri də fikri başa düşməyə imkan verməyən cümlə dolaşıqlığıdır. Məsələn, akademik yazır: «Nəzəriyyə səbəb-nəticə arasındakı qarşılıqlı nəticə arasındakı qarşılıqlı asılılıqları, əlaqələri araşdırdıqdan sonra əldə olunan nəticədir». Müəllifin burada nə demək istədiyini bəlkə olmayan şeytan başa düşə bilər.

Yaxud, yenə nəzəriyyə ilə əlaqədar başqa misal. Mən nəzəriyyə məfhumunun mahiyyətinə aydınlıq gətirmək üçün «Bolşaya Sovetskaya Ensiklopediya» ya və «Filosofskaya

Ensiklopediya»ya müraciət etmişəm. Oradakı anlayışa tənqidi münasibət bildirmişəm. Akademikin məqaləsindəki ifadə tərzindən belə başa düşdüm ki, o mənə müraciətlə məsləhət görür: «yaxşı olardı ciddi nəşrlərə istinad edəydiniz». Belə çıxır ki, adlarını yuxarıda çəkdiyim ensiklopediyalar Gürcüstan akademiki üçün ciddi mənbələr deyil. Amma akademik nəzərdə tutduğu və ciddi hesab etdiyi mənbələr hansılardır? Təəssüf ki, müəllif cavab vermir, susur. Nə üçün? Elə-belə, qulp qoymaqdan ötrü!

Nəzəriyyənin mahiyyətinə dair mənim aşağıdakı qənaətim akademiki razı salmır: «Həyatın müəyyən sahəsində cərəyan edən real səbəb-nəticə arasındakı qarşılıqlı asılılıqlardan baş çıxarmağa və onları istiqamətləndirməyə imkan verən ideyalar sisteminə nəzəriyyə deyilir» Akademik bu tərifi dolğun tərif hesab etmir. Nə üçün? Onun fikrincə, nəzəriyyə ideyalar sistemidir deməklə mən güya nəzəriyyəyə sistemsizlik, pərakəndəlik gətirirəm. Fikrini isbat etmək üçün özü bir neçə konkret məna tutumu olmayan cümlələr işlədir; təklif etdiyi tərifin sonunda «ideyalar sistemi» çevrilib «biliklər sistemi» olur. O, belə hesab edir ki, sonuncu dolğun tərifdir. Xatırladaq ki, hörmətli akademik yuxarıda yazmışdı: «Demək lazımdır ki, ümumiyyətlə, təriflər hadisənin, prosesin mahiyyətini bütünlüklə aça bilmir».

Burada da deməyə məcbur edilir ki, əvvəla, müəllif gah nala vurur, gah da mıxa. Bir tərəfdən o, ümumiyyətlə tərifdən şikayətlənir, mahiyyəti onların tam açmadığını dilə gətirir. Belə çıxır ki, akademik bütün sahələrdə, o cümlədən pedaqoji elm sahəsində xüsusi araşdırmalar apardıqdan sonra bu qənaətə gəlibdir; bu isə heç cür inandırıcı deyil. Çünki o, elmi araşdırmalarla yox, oğurluqla dedi-qodu ilə, şər atmaqla məşğuldur. İkincisi, bizim akademik nəzəriyyəyə aid başqasının ifadə etdiyi tərifi bəyənmir, özünün irəli sürdüyü tərifi sübutsuz məzmunlu hesab edir. Biz isə düşünürük ki, elm, o cümlədən pedaqoji elm öz məfhumlarının mahiyyətini açmaqda maraqlı olmalıdır; bütün pedaqoji məfhumların mahiyyətinin açılmasında

nisbi həqiqətlər silsiləsindən mütləq həqiqətlərə doğru inamla irəliləməliyik. Çünki hər hansı elmdə işlənən məfhumların mahiyyətinin aydınlıq dərəcəsi həmin elmin inkişaf səviyyəsinin göstəricilərindən birinə çevrilir. Gürcüstan akademikinin mövqeyində müəyyənlik, aydınlıq olmayıb, yoxdur, bundan sonra isə gecdir.

Sonra görək hörmətli akademik mənim əsərlərimi eşərək daha nələr tapıb «sevinəcək». Haqqına deyək ki, akademik redaqoji elmin mərkəzi məsələlərində birinə diqqət yetirmiş və «Mərhələli tərbiyə nəzəriyyəsi» adlı kitabımda 13 qanunauyğunluğun, 13 qanunun və 13 prinsipin müəyyənləşdirildiyinin şahidi olmuşdur. O, bir neçə qanun və prinsipin eyni məzmunda (məsələn, tələbkarlıqla hörmətin vəhdəti qanunu və tələbkarlıqla hörmətin vəhdəti prinsipi) ifadə olunduğunu nümayiş etdirir. Lakin əlavə heç bir şərh vermir, münasibət bildirmir. O saat oxucuda təbii sual yaranır: görəsən akademik burada nə üçün susmuşdur? Onun həmin məqamda dillənməməsinin səbəbini mən açım. Məsələnin mayasında o ideologiya durur ki, Milli pedaqogikada pedaqoji elmə gətirilən yeniliklər ört-basdır edilsin, bu mümkün olmasa ona qara yaxılsın; nəticədə Azərbaycan ziyalılarının yeni ideya, yeni nəzəriyyə işləyib ortaya qoymağa qadir olmadıqları «sübut» olunsun; dolayısıyla Milli pedaqogika ideyalarının Azərbaycanda yayılmasının təşkili barədə azərbaycan Təhsil nazirinin məlum əmrinin qarşısı alınsın.

Mən imkan verməərəm ki, bu cür məkrli ideyalar Azərbaycanda ayaq açıb yerisin. Akademikin gətirdiyi misallarda ört-basdır etməyə çalışdığı, kitabda yazıldığı kimi, belədir: Milli pedaqogikanın memarı sübut etmişdir ki, tərbiyə işində tərbiyəçinin nəzərə almalı olduğu prinsiplər müvafiq qanunauyğunluqlardan, qanunlardan törəmədir. Bununla elmdə indiyədək fərqləndirilməsi çətin olan pedaqoji qanunauyğunluq və pedaqoji qanun məfhumlarının mahiyyətinə də aydınlıq gətirilmişdir. Akademikin istinad etdiyi «Mərhələli tərbiyə nəzəriyyəsi» adlı kitabın 89-cu səhifəsində aşağıdakı fikri o, nə üçün ört-

basdır edir, görməməzliyə vurur: «Milli pedaqogika pedaqoji qanunauyğunluq məfhumunun mahiyyətini belə dəyərləndirmişdir: təlim, tərbiyə, təhsil və psixoloji inkişaf hadisələrində dönə-dönə təkrar olunan davamlı səbəb-nəticə əlaqələrinin mahiyyətinin başa düşülməsi, dildə aydın və dəqiq ifadəsi pedaqoji qanunauyğunluqdur. Qanun isə açılan qanunauyğunluğun yığcam ifadəsidir. Yəni qanunauyğunluğun mahiyyəti müvafiq qanunda açılmır, yalnız ona işarə edilir». Elmə yenilik gətirməyə qabil olmayan şəxs yeni ideyalarla rastlaşanda ilan vuran ala çatıdan qorxduğu kimi diksinir.

Düşünürəm ki, yalnız milli qeyrət, milli iftixar hissindən məhrum olan şəxs yuxarıdakı fikrin üzərinə qara matəm pərdəsi salmağa çalışar ki, millət ondan xəbərdar olmasın; bundan əlavə, qanunauyğunluq məsələsi ilə əlaqədar Podlasıyın 2000-ci ildə çap etdirdiyi «Pedaqogika. Novıy kurs» adlı ikinci kitabının 22-26 səhifələri Gürcüstan akademiki 2003-cü ildə çap etdirdiyi «Pedaqogika. Yeni kurs» adlı kitaba eynilə köçürdüyü fikirləri «Mərhələli tərbiyə nəzəriyyəsi» ndəki mənim fikirlərimlə müqayisəli təhlil etsəydi və müvafiq elmi nəticə çıxarsaydı, əvvəla, milli qeyrət, elmi qeyrət nümayiş etdirmiş olardı; ikincisi, müəyyənləşərdi ki, pedaqoji qanunauyğunluğun yığcam ifadəsi olan pedaqoji qanun prinsiplərlə qanunauyğunluqlar arasında bağlılığı göstərir; üçüncüsü, pedaqoji prinsip, onun necə adlanması kiminsə uydurması deyil, müvafiq pedaqoji qanunauyğunluqdan törəmədir və, dördüncüsü, kimin elm yolunda, kimin isə məkrli yolda olduğu üzə çıxardı. Başqa sözlə, pedaqoji qanunauyğunluq, qanun və prinsip haqqında Gürcüstan akademikinin fikirlərinin elmdən uzaq olduğu özünü göstərərdi.

Əsas prinsipal məsələ orasındadır ki, Gürcüstan akademiki Milli pedaqogikada üzə çıxarılmış 13 qanunauyğunluqdan heç birinə münasibət göstərməmişdir, göstərməyə nə gücü çatardı, nə də mənəviyyatı imkan verərdi. Bundan ötrü həm elmi potensial, həm də milli qeyrət tələb olunur.

Hörmətli Gürcüstan akademiki ortaya fəlsəfə məsələsini salır və yenidən qanun, prinsip, qanunauyğunluq məsələsinə qayıdır və bir daha özünüifşaya imkan yaratmış olur. Əvvəlcə görək fəlsəfə ilə əlaqədar akademik nə buyurur. O, «Mərhələli tərbiyə nəzəriyyəsi» adlı mənim kitabımdan bu fikri iqtibas gətirir: «Materialist dialektikada bir sıra ümumi qanunlar müəyyənləşdirilmişdir: əksiliklərin vəhdəti qanunu, inkarı inkar qanunu, hər şeyin daim hərəkətdə olması qanunu, forma və məzmunun vəhdəti qanunu, hadisələrin zaman və məkanda baş verməsi qanunu.

Arxasınca akademik xüsusilə vurğulayır: «Bu cümlədə nə qədər səhvlər vardır («inkarı inkar» qanunundan başqa)».

«Səhvlər» nələrdən ibarətdir? Akademik onları birər-birər aşağıdakı kimi qeyd edir, lakin mənbə göstərmir; belə təəssürat yaranır ki, qeydlər onun öz beyninin məhsuludur; Mən isə şübhə edirəm. Görünür, nə isə oxuyub, amma oxuduqlarını həzm edə bilməyib. Baxarıq, görərik. O, yazır:

1. Fəlsəfədə əksiliklərin vəhdəti qanunu yoxdur. Qanun əksiliklərin vəhdəti və mübarizəsi qanunu» adlanır.

2. Hər şeyin daim hərəkətdə olması adlı dialektikanın qanunu yoxdur. Dialektika özü ümumi əlaqə və inkişaf haqqında elmdir.

3. «Forma və məzmunun vəhdəti» adlı dialektikanın qanunu yoxdur. Forma və məzmun dialektikanın kateqoriyalarıdır.

4. «Hadisələrin zaman və məkanda baş verməsi qanunu» adlı dialektikanın qanunu yoxdur Zaman və məkan bütün maddi sistemlərin və proseslərin mövcudluğunun ümumi formasıdır.

Əslində, saxtakarlığı, oğurluğu, başqasının kitabını tərcümə edib öz adına çap etdirdiyi üzə çıxan şəxslə elmi, xüsusən fəlsəfə üzrə mübahisə aparmağa dəyərmi? Əlbəttə, dəyməz! Lakin, bu cür şəxsə mətbuatda himayədarlıq edən tapıldığından, belələrini də çirkin əməllərdən çəkindirmək üçün Gürcüstan akademikinə cavab vermək qərarına gəldim.

Xülasə, iradlarının sonunda o, üzünü mənə tutub yazır: «Kitabda bu mənzərəni görəndə adam təəssüf hissi keçirir və öz-özünə sual verir: görəsən Nurəddin müəllim nə üçün ictimai hadisələr olan təlim, tərbiyə, təhsil hadisələri üçün «Milli prinsiplər» və nəhayət, «Milli pedaqogika» elmi yaratmaq istəyir? Nə üçün fəlsəfənin və pedaqogikanın «əlifbası» və «qrammatikası» ilə belə rəftar edir?

Hörmətli akademik, darıxmayın, suallarınıza aydınlıq gətirməyə və sizi «təəssüf» hissindən xilas etməyə çalışaram!

Əziz akademik, nə qədərki səriştəsizlikdən, saxtakarlıqlardan əl çəkməmisiniz, bir o qədər təəssüflənəcək, bir o qədər başınız ağrıyacaqdır. Hörmətli akademik, əvvəla, mənim əsərimdən gətirdiyiniz iqtibasda, mən materialist dialektikaya istinad edib yazmışam, siz isə onu dialektika məfhumu ilə əvəz etmisiniz. İndi mən sizdən soruşuram: Nə üçün siz iradlarınızda dialektik materializmi gah ümumiyyətlə fəlsəfə ilə, gah da ümumiyyətlə dialektika ilə əvəz etmisiniz? Məqsədiniz nə olub məfhumları əvəz etməkdə? Bəlkə ümumiyyətlə fəlsəfə, dialektika, materializm və dialektik materializm məfhumları arasında mövcud olan fərqlərin sizdən ötrü əhəmiyyəti yoxdur? Bəlkə dialektikanın növləri və onlar arasındakı fərqin də elm üçün əhəmiyyəti sizə məlum deyil? Əgər məlumdursa, deməli, saxtakarlıq edirsiniz; yox, əgər bilmirsinizsə, deməli, öyrənəndən sonra o barədə danışarsınız. İkincisi, hörmətli akademik, siz yazırsınız ki, «hər şeyin daim hərəkətdə olması adlı dialektikanın qanunu yoxdur, mən fikri dialektikaya deyil, dialektik materializmə aid etdiyim halda, siz onu dialektika ilə əlaqələndirir və hətta əlavə edirsiniz: «Dialektika özü ümumi əlaqə və inkişaf haqqında elmdir». Alimə yaraşarmı məfhumları dəyişməklə müzakirəni tamam başqa səmtə yönəltmək? Üçüncüsü, mən forma və məzmunun vəhdəti məsələsini dialektik materializmlə əlaqələndirdiyim halda siz fikrin istiqamətini tamam başqa səmtə yönəldərək yazırsınız: «forma və məzmunun vəhdəti adlı dialektikanın qanunu yoxdur. Forma və məzmun dialektikanın kateqoriyalarıdır». Akademikin irəli sürdüyü digər bəndlər

də saxtakarlıqla bu cür quraşdırılıb oxuculara təqdim edilibdir. «Советский Енсиклопедический словар»dan bircə misal gətirmək istərdim: «Dialektik materializm… dünya hadisələri və cisimlərinin ümumi qarşılıqlı əlaqədə, hərəkətdə və inkişafda olduğunu qəbul edir və bunu daxili ziddiyyətlərin nəticəsi kimi qiymətləndirir» (izdatelstvo «Sovetskaya ensiklopediya», Moskva-1980, səh. 393).

Dialektika haqqında Gürcüstan akademikinin mühakimələri sübut edirki, fəlsəfə haqqında, xüsusən dialektika haqqında onun anlayışları da bəsiddir. Ona məlum deyil ki, dialektika ümumiləşmiş məfhumdur; onun sadəlövh dialektika, məfhumlar dialektikası, idealist dialektika, rus demokratlarının başa düşdükləri dialektika, materialist dialektika və s. formaları mövcuddur. Belə bir vəziyyətdə Gürcüstan akademikindən soruşulur: Nurəddin müəllim bildiyi konkret materialist dialektikaya (yəni dialektik səciyyəli materializmə) istinad edərək mühakimə yürüdür, bəs siz nə üçün daialektikanın konkret formasına deyil, həyatda mövcud olmayan dialektikadan dəm vurursunuz? Deməli, fəlsəfənin sahələrindən biri olan dialektikaya dair məlumatınız yarımçıqdır.

Belə hesab edək ki, siz dialektika deyəndə materilist dialektikanı nəzərdə tutub fikir söyləmisiniz. Əgər belədirsə, onda dialektika və materialist arasındakı qırılmaz tellərlə bağlılıqdan sizin heç xəbəriniz yoxdur, əziz Gürcüstan akademiki! Görünür, bu fəlsəfi «savadınız» ucbatından dialektik materializmdəki qanunlar və kateqoriyalar arasında Kitay səddi çəkirsiniz, birinin digərində iştirakını başa düşə bilməmisiniz; yazmısınız ki, məsələn, «forma və məzmunun vəhdəti» adlı dialektikanın qanunu yoxdur. Forma və məzmun dialektikanın kateqoriyalarıdır». Halbu ki, «Dialektik materializmin prinsipləri və qanunları keyfiyyət və kəmiyyət, ziddiyyətlər, səbəbiyyət, mahiyyət və hadisə, məzmun və forma, təsadüf və zərurət, imkan və gerçəklik və s. kimi kateqoriyalarda açılır» (yenə orada, səh.393). Bu qəbildən olan əlavə fəlsəfi misallar gətirməyə ehtiyac yoxdur.

Ümumiyyətlə yox, məhz dialektik materialızmin dialektik məntiqi də sizə yaddır, zavallı Gürcüstan akademiki! Məntiqin əsil bu elmi formasından məhrum olmasaydınız bilərdiniz ki, dialektik kateqoriya arasında nəinki qarşılıqlı əlaqələr var və hətta onların biri digərinə keçə bilir; belə olmasaydı dialektik materializmin qanun və kateqoriyalarını donmuş halda qəbul etməzdiniz! Belə olmasaydı siz öz «dərin» fəlsəfi məlumatlılığınız əsasında 13 qanunauyğunluq, 13 qanun, 13 prinsip arasındakı elmi mənanı anlayardınız! Əgər belə olmasaydı Nurəddin müəllimin ünvanına uydurduğunuz sualı sizin özünüzə qaytarmazdıq, zavallı Gürcüstan akademiki! Deyin görək, nə üçün pedaqogikanın və dialektik materializmin «əlifbası» və «qramatikasını» öyrənməmiş onunla belə rəftar edib Nurəddin müəllimi hörmətdən salmağa cəsarət edirsiniz? Sizin məkrli kələyiniz baş tutmaz, hörmətli Gürcüstan akademiki! Hər bir cümlənizdə siz hiss etmədən özünüzü ifşaya məruz qoyursunuz!

Gürcüstan akademikinin fəlsəfə sahəsində hələ çox şey öyrənməli olduğunu göstərən bircə də misal gətirim. Hörmətli akademik dialektik materializmin qanunları və kateqoriyalarını bir-birindən əlaqəsiz nəzərdən keçirdiyindən ciddi fəlsəfi səhvlərə yol verir. Halbuki, «dialektik materializmin prinsipləri və qanunları keyfiyyət və kəmiyyət, ziddiyyət… mahiyyət və hadisə, məzmun və forma, təsadüf və zərurət və s. kateqoriyalarda açılır» (yenə orada).

Burada, hörmətli akademik, yaxşı bələd olduğunuz «rus atalar sözlərindən biri yada düşür: «slışal zvon, da neznaet otkuda on!».

Bu cür dəlillərdən sonra oxucuda təbii belə bir sual ortaya çıxa bilər: Saxtakarlıq yolu ilə quraşdırılmış «dəlillər» Gürcüstan akademikinin nəyinə gərək olub?

Bu suala akademik məqaləsinin sonunda, özü hiss etmədən, eyhamla bildirmişdir və mənim də diqqətimdən yayınmamışdır; yuxarıda onu da mən sözgəlişi səsləndirmişəm, yenidən səsləndirim. Akademik «öldürücü

dəlillərdən» sonra yazıb: «…görəsən Nurəddin müəllim, nə üçün ictimai hadisələr olan təlim, tərbiyə, təhsil hadisələri üçün «Milli prinsiplər» və nəhayət, «Milli pedaqogika» elmi yaratmaq istəyir?»

Bax, bu qədər saxtakarlıqlar, quraşdırma cümlələr, özündən bədgümanlıq, alim görkəmi almaq Milli pedaqogikanı hörmətdən salmaq, onun qarşısını kəsmək, pedaqoji ictimaiyyətdə milli mənlik şüurunu boğmaq və bu yolla çirkablı sudan təmiz çıxmağa çalışmaq akademikin məramıdır. Bunlarla yanaşı, akademikin məqaləsindən təkrar verdiyimiz iqtibasın təhlili də onu bir qədər də ayıldar. Hökmən deməliyik: əvvəla, hörmətli akademik, sizin dediyinizin əksinə olaraq, Azərbaycanda təlim, tərbiyə və təhsil yalnız ictimai hadisə deyil, əməlli başlı həm ciddi ideoloji, həm də siyasi hadisədir. Unutmayaq, pedaqoji proses və pedaqoji elm məsələləri üzrə mübahisələrimizin arxasında, sən demə, ideoloji və siyasi məqamlar durur. İkincisi, Milli pedaqogika yalnız təlim, tərbiyə və təhsil məsələlərini deyil, həm də onlardan ayrılmaz olan psixoloji inkişaf məsələlərini öyrənir; siz pedaqoji elm üçün tam yeni olan bu ideyanı da görməməzliyə vurursunuz. Üçüncüsü, Milli pedaqogika Gürcüstan akademikinin uydurduğu «Milli prinsiplər» üzərində deyil, çox ciddi ideoloji və siyasi özüllər üzərində ucaldılmışdır. Dördüncüsü, cılız «Milli prinsiplər» ifadəsi yalnız Gürcüstan akademikinin uydurmasıdır və yalnız təxribat məqsədi ilə, Milli pedaqogikanı hörmətdən salmaq üçün dövriyyəyə buraxılmışdır. Beşincisi, təkrar edirik, Nurəddin müəllim Milli pedaqogika yaratmaq istəmir, Milli pedaqogika on ildən artıqdır ki, yaranıb, hətta «Milli pedaqogika məktəbi» adında qurum formalaşıb, fəaliyyət göstərir; onun «Milli pedaqogika məktəbi» adında jurnalı ərsəyə gəlib, 3-cü nömrəsi çapa hazırlanır. Əziz akademik, siz bunları da görməməzliyə vurursunuz: düz on il gecikmisiniz, məqalə hazırlayın, bu jurnalda çap olunsun; paxıllıq ağac qurduna bənzəyir, daxildən çürüdür: özünüzü o qurddan qoruyun!

Deyəsən «güllə» qurtardı, dedi-qodu sona yetdi. Gürcüstan akademiki əsəbi halda səslənir: xeyr, «güllə» hələ var. Bu dəfə «gülllədən» çıxan səsi eşidək: «Qanun fasiləsiz, müntəzəm baş verən hadisələrdə, proseslərdə mövcuddur. Tədris prosesi, təlim prosesi fasilələrlə həyata keçirilən prosesdir, odur ki, burada qanun yoxdur. Bu prosesdə «işti-rak edən» amillər, tərəflər arasında qarşılıqlı asılılıqlar vardır, onlar bir-birini qarşılıqlı surətdə şərtləndirir, amma onlar müntəzəm deyil. Bu asılılıqlar isə qanunauyğunluqlar üçün xarakterikdir. Qanunauyğunluqlardan isə prinsiplər «çıxarılır» və formalaşdırılır». «Əhsən!» «Gözəl» deyilib: Adam nə qədər danışmırsa, başqaları üçün bir o qədər sirr olaraq qalır. Bizim akademik də bu cür fikirləri yazmasaydı düşünərdik ki, bəlkə dəryadır. Amma onun gah formal məntiqə söykənən, gah da heç bir məntiqi ölçüyə gəlməyən, üstəlik məktəb həyatını baş-ayaq təqdim edən fikirlərilə akademik adını yada salanda həqiqətən düşünməli olursan ki,…

Görünür biz akademikə məntiq dərsi keçməliyik. Neynək! Əziz oxucu, hələlik ilk iki cümlənin məntiqinə, həyati və elmi cəhətlərinə diqqət yetirin. Bu sillogizm formal məntiqə xasdır: Həqiqət kimi qəbul edilən iki cümlədən (fikirdən) çıxarılan nəticə. Dialektik məntiqə görə sillogizmdə çıxarılan nəticə o zaman düzgün hesab edilir ki, ilk iki cümlə (fikir) şübhə doğurmasın, həqiqət olsun.

Hələlik belə hesab edək ki, akademikin ilk fikri doğrudur. Bəs ikinci fikri necə? Məncə, onun ikinci fikri mübahisəlidir. Akademikə görə tədris prosesi, təlim prosesi fasiləlidir. Bu səbəbdən o, mexaniki olaraq nəticə çıxarır ki, təlim prosesində qanun ola bilməz. Dialektik məntiqə əsasən akademikin sillogizmində isə həm birinci, həm də ikinci fikir həyatı deyil, yanlışdır. Deməli, nəticə də yanlış olmalıdır. Sübut edək. Əvvəla, Gürcüstan akademikinə görə, qanun fasiləsiz, müntəzəm baş verən hadisələrdə olur. Elmdə isə artıq sübut edilmişdir ki, qanunauyğunluq hadisələrdə, proseslərdə davamlı təkrar olunan səbəb-nəticə arasındakı əlaqələrdə olur. Söhbət tədris və ya təlim

prsesinin fasiləli və ya fasiləsiz cərayan edib-etməməsində yox, həmin prosesdə iştirak edən amillərin, cəhətlərin, tərəflərin davamlı təkrar olunub-olunmamasından gedir. Məhz bu səbəblərdən Gürcüstan akademikinin çıxartdığı nəticə yanlışdır, elmi deyil.

Hörmətli akademikin mühakiməsinin arxasını izləyək. O, davam edir: «Bu prosesdə (təlim prosesində-N.K.) «iştirak edən» amillər, tərəflər arasında qarşılıqlı asılılıqlar vardır, onlar bir-birini qarşılıqlı surətdə şərtləndirir, amma onlar müntəzəm deyil. Bu asılılıqlar isə qanunauyğunluqlar üçün xarakterikdir». Bəs elmə nə lazımdır? Elə bu! Bax, belə! Əsil «alim» başqa cür olmaz! Hörmətli akademik, ərz eləyin sizi başa düşək. Açıq-aşkar qanun və qanunauyğunluq məfhumları da sizin anlamınızda bir-birindən fərqlənir. Milli pedaqogikada bu məsələyə də tam aydınlıq gətirilibdir. Bəs siz akademik nə deyir? Yaxşı olmazdımı, məntiqsiz, dolaşıq, bir-birinə zidd olan fikirlərinizin əvəzinə pedaqoji qanun və qanunauyğunluq məfhumlarına dair Milli pedaqogikanın mövqeyini təhlil edib nöqsanlarını göstərəydiniz? Bəlkə bu istiqamətdə uğur qazanardınız?!

Nə qədər ki, Milli pedaqogikanın yan-yörəsində dolaşırsınız, onun yüzlərlə yeni ideyalarına tənqidi münasibət göstərə bilmirsiniz, ordan-burdan ona daş atırsınız, məqalənizin indiki təhlilindən göründüyü kimi, o daş qayıdıb öz başınıza istiqamətlənir. Naəlac qalan Gürcüstan akademiki son gücünü toplayaraq «yaxşı bələd olduğu» rus mənbələrinə müraciət edib, orada Nurəddin müəllimin əleyhinə ola biləcək «faktlar» sorağına düşüb. Çox axtarışdan sonra akademikin gözlərinə işıq, qollarına güc verən «həqiqətə» bənzər iki «fakt» tapa bilib. Onları topun lüləsinə yerləşdirərək yaylım atəşi açıb. İndi görək atəşdən nə xəbər gəlib. Xəbərdə oxuyuruq: Nurəddin müəllim yazır ki, «pedaqogika üzrə rus və Azərbaycan dillərində çap olunan dərs vəsaitlərində, ensiklopediyalar və müxtəlif səpkili pedaqoji lüğətlərdə mərhələli tərbiyəyə aid fikirlər və ümumiyyətlə belə bir termin işlədilməyib. Bu fikir doğru deyil».

Mən – Nurəddin müəllim - yenə təkrar edirəm: mənim kitabxanamda, M.F.Axundov adına Respublika kitabxanasında, habelə ensiklopediya və lüğətlərdə mərhələli tərbiyə məfhumuna rast gəlməmişəm. Amma, Gürcüstan akademikinə məlum olubdur ki, V.S.Selivanovun 1982-ci ildə «Pedaqogikanın tədrisində əyani vasitələrdən istifadə» adlı çap olunmuş əsərində tərbiyə prosesinin mərhələləri sxem şəklində işlənmişdir.

Bu sxemlə mən tanış deyiləm. Orada məsələnin necə qoyulduğu və necə şərh edildiyi barədə şəxsən tanış olduqdan sonra hökmən qəti fikir söyləyərəm. Mən Gürcüstan akademikinin sözünə inanmıram. Çünki, əməli də, sözü də saxtakarlıqla, yalan və böhtanla, qərəzçiliklə, oğurluqla yoğrulmuş şəxsə inanmaq cinayətə bərabərdir.

Belə hesab edirəm ki, əsil elm adamı mərhələli tərbiyə nəzəriyyəsinə dair Nurəddin müəllimin fikri ilə Selivanovun fikrini müqayisəli təhlil edərdi, plagiat olduğunu sübut edərək mətbuata çıxarardı. Görünür, orada Nurəddin müəllimi ləkələmək üçün nəsə bir şey tapa bilməyib.

T.A.İlinanın fikirlərinə münasibətlə bağlı deyəcəyim sözlər də Gürcüstan akademikinin ümidini doğrultmayacaq. Hörmətli akademik yazır ki, İlinanın 1984-cü ildə nəşr olunan «Pedaqogika (Kurs leksiy)» kitabında tərbiyə prosesinin dörd mərhələsi var.

Belə hesab edək ki, İlinanın kitabında yazılanları akademik öz məqaləsində olduğu kimi təqdim etmişdir. Bu halda sual olunur: hörmətli akademik üçün maraqlı deyildimi ki, mərhələli tərbiyə nəzəriyyəsi barədə mənim və İlinanın fikirlərini müqayisə edəydi, plagiatlığı üzə çıxardaydı və haray salıb deyəydi: «Nurəddin müəllim məni oğru adlandırır, özü , budur, baxın, oğurluq edir».

Bəlkə akademik özlüyündə müqayisə edib, amma nəticə istəyinə uyğun gəlmədiyindən məqaləsinə əlavə etməyib. İcazənizlə, hörmətli akademik, sizin görməli olduğunuz işi mən icra edim ki, oxucular nigarançılıqdan azad olsunlar. Əlbəttə, İlinanın fikirləri ilə əlaqədar müqayisəni sizin məqaləniz əsasında aparmalı oluram.

Birincisi, sizin yazdığınıza görə, İlina tərbiyənin 4 mərhələdən ibarət olduğunu göstərir; Nurəddin müəllim isə 5 mərhələ (sizin «diqqətlə» nəzərdən keçirdiyiniz «Mərhələli tərbiyə nəzəriyyəsi», Bakı, «Əlfərül» nəşriyyatı, 2007, səh. 51). Əlbəttə, akademiki fərq maraqlandırmaz.

İkincisi, İlinanın tərbiyə mərhələlərinə dair fikrində «minimum» və «maksimum» hədd məfhumları yoxdur; amma Nurəddin müəllimin sistemində minimum və maksimum hədd məfhumları işlədilir, müvafiq olaraq 3 və 5 hədd müəyyənləşdirilib. Bu, mərhələli tərbiyə nəzəriyyəsinin dayaqlarından biridir. Bu cür incəlikləri elmdən uzaq olan adam ya görə bilməz, yaxud özünü görməməzliyə vurar.

Üçüncüsü, İlinanın sistemində əsas götürülən «davranış norma və qaydaları»dır; Nurəddin müəllimin sistemində isə «aşılanmalı milli və ümumbəşəri dəyərlər»dir. Bu fərq də sizə yaddır!

Dördüncüsü, İlinanın sistemində tərbiyə olunanlar yalnız şagirdlərdir; Nurəddin müəllimin sistemində isə - nəinki şagirdlərdir, bütövlükdə tərbiyə olunanlardır. Bu fərq də sevindirə bilməz sizləri, əziz Gürcüstan akademiki!

Beşincisi, akademiki sevincək edən İlinanın sistemində ilk mərhələ belə adlanır: «Şagirdləri davranış normaları və qaydaları ilə tanış etmək» ; Nurəddin müəllimin sistemində isə belə: «Aşılanması nəzərdə tutulan hər hansı milli mənəvi və ya ümumbəşəri dəyərin tərbiyə olunanlarda səviyyəsinin üzə çıxarılması». Bu fərqi də qeyri elm adamı çətin anlasın və ya anlamaq istəməsin.

Altıncısı, tərbiyənin digər mərhələlərinin adlandırılmasında da bu cür prinsipial fərqlər var. Onların da köklü fərqlərinin burada açılması hazırki rəyimizin onsuz da artıq olan həcmini daha da artırardı.

Yeddincisi, həqiqi elm adamı maraqlanardı, özünə sual verərdi: görəsən, tərbiyədə mərhələlər məfhumunun mahiyyətini İlina necə başa düşür, Nurəddin müəllim necə? Bu suala cavab axtaran elm adamı müəyyənləşdirərdi ki, İlinanın əsərində belə bir sual qoyulmayıb və deməli, cavab da yoxdur. Amma Nurəddin müəllimin adı çəkilən, lakin

ağız büzdüyünüz əsərində sual da var, ona cavab da. Belə: «Aşılanacaq milli və ya ümumbəşəri dəyərlə əlaqədar mənəvi - psixoloji hazırlığın səviyyəsinə nəzərən aparılan tərbiyə işindəki keçidlərə onun, yəni tərbiyənin mərhələləri deyilir» (səh. 51-52).

Bir də ki, hörmətə minmiş akademik, siz dənizi yox, dənizdə çör-çöp görməyə çoxdan alışmısınız.

Yuxarıda akademikin əvəzinə apardığımız müqayisəli təhlildən belə nəticə çıxır ki, Gürcüstan akademikinin son yaylım atəşi də hədəfdən yan keçmişdir.

Əgər bizim Gürcüstan akademiki oxu atıb yayı gizlətməsəydi, qollarını çırmayıb əsil elm adamı kimi, Selivanov və İlinanın fikirləri ilə Nurəddin müəllimin fikirlərini (müqayisə nəzəriyyəsinə uyğun) təhlil etsəydi, bəlkə milli qürur hissi onda baş qaldırardı, bəlkə pedaqoji ictimaiyyət qarşısında özünü bu qədər alçaltmazdı, qərəzçilik və paxıllıq mərəzindən azacıq da olsa uzaqlaşardı.

Milli pedaqogikada onlarla formalaşmış müasir yeni pedaqoji ideyaları görməməzliyə vurmaq ya əməlli-başlı mərəzdir, yaxud onlara tutarlı, məntiqli, sübutlu münasibət göstərmək Gürcüstan akademikinin gücündən kənardır. Bu, həqiqətdir və çoxları üçün aydındır. Bəs onda hamıya aydın olmayan nələrdir?

Aydın deyil ki, elmdə açıq-aşkar oğurluqla məşğul olan, başqasının malını özününküləşdirən «alimə» - olanı olmayan kimi, olmayanı olan kimi təqdim etməyi, həmkara şər atmağı, fikirdə saxtakarlığı, rus və gürcü adətlərini Azərbaycan adətlərindən üstün tutmağı, Sovet pedaqogikasının xiffətini çəkməyi, Azərbaycanda dərsdənkənar tərbiyə işlərini lüzumsuz hesab etməyi, Azərbaycan elmi-pedaqoji ictimaiyyətini sovet pedaqoji fikrinin təbliğatçısı adlandırmağı, dövlətlərarası inteqrasiya pərdəsi altında milli mənlik şüurunu kütləşdirməyə səy göstərməyi, gənclərə elmi-nəzəri biliklər əvəzinə yalnız əməli bilik və bacarıqların öyrədilməsini təbliğ etməyi, ənənəvi pedaqogikanın təməl sütunlarını dağıdaraq Azərbaycan reallıqlarına söykənib pedaqoji fikrə yeni ab-hava gətirmiş

Milli pedaqogikanı və onun təmsilçilərini mürtəce adlandırmağı özünə rəva bilən şəxsə nə üçün gözünün üstündə qaşın var deyən yoxdur? Hətta beləsinə himayədarlıq edənlər də tapılır?

Bu cür faktlar göstərmirmi ki, respublikamızda pedaqoji elmin yüksək təmsilçiləri arasında biganəlik, laqeydlik mövcuddur, haqq sözü demək xofu yaranmışdır? Hamı üçün aydın olmadımı ki, Qarabağ probleminin bu qədər qəlizləşməsinin köklü səbəblərindən biri məhz bəzilərimizdəki biganəlik olmuşdur?

Aydın deyilki, nə üçün sadalanan və hələ sadalanmayan nöqsanlar sahibinin eyni məqaləsi Azərbaycan Təhsil Problemləri İnstitutunun «Təhsil Problemləri» adlı və Respublika Təhsil Şurasının «Təhsil və zaman» adlı qəzetlərində geniş təbliğ edilmişdir?

Aydın deyil ki, həmin qəzetlərin rəhbərləri «Məktəb pedaqogikası» dərsliyi müddəalarının pedaqoji prosesdə tətbiqi üzrə işlərin təşkili barədə təhsil nazirinin 30 avqust 2007-ci il tarixli əmrinin olduğunu bildikləri halda açıq-aşkar oğurluqda və digər ciddi nöqsanlarda suçlanan «alimin» məntiqsiz məqaləsini çap etməklə nazirin əmrini qulaqardına vurublar, yoxsa onların başqa, daha samballı dəlilləri var?

Aydın deyil ki, elmi oğurluğu respublika qəzetlərinin birində üzə çıxarılmış şəxs necə olurki Azərbaycan Təhsil Problemləri İnstitutu nəzdində təşkil olunmuş müdafiə şurasına üzv, ali məktəbdə kafedra müdiri, elmi rəhbər təyin edilir?

Düşünən yoxdurmu ki, mənəvi cəhətdən iflasa uğramış şəxs tələbəyə, aspiranta, dissertanta nə öyrədə, onlardan nə tələb edə bilər? O, hansı cəhətdən nümunə ola bilər?

Aydın deyilmi ki, mənəviyyatı çökmüş abırsız şəxsə meydan vermək yaxşılara hörmətsizliyə bərabərdir?

Məni düşündürən daha çox bu qəbildən olan suallardır!

Son. Həmkarlardan biri məndən soruşdu:

Nurəddin müəllim, Paşayevin saxtakarlıqlar yolu ilə qisas cəhdinin məqsədi nə ola bilər?

Fikrimcə, sualınız iki mərhələlidir, geniş şərhə isə burada imkan yoxdur.

Qısaca, «qisas» məsələsinə gəlincə, Paşayev məndən yox, özü özündən qisas almalı, özü-özünü tərbiyələndirməlidir. Bildiyiniz kimi, onun özü öz təşəbbüsü ilə, bir müddət bundan əvvəl, AAK-a ərizə yazıb şikayətlənmişdiki, Azərbaycan pedaqoji ictimaiyyətində tənqid yoxdur. Onun ərizəsi, bildiyiniz kimi, geniş müzakirə olundu, fikrin ağ yalan, böhdan olduğu, olanın olmayan formasında verildiyi bir sıra yoldaşların, o cümlədən mənim çıxışımda səslənmişdi. Bir az keçəndən sonra Paşayevin «Pedaqogika. Yeni kurs» adlı «kitabı» çapdan çıxdı. Bu kitabın Podlasıy familiyalı rus mütəxəssisinin iki hissədən ibarət «Pedaqogika. Novıy kurs» adlı kitabının tərcüməsi olduğunu yəqin etdik. Mən bu Gürcüstan akademikinin ərizəsindəki istəyini nəzərə alıb, oğurluq məsələsini yüngülvari ictimayyətin nəzərinə çatdırdım. İndi bu akademikdən soruşun: AAK-a şikayət ərizəsini yazdıran və rusun kitabını isə oğurladan Nurəddin müəllim olub, yoxsa öz əməlinizin məhsuludur? Akademikdən soruşun: törətdiyiniz əməllərdən ötrü qisas Nurəddin müəllimdən alınmalıdır, yoxsa özünüzdən?

Məqsəd məsələsinə gəldikdə deməliyəm: onun məqsədi çoxdur. Birinci məqsəd-pedaqoji ictimaiyyətin diqqətini öz oğurluq əməllərindən yayındırmaqdır; ikinci məqsəd – oxucuların diqqətini Nurəddin müəllimə yönəldərək öz oğurluğunu unutdurmaq istəyidir; üçüncü məqsəd - yeni, orijinal pedaqoji ideya ortaya qoya bilmədiyini ört-basdır etməkdir; dördüncü məqsəd-məqaləsinin başlığında gizlənmişdir: başlıqda Milli pedaqogika, tərbiyə nəzəriyyəsi və mərhələli tərbiyə nəzəriyyəsi ifadələri dırnacıqlarda verilmişdir. Bu, təbiidir. Çünki, yenilik qabiliyyətindən məhrum olan şəxs başqasının yeni ideyaları ilə rastlaşanda allergiyası qalxır. Beşinci məqsəd- bəzi həmkarlarımızda müşahidə olunan biganəliyə bel bağlamaqdır. Altıncı məqsəd- bizim çoxlarımızda hələ də özünü göstərən unutqanlığa ümid bəsləməkdir. Dağlıq Qarabağın düyünə

düşməsinin ciddi səbəblərindən birisi məhz hadisələrə vaxtında, yerindəcə, açıq, kəsgin münasibət bildirməməyimiz olmuşdur. Yeddinci məqsəd- danışan əsas Nurəddin müəllim olduğundan, onun ünvanına yalanlar uydurmaqla, ona böhdanlar yağdırmaqla, şər atmaqla bəlkə susdurmaq mümkün oldu. Amma, atalar əbəs yerə deməmişlər: yalan ayağ tutar, yeriməz!

Düşünmək olarki, yuxarıda adlarını çəkdiyimiz qəzet rəhbərləri ya Gürcüstan akademikinin məkrli məqsədlərini duymamışlar, yaxud da duyublar, ürəklərinə yatdığından üstünü vurmamışlar.

İndi Gürcüstan akademikinin iki real yolu qalıb: ya elmdə oğurluq etdiyini pedaqoji ictimaiyyət qarşısında mərdi- mərdanə etiraf edib üzr istəmək və ya onu elmi oğurluqda «əsassız» suçlayan Nurəddin müəllimi məhkəməyə vermək. Əks təqdirdə, oğurluq məsələsini hüquq müstəvisinə qaldırmaq məcburiyyətində qalacayıq və Gürcüstan Təhsil Elmləri Akademiyasını da oğurluqla əlaqədar «təbrik» etməli olacayıq.

# KİTABIN İÇİNDƏKİLƏR


TƏRTİBÇİDƏN.................................................... 3

I. PARTİYA VƏ DÖVLƏT SƏNƏDLƏRİNDƏKİ FİKİRLƏRƏ PEDAQOJİ MÜNASİBƏT

1. Təhsil sisteminə aid yeni sənəd.......................... 7
2. Xalq maarifinin inkişafı üçün........................... 12
3. Sov.İKP XXVI qurultayı və pedaqoji elmlərin vəzifələri........................................................ 13
4. Sov.İKP XXV və XXVI qurultayları ideya-siyasi, əmək, mənəvi tərbiyənin vəhdəti, tərbiyəyə kompleks yanaşma haqqında................... 34
5. Sov.İKP MK-nın iyun plenumu və xalq maarifi məsələləri.......................................... 47
6. Ümumtəhsil və peşə məktəbi islahatı bütün xalq maarifi sistemi inkişafının keyfiyyətcə yeni mərhələsidir............................................. 54

II. TƏHSİL HAQQINDA QANUNUN MÜDDƏALARINA MÜDAXİLƏ

7. Maarif dəqiqlik, həm də yaradıcılıq tələb edir... 66
8. Təhsil axıradək vahid olmalıdır....................... 69
9. Nöqsanlar da az deyil..................................... 72
10. Konsepsiya, yoxsa qanunvericiliyin əsasları?.... 76
11. Təhsil haqqında qanun təkmilləşdirilməlidir..... 79
12. Müstəqil dövlətə müstəqil təhsil qanunu gərəkdir........................................................ 83
13. Bu günümüz və gələcəyimiz naminə................. 89
14. Təhsil qanunu layihəsi: pedaqoji cəhətdən təkmilləşdirilməyə ehtiyac var............................... 93
15. «Təhsil haqqında qanun» layihəsinə dair mülahizələrim......................................................... 100
16. «Təhsil haqqında» qanun layihəsində ciddi nöqsanlar var................................................ 106
17. Təhsil islahatının bəzi elmi-nəzəri məsələləri..... 110

18. Təhsil haqqında qanunun son (2007-ci il) layihəsi haqqında bəzi qeydlər................................ 114

## III. SİYASİ MƏSƏLƏLƏRƏ MÜDAXİLƏ

19. Закон о суверенитете должен действовать во всех отношениях................................................ 119
20. Sənədin tərbiyəvi imkanlarından istifadə edilməlidir............................................................ 124
21. Dərindən öyrənmək ümdə borcumuzdur........... 127
22. Десять вопросов госпоже Старовойтовой......... 131
23. Gözləmə diplomatiyası nə deməkdir?............... 133
24. Ermənistan dövlətinin siyasəti tarix boyu təxribat, yalan və böhtan əsasında qurulub............. 134
25. Müqavimət..................................................... 137
26. Генеральному Секретарю ЦК КПСС Горбачову Михаилу Сергеевичу................................. 148

## IV. İCTİMAİ PEDAQOJİ MƏSƏLƏLƏRƏ MÜNASİBƏT

27. Elmlərin qeyri elmi qruplaşdırılmasına dair (iyirmi bir sual)................................................ 167
28. Milli Pedaqoji Elmlər Akademiyası?................ 172
29. Это тоже провокация......................................... 175
30. Lissabon zirvə görüşü: uğurlar......................... 176
31. Həyanlıq hissi-mənəvi xəzinədir....................... 180
32. Hörmət və ehtiramın sirri................................. 184
33. Etibarlı təminat olmalıdır................................ 187
34. Müəllimlər qurultayından nə gözləyirəm?......... 189
35. Müasir ideoloji mübarizə və kommunist tərbiyəsinin bəzi məsələləri..................................... 194
36. Сокращенный Текст доклада Н.Кязымова на тему: «О некоторых путях повышения качества учебно-воспитательной работы в свете Постановления ЦК КПСС и Совета Министров СССР о мерах дальнейшего улучшения работы средней общеобразовательной школы»...................... 211

**37.** Yeni tədris planları hazırlamağın konsepsiyası yaradılmalıdır. Necə?........................................ **225**
**38.** О проекте программы по русскому языку для V-VIII классов Азербайджанской восьмилетней школы........................................................ **227**
**39.** Alver, yoxsa halal zəhmət................................ **233**
**40.** Pedaqoji mühazirələrin quruluşu haqqında...... **235**
**41.** Təşəbbüskarlıq və yaradıcılıq artırılmalıdır...... **239**
**42.** Mühüm məsələyə həsr olunan müzakirə........... **245**
**43.** Pedaqoji xalq universitetləri haqqında.............. **248**
**44.** Pedaqoji bilik xalq universitetlərində məşğələlərin təşkilini daha da təkmilləşdirmək haqqında... **261**
**45.** Об условиях формирования педагогических способностей у студентов................................. **268**
**46.** Əgər xalqını sevirsənsə onun dilini mükəmməl öyrən və qoru................................................... **271**
**47.** Дорога к мастерству........................................... **275**
**48.** Beynəlmiləl ailənin qəzeti................................. **279**
**49.** Dilin zənginliyi də vacibdir.............................. **281**
**50.** Həyəcan təbili: təlim geriləyir, yaxud pedaqoq alimin təəssüratları........................................... **285**
**51.** Bir məsələyə dair iki anlayış............................. **294**
**52.** Yeni bina, yeni arzu, yeni nəfəs........................ **297**
**53.** Qarşılıqlı təkmilləşmə qovşağı......................... **298**

## V. PEDAQOJİ ELMDƏ SAXTAKARLIĞA QARŞI

**54.** Elm oğrusu adamları nələrə və nə üçün təhrik edir?............................................................ **301**